SƏADƏT DAVUD QIZI MƏMMƏDOVA

# SOSİAL PROQNOZLAŞDIRMA VƏ LAYİHƏLƏŞDİRMƏ

## (dərs vəsaiti)

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 iyun 2009-cu il tarixli 653 №-li əmri ilə dərs vəsaiti kimi təsdiq olunub.**

«ELM» nəşriyyatı
B A K I – 2 0 0 9

**Elmi redaktor:** fəlsəfə elmləri doktoru, professor
**İzzət Rüstəmov**

**Rəyçilər:** əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor
**Cəmil Əhmədli**

fəlsəfə elmləri namizədi, dosent
**Tahir Ağayev**

sosiologiya elmləri namizədi
**Yaqut Əliyeva**

**Səadət Davud q. Məmmədova.** Sosial proqnozlaşdırma və layihələşdirmə (dərs vəsaiti). Bakı: «Elm», 2009. – 292s.

ISBN 978-9952-453-18-8

Təqdim olunan dərs vəsaiti sosial proqnozlaşdırma və sosial layihələşdirmə ilə bağlı tədqiqatlar əsasında tərtib olunsa da, burada Azərbaycanda gələcək haqqında ideyaların inkişaf tarixi, müasir dövrdə Azərbaycanda baş verən sosial dəyişikliklər prosesinin proqnozlaşdırılması istiqamətləri və bir sıra digər mövzulara diqqət ayrılır.

Dərs vəsaitinin hazırlanmasında əsasən İ.V.Bestujev-Lada ilə A.Q.Namestnikovanın «Sosial proqnozlaşdırma» və İ.V.Kurbatov ilə O.V.Kurbatovanın birgə müəllifləri olduqları «Sosial layihələşdirmə» kitabları istifadə edilib. Dərs vəsaiti tələbələr, aspirantlar, müəllimlər, elmi işçilər və mövzu ilə maraqlanan digər şəxslər üçün nəzərdə tutulur.

**M** $\frac{\textbf{0302000000}}{\textbf{655(07)-2009}}$

© Məmmədova S.D. 2009

## MÜNDƏRİCAT

Redaktordan ------------------------------------------------------------------------5

**SOSİAL PROQNOZLAŞDIRMA**

**Mövzu 1.** Sosial proqnozlaşdırmanın tarixi əsasları----------------------------6

1.1 Sosial proqnozlaşdırmanın əmələgəlmə və inkişaf şəraiti-----------------6

1.2 XIX – XX əsrlərdə sosial proqnozlaşdırma--------------------------------12

1.3 Proqnozlaşdırma ilə bağlı müasir tədqiqatlar. Qlobalistika və alternativistika-------------------------------------------------------------------16

1.4 Antifuturoloji istiqamət------------------------------------------------------20

1.5Gələcəyə futurosinergetik yanaşma-----------------------------------------27

1.6 Azərbaycanda gələcək haqqında fikirlərin inkişaf istiqamətləri--------31

**Mövzu 2.** Texnoloji proqnozlaşdırmanın metodologiyası (proqnozların forma və tipləri)------------------------------------------------------------------37

**Mövzu 3.** Sosial proqnozlaşdırmanın obyekti, prinsipləri--------------------48

**Mövzu 4.** Tədqiqat proqramlarının hazırlanması (proqnozdan əvvəlki yönəlmə)---------------------------------------------------------------------------51

**Mövzu 5.** İlkin modelin qurulması və onun analizi. Proqnoz fonu modelinin qurulması------------------------------------------------------------56

**Mövzu 6.** Kəşfiyyat proqnoz---------------------------------------------------71

**Mövzu 7.** Normativ proqnoz. Proqnozun verifikasiyası. İdarəetmə üçün tövsiyyələr--------------------------------------------------------------------------78

**Mövzu 8.** Proqnozlaşdırma metodları-----------------------------------------89

**Mövzu 9.** Sosial proseslərin proqnozlaşdırılması-----------------------------97

9.1 Sosial siyasi proseslərin proqnozlaşdırılması xüsusiyyətləri------------97

9.2 Sosial iqtisadi proseslərin proqnozlaşdırılması xüsusiyyətləri---------110

9.3 Mənəvi-mədəni proseslərin proqnozlaşdırılması xüsusiyyətləri------127

9.4 Müasir sosial proqnozlaşdırma------------------------------------------139

**SOSİAL LAYİHƏLƏŞDİRMƏ**

**Mövzu 10.** Sosial layihələşdirmənin inkişaf tarixinə dair-------------------143

**Mövzu 11.** Sosial layihələşdirmə: təbiəti, mahiyyəti, metodologiyası----152

**Mövzu 12.** Sosial layihələşdirmə nəzəriyyəsinin əsasları-------------------160

**Mövzu 13.** Sosial layihələşdirmənin strategiyası və alətlər kompleksi----167

**Mövzu 14.** Sosial layihələşdirmənin formaları-------------------------------176

**Mövzu 15.** Planlaşdırma sosial layihələşdirmənin formalarından biri kimi-------------------------------------------------------------------------------183

**Mövzu 16.** Sosial layihələşdirmənin sosial texnoloji metodları------------198

**Mövzu 17.** Sosial layihələşdirmənin avtomatlaşdırılması və riyazi modelləşdirilməsi-----------------------------------------------------------------204
**Mövzu 18.** Sosial proseslərin layihələşdirilməsi-------------------------------215
18.1 Sosial layihələşdirmə və sosial yeniliklər---------------------------------215
18.2 Sosial mədəni layihələşdirmə----------------------------------------------224
18.3 Sosial münasibətlər və sosial davranışın layihələşdirilməsi-----------238
18.4 Normativ – hüquqi layihələşdirmənin əsasları-------------------------251
18.5 Miqrasiya davranışın layihələşdirilməsi prinsipləri--------------------255
18.6 Seçici davranışının layihələşdirilməsi------------------------------------261
18.7 Sosial təhsil: təhsil prosesinin layihələşdirilməsi------------------------265
18.8 Həyat tərzi sosial layihələşdirmənin obyekti kimi---------------------271
**Mövzu 19.** Fərdi layihənin hazırlanması--------------------------------------276

## REDAKTORDAN

Bəşəriyyət yarandığı gündən dəyişikliklər və yeniləşmə kimi fundamental inkişaf meylləri onu müşayiət etmişdir. XX əsrin son on illikləri dünyanın, bəşəriyyətin iqtisadi, siyasi, mədəni inkişafına prinsipcə yeni xüsusiyyətlər gətirmişdir. Müasir bəşəriyyəti səciyyələndirən əsas xüsusiyyət onun köklü transformasiyalar mərhələsini yaşaması, bütün sahələrdə fasiləsiz dəyişikliklərin təsirinə məruz qalmasıdır. Cəmiyyət və insan demək olar ki, hər gün «yenilik – qeyri-müəyyənlik - seçim» şəraitində mövcuddur, fasiləsiz transformasiyalar prosesi hər birimizi müşayiət edir. Səbəb isə mövcud inkişaf modellərinin labüd dəyişikliyə uğramasıdır. Bu inkişafın müxtəlif məqamlarının tədqiqi, real proseslərin dinamikasının, sosial potensialın müəyyən edilməsi tələbatı və s. proqnozlaşdırmanın bir elm kimi inkişafını zəruri edir. Müasir bəşəriyyətin təzadlı inkişafı, gələcək qarşısında təhlükə hissi proqnozlaşdırma fenomenini aktuallaşdırır, bütün sahələrdə inkişafın elmi əsaslandırılmış proqnozlar əsasında məqsədəuyğun yönəldilməsini, gələcəyin istiqamətləndirilməsi sahəsində proqnoz və layihəli tədqiqatların genişləndirilməsini və uyğun ixtisaslı kadrların hazırlanmasını zərurətə çevirir. Bu baxımdan, «Sosial proqnozlaşdırma və layihələşdirmə» kursunun tədrisi və bu sahədə kadrların hazırlanması günün vacib tələbi kimi xüsusi aktuallıq kəsb edir.

S.D.Məmmədovanın «Sosial proqnozlaşdırma» və «Sosial layihələşdirmə» başlıqlı iki hissədən ibarət olan və proqnozlaşdırmanın əmələgəlmə və inkişaf şəraiti, proqnozlaşdırma ilə bağlı müasir tədqiqatlar, texnoloji proqnozlaşdırmanın metodologiyası, proqnozların forma və tipləri, sosial proqnozlaşdırmanın obyekti, prinsipləri və s., o cümlədən sosial layihələşdirmənin metodoloji əsasları, sosial layihələşdirmənin təbiəti, mahiyyəti, sosial layihələşdirmənin strategiyası və alətlər kompleksi, formaları, texnoloji metodları, avtomatlaşdırılması və riyazi modelləşdirilməsi xüsusiyyətləri və s. özündə əks etdirən «Sosial proqnozlaşdırma və layihələşdirmə» mövzusunda təqdim etdiyi dərs vəsaiti bu baxımdan aktuallıq kəsb edir. Dərs vəsaitində diqqətəlayiq tərəflərdən biri də Azərbaycanda gələcək haqqında fikirlərin formalaşması tarixinin, müasir qloballaşma şəraitində Azərbaycanda sosial, siyasi, iqtisadi inkişaf istiqamətlərinin təhlili ilə bağlıdır.

fəlsəfə elmləri doktoru, professor **İzzət Rüstəmov**

# SOSİAL PROQNOZLAŞDIRMA

## Mövzu 1. SOSİAL PROQNOZLAŞDIRMANIN TARİXİ ƏSASLARI

### 1.1 SOSİAL PROQNOZLAŞDIRMANIN ƏMƏLƏGƏLMƏ VƏ İNKİŞAF ŞƏRAİTİ

İnsanlar fərqli zaman və fərqli məkan haqqında düşünməyə başladıqdan sonra gələcək haqqında dini, utopik və fəlsəfi-tarixi istiqamətlər inkişaf etdi.

Arxeoloji və etnoqrafik mənbələr göstərir ki, ibtidai şüur uzun müddətli inkişaf mərhələsindən sonra keçmiş və gələcək haqqına düşünməyə başlamışdı. İbtidai dövrdə yalnız indiki zaman mövcud idi, keçmiş və gələcək indiki zamana çox yaxın vaxt müddəti kimi qəbul edilirdi, yəni uzaq gələcək haqqında düşünmək bacarığı inkişaf etməmişdi. Gələcək haqqında məlumat vermək və gələcəyə təsir etmək üçün cadugərlərə müraciət olunurdu.

İnsanlar uzun müddət indiki və gələcək zamanı eyniləşdirirdilər, yəni hər hansı gələcək heç bir dəyişikliklər gözlənilməyən sonsuz davamlı indiki zaman idi. Gələcək haqqında ilkin mifoloji təsəvvürlərdə sadə təbiət hadisələrilə bağlı fantastik məlumatlar verilirdi. Dünya haqqında mifik modellərdə tarixi prosesin dövrü inkişaf xətti izlənilir: doğuluş (törəmə) – inkişaf (artım) – tənəzzül (azalma) – ölüm (yox olma).

Misir miflərində «ilkin zaman» dünyanın yaradılışı ilə başlayır. Əvvəlcə allah Xepri dünyaya gəldi, «ilkin materiyadan özünü yaratdı», sonra isə dünyada olanları yaratdı. Misir miflərində inkişaf və tənəzzül allahların fəaliyyətinin nəticəsi kimi izah olunurdu. «Ölkə tənəzzül dövründə idi. Allahlar bu ölkədən üz döndərmişdilər».

Şumerlər isə tarixi – firavanlıq və sülh mərhələsi olan ibtidai icma dövrünə və tənəzzül və aşınma mərhələsi olan mövcud inkişaf mərhələlərinə bölürdülər. Şumerlər bütün təbiət və sosial dəyişiklikləri ayrı-ayrı allahların fəaliyyətlərilə əlaqələndirirdilər.

Hind miflərində bəşəriyyətin yaradılışının dörd mərhələsi fərqləndirilirdi: Qızıl dövrü (Kritayuqa), Gümüş dövrü (Tretayuqa), Miss dövrü (Dvaparayuqa), Dəmir dövrü (Kaliyuqa). Hər bir dövr inkişaf və tənəzzül mərhələlərinə bölünür.

Çin miflərində də tarixi inkişaf prosesinin dövrü (tsiklik) inkişaf xətti izlənilir. Varlıq **yaranma – inkişaf – tərəqqi – tənəzzül – böhran – məhv olma** mərhələlərini yaşayır. Bu miflərədə göstərilir ki, inkişaf və xaos müvəqqəti vəziyyət kimi daimi mövcud ola bilməz, onlar daim bir-birinə

müqavimət göstərir və bu tərəqqinin hərəkətverici qüvvəsinə çevrilir. Ziddiyyətlərin vəhdəti harmoniya yaradır.

Yunanlar əmin idilər ki, işığın yaranması zamanı yaratmışdır. Yunanlar da bəşəriyyətin qızıl dövrünün təsvirini verirdilər.

Türklərdə də universumun yaranışı, allahların fəaliyyəti ilə əlaqələndirilirdi. «Bəyaz yaradıcı» torpağı, havanı və insanları yaratmışdı və onların yaşamağına kömək etmişdi.

Miflərdə ilkin əşyalar, ilkin fəaliyyətlər və ilkin yaradılışın tsiklik təsviri veriilirdi.

Mifik dünyagörüşü əsasında gələcək haqqında dini konsepsiyalar formalaşmışdı. Dünyəvi dinlərdə gələcəklə bağlı təsəvvürlərin formalaşması iki mərhələyə bölünür:

1)e.ə. 1 minillikdə formalaşmış dinlərdə gələcək haqqında məlumatlar;

2)eramızın I minilliyində formalaşmış dinlərdə gələcək haqqında təsəvvürlər.

Buddizmdə tarixi inkişaf mərhələsinin qızıl, gümüş və dəmir dövrləri fərqləndirilir, bu prosesdə yeni əxlaqi dəyərlər və qaydaların tənzimləyicisi olan tarixi şəxsiyyətin, siyasi liderin rolu vurğulanır və sosial dəyişikliklər mənəviyyatda baş verən durğunluqla əlaqələndirilir. Burada boşluq, yaxud xaos dövrü həm tənəzzülün son mərhələsi, həm də inkişafın başlanğıcı kimi təsvir edilir.

Yahudilərin müqəddəs kitabı olan «Talmud» müəyyən tarixi dövrdə (e.ə. I minillikdə) sosial məkan və sosial zaman münasibətlərinin, həmçinin tənzimlənən sosial münasibətlərin tarixi inkişaf prosesinə təsirinin öyrənilməsi baxımından çox qiymətli dini mənbədir. Dini kitablarda təsvir edilən sosial zaman adətən keçmişdən gələcəyə doğru yönəlir, dünyanın yaranması ilə başlanan zaman dünyanın dağılmasına, yəni qiyamət gününə qədər davam edir.

Xristianlıqda da dünyanın varlığın əvvəli və sonu olan Allah tərəfindən yaradıldığı qəbul edilir. Yaradılanadək dünya formasız və boş idi, yəni dünyada xaos hökm sürürdü: «Allah əvvəlcə səmanı və torpağı yaratdı… Torpaq formasız və boş idi, uçurum üzərində qaranlıqlar» (Əhdi-ədiq. Varlıq. I Fəsil). «Hər şey tozdan yarandı və hər şey toza çevriləcək» (Eklesiatın, yaxud vaizin kitabı).

Quranda kainatın, makro və mikro dünyaların sonsuz vakuumdan yaranması fikri irəli sürülür. Bu vakuum yaradıcı başlanğıca malik olan xaos kimi müəyyənləşdirilə bilər. Allah bu xaosdan üstün olub, bütün mövcudatı, o cümlədən vakuum və xaotik başlanğıcı idarə edir. Sivilizasiyaların yaranması, inkişafı və süqutu Allah tərəfindən müəyyənləşdirirlir. Bütün mövcudatın

məkanı və zamanı nəsilləri ardıcıl olaraq bir-birilə əvəzləyən Allah tərəfindən müəyyən və idarə edilir. Quranda canlı həyatın dövri (tsiklik) inkişafı təsvir və təhlil edilir: «Allah ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir» (S.30, 19). Allah bəşəriyyəti yaratmışdır və onun məhv olma vaxtı, yəni qiyamət, yaxud mühakimə günü yalnız Allaha məlumdur, qiyamət günündən sonra yer üzündə əmin-amanlıq hakim olacaq. Mövcud dünyada Allah cəmiyyətlərin tənəzzülünü və inkişafını tənzimləyir.

Dini təsəvvürlər gələcək haqqında utopik istiqamətlərin və tarixi-fəlsəfi konsepsiyaların inkişafının əsası oldu. Utopik konsepsiyalar e.ə. 1 minillikdə formalaşmağa başlamışdı. Utopik konsepsiyalar dini konsepsiyalardan «fərqli gələcək», fövqəlbəşər qüvvələrin təyin etdiyi deyil, insanların özlərinin qurduğu, onların dünyagörüşü və fəaliyyət səviyyəsinə uyğun formalaşırdı. Utopiyaların əksəriyyəti gələcək cəmiyyət quruluşu, elm, texnika, səhiyyə və s. inkişafı ilə bağlı məsələləri əks etdirir. Hələ qədim Çində «Datun», yaxud Böyük vəhdət, Böyük harmoniya və «Taypin», yaxud Böyük tarazlıq anlayışları yaranmışdı. Texniki utopiyalar hələ XIII əsrdə R.Bekonun əsərlərində öz əksini tapmışdı və XVII əsrdə bu fikirlər F.Bekonun əsərlərində inkişaf etdirilmişdi.

Mahiyyətinə görə ibtidai icma və quldarlıq dövrləri, feodalizm, kapitalizm, sosializmlə bağlı utopiyalar fərqləndirilir. «Fərqli dünya» haqqında utopik təsəvvürlər hələ e.ə. 1 minillikdə Qədim Yunanıstan və Çində, Misirdə, İranda və Hindistanda formalaşmışdı. Burada nəsli quruluş ideallaşdrılır, yaxud quldarlıq, sonralar isə feodalizm «rasionallaşdırılırdı».

Gələcək haqqında utopik təsəvvürlərin ikinci inkişaf mərhələsi XI-XIII əsrlərə aiddir. Bu dövrdə Yaxın və Orta Şərqdə Əl-Fərabi, Nizami, Füzuli və başqalarının əsərlərində gələcək və ya daha yaxşı cəmiyyət haqqında təsəvvürlər öz əksini tapmışdı. Sonradan bu inkişaf XIX-XX əsrin əvvəlinədək nəzərəçarpmayacaq forma almışdı.

Üçüncü mərhələdə XVI–XVII əsrin əvvəllərində İntibah və Maarifçilik dövrlərində Qərbdə sosial inkişaf haqqında utopik fikirlər geniş yayıldı. Bu T.Morun «Utopiya» əsərindən Melyenin «Vəsiyyətnamə» və Volterin «Fəlsəfi məktublar» əsərlərinə qədər davam etmişdi. Məhz utopiyalar XVI-XVII əsrlərdəki burjua inqilablarının ideologiyasına çevrilmişdi.

Dördüncü mərhələ XVIII əsri əhatə edir. Yeni dövr fəlsəfəsinin görkəmli nümayəndləri olan F.Bekon, Hobss, Dekart, Spinoza, Lokk və başqaları və maarifçilik dövrünün görkəmli nümayəndələri olan Volter, Russo, Monteskyö, Holbax, Helvetsi, Didro, Lessinq, Şiller, Cefferson, Franklin, Novikov, Radişev və digərlərinin əsərlərində gələcək haqqında düşüncələr öz əksini tapmışdır.

Beşinci mərhələ XIX əsrin birinci yarısını əhatə edir. Bu dövrün görkəmli nümayəndələri olan Sen-Simon, Furye, L.Blan, Kaabe, Dnzami, Veytlinq və başqaları utopik sosialistlər idi. Bu dövrdə Böyük Fransa inqilabı tənqidi analiz edilirdi və utopizmin tənəzzülü aydın nəzərə çarpırdı. Rusiya və bir sıra Şərq ölkələrində XX əsrin birinci yarısınadək utopik sosializm ideyaları qalmaqda idi. XX əsrdə utopik sosializmin Morris, Bellami, Zolya, Frans, Uells, C. London və s. kimi nümayəndələri meydana çıxmışdı.

Altıncı mərhələ XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərini əhatə edir və marksist və anarxist utopiya arasında mübarizə dövrü kimi xarakterizə olunur. Marksizm inqilabi hərəkata çevrilib «sosializm utopiyasının» reallaşmasına gətirib çıxarmışdı. Anarxizmin kökləri XVII-XVIII əsrlərin utopik fikirlərinə söykənirdi və patriarxal icma münasibətlərinin ideallaşdırılması ilə bağlı idi. XIX əsr anarxizmi Qodvin, Prudon Ştirner, Bakunin, Kropotkin, Reklö, Qrav, Karelin, Forun əsərlərində inkişaf etdirilmişdi və «azad federasiya» qurulması fikrinə əsaslanırdı.

Yeddinci mərhələ 1917-ci ildən – bu günə qədərki dövrü əhatə edir. Bu dövrdə marksizm-leninizm utopiyasının reallaşması və süqutü baş vermişdi.

Qeyd etmək lazımdır ki, utopizmdə gələcəyin detallı təsviri, ideal sxemi yaradılır, gələcək nəsilin «davranış qaydaları» müəyyənləşdirilirdi. Bəşəriyyətin gələcək inkişafı ilə bağlı utopik baxışlar sırasına liberal reformizmin müxtəlif istiqamətləri də daxildir. Qarrinqtonun «Okeaniya» əsəri, Bentam, Q.Corc, Qertski və başqalarının əsərləri bu tiplidir.

Karleyl, Dizrali, Reskin və başqalarının feodal sosializm nəzəriyyəsində utopistlər ideallaşdırılmış orta əsrlərə qayıdışı təsvir edirdilər. Bu nəzəriyyənin əsasında Lamenne və başqalarının xristian sosializmi konsepsiyası dururdu. XIX əsrin əvvəllərində bu cərəyan müstəqil xüsusiyyət kəsb edərək, burjua utopizminə çevrilmişdi. Quldarlıq və feodalizm dövrü utopiyaları ictimaiyyətin antiutopizm kimi qiymətləndirdiyi faşizmlə əvəz olunmuşdu.

Qərbdə və ABŞ-da texnokratik və reformist utopizm ideyalarının reallaşdırılması ilə bağlı bir sıra klublar yaranmışdı. XX əsrin 20-ci illərində Sialkovskinin «Bəşəriyyətin ictimai təşkili» adlı əsərində Yer kürəsinin yenidən qurulması və kosmik məkanın məskunlaşması ideyaları, elmi-texniki tərəqqinin müsbət keyfiyyətləri öz əksini tapırdı. Sonrakı dövrlərdə ideya baxımından zəifləyən utopiyalar elmlə rəqabət apara bilmədiyi üçün tənəzzülə uğrayırdı.

Keyns və onun tərəfdarları olan keynsiançılar və yeni keynsiançıların utopik ideayaları isə iqtisadi inkişafla bağlı idi. Müasir dövrdə Asiya, Afrika, Amerika sosalizmi ideyaları da utopizmin xüsusi forması kimi qəbul edilir.

Həmçinin marksizm, leninizm, maosizm və s. sosial utopiyanın müxtəlif formaları kimi qəbul edilir.

Tarixi inkişaf prosesi, bəşəriyyətin gələcəyi ilə bağlı fəlsəfi-tarixi konsepsiyaların inkişafı e.ə. 1 minilliyə aiddir. Fəlsəfi-tarixi proqnozlaşdırma konsepsiyalarında «qızıl dövrdən» başlanan tənəzzül, mədəniyyətlərin sonsuz dövrü yüksəlişi və süqutu, sadədən mürəkkəbə doğru inkişaf və s. ideyalar üstünlük təşkil edir. Qədim Hind (Çarvaka və Sankxya məktəbləri), Çin (Men tszı, Çjuan tszı) və Qədim Yunan fəlsəfəində (Hesiod, Platon, Aristotel) dünyanın keçmişi, mövcud vəziyyəti və gələcəyi ilə bağlı əbədi təkamül mərhələlərinə dair hadisələr təsvir olunurdu. Sonralar «qızıl dövr» konsepsiyası əsasında Kiniklər və stoiklərin «təbii vəziyyət» nəzəriyyəsi inkişaf etmişdi. Sofistlər, sonralar Demokrit və Epikür tərəqqi ideyasını bu fikrə qarşı qoyurdular. Həm stoiklər, həm də epikürçülər tarixi prosesdə determinizm ideyasını irəli sürürdülər və «ictimai razılıq» nəzəriyyəsini inkişaf etdirmişdilər. E.ə. II əsrdə Polibi tsikillər nəzəriyyəsini işləmişdi və bir çox tarixçilər Qumploviç, Pareto, Şpenqler, Sorokin, Toynbinin anoloji konsepsiyalarını məhz Polibinin fikirərinin inkişafı kimi qiymətləndirirlər. Seneka, Siseron, Vergili, Tibul, Ovidi və başqaları «qızıl dövrdən» başlanan tənəzzül konsepsiyasına qarşı Lukretsinin tərəqqi konsepsiyası qoyulmuşdu.

Orta əsrlərdə dini təşkilatların siyasi həyatdakı üstünlük uğrunda mübarizə aparan döyüşkən klerikalizm tənəzzül konsepsiyasından başqa digər konsepsiyaları inkar edirdi. Orta əsrlərin sonlarına doğru yenidən tərəqqi konsepsiyaları inkişaf etməyə başlamışdı. Bu dövrdə R.Bekonun texniki tərəqqi və İbn Haldunun tsiklik nəzəriyyələri işlənmişdi.

İntibah və Maarifçilik dövrlərində tsikllər və tərəqqi nəzəriyyələri yeni inkişaf mərhələsinə qədəm qoyur. Boden, Leybnist və Lessinq kimi filosoflar tərəqqini ilahi əsaslarla, Monten, F.Bekon və Spinoza isə maddi əsaslarla bağlayırdılar. Volterdən başlayaraq tarixin fəlsəfəsi yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Tyurqo, Kondorse, Qodvin tərəqqini əqlin kamilləşməsi və xarici amillərin təsiri əsasında izah edirdilər. Qerder tarixi inkişafın qanunauyğunluqlarını coğrafi amillərlə bağlasa da bəşəriyyətin taleyində Allahın həlledici rolunu da qəbul edirdi. Kantın tərəqqi ideyaları teoloji ideyalarla qarışırdı. Fixte tərəqqini sosial-siyasi prinsiplərlə əlaqələndirirdi. Heqel tarixi «dünya ruhunun ali təzahür» forması kimi izah edirdi və keçmiş tərəqqini qəbul etsə də, gələcək tərəqqini inkar edirdi.

**YOXLAMA SUALLAR**

1.Bəşəriyyətin ilkin inkişaf mərhələsində gələcək haqqında ideyalar hansı istiqamətdə inkişaf edirdi?

2.Proqnozlaşdırma nəzəriyyəsinin dini əsasları nə ilə fərqlənirdi?
3. Gələcək haqqında utopik fikirlərin inkişaf mərhələlərini sadalayın.
4.Proqnozlaşdırma nəzəriyyəsinin fəlsəfi-tarixi kökləri hansı əsaslarda formalaşırdı?

**REFERAT MÖVZULARI**

1. Futurofobiya ibtidai təfəkkür tərzinin törəməsi kimi
2. Gələcək haqqında dini konsepsiyalar
3.Dini-fəlsəfi ideyaların utopizmin və idealist fəlsəfənin inkişafına təsiri
4.Utopist konsepsiyaların meydana gəlməsi
5..İntibah və maarifçilik dövrlərində gələcək haqqında ideyaların inkişafı

**ƏDƏBİYYAT:**

1.Бадж У. Легенды о египетских богах. Изд.:Рефл–бук, Ваклер, М., 1997.
2.Баталов Э.Я. В мире утопии: Пять диалогов об утопии, утопическом сознании и утопических экспериментах. М., Политиздат, 1989.
3.Баталов Э.Я. Социальная утопия и утопическое сознание в США. М., 1982.
4.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
5.Жуковская Н.Л. «Пространство и время в мировоззрении монголов», Мифы, культы, обряды народов зарубежной Азии., изд.: «Наука», М., 1986, (Сборник статей).
6.Литература Древнего Востока. Тексты. Изд.: МУ, М., 1984.
7.Мифы Древней Греции, М., «Наука», 1973.
9.Мифы Древней Индии. М., «Наука», 1975.
10.Мифы народов мира. изд.: Советская энциклопедия, М., 1982.
11.Никитина А.Г. Предвидение как человеческая способность. М., Эврика, 1975.
12.Фанталов А.Скандинавские мифы о творении мира, создании людей и меде поэзии. (Текст переводится по изданию: Младшая Эдда. Издательство Наука, Ленинград, 1970). http://typology.chat.ru/Scandinavian1.html.
13.Форрестер Дж. Мировая динамика. М., Наука, 1978.
14.Шиман К.К. К третьему тысячелетию. М.. 1977.
15.Щуцкий Ю.К. Китайская классическая «Книга перемен», изд.: Восточной литературы, М., 1960.
16.Ögel B. Türk mifolojisi (kaynakları və açıklamaları ilə dastanlar). I sşdt, Türk tarih kurumu basım evi – Ankara, 1971.

## 1.2 XIX – XX ƏSRLƏRDƏ SOSİAL PROQNOZLAŞDIRMA

XIX əsrdə gələcəyin proqnozlaşdırılması ilə bağlı yeni istiqamət «elmi fantastika» inkişaf etdi. Elmi fantasitik əsərlərin müəllifləri, dövrün görkəmli yazıçıları Bredberi, Klark, Şekli, Saymak, Azimov, Merl, Abe, Lema, İ.Yefremova və başqaları müasir elmin nailiyyətlərinə əsaslanaraq, əsərlərində gələcəyin təsvirini verməyə çalışırdılar. Bu müəllifləri bəşəriyyətin sosial gələcəyi deyil, ayrı-ayrı elmi-teniki nailiyyətlərin nəticələri və müəyyən qədər də sosial tərəqqi maraqlandırırdı. Energetikanın və maddi-xammal istehsal bazaları, sənaye və şəhərsalma, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə və təhsil, mədəniyyət, hüquq normaları, Yer və kosmosun məskunlaşması əsas diqqət mərkəzində idi. Əvvəllər bu problemlərə elmi məruzə və məqalələrdə, utopiya və bədii əsərlərdə və s. daha çox toxunulurdu. Sonralar gələcək haqqında xüsusi bədii əsərlər meydana çıxdı. Bu sırada 1886-cı ildə P.Qartinqin «2006-cı il», 1892-ci ildə Ş.Rişenin «Yüz il sonra», 1896-cı ildə Q.Tardın «Gələcək tarixi məqamlar», 1902-ci ildə E.Qovardın «Gələcəyin şəhər-bağları», 1907-ci ildə İ.İ.Meçnikovun «Optimizm etüdləri» və s. əsərlərini qeyd etmək olar. Bu əsərlər arasında Q.Uillisin 1901-ci ildə nəşr olunmuş «Mexanika və elmin təqərqisinin insan həyatına və fikirlərinə təsiri ilə bağlı uzaqgörənlik» adlı əsəri dövrü üçün əhəmiyyətli mənbə idi.

XX əsrin 20-ci illərində gələcək haqqında elmi fantastik əsərlərin yazılması ənənə şəklini aldı. 1916-cı ildə C.B.S.Qoldeynin «Dedal, yaxud Elm və gələcək» adlı əsəri 1925-1930-cu illərdə elm, texnika, iqtisadiyyat, mədəniyyət, siyasət, incəsənət problemlərilə əlaqədar gələcəyin planlaşdırılması ilə bağlı əsərlərin nəşrinə səbəb oldu. Eyni zamanda Qərbdə A.M.Lou, F.Cibbs, E.Birkenxed və bir sıra müəlliflərin fundamental əsərləri çap olundu.

XX əsrin 30-cu illərində baş verən iqtisadi böhran və dünya müharibəsi təhlükəsi Qərbin erkən futuroloji konsepsiyalarının zəifləməsinə səbəb oldu. C.Due, D.Fullera, B. Liddel-Qarta və digər hərbi-nəzəriyyəçilərin əsərləri ön plana çıxdı.

SSRİ-də QOELRO planı ilə bağlı əsərlər nəşr olunmağa başlandı. Siolkovski, L.M.Sabsoviç, N.Meşeryakov və digər müəlliflər bilavasitə gələcəyin elmi planlaşdırılması istiqamətli əsərlər yazırdılar.

1924-1928-ci illərdə görkəmli iqtisadçı V.A.Bazarov-Rudnev gələcəyə yeni yanaşma istiqamətli məqalələrlə çıxış etməyə başladı.V.A.Bazarov-Rudnev proqnoz-qabaqcadan xəbərverməni kəşfiyyat proqnozla əvəz edərək, onun iki formasını təqdim edirdi: 1) məntiqi ardıcıllıq yolu ilə gələcək tendensiyaların aşkar edilməsi və problemlərin həll edilməsi; 2) teoloji

(normativ) proqnozlaşdırma əsasında gələcək problemlərin səmərəli həlli yollarının aşkar edilməsi. Bazarovun tədqiqatları dərk edilmədiyindən inkişaf etdirilmədi. Ancaq XX əsrin 80-cı illərində elmdə istifadə edilməyə başlandı.

XX əsrin 50-60-cı illərində Amerika ekspertləri T.Qordon, O.Qelmer və başqaları ABŞ-ın və dünyanın 15 il sonrakı vəziyyəti ilə bağlı «Appalon» proqram-proqnoz hazırlamışdılar. Burada ABŞ-ın Aya uçuşu planlaşdırılırdı. ABŞ tədqiqatçıları müstəqil şəkildə Bazarovun yaddan çıxmış kəşfiyyat və normativ proqnozlaşdırma konsepsiyalarını işləmişdilər.

İkinci dünya müharibəsi illərində gələcək haqqında konsepsiyaların işlənməsi tənəzzül etdi. XX əsrdə 40-cı illərin sonu 50-ci illərinin əvvəllərində Elmi Texniki İnqilab (ETİ) konsepsiyalarının meydana çıxması, kəşfiyyat və normativ proqnozlaşdırma texnikasının işlənməsi və gələcək haqqında yeni konsepsiyaların (industrializm, ekzistensializm, strukturalizm, neopozitivizm, sosial-reformizm, teyardizm, konvergensiya nəzəriyyəsi və s.) formalaşması proqnozlaşdırmanın yeni istiqamətli inkişafına gətirdi. Bu dövrdə C.Bernal, N.Viner, R.Yunqun əsərlərində elmi texniki tərəqqinin nailiyyətlərinin gələcək inkişafa təsiri təsvir edilirdi.

XX əsrin 60-cı ilərində «texnoloji pronozlaşdırma» ilə məşğul olan yüzlərlə proqnozlaşdırma müəssisələri açıldı. Qərb fəlsəfəsinin yeni istiqamətləri ilə tanışlıq gələcək haqqında konsepsiyaların yaradılması üçün vacib olan anlayışlar, kateqoriyalar, nəzəri əsaslandırmalar, yeni meyllər, sosial normalar və s. formalaşmasına şərait yaratdı. Fransız sosioloqu J.Furastyenin «1960-cı ilin sivilizasiyaları» (1947), «XX əsrin böyük ümidi» (1949), «Gələcəyin tarixi» (1956), «XX əsrin böyük metamorfozası» (1961), ingilis alimi A.Tomsonun «Görünən gələcək» (1955), A.Klarkın «Gələcəyin cizgiləri» (1962) və başqalarının əsərləri elmi-texniki tərəqqinin nailiyyətləri əsasında gələcəyin təsvirini verməyə yönəlmişdi.

Həmin illərdə Qərbdə industrializmin ideya əsaslarnı təşkil edən fəlsəfi, iqtisadi və sosioloji konsepsiyaların işlənməsi geniş miqyas almışdı. 1960-cı ildə Amerika iqtisadçısı və sosioloqu U.Rostou «İqtisadi inkişaf mərhələlri. Qeyri-kommunist manifesti» adlı əsəri nəşr olundu. Təxminən eyni vaxtda C.Gelbreytin «Yeni industrial cəmiyyət» (1967), fransız sosioloqu R.Aronun «İndustrial dövr haqqında üç məqalə» (1966), A.Turenin «Postindustrial cəmiyyət» (1969), D.Bellin «Postindustrial cəmiyyətin yaranması» (1973), «Kapitalizm mədəniyyətinin ziddiyyətləri» (1967) əsərləri nəşr olunmuşdu. İndustrializm konsepsiyasının əsasında belə bir fikir dururdu ki, ölkənin sosial-iqtisadi inkişafı ictimai-iqtisadi formasiya ilə deyil, sənaye potensialı ilə müəyyənləşir. Əgər ölkənin daxili mədaxili yüz min dollarlardan ibarətdirsə,

deməli bu ölkə industrialdan əvvəlki mərhələdən industrial mərhələyə keçid dövründədir.

1964-1966-cı illərdə ABŞ-nın aparıcı proqnozlaşdırma mərkəzlərindən birində Q.Kan və A.Vinerin rəhbərliyi ilə «2000-ci il» adlı kitab nəşr olundu. Kitabda müəlliflər Ümümi Milli Məhsulun əhalinin sayına görə bölüşdürülməsi əsasında ölkələrin siyahısını tərtib etmişdilər. Bu əsasda Kann və Viner ölkələri 5 kateqoriyaya bölmüşdülər: industrializmə qədərki ölkələr, keçid ölkələri, industrial ölkələr, yüksək industrial ölkələr və postindustrial ölkələr. Müəlliflər ÜMM hesablanması əsasında ölkələrin bir səviyyədən digər səviyyəyə keçməsini müəyyənləşdirməyə çalışmışdılar. Belə nəticəyə gəlmişdilər ki, postindustrial inkişaf səviyyəsinə keçmək üçün yüksək industrial ölkərə 11 – 42 il, industriala qədərki mərhələdə olan Çinə – 101 il, Hindistana 117 il, Nigeriyaya – 339 il, İndoneziyaya – 593 il lazımdır. Bu konsepsiyada göstərilirdi ki, XXI əsrdə dünya ölkələri ABŞ-nın 60-cı illərdəki inkişaf səviyyəsinə çata biləcək, ABŞ isə postindustrial cəmiyyət olacaq. Lakin müasir dövrdə göründüyü kimi bu konsepsiya təsdiqini tapmadı. Belə ki, müasir dövrdə ölkələrin inkişafı yalnız iqtisadi əsaslarla deyil, elmi-texniki tərəqqi ilə də müəyyənləşir. Bununla yanaşı ABŞ-da əhalinin təxminən 10%-i milyarderlər olsa da, 10%-i də səfil, dilənçilərdən ibarətdir. Postindustrializm nəzəriyyəsi tənqidə məruz qaldığı üçün müəllifələr postindustrial cəmiyyətin sosial struktur göstəricilərini nəzərdən keçirdilər, cəmiyyətin istehsal-peşəkarlıq strukturunun «üç industriya» konsepsiyası ilə (1 – kənd və meşə təsərrüfatı, balıqçılıq sənayesi, 2 – emal sənayesi, 3 – xidmət və mənəvi istehsal sahəsi) uyğunlaşdırılması ön plana çəkildi. Gələcəyin belə təsviri cəmiyyətin təhsil strukturunun təkamülü ilə tamamlanmışdı. İndustrial cəmiyyətdən fərqli olaraq, postindustrial cəmiyyətdə əhalinin böyük əksəriyyəti diplomlu mütəxəssislərdən ibarət olmalı idi. Bununla yanaşı cəmiyyətin sosial demoqrafik struktur göstəricilərinə də xüsusi diqqət yetirilirdi. İndustrializmə qədərki cəmiyyətlərdə doğum səviyyəsi yüksək olduğu halda, industrial cəmiyyətlərdə əhali artımı nəzərəçarpacaq qədər azaldığından, postindustrial cəmiyyətlərdə əhalinin doğumu və ölümü səviyyəsi bərabərləşir, təbii artım 0%-ə qədər azalır. Postindustrializm nəzəriyyəsində həmçinin idustriala qədərki, industrial və postindustrial cəmiyyətlərdə ailənin ümumi gəlir səviyyəsi əsas göstərici kimi götürülərək, belə müəyyənləşdirilirdi ki, industriala qədərki cəmiyyətlərdən fərqli olaraq, postindustrial cəmiyyətlərdə əsas xərc yeməyə və geyimə deyil, yaşayış yeri, nəqliyyat, mədəniyyətə sərf ediləcək və əhalinin gəliri çox olduğundan məişət xidmətlərinin də xərci görünməyən həddə çatacaq.

Nəzəriyyəçilər postindustrial cəmiyyətin əsas göstəricilərindən biri kimi iş ilinin strukturunu müəyyənləşdirməyə çalışırdılar. Onlar belə bir nəticəyə gəlmişdilər ki, industriala qədərki cəmiyyətlərdə 6 günlük iş həftəsi 10-12 saatlıq iş günü müəyyənləşdirilirdisə, postindustrial cəmiyyətlərdə 4 günlük iş həftəsi 6 saatlıq iş günü ilə tənzimlənəcəkdir.

Postindustrial cəmiyyətdə əhalinin 1/10 hissəsi kənd təsərrüfatı və sənayedə, qalan 9/10 hissəsi isə xidmət və mənəvi istehsal sahəsində çalışan diplomlu mütəxəssislərdən ibarət olacaqdır.

**YOXLAMA SUALLAR**

1.»Elmi fantastikanın» aparıcı nümayəndələri kimlərdir?
2.»Texnoloji proqnozlaşdırma» gələcəyi necə görürdü?
3.Postindustrializm nəzəriyyəsinin tərəfdarları cəmiyyətləri hansı istiqamətdə öyrənməyi təklif edirdilər?
4. Gələcək haqqında elmi-publisistik fikirlərin əsas inkişaf istiqamətlərini sadalayın.

**REFERAT MÖVZULARI**

1.XIX – XX əsrin birinci yarısına aid sosial utopiyalar
2.Anarxizm ictimai siyasi cərəyan kimi
3.Liberal reformizm gələcək haqqında inkişaf konsepsiyası kimi
4.Feodal və Utopik sosializm konsepsiyaları
5.Gələcək haqqında iqtisadi inkişaf nəzəriyyələri
6.Elmi fantastika gələcəyin proqnozlaşdırılmasına cəhd kimi

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2. Виноградов В.Н. Гончарук С.И. Законы общества и научное предвидение. М., 1999.
3.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
4.Впереди XXI век: перспективы, прогнозы, футурологи. Антология современной классической прогностики 1952-1999. Редактор-составитель И.В. Бестужев-Лада. М.: Academia, 2000.
5.Добров Г.М. Прогнозирование науки и техники. 3-е изд. М.: Изд-во РАН, 1998.
6.Гусейнов З.Р., Ибрагимов Э.Р. Планирование инвестиционного процесса на основе новой имформационной технологии. Баку, «Элм», 1990.
7.Лезгина М.Л. Детерминация прогнозирования. Л., 2000.
8.Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
9.Форрестер Дж. Мировая динамика. М., Наука, 1978.

## 1.3 PROQNOZLAŞDIRMA İLƏ BAĞLI MÜASİR TƏDQİQATLAR. QLOBALİSTİKA VƏ ALTERNATİVİSTİKA

XX əsrdə yaranmış bir sıra futuroloji modellərdə silahlanma gələcək inkişafın mənfi göstəricisi kimi göstərilirdi. Hələ 50-ci illərdə silahlanmaya 60 milyard dollar sərf edilirdisə, 80-cı illərdə bu məbləğ triliyon dollara çatmışdı və bu məbləğ ildən-ilə artır. Bu bəşəriyyətin ümumi ictimai məhsulunun 1/5 hissəsini təşkil edir və nəticədə digər sosial ehtiyaclara çox az pul qalırdı. Proqnozlaşdırma modellərində gələcəyin inkişafı ilə bağlı digər mənfi göstərici kimi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı fərqin genişlənməsi götürülürdü. İlk dövrlərdə bu fərq bir neçə dəfə kimi qeyd edilirdisə, sonralar on dəfələrlə qiymətləndirilirdi. Dünya əhalisinin 1/3 hissəsi aclıq çəkir, yarıdan çoxunun tibbi xidmətə və təmz su ehtiyatlarına ehtiyacı var, kütləvi epidemiyalara məruz qalır. Üçüncü qrup qlobal problemlər bəşəriyyətin həyat ehtiyatları, ilk növbədə ərzaq problemilə bağlıdır. XX əsrin 50-ci illərində inkişaf etməkdə olan ölkələrdə səhiyyə xidmətlərinin tətbiq edilməsi Asiya, Afrika və Latın Amerikası ölkələrində ölüm səviyyəsinin azalmasına səbəb oldu və bu ölkələri xarici yardımdan asılı vəziyyətə saldı. Hazırda inkişaf etməkdə olan ölkələrin borcu trilyonlara çatır. 60-cı illərdə başlanan «yaşıl inqilab» nəticəsində kənd təsərrüfatında məhsuldarlığın artmasına səbəb olan toxumlar geniş istifadə olunmağa başlandı və bir çox inkişaf etməkdə olan ölkələrdə gözlənilən aclığın qarşısı alındı və əhalinin sayı artdı. Lakin müasir dövrdə də inkişaf etməkdə olan ölkələrdə aclıq təhlükəsi qalmaqdadır. Hətta yanacaq və xammal ehtiyatları ilə bağlı təhlükə də aclıq təhlükəsindən daha aşağı səviyyədədir. Müasir dövrün ən kəskin problemlərindən biri də ekoloji problemdir. İnkişaf etməkdə olan ölkələrdə bu təhlükənin qarşısı bir qədər alınır, lakin inkişaf etməkdə olan ölkələrdə havanın, suyun, təbiətin çirklənməsi, şüalanma, yanacaq, səs-küy, məişət və kimyəvi tullantıların ətraf mühiti çirkləndirməsi yüksələn xətlə gedir və buna qarşı əməli mübarizə aparılmır. Müasir dövrün əsas problemlərindən biri də urbanizasiya prosesinin sürətlənməsidir. Urbanizasiya nəticəsində on milyonlarla əhalisi olan şəhərlər formalaşır və kəndin deqradasiyası prosesi gedir, yer faunası məhv edilir.

Bir sıra müəlliflər qlobal problemlər sırasında dünya okeanı və kosmosun məskunlaşmasını, elmi və elmi-texniki tərəqqinin nəticələrini görürlər. Eyni zamanda qlobal miqyaslı sosial-siyasi dəyişikliklər vəziyyətin pisləşməsi səbəbləri kimi göstərilir.

Qlobalistika XX əsrin 70-ci illərindən inkişaf etməyə başlayıb. Bu illər ərzində dünyada böyük dəyişikliklər baş verib: sosializm sistemi süqut etdi,

silahlanmanın sürəti azaldı, inkişaf etməkdə olan ölkələrdə ətraf mühitin çirklənməsini dayandırmağa nail oldular, dünyanın hər yerində əhali artımı zəifləyib (bununla belə 2020-ciilədək dünya əhalisinin 8 milyard nəfərə çatacağı ehtimal edilir), bir sıra dünya xalqlarının məhv olması təhlükəsi yaranıb. İnkişaf etməkdə olan ölkələrdə işsizlərin sayı milyard nəfərə çatıb və bu miqrasiya prosesinin genişlənməsinə gətirir. Mafioz qruplaın güclənməsi nəticəsində sosial partlayış, yaxud dördüncü dünya müharibəsi gözlənilir.

Məsələnin digər tərəfi qlobal problemlərin axıradək dərk olunmamasıdır. Hökumət orqanları bu məsələyə ciddi yanaşmırlar. Qlobalistlər bu əsaslarda qaçılmaz olan qlobal təhlükənin qarşısını almaq üçün fənlərarası tədqiqatlar aparılması tərəfdarı olaraq çıxış edirlər.

German Kann son dövrlərə qədər əmin idi ki, məhz elm və texnikanın inkişafı bəşəriyyəti qlobal təhlükədən xilas edəcək. Kann və onun tərəfdarları «texnooptimistlər», onların opponentləri isə «ekopessimistlər» adını almışdılar və bu iki tərəf arasında daimi mübarizə gedir. 70-ci illərdə iki cəbhəyə bölünmüş dünyada sosialist sistemli ölkələrdə texnooptimistlərin, kapitalist sistemli ölklərdə isə ekopessimitslərin tərəfdarları çoxalmışdı. 80-cı illərdə ekopessimitslərin opponentləri olan digər bir cərəyan – «alternativ sivilizasiya» meydana gəldi. Alternativ sivilizasiya tərəfdarları gözlənilən qlobal təhlükədən xilas olmaq yolunu keyfiyyətcə fərqli, alternativ sivilizasiyaya keçiddə görürdülər. Hələ 1978-ci ildə M.Satin «Yeni eranın problemləri: özünü və cəmiyyəti xilas edərkən» əsərində 1847-1967-ci illərdə alternativistika ilə bağlı 270 əsərin nəşr olunduğunu göstərmişdi. 80-cı illərdə mövzu ilə bağlı G.Gendersonun «Alternativ gələcəyin qurulması», M.Fergyusonun «Dolçanın sui-qəsdi və 80-cı illərdə şəxsi və ictimai transformasiyalar», L.Broun «Sabit cəmiyyətin qurulması», J.Roben «Dövrlərin dəyişilməsi», E.Veytszekker və L.Lovinsovun «Dörd amil: itki – yarı, fayda – iki dəfə artıq» və s. əsərlər nəşr olunmuşdu. Rusiyada 1990-cı illərdə V.Q.Budanovun «İctimai tərəqqi alternativi: homo agens», İ.M.Savelyevin «Alternativ dünya: modellər və ideallar», A.N.Çumakovun «Qlobalistikanın fəlsəfəsi: sivilizasiyaların sağ qalması yollarının axtarışı», L.N.Vodviçenkonun «Alternativistlərin sosial-siyasi baxışlarının formalaşması», İ.V.Bestujev-Ladanın «Alternativ sivilizasiya», «XXI əsrə dair qlobal texnoloji proqnoz», N.N.Moiseyevin «Sabahkı günə çox qalıbmı?», «Bəşəriyyət olsun yoxsa, olmasın», V.L.İnozemtsevin «İqtisadi cəmiyyətin hüdudlarında», «Parçalanmış sivilizasiya» və s. əsərləri nəşr olunmuşdur. E.Şumaxerin «Günəş dövrü siyasəti: iqtisadi alternativ» və «Tərəqqi paradiqması: iqtisadiyyat hüdudlarında həyat», D.X.Medouz, D.L.Medouz, Y.Randers «İnkişafın hüdudlarında» (1994), A.C.Toynbi

«Sivilizasiya tariximəhkəmə qarşısında» (1995), İ.Vallerstaynın «Dünya sisteminin təhlili və müasir dünyanın vəziyyəti» (2001), Y.Xabermas «Son kapitalizm dövründə sistem və dünyəvi həyat arasında münasibətlər» (1993), «Modern haqqında fəlsəfi müzakirələr» (2003), F.Fukuyama F. «Tarixin sonu və sonuncu insan» (2004), C.E.Stiqlitz «Qloballaşma və onun doğurduğu narazılıqlar» (2004), S.Hantinqton «Sivilizasiyaların toqquşması» və s. əsərləri meydana çıxdı.

İ.V.Bestujev-Lada gələcək inkişafın çoxtərəfli proqnozlaşdırılması ilə bağlı ümumiləşdirmə təqdim edir və gələcək inkişafa dair «doqquz dalğa» prinsipini irəli sürür:

1. «Birinci dalğa» - geridə qalmış ölkələrdə urbanizasiya, inkişaf etmiş ölkələrdə deurbanizasiya prosesinin genişlənməsi;
2. «İkinci dalğa» - ekoloji problemlər;
3. «Üçuncü dalğa» - insanların mədəni səviyyəsi (katarsis və antikatarsis) problemi;
4. «Dördüncü dalğa» - müasir təhsil və elm sistemində yaranan anarxizm prosesi;
5. «Beşinci dalğa» - insanların narkotiklərin quluna çevrilməsi prosesinin genişlənməsi;
6. «Altıncı dalğa» - cinayətkarlığın genişlənməsi;
7. «Yeddici dalğa» - hərbi-siyasi proseslərin dərinləşməsi;
8. «Səkkizinci dalğa» - demoqrafik proseslərin genişlənməsi;
9. «Doqquzuncu dalğa» - elmi-texniki proseslərin inkişaf xüsusiyyətləri.

Gələcək inkişafın tədqiqatçıları belə hesab edirlər ki, cəmiyyətin bu və ya digər forması enerji əsasında müəyyən edildiyinə görə alternativ sivilizasiya qlobal yanacaq-enerji və xammal bazasının, demoqrafik, ekoloji tarazlığın keyfiyyətcə yenidən bərpa olunması, silahlanmanın qarşısının alınması və yüksək insani dəyərlər sistemi əsasında qurula bilər.

## YOXLAMA SUALLAR

1.Qlobal problemlər dedikdə nə nəzərdə tutulur?
2.Qlobalistika nə vaxtdan inkişaf etməyə başladı və mahiyyəti necədir?
3.G.Kan qlobal təhlükədən xilas yolunu nədə görürdü?
4.Alternativ sivilizasiya konsepsiyasının tərəfdarları qlobal təhlükədən xilas yolunu nədə görürdülər?

## REFERAT MÖVZULARI

1.Xarici sosiologiya və sosial fəlsəfədə sosial proqnostika
2.Müasir sosial proqnozlaşdırma
3.Gələcək haqqında təsəvvürlər və ETT haqqında konsepsiyaların cəmiyyətin inkişafına dair yeni nəzəriyyələrlə əlaqəliliyi
4.Yeni dövrdə ETT haqqında keyfiyyətcə yeni konsepsiyaların əmələ gəlməsi şərtləri (XX əsrin 70-ci illərinin ortaları)
5.Futurologiya gələcək haqqında elm kimi

## ƏDƏBİYYAT:

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2. Виноградов В.Н. Гончарук С.И. Законы общества и научное предвидение. М., 1999.
3.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
4.Впереди XXI век: перспективы, прогнозы, футурологи. Антология современной классической прогностики 1952-1999. Редактор-составитель И.В. Бестужев-Лада. М.: Academia, 2000.
5.Добров Г.М. Прогнозирование науки и техники. 3-е изд. М.: Изд-во РАН, 1998.
6.Лезгина М.Л. Детерминация прогнозирования. Л., 2000.
7.Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
8.Форрестер Дж. Мировая динамика. М., Наука, 1978.
9.Храленко Н.И. Философско-методологические проблемы прогнозирования. Л., 1980.
10.Ярская В.М. Научное предвидение: Вопросы методологии. Саратов. 1989.

## 1.3 ANTİFUTUROLOJİ İSTİQAMƏT

Futurologiya aşağıdakı mənaları daşıyır:
1) «Gələcəyin fəlsəfəsi» kimi keçmiş və indiki dövr sosial istiqamətlərə qarşı duran futurologiyanı XX əsr alman filosofu K.Manngeym «ideologiya» və «utopiyaya» bölürdü. Futurologiya anlayışını ilk dəfə 1943-cü ildə alman sosioloqu O.Flextgeym «Tarix və futurologiya» adlı əsərində təqdim etmişdi. Bu əsərdə müəllif «gələcəyin obyektiv fəlsəfəsi»nin yaradılması ideyasını irəli sürürdü.
2) «Gələcək haqqında elm», «gələcəyin tarixi» adlandırılan futurologiyanın tədqiqat predmeti mövcud təzahürlərin, ilk növbədə sosial təzahürlərin inkişaf perspektivləridir. Futurologiya anlayışı XX əsrin 60-cı illərində Qərbdə başlanmış proqnozlar axını əsasında belə bir məzmun daşımağa başladı. 1960-cı illərin futurologiyasında həm texnokrat optimistlər, həm realistlər, həm də pessimistlər mövcud idi. Lakin 60-cı illərin ortalarında «gələcəyin tarixi» ilə «keçmişin tarixinin» uyğun şəkildə öyrənilməsi cəhdləri nəticəsində artıq 70-ci illərdə futurologiya öz mənasını dəyişdi. Keçmişlə gələcəyin analoji tədqiqi düzgün deyildi. Tarix müqayisə edilən, xüsusi tarixi maraq doğuran hadisələri müşahidə deyil, özünəməxsus elmi vasitələrlə öyrənir. Gələcək təzahürlərin elmi tədqiqi bilavasitə müşahidə ilə bağlıdır. «Gələcək haqqında» elmin predmeti olmadığı üçün futurologiya termini nüfuzdan düşmüşdü.
3) Futurologiya «fənlərarası tədqiqat», «metaelm» kimi 60-cı illərdə Qərbdə geniş yayılmışdı. Lakin bu anlayışın qeyri-müəyyənliyi 70-ci illərdə onun proqnostika, futuristika, «gələcəyin tədqiqi» və s. anlayışlar tərəfində sıxışdırılmağa başlandı. Müasir dövrdə bu termin kompleks sosial proqnozlaşdırma və sosial proqnostika anlayışlarının sinonimi kimi Qərbdə geniş yayılıb.
4) Futurologiya proqnostika və sosial proqnozlaşdırmanın sinonimi kimi nadir hallarda istifadə edilir.
5) XX əsrin ikinci yarısında futurologiya dar mənada elmi kommunizmə əks qoyulmuş «postindustrial cəmiyyət»lə bağlı elmi termin kimi istifadə edilirdi.
6) Futurologya geniş mənada insan cəmiyyətinin inkişafı ilə bağlı olan bütün müasir elmi və publisistik nəşrləri əhatə edirdi.

XX əsrin 60-cı illərindən başlayaraq industrializm və postindustrializm nəzəriyyələri tənqid olunmağa başlandı. Xüsusilə reformizm, yaxud konvergensionizm və apokalipsis nəzəriyyələr bu sıradandır. Konvergensionizm nəzəriyyəsinin tərəfdarları elmi-texniki inqilab şəraitində kapitalizmin olduğu kimi saxlanacağına şübhə ilə yanaşırdılar və sosial-

reformist xüsusiyyətli cərəyanlara istinad edərək, kapitalizmin islahatlar yolu ilə dəyişdirilməsi tərəfdarı kimi çıxış edirdilər. Bu cərəyanın görkəmli nümayəndələrindən olan F.Bade «2000-ci ilə doğru yarışma» əsərilə çıxış etmişdi. Lakin «dünya sosializm sisteminin» böhranı bu nəzəriyyənin tənəzzülünə səbəb oldu.

Apokalipsis nəzəriyyənin nümayəndələri ekzistensializm, teyardizm yaxud neopozitivizm fəlsəfəsinə istinad edirdilər və elmi-texni inqilabın nəticələrinin bəşəriyyətin gələcək inkişafında istifadə edilmə imkanlarına şübhə ilə yanaşırdılar və müasir qərb sivilizasiyasının süqütuna dair fikirlərlə çıxış edirdilər. Bu istiqamətin ən görkəmli nümayəndələrindən olan K.Yaspers «Atom bombası və bəşəriyyətin gələcəyi» adlı əsərilə çıxış etmişdi.

XX əsrin 70-ci illərinədək Kann və Venerin «2000-ci il» əsəri futuroloqların diqqət mərkəzində idi. 60-cı illərdə başlanan siyasi böhran zəncirvari şəkildə sosial, siyasi və ideoloji dəyişikliklərə və antifuturoloji fikirlərin genişlənməsinə şərait yaratdı. İlk antifuturoloji dalğa təbii mühitin çirklənməsi ilə əlaqədar olaraq dünya ictimaiyyətinin həyəcanı əsasında genişləndi. Bu dövrdə ekoloji böhranla bağlı minlərlə kitab nəşr olundu və təbiətin qorunması ilə bağlı istifadə olundu. 1971-ci ildə R.Folk «Bizim planetimiz təhlükədədir» adlı əsərində ekoloji təhlükə ilə bağlı həyəcan təbili çalırdı. Aydın oldu ki, postindustrial cəmiyyət ideal cəmiyyət olmayacaq.

Antifuturoloji dalğanın ikinci inkişaf mərhələsi XX əsrin 70-ci illərində başlandı. Bu dövrdə təbiətin çirkləndirilməsi səbəbləri və günahkarları axtarılmağa başlandı. Energetika sənayesinin inkişafı, neft, qaz və kömür ehtiyatlarının yandırılması, milyonlarla hektar meşələrin qırılması; kənd təsərrüfatı sahələrinin tutulması, suyun, havanın zəhərlənməsi, nəqliyyat, urbanizasiya prosesinin sürətlənməsi və s. ekoloji böhranın əsas səbəbi kimi göstərilirdi. Problemlə əlaqədar olaraq, «texnologiyanın qiymətləndirilməsi» kampaniyası yaradılmışdı. Bu dövrdə amerika futuroloqları M.Serton və B.Batrokun «Dinamik mühitdə texnologiyanın qiymətləndirilməsi» kitabı nəşr edilmişdi. 70-ci illərin ortalarında birinci və ikinci antifuturoloji istiqamət birləşmişdi. Qərbdə bu dövrün əsas şüarı «futurologiyasız müasir texnologiya» idi. Antifuturalist istiqamətin üçüncü mərhələsi ikinci mərhələ ilə təxminən eyni vaxtda başlanmışdı. Bu istiqamət sürətli siahlanma, kütləvi məhvetmə ilə bağlı atom, kimyəvi, bakterioloji silahların inkişaf etdirilməsi, təbii mühitin çirkləndirilməsi, demoqrafik və informasiya partlayışı və çox sayda böhranlara səbəb olan elmi-texniki tərəqqiyə qarşı çıxırdı. Bu istiqamətin tərəfdarları alimləri elmdən yanlış istifadə etməkdə günahlandırırdılar və «elmi ləğv etmək» şüarı ilə çıxış edirdilər. C.Plattanın «İnsana doğru addım» əsərində bu fikirlər inkişaf etdirilirdi.

Bu təzyiqlər nəticəsində futurologiyanın siması dəyişməyə başladı. Futuroloji əsərlərdə artıq gələcək ideal olan kimi təsvir edilmirdi, gələcək inkişafla bağlı mümkün ekoloji böhranlar, texnoloji təsir və s. nəzərə alınmağa başlandı. Atrıq bu istiqamətin görkəmli nümayəndəsi olan Q.Kannın əsərlərində də gələcəyə yeni yanaşma öz əksini tapırdı. D.Bell postindustrial cəmiyyət nəzəriyyəsinə yeni əlavə və düzəlişlər etmişdi. D.Bellin 1973-cü ildə nəşr olunmuş «Postindustrial cəmiyyətin yaxınaşması: sosial proqnozlaşdırmaya ekskurs» əsərində yeniliklər öz əksini tapmışdı: kapitalizm və sosializm arasındakı prinsipial fərqlər nəzərə alınırdı, hər adambaşına düşən Ümümi Milli Məhsulun inhisarı inkar edilirdi, bəşəriyyət qarşısında duran təhlükələrin ciddiliyi etiraf edilirdi. D.Bell 1976 ildə nəşr edilmiş kitabında belə bir nəticəyə gəlirdi ki, «sonda kapitalizm özü-özünü məhv edəcək». Bell sosial prosesləri səmərələşdirmək üçün dinə müraciət edirdi.

A.Toffler 1970-ci ildə «Futuroşok» adlı əsərində elmi-texniki inqilabın bəşəriyyəti tənəzzülə apardığını göstərirdi. Həyatın sürəti artır, paltar, ev şəraiti, avadanlığı, insanın mühiti əvvəlki dəyərini itirərək dəyişir. İnsanın nüfuzu onu əhatə edən əşyaları dəyişmə imkanlarına görə müəyyənləşir, istifadə edilən əşyalar hökmranlğa başlayır. Ata evinin mahiyyəti itir, ailə və nigah, dostluq institutları dağılır, cinayətkarlıq, narkomaniya, kütləvi mənəviyyatsızlıq genişlənir. Sürətlə yaranıb dağılan komitələr, mərkəzlər, komissiyalar, institutlar, korparasiyalar formalaşır və iqtisadiyyat, siyasət və mədəniyyətin inkişafına təsir edir. Sabit idarəçilik təşkilatları əvəzində problemli idarəçilik təşkilatları yaranır. Mövcud bürokratik və pulokratik idarəçilik əvəzində cari vəziyyət üçün nəzərdə tutulan «adxokratiya» və «ad (reklam) xok komitələri» yaranır və onları prezident və direktorlar deyil, «bir saatlık xəlifələr» idarə edirlər. KİV – mətbuat, radio, televiziya insanların kütləvi kütləşdirilməsi, manipulyasiyası vasitələrinə çevrilir. İncəsənət dəyişkən dəb vasitəsinə çevrilir. Elm insanların kütləşdirilməsinin və manipulyasiyasının elmi əsaslarını işləməyə başlayır, homo sapiens kibernetik orqanizmə çevrilməyə başlayır. Belə bir şəraitdə insan gələcəklə toqquşaraq futuroşok vəziyyətinə düşür. Tofflerin qeyd etdiyi kimi, bütün bunlar hələ başlanğıcdır. Gələcək mənfi nəticələrin qarşısını almaq üçün – 1) gələcəyi tədqiq etmək, proqnozlaşdırma - məqsədli ehtimallaşdırma – planlaşdırma – proqramlaşdırma – layihələşdirmə - idarəetmə vahid sistemdə inteqrasiya edilməlidir; 2) məktəblərdə, universitetlərdə, KİV ilə, insanları elmi-texniki inqilabın nəticələrilə tanış edərək, onların gələcəyə uyğunlaşmasını asanlaşdırmaq lazımdır; 3) gələcək üçün süni meydan hazırlamaq məqsədilə sosial eksperimentləri genişləndirmək lazımdır.

Tofflerin bu fikirləri uzun müddət mühakimə olunmuşdu.

1971-ci ildə Roma klubu məktəbinin tərəfdarlarından olan C.Forresterin «Dünya dinamikası» əsəri nəşr olundu. Roma klubu 1968-ci ildə italyan sənayeçisi A.Peççeinin təşəbbüsü ilə yaradılmışdı. Peççei 150 nəfərədək alim, biznesmen və ictimai xadimi dəfət edərək, ekoloji və texnoloji dəyişiklikləri təhlil etməyi təklif etdi. Klub üzvləri bir çox ölkələrin paytaxtlarını gəzərək, ölkələri və alimləri bu işin ciddiliyinə inandırmağa çalışırdılar və mövcud problemlə bağlı sosial tədqiqatlar aparmağa cəlb edirdilər. 1970-ci ildə klubun iclasında Forrester sosial sistemlərin modelləşdirilməsi haqqında məruzə etmişdi. D.Medouz və bir neçə alim isə kompüterdən istifadə etməklə «qlobal modelləşdirilməyə» dair layihə sifarişi qəbul etdilər. Forresterin «Dünya dinamikası» və Medouzanın «İnkişafın hüdudları» adlı əsərləri əsl futuroloji bomba oldu.

Forrester-Medouzanın tədqiqatlarında əsas diqqət dünyəvi məskunlaşmaya, istehsal sənayesinin inkişafına və ərzaq istehsalına, mineral ehtiyatlarının azalmasına və təbii mühitin çirklənməsinə yönəlmişdi. Kompüter vasitəsilə modelləşdirmə göstərdi ki, əhalinin mövcud artım sürəti və istehsal sənayesinin yüksəlişi nəticəsində XXI əsrin ilk on illiyində mineral ehtiyatları tükənəcək, təbii mühitin çirklənməsinin qarşısını almaq mümkün olmayacaq. Bu təhlükədən xilas olmaq, «qlobal tarazlıq» yaratmaq üçün əhali artımının və istehsal sənayesinin inkişafının qarşısı alınmalıdır. Forrester «həyat keyfiyyəti» fikri ilə çıxış edirdi. İşdə və məişətdə stress vəziyyətləri, sağlamlığın müdafiəsi həyat keyfiyyətinin əsas göstəriciləri kimi müəyyənləşdirilirdi. Müasir şəraitdə həyat keyfiyyəti ilə sənaye inkişafının qarşılıqlı əlaqəsi olduğu göstərilir və belə nəticə təqdim edilirdi: sənaye sürətli inkişaf etdikdə həyat səviyyəsi yüksək olur, mineral ehtiyatları daha tez tükənir, təbii mühit daha tez çirklənir, əhali sıxlığı artır, insanların sağlamlıq təhlükəsi artır, stress vəziyyətlər çoxalır, yəni həyat keyfiyyəti azalır. Forresterin bu fikirləri 70-ci illərdə böyük müzakirələrə səbəb oldu. Müzakirə doğuran əsas məsələ Forrester və Medouzanın həyat keyfiyyətləri və qlobal təhlükə haqqında fikirlərinin kompüter hesablamaları əsasında müəyyənləşdirilməsi idi. Müəlliflər ayrı-ayrı ölkələrin fərqli inkişaf istiqamətlərini nəzərə almamaqda, kompüter proqramlaşdırılmasının 60-cı illərin inkişaf meyyləri əsasında qurulmasında və əhatəli olmamasında, mümkün qərarların qəbulu prosesinin, normativ proqnozlaşdırmanın nəzərə alınmamasında və s. mühakimə edirdilər. Forrester və Medouza müəyyən çatışmazlıqları etiraf etsələr də, öz həmkarlarını da mənfi münasibətdə günahlandırırdılar. XX əsrin 70-ci illərindən etibarən proqnozalr axını qlobal modellər axını ilə əvəz oundu.

1974-cü ildə M.Mesaroviç (ABŞ) və E.Pestelin (Almaniya) «Bəşəriyyət çıxış nöqtəsində» adlı əsəri nəşr olundu. Burada imitasiya və oyun alətlərindən istifadə edilərək modelləşdirmə prosesi bir qədər mürəkkəbləşdirilmişdi, tədqiqatın normativ aspekti gücləndirilmişdi. Müəlliflər problemlərin həll edilməsi üçün alternativ normativ-proqnozlaşdırma ssenarilərini təqdim edirdilər. Bu ssenarilərdən birində inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə kömək variantları işlənmişdi. Digər ssenarilərdən biri neft istehsal edən və istehlak edən ölkələr arasında münasibətlərin tənzimlənməsilə bağlı idi. Başqa bir ssenari dünya ərzaq probleminin həllinə dair idi. Mesaroviç-Pestel belə nəticəyə gəlirdilər ki, növbəti on illikdə inkişaf etməkdə olan ölkələrdə qlobal təhlükə gözlənilir, sonradan bu təhlükə inkişaf etmiş ölkələri də əhatə edəcək. Forrester-Medouzanın təklif etdiyi «sıfır inkişaf» konsepsiyası əvəzində «üzvi inkişaf» xəttinə keçid daha səmərəli görünür. İnkişaf etməkdə olan ölkələrə kömək edərək inkişaf sürətini bölüşdürmək və dünya ərzaq və neft probleminin həllini gücləndirməklə «üzvi inkişafa» keçmək mümkündür. Müəlliflərin fikirləri bir qədər utopik göründüyündən tənqidə məruz qalmışdı.

1976-cı ildə Roma klubunun üzvü Y.Tinberqin başçılığı ilə «Beynəlxalq iqtisadi nizamın yeniləşdirilməsi» və D.Qaborun «İsrafçılıq əsri hüdudlarında» adlı kitabları nəşr edildi. Birinci kitabda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı iqtisadi əlaqələrin yenidən qurulması məsələsi qoyulurdu. Əks təqdirdə bu ölkələr arasında əlaqələr qırılacaq və inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyat çökəcək, milyonlarla insan aclıqdan məhv olacaq və beynəlxalq münasibətlər çətinləşəcək. Bunun qarşısının alınması üçün inkişaf etməkdə olan ölkələrə maliyyə və ərzaq yardımı edilməli, maddi yardım etmək, kreditlər vasitəsilə bu ölkələrin sənayeləşdirilməsini sürətləndirmək və silahlanmanı dayandırmaq hesabına iqtisadiyyatı optimallaşdırmaq vacibdir.

İkinci kitab dünya mineral ehtiyatlarının tükənməsi və yanacaq-enerji və xammal balansının pozulması təhlükəsi problemlərinə həsr olunmuşdu. Bunun qarşısını almaq üçün enerji və maddi ehtiyatlar bərpa edilməli, qapalı istehsal tsiklləri genişləndirilməlidir və s. Roma klubunun proqnzları artıq daha konkret müddəti və konkret məsələləri əhatə edirdi.

1977-1978-ci illərdə Roma klubunun nümayəndəsi G.Laslonun (ABŞ) rəhbərliyi ilə «Bəşəriyyətin məqsədi» adlı kitab nəşr olundu. Burada əsas diqqət normativ proqnozlaşdırmaya yönəlmişdi. Kitabın birinci hissəsində yerli tədqiqatçılar cəlb olunmaqla dünyanın səkkiz regionu üzrə aparılan araşdırmalarda iri beynəlxalq təşkilatlar və çoxsaylı korporasiyaların məqsədləri öyrənilirdi. İkinci hissədə beynəlxalq təhlükəsizlik, ərzaq, enerji və mineral ehtiyatları, ümumi qlobal inkişaf tədqiq edilirdi. Üçüncü hissədə

«elmi əsaslandırılmış qlobal məqsədlərə nail olmaq üçün ümumdünya həmrəyliyinin qurulması işində inqilab etmək lazımdır» şüarı inkişaf etdirilirdi.

Roma klubunun 1979-cu ildə nəşr olunmuş «Təhsil hüdudsuzdur» adlı kitabı xalq təhsili problemlərinə həsr olunmuşdu. Burada xalq təhsil sistemində islahatlar aparılması, təhsildə bəşəriyyətin müasir problemlərinin nəzərə alınması, bu problemlərin ümumi qlobal xüsusiyyətlərinin nəzərə alınması və daha mütərəqqi tədris metodlarından istifadə edilməsi təklif olunurdu.

1980-cı ildə Roma məktəbində O.Ciarininin rəhbərliyi ilə «Sərvət və firavanlıq haqqında dialoq» adlı kitab nəşr olundu. Burada yeni siyasi iqtisad nəzəriyyəsinin yaradılmasına cəhd edilirdi. Müəllif güman edirdi ki, iqtisadiyyatın və mədəniyyətin inkişafı nəticəsində bəşəriyyət həm ictimai istehsal, həm də bərpa edilməmiş təbii ehtiyatlar problemi ilə hesablaşmalı olur. Buna görə də iqtisadiyyatın inkişafında ekoloji nəticələr nəzərə alınmalıdır və siyasi iqtisad və sosial ekologiya vahid elmi fənn kimi öyrənilməlidir. Bu zaman istehsalın maliyyə tərəfi və təbii ehtiyatların istifadəsi diqqətdə saxlanılmalıdır.

Sonrakı dövrdə Roma klubu hər il yeni tədqiqatlarla çıxış etməyə başladı. Bu illər ərzində İ.Kay (Yaponiya), A.Erri (Argentina), Q.Linneman (Niderland), V.Leontyev (BMT), A.Qabyu (İsveçrə), P.Roberts (İngiltərə) və s. dəqiq işlənmiş modellərlə çıxış etmişdilər.

1972-ci ildən etibarən Avstriyada (Lüksemburq) Beynəlxalq Tətbiqi sosial analiz institutu fəaliyyət göstərir. Burada qlobal, regional və problemli modelləşdirmə məsələlərilə bağlı tədqiqatlar aparılır.

1992-ci ildə BMT-nin Rio-de-Janeyrodakı konfransda sabit qlobal inkişaf konsepsiyası qəbul edilmişdi. 1997-ci ildə Deniverdə «böyük səkkizliyin» görüşündə, BMT-nin Baş Məclisinin Xüsusi iclasında və Kiotoda iqlim dəyişməsilə bağlı Beynəlxalq konfransda ekoloji problemlər müzakirə edilmiş və forum iştirakçıları tənzimlənən, yaxud sabit qlobal inkişafa keçid proqramının yerinə yetirilməsindən narazılıqlarını bildirmişdilər. Kiotoda əsasən ABŞ və Avropa ölkələrinin təsərrüfat fəaliyyəti nəticəsində 60% karbon qazının atmosferə daxil olması nəticəsində parnik effekti təhlükəsinin yaranması problemi müzakirə edilmişdi. ABŞ-ın atmosferi çirkləndirməsi inkişaf etməkdə olan ölkələrdə Milli sənayenin inkişafına mane olduğundan bu dövlətlər arasında yaranan kəskin qarşıdurma vəziyyəti də konfransın əsas müzakirə məsələlərindən olub.

## YOXLAMA SUALLAR

1.Futurologiyanın mahiyyətini izah edin.
2.Antifuturalistlər nəyə qarşı çıxış edirdilər?
3.A.Tofler gələcəyin inkişaf istiqamətlərini necə görürdü?
4.A.Toflerin fikirləri nə üçün mühakiməyə məruz qalmışdı?

## REFERAT MÖVZULARI

1.Qlobal problemlər konsepsiyası (C.Bernal, N.Viner, R.Yunq, A.Peççei)
2. Keçmiş sovet və yerli elmi ədəbiyyatda gələcəyin tədqiqi xüsusiyyətləri
3. Proqnostika proqnozlaşdırma nəzəriyyəsi və təcrübəsi məcmusu kimi
4. A.Toflerin gələcək haqqında ideyaları
5.Roma klubunun gələcək haqqında tədqiqatları
6.»Antifuturoloji» meylin iqtisadi, siyasi və sosial əsasları
7.»Ekoloji dalğa» və onun nəticələri
8.»Texnoloji dalğanın» əmələ gəlməsi səbəbələri və əsas ideyaları

## ƏDƏBİYYAT:

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2. Бестужев-Лада И.В. Альтернативная цивилизация. М., 1998.
3. Виноградов В.Н. Гончарук С.И. Законы общества и научное предвидение. М., 1999.
4.Впереди XXI век: перспективы, прогнозы, футурологи. Антология современной классической прогностики 1952-1999. Редактор-составитель И.В. Бестужев-Лада. М.: Academia, 2000.
5.Добров Г.М. Прогнозирование науки и техники. 3-е изд. М.: Изд-во РАН, 1998.
6. Костин А.И. Экополитология и глобалистика. М.: Аспект Пресс, 2005.
7.Лезгина М.Л. Детерминация прогнозирования. Л., 2000.
8.Никитина А.Г. Предвидение как человеческая способность. М., Эврика, 1975.
9.Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
10.Суворов Л.Н. Аверин А.Н. Социальное прогнозирование. М., Эврика 1984.
11.Храленко Н.И. Философско-методологические проблемы прогнозирования. Л., 1980.
12.Ярская В.М. Научное предвидение: Вопросы методологии. Саратов. 1989.

## 1.4 GƏLƏCƏYƏ FUTUROSİNERGETİK YANAŞMA (L.V. Leskovun tədqiqatları əsasında)

Roma klubu gələcəklə bağlı tədqiqatlara başladığı vaxtdan etibarən dünyada iqtisadi, ekoloji, demoqrafik və digər qlobal problemlərin əhatəli araşdırılması və sosial proqnozlaşdırmanın istiqamətləndirilməsinə yönəlmiş nəzəriyyələrin yaranması prosesi sürətləndi.

XX əsrdə özünütəşkilatlandıran sistemlərin dəyişməsi və inkişafı xüsusiyyətlərinin təhlilinə yönəlmiş sosiosinergetik yanaşma, sosial proqnozlaşdırmanın sinergetik, yaxud futurosinergetik metodları geniş vüsət aldı. Sosial proqnozlaşdırmanın ənənəvi metodları klassik rasionallığa əsaslandığından birölçülülük, xəttilik, alternativsizlik kimi bir sıra çatışmazlıqlara malikdir. Sosiosinergetika qeyri-sabitlik fəlsəfəsi kimi klassik metodologiyadan fərqli olaraq, tarixi proseslərin modelinin qurulması zamanı təsadüfilik (stoxastik), qeyri-müəyyənlik, qeyri-xəttilik, çoxvariantlılıq xüsusiyyətlərinin nəzərə alınmasına yönəlir. Lakin sosial sistemlərin yüksək mürəkkəbliyi, onların dinamik xüsusiyyətlərilə bağlı amillərin çoxluğu, kompleksliyi və çoxpilləliyi sosiosinergetik metodların istifadə edilməsində çətinliklər yaradır. Bununla yanaşı sosiosinergetika bifurkasiya (haçalanma) mərhələlərini və təkamüllə bağlı fəlakətləri analiz edən metodların işlənib hazırlanmasında geri qalır. L.V.Leskov «Rusiyanın sinergetik modelləşdirilməsi» (1997) adlı tədqiqatında sistemin davranış xüsusiyyətlərilə bağlı əsas dəyişənlərin təyin edilməsini və nəzərə alınmasını sosial və sosial ekoloji sistemlərin modelləşdirilməsi amilləri kimi müəyyənləşdirir. Müəllif müasir sivilizasiyanın proqnoz modelinin qurulması üçün ilk növbədə ən ümumi xüsusiyyətlərin nəzərə alınmasını vurğulayır.

P.Kennedi, G.Laslo, A.Zinovyev, B.Rauşenbax, V. Qorşkov, V. Qolubev, V.Klimenko müasir sivilizasiyanın ciddi təhlükə qarşısında olması fikri ilə çıxış edərək, problemin uyğun həlli yollarının tapılmasına çalışırlar. L.V.Leskov sosial poqnozlaşdırmanın sinergetik modelinin qurulması istiqamətində bilavasitə texnogen fəaliyyətin nəticəsi olaraq əmələ gələn qlobal ekoloji böhranı, texnosfera və ətraf mühit arasında yaranan ziddiyyətləri ən ümumi dəyişənlər kimi müəyyənləşdirir. L.V.Leskov müasir tarixi insikşaf mərhələsini kapitalizmin mahiyyətcə fərqli təkamül dövrü kimi müəyyənləşdirir və qeyd edir ki, bu dövrdə imkanlar genişlənir, funksiya-kapital mülkiyyət-kapitaldan fərqlənir, menecerlər və texnokratlar kapitalist cəmiyyətinin elit təbəqəsinə çevrilirlər, ümumi biliklərə əsaslanan ümumi idarəçilik forması yaranır. L.V.Leskov XXI əsrin dünya sivilizasiyaları sistemində Qərb, Çin, İslam, Hind, Latın Amerikası, Afrika, Pravoslav və

Yaponiya sivilizasiyalarını fərqləndirir. L.V.Leskov mükəmməl informasiya cəmiyyəti haqqında ideyaları növbəti sosial utopiya kimi qiymətləndirir, çünki ümumi informasiyalaşma yeni problemlər yaradır. A.A.Zinovyevə görə, süni əql insan ağlını sürətləndirməklə, yanaşı kəmağıllığı da inkişaf etdirir. Həddən artıq informasiya insanlar arasındakı ünsiyyətin məhv olmasına, inkişaf etmiş ölkələrin daimi nəzarət altına alınmasına gətirir. İnkişafdan geri qalmış ölkələrdə əhalinin sayının artması və burada sənaye proqramlarının reallaşdırılması mövcud problemləri dərinləşdirir. Futurosinergetika nəzəriyyəsinin tərəfdarları gələcəkdə sosial-siyasi və ekoloji böhranların qaçılmaz olduğunu, sosial mədəni vəhdətin itirilməsi imkanları haqqında məlumat verirlər və əmindirlər ki, böhranın qarşısının alınması üçün radikal sistemli dəyişikliklər zərurdir. Yeni tarixi subyekt elmi-texniki inqilabın növbəti mərhələsində yeniləşə bilər. Y.V.Yakoves və S.Y.Qlazyevə görə, tsiklik dinamikanın və sosiogenetikanın qanunauyğunluqları XXI əsrdə bəşəriyyətin altıncı, «postinformasiya», yaxud texnoloji cəmiyyətə keçidindən xəbər verir. Bu keçid daha inqilabi xüsusiyyətlərə malik olub, dünyagörüşündə əsaslı dəyişikliklərlə müşayiət olunacaq və dünya sivilizasiyasının təkamülü prosesi V.Vernadskinin noosfera konsepsiyasına uyğun olacaq. Sistemli böhran vəziyyəti bəşəriyyəti bifurkasiyalı (haçalı) inkişaf qarşısında qoyub və onun gələcək inkişafı çoxvariantlı xüsusiyyət daşıyır. Sivilizasiyanın modelləşdirilməsi prosesi təkamül ssenarilərinin qurulmasını tələb edir. L.V.Leskov Qərb sivilizasiyasının alternativ inkişaf ssenari modellərini və modellərin qurulması ilə bağlı əsas amilləri müəyyənləşdirməyə çalışır:

1. **Müasir vəziyyətin saxlanması ssenarisi (**Kennediyə görə, Qərb transmilli korporasiyalar hesabına Ümumi Milli Məhsul üzərində nəzarəti təmin edə və öz ehtiyatlarının bir qismini sərf etməklə regionlarda yaranan bu və ya digər qeyri-sabitliyin qarşısını ala bilər və bu əsasda müasir ictimai birlikləri enyi səviyyəli məsuliyyətə cəlb edərək, qlobal problemləri həll edə bilər).

**2. Dünyəvi totalitar sistem ssenarisi** (Bu ssenari Qərbin dünya üzərində ümumi nəzarətinin təmin olunmasına yönəlmiş ideologiya ilə bağlı olub, «qızıl milyard» strategiyası və modernizmin təhlilinə yönəlir. Bu məqsədə nail olmaq üçün ümumplanetar informasiya magistralının yaradılması əsas şərt kimi qəbul edilir. Gözlənilən ekoloji böhranın qarşısını almaq üçün dünya əhalisi 10 dəfə azaldılmalı, yaxud təbii istehlak ehtiyatları 10 dəfə artırılmalı, ətraf mühitə texnogen təsirin qarşısı alınmalıdır).

**3. Yeni orta əsrlər ssenarisi** (Bu ssenari orta əsrlərdəki maliyyə böhranı, Mərkəzin gücsüzlüyü və ölkənin tənəzzülü, əhalinin yoxsullaşması, elmin və

təhsilin zəifləməsi, cəhalətin genişlənməsi, şəhərlərdə və yollarda quldurluq və s. hadisələrlə bağlı həyat tərzinin müasir dövrdə baş verən proseslərlə oxşarlığını əks etdirir. Əgər ikinci ssenari yüksək texnologiyalara əsaslanaraq qlobal totalitarizm ideyasının inkişafına yönəlirsə, üçüncü ssenari elmi-texniki tərəqqini rədd etməyi təklif edir).

**4. Dünya birliyinin parçalanması ssenarisi** (Bu ssenari dünyanın çoxsaylı güc mərkəzlərinə parçalanmasının təhlilinə yönəlir).

**5. Ekoloji böhran ssenarisi** (Beşinci ssenari qlobal ekoloji böhran, qlobal tənəzzülün tədqiqi ilə bağlıdır. Özünütəşkilatlandıran sistemlər nəzəriyyəsinə görə, böhran prosesi sürətlə inkişaf edir və qarşısının alınması üçün tədbirlər görülməyə başladıqda artıq gec olacaq).

**6. Noosferaya keçid ssenarisi** (Noosferaya keçid mürəkkəb, çoxsahəli proses olub, insan varlığının bütün aspektlərini – dünyagörüşü, elmi, texnoloji, mədəni, təhsil, etik, sosial siyasi, dini və s. əhatə edir. Noosfera nəzəriyyəsi istehlak və fərdiyyətçilik fəlsəfəsindən uzaqdır və yalnız qlobal, ümumbəşəri səviyyədə noosferaya keçid mümkündür).

Bu ssenari modellərin qurulmasında istifadə ediləcək əsas amillər dünya bazarına nəzarət, Ümumi Milli Məhsulun səviyyəsi, inkişaf etmiş ölkələrin texnoloji strukturunun yeniləşdirilməsi, «qızıl milyard» strategiyası, üçüncü dünya ölkələrinin zəif inkişaf sürəti və bu ölkələrdəki demoqrafik partlayış, texnoloji ləngimə, Qərbin sosial mədəni vəhdətini itirməsi, dünya güc mərkəzləri arasında ziddiyyətlərin kəskinləşməsi, sabitləşmə imkanlarının tükənməsi, regionlarda çoxsaylı hərbi münaqişələr, terrorizm, planetin ekoloji vəziyyətinin kəskinləşməsi, fundamental elmin, yüksək texnologiyaların, təhsilin müdafiəsi, dünya vəhdətinin möhkəmlənməsi kimi müəyyənləşdirilir. L.V.Leskov əmindir ki, müasir bəşəriyyət hələki mənfi meylləri nəzarətdə saxlamaq imkanına malik deyil. Sinergetik proqnozlaşdırma nöqteyi-nəzərindən bütün qeyd edilən ssenarilər birxətli olsa da, eyni ehtimallı deyil. Real həyatda bu ssenarilər bir-birilə əlaqəli şəkildə çıxış edir və mümkün inkişafın müəyyənləşdirilməsinə yönəlir. Sistemin davranışı səbəb-nəticə əlaqəlidir və gələcəyi yaxın keçmişlə bağlıdır. Bu zaman təsadüfi, ikinci dərəcəli amillər əsas rol oynayır. Sistem müstəqil tənzimlənmə xüsusiyyətini itirdiyindən, əhəmiyyətsiz amillərin miqyası genişlənir. Məqsədyönlü fəaliyyət proqramı əsasında sistemin müəyyənləşdirilmiş ssenari əsasında inkişafına nail olmaq olar. Bu zaman sistemin fəaliyyəti sabitləşməyə və sistem tədricən attraktor (cazibə nöqtəsi) xüsusiyyəti qazanmağa başlayır. Bu xüsusiyyət təsadüfi sapmanın qarşısını alır və sistem əvvəlki fəaliyyət şəraitini bərpa edir. Bu vəziyyətdə keçmiş deyil, gələcək sistemin dinamikasını müəyyənləşdirir.

Sistemin sinergetik modelləşdirilməsi üçün riyazi «coker modeli» metodu istifadə edilir. Bu metod əsasında sistemin bu və ya digər ssenariyə keçidinə şərait yaradan parametrlərin (enerji istehlakı, iqlim, ekoloji, coğrafi, iqtisadi, texnologiyalar, texniki yeniliklər, əhali artımı, siyasi mədəni səviyyə və sosial siyasi dəyişikliklərə hazırlıq səviyyəsi və s. göstəricilər) müəyyənləşdirilməsinə şərait yaranır.

**YOXLAMA SUALLAR**

1.Sosiosinergetik yanaşmanın üstün və çatışmayan tərəfləri hansılardır?
2. Müasir vəziyyətin saxlanması ssenarisi gələcəyin inkişafını necə təsvir edir?
3. Dünyəvi totalitar sistem ssenarisi bəşəriyyətin gələcək inkişafını hansı amillərlə bağlıyır?
4. Yeni orta əsrlər ssenarisi nəyi nəzərdə tutur?
5. Dünya birliyinin parçalanması ssenarisi hansı göstəricilər əsasında qurulur?
6. Ekoloji böhran ssenarisinin mahiyyətini izah edin.
7. Noosferaya keçid ssenarisi hansı amili sosial inkişafın əsas mənbəyi hesab edir?
8. «Coker modeli» metodunun istifadəsi xüsusiyyətlərini izah edin.

**REFERAT MÖVZULARI**

1.Futurosinergetika gələcəyin proqnozlaşdırılması istiqaməti kimi
2. Gələcəyə sosiosinergetik yanaşma
3. Gələcəyin futurosinergetik ssenariləri

**ƏDƏBİYYAT:**

1. Арнольд В.И. Теория катастроф. М., 1990.
2.Бердяев Н.А. Новое средневековье. М., 1990.
3.Зубаков В.А. XXI век: сценарии будущего // Зеленый мир. 1996. № 9.
4.Кеннеди П. Вступая в XXI век. М., 1997.
5..Ласло Э. Век бифуркации // Путь. 1995. № 7.
6. Лесков Л. В. Синергетическое моделирование будущего России // Теория предвидения и будущее. М., 1997.
7..Лесков Л.В. Космическое будущее человечества. М., 1996.
8..Логинов В.Т. Новое средневековье // Новая планета. М., 1996. С. 134.
9. Панарин А.С. Новый синтез // Новая планета. М., 1996.
10. Фукуяма Ф. Конец истории? // Вопросы философии. 1991. № 1.
11 Яковец Ю.В. История цивилизаций. М., 1997.
12. Экологические проблемы / Под ред. В.И. Данилова-Данильяна. М., 1997.
13. Hantingion S. The Flash of Civilizations and the Remaking of World Order. New York, 1996.

## 1.5 AZƏRBAYCANDA GƏLƏCƏK HAQQINDA FİKİRLƏRİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qədim Azərbaycanda insanların gələcək haqqında fikirləri dövrümüzə qədər gəlib çatmış miflər, əfsanələrdə öz əksini tapmışdır. Bu miflər və əfsanələrdə dünyanın yaranışı, insanın həyatı, keçmiş və gələcək zaman, insanların daha uğurlu gələcəklə bağlı arzuları, daha yaxşı həyat və bu həyata qovuşmaq üçün onların rastlaşa biləcəkləri çətinliklər təsvir edilir. Bütpərəstlik dövründə müxtəlif heyvan, bitki, əmək alətləri, coğrafi məkanlar (dağlar, göllər, çaylar və s.), təbiət qüvvələri və s. ilahiləşdirən insanlar müəyyən mərasimlər keçirməklə, qurbanlar verməklə arzu edilən vəziyyətə nail olacaqlarını düşünürdülər.

Cəmiyyətin inkişafı ilə bağlı dünyagörüşündə baş verən dəyişikliklər insanların gələcək haqqında təsəvvürləri, mövcud problemli vəziyyətin həlli ilə bağlı fikirləri yeni istiqamət alır. E.ə.VII – VI əsrlərdə Azərbaycanda Zərdüştlük dini geniş yayıldı. Zərdüştlüyün müqəddəs kitabı olan «Avesta»da dünyanın yaranışı və inkişafı haqqında təsəvvürlər maraq doğurur. Burada dünyanın 12 minillik inkişaf tarixi və bu inkişaf dövründə keçdiyi dörd mərhələ təsvir olunur. **Birinci mərhələdə** ideyal dünya, əşyalar haqqında ideyalar yaranır; **İkinci mərhələdə** kainat, səma cismləri, canlı və cansız təbiət yaranır; **Üçüncü mərhələ** Zərdüşt peyğəmbərin dünyaya gəldiyi zaman mərhələsidir; **Dördüncü mərhələ** isə, Zərdüştün ölümündən sonrakı dövrdür. «Avesta»da göstərilir ki, hər bir mərhələdə dünyanı xilas etmək üçün peyğəmbərlər gəlir. Burada sonuncu peyğəmbərin gəlişi və bütün bəşəriyyəti şərdən xilas edəcəyi, dünyada ədalət quracağı haqqında məlumat verilir.

Erkən orta əsrlərdə Azərbaycanda geniş yayılmış Maniçilik və Məzdəkilik məzhəblərinin ideya mənbəyi zərdüştlük idi. Bu dini cərəyanlarda da xeyir və şərin daimi mübarizəsi və sonda xeyirin qələbə çalacağı ideyası öz əksini tapmışdır.

Orta əsrlərdə yaranmış «Dədə Qorqud» Azərbaycan xalqının qəhrəmanlıq dastanı olsa da, burada insanların keçmiş və gələcək haqqında təsəvvürləri, ədalətli cəmiyyət haqqında ideyaları öz əksini tapmışdır.

Bu dövr Şərqin ictimai fikri yer üzündə xeyir və şər qüvvələrin mübarizəsi və sonda xeyir qüvvələrin qələbə çalacağı ilə bağlı ideyalar əsasında formalaşırdı. Demək olar ki, bütün ictimai cərəyanların mənbəyində duran əsas ideyalar dünyanın əbədi mövcudluğu, xeyir və şər qüvvələrin əbədi mübarizəsi və xeyirin qələbəsi ilə bağlı idi. IX əsrdə yayılmış Xürrəmilər hərəkatının tərəfdarları bütün insanların azad yaşayacağı, ədalətli, sosial bərabərliyə əsaslanan cəmiyyətin qurulacağına inanırdılar.

XII əsrdə Nizami Gəncəvi «İsgəndərnamə» adlı əsərində utopik cəmiyyətin təsvirini verirdi. Bu cəmiyyətin bütün sakinləri arasında bütün nemətlər bərabər bölünüb, burada xoşbəxt insanlar yaşayırlar. S.Urməvi, N.Tusi, M.Fizuli və bir sıra digər mütəfəkkirlərin əsərlərində də ədalətli cəmiyyət haqqında fikirlər inkişaf etdirilir.

M.F.Axundov «Kəmalüddövlə məktubları», «Aldanmış kəvakib» adlı əsərlərində ədalətli cəmiyyətin, ideal dövlətin qurulması ilə bağlı fikirlərini əks etdirir. Bu əsərlərdə ədalətli cəmiyyət qurmağın əsas şərti dövlətin ədalətli və mütəfəkkir hökmdar tərəfindən idarə edilməsi kimi müəyyənləşdirilir, müəllif despotik idarəçilik üsulunun dəyişdirilməsi tərəfdarı kimi çıxış edir və sosial bərabərliyi sosial tərəqqinin mənbəyi kimi qəbul edir.

H.Zərdabi tarixin yüksələn xətlə inkişafını qəbul edirdi və elm, sənaye, kənd təsərrüfatının inkişafını tarixi tərəqqinin əsas amilləri kimi müəyyənləşdirirdi. H.Zərdabi "Gələcək haqqında bəd xəbərlər" adlı əsərində gələcək inkişafın əsaslarını təhlil edirdi. Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi olan H.Zərdabi yaşadığı dövrün ideya istiqamətinə uyğun olaraq, gələcək cəmiyyəti istismarın olmadığı, hüquq və azadlıqların təmin olunduğu cəmiyyət kimi təsvir edirdi.

XIX əsrin 70-90-cı illərinin görkəmli mütəfəkkiri C.Əfqani Şərqdə konstitusiya və parlament idarəçilik üsulunun tətbiq edilməsi fikrini irəli sürürdü, lakin bu zaman islam idarəçilik qanunlarının daha təkmil təhlillər əsasında, daha mükəmməl əsaslarda istifadə edilməsi təklifi ilə çıxış edirdi.

Ümumiyyətlə, ədalətli cəmiyyət qurulması ideyası XIX – XX əsrin görkəmli mütəfəkkirləri olan C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Rəsulzadə və bir çox başqalarının yaradıcılığının əsas xəttini təşkil edib. C.Məmmədquluzadə respublika quruluşunun tərəfdarı kimi çıxış edirdi. Ə.Hüseynzadə «Vəhdət və tərəqqi» partiyasını yaratmışdı və vahid türk dövlətinin yaradılması ideyası ilə çıxış edirdi. Ə.Ağaoğlu Şərqdə tənəzzülün əsaslarını araşdırırdı və sosial tərəqqinin əsasında elmi inkişafın durduğunu göstərirdi. M.Rəsulzadə «türkləşmə, islamlaşma, müasirləşmə» şüarı ilə Azərbaycan cəmiyyətinin gələcək inkişaf istiqamətini müəyyənləşdirməyə çalışırdı və vahid türk birliyinin yaradılması tərəfdarı kimi çıxış edirdi. Bu dövr mütəfəkkirlərinin gələcək haqqında fikirləri daha çox siyasi çalarlara malik olsa da, bu ideyaları gələcək cəmiyyətin modeli kimi qəbul etmək olar.

XX əsrdə Azərbaycanın fantast yazıçılarının yaratdıqları əsərlər gələcəyin mümkün, yaxud arzu edilən inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə cəhd kimi qiymətləndirilə bilər. Bu əsərələr sırasında E.Mahmudovun «Kainat gəmisi» (1957), «Həyat simfoniyası» (1966), «Yox olmuş səslər» (1964), «Atlant qızı» (1987), Anarın «Kontakt» (1976), N.Abdullayevin

«İtirilmiş dünya» (1962), «Balaca kiberin macəraları» (1966), «Gecələr uzanaydı» (1979), «Uzaq dünyanın çiçəyi» (1979), L.Quliyeva və Z.Quliyevin «Minlərlə ulduz» (1987), «İntellekt» (1989), M.İbrahiməyov «Uğurlu sonluqlu hadisə» (1983), «Gözəl bir gündə» (1980), «Stiv Braytın yox olması» (1991), L.Həsənovanın «Zamanların müharibəsi» (2002), «Borc götürülmüş zaman» (2002), «Elyütera – arzular adası» (2003), O.Muxtarlının, A.Xakimovun «Avalona səyahət» (2009) və digərlərini qeyd etmək olar.

Sovet dövrü Azərbaycan elmində gələcəyin proqnozlu inkişafı problemi bilavasitə sovet ideologiyasının təbliği və sovet sosializminin, yaxud sovet dövrü utopik sosializmin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsilə bağlı idi. Bu dövrdə H.Şirəliyevin «Yeni istehsal münasibətləri məhsuldar qüvvələrin inkişafının başlıca amilidir» (1960), Ə.Mürsəlov «Oktyabr və yeni insan» (1960), F.Köçərlinin «Sosializm və ailə» (1969), Ə.Şakirzadənin «Mədəniyyətin inkişafında ictimai əsaslar» (1969), «Sovet həyat tərzi» (1979), V.Paşayevin «ETİ və sosial inkişaf» (1974), «Elmi qabaqgörənlik» (1986), Z.Hacıyevin «Elmi texniki tərəqqi və sosial dəyişikliklər» (1976), «Kəndin sosial inkişafı» (1986), «Elmi texniki tərəqqi və sosial dəyişikliklərin dialektikası» (1993), N.Nəcəfovun «Elmi texniki tərəqqi şəraitində əməyin mənəvi aspekti» (1977), A.Nəcəfov «İnkişaf etmiş sosializm və mədəniyyət» (1978), N.Məmmədovun «Modelləşdirmə və biliklərin sintezi» (1979), «Ekoloji problem və texniki elmlər» (1982), «Ekologiya və texnika» (1998), «Ekologiya problemləri və bəzi aktual aspektlər» (1989), «Mədəniyyət, ekologiya və təhsil» (1996), F Ramazanovun «Azərbaycanda ekoloji problemlərin xüsusiyyətləri və onların həlli yolları» (1980), Q.Hüseynovun «Sivilizasiya və sivilizasiyasızlığın dialektikası» (1987), «Sivilizasiya və milli müəyyənlik» (1995), «Müasir dünyanın qlobal problemləri» (1997), M.Səttarovun «Sosialist ictimai şüuru: mahiyyəti, strukturunda baş verən dəyişikliklər, funksiyalarının güclənməsi» (1988), C.Məmmədovun «Mənəvi həyatın beynəlmiləlləşməsi» (1989), və s. əsərlər çap olunmuşdu. Bu dövrün elmi və ədəbiyyatı bilavasitə sovet insanının işıqlı gələcəyinin qurulmasına yönəlmiş fəaliyyətin təsvirinə həsr olunmuşdur.

Müasir dövrdə sosial layihələşdirmə və sosial proqnozlaşdırma istiqamətinə Azərbaycanda Z.R.Hüseynov və E.R.İbrahimovun «Müasir informasiya texnologiyaları əsasında investisiya proseslərinin planlaşdırılması», O.Abdullayev və H.Budaqovun «İctimai iqtisadi formasiyaların strukturu və inkişafı» (1990), Ş.A.Qasımlının «Yeni təsərrüfat mexanizmi və insan amilinin fəallaşdırılması» (1991), Q.İ.Bayramovun “İnsan və zaman. İnsan həyatının dialektikası”(1992), T.B.Allahyarovanın «Ekoloji mədəniyyət və ictimai tərəqqi» (1993), T.B.Allahyarovanın «İnkişafın təbii

mənbə və hədləri» // «Sinergetika – I Sinergetik antologiya» (2003), «Mədəniyyətdə qloballaşmanın təzahürləri və Azərbaycan» (2004), A.Əliyev, Ə.Qasımov və N.Qasımovun "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu"(1998), Q.C.Əliyevin "Müasir siyasi modernləşmə konsepsiyaları" (1998), "Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri" (1997), C.T.Əhmədlinin «Elmi texniki inqilab və sosial problemlər», «Cəmiyyət, siyasət, ideologiya», "Elmi problem şəraiti və metodologiya" (1998), Ə.F.Abbasovun «Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə» (1998), F.Mustafayevin «Sərhədsiz dünya» (1999), S.Xəlilovun «Elmi texniki tərəqqinin əsasları» (1998), «Şərq və Qərb: ümumbəşəri ideala doğru» (2004), E.Nəcəfovun «İctimai inkişafda mədəniyyət və sivilizasiyanın dialektikası» (2000), «Azərbaycanda keçid dövründə modernləşmə problemi» (2001), H.İmanovun «Azərbaycanda təhsil və onun proqnozlaşdırılması», «Azərbaycanda sosial strukturun dəyişmə meylləri və ona təsir edən amillər» «Sosial gərginliyi törədən obyektiv və subyektiv amillər və onların həlli yolları», İ.Məmmədzadə «Vətəndaş cəmiyyəti və Milli ideologiya: Azərbaycanda siyasi prosesin fəlsəfəsi» (1995), «Müasir Azərbaycanda fəlsəfə və qloballaşma problemləri» (2002), T.Ağakişiyevanın «Müasir ekoloji reallıq şəraitində sosial-iqtisadi inkişafın xüsusiyyətləri» (2000), İ.Rüstəmovun «Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri» (2001), A.Mirzəcanzadənin «XXI əsrə yol haqqında» (2001), Ə.F.Abbasov və İ.S.Əsgərovun «Keçid dövrü və yeni iqtisadi təfəkkür /sosial-fəlsəfi təhlil/» (2001), H.Hüseynovun «Suveren dövlətlər konsepsiyası: mif və reallıq», R.Aslanovanın «Qloballaşma və mədəni müxtəliflik» (2004), M.M.Bağırzadənin «Son on ildə Azərbaycanda sosioloji prosesin xüsusiyyətləri: problemlər və perspektivlər» (2004), A.Abasovun «Mədəniyyət və qloballaşma» (2004), A.Şükürovun «Qloballaşma və mənəvi dəyərlərimiz» (2004), S.Y.Hüseynovun «Davamlı insan inkişafının strateji istiqamətləri» (2003), «Qloballaşma və Azərbaycanda insan inkişafının perspektivləri» (2004), D.İsmayılovun «Azərbaycanın transformasiya prosesində ideologyalar: konservatizm, liberalizm, sosial demokratiya» (2005), T.T.Əhmədovanın «Qloballaşma cəmiyyətin sosial mədəni dinamikasının amili kimi» (2004), A.Əvəzoğlunun «Qlobal problemlər və III minilliyin astanasında humanizmin taleyi» (2004), Z.Ağayevanın «Qloballaşma və milli mədəniyyətlərin taleyi» (2004), S.İsgəndərovanın «Qloballaşma və cəmiyyət» (2004), F.Əliyevanın «Qloballaşma və iqtisadiyyat» (2004), N.M.Məmmədovanın «Qloballaşma və milli iqtisadiyyat və mədəniyyətin inkişafı» (2004), S.M.Mustafayevin «İnsan ekologiyasının qloballaşma prosesində yeri» (2004), E.Aslanovun

«Qloballaşmanın keçid məkanlarına təsiri» (2004), Ə.Tağıyevin «İki əsrin qovşağında» (2004), «Qlobal siyasi proseslər və Milli dövlət ideyası» (2006), Ə.Qəşəmoğlunun «Sosial tərəqqi meyarları», «Tərəqqi və demokratiya» (2005), S.Rahidin «Qloballaşma və türk sivilizasiyası» (2005), S.D.Məmmədovanın «Keçid dovründə şəxsiyyət problemi» (2005), Ə.S.Abbasovun «Müasir dövrün sosio-mədəni problemləri» (2006), Y.Rüstəmovun «Çoxqütblü, çoxsivilizasiyalı yeni dünya» (2007), F.Qurbanovun «Azərbaycan və qloballaşma prosesinin sinergizmi» (2007), R.Mehdiyevin «Azərbaycanın inkişaf dialektikası» (2000), «Azərbaycan: qloballaşmanın çağırışları» (2004), «Gələcək strategiyanı müəyyənləşdirərəkən: modernləşmə xətti» (2008), R.İsmayılovun «Qloballaşma prosesində Azərbaycanın inkişafının bəzi sosioloji aspektləri» (namizədlik dissertasiyası) (2009) və s. məqalələr və monoqrafiyalar nəşr olunmuşdur.

Qeyd edə bilərik ki, 2006-cı ildə Reyhan Hüseynovanın rəhbərliyi ilə yaradılmış Azərbaycan Futuroloqlar Cəmiyyəti (AFC) Azərbaycan cəmiyyətinin müxtəlif istiqamətli inkişaf strategiyasının hazırlanması sahəsində tədqiqatlarla məşğuldur və futurologiya sahəsində 200-dən çox kitab, məqalə, hesabat dərc etdirmişdir. AFC 2006-cı ildə Azərbaycanda 1-ci Beynəlxalq Futurologiya Kollokviumu, 2007-ci ildə Azərbaycan məktəbliləri arasında "Gələcək Nəsillərlə Üz-Üzə" mövzusunda Ümumrespublika İnşa Müsabiqəsini, "İdarəetmə və Qərar-Vermək üçün Gələcəyin Tədqiqatları Konsepsiyaları və Metodları" mövzusunda seminar, 2008-ci ildə "Futuroloji tədqiqatlar və Qafqazın gələcəyi" adlı ilk beynəlxalq konfrans təşkil etmişdir. Bu qeyd olunanlarla yanaşı, Azərbaycanda İnformasiya Cəmiyyətinin qurulması istiqamətində dövlət ciddi addımlar atır. Belə ki, 2003-cü ildə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012)" qəbul olunub. 2005-ci ildə prezident İ.Əliyev «Azərbaycan Respublikasında Rabitə və İnformasiya Texnologiyalarının İnkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan") təsdiqlənib və İnformasiya cəmiyyətinin inkişafı istiqamətində siyasət planı işlənib hazırlanıb və bir qrup qanunlar qəbul olunub.

**YOXLAMA SUALLAR**

1.Azərbaycanda gələcək haqqında ilkin ideyaların əsas mənbələri hansılardır?
2.Zərdüştlük dinində sosial inkişaf haqqında təsəvvürlər nə ilə fərqlənirdi?
3. «Dədə Qorqud» dastanlarında cəmiyyətin inkişaf əsasları necə müəyyənləşdirilir?

4. Nizami Cəncəvinin ideal cəmiyyəti nə ilə fərqlənirdi?
5. Orta əsrlər Azərbaycan mütəfəkkirləri gələcək inkişafın istiqamətlərini necə müəyyənləşdirirdilər?
6.Yeni dövrdə inkişaf etdirilən ədalətli cəmiyyət ideyası orta əsr mütəfəkkirlərinin ədalətli cəmiyyət haqqında ideyalarından nə ilə fərqlənirdi?
7.Müasir dövrdə Azərbaycanda gələcəyin proqnozlaşdırılması və layihələşdirilməsi istiqamətində hansı tədqiqatlar aparılır?

**REFERAT MÖVZULARI**

1.Azərbaycanda gələcək haqqında ilkin ideyalar
2.Zərdüştlük dinində sosial inkişafın əsasları
3. «Dədə Qorqud» dastanlarında cəmiyyətin inkişaf əsasları
4. Nizami Cəncəvinin ideal cəmiyyəti
5. Orta əsrlər Azərbaycan mütəfəkkirlərinin əsərlərində gələcək inkişafın istiqamətləri
6.XIX – XX əsrlər Azərbaycan mütəfəkkirlərinin ədalətli cəmiyyət haqqında ideyaları
7.Müasir dövrdə Azərbaycanda gələcəyin proqnozlaşdırılması və layihələşdirilməsi istiqaməti

**ƏDƏBİYYAT:**


1.Abasov Ə.S. Müasir dövrün sosio-mədəni problemləri. B., Səda, 2006.
2.Abbasov Ə.F., Əsgərov İ.S. Keçid dövrü və yeni iqtisadi təfəkkür /sosial-fəlsəfi təhlil/. Bakı, Nafta-Press, 2001.
3.Qasımlı Ş.A. Yeni təsərrüfat mexanizmi və insan amilinin fəallaşdırılması. B., Az.Dİİ nəşr., 1991.
4.Əliyev Q.C. "Müasir siyasi modernləşmə konsepsiyaları", Siyasətin fəlsəfəsi, B-1998.
5.Mustafayev A.X. Milli və mənəvi dəyərlərin formalaşmasında və inkişafında dövlət-ədəbi dilinin rolu/AMEA-nın FSHTİ «Etika və estetikanın aktual problemləri».B., «Müəllim», 2002.
6. Rüstəmov İ.Ə. «Həsən bəy Zərdabi», Bakı, 1969.
7.Rüstəmov İ.Ə. «Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri», Bakı, «Diplomat» nəşr., 2001.
8.Рустамов Ю.И. «История социально-политических и правовых учений». Б., Издательство Университета «Азербайджан», 2007.
9.Şükürov A.M. «Müstəqil dövrün fəlsəfəsi və filosofları», B., «Səda» nəşriyyatı, 2007.

## Mövzu 2. TEXNOLOJİ PROQNOZLAŞDIRMANIN METODOLOGİYASI (PROQNOZLARIN FORMA VƏ TİPLƏRİ)

Gələcəyi görməyə, qabaqlamağa, proqnozlaşdırmağa və s. çalışırlar. Eyni zamanda gələcəyi planlaşdırmaq, proqramlaşdırmaq və layihələşdirmək olar. Çox zaman bu anlayışları sinonimlər kimi qəbul edirlər, lakin bu anlayışlar sinonim deyil. Proqnozlaşdırma ilə bağlı anlayışlar kitabının hazırlanması 1975-ci ilə aiddir. Əsas anlayışlar kimi öncəgörmə və proqnozlaşdırma qəbul edilir.

**Öncəgörmə** elmi və qeyri-elmi olana bölünür. Elmi öncəgörmə təbiətin, cəmiyyətin və təfəkkürün inkişaf qanunauyğunluqlarına əsaslanan biliklərə görə formalaşır. Qeyri-elmi, yaxud intuitiv öncəgörmə hissiyyata və gündəlik təcrübəyə əsaslanır. Dini öncəgörmə isə gələcəyin fövqəltəbii qüvvələr tərəfindən formalaşdığını qəbul edir, yaxud mövhumatçılığa qapılır. Bəzən öncəgörmə həm gələcək, həm indi, həm də keçmiş haqqında informasiyaya da aid edilir. Məsələn faydalı qazıntı yataqlarının qiymətləndirilməsilə bağlı prezentist öncəgörmə, qədim abidələrin bərpası ilə bağlı rekonstruktiv öncəgörmə, indidən keçmişə yönəlmiş reversiv öncəgörmə, keçmişdən indiyə yönəlmiş imitasion öncəgörmə fərqləndirilir. Öncəgörmə iki konkretləşmə formasından ibarətdir: 1)qabaqcadan xəbərvermə ilə bağlı – deskriptiv, yaxud təsviri, 2) idarəetmə ilə bağlı - preskriptiv, yaxud təlimatlı. **Qabaqcadan xəbərvermə** gələcəklə bağlı problemin həll edilməsi üçün mümkün, yaxud arzu edilən perspektivin təsviri ilə bağlıdır. Əvvəlcədən təlimatlandırma gələcəyə aid informasiyanın şəxsiyyətin və cəmiyyətin məqsədəuyğun fəaliyyəti üçün istifadə edilməsilə bağlıdır. Qabaqcadan xəbərvermə qabaqcadan duyma, proqnozlaşdırma ilə çulğaşır. **Qabaqcadan duyma** gələcək haqqında intuisiya, şüuraltı səviyyədə olan informasiyadır. Qabaqcadan duyma həyat təcrübəsinə əsaslanan məlumatlar toplusudur. **Proqnozlaşdırma** isə xüsusi elmi tədqiqatdır və onun əsas predmeti gələcək inkişaf perspektividir. **Qabaqcadan təlimləndirmə** cari idarəetmə məsələlərinin ehtimallaşdırılması, planlaşdırılması, proqramlaşdırılması, layihələşdirilməsi formalarından ibarətdir. Ehtimallaşdırma fəaliyyətin ideal ehtimali nəticəsinin təmin edilməsinə yönəlir. **Planlaşdırma** - qoyulan məqsədə nail olmaq üçün mümkün vasitələr əsasında insanın gələcək məqsədyönlü fəaliyyətinin proyeksiyalaşdırılmasıdır (cizgilərinin qurulmasıdır). **Proqramlaşdırma** – əsas müddəaların qurulması və planların reallaşdırılması prosesində ardıcıllıqla istifadə edilməsidir. **Layihələşdirmə** – gələcəyin konkret təsvirinin, gələcəklə bağlı konktret proqramların yaradılmasıdır. İdarəetmə bu dörd anlayışı özündə birləşdirir. Lakin bu

anlayışlara aid olan ümumi element – qərardır. Lakin idarəetmədə qərar mütləq planlaşdırma, proqramlaşdırma, layihələşdirmə xüsusiyyəti daşımır. Bu anlayışlar həm də proqnozların, məqsədlərin, planların, proqramların, layihələrin, təşkilati qərarların hazırlanması prosesi kimi müəyyənləşdirilə bilər. Bu nöqteyi-nəzərdən proqnoz – perspektivlər, mümkün vəziyyətlər və alternativ yollar haqqında elmi əsaslandırılmış ehtimali mühakimədir. **Məqsəd** – ehtimali nəticələrə dair qərardır. **Plan** – müəyyən işlərin müəyyən vaxtda və müəyyən vasitələrlə yerinə yetirilməsilə bağlı nizamlı, ardıcıl fəaliyyət haqqında qərardır. **Plan** – tədbirlər sisteminin nizamlanması, ardıcıllığı, tədbirlərin yerinə yetirilmə vaxtı və vasitələrini nəzərdə tutur. **Proqram** – tədbirlər toplusuna aid olan qərar kimi elmi-texniki, sosial, sosial-iqtisadi və digər problemlərin həllinə yönəlir. **Proqram** plandan əvvəlki qərar, həmçinin planın müəyyən aspekti ilə bağlı ola bilər. **Layihə** – müəyyənləşmiş tədbirlə bağlı qərardır və proqramın bu və ya digər aspektinin reallaşdırılması üçün vacibdir. **Qərar** – məqsədə nail olmaq üçün güman edilən ideal fəaliyyətdir.

Dini öncəgörmə vəhy, qabaqcadan xəbərvermə, fala baxma, sehrbazlıq, cadu, dua və s. formalara malikdir. Qabaqcadan xəbərvermə və qabaqcadan təlmatlandırma bir-birilə sıx bağlıdır. Təlimatlandırmada iradi başlanğıc üstünlük təşkil edir, buna görə də onun elmi əsaslandırılması vacibdir, yəni təsvir (analiz), izah (diaqnoz) və qabaqcadan xəbərvermə (proqnoz) hər bir elmin üç əsas funksiyasını təşkil edir. Proqnozlaşdırma gələcəyin bəzi hissələrini duymaqdan ibarət deyil, proqnoz verən gələcək təzahürlərin dialektik səbəbiyyətinə əsaslanır, zərurətin təsadüfdən doğduğunu nəzərə alır, gələcək təzahürləri öyrənərkən ehtimali yanaşmaya istinad edir. Məhz belə yanaşmada proqnoz daha səmərəli istifadə edilə bilər. Pronoz plandan əvvəl olmalı, hadisələrin gedişini, planların nəticələrini qiymətləndirməli, planlaşıdırılması və qərarlaşdırılması mümkün olmayan bütün təzahürləri əhatə etməlidir. Proqnoz hər hansı bir zaman kəsiyini əhatə edə bilər. Pronoz və plan gələcək haqqında informasiyanın istifadəsinə görə fərqlənir. Mümkün və arzu edilənin ehtimali təsivri proqnoza aiddir. Mümkün və arzu edilənlə bağlı tədbirlərə dair qərarların qəbul edilməsi plana aiddir. Proqnoz və plan bir-birindən asılı olmayaraq hazırlana bilər. Planın səmərəli olması üçün əvvəlcədən proqnoz olmalı və planlı fəaliyyət gedişində proqnozlaşdırma davam etməlidir. Gələcəyin proqnozlaşdırılması üçün bir sıra **qanunauyğunluqlara** əsaslanmaq lazımdır: statik, tsiklik dinamik, sosiogenetik. **Statika** proqnozlaşdırılan sosial obyektin strukturunu, onun daxili və xarici qarşılıqlı əlaqələrini aşkar etməyə və sosial sistemlərin gələcək dinamikasında vacib tarazlığın saxlanmasına kömək edir. **Tsiklik**

**dinamiklik** sosial sistemlərin inkişafında qeyri-bərabərliyi aşkar etməyə, tsikllərin və fazaların bir-birini əvəz etməsini, sosial böhranların əmələ gəlməsini, sistemlərin qarşılıqlı əlaqəsini görməyə imkan verir. **Sosiogenetika** sistem mövcud olduğu dövrdə onun mövcud dəyişikliklərə uyğunlaşmasını əsaslandıran irsi dəyişkənlik mexanizmlərini izah etməyə, dəyişən sosial şəraitdə sistemin yaşamaq imkanlarını qoruyan və genotipi zənginləşdirən təbii və məqsədyönlü seçmə bacarıqlarını müəyyənləşdirməyə imkan yaradır. Ən mürəkkəb və məsuliyyətli element olan tsiklik dinamikanın proqnozu tsikllərin və onun fazalarının, mərhələli böhranların bir-birini əvəz etməsini nəzərdə tutur. Hər bir tsikl öz inkişafında 5 mərhələ keçir: 1) əvvəlki tsiklin nüvəsində yeninin əmələ gəlməsi; 2) yayılma (diffuziya); 3) sabit inkişaf (yetkinlik); 4) köhnəlmə; 5) yeni, daha proqressiv sistem tərəfindən sıxışdırılma. Bu mərhələlərdən sonra sistem ya yeni mərhələyə keçir, ya da süqut edir. Sosial sistemin dinamikasında tsikllər müxtəlif müddətli olur: qısa müddətli tsikllər (3-4 il); orta müddətli (8-12 il); uzun müddətli (40-60 il); çox uzun müddətli (bir neçə əsr) və minillik tsikl.

Sosial sahədə proqnozlaşdırmanın 3 **növünü** fərqləndirirlər: I – qeyri-sabit hadisələrin proqnozlaşdırılması; II – müəyyən dərəcədə düzgün təkrarlanma, tsiklik xüsusiyyətli hadisələrin proqnozlaşdırılması; III – bu və ya digər ümumi tendensiyaların inkişafının proqnozlaşdırılması. Proqnoz verərkən genetik və ilahiyyatçı yanaşmalar nəzərə alınmalıdır. Genetik yanaşma tədqiq edilən obyektin qanunauyğunluqları və tendensiyalarının dərindən öyrənilməsinə əsaslanır. İlahiyyatçı yanaşma subyektiv və obyektiv qanunauyğunluqların təhrif olunmasına əsaslanır. Hər iki yanaşmanın kombinə edilməsi pronozların əsaslandırılmasını, fəallığını və məqsədyönlülüyünü təmin edir. Hal-hazırda əsas üç amil: 1) bazar iqtisadiyyatı şəraitindəki qeyri-sabit və dəyişkən mühit; 2) mülkiyyətin mərkəzdən uzaqlaşması; 3) açıq cəmiyyət, çoxsahəli iqtisadiyyat əsas rol oynayır.

Sosial proqnozlaşdırmanın üç əsas **funksiyasını** fərqləndirirlər: 1)Proqnozlaşdırılan obyektin inkişaf və qarşılıqlı əlaqələndirilməsi sisteminin tendensiyasının proqnozlaşdırılması; 2) Qəbul edilən qərarların proqnozlu əsaslandırılması; 3) Qərarların yerniə yetirilməsinin proqnozla müşayiət edilməsi – proqnozlaşdırmaya əsaslı təsir göstərir.

Sosial proqnozlaşdırma qeyri-müəyyən, bir mənalı olmayan və strateji xarakterli olur. Proqnozun qiymətləndirilməsi onun həqiqilik dərəcəsinə uyğun olur. Mütləq verifikasiya proqnozun empirik təsdiqinə və ya inkarına əsaslanır. Nisbi verifikasiya yoxlama tədqiqatlarla proqnozlaşdırılmış hadisənin düzgünlüyünün əvvəlcədən öyrənilməsinə cəhd edir. Yüksək

həqiqilik dərəcəsi təsdiq olunan pronoz plan işlərinin əsasını təşkil edir. Əks təqdirdə proqnozun həqiqiliyi dəqiqləşdirilir.

Sosial proqnozlaşdırma aşağıdakı mərhələlərə bölünür:

1) proqnozdan əvvəlki mövqeyin və ya tədqiqat proqramının tərtib edilməsi. Bu zaman proqnazlaşdırma obyekti və proqnozun parametrləri müəyyən edilir. Proqnozun parametrləri dedikdə – əsaslandırma mərhələsi, müəyyənləşdirmə mərhələsi və proqnozun həqiqiliyi nəzərdə tutulur. Burada məqsəd və vəzifələr, parametrələr, problemlər, hipotezlər, metodlar, tədqiqatın strukturu və təşkili formalaşdırılır.

2) Proqnozlaşdırma obyektinin modeli qurulur.

3) Obyektin inkişafına təsir edən xarici amillərin təhlili yolu ilə proqnozlaşdırma fonu müəyyən edilir.

4) Modelin maksimal və minimal imkanları hesablanır və mümkün problemlər ağacı qurulur.

5) Normativ proqnozlaşdırmada ideal (qeyri-məhdud proqnozlaşdırma fonu) və optimal (məhdudiyyətlərin nəzərə alınması) vəziyyəti müəyyənləşdirilir və bu istiqamətdə mümkün fəaliyyət yolları hazırlanır.

**Proqnozların tipologiyası** məqsəd, vəzifə, obyekt, problem, metodlar, pronozlaşdırmanın təşkili və s. kimi müxtəlif meyrlara görə müəyyənləşə bilər. Əsas meyar problem-məqsədli meyardır: proqnoz nə üçün hazırlanır? Əsasən proqnozun iki tipi fərqləndirilir: kəşfiyyat və normativ. **Kəşfiyyat pronoz** – təzahürün gələcəkdə mümkün vəziyyətinin müəyyənləşdirilməsinə yönəlir. Mümkün qərar və fəaliyyətdən təcrid edilərək, tədqiq edilən təzahürün keçmiş və cari inkişaf meylləri nəzərə alınmaqla onun gələcək inkişaf meyllərini dəyişmək və proqnozun özünü reallaşdırması, yaxud özünü məhvi prosesinə nail olmaq mümkündür. Belə proqnoz – mövcud meyllərin saxlanması şəraitində nə baş verə bilər? – sualına cavab verir. Kəşfiyyat proqnoz müəyyən imkanlar şkalası əsasında qurulur və bu əsasda proqnozlaşdırılan təzahürün ehtimal dərəcəsi müəyyənləşir.

Kəşfiyyat proqnozlaşdırma və ya ekstrapolyasiya idarəetmə obyektinin keçmiş və müasir inkişaf tendensiyalarını nəzərə alaraq, onun gələcəkdə mümkün vəziyyətini müəyyənləşdirməkdir. Bu ənənəvi, məqsədli proqnozlaşdırmadır. Bu proqnozlaşdırma növü sosial idarəetmə obyektinin müxtəlif nöqteyi-nəzərlərdən analiz edilən bir sıra ehtimali vəziyyətlərini öyrənir. Bu gələcək problemli vəziyyəti ifadə edən informasiya olub, idarəetmə qərarlarının qəbul edilməsinə xidmət edir. İdarəetmə obyekti haqqında düzgün proqnozlar söyləmək üçün sosial mühitin inkişafına təsir edən keyfiyyət dəyişiklikləri nəzərə alınmalıdır. Proqnoz dairəsi elmi-texniki, demoqrafik, ekoloji, iqtisadi, daxili və xarici siyasi vəziyyəti və cəmiyyətin

digər sahələrini əhatə edir. Proqnozun həqiqilik səviyyəsi elmi faktların, əsaslandırılmış tendensiyaların tamlığından asılıdır. Sosial proqnozlaşdırmada kompleks proqnozlar istifadə edilir. Buraya aparıcı və köməkçi istiqamətli proqnozlar daxil olur. Bu metod idarəetmədə geniş istifadə edilir. Lakin böhran və keçid dövrlərində bu metod düzgün nəticələr vermir.

**Normativ pronqoz** – təzahürün mümkün vəziyyətinə nail olma yollarının və müddətinin müəyyənləşdirilməsilə bağlıdır. Bu zaman norma, ideallar, hərəkətverici səbəb və məqsədlər əsasında arzu edilən vəziyyətə nail olma nəzərdə tutulur. Belə proqnoz – arzu edilənə hansı yollarla nail olmaq mümkündür? – sualına cavab verir. Normativ proqnozlaşdırma qoyulan məsələdən müşahidə edilən meyllərə yönəlir. Normativ proqnozlaşdırma normativ planlaşdırma, proqramlaşdırma, yaxud layihələşdirməyə uyğundur və normalara nail olmanın mümkün, alternativ yollarının ehtimali təsviridir. Normativ proqnozlaşdırma qərarların obyektivlik və səmərəlilik səviyyəsinin yüksəldilməsilə bağlı tövsiyyələr təklif edir.

**Məqsədli pronoz** alt tip kimi – nə arzu ediləndir və nə üçün? – sualına cavab verir. Bu zaman dəyər funksiyası əsasında: arzu ediləndir – daha az arzu ediləndir – daha çox arzu ediləndir – çox arzu ediləndir – səmərəlidir şkalası istifadə edilir. Oriyentasiya – məqsədə nail olmanı optimallaşdırır. **Plan proqnoz** – planların yerinə yetirilməsi gedişində kəşfiyyat və normativ proqnozlaşdırmanın məlumatlarından istifadə edərək, daha məqsədəuyğun normativlərin, məsələlərin, təlimatların seçilməsi, lazımsız alternativlərin aradan qaldırılması və qərarların mümkün nəticələrinin aşkar edilməsinə yönəlir. Bu proqnoz – qoyulan məqsədlərə daha səmərəli nail olmaq üçün planlaşdırmanı necə və hansı istiqamətdə yönəltməli? – sualına cavab verir.

**Proqram proqnoz** – arzu edilənə nail omaq üçün nə vacibdir? – sualına cavab verir. Bu suala cavab vermək üçün həm kəşfiyyat, həm də normativ proqnozlaşdırmanın nəticələri vacibdir. Proqram proqnozlaşdırma müxtəlif amillərin mümkün qarşılıqlı təsiri haqqında hipotez hazırlamalı, məqsədə nail olmanın ehtimali müddətini və ardıcıllığını müəyyənləşdirməlidir. Bu əsasda plan proqnozun başladığı iş sona çatdırılır.

**Layihə proqnoz** – bu necə mümkün ola bilər, bu necə görünəcək? – sualına cavab verir. Layihə proqnozlar səmərəli layihələşdirmənin optimal variantlarının seçilməsinə kömək edir.

**Təşkilati proqnoz** – qərarı hansı istiqamətdə yönəltmək? – sualına cavab verir. Bu zaman kəşfiyyat və normativ proqnozlaşdırmanın nəticələri müqayisə edilir və bu əsasda idarəetmənin ümumi səviyyəsini yüksəldən təşkilati tədbirlər kompleksi müəyyənləşdirilir.

Zaman müddətinə görə - operativ (cari), qısa, orta, uzun və çox uzun müddətli proqnozlar fərqləndirilir. **Operativ proqnozlar** tədqiqat obyektində əsaslı dəyişikliklər (nə kəmiyyət, nə də keyfiyyət) gözlənilməyən yaxın gələcəyə aid olur. **Qısa müddətli proqnozlar** yalnız kəmiyyət dəyişikliklərini, **uzun müddətli proqnozlar** isə həm kəmiyyət, həm də keyfiyyət dəyişikliklərini nəzərdə tutur. **Orta müddətli proqnozlar** qısa və uzun müddətli proqnozlar arasında orta mövqe tutur, bu zaman kəmiyyət dəyişiklikləri üstünlük təşkil edir. **Çox uzun müddəti əhatə edən proqnozlar** isə təbiətin və cəmiyyətin ümumi inkişafı ilə bağlı əhəmiyyətli səviyyəli keyfiyyət dəyişikliklərini nəzərdə tutur. Operativ proqnozlar – müfəssəl kəmiyyətli qiymətləndirməni, qısa müddətli proqnozlar – ümumi kəmiyyət, orta müddətli proqnozlar – kəmiyyət-keyfiyyət, uzun müddətli proqnozlar – keyfiyyət-kəmiyyət, çox uzun müddətli proqnozlar – ümumi keyfiyyət qiymətləndirilməsini nəzərdə tutur.

Proqnozların müddətli bölgüsü nisbidir və proqnozun xüsusiyyət və məqsədinə görə müəyyənləşir. Bəzi elmi-texniki proqnozlarda müddət günlərlə, geologiya, yaxud kosmologiyada isə miliyon illərlə ölçülə bilər. Sosial-iqtisadi proqnozlarda inkişaf xüsusiyyətinə və sürətinə uyğun olaraq, operativ proqnozlar – bir ilə qədər, qısa müddətli – bir ildən beş ilədək, orta müddətli – beş ildən on ilədək, uzun müddətli – on ildən on beş ilədək, çox uzun müddətli – on beş ildən çox uzun müddəti əhatə edən proqnozlar verilir. Bu zaman sosial-iqtisadi sahənin müxtəlif tərəfləri nəzərə alınır. Siyasətdə qısa və uzun müddətli proqnozlar arasındakı zaman müddəti – on il, şəhərsalmada – yüz il, iqtisadiyyatda – xalq təsərrüfatı planlarına əsasən müəyyənləşir. Tədqiqat obyektinə görə təbiətşünaslıq, elmi-texniki və ictimai proqnozlar fərqləndirilir. Təbiətşünaslıqla bağlı proqnozlarda qabaqcadan xəbərvermə və təlimat vermə arasında qarşılıqlı əlaqə çox zəifdir, çünki obyekt idarəedilməzdir. Burada yalnız kəşfiyyat xarakterli proqnozlaşdırmadan istifadə edilir. İctimai proqnozlarda bu əlaqə o dərəcədə sıxdır ki, özünü təsdiqləmə, yaxud özünü məhv ilə nəticələnə bilər. Buna görə də burada idarəetmənin səmərəliliyini yüksəltmək üçün kəşfiyyat və normativ proqnozlaşdırma uyğunlaşdırılmış şəkildə istifadə edilməlidir. Elmi-texniki proqnozlaşdırma aralıq mövqe tutur.

Təbiətşünaslıqla bağlı proqnozlar – **meteoroloji** (hava, hava axını, təbiət təzahürlərilə və s. bağlı), **hidroloji** (dəniz qabarmaları, sunami, tufan və digər hidroloji təzahürlərlə bağlı), **geoloji** (faydalı qazıntı yataqları, zəlzələ, lava axını və s. bağlı), **bioloji və kənd təsərrüfatı da daxil olmaqla** (məhsuldarlıq, xəstəlik və bitki və heyvanlar aləmində və biosferdə baş verən hadisələr), **tibbi-bioloji** (insan xəstəlikləri), **kosmoloji** (səma cismlərinin

vəziyyəti və hərəkəti, şüalanma və digər kosmik təzahürlər), **mikro dünyanın fiziki-kimyəvi** təzahürləri haqqında proqnozlar verilir.

Elmi-texniki proqnozlar dar mənada mühəndis proqnozlaşdırılması adlandırılır və materialın vəziyyəti, iş mexanizmləri, alətləri, elektron aparatları ilə bağlı olur, geniş mənada isə elmin inkişaf problemləri, elmi kadrlar və müəssisələr, texniki problemlər, kənd təsərrüfatı, nəqliyyat, informasiya texnologiyaları və s. ilə bağlı proqnozlardır.

İctimai proqnozlar – **sosial-tibbi** (səhiyyə, bədən tərbiyəsi və idman), **sosial-coğrafi** (yer səthinin mənimsəmə perspektivləri), **sosial-ekoloji** (təbii mühit və cəmiyyət arasında tarazlığın saxlanması), **sosial-kosmik** (kosmosun mənimsənilməsi perspektivləri), **iqtisadi** (xalq təsərrüfatının və iqtisadi münasibətlərin inkişaf meylləri), **sosioloji** (sosial münasibətlərin inkişaf meylləri), **psixoloji** (şəxsiyyət, onun davranışı, fəaliyyəti), **demoqrafik** (inkişaf, yaş strukturu, miqrasiya), **filoloji-etnoqrafik, yaxud linqvist-etnoqrafik** (dilin, yazının, şəxsi adların, Milli ənənələrin, adətlərin inkişafı), **memarlıq-şəhərsalma** (yerləşdirmənin sosial aspektləri, şəhər və kəndlərin inkişafı), **təhsil-pedoqoji** (tərbiyə və təlim, xalq təhsili sahəsində kadr və müəssisələrin inkişafı, yaşlıların özünütəhsilləndirilməsi və s.), **mədəni-etnik** (incəsənətin, ədəbiyyatın, mədəniyyətin maddi-texniki bazası, bədii məlumat, mədəniyyət sahəsinə aid kadrların və müəssisələrin inkişafı və s.), **dövlət-hüquqi** (dövlətin və qanunvericiliyin, hüquq və kriminologiyanın, hüquqi münasibətlərin inkişafı və s.), **daxili siyasət** (öz və digər ölkələrin daxili siyasəti), **xarici siyasət** (öz və başqa ölkələrin xarici siyasəti, beynəlxalq münasibətlər), **hərbi** (hərbi texniki, hərbi iqtisadi, hərbi siyasi, hərbi strateji, hərbi taktiki, hərbi təşkilati) proqnozlaşdırmadan ibarətdir.

Çox zaman təbiətşünaslıqla bağlı proqnozları elmi-texniki proqnozlar, ictimaiyyətlə bağlı proqnozları isə sosial-iqtisadi proqnozlar adlandırırlar. Bu proqnozlar qarşılıqlı əlaqəli olur. İnsan təbiətə, məhsuldarlığa və s. təsir edə bilir. Çox güman ki, az sonra insan təbiəti, dəniz qabarmalarını idarə edəcək, zəlzələlərin qarşısını alacaq, məsuldarlığı dəqiq müəyyənləşdirəcək, fizioloji və psixoloji inkişafı proqramlaşdıracaq, səma cismlərinin hərəkətini dəyişəcək və s. Bu halda proqnozlar arasındakı fərq tədricən aradan qalxacaq.

Elm və texnikanın inkişafı ilə bağlı proqnoz vermək üçün iqtisadiyyat, demoqrafiya, mədəniyyət və s. sahələrə dair göstəricilərə malik olmaq vacibdir. Bu göstəricilərin toplanması üçün məqsədli qruplaşmalar yaranır. Məqsədli qruplaşma aparıcı (profilli) və köməkçi (fon) istiqamətlərə bölünür. Məqsədli qruplaşmada ən inkişaf etmiş sahə xalq təsərrüfatının proqnozlaşdırılmasıdır. Burada iqtisadi və sosial proqnozlaşdırma aparıcı, elmi-texniki və demoqrafik proqnozlaşdırma isə köməkçi rolunda çıxış edir.

Proqnozların məqsədli qruplaşmasının yaranması müxtəlif sahələrdən olan mütəxəssislərin qüvvələrinin cəmlənməsi əsasında proqnozlar hazırlanmasına şərait yaradır. Məqsədli qruplaşmanın aparıcı istiqaməti proqnozun profilini yaradır. Köməkçi istiqamətlər, proqnozun fonu proqnozlaşdırma obyektinin xarici göstəricilərindən ibarət olur. Profil göstəricilərdən fərqli olaraq, fon göstəriciləri tədqiqatın obyekti olmur, onları ya sifarişlə alırlar, ya da mövcud elmi ədəbiyyatdan götürürlər. Standart proqnoz fonu elmi-texniki, demoqrafik, iqtisadi, sosioloji, sosiomədəni, təşkilati-siyasi, beynəlxalq olana bölünür. Adətən proqnozun məqsəd və vəzifələrindən asılı olaraq bir sıra alt bölmələr fərqləndirilir. Sahə proqnozlaşdırma ilə proqnozlaşdırmanın məqsədli qruplaşması arasındakı fərq prinsipial xüsusiyyət daşıyır.

Proqnozların hazırlanması qanunauyğunluqları haqqında elm – proqnostikanın predmeti proqnozlaşdırma qanunları və üsullarıdır. Proqnostikanın vəzifəsi nəzəri proqnostik tədqiqatın qnoseoloji və məntiqi problemlərinin, proqnozların tipologiyasının elmi prinsiplərinin hazırlanması, proqnozlaşdırma metodlarının təsnifatı, hipotez və proqnoz, proqnoz və qanun, analiz və proqnoz, proqnoz və plan, qərar və s. qarşılıqlı əlaqəli anlayışların müəyyənləşdirilməsi və s. ibarətdir. Proqnostikanın əsas məsələlərindən biri proqnozlaşdırmanın metodoloji əsaslarının işlənməsidir. Proqnostikanın strukturunda proqnozlaşdırmanın xüsusi nəzəriyyələri inkişaf etdirilməlidir.

Proqnozlaşdırmanın əsasında gələcək haqqında 3 qarşılıqlı tamamlayıcı informasiya mənbəyi durur:

- uyğun təzahür və proseslərin analogiyası əsasında pronozlaşdırılan təzahürün gələcək meyllərinin, vəziyyətinin qiymətləndirilməsi;
- keçmişdə və indiki zamanda yaxşı məlum olan meyllərin, inkişaf qanunauyğunluqlarının gələcəkdə şərti davamı;
- inkişaf meylləri yaxşı məlum olan bir sıra şərtlərin gözlənilən, yaxud arzu edilən dəyişilməsinə uyğun olaraq, bu və ya digər təzahürün, prosesin gələcək vəziyyətinin modelinin qurulması.

Bu əsasda proqnozun qurulması üçün bir-birini tamamlayan üç vasitədən istifadə edilir:

- anketləşdirmə (intervü, sorğu) – proqnozun subyektiv qiymətləndirilməsi xüsusiyyətinin obyektivləşdirilməsi məqsədilə əhalinin, ekspertlərin sorğuya cəlb edilməsi (proqnozlaşdırma təcrübəsində sorğu hələki nadir hallarda istifadə edilir);
- ekstrapolyasiya (kənar qiymətlənlirmə) və interpolyasiya (daxili qiymətləndirmə), yaxud prosesin iki məlum məqamı arasındakı aralıq mahiyyətinin aşkarlanması, yəni proqnoz tədqiqatların retrospeksiyası (keçmiş

vəziyyəti) və prospeksiyası (lahiyələşdirilməsi) müddətində proqnozlaşdırılan təzahürün dinamik inkişaf ardıcıllığının qurulması;

- modelləşdirmə – proqnozlaşdırılan təzahürün ehtimali, yaxud arzu edilən dəyişilməsinin miqyası və istiqamətini nəzərə alaraq, kəşfiyyat və normativ modellərin qurulmasıdır. Modelləşdirmə dedikdə – ssenari, imtiasiya, qrafiklər, matritsa, qrafik təsvirlər və s. nəzərdə tutulur.

Proqnoz qiymətləndirmə özündə mütləq ekstrapolyasiya və modelləşdirmənin elementlərini cəmləşdirir. Ekstrapolyasiya prosesi isə qiymətləndirmə və modelləşdirmə elementləri olmadan mümkün deyil. Modelləşdirmə də qiymətləndirmə və estrapolyasiya elementləri əsasında qurulur.

Proqnozlaşdırma üsulları proqnozun hazırlanmasında nəzəri və təcrübi yanaşma forması olub, poqnozun hazırlanması prosesində müəyyən nəticənin alınmasına yönəlir. Proqnozlaşdırma proseduru – müəyyən əməliyyatlar məcmusunun yerinə yetirilməsində istifadə edilən üsullardır. Metod – mürəkkəb üsul olub, bütövlükdə proqnozun hazırlanmasına yönəlmiş sadə üsullar toplusudur. Metodika – nizamlanmış üsul, prosedur, əməliyyatlar, tədqiqat qaydaları toplusudur. Proqnozlaşdırmanın metodologiyası – proqnozlaşdırma metodları, üsulları, sistemləri haqqında biliklər sahəsidir. Proqnozlaşdırma üsulu – həmcins metodlar vasitəsilə gələcək haqqında informasiya toplanması və hazırlanmasıdır. Proqozlaşdırma sistemi – mürəkkəb təzahür, yaxud proseslərin proqnozlaşdırılması üçün nəzərdə tutulan metodika, texniki vasitələr toplusudur. Proqnozun həqiqiliyi, dəqiqliyi və uzaq müddətə yönəlməsi üçün bu vasitələr məcmu şəklində istifadə edilməlidir.

Proqnozun hazırlanmasında əsas əməliyyatlar aşağıdakı mərhələlərlə yerinə yetirilir:

1.Proqnozdan əvvəlki oriyentasiya (tədqiqat proqramı). Proqnozun əsas məsələsinin dəqiqləşdirilməsi: xüsusiyyəti, miqyası, obyekti, əsaslandırma mərhələləri və s. Problemin məqsəd və vəzifələrinin, predmetinin və hipotezinin qısa və dürüst ifadə edilməsi, tədqiqat metodlarının, strukturunun və təşkilinin müəyyənləşdirilməsi.

2. Sistemli analiz metodları ilə proqnozlaşdırılan obyektin ilkin modelinin qurulması. Modelin dəqiqləşdirilməsi üçün əhali və ekspertlər arasında sorğu keçirmək olar.

3. Müəyyən metodlar vasitəsilə proqnoz fonununa dair göstəricilərin toplanması.

4. Ekstrapolyasiya metodları vasitəsilə proqnoz modelləri göstəricilərinin dinamik sıralanmasının qurulması, bu materialın modeldən əvvəlki proqnoz ssenarisi formasında ümumiləşdirilməsi.

5. Profil və fon göstəricilərinin minimum, maksimum və daha ehtimali əsaslarda konkretləşdirilməsi və kəşfiyyat analizi metodları vasitəsilə proqnozlaşdırılan obyektin hipotetik (ilkin) kəşfiyyat modellərinin qurulması.
6. Absolyut (proqnoz fonu ilə məhdudlaşdırılmayan) və nisbi (proqnoz fonu çərçivəsində) optimal göstəricilərin əvvəlcədən müəyyənləşdirilmiş norma, ideallar və məqsədlər əsasında konkretləşdirilməsi və normativ analiz metodları vasitəsilə proqnozlaşdırılan obyektin hipotetik (ilkin) normativ modellərinin qurulması.
7. Proqnozun həqiqiliyinin və dəqiqliyinin, həmçinin əsaslandırılmasının (verifikasiyası) qiymətləndirilməsi, yəni ekspertlərin sorğusu metodu vasitəsilə hipotetik modelin dəqiqləşdirilməsi.
8. İdarəetmə sahəsində qərarlar verilməsi üçün kəşfiyyat və normativ modellərin müqayisəsi əsasında tövsiyyələr verilməsi. Tövsiyyələrin dəqiqləşdirilməsi üçün yenidən əhali və ekspertlər arasında sorğu keçirilə bilər. Bəzən bu əsasda tövsiyyələrin gələcək nəticələrinin dəqiqləşdirilməsi üçün model ssenarilər qurulur.
9. Proqnoz və tövsiyyələrin ekspert təhlili (ekspertiza), tamamlanması və sifarişçiyə təhvil verilməsi.
10. Hazırlanmış proqnoz materialları ilə yeni proqnoz fonunun göstəricilərinin müqayisə edilməsi, proqnozdan əvvəlki oriyentasiyanın qurulması və yeni tədqiqat tsiklinin başlanması. Proqnozlaşdırma məqsədyönümlük, planlaşdırma, proqramlaşdırma, layihələşdirmə, idarəetmə kimi fasiləsiz olmalı və səmərəliliyin artırılmasına yönəlməlidir.

I. Proqnozların səmərəliliyi yalnız onların həqiqilik, dəqiqlik, uzaq müddətlilik səviyyəsilə ölçülə bilməz. Bu və ya digər proqnoz əsasında verilən qərarların inandırıcılıq, obyektivlik, səmərəliliyin yüksəldilməsilə nəticələndiyini bilmək daha vacibdir.

II. Proqnozların verifikasiyası analiz və diaqnoz göstəricilərinin verifikasiyasından fərqlənir. Proqnozlaşdırmada absolyut verifikasiyadan, yəni hipotezin empirik təsdiqi, yaxud inkarından başqa nisbi verifikasiya mövcuddur. Bu elmi tədqiqatın inkişafına və onun nəticələrinin təcrübədə absolyut verifikasiya imkanları olanadək istifadə edilməsinə kömək edir. Nisbi verifikasiya vasitələri – əldə edilmiş, lakin yoxlama tədqiqatlar tərəfindən tam verifikasiya olunmayan nəticələrin yoxlanmasıdır.

Proqnozun mütləq verifikasiyası zamanı təkrarlanan yaxud paralel tədqiqat (məsələn ekspert sorğusu) aparmaq olar. Əgər nəticələr üst-üstə düşərsə, proqnozun həqiqiliyi təsdiqlənmiş olur, əks təqdirdə proqnozların hazırlanması metodikasındakı səhvləri axtarmaq və aradan qaldırmaq lazımdır. Elmi tədqiqatın əsaslandırılması – biliklər və elmi tədqiqatın

keyfiyyət səviyyəsilə bağlıdır. Əgər yeni elmi məlumat əsaslı elmi nəzəriyyəyə söykənirsə, əgər məlumat elmi tədqiqatın inanılmış metodlar, prosedurlar və əməliyyatları nəticəsində əldə edilibsə, o əsaslandırılmış hesab edilir. Elmi məlumatın həqiqilik meyarı təcrübədir. Təcrübə yalnız empirik olan kimi başa düşülməməlidir, bu zaman ümumilikdə insan cəmiyyətinin tarixi-inkişaf prosesində əldə etdiyi təcrübə nəzərdə tutulur. Əgər proqnoz səmərəli nəticə göstəricilərinə malikdirsə, verifikasiya məqsəd ola bilməz.

III. Proqnoz universal və hər şeyə qadir olan deyil. Proqnozun hazırlanma xüsusiyyətləri proqnozlaşdırmanın həm zaman diapazonunda, həm də tədqiqat obyekti diapazonunda məhdud olduğunu və bu xüsusiyyətin daim nəzərə alınmalı olduğunu göstərir.

**YOXLAMA SUALLAR**

1.Qabaqcadangörmənin hansı səviyyələri fərqləndirilir?
2.Proqnozun hansı tipləri fərqləndirilir?
3.Proqnozlaşdırma hansı informasiyaya əsaslanır?
4.Proqnoz qurularkən hansı vasitə və üsullardan istifadə edilir?
5.Proqnozun qurulmasının əməlliyyatlar ardıcıllığı necədir?

**REFERAT MÖVZULARI**

1.Proqnozlaşdırmanın nəzəriyyəsi və təcrübəsi
2.Sosial proqnozlaşdırmanın mahiyyəti və əsas xüsusiyyətləri
3.Sosial proqnozların tipologiyası
4.Proqnozların alətlər kompleksi
5. Proqnozun hazırlanmasının əməliyyatlar ardıcıllığı

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2. Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.
3.Бешелев С.Д. Гурвич Ф.Г. Экспертные оценки. М., Изд-во Педагогическое общество России, 1999.
4.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
5.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.
6.Методологические проблемы социального прогнозирования / Отв. ред. В.И. Куценко. Киев, 1996.
7.Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.

## Mövzu 3. SOSİAL PROQNOZLAŞDIRMANIN OBYEKTİ, PRİNSİPLƏRİ

Proqnozlaşdırmanın obyekti – 1) müəssisənin istehsal tələbatları; 2) istehsal ehtiyatlarına (maddi, maliyyə, əmək, məlumat) tələbatdır. Proqnoz hər hansı bir elmi təzahür, iqtisadiyyatın inkişafı və onun ayrı-ayrı sahələri ilə bağlı elmi uzaqgörənlikdir. Proqnozlaşdırmanın əsas məsələləri sosial iqtisadi və elmi texniki məsələlərin elmi analizi, gələcəkdə göstərilən proseslərin inkişafının qiymətləndirilməsi, bu inkişafla bağlı yeni problemlər haqqında məlumat verilməsi, sosial, iqtisadi və elmi-texniki proseslərin mümkün inkişaf variantlarının aşkar edilməsi və analizidir. Xalq təsərrüfatında proqnozlar qısa müddətli (3 ilədək), orta müddətli (5-7 ilədək) və uzun müddətli (10 ildən yuxarı) fərqləndirilir. Xalq təsərrüfatının proqnozlaşdırılması sistemi demoqrafik, sosial və iqtisadi proqnozlar, elm və texnikanın inkişafı ilə bağlı, həmçinin təbii ehtiyatlarla bağlı proqnozları əhatə edir. Proqnozlaşdırma – texnologiyaların, texnoloji proseslərin, hadisələrin ehtimali baş vermə müddətini, mümkün işlərin məcmusunu müəyyən edir.

Sosial nəzəriyyədə proqnoz aşağıdakı aspektlərdə öyrənilir: gələcək haqqında məlumat, öncəgörmə forması və s. Lakin sosiologiyada proqnoz fəaliyyət mövqeyi nəzərindən, yəni proqnozun həm də insan, şəxsiyyət, fərdin xüsusi fəaliyyət forması olması öyrənilməyib. Proqnozlu fəaliyyət inkişaf edən sistemin ayrılmaz hissəsi olub, rəhbər və idarəetmə fəaliyyətinin əsas elementlərindəndir. Proqnoz tarix boyu həm funksional, həm də təşkilati olaraq əmək prosesinə tabe edilib. Proqnozlaşdırma kooperasiya və kollektiv işin əsas forması olub, zəhmətkeş kütlələri ictimai inkişafın planlaşdırılması və rəhbərliyi prosesinə cəlb edir. Əmək fəaliyyətinin hər bir formasında, idarəetmə və təsərrüfat qərarlarının qəbulu zamanı bu fəaliyyət sahələrinin necə dəyişəcəyini və bu dəyişikliklərin qərarların qəbul edilməsinə təsirini əvvəlcədən görmək vacibdir. Fəaliyyətin sosial, iqtisadi, ekoloji təsirini əvvəlcədən görmək onların gələcək uğuruna şərait yaradır. Proqnozlaşdırma gələcək təzahür və tendensiyalar haqqında bilikdir. Proqnozlaşdırma çox aspektli sosial məlumatın sistemli ümumiləşdirilməsini tələb edir. Müsbət proqnoz arzu edilən olub, insanları nailiyyətlər əldə etməyə yönəldir, mənfi proqnoz isə təhlükəli olub, onun qarşısının alınması üçün ictimai qüvvə tələb edir. Sistemli analiz -

1) proqnozun predmetinə təsir edən müsbət və mənfi xüsusiyyətli faktorlararası əlaqələri;
2) tendensiyanı sürətləndirən amillərin bir-birini tamamlamasını;

3) tədqiq edilən tendensiyaya təsir etməyən və ya mövcud şəraitdə mümkün dəyişikliklərdə neytral amillərin əlaqəsinin müəyyənləşdirilməsini;
4) müəyyən mərhələdə inkişaf meyllərini zəiflədən amillərin qarşılıqlı təsirini müəyyən və tədqiq etməyə çalışır.

Proqnoz – idarəetmə obyektinin inkişafı ilə bağlı olan çoxvariantlı modellərin planlaşdırılmasından əvvəl hazırlanması prosesidir. Müddət, işin həcmi, obyektlərin rəqəmli göstəriciləri və s. proqnozlaşdırmada nisbi xüsusiyyət daşıyır və gələcəkdə düzəlişlər edilməsi nəzərdə tutulur. Proqnozdan fərqli olaraq, plan planlaşdırma obyektinin xüsusiyyətlərini nəzərə almaqla müəyyən vaxtda həyata keçirilir. Planlaşdırma daha rasional proqnoz variantı əsasında aparılır. Proqnozlaşdırma zamanı aşağıdakı məsələlər fərqləndirilir:
1) proqnozlaşdırma üçün vacib məlumatın toplanması, sistemləşdirilməsi, analizi və düzəlişlər edilməsi;
2) obyektin inkişaf problemlərinin və mövcud tendensiyaların analizi;
3) obyektin inkişafının planlaşdırılması çərçivəsində proqnozun hazırlanması.

Proqnozlaşdırma üçün əsas informasiya mənbələri aşağıdakılardır:
1) dövlətin statistik hesabatları;
2) kütləvi və seçmə tədqiqatların nəticələri;
3) müəssisə və təşkilatların statistik, maliyyə-mühasibat və operativ hesabatları;
4) ölkə daxilində və xaricdə elm və texnikanın inkişafına dair məlumatlar əsasında elmi-texniki sənədləşdirmə;
5) patentli-lisenziyalı sənədləşdirmə.

Tədqiq edilən obyektə görə proqnozlaşdırma modelləri qurulur, bu modellər obyektin gələcəkdəki mümkün vəziyyəti haqqında məlumat almağa imkan verir. **Model** – obyektin şərti təsviri olub, onun tədqiqini asanlaşdırmaq məqsədilə qurulur. Makroiqtisadi, mikroiqtisadi, nəzəri, tətbiqi, bərabər ölçülü, səmərələşdirici, statik, dinamik, determinik və stoxastik (ehtimali, təsadüfi) modellər fərqləndirilir. **Makroiqtisadi modellər** – maddi və maliyyə göstəricilərinin sıx qarşılıqlı əlaqəsinə əsaslanan iqtisadiyyatı vahid tam kimi təsvir edir. **Mikroiqtisadi modellər** – iqtisadiyyatın müxtəlif struktur və funksional tərkibinin qarşılıqlı təsirini, yaxud bazar mühitindəki hər hansı bir tərkibinin davranışını təsvir edir. **Nəzəri modellər** – iqtisadiyyatın ümumi mahiyyətini, onun xarakterik elementlərini öyrənməyə imkan verir. **Tətbiqi model** – konkret iqtisadi obyektlərin funksiyalaşması parametrlərini qiymətləndirməyə və təcrübi qərarların qəbul edilməsi üçün məsləhətləri müəyyənləşdirməyə imkan verir. **Taraz ölçülü modellər** – müxtəlif vəziyyətlərdə obyekti öz mövcud halından sapdırmağa çalışan amillərin

cəhdinin heçə bərabər olduğunu təsvir edir. **Statik modellər** – obyektin müəyyən vaxt çərçivəsindəki vəziyyətinin təsvirini verir. **Dinamik modellər** – idarəetmədə real proseslərin gedişinə təsir edən müxtəlif qüvvə və qarşılıqlı təsirləri təsvir edir. **Determinik modellər** – dəyişən göstəricilər arasındakı ciddi funksional əlaqənin təsvirinə əsaslanır. **Stoxastik (ehtimali) modellər** – tətbiq edilən göstəricilərə təsadüfi təsirlərin mümkünlüyünü qəbul edir və onların təsvirində nəzəriyyəyə əsaslanır.

**Sosial proqonzlaşdırmanın prinsipləri**

Elmi texniki prqnozlaşdırmanın əsas prinsipləri aşağıdakılardır:

- proqonozlaşdırmanın sürəkliliyi prinsipi (proqnozlpşdırma obyekti haqqında daim daxil olan məlumatların islah olunması);
- sistemlilik,
- kompleksliliк;
- fasiləsizlik;
- alternativlik;
- adekvatlıq, yaxud uyğunluq;
- optimallıq.

**YOXLAMA SUALLAR**

1.Sosial proqnozlaşdırmanın obyekti nədir?
2.Proqnoz nədir?
3.Proqnozlaşdırmanın əsas informasiya mənbələri hansılardır?
4. Proqnozlaşdırmanın prinsiplərini sadalayın.
5.Hansı proqnoz modellər fərqləndirilir?

**REFERAT MÖVZULARI**

1.Proqnozlaşdırmanın obyekti
2.Proqnozlaşdırmanın informasiya mənbələri
3.Proqnoz modellərin hazırlanması
4.Sosial proqnozlaşdırmanın prinsipləri

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2. Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.
3.Бешелев С.Д. Гурвич Ф.Г. Экспертные оценки. М., Изд-во Педагогическое общество России, 1999.
4.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
5.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.

## Mövzu 4. TƏDQİQAT PROQRAMLARININ HAZIRLANMASI (proqnozdan əvvəlki yönəlmə)

Sosial tədqiqatın proqnozlaşdırma proqramı – tədqiqatın nəzəri əsasları, məqsəd və vəzifələrindən ibarət sənəd olub, informasiyanın toplanması, hazırlanması və analizinə əsaslanır. Proqnozlaşdırma proqramı proqnozlaşdırmanın əsas elementi olub, ilkin mərhələdə tərtib olunur və aşağıdakı funksiyaları yerinə yetirir:

1. metodoloji – elmi, yaxud praktik problem müəyyənləşdirilir. Bu zaman problemlə bağlı tədqiqat aparılır, ümumi məqsəd və məqsədə nail olmaq üçün vacib məsələlər müəyyənləşir.
2. metodiki – ölçü metodlarının istifadəsi üçün tələblər meyarı müəyyənləşdirilir; metodiki vasitələr və qoyulan məsələyə dair prosedurlar nizamlanır; tədqiqatın ümumi məntiqi planı hazırlanır;
3. təşkilati – əməyin rasional bölgüsü məqsədilə tədqiqat qrupunun üzvlərinin birgə fəaliyyəti həyata keçirilir; tədqiqatın mərhələli gedişinə nəzarət edilir.

Tədqiqat proqramının hazırlanması üçün əsas normativ tələblər aşağıdakılardan ibarətdir:

1. məntiqi analiz tədqiqatın son nəticələrinə və praktik reallaşdırılmasına yönəldilir;
2. tədqiq edilən problemə dair təcrübənin, mövcud informasiyanın, həqiqi məlumatın təcrübədə istifadə edilməsi;
3. tədqiqatın bütün elementlərinin və prosedurlarının, tamlığının və konseptual əsaslarının əsaslandırılması;
4. növbəti mərhələlərdə vəziyyətin çevikliyi əsasında həmin vəziyyətin analizi, dəqiqləşdirilməsi və müəyyənləşdirilməsi imkanları.

Proqnozlaşdırmadan əvvəlki oriyentasiya aşağıdakı mərhələlərdən ibarətdir:

**1. Obyektin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi.** Ümumiyyətlə, sosial proqnozlaşdırmanın obyekti sosial orqanizm olan cəmiyyətdir. Sosial sahənin müxtəlif aspektlərini əhatə edən konkret obyektlər aşağıdakı kimi sistemləşdirilir:

- ictimai fikir formaları (dünyagörüşü, elm, incəsənət, əxlaq, hüquq, siyasət, din);
- həyat fəaliyyəti formaları (əmək, məişət, asudə vaxt, ictimai-siyasi fəaliyyət);
- fəaliyyətin formalaşması (təhsil, tərbiyə, idman);
- əhali artımı (demoqrafiya, etnoqrafiya və s.);
- məskunlaşma (region, şəhər, kənd, ekologiya və s.);

- sosial inkişaf (cəmiyyət, kollektiv);
- sosial dəyişikliklər və struktur;
- sosial institutlar;
- sosial qruplar;
- kütləvi informasiya (ictimai fikir, nəşr, radio, televiziya və s.);
- dövlət, beynəlxalq münasibətlər, milli hərəkat və s.

Hər bir sosioloji tədqiqatda olduğu kimi, proqnozlaşdırmanın obyekti – problem vəziyyətin əsas göstəricisi, sosial reallığın müəyyən sahəsi, ictimai həyat subyektinin fəaliyyət sahəsidir. Tədqiqat obyekti problemin analizi əsasında müəyynləşir. Obyekt olaraq, sosial fəaliyyət sahəsi götürülür.

**2.Problemli vəziyyət** – sosial obyektin inkişaf vəziyyəti olub, obyektin funksiyalaşmasının onun gələcək inkişaf tələblərinə uyğunsuzluğu ilə xarakterizə olunur.

**3.Sosial proqnoz problemi** – problem vəziyyətin elmi təsviri forması kimi sosial həyatın müəyyən sahəsinin tədqiqi, nəzəri və təcrübi fəaliyyət vasitələrinin işlənməsi ilə bağlı zəruri göstəri kimi formalaşır, həqiqi və arzu olunan vəziyyət arasındakı uyğunsuzluğun aradan qaldırılmasına yönəlir.

**4.Proqnozlaşdırmanın predmeti** – sosial orqanizm olan cəmiyyətin inkişafını və funksiyalaşmasını əsaslandıran sosial mexanizmlər, bu və ya digər sosial təzahürə dair ilkin, aralıq və son vəziyyət və proseslərin, sosial təzahürün keçmiş, indiki və gələcək inkişaf perspektivlərin məcmusudur.

Tədqiqat predmetinin əsas mexanizmləri:
- sosial fəallıq;
- cəmiyyətin müəyyən struktur qruplarına bölünməsi və bu qrupların mürəkkəb sosial əlaqələr əsasında inteqrasiyası;
- cəmiyyətin sosial təşkili, onun müəyyən sosial institutlara bölünməsi və müəssisələr, təşkilatlar və s. arasında yaranan əlaqələr əsasında həmin institutların inteqrasiyası və s.;
- cəmiyyətin sosial idarəçiliyi.

Müəyyənləşmiş tədqiqatların predmeti təsadüfi olaraq seçilmir, tədqiqat probleminə və tədqiqat obyektinin xüsusiyyət və əlamətlərinin analizinə əsasən formalaşır. Predmetin düzgün seçilməsi uyğun hipotezin irəli sürülməsi və tədqiqat probleminin uğurlu həllinə şərait yaradır.

**5.Proqnozlaşdırmanın məqsədi** – problemlərin həlli modelidir. Proqramda qoyulan məqsədə nail olma nəzəri, metodiki və təşkilati prosedurların əsas səmərəlilik göstəricisi kimi çıxış edir. Məqsədin dəqiq formalaşdırılması tədqiqat probleminin vacib metodoloji tələbidir. İctimai elmlərdə proqnozların obyekti daimi dəyişikliklərə uğrayır və bu əsasda sadə proqnoz özünü reallaşdıra, yaxud özünü məhv edə bilər. Təşkilati-idarəetmə

qərarlarının məqsədyönlülüyü, planlaşdırılması, proqramlaşdırılması, layihələşdirilməsinin səmərəliliyinin yüksəldilməsi məqsədilə uyğun proqnozlar hazırlanır.

**6. Proqnoz tədqiqatların vəzifəsi** – problemin həlli məqsədilə irəli sürülmüş müəyyən tələblər sistemidir. Vəzifələr proqnozun reallaşdırılması vasitəsidir. Vəzifələr proqnozdan əvvəl oriyentasiya, ilkin model və proqnoz fonunun yaradılması, kəşfiyyat və normativ proqnozların hazırlanması, onların verifikasiyası, tövsiyyələr verilməsindən ibarət tədqiqat strukturunu yaradır.

**7.Tədqiqatın əsas metodoloji aləti işçi hipotezdir.** Bu əsasda hipotezin iki forması fərqləndirilir:

1) metodoloji (alətli): müəyyən şəraitdə tətbiq edilən hipotezin əsaslı nəticələr verəcəyi gümanı;

2) konseptual (məzmunlu): tədqiq edilən obyektin gözlənilən, yaxud arzu edilən vəziyyətinə dair gümanlar.

Proqnozda əvvəlcədən proqnozun müddəti (retrospeksiya) müəyyənləşdirilməlidir. Müddətinə görə – operativ, qısa müddətli, orta müddətli, uzun müddətli, daha uzun müddətli və çox uzaq müddətli olanlara əsasən müəyyənləşir.

Proqnoz informasiyanın üç əsas mənbəyi mövcuddur: toplanılmış təcrübə, mövcud meyllərə əsaslanan ekstrapolyasiya (kənar qiymətləndirmə), tədqiq edilən obyektin modelinin qurulması. Bu əsasda proqnozların hazırlanmasının bir-birini tamamlayan üç üsulu fərqləndirilir: ekspertiza (ekspert sorğusu əsasında), ekstrapolyasiya (obyektin əvvəlki vəziyyətinin öyrənilməsi və keçmiş və indiki inkişaf qanunauyğunluqlarının gələcəyə ötürülməsi), modelləşdirmə (dəyişikliklərin miqyası və istiqaməti nəzərə alınaraq, obyektin mümkün və ya arzu edilən dəyişilməsi əsasında onun modelinin qurulması və tədqiqi). Ən səmərəli proqnoz modeli idarəetmə sistemidir. Modellərin digər formaları – ssenari, imitasiya, cədvəllər, matritsalar və s. mövcuddur.

Qeyd edilən proqnozlaşdırma üsulları şərti olub, təcrübədə kəsişir, yaxud bir-birini tamamlayır. Onlardan heç biri ayrı-ayrılıqa proqnozun həqiqiliyini, dəqiqliyini və uzun müddətliliyini təmin edə bilməz, müəyyən uyğunlaşmada səmərəli nəticə verə bilər. Proqnoz qiymətləndirmə ekstrapolyasiya və modelləşdirmənin elementlərini özündə birləşdirir; ekstrapolyasiya prosesi qiymətləndirmə və modelləşdirmə elementləri olmadan mümkün deyil; modelləşdirmə əvvəlcədən qiymətləndirməni və ekstrapolyasiyanı nəzərdə tutur. Proqnozlaşdırma təcrübəsində daim 10 – 15 (nəzəriyyədə 150-dən çox) proqnozlaşdırma metodundan istifadə edilir, buraya bir sıra ekspert sorğusu metodları, həmçinin bir sıra ekstrapolyasiya və digər (ssenari, matritsa, şəbəkə, imitasion və s.) modellər hazırlanması vasitələri də daxildir.

Proqnozlaşdırma tədqiqatı dəqiq təşkilatçılıq tələb edir. Hətta nisbətən sadə sosial proqnozlaşdırma üçün 5-7 mütəxəssisdən ibarət qrup və bir neçə ay (adətən 3 – 6 ay) vaxt tələb olunur. Daha mürəkkəb proqnozlar üçün 10 – 15 nəfərlik mütəxəssis qrupu və 2 – 3 il vaxt lazım gəlir. Tədqiqat qrupunun tərkibi: - rəhbər (ideyalar daşıyıcısı kimi);

- 2, yaxud 3 nəfər köməkçi (biri tənqidi düşüncə tərzinə malik moderator və ya nizamlayıcı, digəri konstruktiv düşüncə tərzinə malik animator, və ya ilhamverici, üçüncüsü analitik düşüncə tərzinə malik ideya sistematizatoru);
- 1 – 2 nəfər təkmilləşdirici-riyaziyyatçı (tədqiqat aparatını lazımi səviyyədə formalaşdırma bacarığı olan);
- katibə kargüzar.

Qrupun 10-15 nəfərədək genişləndirilməsi köməkçilərin sayının artırılması adətən informasiyanın toplanması və hazırlanması, yəni mənbələrin və ədəbiyyatın xülasə edilməsi, ekspertlər və əhali arasında sorğu keçirilməsi, model üçün materialların hazırlanması ilə əlaqədar köməkçi işçilərin işə daxil edilməsi hesabına baş verir.

Ekspert qrupu adətən ekspertizaya təqdim edilən informasiyanı fərqli ümumiləşdirmə təcrübəsi və iş xüsusiyyətinə görə informasiyaya fərqli münasibəti olan müxtəlif səviyyəli ekspertlərdən təşkil olunur.

İşçi sənədlərin siyahısı:

1. İlkin modelin ilkin cizgiləri (ümumi matritsa - qəlib).
2. İlkin modelin parametrlərinin dəqiqləşdirilməsi üçün anket-intervü nümunəsi.
3. Kəşfiyyat və normativ proqnoz modellərin dəqiqləşdirilməsi üçün anket-üntervü.
4. Paralel ekspert sorğusu üçün anket nümunəsi.
5. Ölçü şkalası.
6. İntervü təlimatı.
7. Kodlaşdırma təlimatı.
8. Ekspertlərin kollektiv sorğusunun keçirilməsi təlimatı.
9. Ekspertlərin sorğusu ilə bağlı materialların hazırlanması.
10. Dəqiqləşdirilmiş ilkin modelin göstəricilərinin siyahısı.
11. Proqnoz fonunun xülasəsi.
12. Modeldən əvvəlki ssenari planı.
13. Kəşfiyyat modelinin işçi hipotezləri.
14. Normativ modelin qurulması meyarlarının planı.

İşçi sənədlərin kəmiyyəti, tərkibi, həcmi və xüsusiyyətləri tədqiqatın xüsusiyyətləri, məqsədləri və vəzifələri əsasında formalaşır.

## YOXLAMA SUALLAR

1.Proqnozlaşdırma proqramı hansı funksiyaları yerinə yetirir?
2.Proqramlaşdırmadan əvvəlki yönəlmə hansı mərhələlərdən ibarətdir?
3.Tədqiqat predmetinin əsas mexanizmləri hansılardır?
4.Proqnoz informasiyanın əsas mərhələləri hansılardır?
5.Tədqiqat proqramı hazırlanarkən hansı işçi sənədlər istifadə edilir?

## REFERAT MÖVZULARI

1.Sosioloji tədqiqatın proqnozlaşdırılması proqramı
2.Konkret proqnozun hazırlanmasında proqnozdan əvvəlki yönəlmə
3. Proqnoz tədqiqatın təşkili – optimal tədqiqat qruppu
4. Proqnozlaşdırmanın avtomatlaşdırılması və kompüterləşdirilməsi

## ƏDƏBİYYAT:

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2.Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.
3.Бешелев С.Д. Гурвич Ф.Г. Экспертные оценки. М., Изд-во Педагогическое общество России, 1999.
4.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
5.Гражданников Е.Д. Экстраполяционная прогностика. Новосибирск. 2-ое изд., 2001.
6.Евланов Л.Г., Кутузов В.А., Экспертные оценки. М., "Наука", 1995.
7.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.
8..Методологические проблемы социального прогнозирования / Отв. ред. В.И. Куценко. Киев, 1996.
9.Нормативное социальное прогнозирование. М.: Наука, 1987.
10.Основы экономического и социального прогнозирования / Под ред. В.Н. Мосина, Д.М. Крука. М.: Высшая школа, 1985.
11.Поисковое социальное прогнозирование. М.: Наука, 1984.
12..Прогнозное обоснование социальных нововведений. М.: Наука, 1993.
13..Прогнозирование в социологических исследованиях. Методологические проблемы. / Отв. Ред. И.В.Бестужев-Лада. М., Мысль, 1978.
14. Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
15.Суворов Л.Н. Аверин А.Н. Социальное прогнозирование. М., Эврика, 1984.

## Mövzu 5. İLKİN MODELİN QURULMASI VƏ ONUN ANALİZİ. PROQNOZ FONU MODELİNİN QURULMASI

Sosial həyat təzahürlərinin proqnozu proqnoz modelinin qurulması ilə başlayır və qurtarır. Sosioloji tədqiqatlarda təsviri modeldən istifadə edilir, çünki sosioloji tədqiqatların riyaziləşdirilməsi aşağı səviyyədədir. Bununla əlaqədar olaraq, sosioloji proqnoz modeli tənliklər sistemi, qaydalar toplusu, cədvəl və s. şəklində görünür və tədqiqat obyektinin strukturunu və xüsusiyyətini əks etdirən müəyyən təyinatlı göstəricilər məcmusundan ibarət olur. Sosioloji proqnozlaşdırma modelinin predmeti – analitik, diaqnostik və proqnostik xüsusiyyətli keyfiyyət qiymətləndirilməsinə uyğun formalı tədqiqat obyektidir. İlkin proqnozlaşdırma modeli proqnoz tədqiqatın əsasını təşkil etdiyindən oun hazırlanması vacibdir. İlkin modelin sadə tipi – nizamlı göstəricilər toplusudur. Göstərici – sosial təzahürün, yaxud prosesin əməliyyat xarakteristikası olub, onların mahiyyətini, əlaqə və münasibətlərini əks etdirən ölçü alətidir. Göstərici müşahidə edilən obyektə dair tənqidi, yaxud təqdiredici mühakimələr toplusudur. Məsələn, adam başına düşən orta gəlir səviyyəsi cəmiyyətin maddi rifah halının göstəricisidirsə, havanın çirklənməsi ətraf mühitin qorunması səviyyəsinin göstəricisdir. Geniş mənada göstərici obyektin potensial və ya aktual empirik yoxlanma xüsusiyyətini əks etdirir. Məsələn, hüquq pozuntuları, qidalanma keyfiyyəti, Milli gəlirdə ixracın səviyyəsi cəmiyyətin müxtəlif sahələrinin funksiyalaşması göstəricisidir. Sosial göstərici sosial təzahür, yaxud prosesin mahiyyətini, əlaqə və münasibətlərini əks etdirir və onun ölçü aləti kimi çıxış edir.

Göstəricinin strukturu – indikatum (ölçülər) və indikatordan (ölçən) ibarət olur. İndikatum həmişə indikatorun nəzərində olur. Məsələn, «nigaha daxil olmanın orta yaş həddi» - indikatum, müəyyən yaş həddini nəzərdə tutan isə – indikatordur. «İndikatum» və «indikator» strukturlu hər bir sosial göstəricini ***P(x)*** (***P*** mahiyyətli ***x*** obyekti) ilə ifadə edirlər. Hər bir sosioloji tədqiqatın əsas məqsədi tədqiq olunan təzahür və prosesləri izah etmək, dəyişənlər arasındakı funksional və səbəb əlaqələrini aşkar etməkdir. Funksional əlaqələr göstəricisi ***P(x)YK(x)*** – məntiqi forma ilə ifadə edilə bilər. Belə ki, əgər ***x*** obyekti ***P*** mahiyyətinə malikdirsə, deməli ***K*** mahiyyətinə də malikdir. Müxtəlif obyektlər arasındakı əlaqə isə ***P(x)YK(y)*** formulu ilə müəyyənləşir. Bu formullar müəyyənləşmiş mahiyyətə malik olan göstəricilərə aid edilir.

**Sosial göstəricilərin növləri:**

***1.Kəmiyyət və keyfiyyət göstəriciləri.*** Keyfiiyyət göstəriciləri nominal şkalada kəmiyyətin olduğunu, yaxud olmadığını bildirir (cins, milliyyət, yaş). Kəmiyyət göstəriciləri «az-çox» mahiyyəti ilə əlaqədar diskret (fasiləli) (məs., əhalinin sayının müəyyən vaxtlara görə dəyişməsi) və fasiləsiz (məs., yaş, zaman itkisi) ola bilər.

***2.Vahid və qruplu.*** Vahid göstəricilər dedikdə, vahid predmet kimi qəbul edilən indikatum başa düşülür və mütləq, nisbi, müqayisəli, bitkin mahiyyətli (kontekstual) formalara malik olur. Qrup göstəricilərinin üç növü – analitik, struktur və qlobal – fərqləndirilir.

Bir neçə növün bir göstəricidə (qrup, yaxud fərdlə bağlı) birləşdirilməsi mümkündür. Sosial göstəricilər sosial təzahür, yaxud göstəricinin tədqiqat nəzəriyyəsindən metodologiyaya keçidini əsaslandırır və empirik məlumatın toplanaraq, analiz və izah edilməsi və bu əsasda obyektin konseptual modelinin qurulmasını ifadə edir.

**İlkin modelin hazırlanması.**

İlkin modelin qurulması mərhələləri:

1) obyektin konseptual modelinin qurulması;
2) göstəricilərin ideoqrafik (işarəli) göstəricilərinin qurulması;
3) göstəricilərin ekspert qiymətləndirilməsi;
4) göstəricilərin riyazi-statistik qiymətləndirilməsi.

**Obyektin konseptual modelinin hazırlanması**

Konseptual modelin hazırlanması məqsədilə aparılan təhlil zamanı obyekt məhdud ölçü vahidi kimi təqdim edilir. Sonra isə həmin obyektin bütün mümkün vəziyyətləri eyniləşdirilir və qiymətləndirilir. Öz mahiyyətinə görə bu əməliyyat obyektin məntiqi-analitik sxeminə uyğundur. Məsələn, «dəyər yönümlərinin struktur» modeli qurularkən – əmək, məişət, mədəni, ictimai fəaliyyət yönümü  struktur komponentləri kimi müəyyənləşir. Sonrakı mərhələdə hər bir komponentin keyfiyyət forması təyin edilir. Adətən model qurularkən nəzərə alınır ki, hər bir struktur komponenti bir neçə normativ forma ala bilər, məsələn, ali, orta, aşağı. Bu formalar obyektin həyat fəaliyyətinin hərtərəfliliyini təmin edə bilmir və gələcəkdə nəticə nəzəri analiz edilir. Nəticədə obyektin çoxölçülü analitik modeli formalaşır. Sxem-matritsada obyektin (dəyər yönümləri) 4 təzahür növünün (əmək, məişət, mədəni, ictimai fəaliyyət) hər biri 3 normativ formaya (ali, orta, aşağı) malikdir. Sxem «məntiqi kvadrat» sosioloji tədqiqat alətinə uyğun olaraq, mürəkkəb sosial obyektin ümumi göstəricisinin hazırlanmasına kömək edir. Hər bir damada normativ bala uyğun göstəricilər qeyd edilir. Yekun birölçülü göstəricilər əsasında təsnif edilir. Belə cədvəl normativlərin empirik təhlili

aparılmadan həyata keçirilə bilməz, yəni indeksləşmədə mövcud çətinlik tədqiq edilən obyektin əsas göstəricilərinin tapılması və seçilməsilə bağlıdır. Sxem şəklində bu proses iki səviyyədən ibarətdir:

- sadalanan əsas göstəricilər;
- göstəricilərdən hər biri tərkib hissəsi kimi müəyyənləşdirilərək, göstəricilərin formal şəcərəli strukturunu yaradır.

**Göstəricilərin tezaurusunun (işarəli görünüşünün) qurulması**

İnformasiya toplanması prosesində tədqiqatçıya verilən sualların siyahısı və təsnifatı əsasında göstəricilərin tezaurusu qurulur. Tezaurus – tədqiq edilən obyektin sosial göstəricilərinin siyahısı olub, qəbul edilmiş sxemə uyğun olaraq toplanmış və sistemləşdirilmiş sosioloji informasiyaya əsasən hasil edilmiş metodik sənədlərin analizi nəticəsində qurulur. Tezaurusda bilavasitə istifadə edilən məhdud sayda göstəricilər toplanır. Bu göstəricilər elm üçün zəruri praktik məsələləri əks etdirir və tədqiq edilən obyektin əsas problemlərilə bağlı olur. Sosioloji tədqiqatın mövcud probleminin və mahiyyət göstəricilərinin ilkin sxem əsasında təsnif edilməsi gümanı sistemin qurulması ilə bağlı nəzəri hipotez ola bilər. Metodiki hipotez isə müasir sosiologiyada istifadə edilən göstəricilərin kəmiyyətinin məhdudluğu və hesaba alınması ilə bağlıdır. Tədqiqatın empirik sahəsi sosioloji informasiyanın toplanması prosesində kitabxana, arxiv və təşkilatın məlumatlar bazasından əldə edilmiş metodiki sənədlər toplusu ola bilər. Hər bir göstərici (sual və cavab variantları) ayrıca kartoçkaya köçürülür və şifrələnir. Tədqiq edilmiş sənədlərin kartotekası yaradılır. Təcrübə göstərir ki, milli münasibətlər, dəyər yönümləri, mədəniyyət, ictimai həyat, sosial təminat və s. tipli obyektlər üçün sosioloji tədqiqatda istifadə edilən və sosial göstəricilərin mahiyyyətini tam əks etdirə bilən məlumatlar 200 – 300 sənədin analizi əsasında aşkar edilə bilər. Bununla yanaşı tədqiqatçı obyektin tədqiqat istiqamətlərinə dair təsəvvür əldə edir (məsələn, ictimaiyyətə əks təzahürtlərin analizi zamanı ilk növbədə hüquqi və əxlaqi-etik aspektlərin pozuntusu təhlil edilir və ictimaiyyətə əks fəaliyyətə gətirən səbəblərə daha az diqqət yetirilir). Tədqiq edilmiş göstəricilər sisteminin oxşar tədqiqatlarla müqayisəsi daha əhəmiyyətlidir. Bu, əldə edilmiş göstəricilərin daha obyektiv qiymətləndirilməsinə şərait yaradır. Lakin nəzərdə saxlamaq lazımdır ki, sistem tədqiq edilən obyektin bütün göstəricilərini sərf etmir və nisbi bütövlüyə malik olur. Onun əsas funksiyası – tədqiq edilən obyektin göstəricilər sisteminin qurulmasında məlumatlandırma mənbəyi olur.

**Göstəricilərin ekspert qiymətləndirilməsi**

Göstəricilər sisteminin qurulmasının metodoloji problemlərindən biri göstəricilərin seçilməsi meyarlarının müəyyənləşdirilməsidir. Bu problemə

məntiqi və tarixi yanaşma fərqləndirilir. Məntiqi yanaşma tədqiq edilən obyektin formal strukturunun analizi ilə bağlıdır. Tarixi yanaşma obyektin funksiyalaşmasının tarixi mahiyyətilə bağlıdır və metodoloji xüsusiyyətli hipotez irəli sürməyə imkan verir. Hipotezin yoxlanması üçün ekspert qiymətləndirməsi medodundan istifadə edilir. Bu zaman sosial problemlər və sosial məqsədlər vəhdətdə götürülür. Kəşfiyyat və normaiv proqnozlaşdırmanın əsas mərhələsi «problemlər ağacı» və «məqsədlər ağacının» qurulmasıdır. «Məqsədlər ağacı» ayrılıqda nə mücərrəd-deduktiv əsaslarda, nə də empirik-induktiv əsaslarda qurulmamalıdır. Bir tərəfli yanaşma məqsədlərin qoyuluşunda səhvlərə səbəb olur. «Problemlər ağacı» qurularkən nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəliliyi saxlanmalıdır və bu ekspert qiymətləndirilməsinin əsas tələbidir. İdealda «məqsədlər ağacı» ilə «problemlər ağacı» üst-üstə düşməlidir. Ekspertlər müəyyən sosial problemlərlə bağlı mütəxəssis olmalı və tədqiq edilən sosial təzahür və onun inkişaf meyllərilə bağlı tam təsəvvürə malik olmalıdırlar. Buna görə də soğrunun keçirilməsində müxtəlif ekspert qruplarıının cəlb edilməsi və bir neçə ekspert sorğu metodundan istifadə edilməsi vacibdir. Sorğular məntiqi ardıcıllığa malik olmalıdır.

**Birdəfəlik qiyabi ekspert sorğusu**

Tədqiq edilən obyektin problem və məqsədlərinin müəyyənləşdirilməsində ekspertlərin iştirakı və ekspert metodlarının istifadəsi çox səmərəlidir. Birdəfəlik qiyabi ekspert sorğusunun məqsədi tədqiq edilən obyektin gələcək problemlərinin sosial mahiyyət səviyyəsini aşkar etməkdir. Ekspertizanın uğuru sorğu aparılan qrupun tərkibi və səriştəliliyindən asılıdır. Ekspertlərin və nəzarət qrupunun üzvlərinin seçilməsi tədqiqatın vacib hissəsidir. Ekspertlər qrupunun xalq təsərrüfatının müxtəlif sahələrində təcrübəyə malik olan mütəxəssis-təcrübəçilərdən seçilməsi səmərəlidir. Nəzarətçi qrup problemin müxtəlif sahələrini tədqiq edən nəzəriyyəçi elmi işçilərdən təşkil oluna bilər. Tədqiqatın birinci mərhələsində tədqiq edilən obyektin əsas problemlərinin ilkin siyahısı tərtib edilir, kontent-analiz vasitəsilə ümumiləşdirmə və dəqiqləşdirilmə aparılır. Nəzarət qrupu ekspertlərin «komissiya metodu» ilə apardığı əyani panel sorğusu problemin ümumiləşdirilməsi, bir-birini təkrarlayan, yaxud xüsusi mahiyyət kəsb edən ayrı-ayrı hissələrin kənarlaşdırılmasına imkan yaradır. Nəticədə «ekspert anketinin» son variantı hazırlanır. Ekspertizanın məqsədi seçilən sosial problemləri və uyğun göstəriciləri ictimai həyatdakı aktuallıq və problemləri səmərəli əks etdirmə səviyyəsinə görə nizamlamaqdır. Problemlər və göstəricilər iki metodika – sıralama və bilavasitə balla qiymətləndirmə

əsasında qiymətləndirilir. Ekspertizanın nəticələrinin hazırlanması ənənəvi riyazi-statistik metodla yerinə yetirilir.

**Ekspertlərin panel sorğusu**

Tədqiq edilən obyektin sosial məqsədlərinin müəyyənləşdirilməsi sosial problemlərin həlli planında baxılır. Sosial problemlər vaciblik və aktuallıq səviyyəsinə görə, həmçinin məqsədlərlə dialektik qarşılıqlı əlaqədə sıralanır. Bu məsələnin həlli üçün destruktiv qiymətləndirmə texnikası istifadə edilir. Bu texnika ekspert qrupuna aid olan intuitiv metodlar, rəylərin kollektiv təhlili və yeni ideyaların əmələ gəlməsilə bağlıdır. Bu metod ekspertiza keçirilməsi qaydalarına əsaslanır və idarə edilən ekspert sorğularına aiddir. Burada orijinal, mürəkkəb qiymətləndirmə əldə edilir. Bu texnikanın mahiyyəti ekspertlərin yaradıcılıq potensialının stimullaşdırılması üçün təklif edilən qiymətləndirmənin tənqid edilməsi və «zehni həmlə» üsulu ilə yeni qiymətləndirmə əldə edilməsindən ibarətdir. Stimullaşdırma effekti əldə etmək üçün işin ilkin mərhələsində ekspertlərin tənqidi mühakimələri süni kənarlaşdırılır, ekspertlərin orijinal konstruktiv mühakimələri sayəsində onların yaradıcılıq potensialı «buxovdan azad edilir» və müzakirələr gedişində ekspertlər problemi yeni, öz həmkarlarının yanaşması ilə görə bilirlər. Bu texnikanın istifadəsi mürəkkəb sosial təzahürlərin yüksək səviyyəli ekspertizasına şərait yaradır. Bu texnika alternativ variantların qiymətləndirilməsi zamanı da çox səmərəli nəticələr əldə etməyə imkan verir. Bu zaman ekspertiza alternativlər toplusunun müəyyənləşdirilməsinə yönəlir. Bu metod alternativlərin xüsusiyyətinə təsir edən amillərin aşkar edilməsi və qiymətləndirilməsi üçün də dəyərlidir.

**Destruktiv qiymətləndirmə metodu aşağıdakı mərhələlərdə tətbiq edilir:**

***1.Sorğu prosesinin təsviri və təhlil obyektinin xülasəsi əsasında problem siyahısının tərtib edilməsi.*** Bu mərhələ problemin qoyuluşu və sorğuda qoyulacaq məsələlərin sıralanması ilə başlanır. Burada ümumiləşmənin dəqiq aparılması vacibdir, buna görə də adətən mürəkkəb obyektlər daha sadə elementlərə bölünür.

***2.Ekspert qrupunun formalaşdırılması.*** Bu qrupun optimal say tərkibi empirik yollarla müəyyənləşdirilib, belə ki, daha sadə məsələlər qoyulduqda – bir nəfər, daha mürəkkəb məsələlərdə isə bir neçə nəfər ekspert cəlb edilir. Tənqidi düşüncə tərzinə malik moderatorlar, konstruktiv düşüncə tərzinə malik generatorlar və problemin hər hansı bir sahəsi, yaxud bütöv problemlə yaxşı tanış olan ekspertlərin, həmçinin digər elm sahələrindən olan mütəxəssislərin cəlb edilməsi vacibdir.

***3.»Zehni həmlə» qaydalarına uyğun olaraq, problemin təhlili əsasında yeni ideyaların formalaşması.*** Bu zaman aparıcı mütəxəssis təhlil olunacaq problemi təklif edir, yəni sorğudan bir neçə gün əvvəl ekspertlərə təqdim olunmuş problem siyahısını açıqlayır, ekspertlərin məsələ ilə bağlı suallarına cavab verir, təhlil olunan problemi formalaşdırır və iştirakçıların fikrini «zehni həmlənin» həyata keçirilməsinə yönəldir:
- ekspertlərin fikirləri dəqiq və yığcam olmalıdır (reqlament: 1-2 dəqiqəlik müəyyənləşdirilir);
- şübhəli yanaşmalar və əvvəlki çıxışların tənqidi qəbul edilmir;
- hər bir ekspert bir neçə dəfə çıxış edə bilər;
- əvvəlcədən hazırlanmış cavabların oxunmasına icazə verilmir;
- əvvəlki çıxışla bağlı fikirlər bildirilməsinə üstünlük verilir;
- aparıcı ekspert digərlərini orijinal yanaşmasına görə təqdir edir;
- imkan daxilində ekspertlərin təşəbbüskarlığını və yaradıcılıq potensialını aşkar edən mükalimə şəraiti yaradılır.

*4. **Əvvəlki mərhələdə irəli sürülmüş fikirlər sistemləşdirilir.*** Bu xüsusi analitik sorğu təşkilatçılar qrupu tərəfindən həyata keçirilir:
- bütün qeyd edilən ideyaların siyahısı tərtib edilir;
- hər bir ideya mövcud tədqiqat üçün standart, ümumi qəbul edilmiş anlayışlarla müəyyənləşdirilir;
- bir-birini təkrar edən ideyalar aşkar edilir və kompleks yaradılır;
- ideyalar qruplara görə təsnif edilir;
- növbəti mərhələ üçün tezis-suallar tərtib edilir. Təcrübə göstərir ki, ekspertlərə siyahı təqdim edildikdə onların diqqətinin digər məsələlərə yönəlməsi təhlükəsi yaranır.

***5. İdeyaların dağıdılması və əks ideyaların irəli sürülməsi.*** Təhlil «zehni həmlə» mərhələsində aparılır və ekspertlərdən yalnız hər bir ideyanın tənqid edilməsi tələb olunur və əldə edilən nəticələr problemin mahiyyətinin dəqiqləşdirilməsi üçün istifadə edilir.

*6. **Ekspertizanın nəticələri ümumiləşdirilir:*** bütün tənqidi qeydlərin siyahısı tərtib edilir. Bu metodun istifadə edilməsi tədqiq edilən obyektin sosial məqsədlərinin ekspert qiymətləndirilməsini dəqiqləşdirməyə və sistemləşdirməyə şərait yaradır. Alınan nəticə sosial təzahürün ilkin proqnozlaşdırma modeli ola bilər.

Tədqiq edilən obyektin mümkün göstəricilərinin ekspert qiymətləndirilməsi sosial statistikanın müxtəlif istiqamətlərinin inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə imkan yaradır.

**Ekspertiza aşağıdakı mərhələləri əhatə edir:**

***1.İlkin göstəricilər toplusunun dəqiqləşdirilməsi*** üçün xüsusi əyani sorğu keçirilir. Bu zaman tədqiq edilən sahənin mütəxəssisləri ekspert rolunda çıxış edir.

***2.Dəqiqləşdirilmiş göstəricilər toplusunun qiymətləndirilməsi*** üçün ekspert qrupu yaradılır. Belə ki, əvvəlki qrupda aparılmış ekspert sorğusunun nəticələri bir tərəfli qiymətləndirmə olub, digər baxışları nəzərə almır. Müxtəlif səviyyəli və profilli, mürəkkəb sosial təzahürə əsaslı qiymət verə bilən ekspertlərdən təşkil olunmuş ekspertlər qrupunun yaradılması problemi meydana çıxır. Bu zaman «qar topası» metodu daha əlverişlidir. Bu metoda görə, bir sıra ekspert sorğusu keçirilir, hər bir ekspertdən yaradılacaq qrupa daxil edilə biləcək bir və ya bir neçə mütəxəssisin adının çəkilməsi təklif olunur. Ekspert seçilməsində digər metodlardan biri də tədqiq edilən problemlə bağlı müəlliflər siyahısından, həmçinin sənədli metod, eksperiment, səsvermə və özünüqiymətləndirmə əsasında daha səriştəli ekspertlər siyahısından istifadə edilməsidir. Sənədli metod ekspertin səriştəliliyini rəsmi göstəricilər (elmi dərəcəsi, vəzifəsi, iş stajı və s.) əsasında müəyyənləşdirir. Eksperimental metod ekspertin əvvəlki sorğulardakı iştirakının nəticələrini nəzərə alır. Səsvermə metodu daimi elmi əlaqələrdə olan ekspertlərin qarşılıqlı qiymətləndirilməsinə əsaslanır. Özünüqiymətləndirmə ekspertin – qoyulan problemlə xüsusi məşğul olması, bu haqda müəyyən ədəbiyyatla tanışlığı, yaxud problem haqqında ümumi təsəvvürü ilə bağlı verilən suallara cavabına əsaslanır. Bu metodlardan istifadə edərkən nəzərə almaq lazımdır ki, ekspert qiymətləndirməsi əsasında ekspertin elmi statusu və səriştəliliyi ilə həqiqi səriştəliliyi və özünüqiymətləndirməsi arasındakı fərqi aşkar etmək heç də həmişə mümkün olmur. Ekspert qiymətləndirməsi ilə bağlı ədəbiyyatlarda qeyd edilir ki, ekspertin səriştəliliyinə dair ən səmərəli göstərici özünüqiymətləndirmə əsasında alınır. Ekspert qrupunda optimallığa nail olmaq üçün ekspert qrupuna tədqiq edilən problemin bütün sahələri ilə məşğul olan mütəxəssislər cəlb edilməldir. Geniş və dar profilli mütəxəssislərin səmərəli əlaqələndirilməsi hər bir tədqiqatda xüsusi nəzərə alınmalıdır. Ekspert qrupunun say tərkibi qeyri müəyyəndir.

***3.Hər hansı məhşur metodlardan biri vasitəsilə ekspertizanın aparılması*** – ekspert qiymətləndirilməsinin dəqiqliyi, qrup qiymətləndirməsi üçün uyğun metodların seçilməsi, ümumi razılığın əldə edilməsi və bir sıra digər məqamların nəzərə alınması ilə bağlıdır.

***4.Anoloji modellərin müqayisəli analizi*** – sistem göstəricilərinin təkmilləşdirilməsi məqsədilə tədqiq edilmiş sistemlərin öyrənilməsi, onların müqayisə edilməsi, üstün və zəif tərəflərinin nəzərə alınmasına əsaslanır. Bu zaman lazımi sayda eyni növlü, eyni məzmunlu, strukturlu və məqsədyönlü

sistemlər seçmək mümkün olmur və müxtəlif tipli sistemlərin müqayisəsindən əldə edilən informasiya istifadə edilir. Belə müqayisə zamanı təsadüfi, subyektiv nəticələr alınması təhlükəsi çoxalır. İnformatika, statistika və komparativistikada (müqayisəli dilçilik) çox sayda müqayisəli analiz metodları mövcuddur. Komparativ metodologiyasının formalaşması, komparativ prosedurlar və müqayisə nəticəsində əldə edilən nəticələrlə bağlı aşağıdakılar qeyd edilə bilər:

**I. Komparativ massivin formalaşması.** Təcrübə göstərir ki, müqayisəli tədqiqat aparılması üçün göstəricilərin minimal sayı bir neçə on ola bilir. Əks təqdirdə böyük tədqiqat qrupları uzun müddətli vaxt və vasitələr sərf etməlidirlər. İnformasiya massivinin genişləndirilməsi son göstəricilərin səmərəliliyini azaldır. Reprezentativ (təmsilçi) minimumların iki seçilmə metodu mövcuddur: əvvəlki meyarlara görə potensial massivin mərkəzə doğru daralması; ilkin olan kimi qəbul edilən massivin hər-hansı bir elementinin tədrici genişlənməsi. İnformasiyanın potensial massivinin daralması tədqiqat çərçivəsindən çıxan göstəricilərin tədricən ixtisar olunması ilə müşayiət olunur. Son seçim əsasında tədqiq edilən obyektin sosial göstəricilər sisteminin məhdud çərçivəsi müəyyənləşir. Ümumi şəkildə komparativ massiv tədqiq edilən obyektin göstəricilər toplusu kimi təqdim edilir. Bu formada müəyyənləşdirilən informasiya massivi müqayisəli tədqiqat aparmaq üçün tam reprezentativ olur.

**II. Komparativ prosedur:** göstəricilər blokudur. Müqayisəli analiz iki mərhələyə bölünür: göstəricilər blokunun müqayisəsi; müəyyən göstəricilər haqqında məlumat daşıyan tədqiqat proseduru. Prosedurlar aşağıdakılardan ibarətdir:

a) müxtəlif sistemlərdə göstəricilər blokunun müqayisəsi;

b) tədqiq edilən sistemlərin struktur bloklarının müqayisəli analizi kəmiyyət-keyfiyyət xüsusiyyətli prosedur olub, ayrı-ayrı blokların münasibətini müəyyənləşdirir.

c) hər bir sistemin daxili strukturunun müqayisəli analizi və özünəməxsus xüsusiyyətlərinin öyrənliməsi əsasında sistemlər növlərinə görə bloklarda birləşdirirlir.

ç) sistemin daxili mahiyyətinin müqayisəli analizi proseduru keyfiyyət xüsusiyyətlidir.

**III. Komparativ prosedur:** ayrı-ayrı göstəricilərin təkmilləşdirilməsi üçün tövsiyyələr hazırlanır. Bu məqsədlə 3 tədqiqat proseduru aparılır:

a) bloka daxil olmayan göstəricilərin müqayisəsi;

b) həm bloklar, həm də göstəricilərdən ibarət olan sistemlərin müqayisəsi;

c) xüsusi növ göstəricilərin müqayisəli keyfiyyət analizi.

**Sosial obyektin ilkin modelinin qurulması üçün istifadə edilən göstəricilərin tipologiyası.** Sosial göstəricilər sistemində əsasən xüsusi tip göstəricilərdən istifadə edilir. Bu göstəricilərdən ən geniş yayılanı faiz payıdır. Məsələ düzgün qoyulduqda bu göstərici tədqiqatçıya daha çox məlumat verir. Nəzərə almaq lazımdır ki, sosial göstəricilər – bütövlükdə sosial statistika deyil, onun kiçik bir hissəsidir. Bu göstəricilər əsasında vacib sosial dəyişiklikləri ölçmək, zaman və məkan çərçivəsində dinamik göstəricilər sırasını qurmaq mümkündür. Belə yanaşma bilavasitə tədqiq edilən obyektin bu və ya digər tərəfilə bağlı sosial göstəricilər sistemini əlaqələndirir və ayrılıqda hər bir göstəriciyə qarşı xüsusi tələblə çıxış edir. Sosial göstəriciləri seçərkən aşağıdakıları müəyyənləşdirmək vacibdir:
- təcrübədə istifadə üçün göstəricinin informasiya bazasını;
- göstəricinin obyektin mahiyyətinə uyğunluq dərəcəsinin;
- göstəricinin formalaşdırılması imkanlarının;
-göstəricinin nəzəri və təcrübi işin məqsədlərinə uyğunluğunu;
- lazım olduqda göstəricinin daha səmərəli olanla dəyişdirilməsi imkanının;
- fərqli və müqayisəli əməliyyatlarda ölçünün nəticələrinin təhlili üçün göstərici imkanlarını.

Ümumilikdə müqayisəli analiz bu və ya digər sistemin tarixi yanaşma əsasında tədqiqini tələb edir. Məhz hər iki yanaşmanın uyğun şəkildə istifadə edilməsi tam informasiya verə bilər. Göstəricilər sistemində struktur və problem prinsiplər istifadə edilməlidir. Yalnız bu əsaslarda göstəricilər sistemi səmərəli ola bilər. Müəyyən göstəricilərin seçilməsi sistemlilik, reprezentativlik, uyğunluq, informasiyalılıq, müqayisə, əsaslandırma, səmərəlilik, qənaətcillik, universallıq və funksiyalaşma prinsiplərinə əsaslandırılmalıdır. Bu göstərir ki, hər bir göstərici müəyyən sistemin təsadüfi elementi olmamalıdır, tədqiq edilən obyektin bu və ya digər tərəfinin xüsusiyyətlərini əks etdirməli, onun əhatəli təhlili üçün tam məlumat verməli, obyektin müxtəlif vəziyyətlərinin tədqiqi üçün şərait yaratmalıdır. Nəzəriyyə və təcrübənin müəyyən məqsədlərinə nail olmaq üçün tədqiqat zamanı göstərici ən az zaman, qüvvə və vasitələr itkisi ilə çox səmərəli olmalı, aqreqasiya (hissələrin birləşdirilməsi) və dezaqreqasiya (hissələrin ayrılması) bacarığı olmalı, bütün eynicinsli təzahürlərin təhlili üçün yararlı olmalı, tətbiq edildiyi hər bir əməliyyatın məqsəd və vəzifələrinə uyğun olmalıdır.

***5.Tələb olunan göstəricilər daşıyıcısı olan mətnlərin informasiya analizi***

Sənədli mənbələrin tədqiqi üçün çox sayda üsullar məlumdur: sosiologiya və sosial psixologiyada – kontent-analiz, arxivşünaslıq; informatikada – iknci dərəcəli elementlər kütləsini aşkar etmək üçün ilkin mənbələrin analitik təhlili metodu; faktiki informasiya mətnlərindəki məlumatların indeksləşdirilməsi

(kodlaşdırılması) metodu, mahiyyətindən asılı oaraq bloklara bölünmüş informasiyanın toplandığı ilkin mənbələrin mətnlərinin məqsədli dəyişdirilməsi metodu, müxtəif informasiya sistemlərinin qurulması üçün artıq istifadə edilmiş informasiya banklarının ikinci dəfə istifadə edilməsi metodu. Bu metodlara aid olan ümumi xüsusiyyət mətnlər öyrənilərkən subyektivlik elementinin ən aşağı səviyyəyə çatdırılması və daha obyektiv elmi əsaslarda təhlil aparılmasıdır. Müxtəlif predmetli və müxtəlif tipli mətnlərin informasiya analizi aşağıdakılara imkan yaradır:

1) sosial göstəricilər sisteminin qurulması üçün ədəbiyyatda olan məlumatları və bu məlumatlara uyğun olan yanaşmaları sistematik olaraq təhlil və müqayisə etmək. İnformasiya analizinin bu forması mövcud olan konsepsiyaların və kateqoriyaların öyrənilməsinə yönəlir. Bu zaman qeyd edilən konsepsiyalara dair mətnlərin sistemli analizi nəzərdə tutulur.

2) sosial obyekt haqqında müxtəlif tərəfli biliklər lazımi istiqamətə uyğun sistemləşdirilməlidir. Bu informasiya-məqsədli analiz geniş yayılıb və bilavasitə qnoseoloji obyektə, tədqiq olunan obyektin hipotezinin hazırlanmasına yönəlir. Bu metod bir qədər eksperiment xüsusiyyəti daşıyır, bu zaman müxtəlif mətnlərdən məqsədəuyğun informasiya mənimsənilir. İnformasiya-məqsədli analiz zamanı mətndə həm birinci, həm də ikinci dərəcəli informasiya aşkar olunur. İkinci dərəcəli informasiya çox zaman birinci dərəcəli informasiya ilə üst-üstə düşmür və mətnin məğzi ilə bağlı olan əsas informasiyanı təhrif edir. Mətnlərin informasiya-məqsədli analizi sintetik metod olub, deduktiv (kontent-analiz) və induktiv metodların xüsusiyyətlərini özündə birləşdirir. Burada terminologiyanın sistemləşdirilməsinə informasiya yanaşması mövcuddur. Mətnlərin informasiya-məqsədli analizi əsasında sosial göstəricilər sisteminin qurulması üçün – bir tərəfdən tədqiq edilən sosial obyektin normativ göstəricilərinin, digər tərəfdən real strukturunun aşkar olunmasına yönələn – iki qrup metod istifadə edilir. Birinci qrup metodlar fəaliyyətin bu və ya digər sahəsinə dair mətnlərin informasiya-məqsədli analizini və sosial subyektlərin fəaliyyəti və qarşılıqlı təsiri ilə bağlı modellərin qurulması üçün lazımi göstəricilərin əldə edilməsini nəzərdə tutur. İkinci qrup metodlar – ekspertlərin və əhalinin sorğusu, müşahidə ilə bağlı olub, sosial obyektlərin fəaliyyət və qarşılıqlı təsir strukturunun aşkar edilməsini nəzərdə tutur.

Ümumi tədqiqat sxeminin qurulması üçün aşağıdakı suallara əsaslandırılmış cavablar verilməlidir:

1. Tədqiq olunan obyektin hansı komponenti mətnlərin təhlili zamanı ilkin olan kimi qəbul edilərək, «açar» rolunu oynayır?

2. İnformasiya-məqsədli təhlil zamanı mətnlərin hansı elementləri, hansı parametrlərə görə və nə üçün nəzərə alınmalıdır?
3.Normativ göstəricilər sistemi qurularkən aşkar olunan elementlərin transformasiyası üçün hansı metodlar istifadə edilməlidir?
4. Hansı informasiya əsasında bu göstəricilər həm keyfiyyət, həm də kəmiyyətcə ifadə oluna bilər?

Mətnlərin təhlilinə başlamazdan əvvəl tədqiqat obyektini öyrənmək üçün nəzəri-metodoloji tədqiqat aparılmalıdır. Tədqiqatın birinci mərhələsində mətnin pilotaj (idarəetmə) analizi aparılmalı, əsas kateqoriyaların siyahısı tutulmalı, bu meyarlar əsasında tətbiqi referentlərin (köməkçi amillər) xüsusiyyətləri müəyyənləşdirilməli və mətnin informasiya-məqsədli təhlili əsasında informasiya toplanması üçün sorğu vərəqi hazırlanmalıdır. Növbəti mərhələdə sorğu və qoşulmuş müşahidə aparılır və ikinci səviyyəli informasiya ilə müqayisə aparmaq üçün ilkin informasiya hazırlanır. Əsasən iki növ sorğu istifadə olunur: birinci növ sorğu müxtəlif sosial qruplara aid sıravi vətəndaşlara, ikinci növ sorğu isə vəzifəli şəxslərə, yaxud mütəxəssislərə ünvanlanır. Hər iki sorğu iki variantda yerinə yetirilir: birinci əşyaların indiki vəziyyətini və planlaşdırılmış gələcəyinin, ikinci isə, nəzərdə tutulmuş planların müəyyən zaman çərçivəsində reallaşması dərəcəsinin aşkar edilməsinə yönəlir. İkinci mərhələ mətnlərin analizindən ibarətdir. Bu mərhələdə ilk növbədə maraq dairəsində olan elementlər seçilməlidir. Bu məqsədlə normativ xüsusiyyətli materiallar (lüğətlər, məlumat kitabçaları və s.) tədqiq olunur. Tərtib olunmuş elementlər siyahısı əsasında həmin elementlər arasındakı «münasibətlər toru» qurulur və göstəricilər sistemləşdirilir. Bu sistemlər əsasında həm ilkin, həm siyasi (kəşfiyyat və normativ) modellər qurulur. Tərtib olunmuş «münasibətlər toru» əsasında sosial fəaliyyət subyektlərinin parametrləri, vacib şərait, mümkün nəticələr və s. müəyyənləşdirilir. Mətnlərin bu informasiya-məqsədli analizi uzun zaman müddəti və daha böyük tədqiqatçı qrupu tələb edir. Təklif olunan metodlardan hər hansı biri əsasında ilkin modelin qurulması bir məqsəd daşıyır: proqnozlaşdırma obyektini müəyyənləşdirmək, onu göstəricilər sistemi formasında təqdim etməkdir. Göstəricilər sistemi bu və ya digər dinamik elementlərin keyfiyyət analizinin aparılmasına, matritsa, yaxud riyazi tənliklərin qurulmasına və analitik və dioqnostik yanaşma əsasında tədqiqat obyektinin öyrənilməsinə şərait yaradır. Məhz bu əsasda kəşfiyyat və normativ proqnozlar qurulur.

**İlkin modelin qurulması ardıcıllığı**

1.Aşağıdakı metodlar vasitəsilə ilkin modelin indikatumlarının (mümkün göstəricilərin adı) siyahısının tərtib edilməsi:

- ədəbiyyatda mövcud olan oxşar modellərin ilkin analizi;
- tələb olunan indikatumlardan ibarət olan mətnlərin informasiya analizi;
- tələb olunan indikatumlar haqqında məlumat verən ekspertlərin əyani sorğusu;
- eyni məqsədlə ekspertlərin qiyabi sorğusu;
- həmin məqsədlə ekspertlərin imitasiyalı sorğusu (onların tədqiq olunan obyektə dair əsərlərinin təhlili);
- əhalinin sorğusu;
- modelləşdirmə.

«Komissiya metodu», yaxud «zehni həmlə metodu» ilə ekspertlərin sorğusu vasitə, qüvvə və vaxt baxımından daha qənaətcildir. Tədqiqat metodu nisbətən sadə, ilkin modelin göstəriciləri daha aydın olduqda, ekspertlərin səriştəsi şübhə doğurmadıqda və vasitələr, qüvvələr və zaman digər metodlara müraciət etməyə imkan verdikdə özünü doğruldur. Əks təqdirdə əyani sorğunun nəticələrini dəqiqləşdirmək üçün yoxlama metodlardan istifadə olunur.

2.Gələcək əməliyyatlar üçün əlverişli olan ilkin siyahının hazırlanması. İlkin siyahı çox zaman bir-birini təkrarlayan onlarla, yüzlərlə, minlərlə indikatumları özündə birləşdirir. Əməliyyatın başlanğıcında indikatumların mahiyyət analizi aparılsa da, göstəricilərin sayı çox olur. İndikatorlar sistemi əsasında tövsiyyələr verilir. Göstəricilərin sayı az olduqda indikatorlar sisteminin reprezentativliyi pozulur və tədqiq edilən obyekt haqqında yanlış təsəvvür yaranır.

**İndikatorlar sisteminin daraldılmasının 3 vasitəst mövcuddur:**

a) eynicinsli göstəricilərin ümumiləşdirici indekslərlə əvəz edilməsi başlanğıc vəziyyətdə olan sosial təzahür və proseslərin indeksasiyası nəzəriyyəsinin inkişaf etdirilməsini tələb edir.

b) eynicinsli göstəricilərin aqreqasiyası (tərkib hissələrinin birləşdirilməsi).

c) müəyyən sosial problemə dair eynicinsli göstəricilərin qruplaşdırılması üsulu daha qənaətcil və səmərəli olsa da bir tərəfli yanaşma təhlükəsi doğurur və tədqiq olunan problemin dəqiq xülasəsini tələb edir.

Tədqiqatın ikinci hissəsi ilkin modelin göstəricilərinin sayının azaldılması ilə bağlıdır.

3. Delfi texnikasının «komissiya metodu» ilə alınan modelin müzakirəsi.

4. İlkin modelin tamamlanması.

5. İlkin modelin indikasiyası (təkrar istehsalı).

6.Poqnoz retrospeksiya (keçmişə yönəlmə) – ilkin modelin dinamik göstəricilərinin analizi.

7. Proqnoz analiz – tədqiq edilən obyektin aşkarlanan meyllərinin analizi.

**Proqnoz founun modelinin qurulması**

Əgər sosial proqnozun ilkin modeli proqnoz fonunun modeli ilə üst-üstə düşmürsə, deməli o tədqiqatın məqsəd və vəzifələrinə uyğun olmur. Proqnoz fonu tədqiqat obyektinin inkişafına təsir edən xarici amillər toplusudur. Proqnoz fonunun göstəriciləri tədqiqat obyektinin xüsusiyyətlərinə uyğun göstəricilərlə əks olunur. Profil və fon göstəricilərinin müqayisəsi proqnoz hazırlanması üçün tədqiq edilən təzahürün analizinə şərait yaradır. Proqnoz fonunun standart aspektləri aşağıdakılardır:

- elmi-texniki;
- demoqrafik;
- iqtisadi;
- sosioloji;
- sosial-mədəni;
- siyasi;
- beynəlxalq.

**Elmi-texniki fon:** yanacaq-enerji, xammal, nəqliyyat, sahələrarası, istehsal və digər balanslar; ictimai istehsalın elektrikləşdirilməsi, kimyalaşdırılması, biolojiləşdirilməsi, mexanikləşdirilməsi, kompüterləşdirilməsilə bağlı yeniliklər.

**Demoqrafik fon:** demoqrafik tarazlığın – əhali artımı, ölüm, miqrasiya nəticəsində əhalinin təbii və süni artımı, yaxud azalmasının dəyişməsilə bağlı olan tədqiqat obyektinin öyrənilməsi.

**İqtisadi fon:** ölkənin iqtisadi vəziyyətilə bağlı problemlər, gəlir və xərclərin tarazlığı və s.

**Sosioloji fon:** profilə sıx bağlı olan sosial tələblər və struktur, təşkilatlanma və idarəetmə ilə bağlı profildən kənar göstəricilər.

**Sosial-mədəni fon:** təhsil və mədəniyyət müəssisələrinin funksiyalaşmasına və inkişafına təsir edən maddi-texniki, yaxud təşkilati-informasiya bazasında aparılan yeniliklər.

**Siyasi fon:**

1) siyasət daxili – dövlət-hüquqi, qanunvericilik sahəsinə dair yeniliklər;

2) beynəlxalq – beynəlxalq əlaqələrin inkişaf prosesləri, labüd hərbi-siyasi münaqişələr, silahsızlaşdırma, dünya ticarətinin, mədəni əlaqələrin inkişafı.

Fon göstəricilər tədqiq edilən obyektin inkişaf meyllərinə əsaslı təsir göstərə bilən amillərdir. Proqnoz fonunun göstəricilərini ümumi göstəricilər sistemində birləşdirmək, sonra isə profil göstəriciləri sistemi ilə müqayisə etmək, onlar arasındakı əlaqələri aşkar etmək vacibdir. Profil və fonun əlaqələndirilməsi məqsədilə bir sıra üsullardan istifadə olunur, onlardan biri də sistemli yanaşma prinsipidir. Bu prinsipin mahiyyəti aşağıdakılardan ibarətdir:

- tədqiqat obyekti qarşılıqlı əlaqəli (dönən əlaqələr də daxil olmaqla) elementlərin kompleksi kimi tədqiq edilməlidir;
- bu kompleks onun funksiyalaşmasını və inkişafını əsaslandıran xarici amillərilə vəhdətdə öyrənilməlidir;
- əgər mümkündürsə, obyekt daha ümumi bir sistemin alt sistemi, elementi kimi tədqiq edilməlidir;
- kompleksin elementləri də öz alt sistemləri olan xüsusi sistemlər kimi tədqiq edilməlidir;
- idarəetmənin optimallaşdırılması ilə bağlı tövsiyyələr vermək üçün qeyd edilən tələblər nəzərə alınmaqla obyektin funksiyalaşma və inkişaf qanunauyğunluqları aşkar edilməlidir.

Sistemli analizin metodologiyası ümumilikdə belədir: tədqiq edilən sistem obyektlər, onlar arasındakı əlaqələrin mahiyyəti və əlaqələri şəklində təqdim edilir. Sistem obyektlərinə aşağıdakılar aiddir: giriş, proses, çıxış, əks əlaqə, məhdudiyyət. «Giriş» - prosesdən əvvəl gəlir və proses müddətində dəyişir. «Çıxış» - prosesin son vəziyyətidir. «Proses» - «giriş» və «çıxışın» dəyişməsidir. «Əks əlaqə» «girişi» dəyişməklə həqiqi və arzu edilən «çıxış» arasındakı uyğunluğu təmin edir. «Məhdudiyyət» - «çıxış» ilə onun başqa sistemə «girişi» üçün qoyulan tələblər arasındakı fərqdir. «Əks əlaqələr» alt sistemində gözlənilən və arzu edilən «giriş» müqayisə edilir, onlar arasındakı fərq aşkar edilir, fərqin ləğv edilməsi, yaxud azaldılması üçün «girişə» təsir edən qərar hazırlanır. Vacib (arzu edilən) və mövcud (gözlənilən) giriş arasında fərq varsa, bu problemli vəziyyətin mövcudluğu kimi qəbul edilir. Belə sistemin qurulması problemin şəraitinin, məqsəd və həlli imkanlarının aşkar edilməsi yolu ilə reallaşır. Əgər bu qeyd edilənlər məlumdursa, deməli problem – kəmiyyət xüsusiyyəti, əgər müəyyən qismi məlumdursa – keyfiyyət xüsusiyyəti daşıyır. Problemin həlli funksiyalarının siyahısı aşağıdakılardan ibarətlir: problemin aşkar edilməsi, onun aktuallıq səviyyəsinin qiymətləndirilməsi, məhdudiyyətlərin müəyyənləşdirilməsi, həqiqi olanın analizi, alternativlərin qurulması üçün imkanlar strukturunun müəyyənləşdirilməsi və optimal olanın seçilməsi, qərar qəbul edilməsi, onun reallaşdırılması və nəticələrin müəyyənləşdirilməsi. Sistemli yanaşmanın əsas prinsipləri sistemli analizin metodoloji əsası kimi götürülə bilər.

**Proqnoz fonunun modelinin qurulması və analizi əməliyyatları**

1. Proqnoz fonunun modelinin bütün bölmələr üzrə göstəricilərinin siyahıya alınması. Siyasi və beynəlxalq sahələrdə sosial proqnozlar adətən fonun şərti dəyişməzliyinin qəbul edilməsi ilə fərqlənir. Sosioloji və sosial mədəni sahələr daha çox tədqiqat obyekti olur. Elmi-texniki, demoqrafik və iqtisadi sahələrdə daha ətraflı araşdırmalar aparılır.

2. Əldə edilmiş göstəricilər siyahısının gələcək əmliyyatlar üçün əlverişli vəziyyətə gətirilməsi vasitələri: eynicinsli göstəricilər qrupunun ümumiləşdirilmiş göstəricilərlə əvəz edilməsi; eynicinsli göstəricilərin hissələri birləşdirilərək daha ümumi xarakterli göstəricilər qurulması; hər bir eynicinsli göstəricilər qrupundan «problem» göstəricilərin seçilməsi.

3. Delfi texnikasının «komissiya» metodu ilə alınan modelin dəqiqləşdirilməsi üçün müzakirə aparılması. Əgər tədqiqat predmeti mürəkkəbdirsə, 2-ci və 3-cü əməliyyatlar birləşdirilə bilər.

4. Sistemli analiz metodları ilə proqnoz fonunun modelinin tamamlanması.

5. Proqnoz fonu modelinin təkrar istehsalı (indekasiyası).

6. Fon göstəricilərin proqnoz retrospeksiyası (keçmişə müraciəti).

7. Fon göstəricilərinin proqnoz analizi.

Son nəticə – ilkin modelin qurulması üçün tamamlanmış eyni həcmli və xüsusiyyətli sənəddir. Bəzən bu sənədə modelləşdirmədən əvvəlki ssenari əlavə edilir. Bu ssenari proqnoz fonunun göstəricilərini nəzərə alaraq sonradan hipotezin inkişaf etdirilməsinin əsası olur və tədqiq edilən obyektin gələcək mümkün və arzu edilən vəziyəti haqqında ilkin təsəvvürləri özündə birləşdirir.

**YOXLAMA SUALLAR**

1.Sosial göstəricilərin hansı növləri fərqləndirilir?
2.İlkin modelin hazırlanması mərhələlərini sadalayın.
3.Obyektin konseptual modeli hansı əsaslarda hazırlanır?
4.Göstəricilərin ekspert qiymətləndirilməsi hansı əsaslarda yerinə yetirilir?
5.İlkin modelin qurulması ardıcıllığını izah edin.
6.Proqnoz fonu modeli hansı əsaslarda qurulur?

**REFERAT MÖVZULARI**

1.Konkret sosial proqnozun ilkin modeli
2.Tədqiqat predmetinin problemli təhlili
3.Konkret sosial proqnozun proqnoz fonu
4. Tədqiqat obyetinə aid proqnoz fonunun standart aspektləri

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2.Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.
3.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
4.Гражданников Е.Д. Экстраполяционная прогностика. Новосибирск. 2-ое изд., 2001.
5.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.
6.Нормативное социальное прогнозирование. М.: Наука, 1987.
7.Поисковое социальное прогнозирование. М.: Наука, 1984.
8.Прогнозное обоснование социальных нововведений. М.: Наука, 1993.

## Mövzu 6. KƏŞFİYYAT PROQNOZ

### Kəşfiyyat proqnozun metodikası

İctimai və təbii-elmi proqnozlar müqayisə edilərkən onların özünəməxsus xüsusiyyətləri nəzərə alınmalıdır. Təbiətşünaslıq və texniki elmlərdə tədqiqat obyektlərinin əksəriyyəti dəyişməzdir. Təbiət və texniki elmlərin bütün sahələrində – atmosfer, hidrosfer, litosfer, biosfer, texnosfer, kosmosfer, mikrosfer və digər sahələrdə proqnozlaşdırılan obyektin mümkün real vəziyyətinin qəti proqnozu verilməlidir. İctimai elmlərin obyekti bir qayda olaraq, asanlıqla dəyişikliyə məruz qalır. Bu zaman tədqiq edilən obyektin mümkün vəziyyəti ilə bağlı verilən poqnoz qəti olmur. Bununla belə nəzəri cəhətdən idarə edilən bir çox sosial proseslər qeyri-mütəşəkkil inkişaf etdiyindən burada təbiət elmlərinə dair metodlardan istifadə edilir. Lakin nəzərdə saxlamaq lazımdır ki, analiz edilən prosesin qeyri-mütəşəkkilliyi ciddi nəzarət edilən inkişafla əvəz edilə bilər (məs., əhalinin yerləşdirilməsi, şəhərsalma, demoqrafiya və s. sahələrində dəyişikliklər aparılması tələbi çoxdan mövcuddur). Belə dəyişikliklər həm iradi, həm də tədqiq edilən təzahürün elmi analizi, diaqnozu və proqnozu əsasında həyata keçirilə bilər. Sosial proqnoz qəbul edilən qərarların səmərələşdirilməsinə yönəldilməlidir. Bu məsələyə dair məqsədyönümlük, planlaşdırma, layihələşdirmə və idarəetmə ilə bağlı əsaslandırılmış tövsiyyələr verilməsi üçün kəşfiyyat və normativ proqnozlaşdırma texnikası istifadə edilə bilər. Kəşfiyyat proqnozunun əsas məsələsi – idarəetmə vasitələrilə gələcək problemin aşkar edilməsidir. Bu zaman gələcək haqqında məlumat şərti xüsusiyyət daşıyır. Metodoloji cəhətdən problem vəziyyət haqqında heç bir təsəvvür əldə etmədən sosial modelin kəşfiyyat, yaxud normativ analizi mümkün olmadığı üçün sosial proqnoz kəşfiyyat, yaxud normativ xüsusiyyətli ola bilməz. Ümumiyyətlə, kəşfiyyat (araşdırma, tədqiqat, genetik, diaqnostik) proqnoz tədqiq edilən təzahürün gələcək inkişaf meyllərinin şərti davamı, keçmişdə və indiki zamanda yaxşı məlum olan inkişaf qanunauyğunluqlarıdır. Bu zaman nəzərdə tutulan meylləri mahiyyətcə dəyişə biləcək mümkün, vacib, planlı, proqram layihəli və təşkilati qərarlar bilərəkdən mücərrədləşdirilir. Kəşfiyyat proqnozun məqsədi və mahiyyəti proqnozlaşdırılan obyektin gələcək real vəziyyətinin qabaqcadan duyulması deyil, mövcud meyllərin saxlanması şəraitində real olaraq nə baş verəcəyini izah etməkdir. Kəşfiyyat proqnozunun hazırlanması texnikası keçmişdə məlum olan inkişaf qanunauyğunluqlarının göstəricilərinin gələcəkdə ekstrapolyasiyası prinsipinə əsaslanır. Ən sadə birbaşa (mexaniki) ekstrapolyasiya belə bir prinsip üzrə reallaşır: əgər 1, 2, 3, 4 (əsası qoyulması dövrü) mövcuddursa, kənardan müdaxilə olmaması şərtilə

və nəzərdə tutulan tendensiyaları qorumaqla dinamik göstəricilər qabaqcadan 5, 6, 7, 8 və s. kimi görünəcək. Yaxud əgər interpolyasiya 1, 2, 3, 6, 7, 8 – dirsə, ortada 4, 5 alınacaq. Bu məntiqin səmərəliliyi belədir: bir çox hallarda vacib sosial proseslər müəyyən şəkildə inkişaf edir və proqnoz həqiqətə uyğun olur. Təcrübədə sosial proqnozlar daha mürəkkəb şəkildə formalaşır. Buna görə də ekstrapolyasiya 1, 2, 3, 4 mütləq 5, 6, 7, 8 ilə müəyyənləşməli deyil. Ekstrapolyasiya 6, 9, 15, 24 və 16, 32, 64, 128, və hətta 5, 4, 3, 2, 1 kimi görünə bilər (qeyd edilən rəqəmlər göstəricilərin ardıcıllıq xüsusiyyətini əks etdirir). Ekstrapolyasiya həm kəmiyyət (statik), həm də keyfiyyət (məntiqi) xüsusiyyətli ola bilər, məs., hər hansı bir təzahürün daha geniş zaman, yaxud məkan dairəsinə ekstrapolyasiyası zamanı analogiya metodundan istifadə edilir. Bu texnika əsasən təbiətşünaslıq elmlərində tədqiq edilən proseslər aşkar edilmiş qanunauyğunluqlara uyğun olaraq sabit, geriləmədən və dəyişmədən inkişaf etdikdə istifadə edilir. Sosial sahədə belə proseslər nadir hallarda təsadüf edilir. Sosial proseslər dəyişkən xüsusiyyətli olduğundan birbaşa ekstrapolyasiyada səhvlərin azaldılması üsullarından istifadə edilməsi tələb olunur. Ekstrapolyasiya olunan dinamik göstəricilərin aşağı və yuxarı ekstrem vəziyyətinin müəyyənləşdirilməsidir. Güman edilir ki, yuxarı ekstrem qeyri-real, fantastik vəziyyəti, aşağı ekstrem isə proqnozlaşdırılan obyektin funksiyalaşma imkanı olmayan qəza vəziyyətini təsvir edir. Bu üsulun çətinliyi ekstrem vəziyyətin əsas meyarlarının müəyyənləşdirilməsidir. Digər bir üsul – proqnoz fonunun göstəricilərini (elmi texniki, demoqrafik, iqtisadi, sosioloji, sosial mədəni, siyasi və beynəlxalq) nəzərə alınmaqla daha çox ehtimal edilən vəziyyətin müəyyənləşdirilməsidir. Bu zaman hər vəziyyətdə hər bir qrupa aid olan daha çox informasiya daşıyan göstəriciləri aşkar etmək və onları birbaşa ekstrapolyasiyanın göstəricilərilə, lazım gələrsə aşağı və yuxarı ekstremlə müqayisə etməkdir. Nəticədə daha çox ehtimal edilən meyl müəyyənləşdirilir.

Beləliklə, kəşfiyyat proqnozu 4 əsas komponentdən ibarətdir:

1) İlkin modelin dinamik göstəricilərinin birbaşa ekstrapolyasiyası gələcək proqnozların qurulması üçün oriyentasiya olur.

2) proqnoz kəşfiyyatının yuxarı ekstremi – ilkin kəşfiyyat modelinin göstəricilərinin proqnoz fonunun göstəriciləri ilə müqayisəsinin nəticəsi olub, qeyri-real sahədə nəzərdə tutulan meylin maksimal geriləməsini müəyyənləşdirməyə kömək edir.

3)proqnoz kəşfiyyatın aşağı ekstremi - ilkin kəşfiyyat modelinin göstəricilərinin proqnoz fonunun göstəriciləri ilə müqayisəsinin nəticəsi olub, nəzərdə tutulan meylin qəza sahəsinin başlandığı dairəyədək maksimal mümkün geriləməni müəyyənləşdirir.

4) proqnoz fonunun göstəriciləri nəzərə alınmaqla aşağı və yuxarı ekstremlər arasında ən çox ehtimal edilən meylin müəyyənləşdirilməsidir.

Proqnostik tədqiqat prosesində ilk üç komponent (birbaşa, yuxarı və aşağı ekstremlər) daha çox ehtimal edilən meylin məhdudlaşdırıcıları kimi mümkün dəyişikliklər şəraitində daha real sərhədlərin müəyyənləşdirilməsinə xidmət edir. Birbaşa ekstrapolyasiya ilkin məqam rolunu oynayır və proqnoz fonunun ziddiyyətli göstəricilərinin qiymətləndirilməsi amillərinin daşıyıcısı kimi çıxış edir. Birlikdə bütün dörd komponent qərar qəbul edən şəxslərin dərk etmə imkanlarını genişləndirir, qərarın qəbuledilməzliyini göstərir, idrakın evristikliyini (məntiqiliyini) stimullaşdırır, qəbul edilən qərarların mümkün nəticələrini müqayisə edir, və bütün bunlar birlikdə qərarların obyektivlik və səmərəlilik səviyyəsini yüksəldir.

Kəşfiyyat proqnozun nəticəsi real gözlənilən vəziyyət deyil, mütləq həll edilməli olan problemlər kompleksidir. Kəşfiyyat proqnozun məqsədi gözlənilən problem vəziyyətin, gələcək problemlərin aşkar edilməsidir.

**Problem vəziyyət və onun inkişaf perspektivləri**

Kəşfiyyat proqnozunun hazırlanmasının ən vacib mərhələsi – ilkin proqnozun parametrlərinin yenidən müəyyənləşdirilməsi yolu ilə proqnoz modelin qurulması və bu göstəricilərin obyektiv təhlilidır. Bu prosedurun mahiyyəti perspektiv sosial problemin inkişafı prosesinin izahı ilə bağlıdır. Kəşfiyyat proqnoz modeli problem vəziyyətin tədqiqi və kəmiyyət-keyfiyyət qiymətləndirilməsi əsasında qurulur. Bu sosial təzahürün əsas inkişaf xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- problem ziddiyyətin xüsusi forması kimi, həqiqi və arzu edilən arasında yaranır;
- obyektiv şəkildə mövcud olan problem vəziyyətdə arzu edilən və həqiqi vəziyyətə nail olmaq üçün dəyişikliklərin zəruriliyi insan, sosial qrup, yaxud cəmiyyət tərəfindən subyektiv şəkildə dərk edilir;
- problem vəziyyəti insan, sosial qrup, yaxud cəmiyyət üçün xarici tələblər kompleksi, sosial təzahür kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, problem vəziyyət sosial xüsusiyyətə malik olur.

Əgər problem və problem vəziyyəti obyektiv olaraq mövcuddursa, lakin insanlar tərəfindən subyektiv olaraq dərk edilmirsə, praktiki olaraq, aktual deyil. Əgər vəziyyət insanlar tərəfindən problemli kimi qəbul edilirsə, lakin obyektiv olaraq problemli deyilsə, bu psevdo, yəni saxta problemli vəziyyətdir.

Burada ilkin vəziyyət – adi normal vəziyyətdir. Bu vəziyyətdə həqiqi və arzu edilən arasında parçalanma yoxdur və keyfiyyət xüsusiyyəti daşıyır. Normal vəziyyətdə həqiqi və arzu edilən arasında parçalanmanın olmaması

inkişaf və mövcudluq stimulunun itirilməsi və faciəli vəziyyətin (tənəzzül, normal mövcud ola bilməyən şəxsiyyətin, qrupun, yaxud cəmiyyətin deqradasiyası) yaranmasına gətirir. Həqiqi və arzu edilən vəziyyət arasında yaranan parçalanma hədsiz olduqda və sosial obyektin normal funksiyalaşmasına uyğun olmadıqda problem vəziyyət yaranır. Normal vəziyyətdən problemli vəziyyətə keçid tədrici olub, problem vəziyyətin yetişməsi adlanır. Vaxtında problem vəziyyətin qarşısı alına bilər. Əks təqdirdə əvvəlcə böhranlı vəziyyət yaranır, inkişaf dayanır və qəza təhlükəsi meydana çıxır. Bu vəziyyətdə bir qədər çox qüvvə və vasitələr hesabına vəziyyəti normal halına qaytarmaq imkanı mövcud olur. Əgər normallaşdırılma aparılmazsa, növbəti və sonuncu mərhələ olan ən ağır fəlakətli vəziyyət inkişaf edir. Fəlakətli vəziyyət məhv, tənəzzül, sosial obyektin keyfiyyətcə yeni olana çevrilməsilə nəticələnir. Fəlakətli vəziyyətin alternativi – inqilabi vəziyyətdir və cəmiyyətin faciəli vəziyyəti dəyişdirmək məqsədilə etdiyi sosial çevrilişdir. Belə vəziyyət bütün fəaliyyət sahələrində meydana gələ bilər: elm, texnika, demoqrafiya, mədəniyyət, ekologiya və s. Bu proses labüd, əvvəlcədən müəyyənləşmiş, qaçılmaz deyil. Bu məlumat gələcək mənfi halların qarşısının alınması üçün qərar qəbul edən şəxslər tərəifindən nəzərdə saxlanmalıdır. Problemin həll edilməsi yeni, bəzən daha mürəkkəb problemlər səviyyəsinə daxil olmaq deməkdir. Bu, bəşəriyyətin tərəqqisinin əsasını təşkil edir.

**Sosial problemlər və onların sistemləşdirilməsi**

**Sosial problemlərin əsas xüsusiyyətləri:**

1) bir səviyyədə olan problemin həlli daha yüksək səviyyəli digər problemin meydana çıxmasına səbəb olur;
2) müəyyən inkişaf mərhələsində olan cəmiyyətin mövcud tarixi mühitlə əlaqəsi;
3) sosial problemin sosial məqsədlə (insanların məqsədyönlü fəlaliyyəti ilə) əlaqəli həlli.

**Sosial problemlərin struktur komponentləri:**

1) sosial-iqtisadi şərait;
2) mövcud problemlərin aradan qaldırılması üçün sosial institutların yaradılması;
3) yeni sosial-iqtisadi vəziyyətin meydana gəlməsi;
4) könə sosial institutların yeni şəraitə uyğunsuzluğunun genişlənməsi;
5) yeni yaranan problemlərin həlli üçün yeni sosial institutların yaradılması.

**Kəşfiyyat proqnoz tədqiqatı aparmaq üçün vacib olan problemlər qrupu:**

- qlobal, regional, lokal. Bu problemlərin kəşfiyyat proqnozda təhlili tədqiq edilən məkanın miqyasından asılıdr. Əgər ümumdünya sosial problemlərin öyrənilməsi nəzərdə tutulursa, qlobal, yəni bütün bəşəriyyət üçün aktual olan problemlər tədqiq ediləcək. Regional dedikdə, dünyanın iri sosial-iqtisadi regionları (məs., Latın Amerikası və s.), yaxud böyük dövlət qurumu nəzərdə tutulur. Lokal problemlər xüsusi dövlət, yaxud dövlətin hər hansı bir rayonu ilə bağlı problemlərdir.

**Sosial problemlərin növləri:**

- ənənəvi və yeni. Ənənəvi problemlər – əvvəlki sosial iqtisadi vəziyyətlə bağlı və həlli tələb olunan problemlərdir. Yeni problemlər – yeni sosial-iqtisadi şəraitdə əmələ gələn və həll edilməsi üçün evristik, prinsipcə yeni yanaşmalar tələb edən problemlərdir.
- cari və perspektiv. Cari problemlər – indiki zamanda uğurla həll edilir, yaxud özü-özünü ləğv etmə meylinə malik olur. Perspektiv, yaxud gələcək problemlər yaxın on illikdə inkişaf etmək meyli olan və həll edilməsi üçün keyfiyyətcə yeni yanaşma tələb edən problemlərdir.

Sosial problemlərin sistemləşdirilməsi problemlərin genezisi və strukturu, meylləri və gələcək inkişafını, bu problemlərin həlli yollarını müəyyənləşdirməyə imkan verir.

**«Sosial problemlər ağacının» qurulması**

İctimai həyatda sosial problemlər iyerarxiya xüsusiyyətli sistem yaradır. Bir, yaxud bir neçə problem köklü, yaxud açar problemlər (belə problemlərin həlli digər problemlərin həllinə yol açır), bu əsasda yaranan bir neçə subaçar (ağacın gövdəsi) problemlər, sonra çox sayda ikinci dərəcəli (ağacın budaqları olan) problemlər və s. (ağacın xırda budaqları, yarpaqları və s.) mövcuddur.

«Sosial problemlər ağacı» 3 istiqamətə malikdir:

1) sadə problemlər – əvvəlki səviyyəyə aid problemlərin tərkib hissələrinin dəqiqləşdirilməsi;

2) daha mürəkkəb – məntiqi olaraq biri digərindən çıxan birinci, ikinci, üçüncü və s. dərəcəli problemlər;

3) çox mürəkkəb – cari və gələcək problemlərin həlli səviyyəsindən asılı olaraq mahiyyətcə yeni problemlərin meydana gəlməsi. «Problemlər ağacı» aşağıdan yuxarı qurulur:

- bir, yaxud bir neçə açar problem müəyyənləşdirilir;
- növbəti mərhələdəki problemlərin həlli məqsədilə problemlər sırası dəqiqləşdirilir;
- eyni səviyyədə təsnif edilmiş daha detallı xüsusi problemlər müəyyənləşdirilir.

**Sosial problemlərin səmərəli həlli yollarının sistemləşdirilməsi və müəyyənləşdirilməsinə dair tövsiyyələr**

1.Hər bir sosial problemin özünəməxsus xüsusiyyətləri ümumdövlət və ümumdünya miqyaslı problemlər çərçivəsində öyrənilməlidir. Əks təqdirdə problemin qiymətləndirilməsində səhv nəticələr qaçılmazdır.

2.»Budaqlardakı» problemin həllinə başlanmazdan əvvəl «gövdədəki», ilk növbədə isə «kökdəki» açar problemlərin həlli təmin edilməlidir. Buna görə də proqnozlaşdırılan obyektin ilkin modeli qurularkən ciddi sistemli yanaşma vacibdir. Əks təqdirdə kəşfiyyat modeli qeyri-adekvat olacaq və qərar qəbulu prosesini səhv yönəldəcək.

3.Proqnozun məqsəd və vəzifələrini, hipotez və strukturunu, metod və təşkilatlanmasını yönəltmək üçün problemin müəyyən şəraitdə yetişməsi prosesini, alternativ (birinci və ikinci dərəcəli) həlli imkanlarını və s. aydınlaşdırmaq lazımdır. Bu kəşfiyyat proqnozun əsas problemidir.

**Kəşfiyyat proqnozun qurulması ardıcıllığı:**

1.Proqnozun təsdiqlənməsi mərhələsində sonrakı əməliyyatların aparılması məqsədilə ilkin modelin dinamik göstəricilərinin birbaşa (mexaniki) ekstrapolyasiyası.

2.Proqnoz kəşfiyyatın yuxarı ekstreminin hesablanması: ilkin kəşfiyyat modelinin göstəricilərilə proqnoz fonunun göstəricilərinin müqayisə edilməsi və bu yolla maksimum geriləmələrin müəyyənləşdirilməsi (məs., istehsalın avtomatlaşdırılmasının maksimum mümkün inkişaf sürətinin və miqyasının, əhali artımının və s. müəyyənləşdirilməsi). Burada trend modellərin istifadəsi, modelləşdirmə aparatının genişləndirilməsi (ssenari, matritsa, cədvəl, şəbəkə və imitasion modellər və s.) zəruridir.

3.Maksimum az itki ilə kəşfiyyat proqnozun aşağı ekstreminin hesablanması (məs., ehtiyatların tükənməsi, vasitələrin çatışmazlığı və s.). Nəticə – üçüncü kəşfiyyat modelidir.

4. Proqnoz fonunun göstəricilərinin dərinləşdirilmiş analizi əsasında yuxarı və aşağı ekstremlər arasındakı ən ehtimali trendin (qayənin, fikrin) müəyyənşləşdirilməsi. Nəticə – dördüncü sonuncu kəşfiyyat modelinin, «sosial problemlər ağacının» qurulması.

5. Ekspertlər sorğusu vasitəsilə bütün dörd, yaxud sonuncu kəşfiyyat modelinin təhlili (burada ekspretlərin psixologiyası nəzərə alınmalı, qiyabi kollektiv sorğuda ən qısa vaxt çərçivəsində delfi texnikası istifadə edilməlidir; bir istiqamətlilik, uyğunsuzluq təhlükəsi şəraiti nəzərə alınmaqla fərdi ekspert qiymətləndirməsi aparılmalıdır).

6. Trend metodun nəticələrinin təhlili və vahid sistemdə birləşdirilərək kəşfiyyat proqnoz modelin təkmilləşdirilməsi. İdarəetmədə mütləq bütün mümkün itkiləri nəzərdə tutan trendlər sistemi istifadə edilir.

**YOXLAMA SUALLAR**

1.Kəşfiyyat proqnoz hansı komponentlərdən ibarətdir?
2..Problem vəziyyət dedikdə nə nəzərdə tutulur?
3.5.Sosial problemlərin struktur komponentləri hansılardır?
4.Sosial problemlərin növlərini sadalayın.
5. Kəşfiyyat proqnozun qurulması ardıcıllığı necədir?

**REFERAT MÖVZULARI**

1.Kəşfiyyat proqnozun hazırlanması xüsusiyyətləri
2. Proqnozların tipologiyası
3.Məqsədli və planlı proqnozlar kəşfiyyat və normativ proqnozların alt tipi kimi
4.Proqramlı, layihə və təşkilati proqnozlar alt tip proqnozlar kimi
5.Mexaniki ekstrapolyasiya kəşfiyyat proqnozun əsası kimi

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
3.Гражданников Е.Д. Экстраполяционная прогностика. Новосибирск. 2-ое изд., 2001.
4.Евланов Л.Г., Кутузов В.А., Экспертные оценки. М., “Наука”, 1995.
5.Лезгина М.Л. Детерминация прогнозирования. Л., 2000.
6.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.
7.Поисковое социальное прогнозирование. М.: Наука, 1984.
8.Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
9.Суворов Л.Н. Аверин А.Н. Социальное прогнозирование. М., Эврика, 1984.

## Mövzu 7. NORMATİV PROQNOZ. PROQNOZUN VERİFİKASİYASI. İDARƏETMƏ ÜÇÜN TÖVSİYYƏLƏR

**Normativ proqnozlaşdırmanın əsas xüsusiyyətləri**

Normativ proqnozlaşdırma müstəqil tədqiqat forması olub, kəşfiyyat proqnozun ardınca aprılır. Normativ proqnozlaşdırma aşağıdakı əməliyyatlar ardıcıllığına malikdir:

- verilmiş meyarlara əsasən mütləq və nisbi optimallığın müəyyənləşdirilməsi və uyğun normativ modellərin hazırlanması;
- ekspertlərin və lazım gələrsə, əhalinin sorğusu əsasında qurulmuş modellərin müzakirəsi;
- müzakirələr əsasında modelin tamamlanası.

Normativ proqnozlaşdırma aşağıdakı məqamlardan ibarətdir:

- məqsədyönümlük;
- norma və normativlər;
- plan, proqram, layihələrin hazırlanmasında səmərəliləşdirilmiş hesablar.

Normativ proqnozun hazırlanması üçün kəşfiyyat proqnozlaşdırmada istifadə edilən bütün metodlar tətbiq edilir. Normativ və kəşfiyyat proqnozlaşdırma arasındakı fərq metodikada deyil, tədqiqatın məntiqi ardıcıllığı ilə bağlıdır. Normativ proqnozlaşdırmanın əsasında daha mürəkkəb ideya durur. Kəşfiyyat proqnozlaşdırmada tədqiqatın əsasını keçmişdə və indiki zamanda inkişaf qanunauyğunluqları, məlum olan dinamik göstəricilər sırasının gələcəyə ekstrapolyasiyası təşkil etdiyi halda, normativ proqnozlaşdırmada bu göstəricilərin əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında optimallaşdırılması (mümkün göstəricilərdən ən yaxşısının seçilməsi) ilə bağlıdır.

Normativ proqnozlaşdırma tədqiqatı məqsədyönümlükdən başlayır. Məqsəd iki bir-birinə əks üsulla müəyyənləşdirilir:

- məhdud proqnoz fonundan ayrılıqda;
- həmin məhdudiyyətlərə uyğun şəkildə.

Məhdud proqnoz fonundan uzaqlaşmada iki yanaşma – volyuntarist (iradə əsasında) və elmi. Elmi yanaşma müəyyən idealın olmasını tələb edir. Əgər ideal yoxdursa, normativ yanaşma mənasını itirir. Normativ proqnoz problemin kəşfiyyat proqnoz tərəfindən aşkar edilmiş alternativ həlli yollarının müəyyənləşdirilməsinə, ideala nail olmağa yönəlir. Müəyyənləşdirilmiş ideal normativ proqnozun əsaslandırılmasına və plan, proqram, layihə, təşkilati tədqiqatların səmərəliliyinin artırılmasına kömək edir. Proqnoz fonunun göstəriciləri təhlil edilərkən onlar arasında kompromiss tapılmalı, «ən yaxşı olana», «ideala» deyil, «mümkün olanın ən yaxşısına»

yönəlmək laızmdır. Bu müəyyən optimallığa yönəlməyə keçid əsasında müəyyənləşir. Müəyyənləşmiş ideal mütləq optimallıq, onun əldə edilmiş dəqiqləşməsi isə nisbi optimallıqdır. Həm mütləq, həm də nisbi optimallıq məqsədyönümlüyün, məqsədə dair qərar qəbulunun məhsuludur. Normativ proqnozun həyata keçirilməsi üçün qərarı «desidiv» (idarəetmə) kateqoriyasından «eventual» (məlum vəziyyətdə mümkün olan) kateqoriyasına ötürmək lazımdır. Normativ proqnozlaşdırma məhz bu fəaliyyətdən başlayır. Texniki cəhətdən normativ proqnozlaşdırma reversiv (hərəkət istiqaməti dəyişdirilə bilən) ekstrapolyasiya, yəni gələcəkdən keçmişə yönəlmə əsasında reallaşır. O matritsa, ssenari, şəbəkə, əməliyyat və s., modelləşmə, morfoloji (quruluş) təhlili, ekspertlər sorğusu və s. ilə möhkəmləndirilir. Normativ proqnozlaşdırmada məqsədyönümlük vasitəsilə «məqsədlər ağacı» müəyyənləşir, burada yüksək səviyyə – ideal, orta səviyyə – optimallığın müxtəlif tərəfləri, aşağı səviyyə isə müəyyənləşmiş problemlərin həllidir. Sonrakı fəaliyyət «məqsədlər ağacının» dəqiqləşdirilməsi əsasında proqnozlaşdırma vasitələri, məqsədlərin mümkün reallaşdırılma yollarının müəyyənləşdirilməsi, problemin həlli ilə bağlıdır. Bu, normativ modelləşmə metodu ilə yerinə yetirilir. Nəzərdə saxlamaq lazımdır ki, hər bir eventual fəaliyyət müxtəlif səviyyəli normalarla – texniki, iqtisadi, sosial, hüquqi və s. əlaqəlidir. Norma – məqsəd idealdan, məqsəd səmərəlilikdən fərqli olsa da məqsədyönümlük prosesinə daxildir. Hər hansı bir normaya nail olma, ona yaxınlaşma və onu pozmama – müəyyən məqsədə nail olmağa cəhdlə bağlıdır. İki normativ proqnoz göstəricisinin (mütləq və nisbi) dörd kəşfiyyat proqnoz göstəricisi ilə (birbaşa ekstrapolyasiya, yuxarı ekstrapolyasiya, aşağı ekstrapolyasiya, ən çox ehtimal edilən trend) birləşdirilməsi «proqnoz sahəsi» yaratmağa imkan verir. Proqnoz sahəsi göstəricilərin, eventual nəticələrin müqayisəsi, onlar arasından ən optimal olanın və idarəetmədə istifadə edilməsi tövsiyyə edilənin seçilməsinə və bu əsasda sosial proseslərin səmərəliliyinin yüksəldilməsinə imkan verir. Kəşfiyyat proqnozun nəticəsi perspektivlərin müəyyənləşdirilməsi, problem vəziyyətin aşkar edilməsidir. Normativ proqnozun nəticəsi problemin mümkün həlli və məqsədə nail olma yollarının, yəni məqsədli vəziyyətin müəyyənləşdirilməsidir. Normativ proqnozda sosial məqsədin müəyyənləşməsi əsas məsələdir.

### Sosial məqsədin özünəməxsus xüsusiyyətləri, növləri və təsnifatı

Məqsəd – müqayisə və qiymətləndirmə əsasında ideal, arzu edilən nəticənin qabaqcadan müəyyənləşdirilməsidir. Məqsədin seçilməsi və qoyuluşu qərar və məqsədyönümlük kimi idarəetməyə aiddir. Məqsədin seçilməsi ehtimali, alternativ, eventual ola bilməz. Bu və ya digər məqsədin

seçilməsi, qoyuluşu haqqında qərar sərbəst, impulsiv, iradi, subyektiv ola bilər, lakin analitik, diaqnostik və proqnostik xüsusiyyətli elmi informasiyaya əsaslanmalıdır. Hər bir normativ proqnozlaşdırmanın metodoloji əsası məqsədyönümlüyün qabaqcadan xəbərvermə deyil, qərar olduğunu təsdiq etməkdir. Bu nəzərə alınmazsa, proqnoz səmərəli olmayacaq. Məqsəd qərarın xüsusiyyətlərindən olub, subyektin sosial aktivlik mexanizmlərindən biri kimi çıxış edir. Bu mexanizmin əsas hissələri aşağıdakılardan ibarətdir:
1)sosial dəyərlər (insanlar üçün sosial mahiyyətli olan hər şey);
2)tələbatlar (dəyərlərin istifadə imkanları və cəhdləri);
3) maraqlar (dərkedilmiş tələbatlar);
4) motivlər (dərkedilmiş tələbatlar əsasında yaranan fəaliyyət);
5) təmayüllər (yönəlmənin müəyyənləşməsi);
7) məqsəd (həyata keçirilməli olan haqqında qərar);
8) fəaliyyətə başlamaq haqqında qərar;
9) fəaliyyət (tələbatların təmin edilməsinə, məqsədlərə nail olmağa yönəlmiş hərəkət).

Məqsəd dəyərlər, tələbatlar, maraqlar, motivlər, oriyentasiya, təmayüllər olmadan mümkün deyil. Məqsədlərin təsnifatı bir çox meyarlar (maddi və mənəvi, qlobal və lokal, istehsal və qeyri-istehsal, fərdi və qrup şəklində, minimal və maksimal, sadə və mürəkkəb, yüksək və alçaq və s.) əsasında müəyyənləşir. Məqsədlərin təsnifatı üçün əsas meyarlar aşağıdakılardır: perspektivlik (yaxın və uzaq), təzahür xüsusiyyəti (məqsəd vasitə və özünüməqsəd kimi), təyin etmə (funksional və predmetli) və s. Məqsəd hər hansı bir problemin həll edilməsi cəhdidir, sosial məqsəd isə müəyyən sosial problemi həll etməyə cəhddir. Bu məqsədin müəyyən problemlə dialektik vəhdətindən irəli gəlir. Məqsədlər sistemi strukturca şəcərəlidir. Məqsədlərdən hansısa əsas, son, ali, yaxud məqsədli, digərləri isə köməkçi, aralıq, yaxud aşağı dərəcəli ola bilər. Hər bir səviyyə alt bölmələrə malik olur. Mürəkkəb məqsədlər sistemi də, mürəkkəb problemlər sistemi kimi «məqsədlər ağacı» prinsipi ilə qurlur. Bu prinsipin əsasında son məqsəd durur, sonra isə ikinci, üçüncü və s. ardıcıllıqla digər məqsədlər müəyyənləşir. Məqsədli qərarların hazırlanması prosesi aşağıdakı mərhələlərə bölünür:
- məqsədli qərar yalınz mövcud proses və təzahürün məqsədyönümlüyü şəraitində hazırlana bilər (proses perspektivdə müəyyənləşmiş, nisbi bitmiş vəziyyətə malik ola bilər, maddi, yaxud ideal model məqsəd kimi müəyyənləşir);
- məqsədəuyğunluq məqsədyönümlüyün zəruri, lakin natamam zəminidir. Fəaliyyətin obyektiv inkişaf şəraiti üçün məqsədyönümlük və fəaliyyət subyektinin inkişafı üçün məqsədə doğru yönəlmə vacibdir;

- məqsədin formalaşması prosesi (məqsədli qərarın hazırlanması) mövcud tələbatın, həmçinin tələbatın təmin olunması məqsədləri və yollarının etirafı və dərkedilməsi yolu ilə reallaşır;
- məqsədin formalaşması məqsədli qərarlarla – məqsədin qoyuluşu və ehtimali məqsəd ilə sona çatır. Bu iki anlayış məqsədin formalaşması prosesinin son mərhələsinin analiz səviyyəsindən asılı olaraq ikili mənalandırılır: 1) biri – ilkin qərar kimi, digəri – son qərar kimi; 2) sinonimlər kimi – məqsədəuyğunluq, məqsədyönümlük, məqsədin yaradılması, məqsədin qoyuluşu «məqsədin formalaşması» anlayışı altında birləşir.
- məqsədyönümlüyün əsas elementi – məqsədin, yaxud qərar məqsədinin seçilməsi çox hallarda seçim azadlığından asılı olur. Əgər seçim yoxdursa, məqsəd də şərti xüsusiyyət daşıyır, yəni nəticə əvvəlcədən müəyyənləşir. Təcrübədə müxtəlif seçim məhdudiyyətləri, keçmişlə səbəb-nəticə əlaqələri, indiki zamanının xüsusiyyətləri və gələcək imkanlardan asılılıq, müxtəlif ideyaların məntiqi uyğunluğu tələbləri, məqsədlər sistemində hər bir məqsədin üstünlüyü və s. məsələləri müəyyənləşir.
- məqsədyönümlüyün əsası – «məqsəd», «vasitə», «nəticə» kateqoriyalarının dialektik qarşılıqlı əlaqəsi ilə bağlıdır. Məqsəd vasitəsiz həyata keçirilə bilməz. Bir məqsədə nail olma digər məqsəd üçün vasitə ola bilər. Məqsədyönümlüyün bu xüsusiyyəti məqsədin funksional və predmetli olanlara bölünməsində öz əksini tapıb. Çox zaman fəaliyyətin son nəticəsi qoyulan məqsədlə üst-üstə düşmür. Məqsədlə fəaliyyətin üst-üstə düşməsi üçün məqsədyönümlüyün səmərəliliyi artırılmalıdır.
- məqsədlərin qarşılıqlı tabe edilməsinin zəruriliyi sistemləşdirmə prinsipləri məsələsinin həllini tələb edir. Müxtəlif xüsusiyyətli məqsədləri sistemləşdirmək üçün onları təsnif etmək və növləşdirmək vacibdir. Sosial məqsədlərin təsnifatı tamın tərkib hissələrinin analizinə, növləşdirmə isə tərkib hissələrin tamda sintezinə əsaslanır. Sosial məqsədlərin təsnifatı və növləşdirilməsi üsulu sosial problemlərin təsnifat və növləşdirilməsilə oxşardır. Bu sosial məqsəd və sosial problemlərin sıx əlaqəsilə bağlıdır. Subyektinə görə şəxsi, qruplu, sinifli, Milli və digər ümumi sosial məqsədlər fərqləndirilir. Obyektinə görə – sosial iqtisadi, sosial coğrafi, sosial etnik, sosial mədəni, sosial hüquqi, sosial siyasi və s., miqyasına görə – qlobal, regional, lokal, davamiyyət amilinə görə – cari və perspektiv, zərurilik dərəcəsinə görə – köhnə və yeni, təzahür xüsusiyyətlərinə görə – bilavasitə və vasitəli, mürəkkəblik səviyyəsinə görə – sadə və mürəkkəb, dəyər yönümünə görə – yüksək və aşağı və s. məqsədlər fərqləndirilir.

Sosial məqsədlərin növləşdirilməsi müxtəlif sosial qrup və institutların xüsusiyyətləri nəzərə alınmaqla məqsədlərin aşkar edilməsini tələb edir.

«Problem-məqsəd» xətti üzrə analogiya normativ proqnozlaşdırma çərçivəsində olan katerqoriyaların hamısına aid olmur. Məs., problem və psevdoproblem ola bilər. Məqsədlər üçün başqa bölgü mövcuddur: real və qeyri-real, həqiqi və yalançı, predmet və funksional, mənəvi və maddi, rasional və qeyri-rasional. Açar və törəmə problemlərin qarşılıqlı əlaqəsi mövcuddur. Üç məqsədlər sinfi: məqsəd – ideal (məqsəd), məqsəd – optimallıq (son məqsəd), məqsəd – norma (özünü məqsəd) fərqləndirilir. Sosial ideal – tələbatların gələcək inkişafının arzu edilən şəkildə əks etdirilməsi, mükəmməl ictimai quruluş haqqında baxışlar sistemi, bu və ya digər dünyagörüşü sistemində ali dəyərlər məcmusudur. Optimallıq – daha əlverişli şərtlər, məsələnin daha yaxşı həlli variantı, yaxud məqsədə nail olma yoludur. Norma – dərk etmə və davranış stereotipləri, hər kəs üçün vacib standartlar, nümunə, model, müqayisə üçün hesabat vahidi, inkişaf, yaxud nailiyyət səviyyəsinin müəyyənləşdirilməsidir.

**«Sosial məqsədlər ağacı»nın qurulması**

«Ağac» prinsipi sosial problemlərin, həmçinin sosial məqsədlərin real sisteminə uyğun olub, problemlər üçün açar, məqsədlər üçün son nəticə hesab olunur. İdealda hər iki «ağac» problemlərin dezaqreqasiyasını (hissələrin ayrılması) təmin edir. Problem-məqsədli tədqiqatın nəzəri aləti «problem məqsədli romb»dur. Bu rombun yuxarı nöqtəsi bir tərəfdən son məqsəd (özünü məqsəd), digər tərəfdən açar (əsas) problemdir, kənarları isə müxtəlif səviyyəli məqsədlər və problemlərdir. «Məqsədlər ağacı» «yuxarıdan aşağı» qurulur: sistemin son məqsədi və özünü məqsədi, sonra ondan törəyən ikinci dərəcəli və üçüncü dərəcəli məqsədlər və s. və son, maksimum konkretləşmiş məqsəd müəyyənlşədirilir. «Problemlər ağacı» son məqsəd əsasında qurulur.

**Məqsədli vəziyyətlər və proqnozlaşdırma**

**İlkin modelin qurulması və məqsədli analiz**

Məqsədli vəziyyət – normativ proqnozlaşdırmanın tədqiqat obyektidir. Bu zaman vəziyyət – ictimai proseslərin meydana gəlməsi və inkişaf zərurəti və imkanları arasındakı münasibətlər toplusu, məqsəd – arzu edilən gələcəyin təsviridir. Real həyatda ayrılıqda problem və məqsədli vəziyyətlər olmur. Məqsədli vəziyyətlərin proqnozlaşdırılması problem vəziyyətlərin proqnozlaşdırılması ilə ümumi əsaslara malikdir. Hər iki halda fəaliyyət ardıcıllığı aşağıdakı kimi olur: 1) tədqiqat obyektinin ilkin model formasında müəyyənləşdirilməsi və analitik, diaqnostik və proqnozlaşdırma xüsusiyyətli keyfiyyət qiymətləndirilməsi; 2) proqnoz fonunun göstəriciləri və proqozlaşdırma təhlili nəticəsində əldə edilmiş göstəricilər əsasında ilkin modelin qurulması.

Normativ proqnozlaşdırmada sxemli modelləşdirmə metodları olan ssenari, matritsa, şəbəkə, analoq, oyunlu, morfoloji və s., həmçinin ekspertlərin və əhalinin sorğusu metodu istifadə edilir. Normativ proqnozlaşdırma obyekti göstəricilər sistemidir. Proqnozun əsaslandırılması və təsdiqlənməsi müddətində göstəricilər sistemi əsasında qurulan dinamik indikatorlar (dəyişənlər, xüsusiyyətlər, müəyyənləşmiş göstəricilər) istifadə edilir. Normativ proqnozlaşdırmada tədqiq edilən obyektin və proqnoz fonu göstəricilərinin istifadəsi üçün məqsədli analiz aparılır. Profil və fon göstəricilərinin ilkin dəyişənləri eyni olsa da, kəşfiyyat və normativ proqnozlaşdırmada məqsədli və problem vəziyyətlər arasındakı fərqə əsasən onların istifadəsi fərqli xüsuiyyətlərə malikdir. Məqsədli vəziyyətlərin üç növü fərqləndirilir:

1)ideal vəziyyət (ictimai ideal);
2)optimal vəziyyət (sosial optimallıq);
3)normativ vəziyyət (sosial norma və normativlər sistemi).

Bu vəziyyətlər ideallaşdırma, optimallaşdırma və normalaşdırma ilə bağlı olur.

**İdeal vəziyyətlərin ideallaşdırılması və proqnozlaşdırılması**

İdeallaşdırma həqiqətdə mövcud olmayan obyektlər haqqında anlayışların qurulmasıdır. İdeallaşdırma prosesi real həyatdakı əşyalara aid olan xüsusiyyət və münasibətlərin onlardan ayrı təsvir edilməsidir. Həmçinin mövcud olmayan və olmayacaq obyektlər və onlara aid xüsusiyyət və əlamətlərlə bağlı anlayışlar sistemi qurula bilər. Mövcud omayan, lakin müəyyən sosial şəraitdə reallaşa bilən obyektlər ideallaşdırıla bilər. İctimai elmlərdə ideallaşdırmanın üç forması fərqləndirilir: normativ, informasiya və məqsədli. İdeallaşdırma məqsədyönümlük və normativ proqnozlaşdırma ilə sıx bağlı olur. İdeallaşdırma vasitəsilə insanın, sosial qrupun, cəmiyyətin düşüncə və fəaliyyət forması əsasında müəyyənləşdirilən ideal surətini ictimai ideal kimi təyin etmək olar. İctimai ideaIların sosial-siyasi, mənəvi, estetik və idraki formaları fərqləndirilir. Digər meyarlara görə ictimai ideal şəxsi, qrup və proqram xüsusiyyətli olanlara bölünür. İctimai ideal subyekti məqsəd və tələbatlarına, obyekti isə gələcəyi indiki zamanda ifadə tərizinə, uyğunluq dərəcəsinə, ictimai mövcudluğa uyğunluğuna, yaradıcılıq imkanlarının inkişafına, dərk edilmə səviyyəsinə, istiqamətlənməsinə, dərketmə və dəyər göstəricilərinin uyğunluğuna, tətbiq etmə sahəsinə, mürəkkəblik dərəcəsinə və s. görə təsnif edilə bilər.

«Məqsədlər ağacı»nın qurulmasından başlanan normativ proqnozlaşdırma ideallaşdırma yolu ilə həyata keçirilir. Bu əsasda ideal vəziyyət

müəyyənləşdirilir. Normativ proqnozlaşdırmada ideallaşdırma metodu aşağıdakı kimi tətbiq edilir:
- tədqiq edilən obyektin proqnozlaşdırılan sosial aspektlərində ideal vəziyyətin prinsipcə ümumi xüsusiyyətlərinin müəyyənləşdirilməsi tədqiqatın sonrakı mərhələləri üçün nəzəri-metodoloji əsas kimi istifadə edilir.
- ideal vəziyyətin ictimai idealın meyarlarına uyğun prinsipcə ümumi xüsusiyyətlərinin müəyyənləşdirilməsi tədqiqatın bu və ya digər predmetinin ideal vəziyyətinin necə görünə biləcəyinə dair təsəvvürlərin hazırlanmasında istifadə edilir.
- müşahidə olunan perspektiv nəzərə alınaraq, tədqiq edilən predmetin ideal vəziyyətinin müəyyənləşmiş xüsusiyyətləri əsasında onun optimal və normativ vəziyyətlərinin xüsusiyyətləri araşdırılır.

İdeal (optimal və normativ) vəziyyətlərin prinsipcə ümumi və müəyyənləşmiş xüsusiyyətləri proqnozlaşdırma əməliyyatı hesab edilmir. Proqnozlaşdırma ideal vəziyyətə nail olmaq üçün məqsədyönümlük əsasında müəyyənləşdirilmiş tədqiqat üsullarının aşkar edilməsindən başlayır. Normativ proqnozlaşdırma ilkin məqsədyönümlük əsasında formalaşır. Sonra modelləşdirmə, ekspertlər sorğusu və s. metodlar tətbiq edilməklə sadə proqnoz təhlil aparılır.

**Optimal vəziyyətlərin səmərələşdirilməsi və proqnozlaşdırılması**

Riyaziyyatda optimallaşdırma (səmərələşdimə) mümkün variantlardan ən yaxşısının seçilməsi, yaxud obyektin ən yaxşı vəziyyətə çatdırılması kimi müəyyənləşdirilir. Bu zaman obyektin ən arzu edilən keyfiyyət xüsusiyyəti maksimallaşdırılır, yaxud ən arzu edilməyən xüsusiyyəti minimuma çatdırılır. İqtisadiyyatda bu xalq təsərrüfatının təkmilləşdirilməsi əsasında ictimai istehsalın miqyasının maksimal həddə çatdırılması kimi təhlil edilir. İqtisadiyyatın səmərələşdirilməsi probleminin nəzəri tədqiqinin nəticələri optimallaşdırma meyarlarının müəyyənləşdirilməsilə bağlıdır. Ümumiyyətlə, optimallaşma xüsusi iqtisadi-riyazi modellər olub, ictimai məqsədyönümlüyü əks etdirir. Mahiyyətcə bu maksimum məhsuldarlıq, minimum məhsul və vaxt itkisi ilə bağlıdır. Bütün sosial proseslər optimallaşdırıla bilər və optimal vəziyyətlərin proqnozlaşdırılması ideal vəziyyətin proqnozlaşdırılmasından sonra gələn mərhələdir. Bu zaman proqnoz fonunun göstəriciləri bir qədər məhdudlaşdırılır. Mümkün ən yaxşı variant aşkar edilir və tədqiqat əməliyyatlarında bəzi dəyişikliklər baş verir. Tədqiq edilən predmetlə bağlı optimal vəziyyətin prinsipcə ümumi və konkret xüsusiyyətləri müəyyənləşdirilir. İdeal vəziyyətin parametrləri istiqamətləndirici rol oynayır. Bu zaman proqnoz fonunun amilləri təhlil edilir və normativ tədqiqat əsasında ilkin modelin göstəriciləri dəqiqləşdirilir. Optimal vəziyyətin ümumi və

konkret xüsusiyyətlərinin müəyyənləşdirilməsi və mövcud vəziyyətə nail olma yollarının aşkar edilməsi əməliyyatları arasındakı sərhəddin müəyyənləşdirilməsi üçün proqnozlaşdırma metodları toplusunun istifadə edilməsi metodoloji cəhətdən çox vacibdir. Bu mərhələdə sosial proqnozlaşdırmanın informasiya bazasının natamam inkişafı, kəmiyyət göstəricilərinin çatışmazlığı və sistemsizliyi, həmçinin sosioloji tədqiqatların zəif riyaziləşdirilməsi proqnozlaşdırmada müəyyən çətinliklər yaradır. Bu ilkin modelin göstəricilərinin, proqnozlaşdırılan sosial təzahürlərin və proseslərin keyfiyyət analizinin normativ araşdırılmasını və ilkin göstəricilərin modelləşdirilməsini çətinləşdirir. Bu mərhələdə aparılan tədqiqatlar qüvvə və vasitələr sərfi ilə əlaqədar olaraq, daha baha başa gəlir. Buna görə də, ictimai ideal və sosial-iqtisadi optimallıq daha dəqiq formalaşdırılmalıdır. Beləliklə, ideal vəziyyət daha çox arzu edilən mütləq optimallıq, optimal vəziyyət isə daha çox arzu edilən vəziyyət, prosesdir.

**Normativ vəziyyətlərin normativləşdirilməsi və proqnozlaşdırılması**

Obyektin xüsusiyyətlərinin nizamlanması, müəyyən normalara, normativlərə uyğun vəziyyətə gətirilməsi prosesi normativləşdirmə adlanır. Normalar ideallara uyğun olaraq, bütün ictimai şüur formalarına aid olub, onların xüsusi ifadə formasıdır. Sosial normalar təbii şəkildə qurulmuş, yaxud dövlət, cəmiyyət, sosial qrup tərəfindən təsdiqlənmiş qaydalar, nümunələr, təlimatlar olub, insanların bu və ya digər həyat formasını müəyyən edən şüur və davranış forması kimi təzahür edir. Məqsədli vəziyyətin proqnozlaşdırılması normativ vəziyyətin normativ proqnozlaşdırılması ilə bağlı əməliyyatlar sistemində ideal və optimal vəziyyətin proqnozlaşdırılmasından sonra üçüncü, sonuncu mərhələdir. Bu mərhələ normativ vəziyyətin ümumi və konkret xüsusiyyətlərinin müəyyənləşdirilməsilə bağlıdır. Bu zaman ideala və optimallığa uyğun sosial yönəlmə əsasında fəaliyyət göstərmək lazımdır. Normativ vəziyyət müəyyənləşdikdən sonra normativ proqnozlaşdırmanın sonuncu – mövcud vəziyyətə nail olmanın mümkün yollarının müəyyənləşdirilməsi mərhələsi başlayır:

1.Mövcud sosial norma və nomativlərdəki tullantıların, yəni sosial patologiyanın bütün formalarının nəzərə alınması vacibdir.

2. Normativ proqnozlaşdırmanın ideoloji tərəfinin nəzərə alınması vacibdir (məs., fərqli ictimai-siyasi quruluşa malik olan dövlətlərdəki sosial normaların müqayisəli analizi).

3.Məqsədli vəziyyətin 20 illik perspektivi nəzərə alınmaqla proqnozlaşdırılması üçün plandan əvvəlki proqramın hazırlanması vacibdir.

Bu şəraitdə mövcud proqnozlaşdırma metodları kifayət etmədiyindən onların genişləndirilməsi tələb olunur.

**Məqsədli vəziyyətlərin proqnozlaşdırma metodları**

Təcrübədə çoxsaylı proqnozlaşdırma metodlarından yalnız müəyyən hissəsi istifadə olunur, əksəriyyəti nominal (yalnız adı olan) olaraq qalır. Elmi-texniki proqnozlaşdırmada metodlar toplusu çox geniş, iqtisadi metodlar kifayət qədər, sosial metodlar isə – sadə trend (ekstrapolyasiya) modeli, ssenari və ekspretlərin əyani və qiyabi sorğusundan ibarətdir. Xüsusilə də normativ proqnozlaşdırmada trend modellər köməkçi rol oynayır və əsasən ekspretlərin sorğusu və ssenari qurulmasında istifadə edilir. Elmi-texniki və iqtisadi proqnozlaşdırma metodlarının – kontekstual kartorqrafiya (sosial təzahürün mahiyyətinin xəritəsinin qurulması), morfoloji yanaşma, tarixi analogiya, əməliyyatlı, şəbəkə, oyun, imitasion (təqlidi) və s. modelləşdirmə növlərinin istifadəsi əsasında səmərəli sosial proqnozlaşdırma metodları qurula bilər.

Bir sıra perspektiv metodlar mövcuddur. Məs., psixologiya və sosiologiyada istifadə edilən irəli çəkilmiş qrup metodu normativ proqnozlar hazırlanmasında səmərəli nəticələr verə bilər. Riyaziyyatda istifadə edilən hüdudlar nəzəriyyəsi əsasında riyaziləşmiş «hüdudların proqnozlaşdırılması nəzəriyyəsi» işlənə bilər.

**Normativ proqnozlaşdırmada əməliyyatlar ardıcıllığı**

1. Mütləq optimallığın müəyyənləşdirilməsi. Məqsəd – nöbəti normativ tədqiqat istiqamətinin yaradılması. Vəsait – geniş modelləşdirmə aparatının istifadə edilməsi («məqsədlər ağacı», formalaşmış ssenari, matritsa, cədvəllər və digər modellər).
2. Mütləq optimallıq müəyyənləşdirilərkən tədqiqat obyektinin xüsusiyyətləri nəzərə alınmaqla optimallıq meyarları (proqnoz fonunun bütün 7 bölməsinə uyğun olan) təyin edilməlidir.
3. İlkin modelin göstəriciləri, modelləşdirmə metodları və proqnozlaşdırma müddətinin məhdudluğu nəzərə alınmaqla nisbi optimallığın müəyyənləşdirilməsi.
4. İlkin və son normativ modellərin müzakirəsi.
5. Ekspert qiymətləndirməsinin obyektivlik səviyyəsinin müəyyənləşdirilməsi üçün müzakirələr keçirilməsi və əhali arasında sorğu keçirilməsi. Əhali arasında sorğu keçirilməsi ekspert nəticələrini tamamlayır və bu sorğuların səmərəli nəticələrinin əldə olunması üçün çox zaman psixoloji testlər, pilotaj tədqiqatlar keçirilir.
6. Təqdim olunan müzakirələr əsasında normativ proqnoz modelinin hazırlanması və vahid sistemdə birləşdirilməsi. Əldə edilən nəticələrin

keyfiyyəti optimallaşdırma meyarlarının əsaslandırılması, proqnoz fonunun göstəricilərinin və sorğuların nəzərə alınmasından asılıdır.

Proqnozlaşdırmanın verifikasiyası onun həqiqiliyinin, dəqiqliyinin və əsaslılığının müəyyənləşdirilməsidir. Proqnozun mütləq verifikasiyası, onun obyektin həqiqi vəziyyətinə uyğunluğunun müəyyənləşdirilməsi ilə bağlıdır. Proqnozlaşdırmanın son mərhələsində nisbi verifikasiya, yəni proqnozun müasir elmi tələblərə uyğunluq dərəcəsinin müəyyənləşdirilməsi mümkündür. Verifikasiya proseduru arzu edilən və vacibdir. Bu prosedur rolunu ekspert sorğuları oynayır. Mürəkkəb vəziyyətlərdə verifikasiyanın 8 növündən biri istifadə edilir:

1) ilk istifadə edilən metoddan fərqli metod istifadə etməklə proqnozun hazırlanması;
2) proqnozun digər informasiya mənbələrindən alınan proqnozlarla müqayisəsi;
3) retrospektiv (keçmişi təsvir edən) dövrə aid adekvat (uyğun) proqnozun yoxlanması;
4)əvvəlcədən əldə edilmiş proqnozlar əsasında paralel proqnozun müəyyənləşdirilməsi;
5) ekspertlərin əlavə sorğusu;
6) opponentlərin tənqidi qeydlərinin təkzib edilməsi;
7) mümkün səhvlərin aşkar edilməsi və nəzərə alınması;
8) daha mötəbər fikirlərlə müqayisə.

Ən qənaətcil, səmərəli və ən aşağı səviyyəli subyektiv qiymətləndirmə ekspert sorğusu (bilavasitə ekspertlərin qiyabi sorğusu) əsasında əldə edilir.

Verifikasiyaya dair əsas əməliyyatlar aşağıdakılardır:

- bir və ya bir neçə üsulla kəşfiyyat və normativ proqnoz modelinin verifikasiyası;
- müzakirə əsasında proqnozlaşdırma modelinin tamamlanması və son redaktəsi.

İdarəetmə üçün tövsiyyələrin seçilməsi.

Sosial proqnoz – özünüməqsəd deyil, məqsədli, planlaşdırma, proqram, layihə, təşkilati – idarəetmə qərarları üçün informasiyadır. Buna görə də proqnozlaşdırma göstəricilərin və normativlərin müqayisəsi əsasında təqdim edilən tövsiyyələrlə sona çatır. Tövsiyyələr daha obyektiv məzmunlu olmalı, sifarişçinin maraqlarından asılı olmamalıdır. Buna görə də tövsiyyələr sifarişçi deyil, proqnoz mütəxəssisləri tərəfindən təqdim edilməlidir.

**Əməliyyatlar ardıcıllığı**

1.Tədqiqat qrupunun köməkliyilə ilkin tövsiyyələrin hazırlanması.
2.Hazırlanmış tövsiyyələrin əyani ekspert sorğusu əsasında təhlil edilməsi.

3.Təqdim olunan tövsiyyələr tətbiq edildiyi şəraitdə idarəetmə obyektinin eventual (əlverişli şəraitdə mümkün olan) vəziyyətinin ehtimali ssenarisinin hazırlanması və həm müsbət, həm də mənfi nəticələrin mümkünlüyünün nəzərə alınması. Çətin vəziyyətlərdə ssenarinin mahiyyətilə bağlı bir daha ekspert sorğusu keçirilir, bir qədər sadə vəziyyətlərdə ssenari ekspert təhlilinə verilir.

4.Tədqiqat haqqında üç variantda ilkin hesabat hazırlanır: qısa (3 – 5 səhifə), geniş (20 – 25 səh.), tam (10 – 15 səh.) həcmli. Bu zaman hər iki proqnoz modeli təhlil edilir və əvvəlki prosedurlarla bağlı sənədlər istifadə edilir.

5. Təqdim edilən hesabat əyani ekspert sorğusu ilə təhlil edilir.

6.Təhlil əsasında hesabat tamamlanır və sifarişçiyə təhvil verilir.

Qeyd: Bütün təhlillər gedişində ekspertlər dairəsi mümkün qədər sabit olmalıdır, çünki hər dəfə onların təcrübəsi artır və ekspertizanın keyfiyyəti yüksəlir. Təcrübə göstərir ki, ən təcrübəli ekspertlər də dərhal proqnoz qiymətləndirmə apara bilmirlər.

**YOXLAMA SUALLAR**

1.Normativ proqnozlaşdırmanın əsas xüsusiyyətləri nədən ibarətdir?
2.Son məqsədin növləri hansılardır?
3.»Sosial məqsədlər ağacı»nın qurulmasını izah edin.
4.İdeal, optimal və normativ vəziyyətlərin proqnozlaşdırılması nə ilə fərqlənir?
5.Normativ proqnozlaşdırmanın əməliyyatlar ardıcıllığını izah edin.

**REFERAT MÖVZULARI**

1.Sosial proqnozun normativ modeli
2.İlkin model göstəricilərinin normativ proqnozunun hazırlanması
3.Proqnozun mütləq və nisbi verifikasiyası
4. Opponent verifikasiyası
5.Sosial yeniliklərin proqnozlu əsaslandırılması

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2.Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.
3.Бешелев С.Д. Гурвич Ф.Г. Экспертные оценки. М., Изд-во Педагогическое общество России, 1999.
4.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
5.Гражданников Е.Д. Экстраполяционная прогностика. Новосибирск. 2-ое изд., 2001.
6.Добров Г.М. и др. Экспертные оценки в научно-техническом прогнозировании. Киев, 2-ое изд. 2000.
7.Евланов Л.Г., Кутузов В.А., Экспертные оценки. М., “Наука”, 1995.
8.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.
9.Нормативное социальное прогнозирование. М.: Наука, 1987.

## Mövzu 8. PROQNOZLAŞDIRMA METODLARI

Proqnozlaşdırma zamanı tətbiq edilən vasitə və metodlar proqnozlaşdırmanın metodoloji əsasını təşkil edir. Proqnozlaşdırılan obyektə uyğun model qurulur, tədqiqat obyektinin gələcək vəziyyəti haqqında məlumat almağa imkan verir. 20-yə qədər proqnozlaşdırma metodları fərqləndirilir. Bir çox proqnozlaşdırma metodları bir-birindən üsulları və mərhələləri ilə, o cümlədən bu üsul və mərhələlərin ardıcıllığı ilə fərqlənir. Təsnifat əlamətləri kimi aşağıdakı metodlar fərqləndirilir: metodun formalaşdırma səviyyəsi, metodun məlumat əsasları, proqnozlaşdırma metodlarının fəaliyyət prinsipləri və s. Proqnozlaşdırma metodlarının formalaşdırma səviyyəsi intuitiv və formal olmasına görə seçilir. İntuitiv metodların proqnozlaşdırma obyekti mürəkkəb olduğundan bir sıra amillərin təsirini nəzərə almaq mümkün olmadıqda istifadə edilir. Bu zaman ekspert qiymətləndirilməsi əsas götürülür. Fərdi ekspert qiymətləndirməsi dedikdə, məsələn, intervü, analitik və ssenari yazılması nəzərdə tutulur. Kollektiv ekspert qiymətləndirməsi isə əsasən ən az kvadratlar metodu, sürüşkən ortaqlar metodu və s. ilə bağlıdır. Proqnozlaşdırma metodlarının digər təsnifatı «metodun təsnifat əsaslılığı»na görə müəyyənləşir.

I mərhələdə – «İnformasiyaya əsaslanan metodlar» üç sinfə bölünür: faktoqrafik, ekspert və kombinələşmiş.

**Ekspert metodları** – ixtisasçı ekspertlərin fikirlərinin və tədqiqatlarının ümumiləşdirilməsi əsasında təqdim edilən məlumatlar kimi istifadə edilir. Özlüyündə həm faktoqrafik, həm də ekspert metodları informasiyanın işlənmə səviyyəsinə görə alt mərhələlərə, metodlara bölünür. Ekspert metodları 2 alt sinfə bölünür: birbaşa ekspert qiymətləndirilməsi ekspert kollektivinin rəyindən asılı olmayan, hər bir ekspert tərəfindən müstəqil şəkildə toplanmış və ümumiləşdirilmiş və bir-birinə təsir göstərməyən məlumat əsasında qurulur. Ekspert qiymətləndirilməsində bilavasitə kollektivin rəyinin təsiri ilə qurulan qiymətləndirmə ikinci alt sinfi təşkil edir.

**Faktoqrafik metodlar** – proqnozlaşdırma obyektinin indiki vəziyyəti və keçmiş inkişafı haqqında faktiki məlumata əsaslanır. Faktorqrafik metodlara analogiya, statistik və qabaqlayıcı metodlar daxildir. Belə metodlara tarixi və riyazi analogiya metodları aid edilir. Riyazi analogiya metodlarında obyektivin analoqu kimi inkişaf prosesinin riyazi təsvirinə malik olan və proqnozlaşdırma obyekti ilə üst-üstə düşən digər fiziki təbiətli obyektlər, digər elm və texnika sahələri istifadə edilir.

**Statistik metodlar** – proqnozlaşdırma obyekti haqqında əhəmiyyətli məlumatın işlənməsinə əsaslanır. Statistik metodlar rəqəmli göstəricilər və

proqnozlaşdırma obyektinin dəyişkənlik xüsusiyyətləri əsasında riyazi qanunauyğunluğun aşkar edilməsinə yönəlir. Statistik metodun tətbiq edilməsi proqnozun obyekti, məqsədi, mövcud məlumatın həcmi və tərkibi, proqnoz verənin səviyyəsi və s. ilə müəyyən edilir. Statistik metodlar modelləşdirmə, ekstrapolyasiya, korelyasiya, reqressiya kimi alt siniflərə bölünür.

Proqnozlaşdırmanın qabaqlayıcı metodları elmi-texniki məlumatların ümumiləşdirilməsi və elm və texnikanın tərəqqisini qabaqlayan göstəricilərin nəzərə alınması prinsiplərinə əsaslanır. Qabaqlayıcı metodlara – elm və texnikanın dinamikası haqqında məlumatların tədqiqi, bu məlumatların tərkibində dinamik sıraların qurulması, bu əsasda inkişaf edən obyektin analizi və proqnozlaşdırılması ilə bağlıdır. Qabaqlayıcı metodlar kimi texnikanın səviyyəsinin tədqiqi və qiymətləndirilməsi, elmi-texniki məlumatın kəmiyyət və keyfiyyət analizi metodları da istifadə edilir.

Proqnozlaşdırmanın ən geniş yayılmış metodları ekstrapolyasiya, ekspert, Delfi metodu, Edip effekti, morfoloji sintez, proqnoz ssenariləri və cədvəlləri, optimal qərar qəbul edilməsi modelinin hazırlanması metodlarıdır.

**Ekstrapolyasiya metodu**

Bu metod proqnozlaşdırılan prosesin zamanca xeyli əvvələ aid olan retro və gələcəkdə mümkün ola biləcək dinamik göstəricilərinin (riyazi, statistik, yaxud məntiqi) qurulması ilə bağlıdır. Mümkün dəyişikliklərin, meyl və proseslərin miqyasının dəqiq qiymətləndirilməsi üçün mürəkkəb ekstrapolyasiya, ehtimal nəzəriyyəsi, oyunlar nəzəriyyəsinin, müasir riyaziyyat və kibernetikanın alətlər komplektinin istifadəsi səmərəli nəticə verə bilər. Bu metodun əlverişliliyi inkişaf əyrilərinin «absurd» ekstrapolyasiyası əsasında müəyyənləşir. Bu zaman fəaliyyətdə olan mexanizmin gələcəkdə dəyişmə imkanları, əvvəlcədən proqnozlaşdırılmamış funksiyalaşma meylləri təsvir edilir. Düzgün nəticə əldə etmək üçün riyazi modellər, məntiqi analiz, eksperiment qiymətləndirmə və normativ hesabatlara əsaslanan kompleks yanaşma vacibdir.

**Ekspert metodu**

Buraya ekspert qiymətləndirmə, analitik qeydlər, fərqli ekspert göstəricilərinin müqayisəsi, kütləvi müzakirə, dəyirmi masalar, zehni həmlə və s. metodlar daxildir. Ekspert metodu aşağıdakı mərhələlərdə tətbiq edilir:
- ekspertlər tərkibinin seçilməsi və onların səriştəliliyinin qiymətləndirilməsi;
- ekspertlərin sorğusu üçün anket tərtib edilməsi;
- ekspert nəticələrin əldə edilməsi;
- ekspert rəylərinin uyğunluğunun qiymətləndirilməsi;
- nəticələrin etibarlılığının qiymətləndirilməsi;
- ekspert nəticələri üçün proqramın tərtib edilməsi.

**Edip effekti**

Gələcək haqqında xəbər verməyə çalışan bir çox miflər, əfsanələr sırasında Edip effekti, Yelena Troyanskaya, Gələcəkdən xəbər verən maral və s. əfsanələr bir sxem üzrə qurulub: qəhraman gələcəkdən xəbər tutur, onu dəyişməyə çalışır, lakin sonda həmin nəticə baş verir. Bütün bu miflər taleyin dəyişməz olduğunu göstərməyə yönəlib. Məhz bu əsasda proqnozlar özü-özünü reallaşdırır. Edip effekti gələcəyin əvvəlcədən müəyyənləşdirilmiş modelini və konsepsiyasını əks etdirir. Bu model aşağıdakılardan ibarətdir:

1) Sərt determinizm (iradə, yaxud seçim azadlığı yoxdur).
2) Gələcək real olaraq mövcuddur (tam mövcudluğa malikdir).
3) Gələcək dəyişməzdir (bağlıdır).

K.Popper Edip effektinin şərhini genişləndirərək, proqnozun özünü reallaşdırması imkanları ilə yanaşı özünü məhv etməsi imkanlarının olduğunu da əlavə etmişdi. Beləliklə, Edip effekti – informasiyanın aid olduğu vəziyyətə təsiri imkanlarıdır. Nəzəriyyə, yaxud konsepsiya hər iki imkanı (özünü reallaşdırma və özünü məhv etmə) qəbul etdiyi üçün gələcəyin mifdə əks olunan şərhindən edilən daha geniş şərhə malikdir. Bu şərh aşağıdakıları özündə əks etdirir:

1)İndeterminizm (seçim imkanlarını qəbul edir (bifurkasiya)).
2)Gələcək real olaraq, mövcud deyil (yalnız potensial olaraq mövcudur).
3) Gələcək dəyişə biləndir (açıqdır).

Ziddiyyət məhz bu əsaslarda yaranır, çünki hər iki yanaşmanın qəbul edilməsi daha perspektiv imkanlar aça bilər. Belə nətcəyə gəlmək olar ki, zaman öz xüsusiyyətlərini dəyişə bilər, yəni müəyyən şəraitdə gələcək real olaraq mövcuddur, müəyyən şəraitdə isə gələcək mövcud deyil və onu müstəqil olaraq qurmaq olar. Bu şərh əsasında təkamüllü ontologiyanın cizgilərini müəyyən etmək olar. Varlıq daim zamana görə dəyişərək, həm fundamental qanunlar və prinsiplər, həm də konkret faktlar və vəziyyətlər səviyyəsində müəyyənləşmiş sabitliyini saxlamalıdır. Bu sabitlik proseslərin fərqli zaman sürətinə (qısa və uzun, müxtəlif sistemlərin daxili zamanı və s.) əsasən əldə edilir. Determinizm mexanizmi əsasında varlığın arzu edilən və mümkün dəyişilməsi baş verir, saxlanılır, sonra isə növbəti dəyişmə baş verir. Məhz bu proses mövcud reallığı xaos və süqutdan xilas edir və gələcəyə yönəldir. Bu çərçivə daxilində Edip effektinin dəf edilməsi vasitələrini aşkar etmək mümkündür. Reallığın determinist elementləri dəyişmədiyinə görə insan müdaxiləsi olmadan poqnozlaşdırılır. Bəs onları necə müəyyən etmək olar? İlk növbədə müasir dövrdə müşahidə edilən və gələcəkdə saxlanıla bilən faktlar, hadisələr, vəziyyətlər dəyişikliklər əsasında məhv ola biləcək faktlar, hadisələr, vəziyyətlərdən fərqlənməlidir.

**Kollektiv qərarların qəbul edilməsi metodları**

**Delfi metodu, yaxud delfi rəmmalının metodu**

Bu metod Delfdə (Yunanıstanda) Apollon məbədinin adından götürülərək, belə adlandırılıb. Qədim Yunanıstanda bu məbədin kahinləri sirli peyğəmdərlik xüsusiyyətlərilə fərqlənirdilər, hər hansı bir sosial, siyasi və s. hadisələr haqqında qabaqgörən fikirlər söyləməklə ictimai proseslərin inikşafına təsir göstərirdilər.

Müasir dövrdə eyni ad altında müəyyənləşdirilən bu metod zehni həmlə metodunun çoxdəfəli istifadəsi (interaktiv) üçün təqdim edilib və proqnoz nəticələrdə psixoloji amillərin təsirini azaltmaq və obyektivliyin yüksəldilməsi məqsədini daşıyır. Nəticələrin obyektivliyinin yüksəldilməsi üçün bu metod – əks əlaqə, iştirakçıların əvvəlki sorğunun nəticələri ilə tanış edilməsi və ekspertlərin rəyinin qiymətləndirilməsində həmin nəticələrin nəzərə alınması vasitələrindən istifadə edir. Ekspert metodun bir qədər fərqli forması olan Delfi metodu – anketləşdirmə metodundan istifadə edərək, ardıcıl fərdi sorğular keçirilməsinə yönəlir. Sorğu vərəqləri dövrü olaraq (hər dəfə) dəqiqləşdirilir və bu əsasda iştirakçı rəylərinin əmsalı ölçülür.

Çoxluğun rəyindən təsirlənmə və bu rəylərə uyğunlaşma səviyyəsini azaltmaq üçün iştirakçıların öz fikirlərini əsaslandırması vacibdir, lakin bu zaman da uyğunlaşma təsiri yüksək ola bilər. Ekspertlər sorğusu təşkil olunarkən dövrlər arasında ekspert-lider ekspert qrupu istənilən istiqamətə yönəldə bilər.

**Morfoloji sintez metodu**

Bu metod tədqiq olunan problemin mümkün parametrlərinə dair informasiyanın əldə edilməsinə əsaslanır, hər cür ilkin mühakimə və müzakirədən kənar olur və üç suala cavab axtarır:

1.proqnoz informasiyanın alınması üçün hansı vasitələr daha vacibdir?

2.hadisələrin baş vermə ardıcıllığı necədir?

3.mövcud problemin həlli üçün bütün vasitə, yaxud metodlardan necə istifadə etmək olar?

**Rollar metodu**

Bu metod «lehinə - əleyhinə» metoduna uyğundur. Əsas fərq hazırlıq mərhələsində münaqişə vəziyyətin aşkarlanmasından ibarətdir. Mövcud münaqişə vəziyyətin təqlid edilməsi üçün qrupun tərkibindən bir neçə nəfər iştirakçı seçilir. Rol üçün hazırlığa 20-30 dəqiqə vaxt sərf olunur. Oyunun müddəti isə 15-20 dəqiqədir. İştirakçılar öz fikirlərini obyektiv göstəricilərlə əsaslandırırlar və rəqibin əks dəlillərini təkzib edirlər. Bütün dəlillər, o cümlədən «tezis - antitezis» formalı natiqlik üsulları istifadə edilir. Oyun

zamanı tezislər kimi formalaşmış təcrübə qrupun bütün üzvləri tərəfindən müzakirə edilir və qiymətləndirilir.

Bu əsasda aşağıdakı test-suallar tərtib edilir:

- Rəqibin ən xoşagəlməz dəlilləri, sualları və etirazları hansılardır?
- Onlardan hansılar cavabsız qaldı, yaxud təkzib edildi?
- Ən yaxşı dəlillər hansılardır?
-Hansı dəlillər bir-birini tamamlamaq və gücləndirmək üçün birləşdirilməli, əlaqələndirilməlidir?
- «Oyun» prosesində hansı iştirakçılar xüsusi davranış nümayiş etdirdilər?

Daha səmərəli dəlillər əhatəli analiz edilir və xüsusi yaradılmış alt qrup tərəfindən təsnif edilir.

**Sinektik metod**

Bu metod 1960-cı ildə U.Qordonun yaratdığı «Synectics» firmasının adına uyğun olaraq belə adlandırılıb. Sinektikanın əsas xüsusiyyəti törəmə ideyaların tənqidinə qoyulan qadağanın götürülməsi və meydana çıxan problemlərin həlli məqsədilə nisbi daimi qrupların formalaşdırılmasından ibarətdir. Bu qrupların üzvləri tədricən birgə işə alışırlar, tənqiddən qorxuları azalır, kimsə onların təkliflərini qəbul etmədikdə incimirlər. Tədricən qrupda məsələlərin həlli təcrübəsi yaranır. Adətən sinektik qrupa bu metodun əsaslarını yaxşı bilən, təcrübəli mütəxəssis rəhbərlik edir. O, digərlərindən fərqli olaraq, qoyulan məsələ ilə bağlı istiqamətlənməyi daha yaxşı bacarmalıdır. Əvvəlcə problem ümumi müzakirə edilir, sonra tədqiqat sahəsi məhdudlaşdırılr. İşin gedişində ədəbiyyat, ekspertlərin məsləhətlərini istifadə etmək, model hazırlamaq olar. Rəhbər problemi olduğu kimi təqdim edir. Sinektorlar tədricən problemin quruluşunu dərk etdikləri kimi dəyişirlər. Qərar hazırlanması üçün metodun əsas mexanizmi analogiyaların istiqamətlənmiş axtarışıdır. Bu məqsədlə mövcud problemlərin həlli sahələri və vasitələri aşkar edilir. Əgər ekspert qiymətləndirməsindən sonra ideyanın maddiləşməsinin qeyri-mümkünlüyü müəyyən edilirsə, digər ideyaların axtarışı davam etdirilir. Bu metodun müsbət cəhəti tənqidin tətbiqi, analogiyalardan və psixoloji meyllənmə üsullarından istifadə edilməsidir. Mənfi tərəfi isə üzvləri bir sıra təlimlər keçməli olan daimi qrupların yaradılmasına olan tələbatla bağlıdır, çünki az saylı mütəxəssislər qrupunun təşkil edilməsi çətindir.

**Konkret vəziyyətlərin analizi metodu**

Harvard Universitetində hazırlanmış və təkrarlanan standart vəziyyətlər üçün nəzərdə tutulan metod aşağıdakı mərhələlərdə tətbiq edilir:

- vəziyyətə giriş;
- məsələnin qoyuluşu (iştirakçıların qruplara bölünməsi, vəziyyətin daha geniş təsvirinin əldə edilməsi);

- qərar qəbul edilməsi variantlarının qrup şəklində axtarışı;
- aparılan iş haqqında qrup üzvlərinin məruzəsi;
- ümumi müzakirə;
- problemin həll edilməsinə vahid yanaşmanın formalaşması.

**Balint məşğələsi**

Bu metod ilk dəfə ingilis həkimi Balint tərəfindən istifadə edilib və iştirakçıların problem haqqında müzakirələrinə dair daimi seminarların təşkil olunmasına əsaslanır. Mərhələləri:

- mövcud problemin mahiyyətini tam izah edə bilən bir iştirakçı seçilir;
- digər iştirakçıların növbə ilə mövzuya dair verdikləri suallar cavablandırılır və dövrü xüsusiyyətli bu mərhələ suallar qurtarana qədər davam edir;
- bütün iştirakçılar qoulan məsələnin həllinə dair öz variantlarını təqdim edirlər;
- topikstarter (mövzu təqdimatçısı) ümumiləşdirmələr aparır və nəticələr çıxarır.

**Metod «X*3*(X-1)» (X – iştirakçıların say göstəricisidir)**

Çox vaxt ideyaların kristallaşdırılması və problemin həlli variantlarının axtarılması üçün istifadə edilir. İştirakçılar daha dəqiq nəticələr əldə etmək üçün informasiyaları yazılı şəkildə mübadilə edirlər. Mərhələləri:

- ümumi problemin formalaşdırılması;
- inkubasiya (gizli dövr) mərhələsi;
- hər kəs üç qərar variantını qeyd edir;
- əldə edilmiş 3*X variantı növbə ilə bütün iştirakçılara təqdim edilir və hər kəs bura daha üç ideya əlavə edir;
- alınan 3*X*(X-1) ideyaları müzakirə edilir və qiymətləndirilir, optimal olan seçilir.

**Zeşni həmlə**

Problemlərin alternativ və original həlli variantları hazırlanarkən istifadə edilir. Belə bir hipotezə əsaslanır ki, çoxsaylı ideyalar sırasında problemin həlli üçün əhəmiyyətli olanlar mövcuddur. Burada əsas diqqət ideyaların keyfiyyətinə yönəlir. Zehni həmlə zamanı səviyyəsindən asılı olmayaraq bütün informasiya qeydə alınır. Mərhələləri:

- problemin qısa xülasəsi,
- ideyaların kütləvi törəməsi,
- ən yaxşı variantların qiymətləndirilməsi və seçilməsi.

**«Lehinə - Əleyhinə» metodu**

Mərhələləri:

- hər hansı bir metod əsasında problemin həlli variantlarının siyahısı tərtib edilir;

- bir neçə ən münasib variant seçilir;
- hər bir varianta «Lehinə - Əleyhinə» metodunun iki iştirakçısı qoşulur və öz dəlillərini təklif edir, digər iştirakçılar bu dəlilləri 5 bal şkalası əsasında qiymətləndirir;
- «Lehinə - Əleyhinə» metodunun iştirakçıları rollarını dəyişərək əlavə dəlillər gətirirlər və yenidən qiymətləndirirlər;
- ən əlverişli variant müzakirə edilir və seçilir.

**İntellektual funksiyaların bölüşdürülməsi metodu**

Bu metoda görə müxtəlif iştirakçı qruplar ideyaların törəməsi, inkişafı, müzakirəsi, tənqidi və təkmilləşdirilməsi funksiyalarını müəyyənləşdirirlər.
- «generatorlar» (hasil edicilər) maksimal sayda ideya irəli sürürlər;
- «eruditlər» (daha məlumatlı olanlar) ideyaları inkişaf etdirirlər;
- «ekspertlər» (mütəxəssislər) qərar variantlarını tənqidi analiz edirlər, yararsızlarını müəyyən edib, təkmilləşdirməyə göndərirlər;
- «işçi qrup» təklifləri redaktə edir və onların reallaşdırılması planlarını hazırlayır.

**Proqnoz ssenarilər metodu**

Bu metod vasitəsilə məntiqi ardıcıllıqla tədqiqat obyektinin gələcək vəziyyəti açıqlanır. Ssenarilər metodunun üstünlüyü inkişaf perspektivlərinin, əsas xəttinin müəyyənləşdirilməsi, həmçinin inkişaf fonunun əsas amillərinin və məqsədlərə nail olma səviyyəsinin qiymətləndirilməsi üçün meyarların aşkar edilməsilə bağlıdır.

**Proqnoz sütunlar**

Proqnoz sütunlar proqnoz ssenarilərin riyazi modelləridir. Onlar yönəlmiş, yaxud yönəlməmiş, dövri, yaxud qeyri-dövri ola bilər. «Məqsədlər ağacı» ilə birlikdə bu metod obyektin tam inkişafını müəyyən edir, proqnoz məqsədlərin qurulmasında iştirak edir, proqnozların səmərəlilik meyarlarını və səviyyələrini müəyyənləşdirir.

**Optimal qərar seçilməsinin modelləşdirilməsi metodu**

Bu metod inkişaf alternativlərinin axtarılması ilə bağlı olub, mövcud şəraitdə ən optimal variantın seçilməsinə imkan yaradır. Bu zaman sistemin səmərəli funksiyalaşmasını əks etdirən optimallıq meyarları müəyyənləşdirilməli və sadə riyazi təsvirə malik olmalıdır. Optimallaşdırma məsələlərinin həlli metodları sırasında xətti proqramlaşdırma geniş istifadə edilir. Dinamik proqramlaşdırma zamanı öz vəziyyətini dəyişə, həmçinin idarə edilə bilən sistem tədqiq edilir. Bütün riyazi metod və modellər nisbilik xüsusiyyətinə malik olub, proqnozlaşdırma müddətindən asılı olaraq formaca dəyişə bilər. Modellərin istifadə edilməsi proqnozların səmərəliliyini yüksəldir, daha çox variantları nəzərdən keçirməyə və daha uyğun olanını

seçməyə imkan yaradır. Modelləşdirmənin mənfi tərəfi xüsusilə də uzun müddətli proqnozlaşdırmada onların qeyri-dəqiqliyi və elastikliyi ilə bağlıdır.

**YOXLAMA SUALLAR**

1.Faktoqrafik metod nədir?

2. Ekstrapolyasiya metodunu izah edin.

3.Kollektiv qərarların qəbul edilməsi ilə bağlı tətbiq edilən metodları sadalayın.

4.Edip effekti metodunun mahiyyəti necədir?

5.Delfi metodunun üstün və çatışmayan tərəfləri hansılardır?

**REFERAT MÖVZULARI**

1. Proqnozlaşdırma metodları

2. Ekstrapolyasiya proqnozlaşdırmanın ilk metodlarından biri kimi

3. Ekspert qiymətləndirilməsi metodu proqnozlaşdırma obyektinin keyfiyyət və kəmiyyət tərəflərinin obyektiv xarakteristikası kimi

4. Modelləşdirmə inkişaf alternativlərinin axtarışı metodu kimi

**ƏDƏBİYYAT:**

1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.

2.Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.

3.Бешелев С.Д. Гурвич Ф.Г. Экспертные оценки. М., Изд-во Педагогическое общество России, 1999.

4.Большой толковый социологический словарь, т. 1 (А - О), ВЕЧЕ-АСТ, Москва, 1999.

5.Гордон Т. Новые подходы к методу Дельфи // Научно-техническое прогнозирование для промышленности и правительственных учреждений / ред. Дж. Брайта. М., 1972.

6.Гражданников Е.Д. Экстраполяционная прогностика. Новосибирск. 2-ое изд., 2001.

7.Евланов Л.Г., Кутузов В.А., Экспертные оценки. М., "Наука", 1995.

8.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.

9.Методологические проблемы социального прогнозирования / Отв. ред. В.И. Куценко. Киев, 1996.

## Mövzu 9. SOSİAL PROSESLƏRİN PROQNOZLAŞDIRILMASI

### 9.1 SOSİAL - SİYASİ PROSESLƏRİN PROQNOZLAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

Müəyyən müddətə sosial proseslə bağlı proqnoz verərkən ilkin proqnozlaşdırma modelinin hazırlanması üçün vacib olan göstəricilərin toplanması tələb olunur. Mümkün göstəricilər yüzlərlə və minlərlədir. Onlardan açar göstəriciləri seçmək və tədqiqatın müəyyən səviyyəsində lazım olanları müəyyənləşdirmək lazım gəlir. Məs., qlobal, regional, yaxud lokal səviyyəli standart göstəricilərin istifadə edilməsi nəticəsində reallıqdan çox uzaq olan təsvir alına bilər. Siyasi proqnozlaşdırmanın fərqləndirici cəhətləri aşağıdakılardan ibarətdir:

1)Qoyulan məqsəd daha ümumi və mücərrəd xüsusiyyətlərə malik olur. Bu zaman proqnozlaşdırmanın əsas məqsədi siyasi sistemin, yaxud prosesin keçmişdəki vəziyyəti və davranış xüsusiyyətlərini öyrənmək, həmin sistemə, yaxud prosesə təsir edən amillərin dəyişilmə meyllərini nəzərdən keçirmək, onun gələcək inkişafının kəmiyyət və keyfiyyət xüsusiyyətlərini müəyyənləşdirmək və sistem, yaxud prosesin gözlənilən vəziyyətinin xüsusiyyət və mahiyyətini açmaqdan ibarətdir.

2)Siyasi proqnozlaşdırma planlaşdırmadan fərqli olaraq, direktiv deyil, yəni məhz proqnoz əsaslı qərar vermək və planlaşdırma və idarəetmə metodlarını seçmək üçün informasiya ilə təmin edir, ikişafın alternativ yolları haqqında informasiya təqdim olunur.

3)Siyasi proqnozlaşdırmada bilavasitə nəzərə alınmayan proseslərlə bağlı çoxlu sayda dəyişənlər təqdim edilir, məhz bu cəhət siyasi həyatın inkişaf yollarını aşkar etməyi çətinləşdirir.

4) Real tarixi vəziyyətin analizi gələcəyə yönəlmiş meyllərin proyeksiyasını qurmaqla bağlıdır.

Siyasi proseslər proqnozlaşdırılarkən bir sıra prqnozlaşdırma metodları istifadə edilir. Hər hansı bir sosial təzahür, yaxud proses proqnozlaşdırılarkən ilk növbədə həmin təzahür və proses haqqında profil (əsas) və fon (köməkçi) göstəricilərdən ibarət olan informasiya toplanır və proqnozlaşdırmanın ayrı-ayrı metodları əsasında perspektiv inkişaf xüsusiyyətləri müəyyənləşdirilir. Bu fikirdən çıxış edərək, Azərbaycanda siyasi proseslərin prqnozlaşdırılması istiqamətində lazımi informasiyanı aşağıdakı kimi analiz etmək olar.

Keçid dövründə siyasi proseslərin təhlili əvvəlcə keçib gəldiyimiz cəmiyyət və yaşadığımız keçid dövrü cəmiyyətinin özünəməxsus xüsusiyyətlərinə nəzər salmağı tələb edir. Keçib gəldiyimiz sovet-sosializmi

qapalı cəmiyyət idi. Burada siyasətin əsas aparıcı qüvvəsi olan hakimiyyət vahid partiyanın əlində idi. Siyasi plüralizm bu cəmiyyətə yad idi. İngilis tədqiqatçısı Louse İ.Şelinin qeyd etdiyi kimi: «Sovet İttifaqının mövcud olduğu bütün müddət ərzində – 1980-cı ilə qədər bütün dövlət alətləri – polis, gizli polis qüvvələri və hərbçilər – vətəndaş cəmiyyətinin elementlərini uğurla boğurdular. Yenidənqurmaya qədər burada heç yerdə əmək hərəkatları, siyasi hərəkatlar, dini birliklər dövlətdən ayrı deyildilər. Yenidənqurmadan (1985\1991) sonra burada vətəndaş və siyasi hüquqlar (o cümlədən etnik azlıqlara aid olan) üçün təhlükə yarandı. Dövlət aparatı daxilində qüvvələrin bölünməsi yox idi». Bu totalitar sistemə xas xüsusiyyətlərdir və Lous İ. Şellinin qeyd etdiyi kimi: «Totalitar sosial sistemlərdə dövlətin qanunvericilik, icraedicilik və hüquqi bölmələri arasındakı bölünmə formal xarakter daşıyırdı… Totalitar dövlətlərin institutları hüquqi normalara, xüsusi yanaşmalara malik olub funksiyalaşdırıcı partiyanın nəzarətinə tabe olurlar». SSRİ–də institutlar və hüquqi normalar Kommunist partiyasının nəzarətinə tabe idilər. Hüquqi partiyanın və dövlət ideologiyasının dağılması ilə mərkəzləşmiş dövlət aparatı öz avtoritetini itirdi. Bir sıra hüquqi institutlar öz qanuniliklərini itirdilər». Bildiyimiz kimi, hər hansı siyasi məkanda hakimiyyət siyasətin əsas aparıcı institutlarından biri kimi çıxış edir. Buna görə də keçid dövründəki siyasi prosesləri izləyərkən ilk növbədə keçmiş və mövcud hakimiyyətin vəziyyətini təhlil etmək lazımdır. Bəs bir institut kimi ümumiyyətlə, hakimiyyət hansı funksiyanı yerinə yetirir. «Hakimiyyət – müxtəlif sosial qrup və birliklərin, ayrı-ayrı şəxsiyyətlərin sosial davranışlarının məzmununu və formalarını müəyyən etmək, istiqamətləndirmək və nəzarət etmək imkan və bacarıqlarının institutlar tərəfindən təsdiqlənməsidir». SSRİ-nin mövcudluğunun son illərində bu cür leqal hakimiyyət sarsılmışdı. Qapalı cəmiyyətdən demokratik cəmiyyətə keçidin özünəməxsus təzahürləri görünməkdə idi. İlk təzahürlər informasiya qıtlığı və azadlığa olan qarşısıalınmaz istək idi. Belə bir şəraitdə xalqın ümid etdiyi və qüvvəsinə inandığı bir şəxsiyyət və partiya aparıcı qüvvəyə çevrilir. M.Veberin qeyd etdiyi kimi, «sosial-siyasi böhran zamanı xarizmatik hakimiyyət əmələ gəlir və ya xarizmatik rəhbər meydana çıxır. Xarizmatik rəhbər mövcud sosial nizamın əsaslarını dağıtmağa çalışır və öz siyasi radikallığı ilə seçilir. Üsyanın və ya inqilabın uğurlu gedişi isə onun qüvvəsinə olan inamı gücləndirir. Bu inam insanların kütləvi şəkildə mövcud adətlər və qanunlardan uzaqlaşmasına və yenini qəbul etməsinə səbəb olur. M.Veber belə hesab edirdi ki, xarizmatik hakimiyyət insan təcrübəsinin daxili inqilabına aparır. Bu, xarici inqilabdan onunla fərqlənir ki, xarici inqilab insanların ideal və ideyalara biganə qalaraq yeni dəyişikliklərə

uyğunlaşmasıdır». Deməli, daxili inqilab ideal və ideyalarda baş verən dəyişikliklərlə müşayiət olunur.

80-cı illərin sonlarında Sovet imperiyasında ilk nəzərə çarpan məhz daxili inqilab idi. Azərbaycanda belə bir daxili inqilabın ilk carçılarından olan Əbülfəz Elçibəy sonradan xarici inqilabın liderinə çevrildi. Eyni zamanda, yəni 1988-ci ildə Azərbaycan xalqına zorla sırıdılmış Qarabağ problemi əvvəllər siyasətə qarşı tam laqeyd olan yüzminlərlə adamı siyasi mübarizə meydanına atdı. Qarabağ problemi xalq kütlələrini fəallaşdırmaqla yanaşı, respublika rəhbərliyinin  tam acizliyini də aşkar etdi. Belə bir şəraitdə xalq kütləlri arasında həm Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi, həm də respublikanın real suverenliyini təmin edə biləcək kütləvi ictimai təşkilat yaratmaq ideyası tədricən formalşırdı. İmperiya tabeçiliyindən xilas olmağa çalışan xalq kütləəri öz etirazlarını mitinqlər vasitəsilə bildirirdilər. Təsvir edilən hadisələr dövrünü sosioloji və tarixi baxımdan qiymətləndirərək belə nəticəyə gəlmək olar ki, qeyd olunan hadisələr keçid dövrünün birinci mərhələsinə xas olan cəhətlərdir və 1989-1993-cü illər respublikamızda keçid dövrünün erkən mərhələsidir. Bu dövrdə yeni siyasi qüvvələrlə köhnə siyasi qüvvələrin toqquşması və həm cəmiyyət, həm də bu cəmiyyətin elementar hissəciyi kimi qəbul edilən keçid dövrü şəxsiyyəti  üçün faciəli hadisələrin yaşandığı müşahidə olunur. Bu dövrün əsas cəhətlərinin ümumiləşdirilməsi və təhlili baxımından Bolqarıstanın eks-prezidenti Jelyo Jelevin (1990-1997) fikirləri çox qiymətlidir: «Kommunizmdən çıxmaq həddən artıq çətindir. Bu halda keçid prosesi yalnız dövlətin totalitar siyasi strukturlarının dağıdılması yox, həmçinin iqtisadi islahatlar yolu ilə mülkiyyət uğrunda dövlət inhisarının ləğv edilməsi ilə bağlıdır. Keçid dövrü 3 mərhələdə gedir. Kommunizmdən demokratik cəmiyyətə keçid mərhələləri qeyri-müəyyəndir, zaman çərçivəsində kəsişir, çox vaxt eyni zamanda cərəyan edir. Birinci mərhələ - yeganə partiyaının totalitar sisteminin süqutu ilə bağlıdır. Vətəndaş cəmiyyətinin elementləri meydana çıxmağa başlayır: çoxpartiyalı sistemin, müstəqil həmkarlar ittifaqlarının, azad mətbuatın yaranması, söz, nəşriyyat, nümayiş azadlığının bərqərar olması, universitetlərin muxtariyyatı, azad qanunverici, prezident və bələdiyyə seçkilərinin keçirilməsi hüququ dövrüdür… Birinci mərhələnin sözü azadlıqdır… Azadlıq küçələrdə və ictimai yerlərdə əldə olunur… «.  Jelyo Jelevin sözlərini keçid dövrünün erkən mərhələsinin siyasi qiymətləndirilməsi kimi qəbul etmək olar. Keçid dövrünün məhz birinci mərhələsi olan – 1989-1993-cü illərdə Azərbaycanda siyasi proseslər kəskinləşmişdi. Ermənistan tərəfindən cəlb olunduğumuz ədalətsiz müharibə ilə yanaşı respublikanın daxilində hakimiyyət uğrunda aparılan siyasi mübarizə vətəndaş müharibəsi həddinə çatdırılmışdı. Təhlil etməyə

çalışdığımız tarixi mərhələdə siyasi lider və kütlənin, şəxsiyyət və xalqın münasibətlərini müqayisəli analiz etməyə cəhd edək. Şahidi olduğumuz kimi qısa zaman müddətində – 1990-1993-cü illər dövründə Azərbaycanda üç siyasi lider – A.Mütəllibov, Ə.Əliyev (Elçibəy) və H.Əliyev hakimiyyətdə olmuşlar. İlk növbədə A.Mütəllibov və Ə.Əliyevin fəaliyyətini təhlil etməyə cəhd edək. Bu siyasi fəaliyyət subyektlərinin hakimiyyəti dövründə baş verən hadisələrin təhlili ilə bağlı alman sosioloqu M.Veberin araşdırmalarına istinad etmək çox məqsədəuyğun olardı. Belə ki, keçid prosesini və bu zaman baş verən siyasi hadisələrdə həlledici rol oynayan siyasi fəaliyyət subyektinin fəaliyyətini araşdırarkən M.Veber qeyd edirdi ki: «Əgər subyekt hakimiyyət iradəsini reallaşdırırsa, o, bu fəaliyyətlə bağlı olan nəticələri aydın dərk etməlidir. Əks təqdirdə real həqiqətdə ideal həmişə əlçatmazdır. Fərdlərin sosial, siyasi və digər vəzifələri eyni münasibətlərdə üst-üstə düşür: bu, cəmiyyətin və dövlətin, əxlaq və ağılın dəyərləridir. Fərdi iradə, azadlıq və ağıl fərdin sosial şəraitdəki xaosu və şəxsi taleyini dəf edərək siyasi vəzifələr kosmosunu seçərkən dəyərli olur. Belə özünümüəyyənləşdirməyə – dərketmə formaları (siyasi əqillilik, korparativ ruh və dövlətçilik ağlı) gətirib çıxarır və dövlətin cəmiyyətə təsiri ilə bağlı olur». Sosioloqun fikirlərini əsas tutaraq belə nəticəyə gəlmək olar ki, A.Mütəllibov siyasi hakimiyyət üçün, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında xaos hökm sürdüyü bir dövrdə idarəçilik üçün hazır kadr deyildi. Bunun səbəbi isə M.Mütəllibovun siyasi dərketmə formalarına tam yiyələnməməsi idi. Buna görə də A.Mütəllibov bir tərəfdən, sarsılmış imperiya ağalarının, digər tərəfdən isə yerli demokratik qüvvələrin və o cümlədən hakimiyyətdə şəxsi mənafe güdən öz ətrafının əlində oyuncağa çevrilmişdi. Reallığı düzgün qiymətləndirmək bağarığının olmaması bir fəaliyyət subyekti kimi onun acizliyini nümayiş etdirirdi. Sovet imperiyasnın gələcəyinin mövcudluğuna inamın qalması və yerli demokratik qüvvələrin təzyiqi onu çaşqınlıq həddinə çatdırmışdı. A.Mütəllibovun hakimiyyəti leqal hakimiyyət idi, lakin bu, dövrünü yaşamış və dağılmaqda olan imperiyanın son qanuni fəaliyyəti ilə bağlı olan və yenilik qarşısında aciz olan hakimiyyət idi.

Xalq kütlələrinin vəziyyətinə nəzər salsaq, eyni çaşqınlığı izləyə bilərik. Həmin dövr ictimai və siyasi şüurdakı qeyri-müəyyənlik də eyni dərəcədə idi və M.Veberin yuxarıdakı izahını nəzərə alsaq, belə qənaətə gələ bilərik ki, A.Mütəllibovun hakimiyyəti dövründə məhz siyasi şüurun düzgün yönəldilməsi üçün siyasi təşkilatçılıq qabiliyyəti çatışmırdı. A.Mütəllibovdan fərqli olaraq, Ə.Əliyev (Elçibəy) azadlığın əsl carçısı olan xarizmatik lider idi. Buna baxmayaraq, onun hakimiyyəti dövrü daha qarışıq və faciəli hadisələrlə müşaiyət olunur. Eyni siyasi təşkilatsızlıq və idarəçilikdə

qabiliyyətsizlik fəaliyyətləri Ə.Əliyevin (Elçibəy) prezidentliyi dövründə də müşahidə olunur. Meydanlarda azadlıq uğrunda mübarizə başa çatır, hakimiyyətə gələn demokratik qüvvələrin dövlət idarəçiliyindəki səriştəsizliyi üzə çıxır. Ə.Əliyev azadlıq və demokratiya carçısı kimi hakimiyyətə gələn və öz dövrü və yaşadığı şərait üçün bir qədər utopist fikirlərlə yaşayan siyasi fəaliyyət subyekti idi. Belə ki, Ə.Əliyev də yaşadığı dövrü və öz hakimiyyətinin səlahiyyətlərini düzgün dərk edib fəaliyyət göstərməkdə aciz idi. Bu, idarəçilik təcrübəsinin olmamasından irəli gəlirdi və onun hakimiyyəti dövründə baş verən faciələrin də səbəbi məhz idarəçilik təcrübəsinin çatışmazlığı olmuşdu. M.Veberin qeyd etdiyi kimi, xarizmatik liderin hakimiyyətə gətirilməsi dövründə "əvvəlcə özünənəzarət ilahiləşdirilməyə gətirib çıxarır, sonra isə bütün arzu və məqsədlərin itirilməsi qarşıya qoyulmuş məqsədə çatmağa mane olur. Nəticədə xarizmanın fəaliyyətinin rasionallaşması baş verir. O, hakimiyyətini saxlamaq üçün ona inanan və hakimiyyətə gətirən davamçılarına güzəştə getməli olur". Yaşadığımız dövrdə Ə.Əliyevin (Elçibəy) öz hakimiyyətini saxlaması üçün onu hakimiyyətə gətirənlərə etdiyi güzəştlərin hansı faciələrlə nəticələndiyinin şahidiyik. Ə.Əliyevin (Elçibəy) hakimiyyətə gəlişini Azərbaycan dövlətçiliyinin tənəzzülü kimi qimətləndirən A.Rzayev qeyd edir ki, "öz yanılmalarını başa düşmək qabiliyyətinin olmaması liderin şəxsi faciəsinə çevrilir, bu da öz növbəsində bütöv cəmiyyətin faciəsi ola bilər". Ə.Əliyevin (Elçibəy) idarəçilik dövrü özündə ənənəvi dövlət formasının təzahürlərini daha çox daşıyır. Belə ki, Ə.Əliyev (Elçibəy) Azərbaycan dövlətçiliyinin əsas istiqamətlərinin türkçülük, islamçılıq və demokratiya olduğunu vurğulayırdı. Bu isə ADR ənənələrinin bərpasına cəhd kimi qiymətləndirilə bilər. Çünki Azərbaycanın respublikaçılıq tarixində ilk dəfə bu şüarla M.Ə.Rəsulzadə tarix səhnəsinə gəlmişdi. Beləliklə, apardığımız qısa təhlildən əldə etdiyimiz nəticə belədir: Ə.Əliyevin (Elçibəy) siyasi fəaliyyət təcrübəsinin olmaması Azərbaycanda keçid dövrünün birinci mərhələsinin uzanmasına və yenidən daha faciəli yaşanmasına səbəb oldu. Nəhayət, öz siyasi fəaliyyət imkanlarının məhdudluğunu dərk edən Ə.Əliyev (Elçibəy) hakimiyyətdən könüllü uzaqlaşdı. A.Rzayev bu hadisəni belə izah edir: «1993-cü il 4 iyun Gəncə qiyamı, ermənilərin mövcud vəziyyətdən istifadə edərək yeni əraziləri işğal etmələri məhz bu dövrə təsadüf edir. 1993-cü il iyun-iyul ayları respublikada dövlət böhranının ən yüksək nöqtəsi oldu. Buraxdıqları dövlət cinayətlərinin ağırlığı altında Ali Şuranın sədri və respublikanın baş naziri istefa verdilər. 1993-cü il 17-18 iyun gecəsi Ə.Əliyev (Elçibəy) öz səlahiyyətlərindən imtina edərək, paytaxtı tərk etdi». Göründyüy kimi, müstəqil və bütöv Azərbaycan haqqında xəyalpərvər fikirlərlə yaşayan xarizmatik lider məhz idarəçilik

qabiliyyətinin olmadığını başa düşüb hakimiyyətdən uzaqlaşdı. Əslində bu addım siyasi xadim kimi Ə.Əliyevin (Elçibəy) xarizmasının saxlanmasına yardım etdi. (Çünki, zənnimizcə, dövlət idarəçiliyində törədilmə ehtimalı olan yeni səhvlərin qarşısı alındı). Beləliklə, qeyd edə bilərik ki, Azərbaycanda keçid dövrünün birinci mərhələsi oxşar sosial və siyasi hadisələrlə müşayiət olunub.

1993-cü ildə H.Əliyevin hakimiyyətə gəlməsi ilə keçid dövrünün ikinci mərhələsi başlandı. Qeyd edə bilərik ki, müəyyənləşdirməyə çalışdığımız hər bir mərhələnin özündə də pilləli inkişafı izləmək mümkündür. Belə ki, həm birinci mərəhələdə, həm də ikinci mərhələdə bir neçə pilləli keçidləri müşahidə etmək olar. Buna nümunə olaraq birinci mərhələdə üç hakimiyyət subyektinin bir-birini əvəz etmə dövrləri altmərhələlər kimi qəbul edilə bilər. Çünki bu zaman siyasi proseslərin gedişində nəzərəçarpan dəyişəikliklər baş verir. Bununla yanaşı, ayrı-ayrı mərhələlərdə baş vermiş siyasi proseslərdə oxşar cəhətlər nəzərə çarpır. Belə ki, keçid dövrünün ikinci mərhələsi kimi qəbul etdiyimiz 1993-1995-ci illər arasında keçid dövrünün birinci mərhələsinə bənzər proseslərin bir qədər yeni formada yenidən yaşandığını müşahidə etmək mümkündür. Bunu aşağıdakılar sübüt edir:

1) H.Əliyev xarizmatik lider kimi hakimiyyətə gətirildi;

2) H.Əliyev də ilk dövrlərdə öz ətrafına və ya onu hakimiyyətə gətirən qrupa müəyyən güzəştlərə getdi;

3) Xarizmatik hakimiyyətə xas olan əlamətlərdən biri kimi, hakimiyyətin geniş təbliğinə başlandı və s.

Bu siyasi təzahürlər Azərbaycanda keçid prosesinin ikinci mərhələsinin erkən dövrünə xas təzahürlər kimi də qəbul edilə bilər. Bolqarstanın keçmiş prezidenti Jelyo Jelevin qeyd etdiyi kimi: “İkinci mərhələnin sözü demokratiyadır. Azadlıq küçələrdə və ictimai yerlərdə, demokratiya isə institutların köməyi ilə əldə olunur. Demokratiya qanunlarda və institutlarda təcəssüm olunan azadlıqdan başqa bir şey deyil”. Bu deyilənləri nəzərə alaraq deyə bilərik ki, əgər Ə.Əliyevin (Elçibəy) dövründə demokratik qanunların verilməsi istiqamətində bəzi addımlar atılmışdısa, H.Əliyevin hakimiyyətdə olduğu 1993\1995-ci illərdə demokratik qanunların qəbul edilməsi yönümündə əsaslı işlər görüldü. Radikal islahatların keçirilməsi, sosial institutların formalaşdırılması fəaliyyəti onun hakimiyyətinin rasional-leqal hakimiyyətə çevrilməsinə səbəb oldu. H.Əliyevin xarizmatik-rasional-leqal siyasi xadim idi. H.Əliyevin hakimiyyətə gəlişi ilə islahatlar keçirilməsi haqqında qanunlar qəbul edilməyə başlandı. Keçid dövrünün üçüncü mərhələsiə islahatlar haqqında qəbul edilən qanunların tədrici həyata keçirilməsi dövrüdür. Bolqarıstan prezidenti Jelyo Jelevin keçid dövrünün

üçüncü mərhələsinin izahı haqqındakı fikirlərinə nəzər salaq: "Üçüncü mərhələ ilə əlaqə daha aydındır. Müasir bazar iqtisadiyyatını yaxşı qanunlarsız və möhkəm institutlarsız düşünmək olmaz. Hər şeydən öncə, qanunları real surətdə tətbiq etmək iradəsi, enerjisi və qətiyyəti olan parlament və icraedici hakimiyyət lazımdır. Bunlar olmadan radikal islahatlar arzu olaraq qalacaq. Bolqarstanın təcrübəsi göstərir ki, yaxşı qanunlar təklikdə heç nə edə bilməz, əgər onları qətiyyətlə tətbiq edən güclü icraedici hakimiyyət olmasa». Azərbaycanda keçid dövrünün məhz üçüncü mərhələsində icraedici hakimiyyət formalaşıb. Julyo Jelevin üçüncü mərhələnin əsas şərtlərindən hesab etdiyi üç instansiyalı müstəqil məhkəmə hakimiyyəti qurulub və Konstitusiya məhkəməsi yaradılıb, mərkəzləşmiş iqtisadiyyatdan bazar iqtisadiyyatına keçilməsi ilə bağlı aparılan özəlləşdirmə demək olar ki, sona çatıb. Bu gün Azərbaycanda siyasi modernləşmə prosesi müşahidə olunur. Bu siyasi modernləşməni ayrı-ayrı politoloqlar və bu dövrün araşdırılması ilə məşğul olan şəxslər müxtəlif şəkildə izah edirlər. Belə ki, Q.C.Əliyevin qeyd ediyi kimi, «müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında əvvəllər geri qalmış, indi isə qabaqcıl ölkələrin köməyi ilə öz milli inkişaf yolunu müəyyən edən ölkələrdə siyasi modernləşmə prosesi baş verir. Bu ölkələrdə siyasi modernləşmə aşağıdakı yollarla inkişaf edir: a) Qərb nümunəsi əsasında demokratikləşməyə keçid; b) Sosial-iqtisadi inkişaf sahəsində üçüncü dünya ölkələri ilə əməkdaşlıq; c) Qərbi Avropa və ABŞ ilə bütün sahələrdə yaxın əməkdaşlıq». Azərbaycanda müasir idarəçilik formalarını Avropa politoloqlarının keçid dövrü ilə bağlı elmi araşdırmaları nöqteyi-nəzərindən qiymətləndirən Q.Əliyev qeyd edir ki, «Demokratik cəmiyyətə keçid birdən-birə qeyri mümkündür. Onun üçün mütləq aralıq bir mərhələ keçid dövrü problemlərini həll etmək üçün müəyyən bir dövr tələb olunur. Bu dövrün dövləti avtoritarizmdən başqa bir şey deyildir». Bu fikrin davamı olaraq, Q.C.Əliyev «avtoritar rejimlərin stabillik göstəricilərinin aşağıdakılar olduğunu qeyd edir:

1.Siyasi liderin səriştəliliyi, müxalifətlə dil tapması və onunla siyasi koalisiya yaratması, beləliklə də real qarşıdurmadan yan qaçmaqla öz kursunu dönmədən, ardıcıl şəkildə həyata keçirməsi;

2.İslahatlar bir nəfəsə deyil, ardıcıl mərhələlərlə həyata keçirilməli, islahatların çox da iriliyinə yol verilməməli, kiçik görünənlər ön sıraya keçirilməlidir;

3.Siyasi qüvvələrin münasibəti nəzərə alınmaqla islahatların keçirilmə vaxtı nəzərə alınmalıdır.

Liberallar, eləcə də konservatorlar qeyd edirlər ki, yeni yaranan rejimlərdə hər cür müxalifət, satqınlar, xainlər, müxtəlif mövqelərdən və mənafelərdən

çıxış edənlər yanaşı yaşadıqlarından onları idarə etmək çətin olur və bu da demokratiya prinsiplərinin istər-istəməz pozulmasına gətirib çıxarır. Lakin ölkənin və millətin ümumi mənafeyi naminə bunlar tamamilə təbii proseslərdir. L.Payın fikirlərinə söykənən Q.Əliyev qeyd edir ki, iqtidar nəinki sosial-iqtisadi problemləri həll etməli, habelə ümuminin xeyrinə vətəndaş həmrəyliyinə nail olmalıdır». Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, bu gün demokratik rejimin formalaşması prosesində Azərbaycan Respublikasında xarizmatik, demokratik və avtoritar dövlət idarəçiliyi formaları qarışıq mövcuddur. Bu keçid dövrünün xarakterik xüsusiyyətləridir. Bildiyimiz kimi demokratik cəmiyyətin əsas göstəriciləri çoxpartiyalılıq, söz və mətbuat azadlığı, səsvermə hüququnun təmin olunması kimi qəbul edilir. Deyə bilərik ki, partiyaların mövcudluğu və fəaliyyəti qeyd olunan rejimlərin qarışıq mövcudluğuna şərait yaradır. Bununla bağlı olaraq demokratiyanın əsas institutları olan partiya və seçkilərin cəmiyyətin formalaşmasında təsirli roluna nəzər salaq və keçid dövrü şəraitində Azərbaycan Respublikasında və cəmiyyətində partiyaların vəziyyətini təhlil etməyə çalışaq. Vətəndaş strukturları olan partiyaların cəmiyyətdəki rolunu Q.V.Komenskaya aşağıdakı kimi xarakterizə edir: "Eyni zamanda həm vətəndaş cəmiyyətinə, həm də dövlətə məxsus olan partiyalar onlar arasında əlaqələndirici alət rolunu oynayır, məhz bu da partiyaların əsas funksiyasıdır. Müasir siyasi təşkilatlardan heç biri partiyalar kimi bütün sosial qruplar və təbəqələrlə münasibətlər saxlamaq imkanına malik deyil. Partiyaların vasitəsilə və köməyilə müxtəlif sosial qruplar öz siyasi tələblərini irəli sürürlər və cəmiyyətdəki ziddiyyətləri üzə çıxarırlar. Bununla yanaşı partiyalar münaqişənin institutlaşması sisteminin elementi funksiyasını yerinə yetirir. Bu da demokratik rejimlərdə sabitliyin saxlanması üçün mühüm həyati mənaya malikdir". Keçid dövrünə xas olan siyasi proseslər və xüsusilə də partiyaların təsnifatı, fəaliyyəti və tarixşünaslığı ilə bağlı F.Həsənoğlunun tədqiqatları olduqca maraqlıdır: «Siyasi partiyaların tədqiqatçısı Cozefla Palambara hər bir partiyaya xas olan dörd elementi qeyd edir: 1) siyasi ideoloji dəyərlər sistemi; 2) təşkilati struktur; 3) hakimiyyət uğrunda mübarizə; 4) xalqın dəstəyinə nail olunması. Əsasən, partiya sistemi dedikdə, cəmiyyətin siyasi səhnəsində fəaliyyət göstərən siyasi partiyaların sayına və çəkisinə uyğun olaraq yaranan konfiqurasiya nəzərdə tutulur. Partiyalar sistemi konsepsiyası siyasi rejimlərin fəaliyyətini anlamaqda həlledici rol oynayır. Bu sistemlərin tipologiyasını vermək üçün isə iki meyardan istifadə olunur: 1) partiyaların sayı; 2) partiyaların çəkisi. İtalyan politoloqu Covanni Sartori hər sistemdə qüvvələrin qütbləşmə dərəcəsinə əsaslanaraq çoxpartiyalılığın özünün də iki tipi olduğunu qeyd edir: 1) iki qütblü (bipolyar) çoxpartiyalılıq; 2) çox qütblü

(multipolyar) çoxpartiyalılıq. Çoxpartiyalı sistem özünün çevikliyi və partiyaların rəngarəngliyi ilə səciyyələnir. Çoxpartiyalı sistemdə partiyaların sayından çox onların çəkisi mühüm rol oynayır. Partiyaların çəkisini müəyyənləşdirmək üçün onların seçkilər nəticəsində əldə etdikləri parlamentdəki yerlərin sayını əsas meyar kimi götürürlər. Prezidentli rejimdə isə həm də dövlət başçısının birbaşa seçkisi zamanı verilən səslərin sayı əsas götürülməlidir. Partiyaların çəkisinə əsaslanan partiya sistemlərinin də üç tipi var: 1) majoritar partiyaya əsaslanan sistemlər; 2) dominant partiyaya əsaslanan sistemlər; 3) majoritar pariyaların koalisiyasına əsaslanan sistemlər. Birinci halda, majoritar partiya dedikdə, parlamentdə yerlərin əksəriyyətini qazanmış bir və ya iki partiya nəzərdə tutulur. İkinci halda, dominant pariya dedikdə, başqalarına nisbətən çox səs qazanmış və parlamentdəki yerlərin sayına görə başqa partiyaları nisbətən çox məsafədə geridə qoymuş partiya nəzərdə tutulur. Üçüncü halda, mojaritar və dominant partiya olmadıqda, parlamentdə yer tutmuş partiya minoritar (yəni az səs qazanmış) partiyalar çoxluq əldə etmək üçün koalisiya yaratmalı olurlar». Yuxarıda qeyd edilənləri Azərbaycan çərçivəsində təhlil etməyə çalışaraq deyə bilərik ki, «bu gün Azərbaycanda 40-dan çox partiya qeydiyyatdan keçdiyi halda, parlamentdə cəmisi bir neçə partiya təmsil olunur». Müşahidə etdiyimiz kimi, «bu partiyalardan bir qismi sosial bazası olmayan qondarma partiyalardır, digər qisminin sosial bazası məhdud xarakter daşıyır və yalnız iqtidara əks durma mövqeyi tutur».

Bu gün Azərbaycanın dövlət idarəçiliyi dominant partiya sistemi əsasında qurulur. Müxalifət partiyaları isə həm də bir-birilərinə müxalifətdə durduqları üçün koalisiya yarada və parlamentdə çoxluq əldə edə bilmirlər. Qeyd edilənlərə əlavə olaraq deyə bilərik ki, çoxpartiyalılıq cəmiyyətdə siyasi plüralizm ənənələrinin yarnmasına kömək etdiyi üçün müsbət hal kimi qəbul edilə bilər və partiyaların çoxluğu hakimiyyət uğrunda keçirilən seçkilərdə müəyyən radikallığın saxlanmasına kömək edir. Seçkilər prosesində bir sıra neqativ halların baş verməsi də ən adi haldır. M.Veberin qeyd etdiyi kimi: «Seçkilər – yalnız səsvermə olmayıb, həm də rəhbərə inamın həmrəy təsdiqlənməsidir… Demokratiya şəraitində hakimiyyət uğrunda mübarizədə qələbə çalmış siyasətçi bir çox sınaqlardan keçmiş insandır. Lakin demokratiya səhvlərdən də məhrum deyil. Demaqoqiyadan, kütəlnin emosiyasından və ani maraqlarından siyasi irəliləyiş üçün istifadə edilməsi nəticəsində hakimiyyət yaxşı deyil, daha pis siyasi rəhbərlərin əlinə keçə bilər. Eyni zamanda siyasi cəhətdən bərəkətsiz olan adamlar maddi vəsaitləri hesabına seçkiləri öz xeyrinə yönəldə bilərlər». Müşahidə etdiyimiz kimi, "bu gün Azərbaycanda mövcud partiyalar seçkilərdə seçicilərin çoxlu səslərini

yığmaq üçün müxtəlif siyasi gedişlərdən istifadə edirlər: dram və komediyalar oynanılır, əyləncəli tamaşalar göstərilir, bir-birini ifşa edir və s. Bu zaman sıravi vətəndaşlarda siyasətə şəriklilik hissi yaranır". Seçkilər prosesində vətəndaşların fəaliyyət istiqamətlərini aydınlaşdırmağa çalışan Qərb sosioloqları müasir dövr seçici davranışları modelini hazırlamışlar:

1. Sosioloji model – seçicilərin məğlub olduğu sosial qrupların davranışını şərtləndirir. Bu modelə aşağıdakılar daxildir: demoqrafik göstəricilər (cins, yaş, yaşayış yeri), iqtisadi göstəricilər (sosial sinif, peşə yönümü, gəlir səviyyəsi və s.), mədəni göstəricilər (təhsil yönümü və səviyyəsi, dini mənsubiyyət və s.);
2. Psixosloji model – seçici davranışlarının müstəqil, fərdi yox, qabaqcadan şərtlənmiş olduğunu iddia edir. Səs vermək yalnız hər hansı bir namizədi, yaxud partiyanı seçmək yox, həm də öz siyasi kimliyini ifadə etməkdir;
3. Rasional model – fərdin müstəqilliyini, seçim azadlığını vurğulayır. Bu zaman seçici namizədlər, partiyalar haqqında geniş informasiya almağa çalışır, seçkilərin keçirildiyi siyasi və iqtisadi şəraiti təhlil edir, namizədlər, partiyalararasında müqayisəli təhlil aparır və s.». Müasir şəraitdə Azərbaycanda seçicilərin hər üç davranış modeli müşahidə edilsə də, psixoloji və sosioloji modellər üstünlük təşkil edir.

Şəxsiyyətin cəmiyyət qarşısındakı məsuliyyətini dərk etməsi qabiliyyəti onun siyasi mədəniyyət səviyyəsi ilə sıx bağlıdır. Bu gün Azərbaycanda insanların ümumi siyasi mədəniyyət səviyyəsi formalaşmağa doğru inkişaf istiqamətindədir. Siyasi mədəniyyətin əlamətlərinə nəzər salaraq, fikirlərimizin həqiqətə uyğun olub-olmadığını aydınlaşdıraq. Cəmiyyətin siyasi mədəniyyət səviyyəsi – «a) hakimiyyətə münasibət; b) siyasi fəaliyyətin davranış üsulu; c) vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə təsir etmək imkanı; ç) cəmiyyətin siyasi əhval-ruhiyyəsi» kimi göstəricilərlə müəyyənləşir. Bu gün Azərbaycan xalqının hakimiyyətə münasibəti bir mənalı deyil. Hakimiyyətə münasibətdə siyasi fəaliyyətin davranış üsulu kimi lehinə, bitərəf və əleyhinə mövqeləri tutanlar seçilir. Onların sırasına nəzər salaq. Mövcud tarixi şəraiti və əvvəlki siyasi hakimiyyətlərdəki siyasi idarəçilik qabiliyyətsizliyini nəzərə alaraq mövcud müxalif siyasi qüvvələrin hakimiyyət idarəçiliyi bacarığına şübhə ilə yanaşanlar iqtidarın lehinə olanlar cərgəsindədirlər. Lakin bu tip siyasətçilər arasında öz maddi və siyasi mövqelərini möhkəmləndirmək məqsədi güdənlər də az deyil. Mövcud hakimiyyətin əleyhinə olanlar cərgəsini – öz siyasi idarəçilik qabiliyyətlərini, mövcud tarixi şəraitdə xalqın vəziyyətini nəzərə almadan maddi və siyasi mövqeyini möhkəmləndirmək arzusunda olanlar təşkil edir. Bu qrup siyasətçilər arasında həqiqi mənada xalqın mənafeyi

uğrunda mübarizəyə qoşularaq siyasətlə məşğul olan – xalqpərvər və vətənpərvərlərə rast gəlmək çətindir. Bitərəflərə isə – ya gözləmə mövqeyində duranlar, ya da siyasi oyunlara qarışmaq istəməyənlər aiddir. Sonuncuların sırasına siyasi yadlaşmış insanlar da daxildir. Siyasi yadlaşmış insanlar üçün dövlətin kim tərəfindən və necə idarə olunmasının fərqi yoxdur. Onlar heç bir siyasi fəaliyyətə qoşulmur və siyasətdə iştirak etmirlər. M.Veberin qeyd etdiyi kimi, «siyasətlə məşğul olan adamlar və ya siyasi qruplar arasında iki mövqe aydın görünür. Elə adamlar var ki, onlar siyasət hesabına yaşayırlar, elə adamlar da var ki, ancaq siyasət üçün yaşayırlar. Birinci tip siyasətçilər partiya ədəbiyyatçıları və apparat işçiləri funksiyasını yerinə yetirərək yaşamaq üçün pul qazanırlar, onların daimi gəlir yeri olmur. Lakin elə professional siyasətçilər var ki, siyasətlə məşğul olmalarından asılı olmayaraq daimi gəlir mənbələri var. İkinci tip siyasətçilər qoyulan məqsədə çatmaq və müəyyən siyasi ideyaların reallaşması üçün güclü idealizmə və fədakarlığa malikdirlər. Lakin onların bir çoxları da öz siyasi vəziyyətlərindən gəlirlərinin artırılması üçün istifadə edirlər. Eyni zamanda maddi azad olan insanlara öz siyasi ideyalarını və iradələrini qəbul etdirmək daha asan olmur və bu siyasi xarakteri formalaşdırır. Bürokrat (maddi cəhətdən asılı olan siyasətçi) güclü şəxsiyyət olsa da, o, siyasi xarakterə malik olmur. Əsil siyasətçi öz düşüncələrində, təhlil və fəaliyyətində azad olmalı, hakimiyyət uğrunda mübarizə aparmalı və müstəqil maddi vəziyyətə malik olmalıdır». Beləliklə, göründüyü kimi, bu qeyd edilənlər siyasətçinin siyasi strategiyasının müəyyənləşməsinə səbəb olur. Bütün bunlar isə cəmiyyətin ideologiyasının formalaşmasına əsaslı təsir göstərir. Keçid dövrü cəmiyyətin böhranlı dövrü kimi əvvəlki ideologiyanın əhəmiyyətsizləşdiyi, yenisinin isə olmadığı bir zaman çərçivəsidir. İdeologiyanın formalaşmasını keçid dövrünün mərhələləri üzrə izləyək. I mərhələ – 1989-1993-cü illər – dağıdıcı dövr kimi əsaslandırıla bilər. Müşahidə etdiyimiz kimi, məhz kommunizm ideologiyasının çökməsi ilə siyasi proseslər yeni istiqamətə yönəldi. Bu dövrün əsas xarakterik xüsusiyyətləri yeni siyasi-hüquqi institutların və münasibətlərin yaradılmasına cəhd idi. Lakin keçmiş sovet siyasi-hüquqi institutları və münasibətləri də öz fəaliyyətini dayandırmamışdı.

II mərhələ – 1993-1995-ci illər – islahatların keçirilməsi haqqında qanunların qəbulu dövrüdür. Bu mərhələdə ideologiyada yaranan boşluq insanların dinə axınını gücləndirdi.

III mərhələ – 1995–2003-cü illər – islahatlar dövrüdür. Bu mərhələdə qloballaşan münasibətlərə qoşulan insanlar mövcud vəziyyətlərinə uyğunlaşaraq öz fərdi təfəkkür səviyyələrinə uyğun olan və əvvəlki ideologiya ilə müqayisədə onların mənəvi tələbatlarını daha çox təmin edə biləcək

seçimlər edirlər. 2003-cü ildən sonrakı inkişaf mərhələsi vətəndaş cəmiyyətinin quruculuğu və inkişafı dövrü kimi müəyyənləşdirilə bilər.

2003 – 2008-ci illər yeni inkişaf istiqaməti dövrü, Vətəndaş cəmiyyətinin formalaşmasının ilk mərhələsi, yaxud keçid dövrünün III mərhələsinin alt mərhələsi kimi qəbul edilə bilər. Məhz bu mərhələ dövlət idarəçilik fəaliyyətinin təkmilləşdirilməsi, dövrət idarəçiliyinə ictimai nəzarət strukturlarının, özünüidarəetmə orqanlarının fəaliyyətinin formalaşdırılması, yeni ənənələrin (siyasi, iqtisadi, mənəvi-mədəni) möhkəmlənməsi dövrüdür.

Beləliklə, demokratikləşmə prosesini və ya keçid dövrünü yanaşı mövcud olan ziddiyyətli ideyalar, baxışlar, münasibətlər və ideologiyalar dövrü kimi xarakterizə etmək olar.

Demokratikləşmə prosesinin vacib göstəricilərini müəyyən edən professor Przevorski qeyd edir ki, "Əgər demokratiya müdafiə olunursa, dövlət ərazi bütövlüyünə və psixoloji inama təzminat verməlidir; vətəndaşlığın effektli həyata keçirilməsi üçün vacib olan şərtləri qorumalıdır; ictimai əmanəti koordinatlaşdırmalı, ehtiyatları lokallaşdırmalı və gəlir qoyuluşunu dəyişdirməlidir".

Keçid dövründə Azərbaycan Respublikasında baş verən siyasi proseslərin ümumi analizindən sonra gəldiyimiz nəticəyə əsasən deyə bilərik ki, Przevorskinin bu fikirlərinin həyata keçirilməsi üçün aşağıda qeyd edilən şərtlərin olması vacibdir:

1. Keçid dövrünün zaman müddətinin qısaldılması və sabitlik yaradılması üçün siyasi lider ilk növbədə idarəçilik təcrübəsinə, siyasi iradə, müdriklik və uzaqgörənlik xüsusiyyətlərinə malik olmalı və düzgün siyasi strategiya seçməlidir. Belə ki, siyasət subyekti olan siyasi lider siyasət obyekti olan siyasi institutların fəaliyyətinin düzgün istiqamətləndirilməsində əsas rol oynayır.

2. Siyasi institutlar – hakimiyyət və vətəndaş qurumları (siyasi partiyalar, hökumət və qeyri-hökumət təşkilatları və s.) düşünülmüş strategiya əsasında qarşılıqlı anlaşma və güzəştlərlə keçid dövründə baş verən siyasi prosesləri tənzimləyə bilər.

3.Kütləvi siyasi mədəniyyətin formalaşdırılması üçün insanların hakimiyyətə münasibətini, siyasi fəaliyyətin davranış üsullarını, vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə təsir etmək imkanlarını, cəmiyyətin siyasi əhval-ruhiyyəsini tənzimləyəcək və düzgün istiqamətləndirə biləcək ideologiyanın yaradılması vacib şərtdir.

4.Demokratik münasibətlərin möhkəmlənməsi üçün dövlət quruculuğu institutlarının və siyasi münasibətlərin nəzəri araşdırılması ilə məşğul olan tədqiqat institutlarının yeni proqramları işlənilməlidir. Siyasi biliklərin

səviyyəsi və təbliği müasir standartlara uyğunlaşmalıdır. Gənclərimizin siyasi savadı və siyasi mədəniyyəti ifratçılığa gətirməməsi üçün təhsil və mədəniyyət ocaqlarında siyasi maariflənməyə xüsusi yer ayrılmalıdır. Dövlət idarəçiliyi ilə bağlı kadrların hazırlanmasına xüsusi diqqət yetirilməlidir.

**YOXLAMA SUALLAR**

1.Sosial siyasi proseslərin proqnozlaşdırılması xüsusiyyətləri nə ilə fərqlənir?
2.Sosial siyasi proqnozlaşdırmanın əsas göstəriciləri hansılardır?
3.Azərbaycanda müasir sosial siyasi proseslərin proqnozlaşdırılması xüsusiyyətlərini izah edin.

**REFERAT MÖVZULARI**

1.Sosial proqnozlaşdırmanın əsas xüsusiyyətləri
2.Müasir dövrdə Azərbaycanda baş verən sosial siyasi proseslərin proqnozlaşdırılması
3.Siyasi hakimiyyətin inkişaf xüsusiyyətləri
4.Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması istiqamətləri

**ƏDƏBİYYAT:**

1.Əliyev Q.C. "Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri", Bakı, Təbib, 1997.
2.Əliyev Q.C. "Müasir siyasi modernləşmə konsepsiyaları", Siyasətin fəlsəfəsi, B-1998, 108s.
3.Həsənoğlu F. "Avropa kimiliyi və demokratiya", Bakı, Azadlıq, , 2000.
4. Siyasi tarix, Bakı, Şur, 1995, 160s.
5.Şirəliyev H., Əhmədov Ə., "Politologiya" (dərslik), Bakı, Təbib, 1997, s.416
6.Yağmur Z. "Cəmiyyət təzim etməyə obyekt axtarır", "Elm, ədəbiyyat, sənət", jurn. №1, 1 mart, 1998-ci il.
7. Məmmədova S.D. «Keçid dövründə şəxsiyyət problemi», Bakı, Elm, 2005.
8.Бабосов Е.М. Прикладная социология, М., Тетра-Системс, 2000, 406с.
9.Большой толковый Социологический словарь, М., Вече АСТ, 1998, т.1, 2, с. 468
10. Макаренко В.П. Вера, власть и бюрократия. Критика социологии М.Вебера, Изд-во Ростовского Университиета, 1988, 300с.
11.Политическая социология: Учебник для вузов / под ред. Ж.Т.Тощенко. М., ЮНИТИ-ДАНА, 2002.
12.Рзаев А. Политические и правовые исследования, Баку, Элм, 1997, 238с. Йаьмур
13.«Социологические исследования», журнал, М., Наука, 1976, 1994, 2001.

## 9.2 SOSİAL – İQTİSADİ PROSESLƏRİN PROQNOZLAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

### Keçid dövründə aparılan iqtisadi islahatların xarakterik xüsusiyyətləri və Azərbaycan Respublikasında iqtisadi islahatların özünəməxsusluğu

Qeyd olunduğu kimi, sosial prosеslə bağlı proqnoz verərkən ilkin proqnozlaşdırma modelinin hazırlanması üçün vacib olan göstəricilərin toplanması tələb olunur. Mümkün göstəricilər yüzlərlə və minlərlədir. Onlardan açar göstəriciləri seçmək və tədqiqatın müəyyən səviyyəsində lazım olanları müəyyənləşdirmək lazım gəlir. Keçid dövründə sosial iqtisadi proseslərin proqnozlaşdırılması ilə bağlı göstəricilər toplanarkən, ilk növbədə dövrün özünəməxsus xüsusiyyətləri təhlil edilməli və məhz zaman və məkan xüsusiyyətləri əsasında perspektivlər müəyyənləşdirilməlidir.

Bəşər tarixi sübüt edir ki, hər hansı bir cəmiyyətin inkişafı ictimai şüurun tərəqqisi ilə bağlıdır. İctimai şüurun təkamülü isə bilavasitə özünü sosial mühitin dəyişdirilməsi məqsədilə aparılan islahatlarda əks etdirir. Şahidi olduğumuz kimi, «iqtisadi düşüncədə» yaranmış yeni meyllər ictimai şüurun dəyişməsinə gətirir. Bu dəyişikliklər isə köklü islahatlarla müşayiət olunur və islahatları təkamül prosesinin başlanğıcı kimi xarakterizə etmək olar. Müxtəlif tarixi dövrlərdən fərqli olaraq müasir dövrdə müxtəlif sahələri əhatə edən sosial islahatlar daha çox məqsədyönlü, proqram şəkilli xarakter daşıyır.

Bir iqtisadi sistemin dağılaraq digərinə keçid dövrünü yaşayan cəmiyyətlərdə həm əvvəlki ictimai quruluşa aid olan sosial institutlar, həm də yeni yaranmaqda olan sosial institutlar yanaşı fəaliyyət göstərir. Bu institutların yanaşı fəaliyyəti prosesində mövcud sosial ziddiyyətlər dərinləşir. Əvvəlki sistemə aid olan və yeni yaranan sosial institutlar arasında müəyyən münasibətlərin yaranması və yeni institutların tam bərqərar olması üçün müəyyən zaman müddəti lazımdır. Yalnız siyasi qarşıdurmaların müşahidə edilmədiyi cəmiyyətdə vahid islahatçı tərəfindən aparılan islahatlar keçid dövrünü qısa müddətli edə bilər. Siyasi qarşıdurmalar çərçivəsində isə keçid dövrü təsəvvür edilməyəcək qədər uzun müddəti əhatə edə bilər. A.Pşevorskinin qeyd etdiyi kimi, «Demokratik münasibətlərin nəticəsi ona aparan yoldan çox asılıdır. Demokratiyanın taleyi isə iqtisadi inkişafdan asılıdır. Demokratiya çox vaxt dərin iqtisadi böhrandan doğduğu üçün iqtisadi amillər demokratiyaya qarşı işləyir. İqtisadiyyatda getdikcə yüksələn münaqişələr siyasi keçid prosesinə birbaşa təhlükə yaradır».

Bildiyimiz kimi, siyasi münaqişənin genişlənməsinin əsas səbəblərindən biri də məhz islahatlar prosesidir, çünki islahatlar prosesində aparılan köklü dəyişikliklər ayrı-ayrı sosial qrupların mənafeyinə zidd olur və əhali arasında gərginlik yaradır. Ümumiyyətlə, islahatlar prosesini izah edərkən A.Pşevorski qeyd edir ki, «İslahatların mahiyyətini analiz edərkən nəticələrin iki kateqoriyasını ayırmaq olar. Bəzi nəticələr uzun müddətli olub formalaşmış sistemli sabit dövlət üçün xarakterikdir. Digər nəticələr əsasən təsirliliyə aid olub özünəməxsusluqlara malikdir; başqaları distribütivdir. Bu fərqli cəhətləri tutuşduraraq dörd cür nəticə ayırmaq olar: 1) uzunmüddətli özünəməxsus nəticələr pozitiv xarakter daşıyır. İslahatlar ona görə aparılır ki, mövcud iqtisadi quruluş fəaliyyətsizdir və ya arzu edilir ki, onun çatışmazlıqları iqtisadi sistemin dəyişdirilməsi yolu ilə aradan götürülsün; 2) bəzi permanent nəticələr distributivdir. Köhnə sistemdə mənafeləri müdafiə olunan qruplar islahatdan sonrakı iqtisadiyyatda tamamilə və ya daha az lazımlı ola bilərlər; 3) islahatlar prosesi qısa müddətli böhran, işsizlik, müəyyənləşmədə təsirsizlik yarada bilər. Məhz bu, keçid dövrünün geriləmələrinə gətirir; nəhayət, 4) islahatlar prosesi keçid dövrünün distributiv nəticələrinə: nisbi gəlirlərin daimi dəyişikliklərinə gətirə bilər.

Keçid dövrünə xas olan geriləmələr böhrana, kapitalın və işçi qüvvəsinin istifadə edilməməsinə və ehtiyatların qısa müddətli qeyri-optimal müəyyənliyinə səbəb ola bilər. Keçid dövrünün geriləmələri təsirli olur. İslahatlar nə qədər çox əsaslandırılmış və qərarlaşdırılmış olarsa, keçid dövrünün mənfi nəticələri də bir o qədər qısa müddətli ola bilər. Bu strategiyaya uyğun olaraq insanlar xoşagəlməz əməliyyatlara məruz qalmağa razı olurlar, bir şərtlə ki, o uzun müddət davam etməsin».

Şahidi olduğumuz kimi, son 15 ildə postsovet məkanı ölkələrində sosial-iqtisadi, siyasi və mənəvi münasibətlərin yeni dərin transformasiyası baş verir. Görkəmli rus sosioloqu Y.Q.Volkov bu transformasiyanı iqtisadi düşüncədəki sınma kimi xarakterizə edir.

Gördüyümüz kimi, «iqtisadi düşüncədə» yaranmış yeni meyllər ictimai quruluşun dəyişməsinə tələbatla nəticələndi. Bu dəyişikliklər isə köklü islahatlarla müşayiət olunmağa başlandı. Bu cəhətdən O.T.Boqomolovun fikirləri böyük maraq doğurur. O, qeyd edir ki, «Demokratiya və bazar iqtisadiyyatı islahatlara məruz qalan cəmiyyətlərin ümumi məqsədləri idi. İxtisasçılar keçid dövrünün konsepsiyası və proqramlarını dəqiqləşdirməyə cəhd edirdirlər. Beynəlxalq təşkilatlar da öz planlarını işləyib təklif edirdilər. Təkliflər əsasən bəzi aydın görünən məsələlərlə bağlı idi: ödəniş imkanlı tələbatın tənzimlənməsi və əmtəənin təklifi; pul kütləsinin və büdcənin çatışmazlıqlarının ixtisarı (bu çox vaxt makroiqtisadi sabitlik adlanır);

qiymətlərin və xarici bazarların leqallaşdırılması və nəhayət, dövlət mülkiyyətinin özəlləşdirilməsi.

Eyni zamanda bazar infrostrukturunun təşkili, hər şeydən əvvəl müasir bank sisteminin, valyuta və fond birjalarının yaradılması, həmçinin yeni menecerlərin öyrədilməsi təklif olunurdu.

Qeyd edildiyi kimi, «Dövlət institutlarının islahatı böyük kapital xərcləri tələb edir».

Eyni zamanda islahatlar keçirmək üçün ideoloji doqmalardan uzaq olan və yalnız hakimiyyətdən çıxış edən siyasi impuls lazım idi. Lakin bununla iqtisadiyyatın və siyasətin qarşılıqlı əlaqəsi pozulmurdu. Ölkədəki siyasi iqlim, cəmiyyətin sabit və ya böhranlı vəziyyəti siyasətin və iqtisadiyyatın, bazar qanunlarının və hüquqi mexanizmlərin, biznes və mənəviyyatın qarşılıqlı fəaliyyətinin xarakterindən asılı olur».

Sovet sosializmi quruluşunun dağılması siyasi böhranın nəticəsi olsa da, məhz iqtisadi bazisin dağılması həm siyasi, həm də mənəvi-mədəni böhranın dərinləşməsinin ilkin şərtinə çevrildi.

Sovet sosializmi quruluşunun dağılması məqsədilə hər cür fəaliyyət göstərən Qərb ölkələri, ilk növbədə ABŞ təxminən eyni vəziyyətdə olan postsovet məkanı ölkələrinə özünün eyni ssenarili yardımlarını təklif etməyə başladı. Məhz bu formalı müdaxilə qloballaşma prosesinə yeni güclü təkan verdi. Azərbaycan iqtisadçısı Ə.Ö.Hüseynovun qeyd etdiyi kimi, «Azərbaycanda da iqtisadi islahatların aparılması üçün MDB ölkələrinin əksəriyyətində olduğu kimi, eyni bir nəzəriyyəni – «monetarizm» nəzəriyyəsini təklif edirlər və bu nəzəriyyənin tətbiqi metodologiyası kimi Y.Kornayın «şok terapiyasını» məsləhət bilirlər. Bu nəzəriyyə tətbiq olunan ölkələri BVF-dən (Beynəlxalq Volyuta Fondu) asılı vəziyyətə salır. Çünki onlar aldıqları kreditləri qaytarmaq iqtidarında olmurlar. Beləliklə də, bir çox beynəlxalq maliyyə təşkilatları və qurumları (birinci növbədə BVF və DB (Dövlət Bankı)) ABŞ-ın bütün dünyada qurduğu dollar «piramidasının» müvazinətini saxlamağa xidmət edirlər»

Q.B.Rüstəmbəyov isə keçirilən islahatların müsbət tərəfini göstərərək qeyd edir ki, «Postsovet şəraitində dövlətin həyata keçirdiyi islahatlar yalnız iqtisadi və soisal yenidənqurma məqsədlərinə xidmət etməklə yanaşı cəmiyyəti milli təsərrüfatın təkamülü yoluna daxil etmə kimi vacib olan əhatəli funksiya əldə edir».

İslahatlar prosesinin uğurla keçirilməsi beynəlxalq aləmdə müəyyən nüfuza malik olan dövlətin məqsədyönlü fəaliyyətilə birbaşa bağlıdır. Bununla əlaqədar olaraq Rusiya sosioloqu və iqtisadçısı O.T.Boqomolov qeyd edir ki,

«Güclü və nüfuzlu dövlət olmadan bazar islahatları eybəcər, qeyri-sivilizasiya xarakteri alır».

Bazar iqtisadiyyatı münasibətlərinə keçidin tarixi ardıcıllığını şərh edən O.T.Boqomolov əlavə edir ki, «Mərkəzi və Şərqi Avropa ölkələrindən fərqli olaraq Rusiyada bazar iqtisadiyyatına keçid 1-2 il gec başladı, MDB-nin digər ölkələrində isə bu daha gec oldu. Xüsusilə Özbəkistan, Belorusiya, Türkmənistan, Qazaxıstan və Azərbaycanda bu ilk dövrlərdə daha ehtiyatlı və tədrici keçid idi. Bu səbəblərdən də həmin ölkələrin bir çoxunda iqtisadi tənəzzül tədrici islahatlar deyil, daha çox postsovet məkanındakı iqtisadi əlaqələrin pozulması, ittifaq mərkəzindən köməyin kəsilməsi, Moskva tərəfindən idarəetmə sisteminin dağılması, kadr çatışmamazlıqları ilə bağlı idi.

İqtisadi tənəzzül 1993-1994-cü illərdən başlayaraq inkişafla əvəz olunmağa başlandı, bəzən isə bu tənəzzül MDB ölkələrində bir çox illər üçün uzandı. Bu zaman digər Mərkəzi Avropa ölkələrindən heç biri Rusiya, Ukrayna və digər MDB ölkələri kimi bu dərəcədə ağır şəkildə əhalinin real gəlirlərinin və istehsal çatışmazlıqlarını yaşamadı».

Bəs ayrı-ayrı regionlarda bu böhrandan çıxış yolunu tapmaq üçün hansı vasitələrə əl atıldı? MDB ölkələrində islahatların proqramlı gedişi üst-üstə düşsə də, yerlərdəki fərqli ənənəvi-mədəni dəyərlər bu proseslərə müxtəlif cəhətlər gətirdi. İslahatların keçirilməsində nəzərə çarpan çatışmazlıqları da yerli özünəməxsusluqla, düşüncə tərzi ilə bağlamaq olar.

Azərbaycanda 15 ildən artıqdır ki, davam edən bu proseslərin yerli tədqiqatçılar tərəfindən necə qiymətləndirilməsinə, yəni islahatlar prosesinin gedişinə nəzər salaq. Bildiyimiz kimi, dövlətin, cəmiyyətin inkişafı və mənafeyi ilə bağlı olan proseslərin həyata keçirilməsi üçün ilk növbədə hüquqi baza olmalıdır. İ.H.İbrahimovun qeyd etdiyi kimi, «İqtisadiyyatda yaranmış böhranı aradan qaldırmaq üçün planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçmək qərara alındı və ilk növbədə aqrar sahədə islahatlara başlandı. İlk vaxtlar aqrar islahatların həyata keçirilməsi üçün kifayət qədər hüquqi baza olmadığına görə aparılan tədbirlər eksperiment xarakteri daşıyırdı».

İqtisadçı S.Ə.Şirəlizadə isə məhz özəlləşdirməni Azərbaycanda aparılan iqtisadi islahatların özəyi hesab edir. Qeyd edə bilərik ki, məhz özəlləşdirmə prosesi 1992-ci ilə qədər hüquqi əsaslara malik olan sovet iqtisadi sisteminin tam inkar edilməsi demək idi. Azərbaycanda 1992-ci ildən hüquqi təminat alan özəlləşdirmə prosesi bazar iqtisadiyyatına keçid istiqamətində ilk cəhd idi. Azərbaycan Respublikasında özəlləşdirmə prosesi torpaq islahatları ilə başlanmışdır. Təxminən 15 il keçdikdən sonra bu islahatların gedişinin mütəxəssislər tərəfindən necə qiymətləndirildiyinə nəzər salaq.

«Torpaq islahatını şərti olaraq 3 mərhələyə bölmək olar: 1) 1993 / 1994-cü illər: Kənd təsərrüfatının düşdüyü acınacaqlı vəziyyətin səbəblərinin öyrənilməsi, hüquqi-normativ sənədlərin tərtibinə hazırlıq işlərinin aparılması; 2) 1995 / 1996-cı illər: Əsas qanunların və normativ-hüquqi aktların qəbul edilməsi, aqrar islahatların başlanılması; 3)1997 / 2000-ci illər: İlahatların konkret olaraq həyata keçirilməsi.

Hazırda ölkənin aqrar sektoru üzrə nəzərdə tutulan əmlakın 93,2%-i özəlləşdirilmişdir. Orta hesabla hər bir ailəyə 1,6 ha torpaq sahəsi verilmişdir».

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq Azərbaycanda torpaq üzərində mülkiyyətin aşağıdakı formaları qərarlaşmışdır:

1)Dövlət mülkiyyətində olan torpaqlar: dövlət meşə fondu torpaqları, dövlət ehtiyatlarında olan torpaqlar, su fondu torpaqları və s.

2) Bələdiyyə mülkiyyətində olan torpaqlar: yaşayış məntəqələrinin yerləşdiyi və onun ətrafında olan torpaqlar;

3) Xüsusi mülkiyyətdə olan torpaqlara isə kolxoz və sovxozların ləğv edilməsi nəticəsində kəndlilərin mülkiyyətinə verilmiş torpaq sahələri daxildir.

İlkin olaraq Zaqatala və Xızı rayonlarının təsərrüfatlarında islahata başlanıldı. Sonra həmin rayonların təcrübəsi öyrənilərək digər rayonlarda, xüsusən Tovuz, Neftçala, Cəlilabad, İmişli və s. rayonlarda islahatların təşkili və həyata keçirilməsində müvəffəqiyyətlə istifadə edildi.

Özəlləşdirmə proqramında dövlət müəssisələri və obyektləri özəlləşdirmə imkanlarından asılı olaraq 5 qrupa bölünmüşdür:

1) Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər;

2) Prezidentin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

3) Nazirlər kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

4) Yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq özəlləşdirilən müəssisə və obyektlər;

5) Özəlləşdirilməsi məcburi sayılan müəssisə və obyektlər.

Müasir dövrdə Azərbaycan Respublikasında islahatlar prosesinin gedişini izləyən və istiqamətləndirən bir sıra sosial-iqtisadi institutlar mövcuddur. Bunlardan: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Vergi Nazirliyi, Statistika Komitəsi, Dövlət Əmlak Nazirliyi, Antiinhisar Siyasəti və sahibkarlığın müdafiəsi üzrə Dövlət Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Sahə elmi-tədqiqat institutları, Gömrük Komitəsi, banklar, broker kompaniyaları, çek-investisiya fondları, qiymətləndirmə kompaniyaları və firmaları və s. qeyd etmək olar.

Göründüyü kimi, islahatlar gedişində bu prosesin tədqiqi, tətbiqi və tənzimlənməsi ilə bağlı kifayət sayda sosial institutlar fəaliyyətə başlayır. A.P.Babayevin qeyd etdiyi kimi, «özəlləşdirmə və ya dövlətsizləşmə prosesində dövlət aparatının əlində olan mərkəzləşmiş idarəçiliyin müəyyən səviyyəyə qədər zəifləməsi; dövlət müəssisələrinin monopoloya vəziyyətinin dəf edilməsi; iqtisadiyyata dövlət müdaxiləsinin sərhədlərinin müəyyən edilməsi; dövlət mülkiyyətinin özəlləşdirilməsi və şəxsi mülkiyyətin təsdiqlənməsi» kimi hadisələr bir-birini əvəz edir. Məhz «bu əsaslar üzərində siyasi, iqtisadi və soial sahələrdə qeyri-dövlət strukturlarının formalaşması və inkişafı baş verir. Bu obyektiv dəyişikliklər sırasında özəlləşmə mərkəzi mövqe tutur.

Qeyd edə bilərik ki, postsovet məkanı ölkələrində özəlləşdirmə iqtisadiyyatda bazar mexanizmlərinin yoxluğu, şəxsi mülkiyyətin funksiyalaşdırılmasının normativ və iqtisadi əsasları olmadan və təsərrüfat subyektlərinin ciddi məhdudiyyətlərə malik olması şəraitində baş verir. Nəzərə almaq lazımdır ki, hələ kütləvi özəlləşdirməyə qədərki dövrdə - 1990 / 1993-cü illərdə – Azərbaycanda baş vermiş məlum siyasi və sosial hadisələr – iqtisadiyyatın böhran vəziyyəti, hiss edilən mülki və sosial bərabərsizlik, əhalinin qeyri-bərabər şəkildə varlılara və çox kasıblara bölünməsi kimi ciddi nəticələrə səbəb oldu. Əhalinin əksər hissəsi isə cəmiyyətdəki sosial-siyasi dəyişikliklərə aktiv və təsirli müdaxilə etmək və şəxsi vəziyyətini yaxşılaşdırmaq imkanlarından məhrum edildi. Azərbaycana xas olan əsas cəhətlərdən biri də o idi ki, özəlləşdirmə xalq üçün tale yüklü məsələlər olan siyasi suverenliyin möhkəmləndirilməsi, iqtisadi müstəqilliyə nail olmaq və respublikanın ərazi bütövlüyünün bərpası problemlərinin həlli ilə bərabər həyata keçirilirdi».

Keçid dövrünü – «müvafiq normativ bazanın olmadığı dövr» kimi səciyyələndirən S.Ə.Şirəlizadə əlavə edir ki, «özəlləşdirmədən sonra müəssisələr iki əsas problemlə üzləşirlər: 1)maliyyə böhranındın çıxmaq, köhnə avadanlıq və texnologiyanın yeni və daha mütərəqqi tipləri ilə əvəzlənməsi üçün maliyyə resurslarının axtarılması; 2)rəqabət qabiliyyətini itirmiş müəssisələrin reabilitasiyadan sonra rəqabət mühitinə daxil olması».

Bir qrup iqtisadçının haqlı oaraq qeyd etdiyi kimi, «islahatlar aparmaq üçün ilk növbədə ölkənin ərazi bütövlüyünə, mövcud potensialına, onun əlverişli geosiyasi vəziyyətinə və digər xüsusiyyətlərinə uyğun strateji istiqamətlərin seçilməsi, regional inkişaf strategiyası hazırlanması tələb olunur. Azərbaycanda iqtisadi islahatlar tədricən həyata keçirilir, lakin bəzi hallarda onların ləngiməsi də müşahidə olunur. Bazar münasibətlərinin həyata keçirilməsi prosesində regional inkişafın dövlət tənzimlənməsi bilavasitə

obyektiv zərurətə çevrilir. Bazar münasibətləri şəraitində fəaliyyət göstərən ölkələrin təcrübəsi göstərir ki, regional inkişafın tənzimlənməsi dövlətin bütövlükdə iqtisadi inkişafa müdaxilə etdiyi səmərəli və vacib sahədir».

İslahatlar prosesinin ən adi gözlə görünən tərəflərindən biri köhnə iqtisadi strukturun tədricən bazar iqtisadiyyatına uyğun yenidən qurulması prosesidir. Bu yenidənqurma və ya struktur dəyişikliyi prosesində ən qabarıq nəzərə çarpan ilk dövrlərdə hətta kütləvi xarakter alan işsizlik problemidir.

SSRİ-nin dağılması nəticəsində müttəfiq respublikalar arasındakı mövcud iqtisadi əlaqələrin qırılması, istehsal müəssisələrinin böyük bir hissəsinin öz fəaliyyətini dayandırması həmin sahədə çalışanların öz iş yerlərini itirməsinə səbəb oldu. Yeni iqtisadi münasibətlərə keçidlə əlaqədar olaraq, istehsalın strukturunda, istehsal texnologiyasında mühüm dəyişikliklər baş verdi. Belə dəyişikliklər bəzi ixtisaslara olan tələbi azaltdı və nəticədə struktur işsizliyin səviyyəsi əhəmiyyətli dərəcədə artdı. Ölkəmizin üzləşdiyi müharibə, qaçqınlar ordusunun yaranması işsizlərin sayının ağılasığmaz dərəcədə artmasına, istehsalla məşğul olan əhalinin sayının kəskin şəkildə düşməsinə səbəb oldu. Bunlardan başqa dövlət müəssisələrinin özəlləşdirilməsi nəticəsində mövcud olan iş yerlərini itirənlərin sayı çoxaldı ki, bu da işsizliyin ümumi səviyyəsinin artmasına gətirib çıxartdı. Əhalinin böyük bir hissəsinin illər boyu yiyələndiyi əmək vərdişlərini itirməsi, təklif olunan iş yerlərinin onların ixtisaslarına uyğun olmaması və yaxud əmək haqqının səviyyəsinin aşağı olması son illər ərzində işsizlik probleminin qalmasına əsas verib.

Dünya standartlarına uyğun qəbul edilmiş əmək münasibətlərinin pozulması, insanların əmək qüvvələrinin qorunmaması mövcud cəmiyyətimizin K.Marksın təsvir etdiyi erkən və ya vəhşi kapitalizm mərhələsini sürətli bir axınla keçdiyi təsəvvürünü yaradır. Kapitalizmin erkən mərhələsi özünəməxsus «yabanı» münasibətlər - korrupsiya, gizli biznes kriminal hadisələrin «çiçəklənməsi», dövlət hüquq orqanlarının nəzarətinin zəifləməsi, cəmiyyətdə mənəvi düşkünlüyün yaranması, yüksək dəyərlərin mənasızlaşması və s. proseslərlə müşayiət olunur. Lakin keçid dövrünü araşdıran tədqiqatçıların fikrincə, keçid dövründə qeyd olunan çatışmazlıqları yaşayan cəmiyyət sonradan məhz az bir qism insanların qoruyub saxlaya bildikləri ali əxlaqi dəyərlər əsasında yenidən dirçəlib inkişaf edə bilir.

İngilis iqtisadçısı E.S.Savas bununla bağlı qeyd edir ki, «ictimaiyyətin aşağı təbəqəsi adlanan təbəqənin problemi, (nəsildən nəslə sosial təminatdan olan asılılıq) qismən olsa da dövlət tərəfindən yaradılmışdır. Qeyd olunan problemlər – məktəbi tərk etmək, azyaşlılar arasında hamiləlik, kəbinsiz uşaq doğuşu, alkoqolizm və narkomaniya kimi əsas problemlər ictimai cəhətdən lazım olmayan insan nəsli törədir. Bu insanlar işləməyi bacarmırlar və dilənçi

halında yaşamağa məhkum edilmişlər. Onlar qanuni yolla sosial təminatdan alınan köməkdən və ya qanunsuz, cinayət yolu ilə əldə edilən gəlirdən asılıdırlar.

İslahatçılar belə bir dəlil də gətirirlər ki, cəmiyyətin özəl institutları – ailə, insan məskunlaşmış məntəqə, dini müəssisələr, cəmiyyət – bu dağıdıcı davranış nümunəsi üzrə ən yaxşı dəyişikliklər edə və onun inkişafının qabağını ala bilərlər.

Dövlət hakimiyyəti məhduddur, ancaq qanun çıxarda bilir. Buna əks olaraq «ruhani nümayəndəsi məsləhət verə bilər ki, kilsədən yardım alan əyyaş öz hərəkətlərinin saflaşması üçün tövsiyə alsın, ola bilsin ki, onun yardım etmək hüququ da var, lakin o, habelə vətəndaşın sosial mahiyyətini də öz üzərinə götürməlidir».

Müəllif bu fikirlərini Nyu-Yorkda həm kilsə, həm də dövlət idarələri tərəfindən təşkil olunmuş sosial təminat fəaliyyətlərindən gətirilən misallar ilə sübut edir.

Keçid dövrü şəraitində mənəvi durğunluq keçirən insanların ruhani məsləhətlərinə ehtiyacları xüsusilə böyükdür. Lakin əfsuslar olsun ki, respublikamızda müsəlman ruhaniləri bu sahədə demək olar ki, fəaliyyətsizdirlər. Halbuki qeyd edilən həm mənəvi, həm də ruhani köməyi islam dininin də nüfuzunun güclənməsinə kömək edə bilərdi.

Görkəmli Rusiya sosioloqu Y.Q.Volkov isə yaşadığımız keçid dövründə sosial-iqtisadi münasibətlərin tənzimlənməsi üçün «idarəçiliyin bazar mədəniyyətini formalaşdırmaq» ideyası ilə çıxış edir və «menecerləri bu mədəniyyətin daşıyıcıları» kimi səciyyələndirir.

Rusiyada keçid dövrü cəmiyyətinin təsvirini verməyə çalışan Y.Q.Volkov onu insana bənzədir. Bu insanın başı (yəni varlı təbəqə) çox balaca, bədəni (orta təbəqə) çox arıq, ayaqları (aşağı təbəqə) isə çox böyükdür. Belə «balaca baş» və «arıq bədən» özünün «nəhəng ayaqlarını» tərpədə bilmək iqtidarında deyil. Əslində keçid dövrü cəmiyyətinin anormal vəziyyətini «görməyə» imkan verən bu təsvir bütün postsovet məkanı ölkələrinə aiddir desək, yanılmarıq.

**Keçid mərhələsində təbəqələşmə prosesinə dair**

Sovet imperiyası dövründə mövcud cəmiyyət qapalı olduğundan onu təşkil edən insanlar və ya bu quruluşda mövcud olmuş siniflər arasındakı münasibətlər sabit idi. Qapalılıq bu cəmiyyətin insanlarını ümumdünyəvi sinifləşmə prosesində marginal olmaqdan qoruyurdu. Vaxtı ilə adlandırıldığı kimi «sovet adamları» mövcud ictimai münasibətlərdən kənarda (xarici dövlətlərdə) iqtisadi münasibətlərə can atmırdılar. Lakin imperiya dağıldıqdan

sonra yaranmış anlaşılmaz vəziyyət və Qərb sivilizasiyasının bütün sahələri əhatə edən güclü təsir axını bütövlükdə keçmiş sovet məkanının marginal cəmiyyətə çevrilməsinə səbəb oldu. Sovet imperiyası dağıldıqdan sonra özəl təsərrüfat münasibətlərinin inkişafı təbəqələşmə prosesini sürətləndirdi və yeni təsərrüfat münasibətlərinin təmsilçiləri olan təbəqələrin meydana gəlməsinə səbəb oldu. Bu prosesdə ən qabarıq nəzərə çarpan sahibkarlar təbəqəsi idi. Ümumiyyətlə, sahibkarlar fəaliyyət istiqamətlərinə görə 3 qrupa bölünürlər:

1.İri sahibkarlar; 2.Orta sahibkarlar; 3. Kiçik sahibkarlar.

Bu gün Azərbaycanda kiçik sahibkarlar üstünlük təşkil edirlər. Kiçik sahibkarlar əsasən müxtəlif növ ticarətlə məşğul olurlar.

Qeyd etmək lazımdır ki, özəl təsərrüfat münasibətlərində sahibkarlar təbəqəsi ilə yanaşı, yoxsullar təbəqəsi də mövcud olur. Yoxsullar təbəqəsinin yaranmasının əsas səbəbi işsizlik problemidir. İşsizlik isə bazar iqtisadiyyatının əsas xüsusiyyətlərindən biridir. Çünki bazar iqtisadiyyatında rəqabət inkişafın əsas xüsusiyyəti kimi çıxış edir. Rəqabətə tab gətirməyən özəl müəssisələr iflasa uğrayır və bağlanır. Müəssisələrin bağlanması isə buradakı işçilərin işsizlərə çevrilməsi deməkdir. Sovet imperiyası dağıldıqdan sonra sənaye müəssisələrinin müasir dünya bazarı standartlarına uyğun olmadağı və buradakı rəqabətə davam gətirmədiyi üçün bağlanması postsovet məkanında işsizlik prosesinin kütləvi xarakter almasına səbəb oldu. Ümumiyyətlə, əgər qabaqcıl ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, işsizlik probleminin tam və həmişəlik aradan qaldırılması mümkün deyil. Lakin yoxsulluğun mahiyyətinin dəyişdirilməsi mümkündür. Yəni məsələn, ola bilər ki, 100 il əvvəl heç bir əmlakı olmayan və heç bir yerdə işləməyən azad adam yoxsul hesab edilərdisə, 100 il sonra müəyyən miqdarda əmlakı olan və cüzi əmək haqqı alan şəxs yoxsul hesab edilə bilər.

15 ildən artıq bir müddəti əhatə edən keçid dövründə cəmiyyətimizin təbəqələşməsi prosesi davam edir. Sosioloji tədqiqatlar göstərir ki, müəyyən qrup adamlar hansı təbəqəyə aid olduqları haqqında dəqiq təsəvvürə malik deyillər. Eyni zamanda təbəqələşmə prosesi başa çatmadığından yeni yaranan sinifləri və təbəqələri dəqiq göstərmək və ya adlandırmaq da çətindir və bu prosesdə ilkin müşahidələri qeyd etmək vacibdir. Bu səpkidə Azərbaycanda mövcud olan yenilikləri öyrənmək üçün Qərbi Avropada vaxtı ilə keçid dövrünü yaşamış və o mərhələdə sinfi münasibətləri təkmilləşdirmiş ölkələrin təcrübəsini nəzərə alaraq, bu gün bizim cəmiyyətimizdə meydana gələn yeni təbəqələrin və siniflərin yaranma prosesini təhlil etmək elmi maraq kəsb edir.

Təbəqələşmə prosesi ilə bağlı olan problemlərə dair işləyən bir sıra müəllifləri qeyd etmək olar. Bunların içərisində həm respublikamızda işləyən müəllifləri, həm də rus və Qərb tədqiqatçılarını qeyd etməyi zəruri bilirik.

Azərbaycan tədqiqatçılarından C.Əhmədli, R.Həsənov, R.Əzimova və başqaları bu sahədə elmi tədqiqatlar aparmışlar.

Qloballaşma prosesinin sürətləndiyi bir dövrdə, hər hansı bir sosial-iqtisadi təzahür formasını aydınlaşdırmağa cəhd edərkən bu təzahürün digər mühitlərdə özünüəksi formasına diqqət yetirmək vacibdir. Onu da qeyd edə bilərik ki, müasir inkişaf etmiş ölkələrdə təbəqələşmə prosesinin vəziyyəti və öyrənilməsinə çoxlu sayda tədqiqat işləri həsr olunub. Belə ki, rus sosioloqu P.B.Yerasov ABŞ və Yaponiyada 6 sinfin mövcud olduğunu qeyd edir:

1)İş verənlər, muzdlu işçiləri olan mülk sahibləri;

2)Xırda mülkiyyətçilər (muzdlu işçiləri yoxdur);

3)Menecerlər;

4)Aşağı təbəqəyə rəhbərlik edənlər;

5)Zehni əməklə məşğul olanlar;

6)Fiziki işlə məşğul olan fəhlələr. Belə sinifləşmədə gəlirin miqdarı və təhsil səviyyəsi nəzərə alınmır.

Polşa sosioloqları Henri Domanski və Zbiqnev Savinski təbəqələşmə ilə bağlı aparılmış araşdırmalarla müqayisəli tədqiqat apararaq Erikson, Holdtron və Portokareronun (EHP) yaratdıqları müqayisəli təbəqələşmə strukturunu Polşa cəmiyyətinə uyğunlaşdırılmış formada tətbiq edilməsinə üstünlük vermişlər. Bu əsasda təbəqələşmənin bir sıra beynəlxalq təsnifatları hazırlanmışdır: Peşələrin beynəlxalq təsnifatı (ISSO), Peşələrin mövqeyinin beynəlxalq standartlaşmış şkalası (SIOPS), Sosial-iqtisadi statusun beynəlxalq standartlaşmış şkalası (ISEI). Lakin nəzəri və metodoloji fərqlər hansı peşə kateqoriyalarını seçməyi və bu zaman hansı kateqoriyalardan istifadə etmək üçün yaramırdı. Paradiqmaların rəqabət vəziyyəti beynəlxalq tədqiqatlarda istifadə edilməsi üçün vahid standart işin alınmasına mane olurdu. Hamı tərəfindən qəbul edilən və nəzəri cəhətdən təsirli olan konsepsiyanın yaranması vacib idi. Nəhayət, M.Veberin sinfi-təbəqələşmə diferensiasiyasına əsaslandırılmış EHP göstəricilərinə üstünlük verildi. M.Veberin avtoriteti, mövcud vahid nəzəri konsepsiyanın müdafiə olunması və bazar cəmiyyəti üçün bu təsnifatın uğurlu olduğunu təsdiq edən təcrübi əsaslar EHP təsnifatının müqayisəli tədqiqatlarda sinfi-təbəqələşmə əməliyyatlarında tez-tez istifadə edilməsinə şərait yaratdı».

Aşağıda verilən cədvəl M.Veberin konsepsiyası əsasında tərtib olunub

| № | Kateqoriyaların adı | % |
|---|---|---|
| 1. | Dövlət strukturunda və biznesdə ali rəhbər kadrlar, mütəxəssislər, iri firma sahibkarları | 8,9 |
| 2. | Dövlət strukturunda və biznesdə aşağı rəhbər kadrlar, | 15,1 |

| | | |
|---|---|---|
| | orta səviyyəli mütəxəssislər | |
| 3. | Dəftəfrxana işçiləri, satıcılar, xidmət sahəsinin ixtisaslaşmış personalı | 16,7 |
| 4. | Muzdlu işçiləri olan azad sahibkarlar | 0,6 |
| 5. | Muzdlu işçiləri olmayan azad sahibkarlar | 2,7 |
| 6. | Fiziki işçilərə rəhbərlik edən briqadirlər və texniki-nəzarətçilər | 1,7 |
| 7. | İxtisaslaşmış fəhlələr | 15,7 |
| 8. | Sadə əmək adamları | 25,2 |
| 9. | Kəndlilər | 11,2 |
| 10. | Cəmi | 100,0 |

«Bu cədvəldə təbəqələşmə həm sinfi, həm də peşələr arasında aparılır. Bunun əsas səbəbi isə dünya iqtisadi bazarının mövcud olmasıdır. Bazar münasibətləri mövqeyi – bir tərəfdən ehtiyatlar, digər tərəfdən isə həmin ehtiyatlar əvəzində alınan gəlirlər mənasını verir. Bu gəlirlər – xüsusi peşəkar ixtisaslaşma, təhsil səviyyəsi, iqtisadi və mədəni kapital deməkdir və fərd bu qeyd olunanlarla bazar münasibətlərinə daxil olur. Bu ehtiyatlar az və ya çox dərəcədə yaxşı vəzifənin elementləri hesab edilir, bundan başqa əmək haqqının miqdarını təyin edir, məşğulluğa təminat verir və ya işin itirilməsinə səbəb olur, karyera etmək imkanı verir və sosial-iqtisadi aspektin digər vəziyyətlərilə müşayiət olunur».

Sovet sosializminin dağılmasından sonra yeni sinifləşmə prosesi obyektiv bir prosesə çevrilərək sinifdaxili və siniflərarası yeniləşməyə doğru gedir. Bildiyimiz kimi, sovet sosializmi quruluşu siyasi elita, ziyalılar, fəhlə və kəndlilər siniflərindən təşkil olunmuşdu. Lakin siniflər arasındakı hüquqi fərqlər nəzərə çarpmırdı. Tarixə nəzər saldıqda görürük ki, ümumiyyətlə hər bir cəmiyyətin keçid mərhələsində təbəqələşmə prosesi aparıcı rol oynayıb. Çünki cəmiyyətin yeni iqtisadi münasibətlərə keçidi dövründə onun strukturu dəyişərək təbəqələşmə prosesini sürətləndirir. Bu gün siniflərarası münasibətlərin bir proses kimi araşdırılması bizim üçün olduqca vacibdir. Bu məqsədlə İ.D.İvanov, O.D.Uilrix və V.L.Şeyniye kimi mütəxəssislərin bu istiqamətdə apardıqları tədqiqatlar bizim üçün nəzəri mənbə ola bilər. Həmin müəlliflər sinifləşmə prosesində xüsusi yer tutan bir neçə amilə daha çox fikir verirlər. Onlar qeyd edirlər ki, «inkişaf etməkdə olan ölkələrdə adətən müasir standart və texnologiyalara cavab verməyən quruluşlar həm daxildən, həm də xaricdən müasir sahibkarlıq sektorları və dünya bazarının təsirinə məruz qalır və burada əmək bölgüsü yaranır. Uzunmüddətli tarixi inkişaf nəticəsində müasir təbəqələşməyə malik olan ölkələrdə bu proses həm çox sürətlə gedir,

həm də böyük daxili müqavimətlərə məruz qalır. Bu da həmin ölkələrdə daxili bazarın zəifləməsinə səbəb olur. Müəlliflər yuxarıdakı fikirlərinin davamı olaraq qeyd edirlər ki, «keçid dövründə yerli əkinçilik əvvəlcə istehsalatla, sonra isə xırda məhsul istehsalçıları ilə birləşir. Bazar münasibətləri təsirinə düşən bu keçici əkinçilik əvvəllər ağıla gəlməyən rəqabətlə qarşılaşır. Kənddə müasir icarədarlar formasında alıcılar meydana gəlir. Yerli kəndli artıq torpağa «sənaye» kimi baxan fermerə çevrilir. Bu isə öz növbəsində əkinçiliyin ixtisaslaşmasına və kəndlilərin təbəqələşməsinə səbəb olur. Torpaq özü alqı-satqı obyektinə çevrilir. Bu prosesdə ictimai əmək bölgüsü və onun iqtisadiyyatın bütün sahələrində ixtisaslaşması aparıcı faktora çevrilərək əkinçi olmayan əhalinin çoxalmasına və urbanizasiya prosesinin sürətlənməsinə, daxili qruplaşmaya, məlumat vasitələrinin inkişafına, dövlətin fəaliyyətinə və xarici bazara təsir etməsinə səbəb olur. Bu isə öz növbəsində bazara eninə və dərininə inkişaf etməyə şərait yaradır».

Beləliklə, gördüyümüz kimi, əsasən keçid dövrünün erkən fazalarında daha qabarıq nəzərə çarpan daxili bazarın formalaşması prosesi tədricən torpaqdan, yəni kənd təsərrüfatının inkişafından asılı vəziyyətə düşür. Yəni daxili bazarın genişlənməsində yerli kənd təsərrüfatının rolu ilkin nəzərə çarpır. Bu prosesi biz bu gün Azərbaycanda da bütün tərəflərilə müşahidə edirik. Beləliklə, keçid dövrünün ilk mərhələsində əmək bölgüsü və ya sinifləşmə haqqında danışarkən biz əsasən kənd təsərrüfatının yeni quruluşda formalaşmasından asılı olaraq yaranan daxili bazar münasibətləri və vasitələrini müşahidə edirik və onun nəticələri göz önündədir.

Deyilənləri nəzərə alaraq bu gün Azərbaycan kəndində əhalinin –
1) fermerlər və ya orta sahibkarlar; 2) kəndlilər və ya kiçik təsərrüfatçılar; 3) kasıb kəndlilər və ya mövsümi muzdlu işçilər kimi təbəqələrə bölündüyünü müşahidə etmək olar. Bizə elə gəlir ki, kənd təsərrüfatında inkişaf nəticəsində bu təbəqələrin bəziləri həyatın tələbatına cavab vermədiyinə görə sıradan çıxa bilər və ya yenisi ilə əvəz oluna bilər.

Yuxarıda qeyd etdiyimiz müəlliflər burada yaranan ziddiyyətli vəziyyəti belə izah edirlər: «inkişaf etməkdə olan iqtisadiyyatın ən nəzərə çarpan cəhətlərindən biri odur ki, burada sabitləşmiş siniflər yoxdur və istehsal prosesində ən müxtəlif təbəqələr qarışır. Bunun da əsas səbəbi eyni bir fərdin bir neçə sənətə yiyələnməsi və müxtəlif sahələrdə iqtisadi münasibətlərə qoşulmasıdır. Məsələn, torpaq sahibkarı – torpaq sahəsini icarəyə verən, mülkədar, iri tacir, aksioner və s. – dövlət işçisi ola bilər; xırda torpaq sahibkarı – öz torpağını icarəyə verən, şəxsi və ya dövlət müəssisəsində muzdlu işçi ola bilər və s.». Belə bir nəticəyə gəlmək olar ki, bir ictimai quruluşdan digərinə keçid dövrünü yaşayan şəxsiyyət əvvəlki quruluşda aid

olduğu sinfin təzahürlərilə yanaşı, yeni quruluşun da sinfi təzahürlərini özündə birləşdirir və buna görə də iqtisadi münasibətlərdə bir neçə iqtisadi tipin daşıyıcısına çevrilir. Keçid dövrünü yaşayan cəmiyyətin dünya iqtisadi bazarına daxil olması və yeni iqtisadi sektorların inkişafı yeni iqtisadi münasibətlərin yaranmasına səbəb olur.

Bu gün neft sənayesini çıxmaq şərtilə hələ ki, Azərbaycanda sənaye sahələri özünün ilkin dirçəliş dövrünü yaşayır. Buna görə də sənayeləşmiş cəmiyyətin əsas təbəqələrindən olan fəhlə sinfinin Azərbaycan cəmiyyətində bu günkü mövqeyi və ya tutduğu yer haqqında danışarkən, qeyd etmək lazımdır ki, fəhlə sinfi yeni mahiyyətli formalaşma dövrünü yaşayır. Belə ki, müasir fəhlə əsasən texniki savadı olan insanlardır. Azərbaycanda əsasən neft sənayesi fəhlələri, tikinti və xalq təsərrüfatı sahəsində çalışan fəhlələri fərqləndirmək olar.

Təbəqələşmə probleminin psixoloji və mədəni aspektləri də olduqca aktualdır və müasir sosioloqlar problemin mədəni-psixoloji aspektlərinə də xeyli yer ayırırlar. Yerasov siniflər arasındakı münasibətləri öyrənərək belə nəticəyə gəlir ki,

«a) keçmişdə peşəkar sərbəstliyin zühur etməsi imkanlarının səviyyəsi fərdin gələcəkdə sinfi strukturda tuta biləcəyi mövqeyə təsir edir;

b) şəxsiyyətin peşəkar sərbəstliyinin səviyyəsi ilə psixoloji xarakteristikası arasında böyük əlaqənin olduğu müşahidə edilir;

c) fərdi psixoloji xarakteristikanın fərdin peşəkar sərbəstliyinə və cəmiyyətdə mövqeyinə təsir etməsi heç bir statistika tərəfindən təsdiq edilməyib».

Buradan belə bir nəticəyə gəlmək olar ki, əslində yaşadığımız dövrün özü təbəqələrin bir-birinə keçməsi və ya vaxtı ilə bir təbəqənin üzvü olmuş şəxsiyyətin digər – daha yuxarı və ya aşağı təbəqəyə keçməsinin sürətləndiyi dövrdür. İ.D.İvanov, O.D.Uilrix və V.L.Şeyniyenin qeyd etdikləri kimi, «müasir siniflərin formalaşması prosesində etnik, irqi, mədəni və digər qruplar yaxından iştirak edərək siniflərin iqtisadi əsasının zəifliyinə səbəb olur. Lyumpenlər, pauperlər, marginallar kimi amorf sosial mövcud olmalar siniflərin formalaşmasına güclü təsir göstərirlər». Bu gün Azərbaycanda bu prosesi biz daha qabarıq şəkildə müşahidə edə bilirik. Belə ki, cəlb olunduğumuz müharibə bir milyondan artıq əhalinin qaçqına, yeni sosial-iqtisadi münasibətlərdə bir çox insanların marginallara çevrilməsinə səbəb olub. Əvvəlki quruluşda cəmiyyətin əsas aparıcı qüvvəsi olan ziyalıların bir hissəsi isə yeni ictimai münasibətlərə uyğunlaşa bilmədiklərinə görə çaşqınlıq hissiyatı ilə yaşayırlar. Ümumilikdə, Azərbaycan cəmiyyəti yeni sosial-iqtisadi, mənəvi-mədəni və sosial-siyasi proseslərə qoşularaq müəyyən mənada marginal cəmiyyət dövrünü keçirir. Cəmiyyətin marginallığı isə

əslində onu təşkil edən hər bir fərdin marginal olması deməkdir. Bu proses təbəqələşmə ilə üzləşən şəxsiyyətdə qabarıq nəzərə çarpır. O, ya yeni sinfə daxil olduğunu qəbul etmək istəmir və ya bu sinifləşmə onun yeni xarakterik cəhətlərinin açılmasına və inkişafına səbəb olur. Zənnimizcə, Nikolayev düzgün olaraq qeyd edir ki, «cəmiyyətin diferensiasiyası fərdi şüurun kollektivdən ayrılmasına və individual şəxsiyyətin daha çox müstəqilləşməsinə səbəb olur, bu, fərdi qapalılığın dərinləşməsilə müşayiət olunur. Diferensiasiya olunmuş müasir dünyada fərdin həyatının dəyərli hissəsi başqa gözlərdən gizlədilir və belə demək olar ki, psixoloji cəhətdən dərk olunmaq üçün bağlanılır. Qarşılıqlı «yadlaşmanın» sərhədləri qrup daxilindən şəxsiyyətlər arasına keçir. «Yadlaşma» mülayim mənada «qəribəlik» kimi qəbul edilir».

Beləliklə, Azərbaycan Respublikasında keçid dövründə mövcud iqtisadi proseslərin öyrənilməsi ilə bağlı aparılan tədiqatların nəticələrini qruplaşdıraraq deyə bilərik ki,

I. Ümumilikdə bütün postsovet məkanı ölkələri bazar iqtisadiyyatına keçid prosesini yaşayır. Bazar iqtisadiyyatının inkişafına təsir edən əsas amillər – istehsalın genişlənməsi, daxili bazarın inkişafı, dünya bazarına inteqrasiya, idxalın genişlənməsi, kiçik biznesin inkişafı və s. qəbul edilə bilər. Bazar iqtisadiyyatının xarakterik xüsusiyyətlərinin – özəlləşdirmə, ilkin kapital axını, investisiya qoyuluşu, maliyyə böhranları, işsizlik və s. olduğunu hesab etmək olar.

II. Keçid prosesi islahatlarla müşayiət olunur. İslahatlar iki müxtəlif şəraitdə keçirilə bilər:

1.Sabit dövlət quruculuğu şəraitində cəmiyyətin tələbat duyduğu tədrici islahatlar (ABŞ, Qərbi Avropa ölkələri və s.);

2.Ənənəvi dövlət formasının dağıdılaraq yeni dövlət quruculuğuna keçid şəraitində keçirilən islahatlar (post Sovet məkanı ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri).

Sabit durumda olan cəmiyyətlərdən fərqli olaraq, böhranlı, keçid dövrünü yaşayan cəmiyyətlərdə aparılan islahatlar daha ağrılı və çətin olur. Yalnız vahid islahatçının heç bir siyasi qarşıdurmaların müşahidə edilmədiyi cəmiyyətdə apardığı uğurlu islahatlar keçid dövrünü qısa müddətli edə bilər. Siyasi qarşıdurmalar çərçivəsində isə keçid dövrü təsəvvür edilməyəcək qədər böyük bir müddəti əhatə edə bilər.

III. Sovet sosializmi quruluşunun dağılması siyasi böhranın nəticəsi olsa da məhz iqtisadi bazisin dağılması həm siyasi, həm də mənəvi-mədəni böhranın dərinləşməsinin ilkin şərtinə çevrildi. Keçid dövrünü yaşayan ölkələrdə keçirilən islahatlar cəmiyyətin bütün sosial institutlarını – iqtisadi,

siyasi, mənəvi-mədəni – əhatə edir. Bildiyimiz kimi, postsovet məkanı ölkələri mərkəzləşmiş milli təsərrüfat formasından şəxsi mülkiyyətin əsası olan özəl təsərrüfat formasına keçid dövrünü yaşayırlar. Məlumdur ki, dövlətin cəmiyyətin inkişafı və mənafeyi ilə bağlı olan fəaliyyətinin – islahatların – həyata keçirilməsi üçün ilk növbədə hüquqi baza olmalıdır. Azərbaycanda məhz 1992-ci ildən hüquqi təminat alan özəlləşdirmə prosesi bazar iqtisadiyyatına keçid istiqamətində ilk cəhd idi. Azərbaycan Respublikasında özəlləşdirmə prosesini aşağıdakı mərhələlərə bölmək olar:

1)1992 / 1994-cü illər; 2) 1995 / 1996-cı illər; 3)1997 / 2002-ci illər.

Özəlləşdirmə aşağıdakı sahələr üzrə aparılır:

1) Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi;

2)Orta dövlət müəssisələrinin özəlləşdirilməsi;

3) İri dövlət müəssisələrinin özəlləşdirilməsi.

Bildiyimiz kimi, MDB ölkələrində islahatların proqramlı gedişi üst-üstə düşsə də, yerlərdəki fərqli ənənəvi-mədəni dəyərlər bu proseslərə müxtəlif cəhətlər gətirdi.

Hazırda islahatların uğurla aparılması bir sıra şərtlərdən asılıdır: ilk növbədə ölkənin ərazi bütövlüyünə, mövcud maddi və mənəvi potensialına, onun əlverişli geosiyasi vəziyyətinə və digər xüsusiyyətlərinə uyğun strateji istiqamətlərin seçilməsi, regional inkişaf strategiyası hazırlanması tələb olunur.

İslahatlar prosesi ilə bağlı yaranan şəxsiyyət probleminin bir sıra xüsusiyyətlərini müşahidələr əsasında irəli sürdüyümüz hipotezdə vurğulamağa cəhd göstərmişik və güman edirik ki, onlardan ən əsasları qeyd edilənlərdir: Sosial gərginliyi artırır; İstehsal münasibətlərində gərginliyi artırır; Şəxsiyyəti aktiv əmək fəaliyyətinə cəlb edir; Şəxsiyyətin çaşqınlığına səbəb olur; Şəxsiyyətin fəaliyyətində mənfi təzahürlərin genişlənməsinə səbəb olur və s.

Bu qeyd edilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, islahatlar prosesi ilə müşayiət olunan keçid dövründə dağıdıcı davranış formaları daha da qabarır.

IV. Keçid dövründə iqtisadi proseslərin gedişində yaranan ziddiyyətlər təbəqələşmənin dərinləşməsi ilə müşayiət olunur. Sovet imperiyası dağıldıqdan sonra Azərbaycanda kənd və şəhər əhalisinin təsərrüfat fəaliyyətində mövcud fərqlərin olması ilə əlaqədar regional olaraq aşağıdakı təbəqələrin yaranması müşahidə edilir:

Kənd təsərrüfatı sahəsində:

1. Fermerlər və ya orta sahibkarlar;
2. Orta kəndlilər və xırda təsərrüfatçılar;

3. Kasıb kəndlilər və ya mövsümi muzdlu işçilər.

Şəhərdə bilavasitə ticarətlə bağlı olan:

1.İri sahibkarlar;

2.Orta sahibkarlar;

3.Xırda sahibkarlar.

Qeyd olunan sadalamaya daha bir təbəqəni – elitanı – daxil etmək olar. Elitanı da tərkibinə görə 3 hissəyə ayırmaq olar: 1.Elmi potensialın daşıyıcısı olan elita; 2. Siyasi elita; 3.Mədəni elita. Lakin bizə elə gəlir ki, həm mənəvi-intellektual, həm də maddi vəziyyətinə görə seçilə bilən bu təbəqənin nümayəndələri azlıq təşkil edir və digər təbəqələr kimi həqiqi elita da hələ formalaşma mərhələsini yaşayır.

Sonda belə qənaətə gəlirik ki, bilavasitə islahatlar və təbəqələşmə ilə müşayiət olunan iqtisadi proseslər uzunmüddətli və çoxşaxəli problemlərlə bağlıdır və yaxın gələcəkdə burada yaranan problemlərin təhlilinə böyük ehtiyac duyulacaq.

Təbəqələşmə dinamikasının sürətlə inkişaf etməsini nəzərə alaraq, şəhər və kənd təsərrüfatına uyğun yeni peşələrlə bağlı kadrlar hazırlığı imkanları genişlənməlidir. İqtisadiyyatda özəl təsərrüfatın genişlənməsi üçün sahibkarlara maddi və mənəvi yardım fəallaşmalıdır. Həm fermer təsərrüfatı, həm də sənayenin inkişafı ilə bağlı investisiya cəlb edilməli və xarici sahibkarlarla müştərək iş üçün imkanlar yaradılmalıdır.

**YOXLAMA SUALLAR**

1.Sosial iqtisadi proseslərin proqnozlaşdırılması xüsusiyyətləri nə ilə fərqlənir?

2.Sosial iqtisadi proqnozlaşdırmanın əsas göstəriciləri hansılardır?

3.Azərbaycanda müasir sosial iqtisadi proseslərin proqnozlaşdırılması xüsusiyyətlərini izah edin.

**REFERAT MÖVZULARI**

1.Sosial iqtisadi proseslərin proqnozlaşdırılması xüsusiyyətləri

2.Müasir dövrdə Azərbaycanda sosial iqtisadi inkişafın əsasları

3.Azərbaycanda keçirilən iqtisadi islahatların mahiyyəti

4.Müasir dövrdə Azərbaycanda təbəqələşmənin dinamikası

**ƏDƏBİYYAT:**

1. Бабаев А.П. «Приватизация – фактор перехода Азербайджана к рыночной экономике», журн. «Игтисадиййат.Хябярляри», Елм, 1998

2.Богомолов О.Т. Экономические проблемы на рубеже веков. Реформы в зеркале международных сравнений, М., Экономика, 1998.

3. Иванов И.Д., Ульрих О.Д., Шейние В.Л. «Особенности становления и развития внутренних рынков», в кн. «Развивающиеся страны в современном мире. Единство и многообразие», М., изд.Наука, 1983.
4.Методологические проблемы прогнозирования и управления в области художественной культуры / Отв. Ред. А.А. Корягин. Л., 1990.
5.Основы экономического и социального прогнозирования / Под ред. В.Н. Мосина, Д.М. Крука. М.: Высшая школа, 1985.
6.Пшеворский А. Демократия и рынок. Политические и экономические реформы в Восточной Европе и Латинской Америке, М.,
7.Рж. Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература. Серия 11. Социология, Москва, изд. Наука 1993, 1998, 1999 59,№3,4 1993.
8.Рос.полит.энциклопедия, 2000г., 320с. 4.Волков Ю.Г., Мостовая И.В.
9.Рустамбеков Г.Б. Национальные экономические интересы, Баку, Изд-во БГУ,1998.
10.Социология (учебник), М., Гардарики, 1999, 455с. 5.East Asian strategiъ Review 1998 – 1999, The National Institute for Defense Studies Japan 1996, 450p.
11.İqtisadi islahatlar mərkəzi. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, Bakı, 2000, 2001, I buraxılış, 2000.
12. Məmmədova S.D. «Keçid dövründə şəxsiyyət problemi», Bakı, Elm, 2005.

## 9.3 MƏNƏVİ-MƏDƏNİ PROSESLƏRİN PROQNOZLAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

Müəyyən müddətə sosial proseslə bağlı proqnoz verərkən ilkin proqnozlaşdırma modelinin hazırlanması üçün vacib olan göstəricilərin toplanması tələb olunur. Mümkün göstəricilər yüzlərlə və minlərlədir. Onlardan açar göstəriciləri seçmək və tədqiqatın müəyyən səviyyəsində lazım olanları müəyyənləşdirmək lazım gəlir.

Mədəniyyət olduqca geniş anlayışdır. Bura həm bütövlükdə tarixən bəşəriyyətin əldə etdiyi nailiyyətləri, həm müəyyən bir tarixi çərçivədə müəyyən millətin qazandığı nailiyyətləri, həm də konkret şəxsiyyətin öz fərdi imkanları çərçivəsində mənimsədiyi və əks etdirə bildirdiyi nailiyyətləri aid etmək olar. Mədəni proseslərin təhlili ilə bağlı Yuqoslaviya sosioloqu Danilo J. Markoviç qeyd edir ki, "eyni zamanda mədəniyyət həm də teleolojidir. Mədəni dəyərlər şəcərəsinə daxil olan din, elm, incəsənət, fəlsəfə özlüyündə mədəniyyəti təcəssüm etdirir və onun universal dəyərlərini ifadə etməyə cəhd edir. Mədəniyyətin bu və ya digər dəyərləri ümumilikdə bir-birindən fərqlənmir, əksinə onlar qarşılıqlı təsir münasibətlərindədir". Müəllif öz fikirlərinin təsdiqi kimi V.İliçə müraciət edərək ondan belə bir sitat gətirir: "mədəniyyət insan dünyasından başqa bir şey deyil və o bu dünyanın birliyindən təzahür edir, onunla da insan özündəki və təbiətdəki vəhşilikdən ayrılır. Mədəniyyət – ənənələrin və ayrılıqda şəxsiyyətin və onun dünyasının insanlaşma mənbələrindən biridir. Hər bir tarixi orqanizmdə mənəvi-mədəni proses xüsusi bir tam kimi özündə üç komponenti birləşdirir: əhalinin şüurunun inkişafı, təbiət üzərində inkişaf edən hakimiyyət, intellektual kosmosun aktuallaşması və konkretləşməsi. Mədəniyyətin və sivilizasiyanın birləşməsi cəmiyyətin totallaşması (ümumiləşməsi) ilə nəticələnir. Yaxşı məlumdur ki, müasir mədəniyyətin ümumiləşməsi, ideologiyalaşması və siyasiləşməsi – müasir cəmiyyətin qlobal xarakterə malik olan parlaq ifadəsidir».T.Parsonsa görə: «Mədəniyyət üç aspektdə çıxış edir: mədəniyyət ötürülür, öyrənilir və genetik təbiətə malik olmayıb ümumqəbul ediləndir. Mədəni dəyərlər fərdin sosial keyfiyyətlər, statuslar, rollarının təşkilinin öyrənilməsi prosesini əhatə edir. Bir-birilə və ətraf mühitlə qarşılıqlı münasibətlərin subyekti olan şəxsiyyət – sosial şəcərənin üçüncü pilləsini – sosial inteqrasiyanı təşkil edən cəmiyyəti yaradır. Lakin inteqrasiyanın həyata keçməsi üçün daha bir sosial sistemin – mədəniyyətin elementləri olan ümumi qəbul edilmiş simvolların olması vacibdir. Hər bir sistem digərinin mövcud olmasına şərait yaradır, belə ki, şəxsiyyətlərsiz və mədəniyyətsiz sosial sistem ola bilməz». Belə nəticəyə gəlmək olar ki, yenidən dərketmə prosesində

cəmiyyətin mədəni dəyərlərinin ötürülməsi üçün keçid dövrü köhnə sistemlə yeni sistem arasında bağlayıcı rolunu oynayır. Burada cəmiyyətin varislik prinsipi əsasında inkişaf etməsi fikrini izləmək olar.

Keçid dövründə şəxsiyyət–cəmiyyət münasibətlərində yaranan böhranı araşdıran Rusiya-Amerika sosioloqu P.Sorokin yaşadığı cəmiyyətdə böhranın səbəbini Qərb mədəniyyətinin və cəmiyyətinin son dörd yüz ildə çökməsində görürdü. Müəllifin qeyd etdiyi kimi: «bu zaman mədəniyyətin və cəmiyyətin bir (hissi) forması məhv olur, digəri isə ancaq təzahür edir». P.Sorokin belə bir şəraitdə yaranan böhranı belə açıqlayır: «Cəmiyyətin hissi dəyərlər üzərində qərarlaşmış paradoksları bununla nəticələnir ki, o, əhalinin əksəriyyətinin nə ruhi, nə də maddi tələbatlarını təmin etmək iqtidarında olmur. Böhrandan, xüsusilə də sosial mədəni tsiklik dağıdıcı dəyişikliklər dövründən çıxış yolu – inteqral dəyərlər sisteminin və ona əsaslanan dini, idealist və hissi mədəniyyəti birləşdirən inteqral mədəniyyətin yaradılmasıdır. İnteqral sistem fərdi maraqların harmoniyasına əsaslanmalıdır. Kor-təbii bazar sivilizasiyası əsas dəyərləri – fərd azadlığı və ədaləti, insanın ləyaqətini və mülkiyyətini müdafiə etmək iqtidarında deyil». Belə nəticəyə gəlmək olar ki, sosial institutların yenidən təşkili və yenidən dərki prosesinin özü böhranlı bir mərhələdir. Sosial olanı mədəni olanın bir hissəsi kimi qəbul edən L.B.Vişnyatskiyə görə: «Mədəniyyət – cəmiyyəti özünə daxil edir. Lakin bu fərdlərin birliyi olan cəmiyyət deyil. Bu təşkilati stuktura malik olan və genetik cəhətdən determinə olmayan fərdlər və onların qrupları arasındakı əlaqələrin birliyi olaraq fərdlərin münasibətlərini tənzimləyən cəmiyyətdir. Beləliklə, mədəni təkamül cəmiyyətin və sosial münasibətlərin təkamülü ilə eyni zamanda baş verir». Göründüyü kimi, L.B.Vişnyatski mədəni dəyişikliyi təkamül prosesi kimi qəbul edir. Müəllif qeyd edir ki, «təkamül yeninin yaranması və ya yaranmaması ilə də müşayiət oluna bilər, lakin yeni (əlaqə və elementlər) yaranmırsa, inkişafdan danışmaq olmaz». L.V.Vişnyatskinin fikirlərindən belə nəticəyə gələ bilərik ki, bəşəriyyətin ən yeni tarixində baş verən dəyişikliklər təkamül prosesi ilə bağlıdır. Bu təkamül prosesində yeni element və əlaqələr yaranır, lakin bu, dağıdıcı xarakter daşıyan yeniliklərdir. «Dağıdıcı» və «inkişaf» anlayışları isə bir-birinə ziddir. Onda belə bir sual ortaya çıxır: «Müasir şəxsiyyətin sosiallaşması prosesi hansı tarixi şəraitdə baş verir?» Yəqin ki, bu ümumi dəyərlərdən uzaqlaşan mədəniyyətin sivilizasiyaya çevrilərək kirəcləşdiyi bir tarixi şəraitdir. Ümumi dəyərlərdən uzaqlaşmanı cəmiyyətin reqressiya mərhələsi kimi xarakterizə edən İ.İlyinski onun deqradasiyaya uğradığını qeyd edir. Müəllifə görə bu zaman «cəmiyyət irəli-yuxarı deyil, ya irəli-aşağı, bəzən hətta aşağı-geriyə də hərəkət edir».

Bəşəri miqyas alan belə bir tarixi şərait qlobal demokratiyaya keçid adlandırılıb. Bu dövrdə müşahidə etdiyimiz yeniliklər bəşəriyyəti mədəni şoka məruz qoyub. Mədəni şok isə yad və ya əcnəbi mədəniyyətlə qarşılaşmada normal və ya mövcud sosial tərəqqinin dağılması nəticəsində yaranır. Mədəni şok prosesi üç mərhələdə davam edir:

1.İnkulturasiya (doğma mədəniyyətin ənənə, adət, dəyər və normalarının qəbul edilməsi və qorunub saxlanması);

2.Akkulturasiya (yad mədəniyyətin ənənələrinin və dəyərlərinin bir hissəli qəbulu);

3.Assimilyasiya (yad mədəniyyətin tam qəbul edilməsi və doğma mədəniyyətin yad mədəniyyət tərəfindən udulması).

Əslində bu proses həm şəxsiyyət səviyyəsində, həm də cəmiyyət səviyyəsində baş verir. Bununla yanaşı qeyd edə bilərik ki, Azərbaycan cəmiyyətində mədəni şok prosesinin müxtəlif mərhələlərini yaşayan insanlar mövcuddur. Yəni hazırda həm doğma mədəniyyətin ənənə, adət, dəyər və normalarını qəbul edən və bu dəyərlərin qorunub saxlanmasına çalışanlar; həm yad mədəniyyətin ənənə və dəyərlərini bir hissəli qəbul edənlər; həm də yad mədəniyyəti tam qəbul edərək «qərbləşən» şəxsiyyətlər mövcuddur. Bildiyimiz kimi, mədəni şokun əmələ gəlməsi tam əks ideologiyalar və dünyagörüşlərinin toqquşması prosesidir. Bu prosesin mənfi tərəfləri daha çoxdur. Müşahidə etdiyimiz kimi açıq cəmiyyətə keçid yeni münasibətlərə yol açan qapalı cəmiyyətdə ağılasığmaz çaşqınlıq yaradır. Mədəni şok psixoloji gərginliyə səbəb olur. Bir qədər geniş miqyasda müşahidə edə bilsək görərik ki, doğrudan da bəşəriyyət psixoloji gərginlik halındadır. Bunu biz Azərbaycanın nümunəsində də görə bilərik. Postsovet məkanı ölkələri üçün bu proses ona görə daha ağrılıdır ki, bu ölkələrin sakinləri ikili keçid dövrünü yaşayırlar. Bu, lokal və qlobal demokratiyaya keçiddir. Lokal keçid – imperiya ağalığından xilas olmuş postsovet məkanı ölkələrində yerli hüquqi dövlət quruculuğuna, mərkəzləşmiş təsərrüfatdan özəl təsərrüfat formasına keçid kimi xarakterizə edilə bilər. Qlobal keçid isə dünya mədəniyyətinə inteqrasiya olunma deməkdir. Postsovet məkanı ərazisində yaşayan insanları «Homo Soveticus» adlandıran P.Ştompkanın apardığı tədqiqatlara əsasən demək olar ki, bu ölkələrdə baş verən dəyişikliklərə münasibət və dəyişikliklərin yaşanması səviyyəsi müxtəlifdir. Müəllif Lodzi A.Mizalkanın tədqiqatlarına əsaslanaraq qeyd edir ki, «yalnız 7,9% əhali dəyişikliklərdən razıdır və bu kursun davamını gözləyir. Mədəni tərpəniş fonunda və irsi referent çərçivələrin köməyilə izah və müəyyən edilən ekzistensional inamsızlığın müxtəlif amilləri mədəni zədənin təzahüründə müxtəliflik

yaradır. 1989-cu ildən sonra Polşa cəmiyyətində bu zədənin 5 simptomu aşkar edilmişdi:

1) İnamsızlıq sindromu – heyranlıq və entuziazmdan sonra «növbəti şəhər sindromu» təzahür edir. İnam azalır.

2)Gələcəyə pessimist baxış – mədəni zədə simptomu.

3) Keçmiş zamanların həsrəti (nostalgiya).

4)Siyasi apatiya – yüksək elektoral absentizm.

5)Kollektiv yaddaşın postkommunist zədələri – kommunist keçmişin və o zamankı rejimi müxtəlif dərəcələrdə müdafiə edən adamların rolunun yüksək qiymətləndirilməsi». Ştompka bu münasibətlər çərçivəsində R.Mertonun irəli sürdüyü şəxsiyyət tiplərinin yarandığını qəbul edir. O, insanların yuxarıda təsvir edilən belə vəziyyətini sosial dəyişikliklər nəticəsində yaranan mədəni zədə adlandırır. Postsovet məkanı ölkələrindəki zədələnməni yerli mədəniyyətlə əcnəbi mədəniyyətin toqquşması və qeyri-normal olan kimi xarakterizə edir. Nəzərə almaq lazımdır ki, «bu zədənin» və ya mədəni şokun nəticəsi olan depressiyadan çıxış bütöv cəmiyyət səviyyəsində iki cür ola bilər: ya milli dövlətçiliyimizi tamam itirə bilərik, ya da yeni intibaha, dirçəlişə qədəm qoya bilərik. Cəmiyyətin bir hissəsi olan şəxsiyyət isə mədəni şokdan aldığı zədədən özünü itirərək ya cəmiyyət üçün özgələşə bilər, ya da özünü təsdiqləmək üçün aqressiv mövqe tuta bilər. Mədəni şokun nəticəsi olan qeyri-normallıq vəziyyəti cəmiyyətimizdə mənfi sosial meyllərə (cinayətkarlıq, insan alveri, küçə həyatı və s.) axınla müşahidə olunur. Bu gün cəmiyyətlə şəxsiyyətin qarşılıqlı münasibətlərində yaranan ziddiyyətlər özgələşmə, təcrid olunma kimi psixoloji vəziyyətin yaranmasına səbəb olmuşdur. Əgər şəxsiyyət özünün dəyərləndirildiyini hiss edirsə, o, cəmiyyətə uyğunlaşmağa cəhd edir və bəzən özünün dünyagörüşünə, həyat prinsiplərinə zidd hərəkət etməli olur. Lakin cəmiyyətdə baş verən dəyişikliklərə uyğunlaşa bilməyənlər özlərini itirmiş kimi faniliyə qapılırlar. Belə hisslərin güclənməsi isə narkomaniya, alkoqolizm kimi bəlalarla yanaşı özünəqəsd hallarının çoxalması ilə də müşahidə olunur. Bu, həm şəxsiyyətin, həm də onun yaşadığı cəmiyyətin böhranı deməkdir. Müasir dövrümüzdə yuxarıda qeyd edilənlər ümumbəşəri bəla kimi təzahür edir. Bu gün Azərbaycan dünya mədəniyyətinə inteqrasiya mərhələsini yaşayır. Bu prosesdə biz Avropanın həm müsbət, həm də daha çox mənfi dəyərlərini mənimsəyirik. Azərbaycanda bu inteqrasiya prosesi müharibə şəraitində davam edir və mövcud vəziyyəti bir qədər də çətinləşdirir. Məcburi cəlb edildiyimiz müharibə həm bütöv azərbaycanlı cəmiyyətinin, həm də hər bir azərbaycanlının, xüsusilə də müharibədə iştirak etmiş adamlar və onların ailələrinin psixoloji sarsıntıları və cəmiyyətin mənəvi aşınmasını qabardan hadisələrlə müşayiət edilir. «İnsanın

həyatına və taleyinə təsir göstərən anomal (qeyri-adi, ekstremal), təbii və antropogen hadisələrin (müharibələr, terrorizm, genosid, zorakılıq, bədbəxt hadisələr) geniş dairəsi mövcuddur. Anomal vəziyyətdə insan həyatın mənası kimi açılan ölüm təcrübəsilə qarşılaşır. Ölüm təcrübəsi (real və ya simvolik) qəflətən və ya tədricən açılır və adi həyata dönən insan ətrafdakılarla və ya özü ilə sağ qalmış kimi eyniləşir. Lakin fiziki qayıdış heç də həmişə psixoloji qayıdışla üst-üstə düşmür. Geri dönən anlayır ki, onun başına gələnlər keçib, lakin o, bu keçəni «keçmiş» kimi qəbul edə bilmir. «Necə yəni keçmiş, müharibə qurtarıb, lakin indi o mənim daxilimdədir. Mən hələ də yuxuda döyüşürəm, əvvəlcə bütün bu dəhşətlər məndən kənar idi, indi isə çox illər sonra bütün bunlar mənim şəxsiyyətimin dərinliyinə yüklənib». Bütün bunlar Əfqanıstan müharibəsində iştirak etmiş və ölümü öz gözlərilə görmüş əsgərlərin etirafıdır. Məgər müharibə zamanı ölümlə qarşılaşmada keçirilən hisslər təxminən eyni deyilmi? Biz bu etirafları bu gün vətənimizin məcburən cəlb edildiyi Qarabağ müharibəsi iştirakçılarının etirafı kimi qəbul etməliyik. Bu hisslər yurdundan didərgin düşmüş günahsız insanların (uşaqların, qocaların, qadınların və s.) keçirdikləri hisslərdir. Əgər vətəndaşlarının hər səkkiz nəfərindən biri bu müdhiş, şəxsiyyəti ikiləşdirən hissləri keçiribsə, həmin ölkənin sağlam mənəvi gələcəyinə əmin olmaq olarmı? Doğrudur, bəzən şəxsiyyətin sarsılması onun açılması və özünü fəallaşdırması ilə nəticələnir. Lakin çox vaxt «şəxsiyyətin transformasiyası (dəyişilməsi) şəxsiyyətlərarası münasibətlərin pozulması, sevmək qabiliyyətinin itirilməsi və s. ilə də nəticələnir. Bütün bu mənfi dəyişikliklər ailədə münasibətlərin uğursuzluğuna səbəb olur». Şəxsiyyətin formalaşması isə məhz ailə münasibətləri üzərində qurulur. Keçid dövrünü yaşayan azərbaycanlı ailəsi qarşılaşdığı problemlərin – müharibə şəraiti, işsizlik, maddi çətinliklər və s. – həll edilməsi prosesində tədricən öz ənənəvi mahiyyətini dəyişməyə başlayır. Ailədə baş verən dəyişiklikləri izləməyə cəhd edək. Çünki ingilis tədqiqatçısı M.Rosenin də qeyd etdiyi kimi, «Mədəniyyətin ilk ötürücüsü ailədir. Heç kəs bütövlükdə ailədən ayrıla bilməz və ya ilk mühitdən aldığı mənəviyyat səviyyəsindən bütünlüklə yüksək ola bilməz. Lakin bu o demək deyil ki, ailə ötürücülüyün yeganə kanalıdır: bu cəmiyyətdə ənənələrin digər mürəkkəb yolları ilə əvəz olunur və davam edir». Bildiyimiz kimi, sosial varlıq kimi şəxsiyyətin formalaşmasının əsası ailədə qoyulur. Məhz ailədə insanlar bir-birilə ünsiyyət yaratmağın, qarşılıqlı münasibətlərin əsaslarını mənimsəyirlər. Əfsus ki, bəzən ailə münasibətlərinin formalaşdırılmasında siyasi təbliğat milli adət-ənənələri üstələyir. Sovet sosializmi dövründə kişilərlə qadınların hüquq bərabərliyinin elan edilməsi Azərbaycanda da milli adət-ənənələrə zidd olan münasibətlər sisteminin formalaşmasına səbəb olmuşdur. Milli adət-ənənələrə

uyğun ideal kişi və qadın obrazları bayağılaşdırıldı və 70 il müddətində yeni siyasi ideologiyaya uyğynlaşdırıldı. Bu isə azərbaycanlı ailəsinin mahiyyətcə dəyişməsinə səbəb oldu. Bununla yanaşı əgər qlobal demokratiyaya keçid şəraitində Qərbdə patriarxal ailə ənənələrinin müasir formalı bərpasına cəhd edilirsə, Azərbaycanda bayağı qərbləşmə prosesi gedir. Bu proses həm kişi və qadın, həm ər və arvad, həm də valideyn və övlad münasibətlərində öz əksini tapır. Bu, ənənəvi azərbaycanlı ailəsinin dağılmasına və cinsi qarışıqlığın genişlənməsinə səbəb olur. Maddi ehtiyacla əlaqədar qadınların ailədən uzaqlaşması uşaqların təhsilə marağının azalmasına, dərsdən yayınmasına və uşaq əməyindən istifadəyə səbəb olur. Nəzarətsizlik uşaq cinayətkarlığının artmasına, narkomaniyanın və digər neqativ halların cəmiyyətdə köklü möhkəmlənməsinə gətirir. Müxtəlif tarixi dövrlərdən fərqli olaraq müasir dövr şəxsiyyəti eyni zamanda 5 – 10 qrupa daxil ola bilər. Belə ki, ailə, təhsil müəssisələri, idman və ya digər kütləvi-mədəni dairələr, dostlar, qohumlar qrupu, əmək fəaliyyətində daxil olduğumuz qruplar və s. şəxsiyyətin rollarının sayını artırır. Beləliklə, şəxsiyyət gün ərzində 5 – 10 rol dəyişə bilər. Məhz belə bir şərait müasir dövr insanlarının psixi gərginliyinə səbəb olur. Bu rollara uyğunlaşaraq onları məharətlə ifa edə bilənlərdə gərginlik nisbətən az nəzərə çarpır. Lakin rollara uyğunlaşa bilməyən şəxsiyyətin özgələşməsi prosesi müşahidə olunur. Belə şəxsiyyət qapalı və aqressiv olur. E.Fromun qeyd etdiyi kimi, «məhz keçid dövründə güclənən sadizm və nekrofiliya aqressiyanın qəddar keyfiyyətli formaları olub anadangəlmə deyil. İnsanların sosial və iqtisadi həyat şəraitlərini yaxşıya doğru dəyişməklə onların yaranmalarının qarşısını almaq olar. İnsanın həqiqi bacarıqlarının və ehtiyaclarının tam inkişafı üçün lazımi şərait yaratmaq vacibdir, bu zaman insan fəaliyyətinin və yaradıcılığının məqsədə çevrilməsi əsasdır, çünki insanın istismarı və idarə edilməsi darıxdırıcılıq, tənbəllik və bezikdiricilik əmələ gətirir və bütün bunlar sağlam insanları psixoloji eybəcərlərə çevirir və onları sadist və dağıdıcı edir». Sovet imperiyası ağalığından sonra təkcə Azərbaycanda deyil, ümumiyyətlə demək olar ki, bütün keçmiş SSRİ məkanında yaşayan insanlarda belə bir dağıdıcılıq meyli qarşısıalınmaz bir qüvvəyə çevrilmişdir. Bu dağıdıcılıq meyli yalnız quruluş dəyişilməsinə qarşı deyil, həm də mənəvi dəyərlərin məhv edilməsinə doğru yönəlmişdi. Keçid dövrünü yaşadığımız zaman çərçivəsində düçar olduğumuz bəlalar insanların həyat şəraitini ağırlaşdırmış, onlarda həyatın özünə qarşı qəzəb hissi oyatmışdır. Müasir dövrümüzdə elə bir şəxsiyyət göstərmək olmaz ki, o, dünyadakı proseslərdən tam ayrı olsun. Az da olsa, ən ucqar dağ kəndində yaşayan normal şəxsiyyət də özündən asılı olmayaraq müasir qloballaşma prosesinə daxil olur. Bu, onun həyat tərzində, hansı təbəqənin nümayəndəsinə

çevrilməsində özünü aydın təzahür etdirir. Ümumiyyətlə isə, elm və texnikanın ən böyük nailliyyətlərindən hesab edilən kütləvi informasiya vasitələri bəşəriyyət səviyyəsində mənəvi inteqrasiyanı təmin edir. Eyni zamanda məhz bu inteqrasiya psixi gərginliyi artırır. Bir tərəfdən, müxtəlif dünya ölkələrində baş verən təbii və siyasi fəlakətlərin, digər tərəfdən isə ideal həyat şəraitinin təsvirinə əsaslanan filmlərin izlənməsi bu gərginliyin əsas səbəbinə çevrilir. Faciə və fəlakətlərin izlənməsi şəxsiyyətdə gələcəyə inamsızlıq, həyatın faniliyi kimi hisslər yaradır, onun fəaliyyətini passivləşdirir. Filmlərdə təsvir və təbliğ olunan təmin olunmuş həyat şəraiti isə yaşadığı müddətdə özünə rahat həyat şəraiti yarada bilməyən şəxsiyyətdə aqressiv əhval-ruhiyyə oyadır. Beləliklə, özünü aid etdiyi qrupa daxil olma imkansızlığı şəxsiyyətin rollarında yaranan münaqişənin əsas səbəblərindən birinə çevrilir. Bu gün cəmiyyətimizdəki dəyişikliklər mənfi və müsbət tərəflərilə şəxsiyyətin formalaşmasına qarşısıalınmaz təsir göstərir. Keçid dövründə cəmiyyətin mövcud mənəvi-mədəni dəyərlər sistemi deqradasiyaya uğrayır, insanların daxili mənfi potensialı üzə çıxır və həm şəxsiyyət, həm də cəmiyyət səviyyəsində faciəvi hadisələr bolluğu əmələ gəlir. Mənəvi boşluq hiss edən şəxsiyyətdə özünüaxtarış cəhdi yaranır. Özünü tapa bilməyənlər ya cəmiyyətdən təcrid olunmuş vəziyyətdə faniliyə qapılır, ya da dağıdıcı qüvvəyə çevrilib qeyri-normal fəaliyyətə başlayırlar. Şəxsiyyətin mənəvi böhranının əksi olan bu proses keçid dövrü üçün təbii vəziyyətdir. Bununla əlaqədar E.From qeyd edir ki, «Şəxsiyyətin inkişafı tez-tez cəmiyyət tərəfindən ciddi məhdudiyyətlərlə qarşılaşır. Bu günkü cəmiyyət çərçivəsində şəxsiyyətin dəyişildiyini qəbul və arzu etməyən adamlar daxili dəyişmələrə qarşı olduqlarını inqilabi frazelogiyadan istifadə edərək gizlədən saxta radikallardır. Tənqidi radikal zəka yalnız olduqca qiymətli insani dəyərlər olan məhəbbət və həyatla birlikdə çıxış etdikdə qiymətli olur». Qapalı cəmiyyətdən açıq cəmiyyətə keçid dövrünü yaşayan şəxsiyyət isə ümumiyyətlə yeni yaranan sosial münasibətlərə marginal mövqedə durur. Bu zaman müxtəlif dünyagörüşləri toqquşur. Keçid dövründə yaranan ziddiyyətli prosesləri mədəni hərəkat kimi qiymətləndirmək olar. Danilo J.Markoviçə görə, «Mədəni hərəkat həmişə sosial və sivil prosesləri öz axarına çəkə bilir».

Müasir bəşəriyyət qlobal demokratiyaya keçid dövrünü yaşayır. Qlobal demokratiyanın aparıcı amilləri aşağıdakılardır:

a) İdeologiya (sosial və siyasi fəaliyyətin əsasında duran ideyalar sistemi kimi);

b) İqtisadiyyatın qloballaşması (bəşəri miqyasda iqtisadi fəaliyyətin şəxsi kapital hissələri əsasında inteqrasiyası prosesi);

c) Mədəniyyətin qloballaşması (ümumdünya miqyasında mədəni nümunələrin yayılması tendensiyasıdır. Onu da qeyd etmək olar ki, Giddensə görə «qloballaşma bu gün ancaq qərbləşmə kimi başa düşülə bilməz». Bu – mədəni pluralizmə gətirən prosesdir.

Qeyd edilən amillər – siyasi, mədəni, iqtisadi - bütövlükdə sivilizasiyaların mədəni dəyərlər sistemi kimi çıxış edir. Müasir sivilizasiyada bu dəyərlər yeni məna kəsb edib.

Müasir dünyanın siyasi təsviri belə nəticəyə gəlməyə imkan verir ki, qloballaşma prosesi məhz milli mədəniyyətləri elit mədəniyyətlər səviyyəsinə qaldıracaq.

Milli mədəniyyətlərin ən vacib qoruyucu amilləri aşağıdakılardır:

1.Dil; 2.Milli mərasimlərin qeyd edilməsi.

Milli mədəniyyətlərin əsas dağıdıcı amili informasiya texnologiyasının genişlənməsidir. Bu baxımdan qloballaşma prosesini həm də informasiya inqilabı dövrü kimi xarakterizə etmək olar. İnformasiya inqilabı bir tərəfdən, bəşəriyyət üçün qloballaşma prosesi ilə, digər tərəfdən, şəxsiyyət üçün fərdiləşmə, kollektiv münasibətlərin dağılması ilə müşayiət olunur. Fərdiləşmə prosesi yeni düşüncə tərzinə malik olan şəxsiyyətə məhdudiyyətsiz seçim azadlığı verilməsi ilə əlaqədar yaranır. Bu prosesi C.Eburdin və P.Nesbit öz əsərləində belə izah edirlər: «Biz qloballaşma erası ilə eyni vaxtda şəxsiyyətin yüksəlişi dövrünü yaşayırıq. Qloballaşma prosesinin paradokslarından biri odur ki, ayrı-ayrı şəxsiyyətlər daha böyük əhəmiyyət kəsb edirlər və daha da güclənirlər. Bu dəyişikliklər kütləvi informasiya vasitələrində də əks olunur. İnsanlar audio və video kasetlərin köməyilə öz fərdi tələbatlarını ödəyə və mədəni proqramlara baxa bilirlər. Bu və ya digər imkanlar şəxsiyyətin rolunu və imkanlarını genişləndirir. Şəxsiyyətin yüksəlişi kollektivin məhvinin sübutudur. Kollektivdə fərdi məsuliyyətdən qaçmaq imkanı var. Lakin şəxsiyyət səviyyəsində bu imkan yox olur. Şəxsiyyət səviyyəsində olaraq birliklər, müstəqil assosiasiyalar yaratmaq olar. Yeni texnologiya istehsalın miqyasını və məkanını əhəmiyyətsiz edib və ayrılıqda şəxsiyyətin imkanlarını genişləndirib. Artıq sahibkarlıq mədəniyyətdə daha böyük rol oynamağa başlayıb, belə ki, bu zaman şəxsiyyət özünün daha yaxşı olanı haqqında təsəvvürlərini reallaşdırır». Sahibkarlığın mədəniyyətdə çox böyük rol oynamasının daha mühüm göstəricilərindən biri də müasir dövrümüzdə ayrı-ayrı assosiasiyalar tərəfindən qrant almaqla müəyyən bir layihənin həyata keçirilmə imkanlarının yaranmasıdır.

Fərdiləşmə prosesinin ən mühüm səbəblərindən biri də informasiya inqilabı nəticəsində formalaşan kütləvi mədəniyyətdir. Kütləvi mədəniyyət isə eyni cür düşünən və oxşar dünyagörüşlərinə malik olan şəxslərin sayca

çoxalmasına, demək olar ki, inkubator və yə konveyer mədəniyyətin formalaşmasına səbəb olur. E.M.Babasov kütləvi mədəniyyətin miqyasının genişlənməsi haqqında qeyd edir ki: «XX əsrin ortalarında xalq mədəniyyətinin genişlənməsilə əlaqədar olaraq kütləvi mədəniyyət ifadəsi geniş yayıldı. Öz mahiyyət və ifadə formasına görə bu mədəniyyət tipi mənəvi və maddi dəyərlərin kütləvi istifadəsinin orta səviyyəsinə uyğunlaşıb. Mədəniyyət nümunələrinin yayılmasının kütləviliyi istehsalın kütləvi, konveyer imkanlarıları ilə onların yayılması və istifadəsinə əsaslanır. Xüsusilə də son dövrlərdə teleseriallar, video və səs yazmalar, əsasən trillerlər, hit paradlar, musiqi şlyagerləri, müxtəlif şoular bunlara böyük misaldır. Əyləndiricilik funksiyası ön plana çəkilir, oxuyan, dinləyən və seyr edən tamaşaçılara – kütləyə primitiv emosiyalar, hissilik aşılanır…, qərbləşmə və amerikanlaşma prosesi gedir. Eyni zamanda kütləvi mədəniyyətin əksinə olaraq elitar mədəniyyət seçilir. Bu, seçilmiş bir qrup adama istiqamətlənib. Onlar yüksək və yaxşı inkişaf etmiş bədii mənimsəmə qabiliyyətinə malikdirlər və onlar cəmiyyətin ən yaxşı hissəsi, elita kimi qiymətləndirilmək istəyirlər». Kütləvi mədəniyyətə xas ən ümumi cəhətlərdən biri ənənəvilik hissinin saxlanmasıdır. İ.Məmmədovun qeyd etdiyi kimi, bu gün «Azərbaycan toplumu tarixi-mədəni keçmişindəki ənənələr sistemini itirsə də hələ də ənənəviliyin dağıntıları arasında qalmaqdadır və ənənəviliyin bir çox təzahürlərini özündə göstərməkdədir». Qeyd etmək lazımdır ki, sosial vəziyyətindən asılı olaraq ənənəviliyə münasibət də müxtəlifdir. Məhz bu müxtəlif prizmalardan yanaşma ayrı-ayrı qruplara xas mədəni münasibətlər sisteminin yaranmasına səbəb olur. Beləliklə, kütləvi mədəniyyətin tərkibində bir qədər müxtəlif baxışlara malik olan mədəni qruplar, submədəniyyətlər seçilir. Bununla əlaqədar olaraq, E.M.Babasov kütləvi mədəniyyətdən bir qədər seçilən və müəyyən mənada onun tərkib hissəsi olan submədəniyyət haqqında qeyd edir ki, «Son dövrlərdə sosioloqlar submədəniyyət anlayışını daha tez-tez analiz edirlər. Mövcud hakim mədəniyyətin əksinə olaraq submədəniyyət özlüyündə hakim dəyərlər sisteminə reaksiya olaraq cəmiyyətdə tabe sosial – struktur mövqedə duran sosial qrup tərəfindən yaradılmış qrup şəklində normalar, davranış stereotiplərinin mənalar, dəyərlər, ifadə vasitələri, həyat tərzini əks etdirir.

E.M.Babasova görə, submədəniyyət – şəxsiyyətin daxil olduğu və özünü sərbəst hiss etdiyi, şəxsiyyətdə «mən» anlayışının «biz» anlayışı ilə qarışdığı və özünəməxsus baxışları və davranış qaydaları ilə fərqlənən qrupa xas dəyərlər sistemidir. Yuxarıda deyilənləri nəzərə alaraq bu gün Azərbaycanda həm siniflərə xas submədəniyyətlərin, həm də siniflər daxilində fərqlənən qruplara xas submədəniyyətlərin yarandığını müşahidə etmək olar. Lakin bu

submədəniyyətlər arasındakı ümumi cəhət odur ki, onlar kütləvi mədəniyyətin tərkib hissəsi və kütləvi mədəniyyətə özünəxas yanaşma forması kimi formalaşır.

Bu gün cəmiyyətimizdə mənəvi islahatlar edilməsinə tələbat yaranıb. Çünki demokratiyanın, iqtisadi tərəqqinin, elmin və s. təməli mənəviyyatdır. Mənəvi dəyərləri dirçəltmək üçün «millətin mənəvi varlığı hesab olunan və onun tərəqqisini təmin edən milli şüuru, dini, iradəni, əxlaqı, xarakteri, tarixi, maddi-mənəvi irsi, adət-ənənələri özündə ehtiva edən» və post-modernizm xüsusiyyətlərini məntiqi şəkildə uyğunlaşdıra bilən ideologiyanın yaradılması ən düzgün çıxış yolu ola bilər. Bildiyimiz kimi, keçid dövrü müxtəlif maraqların toqquşduğu, vahid ideologiyanın olmadığı bir dövrdür. Artıq XXI əsrin ilk on illiyində deyə bilərik ki, Azərbaycanda vahid milli ideologiyanın yaradılmasına başlanıb. Azərbaycan Respublikasının sabiq Prezidenti H.Əliyev gənclərin ikinci forumundakı çıxışında milli ideologiyanın mahiyyətini aşağıdakı kimi müəyyən etmişdir: «Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, himni – bütün bunlar mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır».

Keçid dövründə Azərbaycan Respublikasında baş verən mənəvi-mədəni proseslərin öyrənilməsinin nəticəsi kimi aşağıdakı ümumiləşdirmələrə gəlmək olar:

I. Keçid dövrü – köhnə sistemin tədricən aradan çıxması və eyni zamanda yeni sistemin rüşeymlərinin inkişaf edərək möhkəmlənməyə başlaması dövrüdür.

Keçid dövrünü həm də G.Zimmelin ifadəsi ilə desək, köhnə «mədəniyyətin böhranı» və ya mövcud mədəniyyət daxilində münaqişənin yaranması və inkişafı dövrü kimi xarakterizə etmək olar.

II. Müasir bəşəriyyət qlobal demokratiyaya keçid dövrünü yaşayır. Qlobal demokratiyanın aparıcı amilləri aşağıdakılardır:

a) İdeologiya; b) İqtisadiyyatın qloballaşması; c) Mədəniyyətin qloballaşması.

Dünya miqyasında siyasi və iqtisadi hegemonluq iddiaları qloballaşma və ya inteqrasiya prosesində ideologiyanın formalaşmasına təsir edən əsas amillərdir. Bu idealogiyanın əsas mahiyyəti öz kultunun və dövlət quruculuğu proqramlarının iqtisadi və siyasi təzyiqlərlə diqtə edilməsidir. Qloballaşmanın ən təsirli və tez yayılan yolu isə mədəniyyətlərin inteqrasiyası prosesidir. Anti-qlobalizm hərəkatı və «milli dirçəliş» ideyası – milli mədəniyyətləri xilasetmə və qoruma məqsədi daşıyır. Bunu bəşəriyyətin «özünüxilas» və ya «özünüqoruma» instinkti adlandırmaq olar. Bu proses eyni zamanda özgələşmə və ya marginallıq tendensiyasının inkişafına gətirir. Hegemon dövlətlər müasir sivilizasiyaya münasibətdə marginal mövqe tutan və öz mənəvi – mədəni dəyərlərini qorumağa çalışan xırda dövlətləri təcrid etməyə, iqtisadi, mədəni, siyasi «blokadaya» salmağa başlayırlar. Qloballaşma prosesi son nəticədə məhz milli mədəniyyətləri elit mədəniyyətlər səviyyəsinə qaldıracaq. Milli mədəniyyətlərin ən vacib qoruyucu amilləri aşağıdakılardır: Dil; Milli mərasimlərin qeyd edilməsi. Milli mədəniyyətlərin əsas dağıdıcı amili isə informasiya texnologiyasının genişlənməsidir. Bu baxımdan qloballaşma prosesini həm də informasiya inqilabı dövrü kimi xarakterizə etmək olar.

III. Siyasi, mədəni, iqtisadi amillər bütövlükdə sivilizasiyaların mədəni dəyərlər sistemini təşkil edir. Müasir sivilizasiyada bu dəyərlər yeni məna kəsb edib. Bu yenilik isə, şəxsiyyəti mədəni şoka məruz qoyub. Mədəni şok yad və ya əcnəbi mədəniyyətlə qarşılaşmada normal və ya mövcud sosial tərəqqinin dağılması nəticəsində yaranır. Mədəni şok psixoloji gərginliyə səbəb olur. Bu proses üç səviyyədə baş verir:

1)İnkulturasiya; 2) Akkulturasiya; 3) Assimilyasiya.

IV. İmperiya ağalığından xilas olmuş postsovet məkanı ölkələrində qlobal demokratiyaya keçid yerli hüquqi dövlət quruculuğuna, mərkəzləşmiş təsərrüfatdan özəl təsərrüfat formasına keçidlə qarışır. Bu keçid şəraitində həm də dünya mədəniyyətinə inteqrasiya olunma postsovet məkanı ölkələrində dərk edilməmiş çaşqınlıq halı yaradıb. Bunu biz Azərbaycanın nümunəsində də müşahidə edə bilərik. Keçid dövründə cəmiyyətin mənəvi-mədəni həyatına təsir edə biləcək əsas amillərə – ideologiya, təhsil, tərbiyə, din, ailə – münasibət dəyişib və bir qədər qərbləşməyə məruz qalıb. İnsanın fəaliyyət və təfəkkür azadlığı keçid dövrü şəxsiyyəti tərəfəindən müxtəlif mənalarda qəbul edilir (istədiyim kimi yaşamaq imkanı, seçimdə tam sərbəstlik, cəmiyyətin tələblərinə hörmət edərək qanun çərçivəsində yaşamaq, qanunlarala hesablaşmadan şəxsi maraqlarımı təmin edərək yaşamaq, ailəm qarşısında məsuliyyət). Bu isə cəmiyyətimizdə bir sıra mənfi sosial meyllərin (cinayətkarlıq, küçə həyatı, insan alveri və s.) genişlənməsi ilə müşayət

olunur. Müharibə şəraiti yaşayan bir respublikada bunu təbii proses kimi də qəbul etmək olar.

V.Azərbaycanda kütləvi və elit mədəniyyət seçilir. Bu mədəniyyət nümayəndələri həm maddi, həm də mənəvi-intellektual səviyyələrinə görə fərqlənirlər.

Keçid mərhələsində iqtisadi, siyasi və mənəvi-mədəni sahələrdə yaranan gərginliyi aradan qaldırmaq yolunda milli dəyərlərə ziyan vermədən, yeni dövrün tələblərinə uyğun struktur dəyişiklikləri aparılmalıdır. Cəmiyyətin özəyini təşkil edən və şəxsiyyətin sosiallaşmasının mənbəyi olan azərbaycanlı ailəsinin milli xüsusiyyətlərini qorumaq yolunda dövlət səviyyəsində geniş təbliğat proqramı hazırlanmalıdır. Milli dəyərlərin deqradasiyasına səbəb olan informasiyanın qarşısını almaq üçün KİV-ə senzura tətbiq edilməlidir. Milli adət-ənənələrin təbliği üçün məqsədyönlü dövlət proqramı hazırlanmalıdır.

**YOXLAMA SUALLAR**

1.Mənəvi-mədəni proseslərin proqnozlaşdırılması xüsusiyyətləri nə ilə fərqlənir?

2.Mənəvi-mədəni proqnozlaşdırmanın əsas göstəriciləri hansılardır?

3.Azərbaycanda müasir mənəvi-mədəni proseslərin proqnozlaşdırılması xüsusiyyətlərini izah edin.

**REFERAT MÖVZULARI**

1.Sosial mədəni proseslərin proqnozlaşdırılması xüsusiyyətləri

2. Müasir dövrdə Azərbaycanda baş verən sosial mədəni proseslər

3.Qloballaşma prosesində Azərbaycanda sosial mədəni institutların dəyişilməsi xüsusiyyətləri

**ƏDƏBİYYAT:**


1.Артоновский С.Н. Историческое единство человека и взаимное влияние культур, Л., Просвещение, 1967.

2.Бабосов Е.М. Прикладная социология, М., Тетра-Системс, 2000.

3.Богомолов О.Т. Экономические проблемы на рубеже веков. Реформы в зеркале международных сравнений, М., Экономика, 1998.

4.Вишняцкий Л.Б. «О движующих силах развития культуры в преистории», журн. Восток\ Ориентс, №2 2000.

5.Магомед-Эминов М.Ш. «Личность и экстремальная жизненная ситуация», Серия 14, Психология, Изд. Московского Университета, 1996, №4.

6.Маркович Д.Ж. «Общая социология», М., Изд.Владос,1998.

7. Məmmədova S.D. «Keçid dövründə şəxsiyyət problemi», Bakı, Elm, 2005.

## 9.4 MÜASİR SOSİAL PROQNOZLAŞDIRMA

Dünyanın aparıcı futuroloqları yeni proqnozlar hazırlayırlar. Bu proqnozlar haqqında nə beynəlxalq təşkilatlar, nə hökumətlər, nə siyasi və iqtisadi xadimlər, hətta elm xadimləri də məlumatlı deyillər. Cəmiyyəti qəflətən bu proqnozlarla tanış etmək futurofobiya (gələcək qarşısında qorxu) yarada bilər. Son illərin vacib sosial proqnozları sırasında dördünü fərqləndirmək olar:

- Bəşəriyyətin fiziki degenerasiyası (cırlaşması) ilə bağlı yaranan problem vəziyyətdən çıxmaq üçün tətbiq edilən texnoloji proqnoz;
- Cəmiyyətin «narkoman kollektivə» çevrilməsilə bağlı yaranan problemli vəziyyətin aradan qaldırılması üçün texnoloji proqnozlaşdırılması;
- Yetişmiş dördüncü dünya müharibəsinin qarşısının alınması məqsədilə texnoloji proqnoz (1946-1989-cu illəri əhatə edən «soyuq müharibə» III Dünya müharibəsi hesab olunarsa);
- İnsanın kibernetik orqanizmə çevrilməsi prosesinin səmərələşdirilməsi üçün texnoloji proqnoz (şəxsiyyətin kibtəşkilatlanması).

**Bəşəriyyətin fiziki deqenerasiyası və bunun qarşısının alınması yolları**

Son illərə qədər heç kəs güman edə bilməzdi ki, ənənəvi kənd həyat tərzindən müasir şəhər həyat tərzinə keçid (bu proses XXI əsrin birinci yarısında qlobal miqyasda sona çatır) əsl fəlakətli nəticələrə gətirə bilər: şəhərdə insan ailəyə, uşaqlara olan tələbatı itirir, «sosial səmərəsiz» olana, normal nəsilvermə qabilliyyətinə malik olmayan canlıya çevrilir. Kənddə uşaq kiçik yaşlarından təsərrüfatda köməkçi, valideynlərinin müttəfiqi, qocalıq üçün onların «canlı təqaüdüdür». Kənddə uşaq ölümünün yüksək səviyyəsi qadınların 10 – 20 dəfə uşaq həyata gətirməsinə səbəb olur. Son 40 min il müddətində homo sapiensin sağ qalma şərtləri bununla bağlı idi. Şəhərdə isə uşaq anasının karyerasının qarşısını alan, atasının həyatını ağırlaşdıran yükə çevrilir. Şəhərdə şəxsi həyatı olan yeniyetmələr valideynlərindən ayrılaraq vəhşi heyvan sürülərinə daxil olurlar, yadlaşırlar, ata və analarına düşmən olurlar. Gənclər öz ailələrini quraraq valideynlərinə tamamilə yadlaşırlar və nəsillər arasında əlaqə qırılır. Nəticədə insanlar uzun müddət ailə qurmurlar və boşanmaların sayı artır, iki valideyni biri əvəz edir. Bu, hər cür populyasiyanın məhv olması deməkdir. Son dövrlərə qədər belə güman edirdilər ki, bu proses bir neçə yüz ili əhatə edəcək. Mövcud meyllərin tədqiqi göstəridi ki, bu proses XXI əsrin növbəti bir neçə on ili ərzində davam edərsə, bu prosesin qarşısını almaq mümkün olmayacaq. Bəşəriyyətin fiziki degenerasiyası ölüm hallarının yüksəlməsi, depopulyasiyası ailələrin dağılması, bir uşaqlı ailərəin üstünlük təşkil etməsi ilə müşayiət olunur. Tək uşaqlı ailələrdə heç kəsin qayğısına

qalmaq imkanı olmayan uşaqlar infantil olurlar və yaxşı varis hesab edilmirlər. Eyni zamanda müasir təhsil prosesinin düzgün qurulmaması uşaqların əsəb sistemlərini zədələyir, immunitetini zəiflədir, onurğa sütununu əyir, burun-boğaz-qulaq sistemi və s. xəstəliklərin yaranmasına gətirir. Bu genetik pozuntular irsən keçir. Bu nöqteyi nəzərdən ailədə bir uşaq nəsillərin tədrici fiziki və psixi deqradasiyası deməkdir. KİV mənfi mənəvi meyllərin yayılmasında əsaslı rol oynayır, yeniyetmə və gənclərin mənəvi aşınması üçün süni şərait yaradılır. Qeyd edilənləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Nəsil artımının zəifləməsi qlobal meyl olub, urbanizasiya prosesilə birbaşa bağlıdır. XXI əsrdə dünya əhalisinin sayı 8, 9, 10 milyarda çatsa da, hər 20 ildən bir gənclərin, daha sonra isə əmək qabiliyyətli əhalinin sayının yarıya qədər azalması, yaşlı təqaüdçülərin isə sayının artması müşahidə edilir. Nəsillər arasındakı əlaqə qırılır.
- Nəsil artımının zəifləməsi müxtəlif ölkələrdə müxtəlif sürət və miqyasa malikdir. Ölkələrin həyat səviyyəsi və keyfiyyəti arasındakı fərqin yüksəlməsi dördüncü dünya müharibəsinin yetişməsinin əsas səbəblərindəndir.
- XXI əsrdə ETT-nin nəticələri əhalinin cins göstəricilərinin dəyişməsinə, patriarxal ölkələrdə kişilərin sayının artması sosial sistem daxilində fiziki tarazlığın pozulması və bir çox mənfi halların inkişafına səbəb ola bilər. Klonlaşmanın ikişafı sayəsində vəziyyət daha pis istiqamətə yönələ və yeni keyfiyyətli sosium yarana bilər.

Nəzəri cəhətdən problemli vəziyyətin həlli imkanları mümkündür. Sağlam nəsil artımına nail olma, çox uşaqlı ailələrin inkişafı bu prosesin əsas həlli yoludur.

**Cəmiyyətin «narkoman kollektivə» çevrilməyə başlaması və problemli vəziyyətin aradan qaldırılması yolları**

İnsan işlədikcə təcrübə qazanır, lakin hər bir işdə müəyyən fasilə tələb olunur. Hələ qədim zamanlardan insan öz fasiləli fəaliyyətində katarsisi («ruhun yüksəlməsi»ni) antikatarsis («ruhun çirklənməsi») ilə əvəz etmişdir. Bu vəziyyəti «narkotik təsir», yəni cismən özünü başqa bir dünyada hiss etmək adlandırmaq olar. XX əsrin II yarısınadək papiros çəkənlər, alkoqollar və narkomanlar əhalinin çox az hissəsini təşkil edirdilər. Kütləvi şəhərləşmə onların sayının artmasına, yeniyetmələrin və gənclərin valideynlərinin nümunəsi ilə hərəkət etməsi, insanların kütləvi mənəvi aşınmasına səbəb oldu. Hər bir dəstədə nüfuzlu başçı və məzlumlar olur. Məhz bu əsasda dəstə mövcud ola bilər. Əgər başçı siqaret çəkirsə, alkoqol və narkomandırsa – digər üzvlər alçaldılmaqdan qorxaraq eyni hərəkəti təkrar edirlər. Şəhər gəncləri arasında belə vəziyyətlərin sayca artması müşahidə edilir. Burada başçı özünü dəbə uyğun olaraq aparmağa çalışır. Bu dəbin formalaşmasında «dəb

sənayesinin» reklam fəaliyyəti, təbliğat rolu böyükdür. Məlumdur ki, tütün inhisarı, şərab sindikatları (inhisarı), narkobiznes mövcuddur və onların hər biri öz vasitələri ilə bazara sahib olurlar, xalqları məhz bu vasitələrlə məhv edirlər. Şəhər həyat tərzinə keçmiş cəmiyyət tədricən «kollektiv narkomana» çevrilir. Statistika sübut edir ki,

- 16 – 18 yaşından gündə bir paçka siqaret çəkməyə başlayan gənclərin 100 nəfərindən 85 nəfəri 60 yaşına çatmamış ölür. Belə gənclərin gələcək övladları mütləq müəyyən fiziki çatışmazlığa malik olur.
- 16 – 18 yaşından gündə bir stəkan araq içən gənclərin 100 nəfərindən 85 nəfəri 50 yaşına çatmamış ölür. Belə gənclərin övladları eybəcər və kəmağıl olurlar.
- 16 – 18 yaşından narkotik qəbul edən gənclərin 100 nəfərindən 85 nəfəri 30 yaşına çatmamış ölür. Belə gənclərin övladları olmur, yaxud psixi xəstə olurlar.

Əgər bu rəqəmlər inkişaf etməkdə olan yeniyetmələrin və gənclərin 10%-nə aid edilərsə, çox böyük bir rəqəm alınar. Bu əsasda XXI əsrdə cəmiyyətin inkişaf səviyyəsi şübhə doğurur. Cəmiyyətin bu özünü məhv prosesinin qarşısını almaq üçün aşağıdakı mexanizmlər tətbiq edilməlidir:

1.Ümumdünyəvi sosial riyakarlıqdan imtina edərək, etiraf etmək lazımdır ki, nikotin və alkoqol qanuniləşdirilmiş olsa da, elə narkotiklər kimi güclü təsiredici vasitələrdir.

2.Hər cür narkotikin birbaşa və dolayı reklamına (ədəbi, ssenari, ekran, təsviri incəsənət) qadağa qoyulmalı və ən ağır cinayət işi kimi cəzalandırılmalıdır.

3. Narkomaniyanın nəticələri haqqında maarifpərvərlik işi aparılmalıdır və bütün reklam sənayesi bu işə yönəldilməlidir.

4.Nikotin və alkoqol qəbul edənlər ciddi şəkildə diskriminasiya edilməlidirlər. Belə «pis vərdişli insanlar» «aşağı irqli» insanlar kimi qəbul edilməlidirlər.

5.Hər cür narkotikdən imtina etmək dəbi yaratmaq vacibdir.

**IV Dünya müharibəsinin yetişməsi və qabağının alınması yolları**

XX əsrin bütün müharibələri dünya ağalığı uğrunda müharibə idi. Hər üç müharibədə ABŞ addım-addım dünya ağalığına yaxınlaşırdı və nəhayət buna nail oldu. Müharibələr hamısı biri-birindən fərqlənirdi. Bu gün «üç böhranlı kütlə» formalaşır. Bu kütlələrin birinci amili – Afrika, Asiya, Latın Amerikası ölkələrində yüz minlərlə işsizlər ordusunun yaranması, ikinci amil – totalitar, mövhümatçı və mafioz strukturların mövcudluğu, üçüncü amil – kütləvi məhv etmə silahıdır. Qlobal planda bu vəziyyətdən çıxışın yeganə yolu – hər cür təcavüzkarı zərərsizləşdirə biləcək silahlı qüvvələrə malik dünya

hakimiyyətinin yaradılmasıdır. Bu hakimiyyət NATO, Amerika hakimiyyəti deyil, BMT-nın səmərəli inkişaf xəttinə və potensial təcavüzkarlara qarşı mübarizə apara biləcək bütün iri dünya dövlətlərinin birliyinə əsaslanan dünya hakimiyyətinin yaradılmasıdır. Bu dövlət müasir dövrün bütün problemlərinin həllinə, alternativ sivilizasiyaya keçməyə yönəlməli, hər cür müharibədən kənar olmalıdır. IV Dünya müharibəsində heç bir cəbhə, mülki və hərbi vətəndaşlar arasında heç bir fərq olmayacaq, hər kəs müharibəyə hazırlıqlı olacaq.

**Şəxsiyyətin kiborqlaşması – prosesin optimallaşdırılması**

Artıq bəşəriyyət kompüterlərin üçüncü nəslini yaradıb və bir neçə ildən sonra meydana çıxacaq yeni nəsil kompüterlər aşağıdakı tələblərə cavab verəcək:

1.Son dərəcə yığcam, cib, yaxud qol saatları həcmində monitora sahib olan, ayaqüstü istifadə edilən kompüterlər.

2. Stasionar kompüterin, həmçinin televizor, radio-vidieo-telefonun bütün imkanlarını daşıyan kompüterlər dünyanın bütün kitabxanalarından hər cür informasiyanı əldə etmək, yer kürəsinin hər hansı bir nöqtəsində istənilən şəxslə vizual ünsiyyət qurmaq bacarığına malikdir.

3. İnternetin bütün informasiya sərvətindən istifadə etmək imkanları açılır. Kompüterlər hər cür məsələnin həll edilməsi imkanlarına malikdir. İnsanların psixikası və intellektinin manipulyasiyası imkanları genişlənir. İnsan kibernetik canlıya, yaxud kiborqa çevrilir.

**YOXLAMA SUALLAR**

1.Müasir dövrün əsas sosial proqnozları sırasında hansıları fərqləndirilir?
2. «Narkoman kollektiv» dedikdə nə nəzərdə tutulur?
3.Şəxsiyyətin kiborqlaşması hansı əsaslarda baş verir?
4.Bəşəriyyətin fiziki deqradasiyasına gətirən səbəbləri izah edin.

**REFERAT MÖVZULARI**

1. Şəxsiyyətin kiborqlaşması prosesi
2. IV Dünya müharibəsinin yetişməsi və qabağının alınması yolları
3. Bəşəriyyətin fiziki deqenerasiyası və qarşısının alınması yolları

**ƏDƏBİYYAT:**


1.Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001.
2.Бестужев-Лада И.В., Наместникова Г.А. Технология прогнозных разработок социальных процессов. М.: Поиск, 1992.
3.Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
4. Лезгина М.Л. Детерминация прогнозирования. Л., 2000.
5.Мартино Дж. Технологическое прогнозирование. М., Мысль, 1977.
6.Прогнозирование в социологических исследованиях. Методологические проблемы. / Отв.Ред. И.В.Бестужев-Лада. М., Мысль, 1978.
7.Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
8.Суворов Л.Н. Аверин А.Н. Социальное прогнозирование. М., Эврика, 1984.

# SOSİAL LAYİHƏLƏŞDİRMƏ

## Mövzu 10. SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN İNKİŞAF TARİXİNƏ DAİR. SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN NƏZƏRİ ƏSASLARI

Hər bir modernləşmiş cəmiyyətdə gələcəyə dair layihələrin hazırlanması vacib amil kimi qəbul edilir. Layihələr aid olduğu sahənin xüsusiyyətlərinə görə fərqlənir. Siyasi partiyaların ictimai fəaliyyəti ilə bağlı manifestlər, ilkin proqramlar və s.; utopik ədəbiyyat (ən kütləvi olan, fantastik, sosial fəlsəfi ədəbiyyat), kino, kompüter oyunları və digər uyğun əsərlər futuroloji xüsusiyyətli ikinci dərəcəli layihə hesab edilir. Siyasi sahədə gələcəyə dair layihələri daha çox cəmiyyətin mövcud vəziyyətindən narazı olan sol partiyalar hazırlayır, sağ partiyalar isə mövcud siyasi şəraitin saxlanması tərəfdarı kimi çıxış edərək, utopik layihələr irəli sürürlər. SSRİ-də 1920-ci illərin sonuna doğru A.V.Çayanovdan L.D.Trotskiyədək gələcəyin layihəsilə bağlı fikirlər səslənirdi, Stalin dövründə gələcək haqqında ədəbiyyatlara tabu qoyulmuşdu, 1930 – 1940-cı illərdə D.Andreyevanın əsəri bu haqda yazılmış yeganə əsər olub, gizli saxlanılırdı. SSRİ-də Futurologiyanın elm kimi inkişafı 1950-ci illərin sonuna təsadüf edir. Bu dövrdə ancaq xüsusi problemlərə dair layihələr hazırlanırdı. 1960 – 1970-ci illərdə layihələrə dair əsas problem sovet cəmiyyətinin avtoritar / totalitar rejiminin xüsusiyyətlərilə bağlı idi. Dövlət əsas layihələşdirici orqan kimi çıxış edirdi və qəbul edilən layihələr növbətçi xüsusiyyətli idi. Bu dövrdə A.N. və B.N.Struqatski qardaşları, Q.P.Şedrovitski, E.V.İlyenkov, Q.S.Altov (Altşuller) və digərlərinin əsərlərində gələcəyin mümkün mövcudluğu haqqında fikirlər irəli sürülürdü. Rusiyada layihələşdirmənin inkişaf tarixi haqqında danışarkən – İ.Yefremov «Andromeda dumanlıqları» (1957), N.Razqovorov «Dörd dördlük» (1964), A.N.Struqatski, B.N.Struqatski «Əsrin vəhşi əşyaları» (1965), E.V.Şlyapentox «Bu gün sabahı necə araşdırırlar» (1975), A.Amalrik «Sovet cəmiyyətində ideologiyalar» (1976), S.Platonov «Kommunizmdən sonra» (1989), İ.Bestujev-Lada «SSRİ-də Rusiyada gələcəyin tədqiqi (1961-1990)», A.Valitski «Mühafizəkar utopiya dairəsində paralellər (1991), D.Panin «Yaradıcılar dövləti» (1993), S.Pereslegin «Dünyanın sonunun sinoptikləri», Y.Ayxenvald «Rus əsilli Don Kixot» (1996), A.N.Struqatski, B.N.Struqatski «Çirkin ördəklər» (2002), B.N.Struqatski «Keçmişin şərhi» (2002), A.Bovin «XX əsr həyat kimi» (2003), M.Qonçarov «Gələcəyin forumu», Q.Pavlovski «Tarixin təlimi» (2004), İ.Kukulin «Satira ilə oyun yaxud işsiz meksikalıların Ayda qeyri-adi macəraları» (2005), A.Saxarov «Həyəcan və ümidlər» (2006),

A.Zakatnova «Gələcəyin mümkün variantlarının axtarışında» (2007), H.Hüseynov «Dönməzlik şoku» (2007), M.Q.Altşuller «Rus sözünün həvəskarı» (2007) və s. əsərləri qeyd etmək olar.

**Sosial layihələşdirmənin nəzəri əsasları**

Ən ümumi mənada sosial layihələşdirmə məkan, zaman, fəaliyyət ehtiyatlarına görə müəyyənləşmiş sosial məqsədin əldə edilməsinə yönəlir. Bu və ya digər sosial problem, yaxud problemlər qrupunun həlli ilə bağlı şüurlu fəaliyyət forması kimi sosial layihələşdirmə nadir xüsusiyyətə malikdir. İnsanların həyat fəaliyyəti ilə bağlı daha təkmil sosial mühitin formalaşdırılması, əlillər üçün səyahətin təşkili, yeni təhsil proqramının hazırlanması, yaxud özfəaliyyət teatrın təşkil edilməsi və s. ilə bağlı irəli sürülən sosial layihə dünya və insanla bağlı fəlsəfi və sosioloji konsepsiyalara söykənir. Zaman və məkana görə daha lokal layihələr yaratmaq mümkündür. Belə layihələrdə qoyulan problemin reallaşması imkanları və nəticələri layihəçiyə əvvəlcədən məlum olur. Lokal xüsusiyyətli layihələrin tətbiq edilməsi sosial idarəetmədə yeni yanaşmaların inkişafına və artıq XX əsrin 50-ci illərindən etibarən sosial sahələrin layihələşdirilməsi texnologiyalarının daha geniş istifadəsinə şərait yaratdı. Bazar iqtisadiyyatı ölkələrində sahibkarların öz fəaliyyətlərini layihələr əsasında qurmağın zəruriliyini dərk etməsi, bu dövrdə çox sayda biznes-layihələrin meydana çıxmasına şərait yaratdı. 1960-cı illərdə Avropa və ABŞ-da «public participation» (ictimaiyyətin iştirakı) nəzəriyyəsi inkişaf etmişdi. Bu nəzəriyyə funksional yanaşmadan mühiti (environmental) yanaşmaya keçid olub, sosial layihələrin işlənib həyata keçirilməsində əhalinin iştirakını nəzərdə tuturdu. Əhalinin layihənin hazırlanması, təshih edilməsi, layihə ilə bağlı qərarların qəbul edilməsi, hakimiyyətin əsassız sosial qərarlarının qarşısının alınması prosesində iştirakı ideyası bir çox ölkələrdə sosial layihələşdirmə təcrübəsinin əsasını təşkil edir. Nəzəriyyənin reallaşdırılması təbii sosial təyinetmə (identifikasiya) mexanizmlərinin müdafiəsi prosedurlarının işlənib hazırlanmasını, yəni proses iştirakçılarının bir-birinin problemli həyat vəziyyətini və qərarların işlənib hazırlanması prosesini eyniləşdirməyi nəzərdə tutur. Proses isə dialoq, əməkdaşlıq kimi qəbul edilir. XX əsrin 70-ci illərində firmaların əksəriyyəti informasiyanın kompüterdə işlənib hazırlanması əsasında layihələrin idarə edilməsi metodlarını inkişaf etdirməyə və istifadə etməyə başladılar. «Layihələrin idarə edilməsi» (Project Management) menecmentin perspektivli istiqamətlərindən birinə çevrildi. Biznes-layihələr sosial layihələri texnoloji cəhətdən qabaqladığından və biznes-layihələrin iqtisadi səmərələşdirmənin qiymətləndirilməsi ilə bağlı olması, sosial işdə, həmçinin sosial mədəni xüsusiyyətli digər fəaliyyətin layihələşdirilməsində

belə yanaşmanı qeyri-mümkün edirdi. Sosial sahədə təşkilatlanmanın layihələşdirilməsi daha sistemli xüsusiyyətə malik idi. Bu dövrdə layihələrin hazırlanmasında belə bir ideya üstünlük təşkil edirdi ki, layihələşdirmənin məqsədi yalnız dəyərlər tədqiq edildikdən, gələcək dəyərlər mühiti, yeni dəyərlər dünyası təyin edildikdən sonra müəyyənləşdirilə bilər. XX əsrin 90-cı illərində həm menecment, həm də sosial və mədəni sahələrdə layihəli fəaliyyət əsas istiqamtlərdən birinə çevrildi. İnsan fəaliyyətinin bəşəriyyətin taleyi üçün təhlükə yaratmasının dərk edilməsi sosial yeniliklərin layihələşdirilməsi və sosial layihələrin qiymətləndirilməsi konsepsiyasında dəyişikliyə səbəb oldu. Sosial layihələşdirmənin mahiyyəti arzu edilən gələcəyin qurulması ilə bağlıdır. Sosial layihələşdirmənin ilk məsələsi – hansı vəziyyət arzu ediləndir və bu vəziyyətə nail olmaq üçün hansı ehtiyatlar mövcuddur – müasir dövrdə fərqli tədqiq edilir. Cəmiyyətin arzu edilən vəziyyəti problemi ekofobiya xüsusiyyətləri kəsb edib. Sosial layihə «insan-təbiət», «insan-insan» sistemlərində tarazlığı pozmamalıdır. Bu konsepsiya sosial layihələrin qiymətləndirilməsində ekoloji parametrlərin nəzərə alınmasını zəruri edir. Bu yeni parametrlər sosial yeniliklərin multiplikasion (sosial tələbatlar, maraqlar və dəyərlər məcmusunun nəzərə alınması) və kumulyativ (layihənin tətbiq edilməsi nəticəsində meydana çıxan dəyişikliklər) xüsusiyyəti ilə bağlıdır. Avropa və Amerikanın inkişaf etmiş ölkələrində müasir sosial layihələşdirmənin əsas xüsusiyyətləri kütlənin gündəlik həyatda ekofobiya fonu ilə bağlı düşüncə tərzi əsasında müəyyənləşir. Akademik B.Rauşenbax Almaniyanın müasir gündəlik həyat tərzini müşahidə edərək, belə nəticəyə gəlib ki, «əhali ekoloji problemlərin aludəçisidir. Təbiəti, onun ilkinliyini qorumağa cəhd qeyri-adi, hipertrofiya formasını alıb. Yalnız hökumət nümayəndələri deyil, bütün əhali ekoloji problemlərlə maraqlanır». Ekoloji alarmizm (təlaş) sosial və mədəni sahələri də əhatə edir və bədii yaradıcılıq çərçivəsində utopik layihələşdirmənin yeni modellərinin yaranmasına şərait yardır. Bu modellər insanların birgəyaşayışının yeni sosial mədəni nümunələrinin yaradılması üsulları olsa da, bəzən lokal cəmiyyətlərin real davranış formalarını mənimsəyir. Məsələn, mifopoetikanın yaradıcısı Con Tolkienin «(cırtdan) Hobbit, yaxud hər iki tərəfə» əsərində dünyanın yeni quruluşu, ruhun texnologiyadan xilası haqqında əfsanə təqdim olunur. Bu əfsanədə pərilər dünyası ilə bağlı fərqli mühit təsvir edilsə də, buradakı qəhrəmanların davranışı yeniyetmələrin real dünyadakı özünüaxtarış xüsusiyyətlərilə eynidir.

**Sosial layihələşdirmə konsepsiyaları**. Sosial layihələşdirmənin müasir konsepsiyaları sırasında sosial texniki layihələşdirmə, sosial layihələşdirməyə

obyekt yönümlü yanaşma, problemli yanaşma, subyekt yönümlü yanaşma və s. qeyd etmək olar.

***Sosial texniki layihələşdirmə*** əsas diqqətin texniki amillərə deyil, insan fəaliyyəti, onun sosial və psixoloji aspektlərinə yönəldilməsinə üstünlük verir. Sosial texniki layihələşdirmə prototipsiz layihələşdirmə kimi, nəzəri və metodoloji sahələrdə, yaxud mədəniyyət sahəsində formalaşmış idealların reallaşdırılmasına yönəlir.

***Obyekt yönümlü yanaşma*** layihələşdirmənin ən geniş yayılmış forması olub, 1970-1980-cı illərdə (Q.A.Antonyuk, N.A.Aitov, N.İ.Lapin, J.T.Toşenko, İ.V.Bestujev-Lada və başqaları) nəzəri tədqiqatlarda geniş istifadə edilirdi. Bu yanaşmada sosial layihələşdirmənin əsas məqsədi yeni sosial obyektin yaradılmasına, yaxud mövcud sosial obyektin yenidən təşkilinə yönəlir. Bu zaman sosial əlaqələr, münasibətlər tədqiqat obyekti ola bilər. Obyekt yönümlü yanaşmanın əsas xüsusiyyəti layihənin qanunayuyğunluq xarakteri, elmi əsaslandırılmasının obyektivliyi haqqında təsəvvürlərlə bağlıdır. Bu konsepsiyanın zəif tərəfidir. Problem sosial sahədə obyektivlik və elmiliyin şərhi ilə bağlıdır. Layihələşdirilən obyektin elmi əsaslandırılması ən ümumi hallarda mümkündür, konkret idarəetmə qərarlarına münasibətdə isə mübahisəlidir.

***Problem yönümlü (problem-məqsədli, proqnozlu) yanaşmanın*** tərəfdarı olan tədqiqatçılar (T.M.Dridze, G.A.Orlova, O.E.Truşenko, O.N.Yanitski və başqaları) sosial layihələşdirmə fəaliyyətini xüsusi sosial texnologiya kimi qəbul edirlər. Bu yanaşmanın əsas xüsusiyyəti cari və perspektiv sosial problemlərə dair qərarlarda sosial-diaqnostik göstəricilərin, mümkün ehtiyatlar və tənzimlənən sosial vəziyyətin inkişaf məqsədlərinin nəzərə alınması və bu əsasda humanitar biliklərin tətbiqi ilə bağlıdır. Problem yönümlü yanaşmada –

1) sosial təkrar istehsal prosesində obyektiv və subyektiv amillərin eyni səviyyədə nəzərə alınması;

2) sosial layihələşdirmənin sosial diaqnostik işin üzvi və son mərhələsi kimi qəbul edilməsi;

3) qərar hazırlanması prosesində diaqnostik və konstruktiv mərhələlər arasındakı əks əlaqəyə xüsusi diqqət verilməsi – layihələşdirmənin əsas mahiyyətini əks etdirir. Bu yanaşmanın əsas çatışmazlığı nəzəri əsasların zəif təcrübi tətbiqi, elmi tədqiqat və ekspert işlərinə geniş imkanlar yaradılması ilə əlaqədar olaraq yanaşmanın nəzəriləşməsi ilə bağlıdır.

***Subyekt yönümlü yanaşma*** layihələrdə subyektivliyin mühiti münasibətərlə əlaqədar təzahür etdiyini müəyyənləşdirir. Sosial mədəni dinamikanın hipotetik modelində, dəyər-normativ və təşkilati-idarəetmə ilə

bağlı layihələrdə subyekt yönümlü yanaşma üstünlük təşkil edir. Bu yanaşmanı irəli sürən T.M.Dridze layihələşdirmə prosesində sosial fəaliyyət subyekti ilə əlaqənin mövcudluğunu və əsaslı təsirini vurğulayır.

***Sosial layihələşdinmənin tezaurus (subyektiv) əsasları.*** Həyat yönümünün tezaurus əsasları – subyektiv dünyaların üst-üstə düşməməsi, sosial davranışın dəyərlər əsasında tənzimlənməsi, sosial subyektin sosial mühitdə davranış fəaliyyəti ilə müəyyənləşir. Bu yanaşma sosial layihələşdirmədə də mühüm əhəmiyyət kəsb edir və «Tomas nəzəriyyəsi» - «əgər insanlar bəzi vəziyyətləri real olan kimi müəyyənləşdirirlərsə, bu vəziyyətlər nəticələrinə görə realdır» - əsasında izah oluna bilər. Bu yanaşma layihə yaradıcısını (təşəbbüskar, müəllif, təkmilləşdirici) həm müəyyən ictimai tələbatın təminatçısı, həm də öz şəxsi maraqlarının reallaşdırıcısı kimi görməyə imkan yaradır. Layihə yaradıcısı sosial mühitdə fəaliyyət göstərir, özündə həmin mühitin xüsusiyyətlərini daşıyır, eyni zamanda o, öz işinə yaradıcı yanaşaraq, layihənin, yeniliyin reallaşmasına təkan verir. Layihə ödənilməmiş tələbatlarla əlaqədar olsa da, o mühitin deyil, layihələşdirmə subyektinin yaradıcılıq məhsuludur. Sosial layihələşdirməyə subyekt yönümlü yanaşmada obyektiv amillərin (sifariş, idarəetmə qərarının qəbulu, ehtiyatlar və s.) rolu azaldılmır. Tezaurus yanaşma layihələşdirmədə dövrlərin əlaqəsini, müasir sosial təşkilatlanmanın üç əsas xüsusiyyətini – ənənələrin tənzimləyici rolunun tənəzzülü, dərk edilən dünyanın natamamlığı, sosial dəyişikliklərin sürətini nəzərə alır.

***Sosial layihələşdirmənin fəlsəfəsi.*** Tezaurus yanaşması sosial layihələşdirmənin fəlsəfəsini aşağıdakılar kimi izah edir:

1. İnsan sosial yeniliklərə, onların yaradılması və istehlakına açıqdır. Yeniliklərə açıqlıq – onların ilkin işlənib hazırlanması və həyata keçirilməsidir. Sosial dəyişikliklər arzu edilən olsa da, onların həyata keçirilməsi cəmiyyətlərə, ayrı-ayrı insanların və sosial birliklərin xüsusiyyətlərinə görə fərqlənir. Cəmiyyət eyni zamanda həm təsirlənən, həm də möhkəmdir: sadə layihələri qəbul etməklə yanaşı güclülərə müqavimət göstərə bilir.

2. Sosial layihə cəmiyyətin təşkilatlanma səviyyəsini yüksəldir. Sosial layihələrin yaradılması və tətbiq edilməsi «özününkülər» və «yadlar», «biz» və «onlar» arasındakı məsafəni genişləndirir, bu əsasda icmaları yenidən strukturlaşdırır və əks sosial qruplar arasındakı münasibətlərdə gərginliyi azaldır.

3. İnsan öz xüsusiyyətlərinə və münasibətlərinə görə nadir varlıqdır. Sosial layihələrdə səciyyəvi (tipik) parametrlərinin tətbiq edilməsi həyat məkanının

qeyri-müəyyənliyini və rəngarəngliyini dəf etməyə imkan yaradır. Tipiklik parametrləri dedikdə aşağıdakılar nəzərdə tutulur:
a) insanların tələbatları səciyyəvidir (biri üçün uyğun olan çoxları üçün uyğundur);
b) insanların həyat trayektoriyası səciyyəvidir (birinin həyat fəaliyyəti forması digərləri üçün səciyyəvidir);
c) insanların davranış fəaliyyəti səciyyəvidir (oxşar stimullar müəyyən sosial mühitdə oxşar reaksiya doğurur);
ç) həmişə təklif edilən layihəni müdafiə edən, yaxud onun həyata keçirilməsində maraqlı olan insan və insanlar qrupu mövcud lur.

4. Sosial dəyərlər sırasında həmrəylik ən ali olandır. Sosial layihənin açıq, yaxud gizli məqsədi insanların həmrəyliyidir.

5. Sosial layihələşdirmənin konstruktivliyi yad ideyaların mövcudluğunu və işin gedişində «qeyri-mümkün olanın tələb olunmasını» inkar etmir, həmçinin mümkün olanın yaradılması imkanına malik olur.

Sosial layihələşdirməyə tezauruslu (subyektiv) yanaşma ilə bağlı belə nəticəyə gəlmək olar ki:

1. Sosial layihələşdirmə – ictimai həyatın müasir təşkili, cəmiyyətin idarə edilməsi üsullarından biridir.

2. Sosial layihələşdirmə (hansı obyektin layihələşdirilməsindən asılı olmayaraq) özündə layihələşdirmə fəaliyyəti subyektinin xüsusiyyətlərini, dünyagörüşünü əks etdirir. Sosial layihə subyektli istiqamətlənmişdir.

3. Sosial layihələşdirməyə tezauruslu yanaşma layihələşdirmənin subyektivliyinin digər subyektlərin seçim azadlığı ilə məhdudlaşdırılan bazar iqtisadiyyatı şəraitində səmərəlidir.

Tezauruslu yanaşma sosial və mədəni subyektivliyin inkişaf yollarını və onun ziddiyyətli tərəflərini aşkar etməyə imkan yaradır.

***Yaşamağa qabil cəmiyyət konsepsiyası*** mövcud qlobal böhran vəziyyətinin sabitləşdirilməsi ilə bağlı olub, gələcək cəmiyyətin qlobal layihələrinin hazırlanmasına yönəlir. Bu konsepsiyanın mahiyyəti belədir: Müasir dövrdə bəşəriyyət neft ehtiyatlarının tükənməsi, torpaqların aşınması, meşələrin qırılması, qeyri-sabit hava şəraiti, silahlanmanın genişlənməsi, dünya nüvə müharibəsinin baş verməsi kimi ciddi təhlükə qarşısındadır. Bu konsepsiyanın tərəfdarları mövcud təhlükələrin qarşısının alınması məqsədilə bir sıra layihələr təqdim edirlər. Onların fikrincə bu layihələrin həyata keçirilməsi ictimai inkişafı daha sabit, «yaşamağa qabil» edə bilər. Bu məqsədə nail olmaq üçün sürətli əhali artımı sabitləşdirilməli, yanacaq ehtiyatları daha səmərəli istifadə edilməli, insan fəaliyyəti dünya üzrə genişləndirilməli və şəhərlərə mərkəzləşmənin qarşısı alınmalıdır. Bu

konsepsiyaya görə, dünya ictimaiyyətinin əsas vəzifəsi elə bir cəmiyyət yaratmaqdır ki, «bu cəmiyyət öz iqtisadi və sosial sistemlərini planetdə təbii ehtiyatlar sisteminin qorunması istiqamətində qurmalıdır». «Yaşamağa qabil cəmiyyət» layihəsində uydurulmuş tələbatlar üçün maddi resursların lazımsız israfı tənqid edilir və planetar problemlərin həll edilməsi və yeni dünya nizamının bərqərar edilməsi haqqında tövsiyyələr verilir.

***İnsan ekologiyası konsepsiyasını*** irəli sürən E.Laslou qeyd edirdi ki, «Bugünkü keçid dövrü xaosunun ardınca bəşəriyyət ekologiyanın əsas rola malik olduğu daha sabit və ədalətli əsr gözləyə bilər». E.Laslou əmindir ki, bəşəriyyət təbiətlə dərk edilmiş harmoniyanın yaradılması və insan cəmiyyəti tərəfindən istifadə edilən, yaxud yaradılmış ehtiyat və strukturların planlaşdırılması əsasında qlobal sivilizasiya qurmaq mümkündür. «İnsan ekologiyası əsri» qurmaq üçün insan faktoru «dərkedilmiş fəaliyyət, müsbət kapital» olmalıdır. E.Laslou təqdim etdiyi bu qlobal layihədə sistemli analiz metodundan istifadəyə üstünlük verir. O, güman edir ki, gələcəkdə cəmiyyət onu əhatə edən təbiət və insan sistemlərinin bir hissəsi kimi dərk ediləcək. Eyni zamanda təbiət və insan sistemləri bir tərəfdən kontinental ekoloji sistemlər və biosferin, digər tərəfdən isə kontinental regionlar və dünya sistemi kimi daha böyük sistemlərin bir hissəsidir. E.Laslou əmindir ki, «İnsan ekologiyası əsrində vətəndaşlıq dünya vətəndaşlığı» kimi müəyyənləşəcək və «dünyəvi və fundamental insan həmrəyliyinin» əsası olacaq. Bu konsepsiyaya görə dünya vətəndaşlığı fərqli sosial iqtisadi quruluşlu – liberal, sosialist və dini cəmiyyətlərin mövcudluğu şəraitində qurulacaq. E.Laslou qlobal layihəsini hazırlayarkən gələcəyin cəmiyyətində «şəxsiyyətlərarası əlaqələrin» genişlənəsinin, qeyri-maddi ehtiyatların xüsusi əhəmiyyət qazanmasnın, iş saatının qısaldılmasının, asudə vaxtın və təhsilin rolunun yüksəlməsinin və s. əhəmiyyətini ön plana çəkir. E.Laslou həmçinin əmindir ki, bir qrup azlıq daha çox sərvət və hakimiyyətə malik olacaq.

***«Üçüncü dalğa»*** nəzəriyyəsini «bəşəriyyətin aqrar cəmiyyətə dialektik qayıdışı» kimi izah edən A.Tofler hazırladığı «sosial futurizm» proqramının məhz bu dövrdə reallaşacağını güman edir. A.Tofler gələcəyin layihələşdirilməsilə bağlı strategiyasını «Futuroşok» (1970), «Ekospazm» (1975), «Üçüncü dalğa» (1980) əsərlərində geniş şərh edir.

Müasir dövrdə qloballaşma prosesinin geniş tədqiqi bəşəriyyətin gələcəyilə bağlı bir sıra inkişaf modelləri – alternativ inkişaf modeli, humanist-sivilizasiya modeli, texnoloji birqütblü və humanist noosfera modeli və s. irəli sürülür.

***Texnoloji-birqütblü modelinin*** əsas mahiyyəti belədir ki, sosialist inkişaf istiqaməti tənəzzülə uğradığından bəşəriyyəin gələcək inkişafı birqütblülük

xüsusiyyəti daşıyır. Müasir qloballaşma şəraitirndə ən varlı ölkələrlə kasıb ölkələrin, sivilizasiyaların toqquşması təhlükəsi meydana çıxdığından yüksək sosial iqtisadi quruluşa nail olmuş ABŞ, Avropa ölkələri, Yaponiya kimi ölkələr lider dövlətlər olaraq fəaliyyət göstərməlidirlər.

***Neoliberal model*** informasiya cəmiyyətinə (1973-cü ildə D.Bell tərəfindən irəli sürülmüşdür) yönəlib, dünya ehtiyatlarının informasiya texnologiyalarının xeyrinə bölüşdürülməsi strategiyasına əsaslanır. Qloballaşmanın neoliberal modeli dünyanın qeopolitik parçalanmasına aparır. Neoliberal modelin sosial mədəni əsasları Qərb dünyasının dəyərlər sisteminin qlobal yayılmasından ibarət olub, digər sivilizasiyaların özünəməxsusluğunun aradan qaldırılmasına yönəlib.

***Alternativ model neoliberal modelə*** qarşı qoyulur. Bu modelə görə postindustiral cəmiyyət mahiyyətcə humanist-noosfer cəmiyyətdir, çünki burada insanı istismar edən və təbiəti fəth edən maşınlar sisteminə deyil, yaradıcı başlanğıca və hər bir insanın, hər bir xalqın və sivilizasiyanın ləyaqətli həyat şəraiti və inkişafına, cəmiyyətin və təbiətin rasional yönəldilməsinə üstünlük verilir. Alternativ model sivilizasiyaların və mədəniyyətlərin fərqliliyinin qorunmasına və zənginləşdirilməsinə yönəlir. Alternativ modelin əsas məqsədi müxtəlif ölkə və sivilizasiyaların sosial iqtisadi, elmi-texniki və ekoloji inkişafında yaranan fərqlərin aradan qaldırlıması üçün mövcud qloballaşmanın ehtiyat və üstünlüklərinin istifadə edilməsidir. Sivilizasiya və ölkələr arasındakı uçurumu aradan qaldırmaq üçün sabit inkişaf strategiyası ön plana çəkilir. Qeyd olunan modellərin reallaşdırılması – bəşəriyyətin yanacaq təminatı, ərzaq və sağlamlıq, texnoloji çevriliş, təhsil, demoqrafik layihələrinə əsaslanır.

***Bəşəriyyətin yanacaq təminatı*** layihəsinin mahiyyəti belədir ki, enerji ehtiyatları və istehlakı sivilizasiyalar və ölkələr üzrə qeyri-bərabər bölüşdürülüb. Enerjinin istehlakının genişlənməsi yanacaq ehtiyatlarının tükənməsinə və planetin çirklənməsinə, ekoloji təhlükənin yaranmasına səbəb olub, bununla yanaşı kasıb ölkələrdə yanacağa tələbat daim artır. Bu ziddiyyəti iki yolla aradan qaldırmaq mümkündür: enerjiyə qənaət edən texnologiyaların geniş istifadəsi və bərpa edilmiş yanacaq mənbələrindən istifadə edilməsi.

***Ərzaq və sağlamlıq*** haqqında layihələr kasıb ölkələrdə insanların aclıq çəkməsi və varlı ölkələrdə ərzaq bolluğu nəticəsində əhalinin piylənməsi arasındakı ziddiyyətlərlə bağlıdır və bu istiqamətdə «ikinci yaşıl inqilab», gen mühəndisliyi və biotexnologiyaların istifadəsini zərur amil kimi qiymətləndirir. Məhz bu əsasda dünya əhalisini ərzaqla və tibbi ehtiyatlarla təmin etmək mümkündür.

***Texnoloji çevriliş*** layihələri industrial cəmiyyətdən postindustrial cəmiyyətə, beşinci texnoloji sistemdən altıncı texnoloji sistemə keçid şəraitində inkişaf etməkdə olan ölkələrdə texnologiyaların hər iki formasının (yüksək texnologiyalar, xüsusilə də silahlar istisna olmaqla) tədrici yayılması, bunun üçün BMT-nin himayəsi altında qlobal texnoloji fond yaradılması ilə bağlıdır.

***Təhsil layihəsi*** varlı və kasıb ölkələr və sivilizasiyalar arasındakı fərqin əsas səbəbi təhsillənmə səviyyəsilə bağlıdır. Təhsilin aşağı səviyyədə olması müasir texnologiyanın istifadəsini çətinləşdirir. Kasıb ölkələrdə əhalinin təhsillənməsinə şərait yaratmaq üçün YUNESKO səviyyəli təşkilatların bu istiqamətli layihələr həyata keçirməsi vacibdir.

***Demoqrafik layihələr*** XXI əsrin birinci yarısında iki ekoloji böhran – əhali artımı və əhalinin sayının azalması böhranı meydana çıxıb. Birinci proqnoza görə, 2002-ci ildən 2050-ci ilədək əhali artımı 6215 milyondan 9104 milyon nəfərə çatacaq. Proqnozlara görə XXI əsrin ortalarına doğru dünyanın 40-dan çox ölkəsində əhalinin sayı azalacaq. Əhalinin sayının azalması və qocalmasının qarşısını almaq üçün dərin tədqiqatlar tələb olunur.

**YOXLAMA SUALLAR**

1.Rusiyada sosial layihələrin inkişaf tarixində yaranan fərqlər nə ilə bağlı idi?
2. «Public participation» nəzəriyyəsi nəyi nəzərdə tuturdu?
3. Hansı sosial layihələşdirmə konsepsiyaları fərqləndirilir?
4. «Üçüncü dalğa» nəzəriyyəsinin mahiyyətini izah edin.

**REFERAT MÖVZULARI**

1.Sosial layihələşdirmənin inkişaf tarixi
2.Sosial layihələşdirmənin nəzəri əsasları
3.Sosial texniki layihələşdirmə
4.Sosial layihələşdirmənin fəlsəfəsi
5.Yaşamağa qabil cəmiyyət konsepsiyası
6.İnsan ekologiyası konsepsiyası

**ƏDƏBİYYAT:**

1. Косов Ю.В. Социально-политическая сущность футурологических проектов общества будущего в буржуазной глобалистике. Социальное прогнозирование, планирование, проектирование, Сборник статей, Красноярск, 1988.
2. Крючков Ю.А. Теория и методы социального проектирования. М., 1992.
3.Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
4.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М. : Изд-во Моск. гуманит ун-та : Флинта, 2006.
5.Луков В. А., Миневич Я. В. Будущие политики : Социализация студентов, ориентированных на профессиональную политическую деятельность : науч. монография. М : Изд-во Нац. ин-та бизнеса, 2004.
6.Яковец Ю.В. Модели и проекты глобализации. Глобализация и столкновение идентичностей, Сборник материалов интернет конференции, М., 2003.

## Mövzu 11. SOSİAL LAYİHƏLƏŞDİRMƏ: TƏBİƏTİ, MAHİYYƏTİ, METODOLOGİYASI

Layihələşdirmə – mövcud obyektin, vəziyyətin prototipinin, maketinin yaradılması prosesidir. Hazırda inşaat-memarlıq, maşınqayırma, texnoloji və s. ənənəvi layihələşdirmə ilə yanaşı insan-maşın sistemlərinin, genetik və s. layihələşdirmə istiqamətləri də yaranıb.

Layihələşdirmə termini latın dilində «projektus» - gələcəyə atılmış sözündən götürülüb. Layihələşdirmə bu və ya digər təzahürün inkişaf, yaxud dəyişmə variantının müəyyənləşdirilməsi, nəzərdə tutulan, mümkün obyektin nümunəsinin, prototipinin yaradılması prosesidir. Layihələşdirmə – obyektin gələcək optimal vəziyyətinə dair variantların qurulması; mövcud vasitələrin tələb olunan məqsədlərə uyğunlaşdırılması; zəruri nəticənin əldə edilməsi üçün tədqiqat obyektinin tərkib hissələrinin əlaqələndirilməsi; güman edilən fəaliyyətlərin reallaşmasına qədərki müddətdə modelləşdirilməsi; qeyri – müəyyən şəraitdə qərarların qəbul edilməsidir. Layihələşdirmənin mahiyyətini başa düşmək üçün onunla bağlı olan kateqoriyaları (anlayışlar sistemini): təşkilatlandırma (konstrukturlaşdırma), sistem, layihələşdirmə subyekti, layihələşdirmə obyekti, sosial texnologiyalar (əməliyyatlar toplusu), sosial layihələşdirmənin metodları, layihələşdirmə şəraiti, mexanizmi, planlaşdırma, proyeksiya, qabaqcadan duyma, öncəgörmə, proqnozlaşdırma, modelləşdirmə və s. – nəzərdən keçirmək vacibdir. Bu anlayışların dərk edilməsi, onlara nail olma mərhələləri və reallaşdırılması metodları layihələşdirmənin mahiyyətini təşkil edir.

**Sosial layihələşdirmə** – sosial obyektlərin, sosial keyfiyyətlərin, sosial proses və münasibətlərin layihələşdirilməsidir. Sosial obyektlərin proqnozlaşdırılmasında subyektiv amil nəzərə alınmalıdır.

**Konstruksiya (təşkilatlandırma)** – hər-hansı bir obyektin ideal formasının yaradılmasına məqsədyönlü istiqamətlənmə ilə bağlı intellektual fəaliyyətdir. Bu zaman müxtəlif amillər uyğunlaşdırılır, seçilir və yeni obyekt kimi əlaqələndirilir.

**Rekonstruksiya (yenidən təşkilatlandırma)** – həm intellektual, həm də təcrübi fəaliyyətə aid olur. Bu anlayış bir neçə mənada işlədilir:

1) hər hansı bir süni obyektin köklü şəkildə yenidən qurulması;

2) hər hansı bir obyektin qalıqları əsasında onun yenidən bərpa edilməsi. Birinci məna təcrübi fəaliyyətlə bağlı olduğu halda, ikinci mənada əsasən ideal modellər qurulur, bəzən təcrübi fəaliyyətlə də bağlı olur.

**Dekonstruksiya (struktur təhlil)** – obyektin süni şəkildə çeşidlənməsi, hissələrə bölünməsi, yaxud normal funksiyalaşmasının pozulması əsasında ideal modelin qurulmasıdır. Belə ideal model normativ xüsusiyyət daşıyır.

**Planlaşdırma** – elmi və təcrübi əsaslarda bu və ya digər təzahürün məqsədlərinin müəyyənləşdirilməsi, vəzifələrinin, müddəti, sürəti və nisbətlərinin aşkar edilməsi, onların cəmiyyətin maraqlarına uyğun şəkildə reallaşdırılmasıdır.

**Öncəgörmə** – hər hansı təzahür haqqında qabaqcadan xəbərvermə, yaxud mövcud olsa da şəxsi təcrübədə olmayan biliklərdir. Elmi öncəgörmə sosial təzahür və hadisələrin məlum olan əmələgələmə səbəbləri, funksiyalaşma formaları və inkişaf gedişinə uyğun inkişaf qanunauyğunluqlarının aşkar edilməsinə əsaslanır.

**Proqnozlaşdırma** – öncəgörmə forması olub, planlaşdırılan təzahürün məqsədyönümlüyü, proqramlaşdırılması və idarə edilməsində əks olunur. Proqnozlaşdırma təzahürün cari zamanda inkişaf xüsusiyyətlərinin nəzərə alınması əsasında gələcək inkişaf istiqamətlərinin öncədən görməsidir.

**Sosial layihələşdirmənin subyekti** – idarəetmə fəaliyyəti ilə bağlı şəxslər, təşkilatlar, əmək kollektivləri, sosial institutlar və s. olub, sosial reallığın məqsədyönlü, təşkilatlanmış dəyişdirilməsi məqsədini daşıyır. Sosial layihələşdirmə subyektinin əsas xüsusiyyəti onun sosial aktivliyi, layihələşdirmə prosesində bilavasitə iştirakı ilə bağlıdır və layihənin keyfiyyəti sosial layihələşdirmə subyektinin intellektual səviyyəsindən asılıdır.

**Sosial layihələşdirmənin obyekti** – sosial əlaqələrin, qarşılıqlı təsirin təşkili sistemləri, prosesləridir. Sosial layihələşdirmənin obyekti –
1) maddi və mənəvi istehsalın təşkilati təsirinə məruz qalan elementlər, alt sistemlər və sistemlərdir (əmək vasitəsi və predmeti, sosial texnologiya, texnika, həyat vəsaiti, mənəvi mədəniyyət, sosial fəaliyyət və s.);
2) tarixi proses və sosial münasibətlərin subyekti olan və öz tələbatları, dəyər yönümləri, sosial nüfuzu, rolu olan insandır;
3) cəmiyyətin sosial strukturunun müxtəlif elementləri və alt sistemləridir (əmək kollektivləri, regionları, sosial qrupları və s.);
4) çoxtərəfli ictimai münasibətlərdir (siyasi, ideoloji, idarəetmə, estetik, mənəvi, ailə-məişət, şəxsiyyətlər arası və s.);
5)həyat tərzi elementləridir (həyat mövqeyi, həyat vasitələri, həyat keyfiyyəti və üslubu və s.). Sosial layihələşdirmənin əsas obyekti kimi sosial sistemlər çıxış edir.

**Layihələşdirmənin informasiya sahəsi** – layihələşdirmə obyektini xarakterizə edən elmi əsaslandırılmış parametrlər, amillər sistemidir.

İnformasiya sahəsinin yaradılması mənbələri – sosial tədqiqatların materialları, intervü, daimi nəşrlərin təhlili, statistik göstəricilərdən və s. ibarətdir.

Layihələr hazırlanması fəaliyyəti olan layihələşdirmənin iki məqamı fərqləndirilir:

1) fəaliyyətin ideal xüsusiyyəti;

2) gələcəkdə təzahür edə biləcək qeyri-adi təsadüflərin nəzərə alınması. Layihələşdirmənin ən müxtəlif növləri, metodları və üslubları fərqləndirilir:

1)texniki və prototipin layihələşdirilməsi (məs., müəyyən tapşırıqlar dairəsinin hazırlanması və s.);

2)humanitar və ya şəxsi layihələşdirmə isə düşüncə və fəaliyyətin təşkili problemlərilə bağlıdır.

**Layihələşdirmənin metodoloji prinsipləri** dedikdə, şüurla, refleksiv və qeyri-şüurlu qurumlar vasitəsilə məsələnin qoyuluşu, məsələnin həllində istifadə edilən vasitələr, proseslərin ümumi təşkili və s. nəzərdə tutulur. Bu prinsiplərdə qarşılıqlı əlaqəli olan iki təbəqə fərqləndirilir: ontoloji (görmə və dərketmə təbəqəsi) və təşkilati-fəaliyyət (fəaliyyət və onun təşkili).

Layihələşdirmənin 4 prinsipi fərqləndirilir:

1) layihələşdirmə subyektlərinin qarşılıqlı təsiretmə sisteminin qurulması;

2) yaradıcı birliklərin yaradılması və təşkilinin əsası kimi fikri fəaliyyətin inkişafı;

3) layihələşdirilən digər fəaliyyət sahələrinin funksional tənzimlənməsi və reallaşdırılması;

4) fərdiləşdirmə.

Sosial layihələşdirmə aşağıdakı parametrlərə əsaslanmalıdır:

- sosial obyektin ziddiyyətliliyi;
- sosial obyektin çoxtərəfli inkişafı;
- sosial obyektin hər hansı sosial nəzəriyyənin terminləri ilə ifadə olunmasının qeyri-mümkünlüyü;
- sosial obyektin çoxamilliliyi;
- sosial obyektin inkişafında mümkün və zəruri olanın qarşılıqlı münasibətlərini müəyyənləşdirən çoxsaylı subyektiv amillərin mövcudluğu;
- sosial gözləmələr, sosial proqnoz və sosial layihələşdirmənin formalaşmasının subyekiv amilləri;
- sosial obyektin inkişafının qiymətləndirilməsi meyarlarını müəyyənləşdirən amillər.

Bu amillər sosial layihələşdirmənin xüsusiyyətlərini müəyyənləşdirən səbəblərin son siyahısı deyil. Sosial layihələşdirmə proqnozu qiymətləndirməyə, sosial inkişafın planını hazırlamağa imkan yaradır.

Layihələşdirmə ideyaların yoxlanması ilə bağlı eksperimentin uğursuzluğunu da nəzərə alır. Sosial layihələşdirmə prosesi həm də «sosial təşkilatlanma» (sosial konstrukturlaşdırma) adlanır.

Sosial layihələşdirmənin əsas məqsədi sosial layihələrin hazırlanmasıdır. Sosial layihə sərəncamlı model olub, sistemin gələcək arzu edilən vəziyyətini təsvir edir.

Sosial layihələşdirmə layihənin həyata keçirilməsi texnologiyası ilə sıx bağlıdır. Sosial layihələşdirmənin texnologiyası layihələşdirmənin və sosial elmlərin metodologiyasına əsaslanır. Məhz bu əsasda sosial layihələşdirmənin iki əksikliyini aradan qaldırmaq olar:

1) aşağı səviyyəli layihəyə uyğunluq (sosial layihələr utopik, yaxud sosial nümayişkaranə olur);

2) sosial göstəricilər itirilir.

Sosial layihələşdirmə layihələşdirilən obyektin tamlığını xarakterizə edən ümumi parametrlər sistemindən, alt sistemlər, bloklar, elementlər və onların əlaqəsindən ibarət olur. Hər bir sosial layihələşdirmə aşağıdakılardan ibarət olur:

1) dəqiq layihə əsasında meydana çıxan xüsusiyyətlər;

2) sosial sifarişin reallaşdırılmasını təmin edən parametrlər;

3) müəyyən zaman müddətində qurula bilən xüsusiyyətlər.

Sosial layihə elmi əsasda yaradılmalı, mənəvi normalara zidd olmamalı, ümumi qəbul edilmiş sosial dəyərləri əks etdirməli, reallaşma nöqteyi nəzərindən səmərəli olmalı, reallaşmaya yönəlməlidir. Sosial layihə müəyyən vaxt məhdudiyyətində sosial sistemlərin inkişaf parametrlərini müəyyənləşdirir. Sosial layihə – sosial fəaliyyətin son nəticələrinin işarəli məlumatlar vasitəsilə ifadə edilməsidir. Sosial layihə – beş əsas prinsipə uyğun olmalıdır: birmənalılıq, zərurilik, bütövlük, ziddiyyətsizlik, optimallıq. Layihənin əks etdirdiyi məlumat zəruri və tam olmalıdır, işarəli məlumatların ixtisar edilməsi zərurəti yaranmamalıdır. Layihə real və qeyri-real ola bilər. Sosial layihə – layihəli fəaliyyətin məqsədi olmalıdır. Sosial layihənin son strateji məqsədi obyektiv şəraiti və müxtəlif sosial qrupların həyat fəaliyyətini nəzərə almaqla kollektiv münasibətlərin təşkilinin optimal birliyini yaratmaqdır. Ən sadə layihələr qərar qəbul edilməsi ilə bağlı olanlar, ən mürəkkəb layihələr isə sosial sistemlərin, proseslərin, münasibətlərin gələcək vəziyyəti ilə bağlı olan layihələrdir. Layihələşdirmənin vaxt intervalının genişlənməsi də sistem və proseslərin, həmçinin göstəricilərin modellərinin yaradılması ilə bağlı olan sosial fəaliyyət prosesinin mürəkkəbləşməsinə səbəb olur. Sosial layihələrin həyata keçirilməsi vasitələri (o cümlədən texniki, riyazi və məntiqi) sistem və proeslərin, onların inkişaf meylləri, problem

vəziyyətin əmələ gəlməsi və inkişafı, subyektlər, layihələşdirmə, göstəricilərin və sözlü təsvirlərin, cədvəl, çertyoj, sxem, maket, kodlar, simvollar, alqoritmlər, matritsa və digər göstəricilərin yaradılması haqqında informasiyanın əldə edilməsi, təhlili və işlənməsi ilə bağlıdır. Müasir dövrdə layihələşdirmənin texniki vasitələri, avtomatlaşdırılması sistemləri istifadə edilir.

Sosial layihələşdirmənin metodikaları – ideyalar matritsası metodikası, rola uyğunlaşma metodikası, analogiya metodu, zehni həmlə metodikası, assosiasiya metodu, sinektika metodikasından ibarətdir. **İdeyalar matritsası metodikası** bir neçə dəyişən (qoyulan məsələlər, müddət, maddi, əmək və maliyyə ehtiyatları) əsasında qərarların fərqli variantlarının tərtib edilməsidir. **Rola uyğunlaşma metodikası** – layihələşdirmə prosesində daha dəqiq təsəvvürlərin əldə edilməsinə, layihənin reallaşmasının daha dərindən dərk edilməsinə yönəlir. **Analogiya metodu** – ümum elmi və məntiqi metod olub, təzahürlərin mahiyyəti, əlamətləri, yaxud münasibətlərilə bağlı uyğunluqları əsasında proqnozların qurulmasıdır. Analogiya sadə, geniş yayılmış, ciddi və qeyri-ciddi ola bilər. Analogiya metodu – müqayisə edilən təzahürlərin daha çox ümumi əlamatləri məlum olduqda, ümumi əlamətlər əhəmiyyətli olduqda, müqayisə edilən təzahürlərin qarşılıqlı qanunauyğun əlaqələrinin dərk edilməsi əsasında ehtimallıq dərəcəsi yüksək olduqda daha etibarlı olur. **Assosiasiya metodu** – sosial təzahür və proseslərin layihələşdirilməsi prosesində uyğunlaşma, modifikasiya (dəyişmə) və tam yenidən təşkilatlanma üsullarının uyğun istifadəsinə əsaslanır. **Zehni həmlə metodikası** – ideyaların törəməsi, bərabər hüquqlu rəqabəti və müqayisəsinin əlaqələndirilməsi ilə bağlıdır. Bu zaman qiymətləndirmə aparılır, dəlillər ekspertiza edilir, fikir mübadiləsi aparılır. **Sinektika metodu** əsasında bir neçə ideya ayrılıqda nəzərdən keçirilir, onlar arasındakı qarşılıqlı əlaqə və asılılıq müəyyənləşdirilir. **Sosial layihələşdirmə şəraiti** – münasibətlər, proseslər, fəaliyyət, əşyalar, vasitələr və s. ilə bağlı amilləri özündə birləşdirir. **Layihə fonu** – layihələşdirmə obyektinin funksiyalaşması və inkişafına təsir edən xarici göstəricilər toplusudur. **Sosial layihələşdirmənin mərhələləri** – sosial layihənin hazırlanması üsulları, metodları, qaydaları, prosedurları, əməliyyatları sistemidir. Sosial layihələşdirmənin geniş yayılmış sxemi – problemin aydınlaşdırılması (problemli vəziyyət), sosial sifariş, sosial pasport (keyfiyyət göstəricisi), layihənin məqsədləri, layihənin vəzifələri, kəşfiyyat proqnoz, normativ proqnoz, verifikasiya və düzəliş edilməsi, model, təşkil, layihə mərhələləri əsasında qurulur.

1.***Problemin aydınlaşdırılması*** – problemli vəziyyətin, yəni sosial inkişafın mümkün alternativinin seçilməsi üçün məqsədyönlü fəaliyyətin təşkilini tələb edən sosial ziddiyyətlə bağlıdır.

2.***Sosial sifariş*** – mövcud sosial problemin həll edilməsi zəruriliyinin dərk edilməsi əsasında formalaşır. Sifariş insanların maddi və mənəvi tələbatlarının reallaşdırılması, ziddiyyətlərin həll edilməsi, kompramiss axtarılması məqsədilə müəyyən tədbirlərin hazırlanmasına dair təlimatdır.

3.***Obyektin pasportlaşdırılması*** (keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi) – sistem, proses, yaxud təzahürlər haqqında dəqiq göstəricilərin əldə edilməsi, onların mövcud vəziyyətinin, funksiyalaşmasının və inkişafının təsviridir. Pasport – mürəkkəb sənəddir və sistemin kəmiyyət və keyfiyyət göstəricilərini, onun funksiyalaşması və inkişafına təsir edən parametrləri əks etdirir. Pasport əsasında sistemin struktur elementlərinin analizi aparılır. Sosial pasportda sosial strukturun, şəraitin dəyişilməsi, əməyin müdafiəsi və ödənilməsi, mədəni-məişət şəraiti və s. əks olunur. Sosial strukturun pasportu aşağıdakı mərhələlərdə yaradılır:

a) sistemin normal funksiyalaşması və inkişafına təsir edən xüsusiyyət və parametrlərin müəyyənləşdirilməsi, onların təsnifatı və diferensiasiyası;

b) pasport formalarının hazırlanması (idarə olunan alt sistemin təsiri ilə dəyişən göstəricilərin daxil edilməsi);

c) pasport formalarının tamamlanması, zəruri göstəricilərin əldə edilməsi: sənədlərlə iş, anketləşdirmə, intervü və s.

4. ***Məqsədlər*** – hər hansı fəaliyyətin başlanması şərtidir. Məqsədyönümlük üç əsas göstəricidən ibarətdir: tələbatların (motivlərin) təsvir edilməsi, onların təmin olunması yollarının və üsullarının təsviri (fəaliyyətin planlaşdırılması, proqramlaşdırılması); son nəticələrin təsviri (bilavasitə və vasitəsiz, arzu edilən və arzu edilməyən). Məqsədin əsaslandırılması fəaliyyətin müəyyənləşdirilməsindən başlayır. Hər bir qoyulan məqsəddə ən vacib nəticə seçilməli, məqsədə nail olma müddəti, vasitələri müəyyənləşdirilməli və nəzarət edilməlidir. «Məqsədlər ağacı» - istiqamətləndirici cədvəl kimi müxtəlif məqsədlər arasındakı münasibətləri, onların qiymətləndirilməsini, nail olma mərhələlərini əks etdirir. «Məqsədlər ağacının» qurulması sosial sifarişin, problemli vəziyyətin, layihələşdirmə obyektlərinin, xarici şəraitin, maddi-texniki, maliyyə, əmək, enerji və digər ehtiyatların əhatəli öyrənilməsini tələb edir. İlk məqsədlərin müəyyənləşməsi mərhələsində onlar arasındakı ziddiyyətlər öyrənilməli, gələcək münaqişələrin qarşısı alınmalıdır. Hər bir sistem qarşısında bir neçə məqsəd qaldırılır və onlardan biri əsas məqsəd kimi müəyyənləşdirilir və sistemin funksiyalaşması bütünlüklə həmin məqsədə nail olmağa yönəldilir.

5. ***Sosial layihələşdirmənin vəzifəsi*** – təmin olunması tələb olunan fərdi, yaxud ictimai tələbatların xülasəsidir. Vəzifələr – sistemin vəziyyətinin, onun maddi, əmək, maliyyə ehtiyatlarının, norma və normativlərinin əhatəli tədqiq edilməsi nəticəsində müəyyənləşdirilir. Bu zaman - a) şəxsi vəzifələr ümumi vəzifələrə qarışdırılmamalıdır; b) vəzifələri həddən artıq təsnif etmək, sosial layihələşdirmə subyektinin təşəbbüskarlığını məhdudlaşdırmaq olmaz.

6.***Proqnozlaşdırma*** – layihələşdirmənin əsas mərhələlərindən olub, layihələşdirmədən ayrılıqda öz mənasını itirir. Həqiqətə daha çox yaxın olan proqnoz idarəetmənin təkmilləşdirilməsinə, layihələşdirmənin səmərəliliyinə imkan yaradır. Layihələşdirmənin sosial texnologiyası əsasında – a) tədqiqat proqnozu müəyyənləşdirilir; b) normativ proqnoz müəyyənləşdirilir; c) proqnozlar verifikasiya və təshih (korrektə) edilir.

Tədqiqat proqnozu obyektiv qanunların təsiri və insanların məqsədyönlü müdaxiləsinin heçə endirilməsi əsasında sistemin inkişaf meyllərini xarakterizə edir.

7.***Normativ proqnoz*** – gələcəkdən indiki zamana yönəlmiş fəaliyyət olub, qoyulan məqsəd, vəzifə, norma və ideallar əsasında proqnozlaşdırmaya yönəlir. Proqnozların çoxsaylı verifikasiya variantları və təshihi (korrektə edilməsi) əsasında sistemin və prosesin gələcək vəziyyəti modelləşdirilir.

8.***Konstrukt*** – nəzəri biliklərin formalaşdırılmasıdır. Çoxsaylı modellər sırasından daha səmərəli olan seçilir.

9. ***Sistemin layihəsinin qurulması*** mərhələsində ideal model işarələr sistemi ilə təsvir olunur, sistemin layihə xüsusiyyətləri, parametrləri, elementləri müəyyənləşdirilir, mövcud əlaqələri dəqiqləşdirilir.

Sosial layihələşdirmənin əsas vəzifəsi bütün mövcud alternativləri müəyyənləşdirmək və əsaslandırmaq, oxşar tərəfləri seçmək, tədqiq olunan prosesin diaqnostikasının xüsusiyyətlərini göstərmək, alınan nəticələri qiymətləndirmə vasitələrini hazırlamaq, birləşdirmə, ayrılma, şaxələnmə mərhələlərini dərk etməkdir.

## YOXLAMA SUALLAR

1.Layihələşdirmə ilə bağlı anlayışlar hansılardır?
2.Sosial layihələşdirmənin subyekti və obyekti nədir?
3.Sosial layihələşdirmənin informasiya sahəsi dedikdə nə nəzərdə tutulur?
4.Sosial layihələşdirmədə hansı metodlar istifadə edilir?

## REFERAT MÖVZULARI

1. Sosial layihələşdirmə sosiologiya elminin bir sahəsi kimi
2.Sosial layihələşdirmə: predmet və problem sahəsi
3. Sosial layihələşdirmənin metodları

## ƏDƏBİYYAT:

1.Антонюк Г.А. Социальное проектирование. Минск, 1978.
2.Бергер П., Лукман Т. Социальное конструирование реальности. Трактат по социологии знания. М., 1995.
3.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988. М., 1989,с . 163.
4. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
5.Лакис П.П. Методологические и логические аспекты прогнозирования. Рига, 1985.
6.Лисичкин В.А. Теория и практика прогностики: Методологические аспекты. М., 1972.
7.Луков В. А. Социальное проектирование. М., 2000.
8.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М. : Изд-во Моск. гуманит ун-та : Флинта, 2006.
9.Любимова Т.В. Будущее – это истина прошлого // Экология культуры. М., 1991.
10.Методологические проблемы социального прогнозирования / Под ред. А.П.Казакова. Л., 1975.
11.Прогнозное социальное проектирование : Теоретико-методологические и методические проблемы / Ин-т социологии РАН ; отв. ред. Т. М. Дридзе. 2-е изд., испр. и доп. М. : Наука, 1994.
12.Раппапорт А.Г. Границы проектирования.// Вопросы методологии. N 1, 1991, с. 20.
13.Розин В.М. Проектирование как объект философско-методологичекого исследования.// Вопросы философии. N 10, 1984, с. 32.
14.Тощенко Ж.Т., Аитов Н.А., Лаин Н.И. Социальное проектирование. М., 1982.
15.Управление проектами /Под ред. В. Д. Шапиро. СПб., 1996.

## Mövzu 12. SOSİAL LAYİHƏLƏŞDİRMƏ NƏZƏRİYYƏSİNİN ƏSASLARI

Sosial layihələşdirmə sosial fəaliyyət forması kimi, proqnoz, model, ssenari, plan, yaxud nümunənin nəzəri, yaxud təcrübi reallaşdırılmasına imkan yaradır. Sosial layihələşdirmə xüsusi nəzəriyyə forması olub, sosial layihələrin anlayışlar və kateqoriyalar aparatını, prinsip və qanunauyğunluqlarını, model və metodlarını, metodikasını özündə birləşdirir. Layihələşdirmə – sosial dəyişikliklərin təcrübi nəzəriyyəsi, yaxud sosial islahatların nəzəri təcrübəsidir.

Hər cür sosial layihələşdirmə sosial fəaliyyətin modeli və təcrübi reallaşdırılması kimi, obyektiv əsaslara malik olmalıdır. Sosial layihələşdirmənin aşağıdakı sosial determinist əsasları fərqləndirilir:

1.Bu və ya digər sosial sistem, yaxud sosial obyektin mahiyyəti və qarşılıqlı münasibətlərinin məqsədyönlü dəyişilməsinə və inkişafına dair ictimai tələbat.

2.Sosial proseslərin kortəbii inkişafının qarşısının alınması və sosial tələbatların təmin olunması istiqamətində yönəldilməsinə sosial zərurət.

3.Sosial yaradıcılığın reallaşdırılmasına tələbat.

4.Sosial sistem və proseslərin planlı, proqnozlu və idarə edilən inkişafına sosial zərurət.

5.Daxili münasibətlərinin tarazlığı və digər sistemlərlə harmonik münasibətlər yaradılması xüsusiyyəti ilə seçilən dinamik sosial sistemlərin yaradılması tələbatı.

6.Sosial sistemin optimal formalarının, onun səmərəliliyi və rasionallığına yönəlmə.

7.Sosial proseslərin konstruktiv xüsusiyyətlərinin reallaşdırılmasına sosial tələbat.

8.Sosial destruktivliyin, sosial entropiyanın (dönmə, çevrilmə), nizamsızlığın, təşkilatsızlığın və qeyri-sabitliyin səviyyəsinin azaldılmasına sosial tələbat.

Sosial layihələşdirmə prosesinin daxili determinantları kimi aşağıdakılar müəyyənləşdirilir:

1.Sosial proseslərin çox amilliliyi və dəyişkənliyinin nəticəsi kimi müəyyən sosial proseslərin tədqiqinə ziddiyyətlli, nizamsız yanaşmalar.

2.Hər hansı bir inkişaf etmiş nəzəriyyə çərçivəsində mürəkkəb sosial prosesin rekonstruksiyası (yenidən təşkilatlanması) və bütün vəziyyətlərdə onun inkişafının tam sistemli proqnozlaşdırılmasının qeyri-mümkünlüyü.

3.Sosial münasibətlərin inkişafı və mürəkkəbləşməsi və sosial layihələşdirmə nəzəriyyəsinin və təcrübəsinin inkişafı, ictimai həyatda onun yeri və əhəmiyyəti.

4.Sosial layihələşdirmənin tətbiqi təcrübəsinin ümumiləşdirilməsi və bu sahədəki nəzəri araşdırmalar əsasında vahid nəzəriyyənin yaradılması tələbatının inkişafı.

5.Sosial layihələşdirmənin əsası olan sosial və humanitar elmlər kompleksinin inkişafı.

Yeni sosial problemlərin fərqli həlli variantlarının, həmçinin sosial planlar və proqramların hazırlanması prosesində sosial layihələşdirmə məqsədyönlü fəaliyyət forması kimi istifadə edilir. Layihələşdirmə qərarın hazırlanması və qəbulu formalarından olub, idarəetmənin əsas funksiyalarından biri kimi çıxış edir. Planlaşdırmadan fərqli olaraq, layihələşdirmə idarəetmənin digər funksiyalarına daha az təsir göstərir və intellektual, maddi, əmək və maliyyə ehtiyatlarından çıxış edərək, qərarların çoxvariantlı qəbulu imkanlarını qəbul edir. Sosial proseslər və sosial institutların yenidən təşkilatlanması prosesi ilə əlaqədar olaraq, sosial layihələşdirmə fərqli vəziyyətlərdə təkrar istehsalın, yaxud dəyişikliklərin əsaslandırılması vasitələrinin axtarışına yönəlir. Eyni zamanda sosial layihələşdirmə təxmini hesablara əsaslanaraq, müəyyənləşmiş zaman müddətinə malik olmaya bilər.

**Sosial təşkilatlandırma**. Təşkilatlandırma fəaliyyəti sosial reallığın yaradıcı mənimsənilməsi ilə bağlıdır. Sosial təşkilatlandırma belə bir ideyaya əsaslanır ki, ən çox ehtimal edilən meyllə yanaşı ən az ehtimal edilən, yaxud real mümkün olan meyl mövcuddur. Hər zaman mövcud sosial məsələnin həlli üçün istifadə ediləcək daxili sosial ehtiyatlar mövcud olur. Mahiyyətcə yaxın olan perspektiv məqsədlər hər hansı bir mərhələdə yerlərini dəyişə bilər, yaxud eyni bir məqsəd müxtəlif vasitələrlə həyata keçirilə bilər.

**Sosial mühəndislik**. Sosial layihələşdirmə «sosial mühəndislik» anlayışından fərqlənir. Sosial mühəndislik təzahür, yaxud obyektin aid olduğu mühitin funksiyalaşma qanunauyğunluqlarını nəzərə alaraq, mümkün inkişaf yollarını müəyyənləşdirməyə çalışır.

**Sosial layihələşdirmənin metodologiyası** sosial proseslərin tədqiqində, modelləşdirilməsində, təşkilatlandırılmasında, planlaşdırılmasında, proqnozlaşdırılmasında, yəni sosial layihələşdirilməsində istifadə edilən müəyyənləşmiş metodlar sistemi haqqında elm kimi çıxış edir. Layihələşdirmə məqsədyönlü sosial dəyişikliklərin gələcək variantlarının və sxemlərinin

qeyri-mütəşəkkil seçimi ilə bağlıdır. Sosial layihələşdirmə ideyaların yoxlanılmasında uğursuz eksperimentləri də nəzərə almalıdır. Sosial layihələşdirmənin metodologiyası üçün obyektlərin (sosial institutlar, sosial proses və təzahürlər) düzgün müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Buna görə də sosial layihələşdirmənin obyekti fərqli əsaslarda (cəmiyyətin iqtisadi, sosial-siyasi və mənəvi sahələrinin funksiyalaşmasının təkmilləşdirilməsi) təsnif edilməlidir. Sosial layihələşdirmə cəmiyyətin bu və ya digər sahəsinin səmərəli fəaliyyətilə bağlı şəraitin yaradılması ilə əlaqədardır. Belə layihələr əmək fəaliyyətinin inkişafı üçün əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, sosial layihələşdirmə yalnız xüsusi, konkret ictimai münasibətlərin öyrənilməsi ilə bağlı olmayıb, həm də sosial münasibətlər sisteminin kompleks təqdim edilməsi məqsədini daşıyır. Yalnız kompleks, sistemli, vahid yanaşma əsasında ictimai proseslər və təzahürlər səmərəli layihələşdirilə bilər. Sosial layihələşdirmənin əsas xüsusiyyəti insan həyatının bütün sosial aspektlərini əhatə edən problemlərin həll edilməsinə yönəlməsi ilə bağlıdır. Sosial layihələr təşkilat, rayon, şəhər, əyalət, respublika və bütövlükdə respublika səviyyəsində hazırlana bilər.

**Sosial layihələşdirmənin predmeti və obyekti**. Hər bir nəzəriyyə kimi sosial layihələşdirmə nəzəriyyəsi də obyekt və predmetə malikdir. Sosial layihələşdirmənin obyekti aşağıdakı xüsusiyyətləri daşıyır:

1.sosial layihələşdirmənin obyekti öz mahiyyəti və keyfiyyəti, əlamətləri və funksiyaları olan sadə sosial törəmədir;

2.sosial layihələşdirmənin obyekti mürəkkəb törəmə, yaxud nisbətən sadə sosial törəmələr sistemidir, həmcins, yaxud müxtəlif cinsli, əlaqəli, yaxud asılı, birləşmiş, yaxud ayrı, dinamikanın, yaxud statikanın tələblərinə cavab verən çoxsaylı elementlər toplusudur;

3.sosial layihələşdirmənin obyekti mürəkkəb sosial törəmələr sistemidir.

Obyektin xüsusiyyəti layihələşdirmə prosesində bu və ya digər metodların – təsviri, qeydə alınması, ixtisaslaşdırıcı, nümunəvi, birləşdirici, kəmiyyət, keyfiyyət, analitik, sintetik və s. seçilməsinə şərait yaradır. Sosial layihələşdirmənin obyekti ideal və real ola bilər. Real obyekt – sosial dəyişikliklərlə bağlı fəaliyyət və idrakın obyektidir. Real obyekt empirik dərketmə ilə bağlı olub, obyektin təsviri, onun mahiyyət və keyfiyyətlərinin qeydə alınması, bu mahiyyət və keyfiyyətlərin təsnif edilməsi əsasında müəyyənləşir.

Sosial layihələşdirmə obyektinin strukturu aşağıdakı səviyyələrdən ibarətdir:

1.Sosial sistem səviyyəsi – sosial institutlar, təbəqələr və təşkilatların mümkün qarşılıqlı fəaliyyət formaları.

2.Sosial təşkilat səviyyəsi – sosial sistemin element səviyyəsi.

3.Ümumi sosial həyat fəaliyyəti səviyyəsi – böyük insan qruplarının bir-birilə və sosial təşkilatlarla qarşılıqlı fəaliyyət formaları.

4.Təşkilatlararası həyat fəaliyyəti səviyyəsi – sosial sistemin elementlərinin qarşılıqlı fəaliyyət formaları.

5.Fərdi həyat fəaliyyəti səviyyəsi – ümumi sosial həyat səviyyəsi çərçivəsində subyektlərarası qarşılıqlı fəaliyyət formaları.

Məntiqi, riyazi, statistik, yaxud struktur model olan ideal obyekt empirik göstəricilərlə bağlı olan real obyektlə üst-üstə düşmür. İdeal obyekt seçilmiş uyğun göstəricilərin ümumiləşdirilməsi əsasında formalaşır və müəyyən tamlığa, sistemliliyə, qapalılığa malik olur. İdeal obyekt – məfhumi obyekt olub, elmi nəzəriyyə çərçivəsində mövcud olur.

Sosial layihələşdirmənin predmeti sosial layihələşdirmə obyektinin funksiyalaşma qanunauyğunluqlarının, ümumi və xüsusi keyfiyyətlərinin aşkar edilməsi əsasında formalaşır. Sosial layihələşdirmənin predmeti obyekt haqqında elmi biliklər sistemində formalaşır, real obyektin empirik göstəricilərilə tamamlanır, ideal obyekt haqqında təsəvvürlər əsasında strukturlaşır, sosial layihələşdirmə nəzəriyyəsinin anlayışlar bazasında konseptuallaşır.

Sosial layihələşdirmə predmetinin mahiyyəti aşağıda qeyd edilən sistemyaradan parametrlər əsasında müəyyənləşdirilir:

– Empirik materialın faktları və elementləri.
– Problemli vəziyyətlər və problemlər.
– Faktlar və problemli vəziyyətlərin şərhi ilə bağlı sosial (təcrübi) və nəzəri tələbat.
– Məqsədli vəziyyətlər və mövcud problemlərin aradan qaldırılması məqsədi.
– Məqsədlərin reallaşdırılması prinsipləri.
– Prinsiplərin reallaşdırılmasının nəzəri əsasları.
– Faktların ifadə edilməsi vasitələri – sosial fəlsəfənin, demoqrafiyanın və etnologiyanın, nəzəri və tətbiqi sosiologiyanın, riyazi statistikanın, modelləşdirmənin anlayışlar bazası.
– Ontoloji modellər – faktlar sisteminin təsviri quruluşu.
– Məntiqi sxemlər – sosial layihələşdirmənin xəyali modelləri.
– Riyazi modellər – məntiqi modellərin rəqəmli ifadəsi.
– Sosial layihələşdirmə nəzəriyyəsində faktların, ontoloji modellərin, məntiqi sxemlərin və riyazi modellərin sistemləşdirilməsi üsulları.
– Sosial layihələşdirmənin reallaşdırılması.
– Sosial layihələşdirmənin reallaşdırılması nəticəsində əldə edilən sosial bilik.

Proqram anlayışı layihə anlayışına yaxın olduğu üçün çox vaxt proqramlı-məqsədli idarəetməni layihəli idarəetmə adlandırırlar.

**Sosial strukturun layihələşdirilməsi**

Sosial layihələşdirmə xüsusi sosial mühəndislik fəaliyyəti olub, keçmişi və gələcəyi nəzərə alaraq sosial təşkilatın ən yaxşı tərəflərinin birləşdirilməsinə yönəlir. Sosial layihələşdirmə sosial planlaşdırmadan onunla fərqlənir ki, müəssisələrin layihələşdirilməsi yeni istehsalın yaradılması ilə eyni vaxtda həyata keçirilir. Sosial planlaşdırma isə fəaliyyətdə olan obyektlərdə aparılır və funksiyalaşan strukturların dəyişdirilməsi məqsədini daşıyır. Müəssisələrin layihələşdirilməsi aşağıdakılarla bağlıdır:
1) yeni yaradılan müəssisələrin layihələrinin elmi-texniki əsasları bilavasitə əmək kollektivlərinin uzun müddətli fəaliyyətdə olduğu sosial şəraitin maddi əsaslarının müəyyənləşdirilməsilə bağlıdır.
2) elmi-texniki qərarların nəticələri bilavasitə sosial dəyişikliklərdən asılıdır.

N.İ.Lapinə görə, layihələşdirmənin əsas sosial məqsədli yeni istehsal kollektivlərinin formalaşdırılması üçün tərəqqipərvər şərtlərin kompleks təminatı kollektivin əsas funksiyaları olan iqtisadi səmərəlilik, ekoloji optimallıq, sosial səmərəlilik, təşkilati idarəçilik, ictimai fəallıq funksiyaları ilə bağlı olub bir neçə alt məqsədlərə bölünür. Lapin və Toşenko layihələşdirmənin vacib sosial məsələsi kimi aşağıdakıları fərqləndirirlər: əmək prosesləri və iş yerlərinin sosial tərəqqi sisteminin yaradılması; gələcək kollektivlərin sosial strukturlarının müəyyənləşdirilməsi; işçilərin və onların ailə üzvlərinin rahat mədəni-məişət xidmətlərinin təmin edilməsi; istehsalın əmək ehtiyatları ilə təminatının layihələşdirilməsi. Hər bir məsələnin həlli 3 əsas iş növünü özünə daxil edir:
1) məsələ və onun həllinin əsas istiqamətləri və sahələri dəqiqləşdirilir;
2) məsələnin texniki, iqtisadi, təşkilati həlli qurulur;
3) layihələşdirmənin ilkin mərhələsində müəyyənləşmiş sosial məqsədlərə nail olma dərəcəsi müəyyən edilir.

**İdarəetmə sisteminin təşkili**nin 7 mərhələsi fərqləndirilir:

**I mərhələ** – istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması və lazımi dərəcəli kadrların təminatı mənbələrinin müəyyənləşdirilməsi ilə həll edilməlidir.

**II mərhələ** – təşkilatın məqsədlərinin formalaşdırılması mərhələsi kimi idarəetmə strukturunun layihələşdirilməsinin ilkin mərhələsidir.

**III mərhələ** – mövcud təşkilati strukturun məqsədlər sistemi ilə müqayisəsinə əsaslanır.

**IV mərhələ** – təşkilatın ümumi idarəetmə strukturunun işlənməsi mərhələsidir.

**V mərhələ** – idarəetmə aparatının kəmiyyətinin hesablanması və əsaslandırılması ilə bağlıdır.

**VI mərhələ** – qərar qəbulu, funksional və məlumatlı qarşılıqlı təsir proseslərinin sistemləşdirilməsinə aiddir.

**VII mərhələ** – idarəetmə aparatının alt bölmələrinin mövcud şöbə və işçilərinin vəzifələri haqqında qanunlar ilə bağlı sənədlərinin köməyilə fəaliyyətin məhdudlaşdırılması ilə əlaqədardır.

İdarəetmənin təşkilati strukturunun layihələşdirilməsinə bu ümumi yanaşma prinsipləri digər sosial strukturların layihələşdirilməsi mərhələlərində də tətbiq edilə bilər. Lakin bu prinsiplərə bir sıra başqalarını da əlavə edirlər. İlk dövrlərdə aşağıdakılar nəzərə alınmalıdır:

1) uyğun istehsallı sosial təşkilatların öyrənilməsi;

2) texniki, istehsal, iqtisadi və sosial məqsədlərə nail olmaq üçün struktur parametrlərin təsiri analiz edilməlidir və səmərəli struktur aşkar edilməlidir;

3) müəssisənin sosial strukturunun formalaşma imkanlarının regionun sosial strukturu və əmək ehtiyatlarından qonşu istehsalın mövcudluğundan, müəssisənin maddi imkanlarından asılı olduğunu nəzərə alaraq aşkar edilmiş optimal strukturu bu imkanlara uyğunlaşdıraraq düzəlişlər edilməlidir;

4) bu düzəlişləri nəzərə alaraq, sosial təşkilatın parametrlərinin layihələşdirilməsinə başlanmalıdır.

Sosial təşkilatın layihələşdirilməsində kişi və qadınların ictimai əmək fəaliyyətləri səviyyəsinin bərabərləşdirilməsinə şərait yaradan göstəricilərin istifadə edilməsi böyük məna kəsb edir. Demoqrafik vəziyyətin, xüsusilə də idarəetmənin cinsi strukturunda aşağıdakı ümumi prinsiplər nəzərə alınmalıdır:

1) işin xüsusiyyətləri və iş şəraitinin qadınların psixofizioloji xüsusiyyətlərinə uyğunluğunun nəzərə alınması;

2) ictimai təşkilatda analıq və digər ailə vəzifələrinin uyğunlaşdırılaraq səmərəli əmək rejiminin təşkili;

3) ictimai və fərdi əməkdə qadın məşğulluğunun məqsədəuyğun təşkili;

4) əraziyə görə qadın və kişi məşğulluğunun ahəngdar uyğunluğunun təşkili.

Sosial təşkilatda yaş strukturu da layihələşdirmənin əsası kimi qəbul edilir. Layihələşdirmənin əsas məqamlarından biri də əvvəlki təcrübənin işçi axınının nəzərə alınmasıdır.

### YOXLAMA SUALLAR

1.Sosial layihələşdirmənin səbəb-nəticə əsasları dedikdə nə nəzərdə tutulur?

2.Sosial təşkilatlandırma nədir?

3.Sosial mühəndislik və sosial təşkilatlandırmanın fərqi nədir?

4.Sosial layihələşdirmənin predmeti hansı əsaslarda formalaşır?

## REFERAT MÖVZULARI

1.Sosial mühəndislik
2.Sosial layihələşdirmənin metodologiyası
3.Sosial layihələşdirmənin predmeti və obyekti
4.Sosial strukturun layihələşdirilməsi
5.İdarəetmə sisteminin təşkili mərhələləri

## ƏDƏBİYYAT:

1.Антонюк Г.А. Социальное проектирование. Минск, 1978.
2.Бергер П., Лукман Т. Социальное конструирование реальности. Трактат по социологии знания. М., 1995.
3.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988. М., 1989,с . 163.
4. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
5.Лакис П.П. Методологические и логические аспекты прогнозирования. Рига, 1985.
6.Лисичкин В.А. Теория и практика прогностики: Методологические аспекты. М., 1972.
7.Луков В. А. Социальное проектирование. М., 2000.
8.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М. : Изд-во Моск. гуманит ун-та : Флинта, 2006.
9.Любимова Т.В. Будущее – это истина прошлого // Экология культуры. М., 1991.
10.Методологические проблемы социального прогнозирования / Под ред. А.П.Казакова. Л., 1975.
11.Прогнозное социальное проектирование : Теоретико-методологические и методические проблемы / Ин-т социологии РАН ; отв. ред. Т. М. Дридзе. 2-е изд., испр. и доп. М. : Наука, 1994.
12.Раппапорт А.Г. Границы проектирования.// Вопросы методологии. N 1, 1991, с. 20.
13.Розин В.М. Проектирование как объект философско-методологичекого исследования.// Вопросы философии. N 10, 1984, с. 32.

## Mövzu 13. SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN STRATEGİYASI VƏ ALƏTLƏR KOMPLEKSİ

Sosial layihələşdirmənin əsas məqsədi sosial layihələrin hazırlanmasıdır. Sosial layihə müəyyən maliyyə, əmək, maddi, yanacaq-enerji, o cümlədən intellektual, idrak, evristik, dəyər ehtiyatlarının mövcudluğu şəraitində sistemin gələcək arzu edilən vəziyyətinin müəyyənləşdirilməsi məqsədini daşıyır. Elmi əsaslandırılmış sosial layihə aşağıdakı tələblərə cavab verməlidir:

1.layihələşdirilən obyektin yalnız dəqiq layihə əsasında aşkar edilə biləcək xüsusiyyətlərinin olması;
2.sosial sifarişi yerinə yetirə biləcək parametrlərin olması;
3.müəyyən zaman müddətində yerinə yetirilə biləcək xüsusiyyətlərin olması.

Mümkün sosial sistemlərin, proseslərin və təzahürlərin sosial layihəsinin hazırlanması bir sıra şərtlərə uyğun olmalıdır: elmi əsasda qurulmalı, reallaşması nöqteyi-nəzərindən səmərəli olmalı, ziddiyyətlərsiz olmalı, reallaşmaq üçün yönəlməlidir. Sosial layihənin əsas xüsusiyyətlərindən biri də onun mövcud mənəvi və ümumqəbuledilmiş sosial normalara zidd olmamasıdır. Sosial layihə işarəli məlumatlar strukturuna malik olduğundan informasiya daşıyıcısı kimi beş əsas prinsipə malikdir: birmənalılıq, zərurilik, tamlıq, ziddiyyətsizlik, səmərəlilik. Layihənin daşıdığı informasiya zəruri və kafi olmalıdır. İşarəli məlumatlar kifayət qədər olmalı, onların azaldılmasına ehtiyac duyulmamalıdır.

Sosial layihənin həyata keçirilməsi vasitələrinin (o cümlədən texniki, riyazi və məntiqi) köməyilə sistem və proseslər, onların inkişaf meylləri, problemli vəziyyətin əmələ gəlməsi və inkişafı, subyektlərin tələbatları, layihələşdirmə vasitələri və s. haqqında informasiya toplanır, təhlil edilir və ümumiləşdirilir. Müasir dövrdə layihələşdirmənin texniki vasitələri, avtomatlaşdırılmış layihələr geniş yayılıb.

**Sosial layihələrin strategiyaları**

**Layihə texnoloji strategiyalar.** Sosial layihələşdirmə prosesində tətbiq edilən texnoloji strategiyalar konkret layihələşdirmə vəziyyətindən asılı olaraq müəyyənləşdirilir. Məsələn, problem sahənin bəzi qeyri-müəyyənliyi şəraitində layihə qərarlar qəbul etmək üçün vacib olan birmənalı və dəqiq müəyyənləşmiş planın olmaması ilə əlaqədar təsadüfi kəşfiyyat strategiyasının seçilməsi mümkündür.

**Xətti strategiya** bir qayda olaraq, qarşılıqlı əlaqəli ardıcıl fəaliyyətlə əlaqədar tətbiq edilir. Bu zaman bir fəaliyyət digərindən sonra gəlir, lakin özündən əvvəlki fəaliyyətin nəticəsi olmur.

**Şaxəli strategiya** layihələşdirmə prosesində çox variantlı və alternativ fəaliyyətin reallaşdırılması ilə bağlıdır. Bu zaman variantlar mərhələli müqayisə edilir və bir-birindən və layihələrdən asılı olmayaraq, inkişaf edə bilər. Bu isə bir neçə layihə modelinin bir-birini qarşılıqlı tamamlayaraq istifadə edilməsinə şərait yaradır.

**Dövrü (tsiklik) strategiyanın** tətbiq edilməsi layihələşdirmə prosesində təşkilatlanmanın əvvəlki mərhələlərindən birinə qayıtmağa imkan yaradır.

**Adaptaptiv (uyğunlaşdırılmış) strategiya** ilkin layihələşdirmə fəaliyyətilə bağlı olur.

**Atrım strategiyası** ənənəvi layihələşdirmə şəraitində uyğunlaşdırılmış kəşfiyyatın formalarından biri kimi çıxış edir. Sosial layihələrin yaradılması üçün istifadə edilən ümumiləşdirilmiş strategiyalar fərqli sosial layihələrin tələblərinə cavab verən universal xüsusiyyətlərə malik olur. Layihə strategiyaları layihələşdirmə fəaliyyətinin məqsədlərindən asılı olur. Mərhələli məqsədlər layihələşdirmənin ayrı-ayrı mərhələlərində yerinə yetirilir.

Layihə strategiyasının seçilməsi layihə fəaliyyətinin metod və vasitələrinin seçilməsi, həmçinin təşkilati proqramın tərtib olunması ilə müşayiət olunmalıdır. Sosial layihələşdirmədə ən çox istifadə edilən metodlar – sosial normativlər, sosial tarazlıq, sosial səmərələşdirmə, sosial tənəzzül, sosial nəticələr, sosial tipologiyalar və təsnifatlar, sosial xəritələşdirmədir.

Təşkilati layihələşdirmənin bütün strateji mərhələlərində sosial layihəçilərin məqsədyönlü və razılaşdırılmış fəaliyyətini təmin edir. Təşkilati proqramın köməkliyilə layihələşdirmə müddətində layihə fəaliyyəti strukturlu dinamik vahid kimi yaradılır və himayə edilir. Təşkilati layihələşdirmə aşağıdakı struktura malikdir:

1.bilavasitə layihəçi üçün layihə fəaliyyətinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;
2.icraçılar üçün fəaliyyət bacarığından asılı olaraq, rolların bölüşdürülməsi;
3.layihələşdirmə obyektinin sistemləşdirilməsi;
4.qoyulan məqsədlərə nail olmaq üçün planlaşdırılmış fəaliyyətin dəqiq izahı;
5.fəaliyyət vasitələri və gözlənilən nəticələrin siyahısı.

Təşkilati proqramlaşdırma müəyyən dərəcədə layihə obyektindən asılı olur. Seçilən stratiegiyadan asılı olaraq, təşkilati proqramlaşdırma layihə obyektini qabaqlaya, müşayiət edə və geri qala bilər. Sosial layihələşdirmə təcrübəsində sosial layihələşdirmə obyekti haqqında hipotetik təsəvvürlərin birləşdirilməsinə və mövcud layihənin reallaşdırılması xüsusiyyətlərinə əsaslanan təqlidi model geniş istifadə edilir. Təqlidi (imitasion) model sosial eksperiment kimi dəyərli olub, sosial obyektin xüsusi təşkil olunmuş sosial

fəaliyyətlə əks olunmasına və yeni keyfiyyətlərinin müəyyənləşdirilməsinə şərait yaradır.

**Sosial layihələşdirmənin ümumelmi prinsipləri**. Sosial layihələşdirmədə istifadə edilən bir sıra ümumelmi prinsiplər, xüsusi tədqiqat sahələrində özünəməxsus mahiyyət kəsb edir. İdraki fəaliyyətin tənzimləyici prinsiplər sistemi kimi çıxış edən metodlar aşağıdakı xüsusiyyətlərə malik olur:

1.səlislik – metodun birmənalılığı, ümumi dərk edilən olması;

2.səbəb-nəticə əlaqəli – prinsiplərin tətbiq edilməsində təsadüfün yolverilməzliyi;

3.istiqamətləndirilmiş – müəyyənləşdirilmiş məqsəd və vəzifələrə tabeliliyi;

4.səmərəlilik – planlaşdırılmış nəticələrlə yanaşı, o qədər də vacib olmayan nəticələrin təmin edilməsi;

5.etibarlılıq – böyük ehtimalla əsas nəticənin əldə edilməsini təmin etmək;

6.qənaətcillik – ən az zaman və vasitələr itkisi ilə nəticələr əldə etmək.

Təcrübi fəaliyyətdə və nəzəri dərketmədə əks olunan prinsip sosial layihələşdirmənin metoduna çevrilir. Sosial layihələşdirmədə daha çox istifadə edilən metodlar aşağıdakılardır:

1.problem – struktur metod mümkün problem vəziyyətin problemləşdirilməsi, strukturlaşdırılması və divergensiyası (inkişaf əlamətlərinin fərqlənməsi) prinsipinə, yəni hüdudlarının genişlənməsinə əsaslanır.

2.struktur analiz metodu strukturlaşdırma, analiz və transformasiya prinsipləri əsasında layihə göstəricilərinin dəyişdirilməsinə yönəlir.

3.proqram – struktur metod layihə göstəricilərinin proqramlaşdırılması, strukturlaşdırılması və konvergensiyası (uyğunlaşma) prinsipləri əsasında layihə probleminin hüdudlarını məhdudlaşdırır.

4.struktur metod layihə göstəricilərinin nizamlanması və qarşılıqlı əlaqələndirilməsinə yönəlir.

5.struktur – texnoloji metod layihə göstəricilərinin texnologiyalaşması, təşkilatlanması və strukturlaşdırılması prinsiplərinə əsaslanır.

6.problem – sistemli yanaşma metodu problemləşdirmə, sistemləşdirmə və divergensiya prinsiplərinə əsaslanır.

7.sistemli analiz metodu sistemləşdirmə, analiz və transformasiya prinsiplərinə əsaslanır.

8.proqram – sistemli yanaşma metodu proqramlaşdırma, sistemləşdirmə və konvergensiya prinsiplərinə əsaslanır.

9.sistem metodu obyektin tamlığı və təşkilatlanması prinsipinə əsaslanır.

10.sistemli – texnoloji metod layihə göstəricilərinin texnologiyalaşması, sistemləşdirilməsi və təşkilatlandırılması prinsiplərinə əsaslanır.

11.problem – dairələşdirmə metodu problemləşdirmə, mühitləşdirmə və konvergensiya prinsiplərinə əsaslanır.
12. dairənin analizi metodu dairələşdirmə, analiz və transformasiya prinsiplərinə əsaslanır.
13.proqram – dairələşdirmə metodu tamlıq, qoşulma və təşkilatlandırma prinsiplərinə əsaslanır.
14.dairə – texnologiyalaşdırma metodu texnologiyalaşdırma, dairələşdirmə və təşkilatlandırma prinsiplərinə əsaslanır.

Sosial layihələşdirmə metodikasının hazırlanması layihələşdirmə prosesinin və strategiyasının sistemləşdirilməsini, strategiyadakı dövrülüyün azaldılmasını və layihələşdirmə prosesinin idarə edilməsini asanlaşdırmaq, layihəçinin özünənəzarətini optimallaşdırmaq və peşəkarlıq bacarıqlarını təkmilləşdirmək üçün imkan yaradır. Metodika ilə iş problem məsələlərə dair qərarların formalaşdırılması, sosial layihələşdirmə prosesinin sürətləndirilməsi və layihə nəticələrinin keyfiyyətinin yüksəldilməsinə kömək edir.

Sosial layihələşdirmənin metodik problemlərilə bağlı layihələşdirmənin alətlər kompleksinə və mahiyyətinə xüsusi diqqət ayrılır. Layihələşdirmənin alətlər kompleksi nəzərdə tutulan fəaliyyət sistemindən, qərar qəbulu üçün vacib ehtiyatların aşkar edilməsi, məqsədlərə nail olmaq üçün metodların müəyyənləşməsi, həmçinin subyektlərin səylərinin təşkilatlandırılması formalarından ibarətdir.

**Sosial layihələşdirmənin metodları** – məsələlərin həlli və məqsədlərə nail olma yolları və üsullarıdır. Layihələşdirmədə daha çox ideyalar matritsası, analogiya, assosiasiya, zehni həmlə, sinektika metodları istifadə edilir.

**Sosial layihələşdirmənin vasitələri** – məqsədə nail olma üsulları və əməliyyatları toplusudur. Layihələşdirmənin metod və vasitələri planlaşdırılmış tədbirlərdə konkretləşir.

**Sosial layihələşdirmənin forması** – layihənin məzmununun təşkilatlandırılması üsulları, metodları, vasitələri, icraçıları və auditoriyasının müəyyənləşdirilməsi ilə bağlı nizamlanmış fəaliyyətdir. Layihənin təcrübi tədbirləri layihənin başlanğıcını və reallaşdırma mərhələlərini qeydiyyata alır, fəaliyyətin istiqamətini, növünü, forma və mahiyyətini müəyyənləşdirir, hər bir mərhələdə məqsədlərin reallaşdırılması üçün vacib olan əlavə ehtiyatlar cəlb edir.

**Sosial layihələrin təsnifatı**. Sosial layihələrin bu və ya digər növə aid edilməsi onların strategiyalarının mahiyyətindən asılıdır. Layihə strategiyasının ilk növü layihələşdirmə obyekti olan mədəniyyətin özünəməxsus xüsusiyyətlərinin maksimum səviyyədə dərk edilməsi və nəzərə alınmasına yönəlir. Bu zaman layihənin məqsədi regionun mədəni arealının

qorunub saxlanmasını təmin edəcək şəraitin yaradılmasından və mədəniyyət subyektinin özünüinkişafından ibarət olur. İkinci növ layihələrdə əsas məsələ şəxsi mədəni nümunələrin (dəyərlər, normalar, texnologiyalar) başqa regionlarda, fərqli sosial mədəni şəraitdə yerli mədəniyyətə ixracı ilə bağlı olub, onun süni şəkildə dəyişdirilməsinə yönəlir. Bu zaman layihə obyekti olan mədəniyyət dəyişikliklərə ya qarşı durur, ya da müqavimətsiz yeni mədəni nümunələri mənimsəyir. Buna görə də bu növ layihələr tətbiq etmə üsulları ilə yanaşı, mümkün müqavimətin təcrid edilməsi mexanizmlərini də nəzərə alır. Sosial layihələrin növləri həm də mədəniyyətin bu və ya digər sahəsinin tədqiqi ilə bağlı müəyyənləşə bilər. Sosial layihələri bədii, tarixi, sosial psixoloji və mənəvi mədəni, ekoloji, siyasi, fiziki və psixi, peşə mədəniyyəti sahələrinə dair problemlərə görə təsnif etmək olar. Bu zaman layihələşdirilən mədəni sahənin predmet, prosessual, dəyər yönümü, institusional əsasları tədqiq edilir. Eyni zamanda qeyd edilən əsasların hər biri ayrılıqda layihələşdirmə obyekti ola bilər, çünki onların (mədəni sahənin predmet, prosessual, dəyər yönümü, institusional əsaslarının) hər biri inkişaf xüsusiyyətlərilə fərqlənir, layihənin reallaşması üçün zəruri ehtiyatlara malik olur və mədəni inkişafın müəyyən normativ səviyyəsinə (insan, qrup, cəmiyyət) malik olur. Sosial mədəni problemlərin aşkar edilməsi və müəyyənləşdirilməsi, həmçinin onların layihə qərarları variantlarının axtarışı müəyyən çətinliklər yaradır və kulturologiya, sosiologiya, sosial psixologiya, pedaqogika və digər sahələrə dair biliklərin olmasını tələb edir.

İctimai birliklər formasında həyata keçirilən ***tarixi-mədəni istiqamətli sosial layihə və proqramlar*** bir sıra sosial mədəni problemləri və pedoqoji məsələlər – məskunlaşma mühitinin, dəyərlər və ənənələrin bərpası və inkişafı, mədəniyyət və tarixi biliklər əsasında gənclərin tərbiyə edilməsi, şəxsiyyətin sosial və vətəndaşlıq fəaliyyətinin formalaşdırılması, tarixi və mədəni təcrübənin yaradıcı mənimsənilməsi – uğurla həll ediə bilər. Layihənin ideyasından asılı olaraq, auditoriya özünəməxsus sosial mədəni problemləri olan fərqli etnik qruplardan ibarət ola bilər.

Asudə vaxtın mədəni təşkili müəssisələri tərəfindən həyata keçirilən ***səhiyyə layihələri***nin mahiyyəti insanların fiziki və psixi rifahının təmin edilməsi şəraitinin yaradılması, bədən tərbiyəsi – sağlamlaşdırma proqramlarının seçilməsi, orqanizmin sərbəst həyat fəaliyətinin formalaşdırılması ilə bağlıdır.

***Sosial pedoqoji layihələr*** şəxsiyyətin mənəvi təkmilləşdirilməsinə, cəmiyyətdə pozitiv sosial münasibətlərin geniş yayılmasına, sosial və şəxsiyyət səviyyəsində olan problemlərin zorakılıq olmadan və münaqişəsiz həll edilməsinə yönəlir.

***Sosial psixoloji mədəniyyət sahəsilə bağlı layihələr*** sosial psixoloji uyğunlaşmanın təmin olunması, etnoslar arası münaqişənin qarşısının alınması, etnik mədəni fərqlərin qarşılıqlı dərk edilməsi və qəbul edilməsi istiqamətli olur.

***Bədii mədəniyyət ehtiyatlarının inkişafı ilə bağlı layihələr***də peşəkar incəsənətin və xalq yaradıcılığının mövcud imkanları, özfəaliyyətin klubdan kənar formaları, layihə tədbirlərində təşkilatlanmamış özfəaliyyətin iştirakı nəzərə alınmalıdır.

***Tarixi mədəniyyət sahəsinə dair layihələr*** cəmiyyətin öz tarixi ilə bağlı aktual problemlərin – mənəvi ideallarin tarixi irsiliyinin itirilməsi, mədəni irsə, mədəni yaradıcılığın Milli formalarına və s. marağın olmaması – tədqiqinə yönəlir.

***Peşəkar mədəniyyət sahəsinə dair layihə və proqramlar*** aşağıdakı kimi təsnif edilə bilər:

– təhsilləndirici və peşəyönümlü, şəxsiyyətin formalaşdırılmasına yönəlmiş, əmək fəaliyyətində intellektual, emosional və yaradıcılıq imkanlarının maksimum reallaşdırılmasına yönəlmiş layihələr. Bu layihələr çərçivəsində təhsillənmə prosesi insanın bütün fəaliyyət sahələrini (əmək, istirahət, ailə, peşə, asudə vaxt və s.) əhatə edərək, məktəb təhsilində olan geriləmələri tamamlamalı və bərpa etməlidir.

– sosial reabilitasiya (məsələn, yaşlı adamlar üçün yeni peşə mənimsənilməsinə kömək edə bilən proqramlar);

– peşəyə uyğunlaşma (peşəkar şəxsin şəxsi keyfiyyətlərinin təzahür etməsinə şərait yaradan, əsas peşə istiqamətli və insanın yaradıcı təsəvvürünün reallaşmasına kömək edən peşə klubları, peşə etikasının yaradılması);

– peşə bərpaedici (əsas fəaliyyət sahəsində özünüreallaşdırma ilə bağlı problemlərin həll edilməsi vasitələri).

***Siyasi mədəniyyət sahəsinə dair layihələr*** ictimai – siyasi həyatın fəallaşdırlıması və vətəndaşların sosial siyasi məsələlərlə bağlı biliklərinin yüksəldilməsi, əhalinin yerli özünüidarəetmə prosesinə cəlb edilməsi, cəmiyyətin yenidən qurlması ilə bağlı fərqli ideya və konsepsiyaların işlənib hazırlanması, siyasi və vətəndaş şüurunun formalaşdırılması istiqamətli olur. Şüurun poliideologiyalaşdırılması (plüralizm), cəmiyyətdə çox saylı və bərabərhüquqlu ideoloji konsepsiyaların təsdiq olunması mədəniyyəti monoideologiyalaşmadan, hər hansı siyasi qüvvənin totalitar ağalığından xilas edə, ümumi dəyərlər sisteminə söykənən dünyagörüşünün formalaşmasına kömək edə bilər.

***Məlumat-maarifləndirici layihələr*** çərçivəsində siyasi ideya və konsepsiyaların tədqiqini planlaşdırmaq, ictimai siyasi problemləri müzakirə etmək olar.

Sosial layihələr digər meyarlar üzrə də təsnif edilə bilər, məsələn, ***məqsədli layihə*** – əlaqəli məqsədlər sistemi əsasında vəziyyətin təhlilinə yönəlmiş, yəni qabaqcadaq düşünülmüş tədbirlər, fəaliyyətlər ardıcıllığıdır. Məqsədli layihə nisbi müstəqil, tamamlanmış, məntiqi düşünülmüş olur və sosial qrupun real problemlərinin həll edilməsinə yönəlir və əhalinin sosial mədəni müstəqilliyi üçün şərait yaradır. Məqsədli layihələrdə məqsədli yönəlmə aparıcı rol oynayır.

Məqsədli layihələrin başqa bir növü məntiqi, texnoloji və alqoritmik xüsusiyyətlərilə seçilən təşkilati layihələrdir. Eyni zamanda ***təşkilati layihələr***in bir sıra variantlarını fərqləndirmək olar:

- məqsəd və mahiyyətinə görə təşkilati layihələr bir və ya bir neçə layihələşdirmə sahəsinə aid ola bilər (məsələn, siyasi, ekoloji, tarixi mədəniyyət sahəsinə aid ictimai birliklər);
- sosial bazasına görə təşkilati layihələr ya dəqiq müəyyənləşdirilmiş (müəyyən kateqoriya, yaxud sosial qrup – peşə, status, etnik, problemli və s.) ola bilər, yaxud layihənin auditoriyası qarışıq ola bilər.

Təşkilati layihənin işlənib hazırlanması xüsusiyyətləri:

**1.Problem sahənin və məqsəd yönümünün xüsusiyyətləri.**

Təşkilati layihənin məqsəd və vəzifələri sosial mədəni problemlərin mahiyyətinə görə müəyyənləşir. Layihənin hazırlanması sosial mühitin bu və ya digər hissəsinə aid olan sosial mədəni vəziyyətin analizi və səciyyəvi problemlərin aşkar edilməsi ilə başlayır. Sosial problemlərin həll edilməsinə yönəlmə birliyin fəaliyyətinin ictimai mahiyyətinin yüksəldilməsi vasitəsi kimi çıxış edir.

**2.Layihələşdirmə sahəsinin xüsusiyyəti.**

Təşkilati layihə həmişə bir layihələşdirmə sahəsi ilə bağlı həyata keçirilir (bu zaman ictimai birliyin məqsəd və vəzifələri və mahiyyəti ya bədii ədəbiyyat, yaxud siyasi mədəniyyət və digər sahələrə aid olur).

**3.Sosial bazanın xüsusiyyətləri.**

Təşkilati layihənin auditoriyası adətən qarışıq olur. Buna görə də bu və ya digər ictimai birliyin yaradılması ilə bağlı layihənin işlənib hazırlanması prosesində şəxsi keyfiyyətləri xarakterizə etmək çətindir, çünki onlar fərqli sosial qrupların təsəvvüründə fərqli görünür. İctimai birliklərlə bağlı insanların tələbatlarını təsvir etmək daha asandır.

**4.Təşkilati layihənin reallaşdırılması formalarının xüsusiyyətləri.**

Bu fəaliyyət bilavasitə bu və ya digər növ qeyri-hökumət təşkilatının reallaşdırılması ilə bağlıdır.

Problematika sahəsi təşkilati layihənin əsas mahiyyəti və reallaşdırma imkanlarını müəyyənləşdirən amildir və hər hansı bir sosial qrupla bağlı ola bilər. Buna baxmayaraq, təşkilati layihənin mahiyyəti problem sahəsi çərçivəsində olmalıdır. Təşkilati layihələr yönəlmə istiqamətinə görə fərqləndirilə bilər. Bu zaman layihənin istiqaməti onun xüsusiyyətindən və əsas ideyasından, imkanlarından asılı olur və layihənin əsas məsələsinin həllinə dair qəti fəaliyyət kimi müəyyənləşir.

İstiqamətinə görə layihələri aşağıdakı kimi təsnif etmək olar:

- məlumat – maarifləndirici;
- təhsilləndirici (dərketmə);
- kəşfiyyat – tədqiqat (xüsusilə tairixi mədəniyyət sahəsində);
- bədii – yaradıcılıq (istehsal, bədii dəyərlərin, xalq sənətinin, folklorun və s. qorunması və təkrar istehsalı);
- sosial – yaradıcı;
- peşə yönümlü;
- dəyər yönümlü (məsələn, siyasi, tarixi, bədii həyat problemlərinə dair müzakirə klubları);
- reabilitasiya (psixoloji, sosial psixoloji, sosial, əmək, yaradıcılıq, ruhi reabilitasiya);
- mədəniyyətin mühafizəsi (kolleksiyalar toplanması, muzey işi, abidələrin qorunması);
- təbiəti mühafizə;
- bədən tərbiyəsi – sağlamlaşdırma.

**Layihə sənədi – sosial pasport.**

Layihələşdirmə prosesinin idarə edilməsi təşkilati ehtiyatlar və sosial layihələrin hazırlanması prosesinin texnologiyalaşdırılması vasitələrilə reallaşır. Bu məqsədlə fərqli layihə sənədləri istifadə edilir. Bunlardan ən vacibi sosial pasportdur.

Sosial pasportun tərtib edilməsi layihələşdirmə obyektinin pasportlaşdırılması ilə əlaqəlidir. Obyektin pasportlaşdırılması sistem haqqında dəqiq məlumatların əldə edilməsi, onların vəziyyətinin, funksiyalaşma və inkişafının təsvir edilməsidir. Sosial pasport sistemin funksiyalaşması və inikşafına təsir edən kəmiyyət və keyfiyyət parametrlərini əks etdirən və elementlər strukturunun təhlili əsasında qurulan ümumi sənəddir. Pasportun tərtib olunması mərhələləri aşağıdakı kimidir:

1.Sistemin funksiyalaşması və inkişafına təsir edən xüsusiyyətlərin və parametrlərin müəyyənləşdirilməsi, onların təsnif edilməsi və diferensiasiyası.

2.Pasport formasının işlənib hazırlanması (idarə edilən alt sistemin təsiri ilə dəyişən göstəricilərin daxil edilməsi);

3.Pasport formasının doldurulması, zəruri göstəricilərin əldə edilməsi: sənədlərlə iş, anketləşdirmə, intervü.

**YOXLAMA SUALLAR**

1.Sosial layihələrdə daha çox istifadə edilən strategiyalar hansılardır?
2.Sosial layihələrin ümumelmi prinsipləri hanslardır?
3.Sosial layihələr tətbiq sahələrinə görə necətəsnif edilir?
4. Təşkilati layihələrin işlənib hazırlanması xüsusiyyətlərini izah edin.

**REFERAT MÖVZULARI**

1.Layihə texnoloji strategiyalar
2. Xətti və şaxəli strategiyalar
3. Dövrü, uyğunlaşma və çevrilmə strategiyaları
4.Təşkilati proqram
5.Sosial layihələşdirmənin alətlər kompleksi

**ƏDƏBİYYAT:**

1.Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
2.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988.
3. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
4.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М.: Изд-во Моск. гуманит ун-та: Флинта, 2006.

## Mövzu 14. SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN FORMALARI

### Sosial proyeksiya

«Projectio» anlayışı latın dilində «qabağa atılma, tullanma» mənasını daşıyır. Bu anlayış əsasən psixologiyada şəxsi psixi proseslərin xüsusiyyətlərinin xarici obyekt kimi dərk edilməsilə əlaqədar istifadə edilirdi. Proyeksiya xüsusilə də «Mən» və xarici dünya arasında dəqiq bölgünün olmadığı uşaqlıq dövründə psixikanın formalaşmasında böyük rol oynayır. Antropologiyada proyeksiya anlayışı dünya haqqında antromorf baxışların izahı üçün istifadə edilir. Bu anlayış patoloji psixologiya və psixiatriyada xarci dünyanın təhrif edilmiş şəkildə dərk edilməsi vəziyyətində öz davranışlarına nəzarətin saxlanması haqqında illüziyanın saxlanması xüsusiyyətli bir sıra psixi xəstəliklərlə bağlı işlədilir. Proyeksiya mexanizmi layihə mətnlərində gizli motivlərin və meyllərin diaqnozlaşdırılması məqsədilə istifadə edilir. Sosial proyeksiya gələcəyə baxış forması kimi obyektiv predmet haqqında subyektiv baxışlar sistemi kimi çıxış edir. İnsan, sosial qrup və hər cür sosial birlik sosial sistemin elementi olub, sosial inamlar, sosial prinsiplər və sosial seçimlərlə xarakterizə olunur. Bu sosial keyfiyyətlər mahiyyətinə görə sosial reallığın öncə görməsi və proqnozlaşdırılması, layihələşdirilməsi və təşkilatlandırılmasından fərqlənir. Bu keyfiyyətlər çox zaman sosial emosiyalara əsaslanır, onlar subyektiv xüsusiyyətlər daşıyır. Sosial gözləmələr subyektiv sosial duyumla sıx bağlı olur. İnsan müəyyən zaman ölçüsündə necə yaşayacağını ehtimal edir. Məhz bu ehtimallar proyeksiya hesab edilir. Şəxsi-subyektiv və sosial proyeksiya mahiyyətcə fərqlənir. Şəxsi-subyektiv proyeksiya şəxsin gələcək haqqında arzuları, fantaziyaları əsasında qurulur və şəxsi psixoloji meyllərə əsaslanır. Sosial proyeksiya subyektin sosial keyfiyyətləri və sosial seçimləri, mövcud sosial dəyərlər, dünyagörüşü və sosial gözləmələr əsasında qurulur. Sosial proyeksiya gələcəyə xüsusi selektiv baxışdır. Sosial proyeksiya subyeki cari sosial hisslərini və sosial seçimlərini gələcəyə köçürməklə sosial inkişafın uyğun variantını müəyyənləşdirir. Gələcəyə doğru çoxvariantlı və dəyişən istiqamətlər sırasında sosial proyeksiya subyekti şəxsi mental xüsusiyyətlərindən çıxış edərək, öz sosial gözləmələrinə uyğun olanı həyata keçirir. Sosial proyeksiya subyekti sosial dünyanı təşkilatlandırmır, mümükün dünyalar cərgəsində özünün yaşamaq istədiyi dünyanı yaradır, öz sosial dünyasını axtarır. Bu mənada sosial proyeksiya həqiqətən də sosial subyektivliyin gələcəyə ötürülməsidir. Sosial proyeksiya gələcəyin layihələşdirilməsi, planlaşdırılması, proqnozlaşdırılması və modelləşdirilməsinin Prokrust yatağına (düz gəlib gəlməməsinə baxmayaraq hamının zorla bir əndazəyə salınması – qəbim yunan qulduru Prokrustun adından götürülüb) sığmır. Sosial proyeksiyanın predmeti olmur,

lakin bir sıra real xüsusiyyətlərə malik olur. Sosial proyeksiya sosial layihələşdirmənin reallaşdırılması şərtlərini, ehtiyatlarını və texnologiyalarını daşımır. Proyeksiya planlaşdırmanın mərhələliyinə malik olmur və proqnozlaşdırma kimi sosial fəaliyyətin tərkib hissələrinin nəzərə alınmasına yönəlmir. Sosial proyeksiya gələcəyə baxış olub, varlığın reallıqları ilə məhdudlaşmır. Sosial proyeksiya sosial fantaziya və sosial illüziyadan fərqlənir. Sosial fantaziya və sosial illüziya sosial proyeksiyanın zəruri, lakin natamam tərkib hissəsi kimi izah edilə bilər. Sosial proyeksiyanın əsas xüsusiyyəti gələcəyə selektiv baxışla bağlıdır.

**Layihələşdirmə hipotezləri sosial proyeksiyanın formaları kimi**

Layihələşdirmə hipotezləri (sosial proyeksiyalar) sırasında aşağıdakılar fərqləndirilir:

1.sosial gözləmələr, sosial seçimlər əsasında gələcəyin virtual modelləşdirilməsi;

2.çoxsaylı variantlar sırasında preferensiyalı (imtiyazlı) seçim;

3.gələcəyə yönəlmədən çıxış edərək, indiki zamanın korreksiyası;

4.sosial proyeksiyanın xüsusiyyətlərindən asılı olaraq, cari sosial varlığın parametrlərinin dərk edilməsi;

5.sosial proyeksiyanın preskriptiv (sərəncam) xüsusiyyəti, onun tələblərinin (imperativlərinin) müasir davranışa uyğunlaşdırılması;

6.mövcud dəyərlərlə uyğun olan gələcək dəyərlərin qarşılıqlı asılılığı;

7.cari dəyərlərin gələcək dəyərlər əsasında müəyyənlşədirilməsinə əsaslanan qarşılıqlı dövrləşmə asılılığı.

Qeyd olunan layihə hipotezləri gələcəyi və indiki zamanı özündə əks etdirir və varlığın mental çərçivəsində formalaşır.

**Sosial təşkilatlandırma və sosial mühəndislik**

Sosial mühəndislik elmi-texniki fəaliyyətin sahəsi kimi son illərdə geniş yayılıb. Sosial mühəndislik sosioloji konsepsiya olub, xüsusi sosial proseslər çərçivəsində «sosial təşkilatlandırma» mənasını kəsb edir. Sosial mühəndislik və sosial təşkilatlandırma sosial təzahürlərə rasional təsir mərhələlərini, qaydalarını və vasitələrini layihələşdirir, sosioloji tədqiqatların ictimai təcrübəyə tətbiq edilməsi metodlarını işləyib hazırlayır. Sosial mühəndislik sosiologiyanın metodlarından istifadə edir. Sosial mühəndisliyin əsas funksiyaları müxtəlif növ sosial sistemlərin, onların alt sistemləri və elementlərinin şüurlu şəkildə dəyişdirilməsi məqsədli layihələrin əsaslandırılması, planlaşdırılması və reallaşdırılması ilə bağlıdır. Sosial mühəndisliyin əsas problemi dərk edilmiş və planlaşdırılmış dəyişikliklərin sosial sistemə tətbiq edilməsi imkanlarını və səlahiyyətlərini əsaslandırmaqdır. Sosial mühəndis və sosial təşkilatçı proqnoz layihənin mövqelərindən çıxış

edərək, sosial yeniliklərin həyata keçirilməsi üsulları sistemini işləyib hazırlayır, yeni reallığı təşkilatlandırmağa yönəlir. Sosial mühəndislik və sosial təşkilatlandırmanın metodologiyası mütəxəssisin dəyişikliklərin nəzəri modelini, məntiqini, xüsusiyyət və miqyasını, alətlər kompleksini və s. seçməsini əsaslandırır. K.Popperin fikrincə, «sosial mühəndislik» ilk dəfə 1922-ci ildə R.Paund tərəfindən «Hüququn fəlsəfəsinə giriş» əsərində istifadə edilmişdir. «Sosial mühəndislik» ayrı-ayrı sosial institutların, rəsmi təşkilatların və s. məqsədyönlü dəyişdirilməsi və tənzimlənməsinə yönəlmiş fəaliyyət formasıdır. K.Popperə görə, sosial mühəndislik mövcud və yeni yaranmaqda olan sosial institutların tədrici islahatlar və dəyişikliklər vasitəsilə yenidən qurulması və idarə edilməsinin layihələşdirilməsilə bağlı fəaliyyətdir. Sosial mühəndislik iki əsas əlamətə görə fərqləndirilir:

1.Sosial mühəndislik fəaliyyəti prosesində yaranan təşkilati strukturlar insan davranışının tənzimlənməsi və həmin davranışa nəzarəti həyata keçirmək məqsədi daşıyır. Bir çox müəlliflər sosial mühəndisliyi müəssisə, təşkilat, inzibati struktur rəhbərlərilə sosioloqlar, psixoloqlar və digər mütəxəssislərin birgə həyata keçirdikləri idarəetmə fəaliyyəti kimi müəyyənləşdirirlər.

2.Sosial problemlərin həlli, sosial qrup və institutların dəyişən şəraitə uyğunlaşdırılması və sosial yeniliklərin tətbiq edilməsi məqsədini daşıyan sosial mühəndislik fəaliyyəti xüsusi vasitələr, metodlar və texnologiyaların köməyilə reallaşdırılır.

Bir çox müəlliflər «sosial mühəndislik» anlayışını qəbul etmirlər. F.A. fon Xayek bu anlayışın istifadə edilməsinə qarşı çıxaraq, qeyd edir ki, bu anlayış sosial proseslərin dövlət tərəfindən mərkəzləşdirilmiş planlaşdırılması mahiyyətini daşıyır. N.Stefanov və K.Rixtarjik də bu anlayışdan imtina edirlər. Onların fikrincə, «sosial mühəndislik» anlayışı insan davranışının manipulyasiyası imkanlarına bəraət qazandırır. «Sosial mühəndislik» anlayışının ideoloji şərhini aradan qaldırmaq üçün bu anlayışı «sosial texnologiya», yaxud «sosiotexnika» anlayışları ilə əvəz etməyi təklif edirlər. Q.A.Antonyuk qeyd edir ki, «sosial mühəndislik yalnız anlayış deyil, texniki sahədə istifadə edilən mühəndislik terminlərinin sosial sahəyə ötürülməsi və istifadə edilməsinə əsaslanan nəzəriyyələr kompleksinin adıdır». «Sosial texnologiya» və «sosiotexnika» anlayışları mahiyyətcə «sosial mühəndislik» anlayışından fərqlənir. Məlum olduğu kimi, «texnologiya» anlayışı müəyyən fəaliyyətin predmetinə təsir etmə vasitələrini xarakterizə edir və fəaliyyətin alqoritmləşdirilməsi, onun ayrı-ayrı əməliyyatlara bölünməsinə əsaslanır. Əsasən mühafizəkar, zehni əmək tələb etməyən əməliyyatlar texnologiyalaşmaya məruz qalır. «Texnika» anlayışı fəaliyyət vasitələri və

alətləri sistemini və bu sistemin istifadəsi üçün zəruri olan üsullar və bacarıqlar toplusunu ifadə edir. «Mühəndislik», «mühəndislik fəaliyyəti» anlayışları insanların təcrübi fəaliyyətində mühəndis bilikləri və metodlarının istifadəsini nəzərdə tutur. «Sosial mühəndislik» anlayışı sosial sahədə mühəndis yanaşmanın simvolik ifadə forması kimi çıxış edir. Mühəndislik fəaliyyəti yalnız təşkilatlandırma və layihələşdirmə ilə məhdudlaşmır, həmçinin layihələşdirilən sistemlərin təhlil elementlərini, qurulmuş obyektlərin istismarı, layihələrin reallaşdırılması texnologiyalarını və s. özündə birləşdirir. Təşkilatçı mühəndislər, analitik mühəndislər, texnoloq mühəndislər və s. fərqlənirlər. Layihələşdirmə universal fəaliyyət forması olub, insan həyatının müxtəlif sahələrində istifadə edilir. Mühəndis layihələşdirmə mühəndislik təcrübəsinin bir forması kimi çıxış edir. Sosial mühəndislik süni sosial sistemlərin yaradılmasına yönəlmiş biliklər, təcrübi fəaliyyət sahəsidir. Sosial sahədə süni sahə geniş təzahür və prosesləri əhatə edir. Geniş mənada sosial həyat süni təbiətə malikdir və bəşəriyyətin ən böyük kəşfi hesab edilir. Qan qohumluğu olan insan birlikləri, etnik birliklər və ittifaqlar, insan kütləsi, dostlar qrupu süni sistemlər nümunəsi hesab edilir. Süni sosial sistemlər ümumi məqsəd və maraqları olan insanların birgə fəaliyyəti əsasında əmələ gələn və funksiyalaşan məqsədyönlü sistemlər olub, həm daxili, həm də xarici əlaqələrin normativ əsaslarda tənzimlənməsinə əsaslanır. Sistem daxili və sistmelərarası münasibətlər institusional möhkəmlənmiş olub, hüquqi və digər norma, qayda, razılaşmalar əsasında müəyyənləşir. Süni sistemlər müəyyən təşkilati imkanlara və hüdudlara malik olur. Süni sistemlərin yenidən qurulması zamanı elmi əsaslandırılmış layihədə sistemin inkişaf məntiqi nəzərə alınmalıdır. Bununla əlaqədar olaraq, sosial layihələşdirmə obyekti sistem əlaqələrinin təşkilatlanma səviyyəsi və formalaşma dərəcəsinə görə fərqləndirilir. Süni tipli sosial sistemlər dedikdə, əsasən sosial institutlar, sosial təşkilatlar, təşkilati qruplar nəzərdə tutulur. Sosial institutlar sosial mühəndislik fəaliyyətinin ən çox tətbiq edildiyi sahədir. Sosial sahədə mühəndislik fəaliyyəti süni sistemlərin – özünəməxsus əlamətlərinə görə fərqlənən institutlar, təşkilatlar və qrupların yaradılması, dəyişdirilməsi və inkişafına yönəlir. Sosial mühəndisliyin predmet sahəsi onun idarəetmə statusu ilə müəyyənləşir və sosial idarəetmənin elmi əsaslandırılmasına yönəlir. Sosial mühəndisliyin əsas xüsusiyyəti idarəetmədə əmək bölgüsünün təmin edilməsilə bağlıdır. Sosial mühəndislik fəaliyyəti sosial idarəetmənin bütün funksiyalarının – planlaşdırma, layihələşdirmə, proqramlaşdırma, təşkilatlandırma, əlaqələndirmə və nəzarət – reallaşdırılması ilə əlaqəlidir. Sosial mühəndislik fəaliyyəti idarəetmə qərarlarının hazırlanması ilə məhdudlaşmır, alternativlərin seçilməsi, qərarların ekspert

qiymətləndirilməsi, sosial yenilikərin tətbiq edilməsinə nəzarət və s. idarəetmə məsələlərini özündə birləşdirir. Sosial idarəetmədə sosial mühəndislik nəzəriyyə və təcrübənin birləşdirilməsi vasitəsi kimi çıxış edir. Sosial mühəndisliyin predmeti süni sosial sistemlərin elmi idarə edilməsinin təşkili, yəni onların obyektiv sosial qanunların fəaliyyətinə uyğunlaşdırılması ilə bağlıdır. Sosial mühəndislik mövcud keyfiyyət vəziyyətinin, yaxud qoyulan parametrlər əsasında sistemin yeni vəziyyətə keçidinin mühafizə edilməsinə yönəlir. Sosial mühəndislik sosial sistemlərin təşkilati xüsusiyyətlərinin tədqiqi və layihələşdirilməsi prosesində onların optimallaşdırılması və dəyişdirilməsi məqsədilə elmi bilik və metodların tətbiq edilməsinə yönəlmiş konkret-təcrübi və metodoloji təmayül olub, sosial idarəetmənin aləti kimi çıxış edir. Sosial mühəndislik iqtisadi fəaliyyət, təhsil, dini fəaliyyət, təşkilatlandırma və modelləşdirmə və s. sahələrlə bağlı sosial təcrübə forması kimi çıxış edə bilər. İdarəetmə fəaliyyətinin tərkib hissəsi olan sosial mühəndislik bir sıra prinsiplərə malikdir:

1.Sosial mühəndisin sosial idarəetmə məsələlərində bilavasitə iştirakı prinsipi; 2.İdarəetmənin sosial mühəndisliklə fasiləsiz təminatı (problem vəziyyətin diaqnostikası, onun reallaşdırılması proqram və layihələrinin hazırlanması, qərarların ekspert qiymətləndirilməsi, uyğun texnologiyanın hazırlanması) prinsipi;

3.Texnologiyalaşma prinsipi.

Tədqiqat obyektinin xüsusiyyətindən asılı olaraq, sosial mühəndisliyin bir sıra səviyyələri fərqləndirilir: institutlaşma (sosial institutların təqdiqi, layihələşdirilməsi və inkişafı), təşkilati (rəsmi təşkilatların elmi idarə edilməsi), qruplu (qrup münasibətlərinin tədqiqi və layihələşdirilməsi) və şəxsiyyət (şəxsiyyətin sosial davranışının tənzimlənməsi). Tədqiqat vasitələrindən asılı olaraq, sosial mühəndislik fəaliyyətinin bir sıra istiqamətləri fərqləndirilir: sosial mühəndislik tədqiqatları (sosial sistemlərin təşkilati imkan və xüsusiyyətlərinin analizi və diaqnostikası), sosial sistemlərin mühəndis təşkilatlandırılması (onların layihələşdirilməsi, proqramlaşdırılması və planlaşdırılması), sosial sistemlərin mühəndis xidməti (sistemlərin istismarı məsələlərilə bağlı məsləhətlər və ekspert qiymətləndirilməsi). Sosial layihələşdirmənin predmet sahəsi sosial sistemlərin zəruri vəziyyəti və inkişafı ilə bağlıdır. Zəruri vəziyyət sosial sistemlərin inkişaf məntiqi, keyfiyyət xüsusiyyətləri və funksiyalaşmasını nəzərə alan normativ modellər və göstəricilər əsasında qurulur. Sosial mühəndisin fəaliyyəti sosial sistemlərin mahiyyət xüsusiyyətlərinin öyrənilməsinə, inkişafına təsir etməyə və normativ tənzimlənməsi vasitələrinin

hazırlanması və istifadəsinə yönəlir. Sosial mühəndisliyin predmet sahəsi aşağıdakı xüsusiyyətlər əsasında müəyyənləşir:
a) xüsusi sinif obyektlərin tədqiqi və dəyişdirilməsinə yönəlmə (süni sosial sistemlər);
b) sosial idarəetmədə elmi metod və vasitələrin tətbiq edilməsi;
c) sosial sistemlərdə xüsusi idarəetmə təsiri vasitələrinin (normativ və tənzimləyici) istifadəsi;
ç) obyektin tipinin istifadə edilən metodlara uyğun olaraq daxili diferensiasiyası (sosial mühəndislik fəaliyyətinin dərəcə və istiqamətlərə görə təsnifi).

Sosial mühəndisliyin əsas məsələsi sosial sistem və institutların məqsədyönlü dəyişdirilmə imkanlarının müəyyənləşdirilməsilə bağıdır. Utopik mühəndislik istorizm fəlsəfəsinə və tarixi peyğəmbərliyə söykənir və onun əsasında ideal cəmiyyət və dövlət layihəsi durur. K.Popper məhz bu əsaslarda sosial mühəndisliyin metodoloji əsaslarını işləmişdir, lakin o, qeyd edir ki, ideal təşkilatlanmış tənqidin obyekti ola bilməz, çünki ideal utopiya olaraq qalır. Cəmiyyətin və onun institutlarının yenidən qurulması layihələri tənqid edilməlidir. Popper qeyd edir ki, geniş miqyaslı sosial mühəndislik üçün lazımi qədər bilik və təcrübə, həmçinin bu tip dəyişiklikləri əsaslandıra biləcək sosioloji nəzəriyyələr yoxdur. Buna görə də utopik mühəndisliyin bütün cəmiyyətin rasional planlaşdırılması ilə bağlı iddiaları əsassızdır. Utopik mühəndislik mümkün təhlükələrin nəzərə alınması məqsədilə nəzərdə saxlanılır. K.Popperin qeyd etdiyi kimi, «Cəmiyyətin layihələşdirilməsi və ideal dövlətə nail olma cəhdləri güclü mərkəzləşdirilmiş dövlətin olmasını tələb edir və diktaturaya aparır». Sosial mühəndisliyə utopik yanaşmanın çatışmazlığı bununla bağlıdır. Utopik mühəndislik tərəfdarları əmindirlər ki, bu yanaşma cəmiyyətin inkişafına eksperimental metodun tətbiqi ilə bağlıdır və ictimai həyatın bütün tərəflərini əhatə etməlidir. K.Popperin fikrincə, utopik metodun reallaşdırılması çoxsaylı qurbanlar tələb edən ideal sxemlə bağlıdır. Bu tezis XX əsrin əvvəllərində SSRİ məkanı ölkələrində iri miqyaslı sosial dəyişikliklər edilməsi və sonradan bu dəyişikliklərin cəmiyyəti özünüməhvə aparması fəaliyyəti ilə təsdiq edilmişdir. K.Popperin qeyd etdiyi kimi, sosial mühəndislik xüsusiyyətli marksizm iri dəyişikliklərin həyata keçirilməsinə qabil deyildi. Marksizmə xas olan determinizm və tarixi peyğəmbərliyə cəhd sosial mühəndisliyin elmi imkanlarını təcrid edirdi. Cəmiyyətin rasional idarə edilməsi, iqtisadiyyatın və həyatın bütün tərəflərinin dövlət tərəfindən tənzimlənməsi iri miqyaslı sosial mühəndislik nümunəsidir və xüsusilə birinci beşilliklərdə daha parlaq əks olunmuşdu. Beləliklə, sosial mühəndislik metodu rasional təşkilati formada yalnız sosial institutların,

təşkilatların tədrici islahatlar vasitəsilə yenidən qurulmasına yönəlir. Sosial mühəndisliyin elmi əsasları, K.Popperin qeyd etdiyi kimi, insanların məqsəd və arzularına uyğun olaraq, sosial institutların qurulması yaxud dəyişdirilməsi üçün zəruri olan həqiqi informasiyanın toplanması prinsipi əsasında qurulur. Sosial mühəndisliyin elmi metodu səhvlər üzərində öyrənməyə hazırlıq əsasında müəyyənləşir, yəni sosial mühəndislik metodu sınaq və səhvlər metodudur. Sosial mühəndis öz nəticələrini peyğəmbərlik, yaxud qabaqcadan xəbərvermə formasında deyil, hipotez şəklində ifadə edir və onu empirik yoxlamağa yönəlir. Sosial mühəndisin əsas vəzifəsi «əldə edilməsi qeyri-mümkün olanı müəyyən etməkdir». Bu onu düşünülməmiş və tələsik qərarlardan çəkindirir. Sosial institutların qurulması və dəyişdirilməsi ilə bağlı sosial mühəndis kiçik addımlar taktikasından istifadə etməli, həddən artıq radikal və qlobal dəyişikliklərdən imtina etməlidir. K.Popperə görə, sosial mühəndislik sosial sistemlərin hissəli, tədrici və mərhələli dəyişdirilməsi metodu kimi zəruridir. Elmi sosial mühəndislik informasiyanın ilkin tədqiqi, hipotezin irəli sürülməsi və yoxlanılması, elmi standartlara (aydınlıq, səmərəlilik) əməl edilməsi əsasında qurulur. Hüquq, dil, bazar, xüsusi mülkiyyət kimi institutlar dövlət təşkilatlandırmasının obyekti ola bilməz, çünki onlar mədəni təkamül, mədəni dəyərlərin seçilməsi prosesində əmələ gəlir və özünü inkişaf etdirən strukturlar kimi mövcud olur. Buna görə də sosial institutların dəyişilməsi kortəbii baş verir. Vətəndaş cəmiyyətinin inkişafı şəraitində azad ictimai təşkilatlar, KİV, sosial yardım fondları və əhalinin digər nümayəndələri sosial mühəndislərə sifarişlər verirlər.

**YOXLAMA SUALLAR**

1.Sosial proyeksiya nədir?
2.Hansı layihələşdirmə hipotezlərini fərləndirmək olar?
3.Sosial mühəndisliyin əsas prinsipləri hansılardır?
4. Sosial mühəndisliyin predmet sahəsini izah edin.

**REFERAT MÖVZULARI**

1. Sosial layihələşdirmənin formaları
2.Sosial proyeksiya
3.Layihələşdirmə hipotezləri sosial proyeksiyanın formaları kimi
4.Sosial təşkilatlandırma və sosial mühəndislik

**ƏDƏBİYYAT:**

1.Джонс Дж. К. Инженерное и художественное конструирование. М.: Мир, 1976.
2.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988.
3.Крик Э. Введение в инженерное дело. М: Наука, 1970.
4.Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.

## Mövzu 15. PLANLAŞDIRMA SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN FORMALARINDAN BİRİ KİMİ

Planlaşdırma konsepsiyası 2500 il bundan əvvəl yaranıb. İlk dəfə Sun Tzun «Müharibə sənəti» əsərində «strateji planlaşdırma rəisi» ifadəsini işlətmişdi. XIX əsrdə Anri Fayol Fransada şaxta nəzarətçisi vəzifəsində qazandığı təcrübəni təsvir edərkən 10 illik plan-proqnozların mövcudluğunu və hər 5 ildən bir onların yenidən təkmilləşdirildiyi haqqında məlumat verirdi. Planlaşdırmanın geniş istifadəsi 1950-ci ildə Amerikada başladı və 1960-cı illərdə bir çox korporasiyalarda tətbiq edilməyə başlandı. Bu haqda əsərlərin olmasına baxmayaraq, «Planlaşdırma nədir?» - sualına dəqiq cavab verilməmişdir. Bəzi müəlliflər üçün planlaşdırma gələcək haqqında düşüncələr və ya əvvəlcədən təqdim edilmiş fəaliyyətdir. Minsverqin fikrincə planlaşdırma anlayışı çox geniş məna kəsb edir. Diror planlaşdırmanı menecment kimi izah edir. Digər müəlliflər üçün gələcəyin nəzarət altına alınması və onun təsviridir və ya planlaşdırma – arzu edilən gələcəyin layihəsi və onun səmərəli tətbiqi üsullarıdır. Planlaşdırma ətraf mühitdə nəzarətli dəyişikliklərin yaradılmasıdır. Bəzi müəlliflərə görə, planlaşdırma – məqsədlərə nail olmaq üçün şüurlu fəaliyyət istiqamətidir, yəni qərarlar qəbulu prosesidir. Planlaşdırma məqsədə nail olmaq üçün fəaliyyətdir, insan və fiziki ehtiyatların əvvəlcədən müəyyənləşdirilməsi ilə bağlı fəaliyyət növüdür. Planlaşdırma indiki zamanda qəbul edilmiş gələcək qərarlar və həmin qərarların qəbulu prosesidir. Planlaşdırma – dövlətin, idarəetmə orqanlarının, təsərrüfat subyektlərinin, ölkənin, regionların, sahələrin sosial-iqtisadi inkişaf perspektivlərinin əldə edilməsilə bağlı fəaliyyətidir.

Sosial planlaşdırma sosial proseslərin inkişaf məqsədlərinin, göstəricilərinin və məsələlərinin (müddət, sürət, nisbətlərin) elmi əsaslarda müəyyənləşdirilməsi və əhalinin maraqları çərçivəsində həyata keçirilməsi vasitələridir. Sosial idarəetmənin hansı səviyyəsində dəyişikliklər keçirilməsindən asılı olaraq, sosial planlaşdırmanın səviyyələri fərqləndirilir. Planlaşdırmanın birinci mərhələsi – əmək kollektivlərinin sosial inkişafının planlaşdırılmasıdır. İstehsal kollektivlərinin fərqli formalarının planlaşdırılması fərqli metodikaların istifadəsini tələb edir. Planlaşdırma aşağıdakı prinsiplərə əsaslanır:

***I Prinsip*** – İstehsalın inkişafı üçün işçi nə və hansı səviyyədə edə bilər və işçi özü elmi-texniki və sosial tərəqqinin təsirilə necə dəyişəcək.

***II Prinsip*** – Sosial planın təsirliliyi kollektivin insan üçün yaratdığı şəraitdən asılı olur. Məsələnin mahiyyəti dövlətin və istehsal sahəsi, yaxud regionun işçilərin həyat şəraiti və imkanlarını yüksəltmək məqsədilə birgə

səyinə əsaslanır. Bu prinsipin reallaşdırılmasının əsas aspektləri maddi və mənəvi stimullaşdırmanın təkmilləşdirilməsilə bağlıdır. Son illərdə əməyin son nəticələrinə marağın gücləndirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürülmüş və eksperimentlər aparılmışdır.

***III Prinsip*** – İnsanın istehsal müəssisəsi, şəhər, yaxud rayonla qarşılıqlı fəaliyyət prosesi təsadüfi və qeyri-mütəşəkkil deyil, əmək kollektivlərinin üzvlərinin bu proseslərin idarə edilməsində dərk edilmiş fəaliyyətinin və iştirakının ifadəsi olmalıdır.

Regional səviyyədə sosial planlaşdırma respublika, əyalət, iqtisadi rayon və digər inzibati vahidlər səviyyəsindəki sosial proseslərin məqsədyönlü tənzimlənməsi forması kimi çıxış edir. Bütün ictimai orqanizmin səmərəli funksiyalaşmasını təmin etmək üçün ərazinin sosial inkişafı və xüsusilə də miqrasiya axını, əmək ehtiyatlarının rasional istifadə edilməsi, Milli münasibətlərin inkişafı, mədəni dəyərlərin bölüşdürülməsi və istehlakı prosesinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Təcrübənin göstərdiyi kimi, regional sosial planlaşdırmanın əsas məqsədi əmək və gündəlik həyat üçün əlverişli şəraitin yaradılmasıdır. İqtisadi rayonlar səviyyəsində planlaşdırma hər bir sosial prosesin – millətin inkişafı, xalqların həyat şəraitinin yüksəldilməsi, əhalinin miqrasiyası, təhsil sisteminin təkmilləşdirilməsinin mövcud regiondakı mahiyyətinin müəyyənləşdirilməsini tələb edir. Bununla yanaşı, təhlil zamanı fərqli regionlarda sosial proseslərin fərqli xüsusiyyətləri dəqiqləşdirilməlidir. Əsas şərtlərdən biri də cəmiyyətin səmərəli funksiyalaşması məqsədilə sahə və regional planlaşdırmanın uyğunlaşdırılmasıdır. Regional planlaşdırmanın əsas xüsusiyyətlərindən biri də sistemlilik prinsipinin gözlənilməsidir. Respublika, yaxud əyalət qarşısında duran əsas məsələlər öz aktuallığına görə heç də həmişə ümumdövlət məsələlərilə üst-üstə düşmür.

Sosial planlaşdırmanın formaları ünvanlı planlaşdırma və dolayı vasitələrin köməyilə planlaşdırma kimi fərqləndirilir. **Konkret**, yaxud **ünvanlı planlaşdırma** məsələlər sisteminin hazırlanması və əsaslandırılması ilə bağlıdır. Bu əsasda ictimai inkişafın müəyyən səviyyəsinə nail olmaqla bağlı məsələlər qoyulur və sosial proseslərin inkişafında rasional qarşılıqlı münasibətlər və tənasüblər vacib amillərdir. Oxşar qarşılıqlı münasibətlər cəmiyyətin real vəziyyətini, onun tərəqqi meyllərini, elm və texnikanın nailiyyətlərini, insanların tələbatlarını əks etdirir. Mahiyyətinə görə sosial planlaşdırma qoyulan məsələnin həyata keçirilməsi müddətinin müəyyənləşdirilməsindən asılıdır. Məqsəd nə qədər mürəkkəb olarsa, hərtərəfli elmi əsaslandırılmış qərarların qəbul edilməsi və həyata keçirilməsi üçün bir o qədər çox vaxt tələb oluna bilər. Planlaşdırmanın zaman müddəti faktlara

əsaslandırılmalı və kəmiyyət və keyfiyyət göstəricilərinin vəhdəti əsasında qurulmalıdır. Ünvanlı planlaşdırma əmr metodlarından geniş istifadə edir və sosial inkişaf və sosial dəyişikliklərin istiqamətinin elmi əsaslandırılmasını nəzər almır.

**Dolayı vasitələrlə sosial proseslərin planlaşdırılması** zamanı konkret şərait, imkanlar və tələbatlar tədqiq edilir. Növbəti mərhələdə hansı elementlərin və tərkib hissələrinin dövlət və ictimai tənzimlənmədən kənarda qalması müəyyənləşdirilir. Buna uyğun olaraq, mənfi halların və nətcələrin qarşısının alınması, yaxud zəiflədilməsi məqsədilə onların kəmiyyət ölçüsü və proqnozlaşdırılması məsələsi qoyulur.

Planlaşdırma prosesində sosial planlaşdırma və tənzimləmə obyekti olan və təsir ediləcək dəyişənlər aşkar edilir. Əmək itkilərinin qarşısının alınması məqsədilə işçilərin ixtisas dərəcəsinin artırılmasının tənzimlənməsi də vacib şərtdir. İşçilərin peşə səviyyəsinin artırılması bir sıra əmək formalarının ləğv edilməsinə səbəb olur. Əməyin planlaşdırılmasında bir çox peşələrlə bağlı olan dəyişikliklər nəzərə alınır və bir çox peşələr əmək fəaliyyətinin müəyyən mərhələsi kimi saxlanılır. Bir çox sosial proseslər inkişafla bağlı bir çox məhdudiyyətlərə malik olur. Bu şəraitlərin planlaşdırılması çox vacibdir, çünki sosial planlaşdırma maddi, maliyyə, əmək ehtiyatlarına əsaslanır. Sosial planlaşdırmada müəyyən sosial qrupların maraqlarının nəzərə alınması vacibdir. İqtisadi məsələlər həll olunarkən xalqın və ayrı-ayrı sosial qrupların maraqları üst-üstə düşür, lakin bu xüsusiyyəti ictimai həyatın bütün sahələrinə aid etmək olmur. Məsələn, istehsal sahəsində itkilərin aradan qaldırılması bir sıra sosial qrupların maraqlarına ziddir, maksimum sosial nəticələr heç də həmişə minimum itkilər əsasında əldə edilmir və bu sosial planlaşdırmanın əsas məqsədlərindən biridir.

Nə konkret, yaxud ünvanlı planlaşdırma, nə də dolayı vasitələrlə planlaşdırma təmiz şəkildə mövcud olmur. İqtisadi islahatlar sahəsində dolayı vasitələrlə planlaşdırma geniş tətbiq olunur.

Müasir dövrdə proqramlaşdırma, proqnozlaşdırma və layihələşdirmə dünya təcrübəsində geniş istifadə edilir. Eyni zamanda planlaşdırmanın mahiyyəti, vəzifəsi və funksiyası dəyişir. Planlaşdırma – idarəetmə fəaliyyətinin xüsusi növü olub, müəyyən vaxt müddətində idarəetmə obyektinin inkişafının optimal alternativinin seçilməsinə yönəlib. Planlaşdırma prosesinin nəticəsi - plandır. Plan idarəetmə obyektinin gələcək arzuedilən vəziyyətinin və ya inkişaf tendensiyasının təsvirini verir. Planda bu planı hazırlayan idarəetmə subyektinin məqsədləri əks olunur. Plan həmişə məqsədlər sistemini və onların reallaşdırılması sxemlərini təqdim etməlidir. Səmərəli planlaşdırma üçün planın 6 əsas suala cavab verməsi vacibdir: 1.

Hansı fəaliyyət həyata keçirilməlidir? 2. Fəaliyyət məkanı haradır? 3. Fəaliyyət hansı zaman çərçivəsini əhatə edirr? 4. Hansı vasitələrdən istifadə ediləcək? 5. Məqsəd nədir? 6. Fəaliyyət subyekti kimdir?

Planlaşdırmaya ictimai sistemin xarakterindən asılı olmayaraq, qeyri-siyasi, əlaqələndirici mexanizm kimi baxılır. Planlaşdırma planlı qərarların əsaslandırılması qanunauyğunluğunu və prinsiplərini açıqlayır. Təşkilati planlaşdırma çox mürəkkəb və çoxtərəfli əqli fəaliyyət forması olub, aşağıdakı prinsipial xüsusiyyətlərə malikdir:

1.Planlaşdırma müəyyən qərarlar qəbul edilməsi olub, perspektivdə müəyyən nəticələrin əldə edilməsinə yönəlib.

2. Planlaşdırma sistemi həm idarəetmə obyektinin, həm də xarici mühitin çevik və daimi dəyişikliklərinə uyğunlaşma bacarıqlı olmalıdır. Yəni plan daim düzəlişlərə ehtiyac hiss edir, çünki planlaşdırılmış nəticənin olması qarşılıqlı əlaqəli şərtlərin və amillərin fəaliyyətindən asılı olaraq müəyyənləşir. Bu şərt və amillər həm obyekt səviyyəsində, həm də xarici mühitdə dəyişikliklərə səbəb olur. Hər hansı bir obyektin gələcək vəziyyəti həmişə qeyri-müəyyən olur, belə ki, bir problemin həll edilməsi, digər bir problemin yaranması ehtimalını yaradır.

3. Planlaşdırma prosesi həmişə arzu edilən vəziyyətin alınmasına yönəlir və səhv fəaliyyətin qarşısının alınması və istifadə edilməmiş imkanların istifadəsinə çalışır.

4. Planlaşdırmanın məqsədi obyektin gələcək vəziyyətinin söylənməsi və tədricən baş verən dəyişikliklərə uyğunlaşdırılması deyil. Planlaşdırma obyektinin fəaliyyətinin xarici mühitə münasibətdə yenidən formalaşdırılmasıdr.

Planlaşdırma prosesi – hər bir rasional fəaliyyətin ayrılmaz hissəsi olub, cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Ancaq insan öz gələcək fəaliyyətinin nəticələrini müəyyənləşdirə bilər, yəni gələcəyə baxa bilər. Planlaşdırma daha vacib, gərəkli işləri müəyyənləşdirməyə, onları həyata keçirmək üçün mövcud resursların istifadəsinə, onların optimal təminatına imkan yaradır. Pis planlaşdırma pis nəticələrə gətirir. Səmərəli planlaşdırma nəticələri yaxşılaşdırır. Planlaşdırmada səmərəlilik qoyulmuş məqsədlərin əldə edilməsi ehtimalını yüksəldir. Planlaşdırma sahibkarlıq fəaliyyətinin mühüm hissəsidir. Menecment klassikləri göstərirlər ki, planın olmaması mövqenin zəifləməsinə, işlərin pisləşməsinə səbəb olur. İstehsal proseslərinin əlaqələndirilməsi, bölüşdürülməsi, mübadilə və istifadəsinin yaxşılaşdırılması, idarəetmə kadrlarının işinin təşkili və onların hazırlığı, beynəlxalq əlaqələrin genişlənməsi və mürəkkəbləşməsi, elmi-texniki tərəqqinin inkişafı, əxlaqi-

siyasi aspektlər və s. planlaşdırma elminin inkişafını tələb edir. Planlaşdırma aşağıdakı məqsədlərə nail olmağa yönəlir:

1.Müdafiə məqsədli gəlirlər əsasən qərarlar qəbul edilərkən yaranan ixtisarlar nəticəsində təzahür edir.

2. Müsbət gəlirlər təşkilati məqsədlərə nail olmaq imkanlarını artırır.

**Planlaşdırmanın tətbiqi:**

1.planlaşdırma obyekti üçün gələcək əlverişli şəraitin hazırlanması imkanlarını yaradır;

2. yaranan problemləri aydınlaşdırır;

3. gələcək işdə menecerlərin qərarlarının reallaşdırılmasını stimullaşdırır;

4. təşkilatda fəaliyyətlərin əlaqələndirilməsini yaxşılaşdırır;

5. menecerlərin təhsil hazırlıqlarını yüksəltmək üçün əsaslar yaradır;

6. sahibkar subyektin vacib informasiya ilə təmin olunması imkanlarını artırır;

7. ehtiyatların daha rasional bölüşdürülməsinə imkan yaradır;

8. təşkilatda nəzarəti yaxşılaşdırır.

**Planlaşdırmanın mahiyyəti:**

1. makro səviyyədə planşadırma obyektiv qanunlar sisteminin, əsas nəzəri fərziyyə və nəticələrin, toplanmış təcrübə və təsərrüfat praktikasının şüurlu istifadəsidir.

2. mikro səviyyədə planlaşdırma – təsərrüfat subyektinə daha çox gəlir gətirmək üçün istehsalın uyğun növləri, miqyası, müddəti və digər göstəricilərini daha yaxşı əsaslandırmalıdır.

M.Alekseyevə görə, planlaşdırmanın iki mənası var:

1. ümumi iqtisadi nöqteyi-nəzərdən planlaşdırma mexanizmdir;

2. konkret idarəetmə mənasında planlaşdırma – menecment funksiyalarından biri olub, müəssisənin gələcəyilə bağlı uzaqgörənlikdir.

Müəllifə görə, planlaşdırma menecmentin birinci və daha dəyərli mərhələsidir. Planlaşdırmada:

1. idarəetmə mərhələsi vaxta görə konkretləşdirilir;

2. qərarlar qəbul etmək üçün nə az, nə çox, lazımi qədər vacib olan informasiya olmalıdır;

3. plan fəaliyyətə təsir göstərir, lakin özü fəaliyyət deyil;

4. əgər planı tərtib edən həmin planın reallaşdırılmasında və inkişafında iştirak edərsə, plan daha çox ehtimalla yerinə yetiriləcək;

5. plan dəyişən vəziyyətə uyğunlaşdırılmalı, yəni kəskin olmamalıdır;

6. plan yerinə yetirilərkən planlaşdırma obyektinin monitorinqi keçirilməlidir.

**Planlaşdırmanın növləri:**

1. Təşkilati səviyyədə planlaşdırma – tətbiq olunma sahəsinə, yəni idarəetmənin makro və mikro sahələrinə, ərazi, regional, firmalararası fəaliyyətə görə və planlaşdırma obyektinə, yəni idarəetmə subyekti və onun struktur vahidlərinə görə müəyyənləşir;

2. İstifadə edilən amillərin xüsusiyyətlərinə görə planlaşdırma – əhatə dairəsinə (ümumi, hissəli planlaşdırma) görə, planlaşdırma göstəricilərinin xüsusiyyətlərinə görə (direktiv, yəni hüquqi qüvvəli planlaşdırma), indikativ, yəni dövlətin sosial iqtisadi siyasətinin reallaşdırılma vasitəsinə görə, planlaşdırmanın dərinliyinə görə məhdudlaşdırılmış, hissəli planlaşdırma, göstəricilərin dəyişməsinə görə möhkəm və dəyişə bilən planlaşdırma;

3. Cəlb edilən vaxta görə planlaşdırmada – vaxt həm məqsəd, həm də məhdudiyyət kimi götürülür və vaxta qənaət yaxud vaxtın itirilməsi nəzərə alınır. Vaxt aspekti aşağıdakı meyarlara malikdir: planın formalaşdırılması texnologiyasına görə tətbiq edilən planlaşdırma, keçid planları ilə bağlı olan sürüşkən planlaşdırma, mərhələli planların hazırlanması ilə bağlı olan ardıcıl planlaşdırma, parametrləri eyni vaxtda müəyyənləşən eyni vaxtlı planlaşdırma, 10-25 illik tərtib edilən uzun müddətli planlaşdırma, orta müddətli planlaşdırma, 1-2 illik qısa müddətli planlaşdırma və əvəzli planlaşdırma fərqləndirilir.

4. Tətbiq edilən fəaliyyətə görə planlaşdırmada – planların işlənməsi metodologiyasına görə - funksional, situasion; funksional əlaqələrin xüsusiyyətlərinə görə inteqrativ, lokal; ümumi oriyentasiyaya görə - indiki zamana tənzimlənən inaktiv, əvvəlki təcrübələrə əsaslanan reaktiv, gələcəyə tənzimlənən preaktiv, qarşılıqlı təsirə əsaslanan interaktiv; məqsədli yönəlməyə görə – normativ, yəni vasitə, məqsəd və ideallların seçilməsinə yönəlmiş planlaşdırma, ayrı-ayrı əməliyyatların planlaşdırılması ilə bağlı taktiki, vəzifələrin həlli vasitələrinin seçilməsinə yönəlmiş əməliyyatlı planlaşdırma fərqləndirilir.

5. Funksional sahəyə görə planlaşdırma – sosial, iqtisadi, elmi-texniki, ekoloji, mərkəzləşdirilmiş, mərkəzdən qaçma, məqsədli, vasitəli, proqramlı və fəaliyyətin xüsusiyyətlərinə uyğun planlaşdırmadan ibarətdir.

6. Strateji planlaşdırma – strateji qərarların qəbul edilməsinə yönəlir. Strateji inkişaf seçimində müəyyən rasionallıq səviyyəsinin əldə edilməsinə görə korporativ; rəhbər işçinin təcrübə və intuisiyasına əsaslanan intuitiv; problemlər, qərarlar, iştirakçılar və seçimlər arasında qəflətən yaranan əlaqələrlə bağlı xaotik və s. planlaşdırma formaları seçilir.

**Planlaşdırma mərhələsində bir neçə strategiya seçilir.** Planlaşdırma özündə proqnozlaşdırma və tədqiqat alternativlərini birləşdirir. Planlaşdırma

zamanı ilk növbədə xarici mühit və daxili imkanlar öyrənilir. Müəssisənin strateji planı hazırlanır. Plan aşağıdakı strategiyalara malik olur:
1) marketinq strategiyası;
2) maliyyə strategiyası;
3) istehsal strategiyası;
4) sosial strategiya;
5) təşkilati dəyişikliklər strategiyası;
6) ekoloji strategiya.

Plan aşağıdakı bölmələrdən ibarətdir:
1) müəssisənin məqsəd və vəzifələri;
2) müəssisənin fəaliyyəti və uzun müddətli vəzifələri;
3) müəssisənin strategiyası;
4) funksional strategiya;
5) daha dəyərli layihələr;
6)xarici əməliyyatların təsviri;
7)kapital qoyumu və resursların müəyyənləşdirilməsi;
8) gözlənilməz hadisələrin planlaşdırılması.

Bütün strateji planlar müxtəlif olub, bir çox amillərdən asılıdır. Planlaşdırma idarəetmənin vacib funksiyalarından olub məqsədlər sistemi, prioritetlərin, vasitə və metodların müəyyənləşdirilməsilə bağlıdır.

Planlaşdırma metodları – planlaşdırma metodologiyasının əsas hissəsi kimi plan sənədlərinin işlənməsi və əsaslandırılması üsulları toplusudur. Hər hansı bir planlaşdırma metodu planlaşdırmanın konkret formasından asılı olaraq aşağıdakılardan asılıdır:
1)planlaşdırmanın istiqamətləri;
2) plan parametrlərinin əsaslandırılması vasitələri.

**Ənənəvi planlaşdırma metodları aşağıdakılardır:**

1.Tətbiq olunan metodlarda – əsas planlaşdırma metodları olan normativ, balanslaşdırma, məqsədli-planlaşdırma, riyazi metodlardan ibarətdir.

2.Ən geniş yayılmış metodlar - normativ, balanslı, məqsədli-planlaşdırma metodlarıdır.

Planlaşdırmadan əvvəlki tədqiqat metodları – iqtisadi qruplaşdırma, birbaşa hesablama, strukturlaşdırma, sosial tədqiqat, ekspert, tənasüb və nisbət. Bu metodlar planlaşdırmanın proqnoz-analitik mərhələsində istifadə edilir və ümumelmi, ümumi və xüsusi metodlara bölünür.

**Planlaşdırmanın ümumelmi metodları** – plan qərarlarının əsaslandırılması prosesinin metodoloji, məntiqi istiqamətləndirilməsi müəyyənləşdirilir. Buraya sistemli və iqtisadi analiz metodları daxildir.

***Sistemli analiz*** - mürəkkəb problemlərin səmərəli həlli yollarının axtarılmasına yönəlir və idarəetmə qərarlarının hazırlanması və əsaslandırılmasına imkan yaradır.

***İqtisadi analiz*** – sistemli analizlə bir sıra oxşar xüsusiyyətlərə malik olub, təsərrüfat-maliyyə fəaliyyətinin qeydiyyatı, şərhi və plan işində istifadəsini nəzərdə tutur.

**Planlaşdırmanın ümumi metodları:**

***Balanslaşdırma (tarazlaşdırma) metodu*** – ictimai tələbat və ehtiyatların istifadəsi, müxtəlif məhsulların, istehsalın, sahələrin, ərazilərin bütövlükdə xalq təsərrüfatının inkişafında vacib tarazlığın və əlaqələndirmənin təminatına çalışır.

***Normativ metod*** – iqtisadiyyatın vacib məqsədləri və ETT-nin nailiyyətlərini özündə əks etdirən norma və normativlər sistemini müəyyənləşdirir.

***Məqsədli-planlaşdırma metodu*** – məqsədli kompleks proqramların işlənməsinə yönəlib makroiqtisadi problemlərin, vacib xalq təsərrüfatı vəzifələrinin həllinə çalışır.

**Planlaşdırmanın xüsusi metodları** – mövcud plan məlumatların alınması və analizi olub, iqtisadi qruplaşma, birbaşa hesab, münasibətlər, strukturlaşdırma, sosioloji tədqiqat, ekspert metodlarını özündə birləşdirir.

***İqtisadi qruplaşdırma metodu*** – analiz obyektlərini eynicinsli qruplarda birləşdirərək, qarşılıqlı təsirdə olan amillərin təsvirini öyrənməyə imkan verir.
***Birbaşa hesablama metodu*** – maddi, əmək və maliyyə ehtiyatlarının itki normalarının elmi əsaslandırılmasından çıxış edən göstəriciləri müəyyən edir.
***Münasibətlər metodundan*** – ən geniş yayılanı indeksləşdirmədir. Bu metodun mahiyyəti iki fərqli zaman və ya məkan mərhələlərinin müqayisəsinə əsaslanır. ***Strukturlaşdırma metodu*** – ümumi məqsədlərin mərhələli bölünməsinə əsaslanır.

***Sosioloji tədqiqat metodu*** – sorğu, müşahidə və sənədlərin analizi əsasında sosial təzahür və proseslərin dərk edilməsi aləti kimi çıxış edir.

***Ekspert metodları*** – ayrı-ayrı şəxslərin malik olduğu informasiyanın alınması üçün istifadə edilir.

**Sosial planlaşdırmanın aşağıdakı metodları fərqləndirilir:**

***Analitik metod*** – analiz və ümumiləşdirməni özündə birləşdirir. Planlaşdırma gedişində sosial tərəqqi tərkib hissələrə bölünür və bu əsasda nəzərdə tutulan proqramın reallaşdırılması istiqamətləri müəyyənləşdirilir.

***Variantlar metodu*** – daha tam və həqiqi informasiyanın olması şəraitində sosial mərhələlərin bir neçə mümkün həlli yollarının müəyyənləşdirilməsidir.

***Kompleksli metod*** – bütün əsas amillər: maliyyə, maddi və əmək ehtiyatları, icraçılar və müddət nəzərə alınmaqla proqramın hazırlanması. Bu metod sosial tərəqqinin inkişafı, tempinin müəyyənləşdirilməsi, onun statik və dinamik modeli və planın əsas göstəricilərinin işlənməsini nəzərdə tutur.

***Proqramlı-məqsədli metod*** – ictimai inkişafın aid olduğu əsaslardan asılı olmayaraq, vacib vəzifələrinin həlli ilə bağlıdır.

***Sosial eksperiment*** – eksperimentin gedişində obyektiv qanunların fəaliyyət mexanizmləri və ya bir neçə institut əsasında onların təzahür xüsusiyyətləri dəqiqləşdirilir.

***İqtisadi – riyazi metodlar*** – sosial planlaşdırmanın müxtəlif metodlarından istifadə etməklə kəmiyyətli analizdir.

**Planlaşdırmanın metodologiyası**

Planlaşdırmanın metodologiyası – plan qərarlarının, prinsiplər sisteminin, yanaşmalar, göstəricilər, metodika və metodlarının işlənməsi və əsaslandırılması, həmçinin planlaşdırma məntiqidir. Proqnozlaşdırma və planlaşdırma metodologiyaları oxşardır. Plan proqnozların informasiya və modellərinin işlənməsi əsasında hazırlanır. Plan tam proqnozlara uyğun qurulmaya bilər, lakin dövlət planları çox vaxt plan-proqnoz adlanır, çünki burada informasiyanın bir hissəsi proqnoz xarakteri daşıyır. Plan konkret rəqəmli parametrlərə malik olub, təsərrüfat subyektinin sosial-iqtisadi inkişafının son məqsədlərini əks etdirir. Təsərrüfat subyekti və onun funksiyalaşma mexanizmləri mürəkkəb olduqca planın mahiyyətini əks etdirən göstəricilər də mürəkkəb olur. Bütün **plan göstəricilər** aşağıdakı kimi təsnif edilir:

1. Təyinatına görə – sübut edilmiş, indikativ, hesablanmış.
2. Mahiyyətinə görə – inteqral, fərdi.
3.Formasına görə – kəmiyyət, keyfiyyət, təbii, dəyər, mütləq, nisbi göstəricilər sistemi planlaşdırma dövrünün məqsəd və vəzifələrindən asılıdır.

**Planlaşdırma prinsipləri** – plan sənədlərinin işlənməsi üçün əsas gümanları formalaşdırma, əsaslandırma və təşkilatlandırma qaydalarıdır. Onlar daim mükəmməlləşdirilir, yeni mahiyyət qazanır.

**Planlaşdırmanın əsas metodoloji prinsipləri aşağıdakılardır:**

***Elmilik*** – plan sənədləri iqtisadi, ETT və digər elmlərin qanun və nəzəriyyələrinin işlənməsinə əsaslanır.

***Komplekslilik*** - planlaşdırma qərarlarının qəbul edilməsində bütün mümkün nəticələrin nəzərə alınması ilə bağlıdır.

***Sistemlilik*** – planlaşdırma qərarlarının qəbul edilməsində funksiyalaşmanın mürəkkəb xüsusiyyətləri nəzərə alınır.

***Optimallıq*** – planlaşdırma obyektinin səmərəli funksiyalaşması və inkişafının təmin edilməsinə çalışır.

***Uyğunlaşma*** – planın həm obyekt, həm də subyektin mövcud dəyişikliklərə uyğunlaşma imkanlarını nəzərdə tutur.

***Ehtiyat imkanlarının məhdudluğu*** – hər növ ehtiyatların rasional və təsirli istifadəsinin təmin edilməsinə yönəlir.

Bu ümumi planlaşdırma prinsipləri ilə yanaşı hər bir idarəetmə sisteminin öz planlaşdırma prinsipləri olur.

Praktikada planlaşdırmanın 3 istiqaməti fərqləndirilir: proqressiv, dairəvi, retroqrad.

1. ***Proqressiv (aşağıdan - yuxarı) planlaşdırma*** – ən aşağı idarəetmə şəcərəsindən aliyə doğru istiqamətlənir. Struktur bölmələrin hər biri öz planını işləyir və sonda inteqrasiya olunub müəssisənin ümumi planına çevrilir.

2. ***Retroqrad (mürtəce, yuxarıdan - aşağı) planlaşdırmada*** – struktur bölməllərin planları uyğunlaşdırılmalı, detallaşdırılmalı və icraçıları dəqiqləşdirilməlidir.

3. ***Dairəvi planlaşdırmada*** – birinci mərhələdə əsas məqsədlər planlaşdırılır, ikinci mərhələdə detallaşdırılmış göstəricilər sistemi ilə son plan hazırlanır. Bu zaman ən uğurlu qərarlar plana daxil edilir.

**Planlaşdırmanın məntiqi və texnologiyaları**

Planlaşdırmanın metodologiyasının vacib elementi məntiqdir. Planlaşdırmanın məntiqi – planın işlənməsi və plan hesablamalarının mərhələli tətbiqi ilə bağlı olan fəaliyyətin ardıcıllığı və əsaslandırılması sistemidir. Planlaşdırmanın əsas ideyası planın işlənməsi prosesinin tabe olduğu çıxış mövqeyinin müəyyənləşdirilməsi ilə bağlıdır. Planlaşdırmanın məntiqi əsasları –

1) məqsədin və ya məqsədlər toplusunun müəyyən edilməsi və formulə edilməsidir;

2) planlaşdırma obyektinin inkişafının çıxış nöqtəsinin analizi, yəni onun keçmiş və indiki vəziyyətinin, planlaşdırmadan əvvəl əldə edilmiş səviyyəsinin dəqiqləşdirilməsidir;

3) cəmiyyətin tələbatlarının analizi, bu tələbatların həcmi və strukturunun tədqiqidir;

4) ehtiyatların (həcm və strukturun) planlaşdırmanın əvvəlində və planlaşdırma dövründəki vəziyyətinin müəyyənləşdirilməsidir;

5) cəmiyyətin ehtiyat və tələbatlarının uyğunlaşdırılması və plan qərarlarının işlənməsidir.

Planlaşdırmada məqsəd və ona nail olma yollarının müəyyən edilməsi zamanı təsərrüfat subyektinin inkişafının tarazlığını və proporsionallığını

təmin etmək vacib şərtdir. Planlaşdırmanın məqsədi işləmə, reallaşdırma və planlaşdırmanın həyata keçirilməsinə nəzarət prosesinin vahidlyi haqqında fərziyyənin reallaşdırılması üçün onun məqsədləri və funksiyalaşma parametrlərinin təsərrüfat subyekti və onun elementlərinə uyğunluğunun yoxlanması ilə bağlıdır. Bu zaman aşağıdakı çatışmazlıqların yoxlanması imkanı yaranır:

1) planlaşdırma prosesində buraxılmış səhvlərin aşkar edilməsi;
2) istifadə edilməmiş ehtiyatları, imkanları aşkar etmək və onların idarəetmə subyektinin funksiyalaşması prosesinə aid edilməsi;
3) planlaşdırma obyektində tənzimlənmənin müəyyən edilməsi və onların aradan qaldırılması üçün ölçülərin götürülməsi;
4) yeni tələbatların aşkar edilməsi və onların təmin edilməsi üçün ehtiyatların aydınlaşdırılması.

Planlaşdırmanın məntiqi daha dinamikdir. O planlaşdırmanın metodologiyasını konkretləşdirir və planlaşdırmanın texnologiyasının işlənməsinə xidmət edir. Planlaşdırmanın texnologiyası – plan məlumatların toplanması, işlənməsi və istifadə edilməsi proseslərinin məcmusudur. Planlaşdırma prosesləri idarəetmə qərarlarının qəbulu prosesinin mürəkkəbliyi, məlumatlılığı, kompleksliliyi ilə xarakterizə olunur və planlaşdırma obyektinin sistemli tədqiqini tələb edir.

Obyektin inkişaf probleminin planlı həlli:

1) problemin analizi;
2) idarəetmə qərarlarının analizi və planın qəbul edilməsi;
3) planın reallaşdırılması və planlı fəaliyyətin nəticələrinin qiymətləndirilməsi.

***Problemin analizi*** –

1) planlaşdırmanın məqsədlərinin analizi və seçilməsi;
2) problemin və onun həlli imkanlarının seçilməsi;
3) planlaşdırma obyektinin qüvvəsinin analizi;
4) planlaşdırma obyektinin mövcud qüvvəsi çərçivəsində imkanların müəyyənləşdirilməsi ilə bağlıdır.

***İdarəetmə qərarlarının analizi və planın qəbul edilməsi*** -

1) alternativlərin, yəni planlaşdırma obyektinə təsir etmə imkanlarının aşkar edilməsi;
2) alternativlərin analizi (məhdudiyyətlərin, maliyyə itkilərinin aşkar edilməsi və s.);
3) planlaşdırma qərarlarının nəticəliliyinin seçilməsi;
4) planlaşdırma obyektinin müəyyən strategiya və sosial-iqtisadi vəziyyətində qərarların analizi ilə bağlıdır

***Planın reallaşdırılması və planlı fəaliyyətin nəticələrinin qiymətləndirilməsi*** - 1) planın reallaşdırılması mexanizminin analizi;
2) planın reallaşdırılması;
3) planın reallaşdırılmasının nəticələrinin qiymətləndirilməsilə əlaqədardır.

**Planlaşdırma prosesi aşağıdakı mərhələlərdən ibarətdir:**

**I Mərhələ -** ***Planlaşdırmanın məqsədinin müəyyənləşdirilməsi.***

***Planlaşdırmanın məqsədi*** – planlaşdırmanın forma və metodlarının seçilməsində həlledici amil olub, plan qərarlarının qəbulu və onların reallaşdırılmasına nəzarəti təmin edir. Həm ümumi məqsədlərin işlənməsi, həm də konkret məqsədlərin həyata keçirilməsi hazırlanır.

***Problemin analizi*** – bu mərhələdə planın tərtibi üçün çıxış vəziyyəti müəyyən edilir və son vəziyyət formalaşır.

**II Mərhələ** – ***Alternativ seçilməsi*** - bu zaman problemli vəziyyətin mümkün həlli yolları sırasında uyğun fəaliyyət axtarılır. ***Proqnozlaşdırma*** – zamanı planlaşdırılan vəziyyətin inkişafı haqqında təsəvvürlər formalaşır. ***Qiymətləndirmə*** – zamanı ən yaxşı alternativin seçilməsi üçün optimallaşdırma hesabı aparılır.

**III Mərhələ** – ***Planlaşdırma qərarlarının qəbulu*** – zamanı planlaşdırma qərarları seçilir və rəsmiləşdirilir.

**IV Mərhələ** – ***Reallaşdırma və nəzarət prosesində*** mövcud göstəricilər müqayisə və korrektə edilir.

İdarəetmə prosesinin texnoloji planlaşdırılması idarəetmə aparatının işçiləri arasında əmək bölgüsünə əsaslanır. Bu bölgü aşağıdakılardan ibarət ola bilər:
1) funksional (idarəetmə funksiyasına və ya idarəetmə işlərinin növlərinə görə);
2) peşəkarlıq (idarəetmənin hər bir funksiyası daxilində ixtisaslara görə);
3) təsnifat (işlərin mürəkkəblik səviyyəsinə görə);
4) texnoloji (prosedur, funksiyaların və əməliyyatların növlərinə görə).

**Səmərəli planlaşdırma qarşısındakı məhdudiyyətlər**

Planlaşdırma prosesinə mənfi təsir edən bir sıra amillər vardır:

1.İnzibati planlaşdırmanın zəifliyi aşağıdakılarla bağlıdır: məqsəd və meyarların uyğunsuz və səhv görünməsi; idarəetmə subyektinin məqsədləri dərk etməməsi; son məqsədlərin, personala tələblərin, müvəqqəti müddət və kəskin tarixin bilinməməsi; əlaqə və reqlamentin olmaması; cədvələ əməl edilməməsi və s.

2.Obyektiv, həqiqi və tam informasiyanın olmaması aşağıdakılarla bağlıdır: səmərəli proqnozlaşdırmanın həyata keçirilməsinin qeyri-

mümkünlüyü; qeyri-dəqiq, səhv, köhnəlmiş və natamam göstəricilər; vaxt azlığı və s.

3.Planlaşdırmaya sərf edilən vaxt, qüvvə və ehtiyatların planın reallaşdırılmasının nəticələri ilə uyğunlaşdırılmaması aşağıdakılarla bağlıdır: çox uzun müddəti əhatə etməsi; vaxt və ehtiyat imkanlarının uyğunsuzluğu; pis maliyyə qiymətləri və s.

4.Planlaşdırma üçün çətin olan təkrarlanmayan amillər və əməliyyatların mövcudluğu aşağıdakılarla bağlıdır: planlaşdırma sisteminin təşkilati strukturunun böyüklüyü və mürəkkəbliyinə görə müəyyənləşir; planlaşdırma zamanı idarəetmə subyekti çoxsayda təsadüfi proses və hadisələrlə toqquşurlar; planlaşdırmaya sistemli yanaşma olmur; planların formalaşdırılması və reallaşdırılmasında idarəetmə subyektinin təcrübəsi nəzərə alınmadan qoyulan qiymətlər.

5.Yaradıcılıq və yeniliklərlə bağlı olan səmərəliliyin mövcudluğu aşağıdakılarla bağlıdır: icraçılar və digər maraqlı şəxslərin iştirakı olmadan planın alt bölməsinin işçiləri tərəfindən planın formalaşdırılması; tələb olunan səviyyəli əməkdaşların tapılması çətinlikləri.

Yuxarıda sadalanan amillər planlaşdırmanın metod və təşkilinə təsir göstərir və bu aşağıdakı kimi təzahür edir:

1.İdarəetmə subyektinin funksiyalarının bölüşdürülməsi və onun fəaliyyətinin planlaşdırılması ehtiyacı yaranır. Bu strateji planlaşdırmanın funksiyalarının operativ plan işindən ayrılması istiqamətində həyata keçirilir.

2.Planın həyata keçirilməsinə nəzarətə və planlaşdırmanın təşkilinə əmək bölgüsü və idarəetmə şəcərəsi prinsipləri böyük təsir göstərir. Bu təsirin səviyyəsi idarəetmə obyektinin təşkilati strukturu ilə müəyyənləşir.

3.Bununla əlaqədar olaraq, uzun müddətli planların rolu və onların orta müddətli və mövcud planlarla əlaqəsinin vacibliyi yüksəlir.

**Planlaşdırma formasının seçilməsinə təsir edən amillər**

Praktiki fəaliyyətdə menecerlər bir neçə müxtəlif planlaşdırma növlərindən, çox vaxt isə planlar kombinasiyasından istifadə edirlər. İdarəetmə subyektinə eyni vaxtda tətbiq edilən müxtəlif planlaşdırma formalarının toplusu planlaşdırma forması adlanır. Planlaşdırma formalarının seçilməsi bir çox amillərdən asılıdır:

1)İdarəetmə subyektinin xüsusiyyətləri ilə bağlı olan amillər planlaşdırma növünü seçərkən müəyyənləşdirici rol oynayır. İdarəetmə subyektinin coğrafi mövqeyi, onun funksiyalaşması vəziyyəti və şəraiti, idarəetmə strukturunun xüsusiyyətlərindən asılı olaraq, planın sosial və iqtisadi mahiyyəti müxtəlif formalar alır. Planlaşdırma formasının seçilməsinə təsir edən vacib amillərdən biri də idarəetmə subyektinin avtomatlaşdırılması səviyyəsidir.

Avtomatlaşdırma plan qərarlarının keyfiyyətinin artırılmasına və informasiya toplamaq üçün vaxt itkisinin qarşısının alınmasına şərait yaradır.

2) Xarici mühit amilləri planlaşdırmaya birbaşa və dolayı təsir göstərə bilir. Birbaşa təsir amilləri qəbul edilən planlaşdırma qərarlarına müxtəlif şərtlər və məhdudiyyətlər çərçivəsində təsir göstərir. Bu təsirin subyektləri – istifadəçilər, rəqiblər, ictimai təşkilatlar, federal və regional hakimiyyət orqanları və s. ola bilər. Dolayı təsiredici faktorlar planlaşdırma qərarlarına bir mənalı təsir etmir, lakin dolayı vasitələrlə qərarların həyata keçirilməsinə, iştirakçıların maraqlarının reallaşdırılmasına və şərtlərin dəyişdirilməsinə təsir edir. Məsələn, firma üçün belə təsir ölkənin iqtisadi vəziyyəti, beynəlxalq hadisələr, siyasi amillər və s. ola bilər. Planlaşdırma formasına təsir edən əsas amil dövlətin iqtisadi siyasətidir. Dövlətin təsiredici obyekləri aşağıdakılardır:

1) mülkiyyət hüququ;
2) istehsalçılar və istifadəçilər, muzdurlar və muzdlu işçilər arasındakı qarşılıqlı münasibətlər;
3) rəqabətin müdafiəsi və inhisarçılıqla mübarizə;
4) maliyyə, icarə, vergilər;
5) qiymətlərin formalaşması;
6) iqtisadi ehtiyatların istifadəsi;
7) xarici iqtisadi fəaliyyət;
8) elmi-texniki siyasət.

Planlaşdırma prosesi həmişə eyni struktura malik olub, tələblərə cavab verməlidir. Məsələn, planlaşdırma formasının seçilməsində aşağıdakı göstəricilər vacib rol oynaya bilər:

1) planlaşdırma zamanı qərar qəbul etmək üçün bütün hadisə və amillər nəzərə alınmalıdır;
2) planlaşdırma təsnif edilməlidir;
3) planlaşdırma dəqiq olmalıdır;
4) planlaşdırma elastik olmalıdır;
5) planlaşdırma qənaətcil olmalıdır;
6) planlaşdırmanın əhəmiyyəti nəzərə alınmalıdır.

Planlaşdırma prosesində plan sənədlərinin işlənməsi ilə bağlı olan müxtəlif metodların uyğunlaşdırılması vacibdir. Perspektivli planlaşdırmada proqram-məqsədli yanaşma və riyazi metodlar, tarazlaşdırma və normativ metodlar böyük rol oynayır. Müxtəlif metodlar arasındakı münasibətlər plan müddətinin davamiyyəti, məqsəd və vəzifələri, işçilərin təcrübə və dərəcəsi, iqtisadi-riyazi modellərin istifadəsindən asılıdır.

**YOXLAMA SUALLAR**

1.Planlaşdırma hansı mərhələlərdə həyata keçirilir?
2. Planlaşdırmanın əsas prinsipləri hansılardır?
3.Planlaşdırmanın hansı növləri fərqləndirilir?
4.Ənənəvi planlaşdırma metodları hansılardır?
5.Planlaşdırmanın əsas metodooji prinsipləri hansılardır?
6.Planlaşdırma texnologiyalarını izah edin.

**REFERAT MÖVZULARI**

1.Planlaşdırma prinsipləri
2.Regional sosial planlaşdırma
3.Sosial proseslərin planlaşdırılması
4. Konkret, yaxud ünvanlı planlaşdırma
5.Sosial planlaşdırmanın metodları
6.Planlaşdırmanın əsas metodoloji prinsipləri
7.Planlaşdırmanın  məntiqi və texnologiyaları

**ƏDƏBİYYAT:**

1.Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
2.Гусейнов З.Р., Ибрагимов Э.Р. Планирование инвестиционного процесса на основе новой имформационной технологии. Баку, «Элм», 1990.
3.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988.
4.Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
5.Лаушинская Г.К. Планирование в условиях рынка: учебное пособие. М.: Издательско-торговая корпарация «Дашков и К», 2003.
6.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М.: Изд-во Моск. гуманит ун-та: Флинта, 2006.

## Mövzu 16. SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN SOSİAL TEXNOLOJİ METODLARI

### Sosial texnologiya anlayışı

«Texnologiya» anlayışı yunan dilində «texne» - incəsənət, vərdiş və «loqos» - elm sözündən götürülüb. Ensiklopediyada texnologiya aşağıdakı kimi müəyyənləşdirilir:

1.Materialların emalı, hər hansı istehsal prosesinin həyata keçirilməsi metodları haqqında biliklər toplusu kimi;

2. Materialı nemalı prosesinin müəyyən vasitə və müəyyən ardıcıllıqla həyata keçirilməsilə bağlı olan əməliyyatlar toplusu.

Bu texnologiyanın qısa tərifidir. Geniş mənada texnologiya dedikdə, bu və ya digər obyektin dəyişdirilməsi və transformasiyası prosesinin məqsədi, xüsusiyyəti və məntiqinə uyğun olan məqsədyönlü təcrübi fəaliyyətin nizamlanması və təşkil olunması vasitələri toplusu və sistemi nəzərdə tutulur. Texnologiyanın yaradılması və istifadə edilməsi mövcud vəziyyətdə fəaliyyət prosesinin optimallaşdırılması, rasionallaşdırılması, proqnozlaşdırılması və modelləşdirilməsi, lazımi keyfiyyət və mahiyyətin əldə edilməsinə müəyyən zəmanət verir. Sosial texnologiya anlayışı ilə yanaşı «sosial modelləşdirmə», «sosial eksperiment», «idarəetmə texnologiyası», «sosial layihə», yaxud «sosial layihələşdirmə», «sosial diaqnostika», «sosial ssenarilər», «sosiodram», «informasiya texnologiyası» və s. anlayışlar istifadə edilir. Sosial texnologiyalar bir tərəfdən qoyulan məqsədlərə təcrübi və praqmatik nail olma vasitələri, sistemli və istiqamətlənmiş məqsədyönümlük kimi, digər tərəfdən insanların fəaliyyəti, onların sosial enerjisinin, intellektinin reallaşdırılması ilə bağlı fəaliyyət sistemidir. Sosial texnologiyalar əməliyyatlı sosial özünüdərk olub, texnoloji qanunların dərk edilməsilə ifadə olunur. Beləliklə, sosial texnologiyalar sosial yeniliklər və sosial yaradıcılıq institutu, inkişafın təşkilatlandırılması və özünütəşkilatlandırması, diaqnostikası, takitikası və strategiyasıdır. Sosial texnologiyalar istehsal, texniki texnologiyaların zəruri davamı, insan fəaliyyətinin məhsulu olmaqla yanaşı fəaliyyətin və qarşılıqlı təsirin təşkilatlandırılması forması, üsulları və şərtləri kimi çıxış edir. Sosial texnologiyalar bütün sosial həyatı modelləşdirdiyindən sosiallıq kəsb edir. Sosial texnologiyaların əsasında yoxlanılmış, həqiqi sosioloji bilik durur. Sosial texnologiyalar həmişə ictimai problemlər əsasında müəyyənləşir və onların həllinə yönəlir. Burada iki yanaşma fərqlənir:

1) əgər problem varsa, onun həlli imkanları da var;

2) əgər qərar varsa, problem də var, yaxud olacaq.

Birinci yanaşma problemin həlli istiqamətində, ikinci yanaşma problemdən xilas edəcək qərarın axtarışına yönəlir, yəni birinci yanaşma sosial texnologiyalar, ikinci yanaşma sosial antitexnologiyalarla bağlıdır. Sosial problemlərdən xilas olmaq mümkün deyil, ona görə də onlardan xilas olmaq cəhdi problemi daxilə yönəldir və onların vaxtında və səmərəli həllini çətinləşdirir. Sosial texnologiyalar geniş mənada sosial nəzəriyyənin xüsusi forması olub, tədqiq olunan ictimai təzahürün kəmiyyət və keyfiyyət imkanlarının müəyyənləşdirilməsinə, idraki fəaliyyətin nəticələrilə bağlı xüsusi əməliyyatların mümkün ardıcıllığını əsaslandırmağa yönəlir. Sosial texnologiyalar xüsusi nəzəri əsaslara malik olmaqla yanaşı, real təcrübə ilə ali nəzəriyyə arasında keçid rolunu oynayır. Sosial texnologiyalar sosial dinamikanın bütün tərəflərində (fərdi, qrup, qruplararası qarşılıqlı təsir) mövcuddur. Texnologiyanın əsaslandırılması ilə bağlı olan nəzəriyyə metanəzəriyyə adlanır. Sosial texnologiyalar sosial təzahürlərin bütün tərəflərini əhatə edərək, həqiqi informasiyanın işlənməsi və əldə edilməsi ilə bağlı olur. Bu əsaslarda sosial texnologiyalar sosial informdinamikanı xarakterizə edir. Bu zaman ictimai biliyin yeni səviyyəsinə – əməliyyatlı koqnitiv ictimai biliyə keçid müşahidə olunur. KİV-in sosiologiyası, ictimaiyyətlə əlaqə (public relations), işgüzar ünsiyyət texnikası və metodikası sahələri buraya aid edilir. Sosial subyektlərin informasiyalı qarşılıqlı fəaliyyəti sosial reallığın yeni formasını yaradır və yeni idrak metod və paradiqmalarını tələb edir. Bu zaman Vinerin kibernetik prinsipləri, Şennonun informasiya nəzəriyyəsi və s. fundamental elmi nəticələr tətbiq edilir. Yeni sahə – tətbiqi sosiologiya ilə fundamental sosial fəlsəfəni özündə birləşdirən sosial koqnitologiya (idrak haqqında elm) informasiya ehtiyatlarının həm əməliyyatlı, həm də fundamental dərkinə imkan yaradır. Optimal istifadə (inkişaf, yüksəliş, rasionallaşdırma, optimallaşdırma, tətbiq etmə) sosial idarəetmə və sosial menecerlik anlayışlarının yeni mahiyyət qazanmasına şərait yaradır. Sosial texnologiyaların əsas məsələsi bütün alternativ variantların sosial modelinin hazırlanması, müşahidə edilən prosesin eyni məqamlarının müəyyənləşdirilməsi, diaqnostik xarakteristikasının verilməsi, alınan nəticələrin qiymətləndirilməsi vasitələrinin işlənib hazırlanması, ortaq, fərqli, şaxəli məqamlarının mərhələliyinin dərk edilməsi ilə bağlıdır. Bu məsələnin həll edilməsi konseptual aparatın – əməliyyatlı müdaxilə, sosial seçim, sosial qərar, sosial moelləşdirmə, sosial layihələşdirmə, sosial ssenarinin yenidən təşkilatlandırılması əsasında mümkündür. Sosial texnologiyalar arzu edilən nəticəni əldə etmək zərurəti və tələbatı əsasında sosial obyektə məqsədyönlü təsir olub, mərhələlilik, vasitəlilik, əməliyyatlılıq anlayışlarını özündə əks etdirir. Digər tərəfdən sosial texnologiyalar xüsusi

nəzəriyyə kimi sosial obyektə məqsədyönlü təsiri tədqiq edir, təsi etmənin səmərəli üsullarını işləyib hazırlayır və əsaslandırır. Bu zaman sosial obyekt dedikdə, sosial münasibətlər, sosial qarşılıqlı təsir, sosial qrup, sosial institut, sosial təşkilat nəzərdə tutula bilər. Sosial ssenari, sosial layihə formalı sosial texnologiyalar mümkün dəyişiklikləri nəzərə almalıdır.

**Əsas və xüsusi sosial texnologiyalar**

**Əsas sosial texnologiyalar** sosial obyektin strateji layihələşdirilməsi texnologiyaları ilə bağlıdır. Əsas sosial texnologiylar dedikdə, fərdi, şəxsi və ictimai mahiyyətlərin ahəngdarlığının təmin edilməsi, sosial subyektin yaradıcı imkanlarının inkişafı və fəallığı haqqında mahiyyəticə humanist məqsədlərin irəli sürülməsi nəzərdə tutulur.

**Xüsusi sosial texnologiyalar** sosial obyektə taktiki-operativ təsir formaları – sosial təşkilatlandırma, münasibət və əməliyyatların əyani-təcrübi tənzimlənməsi, müxtəlif səviyyələrdə sosial qarşılıqlı təsirin optimallaşdırılması ilə bağlıdır. Əsas və xüsusi sosial texnologiyalar sosial özünütəşkilatlandırmanın və uyğun məqsəd, vasitə və metodların fərqli xüsusiyyətləri əsasında müəyyənləşir. Sosial texnologiyaların çoxsaylı növləri fərqləndirilir. Ən ümumi metodlar sırasında ekspert qiymətləndirməsi, elmi müşahidə, müdaxilə metodları seçilir. Sosial texnologiyaların reallaşdırılmasının vacib şərti təşkilati struktur və sistemlərin yaradılması, sosial təsir siyasətinin işlənib hazırlanması ilə bağlıdır. Təkamüllü tədqiqat modelinin işlənib hazırlanması sosial texnologiyaların növbəti mərhələsi kimi çıxış edir. İşlənib hazırlanma mərhələləri sistemin analizi ilə müşayiət olunur, yəni inkişaf mərhələsinin ardınca qiymətləndirmə mərhələsi, sonra isə məlumatı yayma və tətbiq etmə mərhələsi gəlir. İlk dörd mərhələ – analiz, hazırlanma, inkişaf və qiymətləndirmə təkamüllü tədqiqat kimi qiymətləndirilir. Burada qiymətləndirmə mərhələsi qiymətləndirmənin tədqiqi adlandırılır. Digər mərhələlər yeniliklərin, yəni tədqiqatın nəticələrinin istifadəsilə bağlıdır. Texnoloji mərhələlərin tam ardıcıllığı ilə yerinə yetirilməsi təkamüllü tədqiqat və onun istifadəsinin mahiyyətilə bağıdır. E.Tomas xüsusi fəaliyyət, yaxud texnoloji əməliyyatlardan ibarət olan əməliyyat mərhələlərini, yaxud qaydalarını fərqləndirir. Model əməliyyatlar, mərhələlər və tədbirlər məcmusu əsasında qurulur. Modelin daimiliyi dəyişən şəraitlər, uyğun amillər, əlavələr, genişlənmələr, maddi əsaslarla bağlı olur. Model texnoloji tələbatlarla bağlı olan alətlər kompleksi olub, hər bir mərhələdə qiymətləndirmə, müqayisə, seçim və qərara əsaslanır. Model mürəkkəb nəzəri sosial məsələnin həllilə əlaqədar istifadə olunur. Bu və ya digər texnoloji tələblər sosial münasibətlərin çoxtərəfliliyi ilə bağlı olur. Metodların texnolojiliyi məqsəd və nəticələrin texnolojiliyi ilə uyğun

olmalıdır. Texnologiyalaşmanın mahiyyəti sosial obyektə təsirlə bağlıdır. Hər hansı bir problemin olması yalnız onun texnoloji həlli imkanlarının olması demək deyil. Sosial texnologiyaların hazırlanması və tətbiq edilməsi onların bütün hallar üçün yararlı və etibarlı olması demək deyil. Texnologiyalaşmanın mərhələlərindən olan qiymətləndirmə fəaliyyəti qiymətləndirmə planının hazırlanması və həyata keçirilməsindən asılıdır. Qiymətləndirmə fəaliyyəti səmərəlilik, məhsuldarlıq, məxaric, rasionallıqdan asılıdr. Əgər qiymətləndirmə mərhələsində müsbət nəticələr əldə edilirsə, nəticələri yayma və tətbiq etmə mərhələlərinə keçmək olar. Bu fazalar yeniliklərin istifadə edilməsi üçün zəruri texnoloji əməliyyatların hazırlanmasını tələb edir.

**Sosial texnologiyaların ehtiyatları** bir sıra sahələrlə bağlıdır. Texnoloji inkişaf – elmi və istehsal texnologiyaları, sosial-siyasi sahələrdəki fundamental və tətbiqi tədqiqatlarla bağlıdır. Sosial texnologiyaların işlənib hazırlanması və tətbiqi prosesində müxtəlif metodikalar istifadə edilir: konveyer sxemi, matritsa (qəlib) metodu, qərarlar və müqayisələr cədvəli, evristik metod. Sosial texnologiyalar maket, model, layihələrlə bağlı olur və fəaliyyətin rasional ardıcıllığının təmin edilməsinə yönəlir. Sosial texnologiyaların mahiyyəti fəaliyyətlə deyil, fəaliyyətin müəyyən ardıcıllıqla həyata keçirilməsi, yaxud fəaliyyət ardıcıllığının layihələşdirilməsi və proqnozlaşdırılması ilə bağlıdır. N.S.Danakin sosial texnologiyalaşmanın aşağıdakı mərhələlərini fərqləndirir: 1) sosial texnologiyaların ontoloji (mövcudluğunun) əsaslandırılması; 2) sosial texnologiyaların əməliyyatlar ardıcıllığı; 3) sosial texnologiyaların problemə uyğun olaraq, tətbiq edilməsi. Sosial texnologiyaların ontoloji əsaslandırılmasının əsas meyarı prosessuallıq (icra üsulu) hesab edilir. İki sosial prosesin uyğunluğu haqqında təsəvvür kifayət deyil, tamlıq, kafilik, uyğunluq nöqteyi nəzərindən həmin proseslərin tənqidi qiymətləndirilməsi də vacibdir. Bu məqsədlə prosesin növü, tipi, özünəməxsus xüsusiyyətləri, aid olduğu şəraitin daxili mexanizmləri, səmərəliliyi, istiqaməti analiz edilməlidir. Beləliklə, sosial proseslərin siyahısı tərtib olunur.

**Sosial proseslərin texnologiyalaşdırılmasının** mahiyyəti aşağıdakılarla bağlıdır:

1)prosesin formalaşması;
2)prosesin məqsədli yönəldilməsi;
3) sosial prosesin optimallaşdırılması;
4) sosial prosesin sabitliyinin təmin edilməsi;
5) özünütənzimləmə mexanizminin yaradılması;
6) lazımi şəraitin təmin olunması.

Sosial proseslər analiz edilərkən, onların daşıyıcıları, subyektləri, subyektiv və obyektiv əsasları aşkar edilir, təşkilati formaları, onlardakı təhriflər, deformasiyalar, sosial proseslərin təkamüllü fomaları müəyyənləşdirilir. Qeyd olunan məsələlərin həlli layihələşdirmə zərurəti yaradır, belə ki, layihələşdirmə və tətbiq etmə məqsədi daşıyan sosial texnologiyalar mövcud prosesin texnologiyalaşdırılmasına yönəlir. Sosial proseslərin texnologiyalaşdırılması zamanı tətbiqi sosiologiyanın metodlarından – sosial adaptasiya, sosial islah, sosial münaqişələrin həlli texnologiyaları və s. istifadə edilir. Sosial texnologiya ilk növbədə nəticəli və rasional məqsədyönlü sosial təsir metodlarının və metodikasının işlənib hazırlanmasıdır. Texnoloji ardıcıllığına görə texnoloji əməliyyatlar əlaqələndirilmiş, tabe edilmiş, nizamlanmış və tənzimlənmiş olur. Sosial texnologiyalar dəyişən şəraitin, yeni, qeyri-adi vəziyyətlərin tədqiqində yüksək dinamikliyi, ümumiliyi, uyğunlaşması ilə təsir metodikasından fərqlənir. Sosial texnologiyalar özünütənzimləmə, özünükökləmə, özünüislah və özünü təkmilləşdirmə prinsipləri əsasında qurulur. Sosial texnologiyalar sosial dəyişikliklər və sosial dərketmənin vasitəsi kimi fənlərarası metodlar əsasında formalaşır. Fənlərarası sosial texnologiyanın üstünlükləri tədqiqat obyekti və ona məqsədyönlü təsiretmə vasitələri haqqında tam təsəvvür yarada bilməsi ilə bağlıdır. Bu əsasda sosial obyektin xüsusiyyətləri, mahiyyəti, sosial dinamikanın xüsusiyyətləri aşkar edilir. Sosial texnologiyaların əsas məsələsi məqsədyönlü təsirdən sonra sosial obyektin hər cür dəyişmə imkanları və nəticələrinin nəzərə alınması ilə bağlıdır. Fənlərarası yanaşma əsasında xüsusi, əsasən riyazi vasitələrlə kəmiyyət, statik analiz həyata keçirilə bilər. Fənlərarası metodologiyanın və metodikanın istifadə edilməsi zamanı bəzi çətinliklər meydana çıxır. Bu bilavasitə ayrı-ayrı elmlərin yüksək səviyyəli ixtisalaşması, onların metodlarının, metodikalarının avtomatlaşdırılması, xüsusi idrak vasitələri, nəzəri müddəaları, empirik bazası, standartları, meyarları, dəqiqliyi, səmərəliliyi, rasionallığı və s. ilə bağlıdır. Sosial texnologiyalarda bu metodların istifadə edilməsi qeyd edilən maneələrin aradan qaldırılmasını tələb edir. İlk növbədə sosial texnologiyaların sosial obyektin dərk edilməsi və dəyişdirilməsilə bağlı «siyasətinin» hazırlanması vacibdir. Bu siyasət özündə ümumi (strategiya) və xüsusi (taktika və metodika) olanı birləşdirir. Fənlərarası metodologiyanın sosial texnologiyaların əsas metodu kimi istifadəsi zamanı fənlərarası tədqiqatın mərhələli təsviri vacibdir. Bu zaman ilk növbədə fənlərarası yanaşmanın aktuallaşması, yəni problemin bir fənn çərçivəsində həll olunmasının qeyri-mümkünlüyünün əsaslandırılması tələb olunur. Növbəti mərhələ tədqiqat obyekti və məqsəydyönlü fəaliyyətlə bağlı sistemli yanaşmanın

reallaşdırılmasıdır. Nəhayət, bir elmin metodlarının digər elm sahəsində tətbiq edilməsi hüdudları müəyyənləşdirilir. Sosial texnologiyalarda fənlərarası metodların istifadəsi zamanı həmin metodların bir neçə səviyyəsi nəzərə alınmalıdır. Birinci səviyyə – sistem nəzəriyyəsi baxımından sistemli yanaşma, ikinci səviyyə – təşkilatlanma nəzəriyyəsi və təcrübəsinin ümumi prinsipləri ilə bağlı olan təşkilatlanma səviyyəsi, üçüncü səviyyə – kompleks yanaşma, dördüncü səviyyə – məntiqi-riyazi yanaşma, beşinci səviyyə – qlobal yanaşma ilə bağlıdır. Sosial texnologiyaların metodologiyasında fənlərarası yanaşma xüsusi anlayışlar bazasının yaranmasına səbəb olur. Xüsusi sosial texnologiyaların metodologiyası ümumi sosial texnologiyalarla bağlıdır. Sosial texnologiyalar çərçivəsində sosial obyektə məqsədyönümlü təsir zamanı aşağıdakılar mərhələlər izlənilir: əmələ gəlmə (törəmə) – formalaşma (təşkilatlanma) – sistem – tamlıq – başaqa sistemə çevriləmə (dəyişilmə). Xüsusi sosial texnologiyalarda sistemin üzvi vahidə çevrilməsi nəzərə alınmaya bilər. Sosial texnologiyalar sosial nəzəriyyə və sosial təcrübənin xüsusi forması olub, sosial təşkilatlanmanın, cəmiyyətin özünü dərk etməsinin, yəni sosial refleksiyanın xüsusi forması kimi çıxış edir.

**YOXLAMA SUALLAR**

1.Sosial texnologiya dedikdə nə nəzərdə tutulur?
2.Əsas və xüsusi sosial texnologiyalar nə ilə fərqlənir?
3.Sosial texnologiyaların hansı ehtiyat sahələri fərqləndirilir?
4. Sosial proseslərin texnologiyalaşdırılmasının mahiyyətini izah edin.

**REFERAT MÖVZULARI**

1.Sosial layihələşdirmənin sosial texnoloji metodları
2.Sosial texnologiyalar
3.Əsas və xüsusi sosial texnologiyalar

**ƏDƏBİYYAT:**

1.Бергер П., Лукман Т. Социальное конструирование реальности : Трактат по социологии знания. М., 1995.
2.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988. М., 1989,с . 163.
3. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
4.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М. : Изд-во Моск. гуманит ун-та : Флинта, 2006.
5.Прогнозное социальное проектирование : Теоретико-методологические и методические проблемы / Ин-т социологии РАН ; отв. ред. Т. М. Дридзе. 2-е изд., испр. и доп.  М. : Наука, 1994.
6.Тощенко Ж. Т., Аитов Н. А., Лапин Н. И. Социальное проектирование. М., 1982.

## Mövzu 17. SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN AVTOMATLAŞDIRILMASI VƏ RİYAZİ MODELLƏŞDİRİLMƏSİ

Sosial layihələşdirmə yaradıcı fəaliyyət prosesi olsa da onu avtomatlaşdırmaq olar və zəruridir. Bu ilk növbədə aşağıdakı hallarla bağlıdır:

1.bu gün iri həcmli informasiya ilə işləyərkən və çoxsaylı əməliyyatlar çərçivəsində kompüter texnologiyalarının istifadə edilməməsi ağıla sığmazdır;

2.hər hansı bir layihələşdirmə adi halda daha çox ehtiyatlar, fəaliyyət və vaxt tələb edir;

3.sosial layihələşdirmənin proqramlı tətbiqi onların imkanlarını genişləndirir və universallığını gücləndirir.

Kompüter texnologiyalarının tətbiq edilməsi əvvəllər həll edilməsi mümkün olmayan məsələlərin həllinə imkan yaradır. Bu həm kompüter texnologiyalarının sürətli fəaliyyəti, həm də dünyəvi informasiya şəbəkəsi olan internet vasitəsilə geniş miqyaslı informasiya ehtiyatlarının əldə edilməsi ilə bağlıdır.

Kompüter layihə mütəxəssisinin informasiyanın işlənib hazırlanması ilə əlaqədar işini yerinə yetirməklə insanı əvəz edə bilir. Müasir kompüterlər bir işdən digərinə keçmə imkanı açmaqla, idarəetmənin fərqli qayda və əməliyyatlarını yerinə yetirməyə, fərqli layihə əməliyyatlarını uyğunlaşdırmağa imkan yaradır. Sosial layihələşdirmədə kompüter texnologiyalarının istifadə edilməsi layihələşdirmə fəaliyyətinin avtomatlaşdırılması elementidir.

**Yaradıcı fəaliyyətin avtomatlaşdırılmasının əsas istiqamətləri** sahəsindəki tədqiqatlar «süni əql» yaradılması, «avtomatlar nəzəriyyəsinin» hazırlanması ilə bağlıdr. Bu ideya bilavasitə, A.Tyurginin evristik məsələlərin həlli üçün məntiqi avtomatın («Tyurgin maşınlarının») tətbiq edilməsi ilə bağlı tədqiqatlarına əsaslanır. «İnsan - maşın» sistemi ilə bağlı digər istiqamət insanın bir sıra fəaliyyət və funksiyalarının maşınlara ötürülməsi ideyasının inkişafı ilə bağlıdır. Üçüncü istiqamət əsasən rəhbərliyin və idarəetmənin rasionallaşdırılması problemlərilə bağlı olduğundan kompüterə təşkilatın funksiyalaşması və fəaliyyətinin səmərələşdirilməsi vasitəsi kimi yanaşır. Dördüncü istiqamət müasir psixologiya çərçivəsində inkişaf edərək, fəaliyyət və təfəkkürü insanın subyektiv dərketməsinin nəticəsi kimi qəbul edir, kompüter və digər texniki qurğuların insanın yaradıcı təfəkkürünün reallaşdırılması üçün istifadə edilən əmək vasitə və alətləri olduğunu göstəirir. Beşinci istiqamət nəzəri fəaliyyət yanaşması kimi, fəaliyyətlə bağlı bütün proseslərin sistemli təsvirini əks etdirir.

Əksər hallarda bu nəzəriyyələrdə maşınlaşma və avtomatlaşma insan fəaliyyətində texniki qurğuların tətbiq edilməsi, bəzən isə insan fəaliyyətinin bəzi hissələrinin maşınlara ötürülməsi ilə bağlıdır.

«İnsan - maşın» sisteminin təşkilatlandırılması funksiyalarının maşın və insan arasında bölüşdürülməsi, insan və maşının qarşılıqlı uyğunlaşması və s. ilə bağlı olub, mühəndis və sosial psixologiya sahəsinə daxil olur. Mühəndis, sosial psixologiya, yaradıcı prosesin modelləşdirilməsi, sosial layihələşdirmə sahələrində «insan - maşın» sistemi tətbiq edilərkən, tədqiq olunan problemlər «insan - maşın» sistemi problemlərilə məhdudlaşdırlılmamalıdır. Bu, informasiya, texniki, evristik, psixoloji, sosiotexniki, sosial və hətta ideoloji nəticələri özündə birləşdirən keyfiyyətcə yeni sistemin formalaşdırılmasıdır. Hər hansı bir fəaliyyət sisteminin maşınlaşdırılması, yaxud avtomatlaşdırılması konstruktorlar və təşkilatçıların hansı məqsədlə fəaliyyətə başlamasnıdan asılı olmayaraq, ictimai fəaliyyətin mahiyyətinin dəyişməsinə və yenidən təşkil olunmasına, mövcud əmək bölgüsünün yeni yaranan peşə kooperasiyaları və müəssisələrinə uyğun qurulmasına gətirir. Qarşılıqlı əlaqəli olan elementlər toplusu əsasında formalaşan yeni sistemləri tədqiq etmək üçün sistemli-struktur analiz prinsipi istifadə edilir və bu zaman ayrı-ayrı alt sistemlərin deyil, bütövlükdə sistem təhlil edilir.

Sosiotexniki fəaliyyətə ***nəzəri-metodoloji yanaşmada*** uyğun fəaliyyət sisteminin reallaşdırlıması üçün zəruri olan nəzəri biliklərin kafiliyi müəyynəlşədirilir. Bu yanaşmanın çatışmayan tərəfi çox sayda xüsusi elmi tədqiqatların tələb olunması ilə bağlıdır. Belə ki, bu zaman əsas məsələ ikinci planda qaldığından reallaşdırılması qeyri–mümkün olur.

***Peşəkar-təcrübi yanaşma*** mövcud fəaliyyət sistemilə bağlı proseslərə aid ziddiyyətlər və çatışmazlıqların aşkar edilməsi və bu əsasda həmin sistem və proseslərin optimallaşdırılması məqsədilə uyğun vasitə, metod və planların tətbiq edilməsinə yönəlir. Bu yanaşmanın üstün tərəfi onun daha real olması ilə bağlıdır. Belə ki, burada xüsusi tədqiqat tələb olunmur və gərəkli təcrübi-metodiki analiz kifayət edir və mövcud sistemin optimallaşdırılmasına yönəlir.

Sosial texnologiya sözün geniş mənasında sosial nəzəriyyənin xüsusi forması olub, tədqiq olunan ictimai təzahürün kəmiyyət və keyfiyyət göstəriciləri əsasında mümkün idrak əməliyyatlarının aşkar edilməsinə istiqamətlənir. Sosial texnologiyalar sosial dinamikanın bütün tərəflərini – fərdi, qrup və qruplararası qarşılıqlı fəaliyyəti əhatə edir. Sosial texnologiyalara dair «Bu nədir?» - sualı əsasında ixtiasaslaşma, eyniləşdirilmə və izahat həyata keçirilirsə, «Bu nə üçündür?» sualı izahat, əsaslandırma və ümumiləşdirmənin reallaşdırılmasına yönəlir. Qeyd etmək olar ki, sosial texnologiyalar real təcrübə ilə ali nəzəriyyə arasında keçid mövqeyi tutur.

Sosial texnologiyalar sosial təzahürlərin bütün tərəflərini əhatə edərək, həqiqi sosial və sosioloji informasiyanın alınmasına istiqamətlənir. Bu zaman ictimai biliyin yeni əməliyyat və dərketmə səviyyəsinə çıxış yaranır. Burada sosial subyektin diqqət önünə gətirilən informasiya əlaqələri KİV-in, public relations, işgüzar ünsiyyətin sosiologiyasını əhatə edir. İnformasiyanın səmərəli istifadəsi məsələsinin qoyuluşu sosial idarəetməyə yeni məna verir. Qeyd olunan prinsiplər sosial-siyasi texnologiyalar sahəsində də keçərlidir (təbliğat, seçicilərlə iş, siyasi monitorinq və modelləşdirmə). Sosial proseslərin çoxamilli və alternativ inkişafı sosial dinamikanın müxtəlif tərəflərinin yenidən təşkilatlandırılması ilə bağlı konseptual aparatın yaradılmasına yönəlir. Sosial texnologiyaların əsas məsələsi bütün alternativ variantların modellərinin qurulması, oxşar tərəflərin müəyyənləşdirilməsi, alınan nəticələrin qiymətləndirilməsi vasitələrinin hazırlanması, birləşmə, ayrılma və şaxələnmə mərhələlərinin dərk edilməsi ilə bağlıdır. Bu məsələnin həll edilməsində riyazi metod və modellər böyük rol oynaya bilər.

«Model» anlayışı latın dilində «modulus» sözündən götürülüb, meyar, nümunə, norma mənasını daşıyır. Elmin məntiqi və metodologiyasında model – təbiət, yaxud sosial reallığın müəyyən hissəsinin, mədəniyyət məhsulunun, konseptual-nəzəri təşkilin, yəni originalın analoqu (sxem, struktur, işarələr sistemi) hesab olunur. Bu analoq obyektin mahiyyəti və strukturu haqqında biliklərin qorunub saxlanması və genişləndirilməsinə xidmət edir. Qnoseoloji nöqteyi-nəzərdən model – şüurda və təcrübədə originalın əvəzedicisidir. Modelin işlənib hazırlanması və tədqiqinin nəticələri originala tətbiq edilir. Məntiqi nöqteyi-nəzərdən bu ötürmə model və modelləşdirilən obyekt arasındakı izomorfizm (eynilik) və homomorfizm (oxşarlıq) münasibətlərinə əsaslanır. Modelin digər mahiyyəti məntiqi-riyazi sistemlərin təhlili ilə bağlı olub, əlamətlərin sistemli şəkildə bu və ya digər məntiqi-riyazi hesablamaların elementlərinə aid edilməsilə ifadə olunur.

Modelləşdirmə dərketmə obyektlərinin onların modelləri əsasında tədqiq edilməsi metodudur. Modelləşdirmə predmetli ola bilər, yəni model originalın müəyyən həndəsi, fiziki, dinamik, yaxud funksional xüsusiyyətlərini təkrar istehsal edə bilər. Analoqlu modelləşdirmə dərketmə metodu olub, original və model vahid riyazi nisbətdə təsvir edildikdə istifadə edilir. İşarəli modelləşdirmədə sxemlər, çertyojlar, formullar model ola bilər. Belə modelləşdirmənin əsas formalarından biri məntiq və riyaziyyatın təsiretmə və deduktiv vasitələrilə reallaşdırılan məntiqi-riyazi modelləşdirmədir. İşarəli fəaliyyət, bu və ya digər səviyyədə işarəli qurğuların yenidən təşkilatlandırılması və məntiqi-riyazi modellərin qurulması işarələr, yaxud əməliyyatların zehni-əyani təsviri ilə bağlıdır. Modelləşdirmə çox zaman

uyğun göstəricilərin tədqiqinə əsaslanır. Bu zaman göstəricilər dəyişə bilir və uyğun olaraq, modelin təsviri imkanları genişlənir. Dəyişən göstəricilər, obyektin parametrləri dəyişənlər adlanır. Qərarların qəbulu ilə bağlı riyazi modelləşdirmədə daxili və xarici, idarə edilən və idarə edilməyən, təsadüfi və qeyri-müəyyən dəyişənlər seçilir. ***Daxili dəyişənlər*** – obyektin şəxsi parametrləridir. Digər dəyişənlər isə ***xarici dəyişənlər*** olub, model çərçivəsində müəyyənləşmir, xaricdən təşkilatlanır. ***İdarə edilən dəyişənlər*** rəhbər, yaxud tədqiqatçı tərəfindən seçilir. ***İdarə edilməyən*** dəyişənlər tədqiqat subyektinin iradəsindən asılı olmayaraq mövcud olur və onların mahiyyəti ancaq qeydiyyata alınır. Bu dəyişənlər təsadüfi, yəni bəzi ehtimali qanunlara əsaslanmayan, yaxud qeyri-müəyyən, nəzarət edilməyən və ehtimali təbiətə malik olmayan ola bilir.

Müasir dövrdə sosial sistemin müxtəlif istiqamətli inkişaf modellərinin kompüter variantları geniş istifadə edilir. Bu zaman sosial sistemlərin kompüter modellərinin funksiyalaşmasını (yaranma, tənəzzül, və məhv olmasını) vizual olaraq müşahidə etmək, sosial sistemlərə dair optimal proqnozlar vermək, yeni nəzəri hipotezlər irəli sürmək, əldə olunan göstəricilər əsasında empirik tədqiqatlar aparmaq və uyğun tövsiyələr hazırlamaq imkanları yaranır. Bu modellər sırasında ***Education-Based Modeling*** (təhsillə bağlı model) – sosial sistemlərdə səbəb-nəticə əlaqəli kəmiyyət göstəricilərinin, ***Neuro-Based Modeling*** (neyro (əsəb) sistemlə bağlı modellər) – sosial sistemlərin təhsillənməsi, səmərələşdirilməsi və uyğunlaşdırılması, ***Artificial Intelligence-Based Modeling*** (süni ağılla bağlı modellər)– bilik, mahiyyət, simvol, evristik göstəricilər və s.-in modelləşdirilməsilə bağlıdır.

***Socio-concrete models*** (konkret sosial modellər) konkret sosial sistemlərin qurulması və funksiyalaşması qanunlarının müəyyənləşdirilməsinə yönəlir. Bu modellər dövlət statistik göstəriciləri, ictimai rəylə bağlı ekspert və əhali arasında aparılan sorğuların, müşahidənin nəticələrinə əsaslanır.

***Models Solving problems*** (problemin həlli ilə bağlı modellər) idarəetməyə dair tövsiyələrin işlənib hazırlanması modeli kimi kampaniyaların menecer və işçi heyətinin fəaliyyətinin tənzimlənməsi məqsədilə istifadə edilir.

***Social Software Engineering*** (sosial texniki proqramlaşdırma) iterativ (çoxsaylı) prosedurlu proqramlaşdırma əsasında empirik tədqiqatlar və kompüter eksperimentləri aparılmasına yönəlir. Əməliyyatlar prosesi kompüter sisteminin funksiyalaşması tələb olunan meyarlara, məsələn, pozitivizm, realizm, konvensionalizm, interpretivizm, kompyutivizm və s. cavab verənədək davam edir. Bu sistemin hazırlanması sosial sistemlərin kompüterləşməsi nəzəriyyəsinin yaradılması metodu kimi çıxış edir.

Kompüterləşmə nəzəriyyəsində ***Artificial social systems*** (süni sosial sistemlər), ***Artificial social models*** (süni sosial modellər), ***Social scientific models*** (sosial elmi modellər), ***Prototyping for resolutions*** (qərarlar nümunəsi), ***Multi-simulation*** (multi imitasiya) və s. kimi imitasion modellər istifadə edilir.

***Artificial social systems*** (süni sosial sistemlər) modeli yeni nəzəri hipotezlərin irəli sürülməsilə bağlıdır. Bu tip modellərdə real deyil, ***Artifical LIfe*** (süni həyat) kimi formal kompüter modellərinin göstəriciləri (kvant avtomatlar, «neyron» şəbəkəsi, kompüter özünütəşkilatlandırma, determinə olunmuş xaos və s.) istifadə edilir.

***Social scientific models*** (sosial elmi modellər) sosial sistemlərdə humanitar paradiqmaların tətbiqi imkanlarının yoxlanılması ilə bağlıdır. Bu model T.Parsons, N.Luman, E.Dürkqeym və başqalarının nəzəriyyələrinin yoxlanılması ilə bağlı modellərin qurulmasına yönəlir.

***Multi-simulation*** (multi imitasiya) imitasiya modelləri məcmusu kimi, müvəqqəti və paralel, çoxsəviyyəli şəcərəli modelləşdirmədir.

**İmitasion model aşağıdakı struktura malik olur:**

$x(t+\Delta t) = x(t) + f(x(t), u(t), v(t)),$

$x^{\circ}= X0,\ t = 0, \Delta t, 2\Delta t, \ldots, T - \Delta t.$

Burada ***x*** – kəmiyyət göstəricisi; $x^{\circ}$ – ***x***-in ilkin vəziyyəti; ***t*** – zaman; ***x(t), u(t), v(t)*** – göstəricilər; ***f(.)*** – dəyişikliklərdən asılılıq səviyyəsi; ***T*** – proqnozlaşdırma müddəti; $\Delta t$ – modelləşdirmə addımıdır.

İmitasiya modeli eyni vaxtda təsviri, izahedici, meyar (ölçü), proqnoz funksiyalarını yerinə yetirilir.

İmitasiya modeli «nə olar, əgər?» sualına cavab verir. Bu modelin mahiyyəti real (sosial) sistemlərin riyazi modeli üzərində kompüter eksperimenti aparılmasından və sistemin davranışı və ona təsirlə bağlı seçilmiş ehtimallar əsasında sistemin son vəziyyətinin müəyyən edilməsindən ibarətdir. Beləliklə, imitasiya sosial obyektin mümkün inkişaf variantlarının EHM-də analiz edilməsinə şərait yaradır. Bu zaman obyekt üzərində bahalı, yaxud qeyri-mümkün eksperiment aparmağa ehtiyac qalmır.

İmitasiya modeli ilə işləyərkən, ssenari qurulmalıdır. Bu zaman təsadüfi göstəricilər seçilir və qiymətləndirilir. İlkin vəziyyətdən çıxış edərək, cari vəziyyət müəyyənləşdirilir. Beləliklə, imitasion model «əgər proqnozlaşdırma müddətində xarici dəyişənlər yeni mahiyyət kəsb edərsə, tədqiq olunan sistemin mahiyyəti necə dəyişəcək?» sualına cavab verməyə imkan yaradır.

Qeyd olunanlar əsasında EHM üçün proqram formalı hesablama sxemi qurulur. Təcrübi məsələlərdə ***x, u, v*** vektorlarının ölçüsü böyük olduğundan əl hesablaması aparmaq qeyri-mümkündür. Təcrübə göstərir ki, imitasion model

əsasında aparılan hesablamalar sistemli tədqiqatın bütün suallarına cavab verə bilmir. Buna görə də modelin analizinin formal metodları və ekspert təcrübəsi və bilikləri əsasında qurulan kompüter imitasiyasının uyğunlaşdırılması zəruridir. Belə uyğunlaşdırmanın xüsusi təşkil edilmiş imitasion sistemlərdə reallaşdırılması daha məqsədəuyğundur. İmitasion modelin əsas ideyası istifadəçi ilə dialoq yaradılmasına yönəlir, bu zaman istifadəçi modeli, qeyri-formal hesablama sxemlərini və işin gedişində əldə edilən nəticələri islah edir.

İmitasion sistemdə modellər bankı (onların proqramlı reallaşdırılması) əsas yer tutur. İmitasion sistemdə istifadə edilən modellər iki qrupa bölünür: problem və standart.

***Problem modellər*** nəzərə alınan proseslər gedişində sistemin göstəricilərinin dəyişilməsini əks etdirir. Məsələn, ədədlərin dinamikası ilə bağlı Ferxyulst – Pirl modeli, yaxud mürəkkəb iqtisadi model problem modellər hesab olunur.

***Standart modellər*** yaxşı tədqiq olunmuş və həll etmə metodları məlum olan riyazi məsələlərin reallaşdırılması ilə bağlıdır. Məsələn, xətti proqramlaşdırma məsələsi standart model kimi reallaşdırıla bilər.

Eyni vəziyyəti fərqli standart modellər əsasında təşkil etmək mümkündür. Məsələn, istehsal müəssisələrinin paylaşdırılması həm xətti proqramlaşdırma, həm də qeyri-xətti əlaqələri nəzərə alan daha mürəkkəb model əsasında təsvir edilə bilər. Eyni dinamik sistemi sadə diferensial tənliklər, yaxud xüsusi törəmə tənliklər vasitəsilə təsvir etmək olar. Digər tərəfdən, eyni standart model müxtəlif mahiyyətli obyektlərin formalaşdırılmasında tətbiq edilir. Məsələn, xətti proqramlaşdırma vasitəsilə sənaye, yaxud kənd təsərrüfatı ehtiyatlarını səmərəli paylaşdırmaq mümkündür. Sadə diferensial tənliklər sistemi əsasında mexaniki, kimyəvi, bioloji sistemlərdə baş verən prosesləri daimi əmsallarla təsvir etmək olar.

Modelləşdirmənin informasiya təminatı problemi imitasion sistem göstəriciləri əsasında həll edilir. Göstəricilər bankı modelləşdirmədə seçilən model göstəricilərinə uyğun təşkil olunmuş zəruri informasiyadan (parametrlərin, ilkin şəraitin, dinamik sıraların kəmiyyət göstəriciləri) ibarət olur.

İmitasion modeldə tətbiqi sosioloji tədqiqatlardan əldə edilmiş məlumatlar əsasında qurulan cədvəl təsvirli model daha çox istifadə edilir. Məlumat göstəriciləri bazası köməkçi informasiyaları (göstərici mənbələri haqqında məlumat, istifadəçilər üçün təlimat, arxiv materialları və s.) da əhatə edə bilər. İnformasiya ilə rahat işləmək üçün göstəricilərin daxil edilməsi, nəzərdən keçirilməsi, seçilməsi və redaktə edilməsi prosesini əhatə edən göstəricilər bazasının idarə edilməsi sistemi istifadə edilir.

Daxili əlaqələndirmə vasitələri (daxili interface) göstəricilər bazasının və modellər bankının qarşılıqlı fəaliyyətini həyata keçirir. Dəyişənlərin ilkin mahiyyəti və parametrləri göstəricilər bazasından modellər bankına ötürülür, hesabların nəticələri, yəni proqnozlaşdırmanın son mərhələsinə dair göstəricilər isə geri qayıdır. Bu zaman interface proqamlar bir sıra texniki məsələləri yerinə yetirir: göstəricilər dairəsinə nəzarət, göstərici meyarlarının dəyişdirilməsi və s.

Xarici əlaqələndirmə vasitələri (xarici interface) istifadəçinin imitasion sistemlə dialoq imkanlarını təmin edir. Belə ki, imitasion sistem istifadəçisinin modelləşdirmə və proqramlaşdırma haqqında məlumatlı insan olması vacib deyil, buna görə də xarici inteface istifadəçi üçün əlverişli şəkildə təşkil edilməlidir. Burada əlverişli vəziyyət dedikdə, sistemin istifadəçinin tələbatlarına reaksiya sürəti, sistemlə ünsiyyət dilinin sadəliyi, buraxılış məlumatlarının anlaşıqlılığı və hesablama nəticələrinin əyaniliyi, real zaman çərçivəsində modelləşdirmə prosesinin islah edilməsi imkanları və s. nəzərdə tutulur.

İmitasion sistemin istifadəçi interface-nin hazırlanması zəruridir. Ən yaxşı modellər, keyfiyyət göstəriciləri və idarəetmə proqramları toplusu əlverişli interface olmadan «özündə şey» olaraq qalır və ən yaxşı halda istifadəçinin daxili ehtiyaclarına uyğun ola bilər. Təcrübəçilər belə sistemlə işləmirlər.

Burada modelləşdirmənin nəticələrinin əyani göstəricilərlə (xəritə, cədvəl, diaqramma, qrafiklər və s.) təqdimatı əsas mahiyyət kəsb edir. Uyğun nəticələrin reallaşdırılması üçün proqram-texniki (plotter, yaxud cədvəlqurma, cədvəl qovluğu və s.) və analitik (informasiyanın toplanması metodu) vasitələr istifadə edilir.

Modelləşdirmənin nəticələri sistemin hazırlayıcıları və ekspertləri tərəfindən şərh edilir. Nəticələrin analizi imitasion sistemin hazırlanmasında zəif tərəfləri və səhvləri aşkar etməyə imkan yaradır və bu zaman proqramın reallaşdırılması, formalaşdırılması və konseptuallaşdırılması mərhələlərinə qayıtmağı tələb edir. İmitasion sistemlər sadələşdirilmiş modellər konsepsiyası çərçivəsində analitik və imitasion metodların uyğunlaşdırılmasına imkan yaradır. Konseptual model imitasion tipli model əsasında qurulur, lakin bu model vasitəsilə hesablamalar aparılması kompüter və insan ehtiyatlarının böyük itkilərilə nəticələnir. Buna görə də əsas modelin sadələşdirilməsi və sadələşdirilmiş modellərin tədrici istifadəsi məqsədəuyğundur. Aşağı səviyyəli sadələşdirilmiş modellər imitasion tədqiqatlara, yuxarı səviyyəli sadələşdirilmiş modellər isə analitik nəticələrə əsaslanır. Sadələşdirilmiş modellərin tədqiqatının nəticələri növbəti mərhələdə ekspertlər tərəfindən öyrənilir və maraq doğuran nəticələr daha dəqiq modellər əsasında araşdırılır,

mənfi nəticələr kənarlaşdırılır. Belə yanaşma az itki ilə alternativlərin ilkin çoxluğunun azaldılmasına şərait yaradır. Düzgün işlənib hazırlanmış və istifadə edilən imitasion modellər qərarların müdafiəsi aləti olub, ekspert və təcrübi biliklərin riyazi metodlar və kompüter modelləşdirməsi ilə birləşdirilməsinə şərait yaradır.

İmitasion modelləşdirmə qərarların ümumi analizi proseduru kimi beş mərhələdən ibarətdir:

- ilkin analiz;
- struktur analiz;
- qeyri-müəyyənliyin analizi;
- faydalılıq, yaxud dəyərliliyin analizi;
- səmərələləşdirmə prosedurları.

***İlkin analiz*** zamanı qərar qəbul edən şəxs mövcud problemlə bağlı hansı fəaliyyət kursunun seçiləcəyini müəyyənləşdirir. Problem təyin edilir və mümkün alternativlər məlum olur.

***Struktur analiz*** problemin keyfiyyət strukturunun müəyyənləşdirilməsilə bağlıdır. Burada qərarlar ağacı iki formaya malik olur: qərarlar zirvəsi və hadisələr zirvəsi. Birinci halda qərar qəbul edən şəxs, ikinci halda isə nəzarət edilməyən amillər aparıcı rola malik olur.

***Qeyri-müəyyənliyin analizi*** zamanı qərar qəbul edən şəxs hadisələr zirvəsində yaranan ayrı-ayrı problemlərə dair ehtimalların mahiyyətini müəyyənləşdirir. Bu, mövcud empirik göstəricilərə, ayrı-ayrı analitik və imitasion modellərin mümkün nəticələrinə, ekspertlərin rəyinə, həmçinin qərar qəbul edən şəxsin subyektiv mühakimələrinə əsaslanan metod və prosedurlar əsasında həyata keçirilir.

***Faydalılıq, yaxud dəyərliliyin analizi*** qərarlar ağacında nəticələrin faydalılığının müəyyənləşdirilməsi ilə bağlı qərar qəbul edən şəxs tərəfindən bu və ya digər istiqamətin seçilməsinə yönəlir. Hər bir məsələdə fərqli iqtisadi və digər itkilər və gəlirlər əlaqələndirilir. Nəticələr toplusu qərar qəbul edən şəxs tərəfindən nizamlanmalı və nəticələrin reallaşdırılmasında qeyri-müəyyənlik nəzərə alınmalı, yəni nəticələrin faydalılığı riyazi gözləmələrə əsaslanmalıdır. Qeyri-müəyyənlik dedikdə, qərar qəbul edən şəxsin iki alternativ fəaliyyət arasında seçim etmək imkanı nəzərdə tutulur, bu zaman mümkün nəticələr öyrənilməli və daha faydalı nəticələrə malik olacağı ehtimal edilən variant seçilməlidir.

***Səmərələşdirmə prosedurları*** son mərhələ kimi hesablamalar vasitəsilə daha səmərəli, yəni maksimum faydalı ola biləcək strategiyanın müəyyənləşdirilməsilə bağlıdır. Bu strategiyada qərar qəbul edən şəxsin qərarlara təsiri əks olunur. ***x*** nəticəsi səbəb nəticə əlaqəli və birölçülü olduqda

problemin konseptual əsasları aydın olur: istifadə edilən məqsədli funksiyanın mahiyyətini maksimallaşdırılan alternativlərdən elə biri seçilməlidir. Optimallaşdırma məsələsi mürəkkəb ola bilər, lakin bu mürəkkəblik konseptual deyil, texniki xüsusiyyət daşıyır. Çox vaxt nəticələr bir neçə meyar əsasında təyin edilir. Qeyri-müəyyənlik şəraitində bir meyarın lotereya xüsusiyyətli ehtimali seçim imkanları meydana çıxır. Bu zaman birölçülü faydalılıq nəzəriyyəsinin nəticələri istifadə edilir. Ümumi halda ***x*** nəticəsi həm qeyri-müəyyən, həm də çoxölçülüdür. Bu zaman faydalılıq və çoxölçülü səmərələşdirmə nəzəriyyələri sintez edilir. Faydalılıq nəzəriyyəsinin metodlarına əsasən qərar qəbul edən şəxs birölçülü vəziyyətdə bir neçə alternativdən birini seçməlidir. Mümkün nəticələrdən daha çox arzu edilən vahid meyar əsasında qiymətləndirilir. Qərar qəbul edən şəxs seçilən alternativlərdən hər hansı birinin nə ilə nəticələnəcəyini bilmir, lakin hər bir fəaliyyət vasitəsi üçün fərqli nəticələrin nəzərə alınması imkanları mövcuddur.

Faydalılıq funksiyası qərar qəbul edən şəxsin mümkün nəticələrlə bağlı seçim xüsusiyyətlərini əks etdirir. Bu xüsusiyyətlər riyazi təsvir edilərsə, faydalılıq funksiyasına dair məhdudiyyətləri analitik təsvir etmək olar. Əgər qərar qəbul edən şəxs qeyd edilən xüsusiyyətlərlə razılaşırsa, onun faydalılıq funksiyası daha məhdud çərçivəyə malik olub, bu funksiyanın həqiqi mənasını və həssaslığının analizini sadələşdirir.

Faydalılıq funksiyasının təcrübi proseduru bir çox real vəziyyətlərdə istifadə edilir. Faydalılıq funksiyası ilə bağlı bir çox metodlar və hər bir metodun çoxsaylı variantları mövcuddur. Hər hansı bir məsələnin həlli ilə bağlı istifadə edilən prosedurlar eyni xüsusiyyət daşıyır, onları beş mərhələyə bölmək olar:

- hazırlıq mərhələsi;
- keyfiyyət xüsusiyyətlərinin eyniləşdirilməsi;
- kəmiyyət hüdudlarının müəyyənləşdirilməsi;
- faydalılıq funksiyasının seçilməsi;
- uyğunluğun yoxlanması.

***Hazırlıq mərhələsində*** qərar qəbul edən şəxs faydalılıq funksiyaları müəyyənləşdirilənə qədərki zaman müddətində analitikin onun seçimi ilə maraqlandığını bilməlidir. Qərar qəbul edən şəxs başa düşməlidir ki, həqiqi obyektiv seçimlər yoxdur və onun subyektiv rəyini əks etdirən seçimlər daha gərəklidir. Əgər qərar qəbul edən şəxsin fikirləri gözlənilən nəticələrlə üst-üstə düşürsə, faydalılıq funksiyalarını müəyyənləşdirmək olar, əks təqdirdə, birinci mərhələ ardıcıllıqla təkrarlanmalıdır.

***Keyfiyyət xüsusiyyətlərinin eyniləşdirilməsi*** mərhələsində qərar qəbul edən şəxsin seçimi aydınlaşdırılır, müqayisə edilir, dəqiqləşdirilir. Sonra

faydalılıq funksiyasının qərar qəbul edən şəxsin meyllərinə uyğunluğu, seçiminin təsadüfi olub olmaması müəyyənləşdirilir. Əgər qərar qəbul edən şəxs lotereya seçiminə üstünlük verirsə, deməli o, riskə meyllidir. Daha sonra faydalılıq funksiyasının yüksələn, alçalan, yaxud daimi risklə əlaqəsi müəyyənləşdirilir.

***Kəmiyyət hüdudlarının müəyyənləşdirilməsi*** adətən lotereyaya dair səbəb nəticə əlaqəli ekvivalentin təyin edilməsilə bağlı olur.

***Faydalılıq funksiyasının seçilməsi*** bu funksiyanın kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin və bu xüsusiyyətlərdə faydalılıq funksiyanın mövcudluğunun aydınlaşdırılması ilə bağlıır.

***Uyğunluğun yoxlanması*** qərar qəbul edən şəxsin faydalılıq funksiyasındakı təhrifləri, yəni həqiqi seçimə uyğunluq səviyyəsini aşkar etməsilə bağlıdır.

**YOXLAMA SUALLAR**

1.Sosial layihələşdirmənin avtomatlaşdırılmas nə ilə bağlıdır?
2. Avtomatlaşdırmanın əsas istiqamətləri hansılardır?
3.İmitasion modelin mahiyyətini izah edin.
4.İmitasion modelin hansı mərhələləri fərqləndirilir?
5.İmitasion modelləri sadalayın.

**REFERAT MÖVZULARI**

1.Sosial layihələşdirmənin avtomatlaşdırılması və riyazi modelləşdirilməsi
2.Yaradıcı fəaliyyətin avtomatlaşdırılmasının əsas istiqamətləri
3. İmitasion model

**ƏDƏBİYYAT:**

1.Бергер П., Лукман Т. Социальное конструирование реальности : Трактат по социологии знания. М., 1995.
2.Давыдов А.А. Компьютационная теория социальных систем. Соц/исс, № 6, 2005.
3.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988. М., 1989,с . 163.
4. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
5.Луков В. А. Социальное проектирование : учеб. пособие. 6-е изд., испр. М. : Изд-во Моск. гуманит ун-та : Флинта, 2006.
6.Прогнозное социальное проектирование : Теоретико-методологические и методические проблемы / Ин-т социологии РАН ; отв. ред. Т. М. Дридзе. 2-е изд., испр. и доп. М. : Наука, 1994.
7.Тощенко Ж. Т., Аитов Н. А., Лапин Н. И. Социальное проектирование. М., 1982.

## Mövzu 18. SOSİAL PROSESLƏRİN LAYİHƏLƏŞDİRİLMƏSİ

### 18.1 SOSİAL LAYİHƏLƏŞDİRMƏ VƏ SOSİAL YENİLİKLƏR

İ.Şumpeter «İqtisadi inkişaf nəzəriyyəsi» (1911) əsərində «yenilik» və «innovasiya» anlayışlarının aşağıdakı aspektlərini fərləndirir:
a) yeni, yəni istehlak sahəsində hələ məlum olmayan nemət, yaxud məlum nemətin yeni keyfiyyəti;
b) məlum nemətin yeni, elmi kəşflə əlaqəsi olmayan daha səmərəli istehsal metodu;
c) məlum nemətin yeni satış imkanlarının açılması;
ç) xam malın, yaxud yarımfabrikatın yeni istehsal mənbələrinin açılması, mövcud inhisarın ləğvi əsasında istehsalın yenidən təşkili.

Müasir Amerika sosioloqu P.Draker «İnnovasiyalar və sahibkarlıq» (1985) əsərində innovasiyaların aşağıdakı mövqelərini fərqləndirir:
- vəziyyətin gözlənilmədən kəskin dəyişməsi;
- istehlakçıların dəyişən dəyərləri və gözləntiləri ilə reallıq və dəyişən gözləmələr arasında meydana çıxan ziddiyyətlər;
- istehsal, yaxud istehlak prosesində dəyişikliklər;
- əhali məskunlaşması strukturunda dəyişikliklər;
- yeniliklərə təkan verən yeni biliklər, kəşflər, texnologiyalar.

Sosial yeniliklərin aşağıdakı parametrləri fərqləndirilir:
- fundamental elmi biliklərin istifadə edilməsinə əsaslanan sosial yeniliklər;
- tətbiqi elmi tədqiqatlara əsaslanan sosial yeniliklər;
- təcrübi biliklərə əsaslanan sosial yeniliklər;
- biliyin ayrı-ayrı aspektlərinin fərqli kombinasiyalarına əsaslanan sosial yeniliklər;
- prinsipcə yeni, yaxud əvvəllər əldə olunmayan sahələrin istifadəsilə bağlı sosial yeniliklər;
- hər hansı məqsədyönlü fəaliyyətin nəticələrinə əsaslanan sosial yeniliklər;
- hər hansı məhsulun başqa sahəyə tətbiq edilməsi ilə bağlı sosial yeniliklər.

Sosial yeniliklərin sistemləşdirilməsi aşağıdakılara əsaslanır:
- məhsul (yeni məhsul, məs., yeni texnologiya, yaxud əmtəə);
- texnoloji (əmtəə, xidmət və biliklərin yeni istehsal texnologiyaları);
- sosial (keyfiyyətcə yeni iqtisadi, sosial, siyasi və digər törəmələrin, strukturların, ictimai istehsal mexanizmlərinin, bütövlükdə cəmiyyət, yaxud onun alt sistemlərinin);
- ilk üç tipi özündə birləşdirən komplekslər.

Yeniliklərin çoxsaylı şərhləri mövcuddur. İ.V.Bestujev-Ladaya görə, «yeniliklər idarəetmə qərarlarının nəticəsi kimi bu və ya digər proseslər, texniki, iqtisadi, siyasi, sosial və digər təzahürlərin dəyişilməsi əməliyyatları kimi müəyyənləşdirilə bilər».

Sosial yeniliklər sistemində aşağıdakı yenilikləri fərqləndirmək olar:

1.reallaşdırılması mexanizmlərinə görə fərqlənən yeniliklər;

2.innovasion proseslərin xüsusiyyətlərilə bağlı olan yeniliklər.

Tipinə görə yenilikləri iki qrupa bölmək olar: maddi-texniki və sosial.

*Maddi-texniki yeniliklər* aşağıdakılarla bağlıdır:

- texnikada yeniliklər (təchizat, cihazlar);
- texnologiyada yeniliklər (istehsal prosesləri);
- istehsal materiallarında yeniliklər (xammal və son məhsul).

***Sosial yeniliklər*** aşağıdakı kimi təsnif edilir:

- sosial-idarəetmə, yəni sosial sahədə məqsədyönlü dəyişikliklər;
- sosial-iqtisadi (ictimai-iqtisadi formasiyalar sistemində innovasion fəaliyyət);
- iqtisadi (yeni materiallar, əmək haqqının ödənilməsinin sistem göstəriciləri);
- təşkilati-idarəetmə (yeni təşkilati strukturlar, əməyin təşkili strukturu, qərarların hazırlanması, onların yerinə yetirilməsinə nəzarət və s.);
- hüquqi (cəmiyyətdə hüquqi qarşılıqlı münasibətlərin dəyişilməsi);
- pedaqoji (təlim və tərbiyə metodları).

Sosial yeniliklər digər yeniliklərdən aşağıdakı xüsusiyyətlərə görə fərqlənir:

1.Sosial yeniliklər müəyyən ictimai münasibətlər, rəsmi mədəniyyətlə daha sıx əlaqəyə malik olur. Nəzərə almaq lazımdır ki, eyni yeniliklər ayrı-ayrı regionlarda fərqli təzahür edə bilər.

2.Sosial yeniliklər daha geniş tətbiq sahəsinə malik olur. Belə ki, texniki yeniliklərin reallaşdırılması çox vaxt zəruri idarəetmə, iqtisadi və digər dəyişikliklərlə müşayiət edilir, laikn bu yeniliklər çox zaman texniki təchizat tələb etmir.

3.Sosial yeniliklər istifadəçilərin qrup və şəxsi keyfiyyətlərindən asılı olur. Belə yeniliklərin mahiyyəti işçilərin yeni xüsusiyyətli xidməti fəaliyyətlərinin tətbiqi ilə bağlı olur.

4.Texniki yeniliklərdən fərqli olaraq, sosial yeniliklərin tətbiqi o qədər də nəzərə çarpmır və onların səmərəliliyi daha mürəkkəb və ziddiyyətli xüsusiyyətlərə malik olur. Xüsusilə yeni davranış və münasibətlərin formalaşması ilə bağlı onların köhnə mahiyyətinə qayıtması təhlükəsi mövcud olur.

Texniki yeniliklərdən fərqli olaraq, sosial yeniliklərdə formalaşma mərhələsi olmur. Texniki yeniliklərdə hazırlıq mərhələsi layihələşmə ilə üst-üstə düşür. Bu innovasion prosesin bir sahədən digər sahəyə keçməsinin qarşısını alır, yeniliklərin yaranması prosesini sürətləndirir. İnnovasion ehtiyatlarına görə yenilikləri aşağıdakı kimi təsnif etmək olar:

- radikal, yaxud əsas (prinsipcə yeni texnologiyalar, istehsal növlərinin idarəetmə metodları);
- kombinasiyalı (elementlərin konstruktiv birləşdirilməsi prosesində fərqli tərəflərin uyğunlaşdırılması);
- şəkli dəyişdirilmiş (yeniliklərin təkmilləşdirilməsi, uyğun konstruksiyalarının, formalarının prinsiplərinin tamamlanması).

Prinsipcə sələflərinə münasibətdə əvəzedici, ləğvedici, dönərli, açıqlayıcı yenilikləri fərqləndirmək olar. ***Əvəzedici yeniliklər*** köhnə vasitələrin tam sıxışdırılması və uyğun funksiyaların (məs., avtomatlaşdırma) daha səmərəli tətbiqinə əsaslanır. ***Ləğvedici, yaxud mənfi yeniliklər*** hər hansı bir məhsulun istehsalı ilə bağlı əməliyyatların yerinə yetirilməsinin qarşısını almağa yönəlir və əvəzedici qəbul etmir. ***Dönərli yeniliklər*** müəyyən müddətdən sonra mövcud şəraitdə yeniliklərin tətbiq edilməsi imkanlarının uyğunsuzluğu və uğursuzluğu ilə əlaqədar olaraq, əvvəlki vəziyyətə qayıdış əsasında müəyyənləşir. ***Açıqlayıcı yeniliklər*** müqayisəsi olmayan vasitələrin kəşfi və tətbiqi ilə bağlı olur. Eyni zamanda tamamlanmış və tamamlanmamış yeniliklər fərqləndirilir. ***Tamamlanmamış yeniliklər*** heç də həmişə sosial neqativ olmur. Dəyişən şəraitlə əlaqədar meydana çıxan innovasion patologiyanın ləğv edilməsi, yeniliklərin həyata keçirilməsi prosesindəki uğursuzluqlar yeniliyin yaradılması, yaxud əsaslandırılması mərhələsində onun məqsədəuyğun olmayan və səhv kimi qəbul edilməsinə səbəb olur. Bununla əlaqədar olaraq, uğurlu və uğursuz yeniliklər fərqləndirilir. Bu bölgü əvvəlki ilə üst-üstə düşür, burada uğur müasirlik və yeniliklərin tamamlanması ilə bağlı olur. Səmərəlilik iqtisadi və sosial göstəricilərin mövcud vəziyyəti, yeniliklərin yaradılması və reallaşdırılması prosesində itkilərlə müqayisələr aparılması əsasında müəyyənləşdirilir. Çox vaxt səmərəlilik təxirə salınmış təsiri bağışlayır. Nəzərə almaq lazımdır ki, tamamlanmış, həm də uğurlu yeniliklər heç də həmişə səmərəli olmur. Bununla yanaşı innovasion fəaliyyətdə «səmərəlilik» anlayışı yeniliklərin təsnifatı əsasında müəyyənləşir.

Yeniliklərin xüsusiyyətlərinə görə sistemləşdirilməsi onların imkanlarının və məhdudiyyətlərinin müqayisə edilməsinə, digərləri sırasında onun qiymətləndirilməsinə şərait yaradır. Yeniliklər arasındakı münasibətləri qiymətləndirmək, inkişaf mərhələlərində bu münasibətlərin dəyişməsi

dinamikasını və meyllərini aşkar etmək və innovasion mövqedən çıxış edərək, bu mərhələlərin diaqnostikası çox vacibdir.

Bu əsasda innovasion məntiqi və siyasi meyarlar müəyyənləşdirilir. Müasir tədqiqatçılar əmindirlər ki, yeniliklər mahiyyətcə ideya, kəşf, rasional təkliflərin və s. yeniliklərə çevrilməsilə bağlı olub, mövcud sadə yenidənistehsal prosesindən fərqlənir. Keyfiyyətcə yeni olanı əsas və innovasion ideyalar olmadan süni şəkildə yaratmaq mümkün deyil, lakin cəmiyyət üçün gərəksiz olan yeniliklərin qarşısını almaqla idarə etmək mümkündür. Bu, dövlətin innovasion siyasətilə bağlıdır. İnnovasion siyasət alt sistem kimi prosesin səmərələşdirilməsi, «yenilik ideyası», bu və ya digər yeniliyin səmərələşdirilməsinin genişləndirməsilə bağlıdır. Məntiqi olaraq, hər bir innovasion siyasətin birinci sahəsi innovasion fəaliyyətin idarə olunması – innovasion kollektivin yaradılması ilə əlaqədardır. Bu sahədə obyektiv-fəal və subyektiv-fəal sahələr fərqləndirilir. Obyektiv-fəal sahə yeniliklərin reallaşdırılması prosesini ləngidən amillərin dəyişdirilməsi və yeniliyi formalaşdıran amillərin genişləndirilməsi ilə bağlıdır. Məsələn, idarəetmə vasitələri ilə yeniliklərə malik olan bir çox bürokratik əngəlləri aradan qaldırmaq olar. Subyektiv-fəal sahə cəmiyyətdə sosial fəaliyyətə konstruktiv yeniliklər gətirən sosial fəal elementlərin formalaşdırılması ilə bağlıdır.

**Yeniliklərin strukturu** aşağıdakı kimi müəyyənləşdirilə bilər:
- yeniliklərə dair sosial tələbatın dərk edilməsi;
- metod və vasitələrlə yeniliklərin aşkar edilməsi;
-yeniliklərin dizaynı – son məhsulun konkret ideya formasında layihələşdirilməsi, yaxud təsviri;
- yeni təsvirin əldə edilməsi variantlarının aşkar edilməsi;
- optimal variantın seçilməsi;
- optimal variantın həyata keçirilməsi;
- yeniliklərin növbəti mərhələsinin ümumiləşdirilməsi.

Sosial innovasiyaların tətbiqindəki çətinliklər bir çox səbəblərlə bağlıdır. Bu ilk növbədə insan təfəkkürünün yeniliyə müqavimət göstərən ənənəviliyi ilə əlaqədardır. Bununla yanaşı hər bir yenilik mövcud sistemin sabitliyinin və funksiyalaşmasının pozulmasına yönəlir. Yeniliklər sistemin nizamını pozarkən özü də müəyyən dəyişikliyə uğrayır. Yeniliklər çoxsaylı ideyalar kimi təzahür edir, lakin cəmiyyət yalnız daha səmərəli olan ideyaların tətbiqinə imkan yaradır. «Futurofobiya» insanların gələcək və yeniliklərlə bağlı qorxusunun əksi kimi cəmiyyət üçün təhlükəli olan ideyaların islah olunmasına şərait yaradır. «Futurofobiya effekti» «davamlılığın sınağı»na yönəlmiş süni mexanizm əsasında yeniliyin tətbiqinə yönəlir. «Futurofobiya»ya nəzarət edilməzsə, hadisələrin qeyri-mütəşəkkil inkişafına

şərait yaranmış olar və hər cür pozitiv yeniliyin də qarşısı alına bilər. Buna görə də, konstruktiv yenilikləri inkişaf etdirmək üçün süni mexanizmlərin istifadəsi zəruridir. Bunun üçün konstruktiv və destruktiv yenilikləri seçmək və yeni yaranmaqda olanı mövcud mühafizəkar təzahürlərdən mühafizə etmək lazımdır. Şəraitdən (təşkilati, sosial mədəni, iqtisadi və s.) asılı olaraq, müxtəlif mühitlərdə eyni yeniliklərin fərqli təzahür formaları nəzərə çarpır. Nəzərə almaq lazımdır ki, yeniliklərə müqavimət, onların formasının dəyişməsi yalnız mühavizəkarlıqla deyil, həm də ayrı-ayrı işçilərin səriştəsizliyi ilə bağlıdır. Bu yeniliyə keçidlə bağlı yaranan obyektiv çətinliklərdir və hər bir təşkilati, mədəni sistemdə müstəqil dəyərə malik olub, sistemin qorunmasını təmin edir. Belə ki, mühit yeniliyi öz xüsusiyyətlərinə uyğunlaşdırmağa, mövcud dəyişikliklərin potensialını zəiflətməyə yönəlir. Bu, funksiyalaşmanın inersiyalılığı ilə bağlıdır. İnnovasion prosesləri idarə etmə prosesində nəzərə almaq lazımdır ki, sistem yalnız yenilikləri mühafizə etməyə yönəldikdə yeniliklərə açıq ola bilər.

Yeniliklərlə bağlı meydana çıxan ziddiyyətlərin qarşısını almaq üçün cəmiyyət iki sosial mexanizm – innovasion və antiinnovasion hazırlayır. Hər bir mexanizm ayrılıqda – «adi», qeyri-institusional və institusional mexanizmlərdən ibarət olur. Qeyri-institusional mexanizm cəmiyyətin bürokratik düşüncə tərzi ilə bağlı olub, digər mexanizmləri müəyyənləşdirir. Adi şüurda futurofobiya instinktiv, şüuraltı olaraq təzahür edir və cəmiyyətin mövcud adət və ənənələrinin qorunmasına yönəlir. Bürokratik şüurda isə futurofobiya dərkedilmiş olub, «başqa bir gələcək»də öz mövqelərinin itirilməsi qorxusunun nəticəsi kimi təzahür edir.

Mahiyyətinə görə, innovasiya – innovasion fəaliyyətin məhsulunun tənqidi dərk edilməsi, mövcud vəziyyətlə razılaşmama, sistemin funksiyalaşmasının yenidən öz tələbatlarına uyğun qurulması, yaxud tamamilə dəyişdirilməsi qabiliyyətidir. Bu zaman təşkilatın qarşılıqlı elementlər toplusu olduğu nəzərə alınmalıdır. Sistemin mövcud vəziyyətdən razı, yaxud narazı olduğunu müəyyənləşdirmək üçün onun innovasiyalara hazırlıq səviyyəsi öyrənilməlidir. Belə ki, innovasiyalara hazırlıq sistemin innovasion mövqeyilə bağlıdır. Əgər sistem mövcud vəziyyətdən narazıdırsa, deməli yeniliklərə hazırdır və ya əgər sistem öz vəziyyətindən razıdırsa, yeniliklərə müqavimət göstərir.

Sosial təşkilat müəyyən funksiyalı qarşılıqlı təsirdə və qarşılıqlı əlaqədə olan elementlər strukturudur. Burada idarə edilənlər və idarə olunanları fərqləndirmək olar və onlardan hər biri innovasion davranış daşıyıcıları ola bilər. Yeniliklərin reallaşdırılması üçün elementlərin fəallığı, təşəbbüskarlığı vacib şərtdir. İnnovasion dəyişikliklərə hazır fəal elementlərin sayının çoxluğu

və innovasiyalara hazırlıq səviyyəsi sistemin dəyişilməsi və yeniliklərin daha səmərəli nəticələrə gətirməsi ehtimalını artırır.

Hər bir sosial təşkilat öz maraq və məqsədləri çərçivəsində innovasion davranışa meylli olur. Elmin, təhsilin, peşə hazırlığının inkişafında maraqlı olan və öz elementlərinə seçim azadlığı verən təşkilat öz inkişafını təmin etmiş olur. İnnovasion davranışın inkişafı ilə bağlı hər hansı bir təzahürün təcrid edilməsi bütövlükdə sistemin inkişafının qarşısını almış olur. Belə bir şəraitdə innovasion meylli elementlər ya strukturun rifahı üçün fəaliyyəti dayandırır, ya bu təşkilatı tərk edir, ya da innovasion davranışa şərait yaratmaq üçün sistemi dəyişdirməyə yönəlirlər.

Yeni baxışlı insanların mövcud ictimai quruluşu tənqidi dərketməsi köhnə sistemin dağılmasına və yeni sistemin formalaşmasına şərait yaradır. İnnovasion davranış subyektlərinin bütöv sosial təşkilatın mənafeyi istiqamətində fəaliyyət göstərməsi üçün innovasion fəaliyyətin müdafiə olunması və stimullaşdırılması, həmin subyektlərin tələb və məqsədlərinin təşkilatın maraqları, tələbləri və məqsədlərilə eyniləşdirilməsi vacibdir. Sosial təşkilat innovasion subyektlərin fəaliyyətini yönəltməli, dəyişikliklərə hazır olanların fəaliyyətini aktivləşdirməlidir. Sürətli elmi-texniki inkişaf industrial cəmiyyətdən postindustrial informasiya cəmiyyətinə keçidlə nəticələndi. Bu cəmiyyətdə maşınlar deyil, insan, onun artan tələbatları və bacarıqları, informasiya təminatı əsas rol oynayır. Bazar iqtisadiyyatı şəraitində xidmətlərin rolunun genişlənməsi, insan tələbatlarına yönəlmə, həmçinin məlumatlanmanın yüksəlməsi innovasiyaları zamanın tələbinə çevirir və yeniliklər etmə bacarığı üstünlük kimi qiymətləndirilir. Buna görə də müasir şəraitdə hər bir təşkilat innovasion potensialını öz rifahı istiqamətində yönəltməlidir. Təşkilatda innovasion dəyişikliklər aparılması üçün dəyişikliklərə hazırlıq potensialı bütün struktur səviyyəsində vahiddən yüksək olmalıdır. Bunun üçün aşağıdakılar vacib şərtdir:

**1.*Təşkilatın çevikliyinin bərqərar edilməsi.***

İnnovasion fəaliyyətin həyata keçirilməsində təşkilatın sıxlığı əsas rol oynayır. Təşkilatın sıxlığı dedikdə, təşkilati strukturlarda ictimai əməyin, təcrübənin, bütövlükdə mədəniyyətin obyektivləşdirilməsi səviyyəsi nəzərdə tutulur. Zaman və məkan ölçülərinə görə obyektivləşmə səviyyəsi həm kütlənin çoxalması, həm də sistemin elementləri arasındakı asılılığın mürəkkəbləşməsi ilə müəyyənləşir. Bu əsaslarda sıxlığı az olan təşkilatlarda yeniliklər daha səmərəli həyata keçirilir. Buna görə də yenilik təşəbbüskarları ilkin mərhələdən təşkilatın çevikliyinin yüksəldilməsinə çalışmalı, mürəkkəb formalı strukturları dəyişməlidirlər. M.Krozye müasir innovasion dəyişikliklərin əsas prinsiplərini fərqləndirərək, belə güman edir ki,

təşkilatlarda insanların münasibətlərinin sadələşdirilməsi məsələsinin həlli iyerarxiya nərdivanının pillələrində əməkdaşların ixtisari ilə sıx bağlıdır. Lakin bu problemin həlli müəssisələrin rəhbər işçilərinin müqavimətinə səbəb olur, çünki aşağı vəzifələrin rəhbərləri daha yuxarı vəzifə tutmağa meylli olurlar və rəhbər vəzifələrin azalması şaquli irəliləmədə çətinliklər yaradır. M.Krozye əmindir ki, bu problem aşağı rəhbər işçilərin funksiyalarının dəyişdirilməsi əsasında həll edliə bilər. Belə ki, həmin əməkdaşların nəzarətçi funksiyası məsləhətçi funksiyası ilə əvəz edilməlidir. Bu zaman inzibati rəhbərlərə tələbat azalır, texniki peşəkarlara tələbat yüksəlir. Sadələşdirmə prinsipi əsasında təşkilatın insanın mənəvi qüvvəsinə və bacarıqlarının inkişafına yönələn yeni dəyərlər sistemi reallaşdırılır. Çevik təşkilati struktur innovasion prosesin müxtəlif mərhələlərində innovasion davranışın təzahürünə şərait yaradır.

**2.*Vasitəsiz əlaqələr sistemi.***

Sosial təşkilatın elementləri həmişə qarşılıqlı əlaqəli olub, biri-birinə təsir edir və məhz bu əsasda innovasion dəyişikliklər baş verir. İnnovasion davranışa aşağıdakı amillər təsir göstərir:
- fərdlər və qrupların maraqlarının üst-üstə düşməsi;
- təşkilatın üzvələrinin əqli ehtiyatlarının daimi yüksəldilməsinə yönəlmiş peşə-ixtisaslandırma və təhsil sistemi;
- təşkilatın üzvlərinin şəxsi xüsusiyyətləri (əlaqələndirmə, fəallıq, riskə meyllilik);
- idarəetmə üsulu;
- fəaliyyət şərtləri və formaları;
- fəaliyyətin stimullaşdırılması və əsaslandırılması.

İnnovasion davranış maneəsiz yayılma imkalarına malik olur. Əlaqələr strukturu innovasion məlumatın yayılmasına və innovasion layihələrin müqayisəsi zamanı fəaliyyətin reallaşdırılması üçün lazım olan informasiyanın kimdən, nə vaxt və hansı əsaslarda alınmasının müəyyənləşdirilməsinə şərait yaradır. Müasir dövrdə müəssisələrdə iyerarxik nərdivandan yan keçən vasitəsiz əlaqələndirmə üçün şərait yaradılır. ABŞ və Avropada yapon «keyfiyyət dərnəkləri» geniş tətbiq edilir. «Keyfiyyət dərnəkləri»nin yaradılması istehsalın və idarəetmənin təşkilati sistemində innovasion dəyişikliklərlə bağlıdır. Bu dərnəklərin əsas mahiyyəti belədir: müəssisədə istehsalın kəmiyyətinə təsir edəcək hər hansı texniki və texnoloji problemin həlli ilə bağlı fəaliyyət göstərə biləcək hər kəs müəssisə çərçivəsində müstəqil yaradıcı təşkilatda birləşir. Bu əsasda qrupun üzvləri üfiqi və şaquli istiqamətli iyerarxik idarəetmə sistemində vəzifələr arasındakı hüdudları aradan

qaldırırlar. Problemin həlli reallaşdıqdan sonra «keyfiyyət dərnəkləri» dağılır. Yeni problemlər yeni dərnəklərin yaranmasına şərait yaradır.

**3.*Fəaliyyət azadlığı və məsuliyyət.***

Təşkilat sistemində fərdlərin azad fəaliyyəti şəxsiyyətin azadlıq hüququnun yüksəlməsilə əlaqəlidir. Hər bir insan öz fəaliyyətini müəyyənləşdirməkdə azaddır, lakin bu zaman digərlərinin azadlığını məhdudlaşdırmamalıdır. Beləliklə, şəxsiyyətin fəaliyyəti cəmiyyətin norma və qaydalarına uyğun olmalıdır. Fəaliyyət azadlığı şəxsin öz hərəkətlərilə bağlı məsuliyyətini nəzərdə tutur. İnnovasion davranışda fəaliyyətin seçilməsində sərbəstlik zəruri şərtdir. Öz davranışına görə məsuliyyət şəxsi məqsəd və marqları təşkilatın maraqları ilə eyniləşdirməyə kömək edir. Postindustrial cəmiyyətdə insana, onun bacarıqlarına kapital qoyulur, buna görə də şəxsiyyətin azadlıq səviyyəsi müəyyən dərəcədə təşkilatın onun mənəvi imkanlarına, qüvvə və bacarıqlarına əsaslanmasına şərait yaradır. Bu əsasən üfiqi strukturlarda tətbiq edilən muxtarlıq prinsipilə bağlı olur və bilavasitə özünüidarəetmə təşkilatlarının fəaliyyətində öz əksini tapır.

**4.*Zəruri mədəniyyətin formalaşdırılması.***

Mövcud şərait innovasion davranışın fəallaşmasında xüsusi əhəmiyyət kəsb edir. İnsan ehtiyatlarına kapital qoyuluşu innovasiya imkanlarının əsas dəyərlər kimi qiymətləndirildiyi mədəniyyət sisteminin formalaşdırılmasını zərurətə çevirir. Bu mədəniyyətin əsas məsələsi bütün struktur səviyyələrdə şəxsiyyət və mənəvi ehtiyatların mobiləşdirilməsilə bağlıdır. Texniki-texnoloji, idarəetmə, müştərilər və istehlakçılarla münasibətlər sistemində eyni vaxtda aparılan innovasion dəyişikliklər uğurlu ola bilər. İnnovasion davranış subyektinin formalaşdırılmasının əsas üstünlüyü təlimdir. Yeni təşkilati mədəniyyətə daxil olan insan bilməlidir ki, onun təhsili, yüksək peşəkarlıq səviyyəsi, həmçinin yaradıcılığa meyli, mobillik və təşəbbüskarlığı həm şəxsiyyətin özü, həm də onun daxil olduğu təşkilat üçün böyük dəyərə malikdir. Buna görə də şəxsi xüsusiyyətlər, keyfiyyətlər həm şəxsiyyət, həm də təşkilat üçün uğur meyarıdır. Şəxsiyyətin inkişafına, münasibətlər və mədəniyyət sisteminə kapital qoyuluşu həm formal liderlər tərəfindən inzibati yolla, həm də qeyri-formal liderlərin təşəbbüsü ilə həyata keçirilir. Belə ki, innovasion fəaliyyət yalnız icraçıların razılığı ilə məhdudlaşdırılmamalıdır. Xarici və daxili dəlillər yanaşı formalaşır. Yeni mədəniyyət sosial mədəniyyətin çevikliyi, vasitəsiz əlaqələr, həmçinin fəaliyyətin və uyğun məsuliyyətin müstəqil müəyyənləşdirilməsi şəraitində təşkilat çərçivəsində innovasion davranışın fəallaşdırılması və innovasion davranış subyektlərinin təşkilatın inkişafına yönəldilməsinə imkan yaradır.

## YOXLAMA SUALLAR

1.Sosial parametrləri necə fərqləndirilir?
2.Maddi texniki yeniliklər dedikdə nə nəzərdə tutulur?
3. Sosial yeniliklər necə təsnif edilir?
4.Təşkilat daxilində yeniliklər etmək üçün hansı şərtlər nəzərə alınmalıdır?

## REFERAT MÖVZULARI

1. Sosial layihələşdirmə və sosial innovasiyalar
2.Sosial innovasiyaların təbiəti və strukturu
3.Sosial yeniliklərin tətbiq edilməsi. «Futurofobiya» effekti
4.Sosial yeniliklərin parametrləri və sistemləşdirilməsi
5.Təşkilatda yeniləşmə vəziyyətlərinin layihələşdirilməsi

## ƏDƏBİYYAT:

1.Александров В.А. Прогнозирование и управление нововведениями. Минск, 1988.
2. Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
3.Бестужев-Лада И.В. Нормативное социальное прогнозирование: возможные пути реализации целей общества: опыт систематизации. М., 1987.
4.Бжилянская Л. Инновационная деятельность // Экономист. 1996. №3.
5.Бизнес-план инвестиционного проекта/ Под. ред. В. А. Дятлова. М, 1997.
6.Бородин А. Маркетинг технологических нововведений // ЭКО. 1997. №2.
7.Дудченко В.С. Инновационные игры. М., 1989.
8.Дудченко В.С. Инновационные технологии: Учебно-методическое пособие. М., 1996.
9.Карлоф Б. Деловая стратегия. М., 1991.
10.Косалс Л.Я. Социальные механизмы инновационных процессов. Новосибирск, 1989.
11. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
12.Луков В. А. Социальное проектирование. М.: Изд-во Моск. гуманит ун-та: Флинта, 2006.
13.Норкотт Д. Принятие инвестиционных решений. М., 1997.

## 18.2 SOSİAL MƏDƏNİ LAYİHƏLƏŞDİRMƏ

Sosial dəyişikliklərlə bağlı olan məqsədyönlü sosial mədəni fəaliyyətin digər metodları ilə müqayisədə layihələşdirmənin metod və texnologiyaları proqramlaşdırma və planlaşdırmaya xas olan normativ və diaqnostik yanaşmaları özündə birləşdirir. Proqram hazırlanarkən dəyişikliklərin normativ tərəfi xüsusi olaraq vurğulanır, yəni «zəruri olan»ın təsviri vəziyyətin diaqnozu və mövcud ehtiyatların qiymətləndirilməsi ilə müqayisədə üstün mövqe tutur, bununla əlaqədar proqramın ümumi strategiyası çox abstrakt olur. Planlaşdırma metodikası isə əksinə məqsəd, nəticə və fəaliyyət vasitələrini daha müfəssəl əks etdirir. Layihə qərarı isə direktiv, yaxud dəqiq xüsusiyyətə malik deyil, yəni hər hansı reallaşdırılacaq tədbir və nəticələri əks etdirən normativ sənəd deyi. Sosial mahiyyətli problemin həlli ilə bağlı model və nümunələri hazırlayan layihələşdirmə konkret vəziyyətin həllinə yönəlmiş və elmi əsaslandırılmış idarəetmə tədbirlərindən ibarətdir. Normativ və diaqnostik xüsusiyyətləri özündə birləşdirən layihələşdirmədə, ilk növbədə mövcud ehtiyatlar əsasında «zəruri olanın» modeli hazırlanır, sonra isə problem onun ümumi həlli imkanları ilə uyğunlaşdırılır, məqsədə nail olmanın alternativ yolları seçilir, problem vəziyyətin xüsusiyyətlərinə uyğun problemin həllinin zaman çərçivəsi müəyyənləşdirilir. Sosial mədəni layihələşdirmə xüsusi texnologiya olub, konstruktiv, yaradıcı fəaliyyət forması kimi problemin analizi və onların əmələgəlmə səbəblərini aşkar edir, obyektin arzu edilən vəziyyətini xarakterizə edən yollar və vasitələr işləyib hazırlayır. Sosial mədəni layihələşdirmənin obyekti mürəkkəb törəmə kimi iki alt sistemdən – sosium və mədəniyyətdən ibarətdir. Sosial mədəni layihə sosial və mədəni təzahürlərin qorunması və ya təkrar istehsalı vasitəsi kimi çıxış edir.

Problem-məqsədli layihələşdirmənin əsas məqsəd yönümləri aşağıdakılardan ibarətdir:

a) sosial mədəni subyektin (şəxsiyyət, icma, cəmiyyət) inkişafı üçün şəraitin yaradılması, sosial mədəni mühitlə əlaqələrin səmərələşdirilməsi əsasında fəaliyyət sahəsində insanın özünüreallaşdırmasına şərait yaradılması, problemin həll edilməsi, yaxud azaldılması, mədəni mühitdə insanların birgə fəaliyyətinin aktivləşdirilməsi, şəxsi cəhdlərlə konstruktiv dəyişdirilməsi.

b) özünütəşkilatlandırma mexanizmləri əsasında mədəni həyatın özünü inkişaf etdirməsi üçün əlverişli şəraitin yaradılması, tarixi və yeni formalaşmış sosial mədəni texnologiyalar, elementlər, təzahürlərin dərk edilmiş uyğunlaşdırılması və müdafiəsi.

Sosial mədəni layihələşdirmə fəaliyyətinin əsas məsələsi aşağıdakı kimi müəyyənləşdirilir:

1.Vəziyyətin analizi, yəni problemin hərtərəfli diaqnostikası və onun mənbəyinin və xüsusiyyətlərinin dəqiq müəyyənləşdirilməsi.

2.Mövcud ehtiyatlar nəzərə alınaraq problemin həll edilməsi variantlarının (fərdi və sosial səviyyəli) axtarışı və hər bir variantın reallaşdırılmasının mümkün nəticələrinin qiymətləndirilməsi.

3.Daha optimal həll variantının seçilməsi (layihələşdirmə obyektinə dair arzu edilən dəyişikliklər aparmaq üçün sosial və mədəni məsləhətlərin hazırlanması) və layihəsinin hazırlanması.

4.Layihənin maddi-texniki, maliyyə, hüquqi əsaslarda reallaşdırılması və tətbiq edilməsilə bağlı təşkilati formasının hazırlanması.

Sosial mədəni layihələşdirmənin əsas nəticələri proqram və sosial layihədə öz əksini tapır.

**Sosial proqram** müəyyən ərazi miqyasında mədəni həyatın səmərələşdirilməsi, yəni mədəni dəyərlərin, normaların, ənənələrin, texnologiyaların yaradılması, qorunması, ötürülməsi və inkişafı ilə bağlı sənəddir. Sosial proqram sosial mədəni vəziyyətin analizi və mədəni inkişafın əsaslandırılması ilə yanaşı müəssisə və təşkilati idarəetmə strukturlarının funksional məzmunlu modelinin, həmçinin maddi-texniki, təşkilati, informasiya təminatı ilə bağlı tədbirlər, ideyalar, təşəbbüslərin reallaşdırılmasına yönəlir.

Sosial layihənin iki forması fərqləndirilir:

1) proqramın tərkib hissəsi kimi ərazinin sosial mədəni inkişaf istiqamətinin müəyyənləşdirilməsi forması kimi;

2) müəyyənləşmiş auditoriyaya yönəlmiş proqram problemin müstəqil həlli variantı kimi.

Həm birinci, həm də ikinci halda layihə lokal proqram kimi sosial mədəni mühitdə və şəxsiyyətin həyat fəaliyyətinin əsas sahələrindəki fərqli problemlərlə bağlı mahiyyət və struktur dəyişikliklər aparmaqla aradan qaldırılmasına yönəlib. Layihələşdirmənin əsas struktur elementi tədqiqat fəaliyyətidir, belə ki məhz layihəçi bu və ya digər fəaliyyət sahəsinin real funksiyalaşma problemlərini (regionun mədəniyyətini, şəxsiyyətin, sosial qrupun fəaliyyət mühiti və şəraitini və s.) bilməli, tamın ideal vəziyyəti və bu vəziyyətin saxlanması haqqında təsəvvürə malik olmalıdır. Sosioloji tədqiqatların nəticəsi olan empirik məlumatlarla yanaşı son məhsula dair ideal düşünülmüş təsəvvür də layihənin əsasını təşkil edir. Layihələşdirmənin obyekt sahələri olan sosium və mədəniyyət layihə çərçivəsində təkmilləşdirilən nəzəri model kimi qəbul edilir. Problemin aşkar edilməsi üçün

sosium və mədəniyyət hissəli tədqiq edilir. Qeyd etmək olar ki, problemin aşkar olunması, məqsədyönümlük və alətlər kompleksinin müəyyənləşdirilməsi birlikdə layihə fəaliyyətinin strukturunu və alqoritmini təşkil edir.

Məqsədyönümlük prosesi vəziyyətin təhlili və daha aktual problemlərin aşkar edilməsi ilə başlayır və layihə məhz həmiq problemin həll edilməsi, yaxud səmərələşdirilməsinə yönəlir. Təhlil edilən əsas göstərici kimi aşağıdakılar çıxış edə bilər:

1) Şəraiti və bütövlükdə cəmiyyətin funksiyalaşması şərtlərini xarakterizə edən vəziyyət;
2) Sahəsi bu və ya digər ərazi-inzibati vahidi (region, şəhər, rayon, qəsəbə) ilə üst-üstə düşən lokal vəziyyət;
3) Əhalinin müəyyən kateqoriyası, yaxud qrupunun həyat fəaliyyətinin konkret vəziyyət və şərtlərinə əsaslanan vəziyyət.

Sosial, lokal və fərdi vəziyyətlərin fərqləndirilməsi layihələşdirmə çərçivəsində hazırlanmış qərarların qarşılıqlı əlaqəliliyini və bir vəziyyətdən digərinə ardıcıl keçidini təmin edir.

**Layihə, yaxud proqramın (federal, regional, lokal) məqsədli əsaslandırılması** vəziyyətin hərtərəfli təhlilini və bu əsasda – 1) layihələşdirmənin üstün sahələrini və 2) layihənin ünvanlandığı əhalinin və sosial qrupun kateqoriyasını müəyyənləşdirməyi nəzərdə tutur.

**Layihələşdirmənin üstün sahələri** dedikdə, sosial mədəni həyatın sosial və şəxsiyyət çərçivəsində daha dəyərli olan və insanın həyat fəaliyyətinin optimallaşdırılması imkanlarına və ehtiyatlarına malik olan, problemin maksimum təmərküzləşməsi ilə xarakterizə olunan sahələr nəzərdə tutulur. Layihələşdirmənin üstün tərəflərinin aşkar edilməsi mövcud vəziyyətin təhlilindən başlayır.

**Layihə sosiumu** sosial mədəni və şəxsiyyət problemlərinin daşıyıcıları olan və sosial və mədəni xüsusiyyətlərinə görə fərqlənən sosial birlik, sosial təbəqə, yaxud qrupdur. Bu zaman problemli vəziyyət dəqiq müəyyənləşmiş, müəyyən problemlər daşıyıcısı olan sosial mədəni subyektə malik olur və layihənin məzmunu həmin subyektlə bağlı olur. Bu layihənin hüdudları ərazi, sosial demoqrafik, etnik, peşə, yaxud yaş göstəriciləri əsasında müəyyənləşir.

Sosial mədəni layihələşdirmədə **layihələşdirmə subyekti** olan birliyin xüsusiyyətlərini əks etdirən əsas parametrlər nəzərə alınmalıdır:

- problem daşıyıcısı olan sosial birlik;
- icma daxilində davranış və sosial qarşılıqlı təsiri tənzimləyən sosial mədəni xüsusiyyətlər (dəyərlər, adətlər, ənənələr);

- icma üzvlərinin problem vəziyyətin həlli üçün istifadə edilən bilikləri, bacarıqları və adətləri;
- icma üzvləri üçün əldə edilən və layihənin reallaşdırılması gedişinə təsir edən ehtiyatlar.

Layihələşdirmənin alətlər kompleksi, metodikası və texnoloji hissəsi məsələnin həlli üçün zəruri olan ehtiyat və vasitələrin, məqsədlərə nail olma metodlarının, həmçinin layihənin reallaşdırılması gedişində subyektlərin cəhdlərinin təşkilatlandırılması formalarının aşkar edilməsinə yönəlir. Sosial mədəni layihələşdirmənin metodları məsələnin məqsəd və həlli üsulları, layihələşdirmə vasitələri isə, məqsədə nail olma ilə bağlı vasitə və əməliyyatlardır. Sosial mədəni fəaliyyət forması nizamlanmış fəaliyyət olub, layihənin məzmunun, metod, vasitə, icraçılar və auditoriyasının təşkilatlandırılması ilə bağlıdır. Sosial mədəni layihələşdirmənin təcrübi tədbirləri layihənin məqsədlərinin reallaşdırılması üçün istifadə edilən əsas alətlər kompleksini əks etdirir. Burada layihənin başlanğıcı və reallaşdırılması mərhələləri qeyd olunur, fəaliyyətin istiqaməti, növləri, formaları və mahiyyəti müəyyənləşdirilir, hər bir mərhələdə məqsəd və vəzifələrin reallaşdırılması üçün zəruri olan əlavə ehtiyatlar cəlb edilir. Hər hansı bir layihə çərçivəsində tədbirlərin mahiyyəti mütəxəssislərlə birlikdə müəyyənləşdirilir.

Layihələşdirmə subyektləri, mütəxəssislərilə yanaşı:
- Mədəniyyət sahəsinə dair qərarlar qəbul edən və proqram və layihələrin hazırlanması və təsdiqi ilə bağlı olan orqanlar;
- Dövlət və qeyri-dövlət müəssisələri və təşkilatları, elmi və ekspert şuraları;
- İctimai təşkilatlar layihənin iştirakçıları kimi müəyyənləşdirilə bilər.

Layihə və proqramların mahiyyəti mədəni siyasətin iki əsas strategiyası (mədəniyyətin qorunmasına istiqamətlənmə və innovasion elementlərin tətbiq edilməsi) yönümündə müəyyənləşir. Layihə və proqramların əsas məqsədi mədəniyyətin qorunması və təkrar istehsalını təmin edən şəraitin yaradılmasıdır. Bu zaman –
- sosial mədəni mühitə xas olan yaşamağa qabil dəyərlər və təzahürlərin qorunması (əşyavi-məkanda tarixi və mədəni abidələrin, memarlıq mühitinin qorunması, bərpası və yenidən qurulması; insanlar arasındakı münasibətlərdə müasirliyə uyğun olan ənənəvi davranış və ünsiyyət nümunələrinin qorunması; idraki dəyərləndirmə mühitində keçmiş humanitar mədəniyyət mətnlərinin qorunması və mədəni dövriyyəyə daxil edilməsi).
- aktual məkanda mədəni irsin (keçmiş mühitin elementlərinin, yaşamağa qabil ənənələri, adətləri, mərasimlərinin və s.) mənimsənilməsi və istifadə edilməsi nəzərdə tutulur.

Layihə çərçivəsində mədəni innovasiyaların məqsədyönlü müdafiəsi dedikdə,

- müasir sosial mədəni şəraitdə ən yaxşı ideya və texnologiyaların optimal mövcudluğunun aşkar edilməsi, genişləndirilməsi və yayılması (məs., insanın mühitdə ekoloji təhlükəsiz mövcudluq vasitələrinin, yaşayış məntəqələrində məkanın memarlıq nümunələrinin, abidə, tətbiqi incəsənət, dizaynın optimal təşkilatlandırılması);
- sosial və şəxsiyyət mövqeyindən insanlar arasındakı rol və qeyri-formal əlaqələrin yeni formalarının, şəxsiyyətlərarası qarşılıqlı təsir vasitələrinin səmərəli mənimsənilməsi;
- problem vəziyyətdə olan insanların mövcud problemləri həll etməsi üçün onların müasir elmi biliklərlə təchiz edilməsi.

Sosial mədəni layihələşdirmənin texnologiyası layihəçinin dünyagörüşü, onun özünütəyinetmə mövqeyi ilə bağlı olur. Layihəçinin mövqeyindən asılı olaraq, layihə strategiyasının iki forması fərqləndirilir:

- Layihə obyekti olan mədəniyyətin maksimum dərk edilməsi və xüsusiyyətlərinin nəzərə alınmasına yönələn strategiyada layihənin məqsədi regionun mədəni mühitinin, yəni layihə obyektinin mühafizəsini təmin edəcək şəraitin yaradılması və mədəniyyət subyektinin özünüinkişafı ilə bağlı olur.
- Şəxsi mədəni nümunələrin (dəyərlər, normalar, texnologiyalar) «özgə» mədəniyyətə ixracına yönəlmiş ikinci tip strategiyalara əsasən mədəni nümunələr şəklini dəyişərək, yeni forma alır. Müasir inkişaf etməkdə olan ölkələrdə modernləşmə prosesləri buna nümunə ola bilər. Belə ki, bu ölkələrdə modernləşmə prosesi mövcud modernləşmə modelləri əsasında baş verir. Mədəni nümunə modernləşmənin subyekti kimi qəbul edilir və layihədə yad mədəni dəyərlərin tətbiq edilməsi şərtləri ilə yanaşı mümkün müqavimətin aradan qaldırılması mexanizmləri də işlənib hazırlanmalıdır.

Sosial mədəni layihələşdirmənin təbiətini təhlil etmək üçün sosium, sosial, mədəni və sosial mədəni fəaliyyət anlayışları dərk edilməlidir. Sosium təzahür, təhlil predmeti və layihələşdirmə obyekti olduğundan universal, tipik və sabit ictimai törəmə olan sosial subyektlər (sosial qrup, təşkilat, institut), həmçinin «sosial mexanika» prosesləri, yəni sosial qarşılıqlı təsir, münasibətlər kimi qəbul edilə bilər. Sosial problemin araşdırılmasında nüfuz və sosial rol əsas rol oynayır.

Mədəniyyət insanın fərdi özünütəyinetməsini, insan birliklərinin möhkəmlənməsini təmin edən sosial yönüm funksiyasını yerinə yetirən və sosial birliyə xas olan ənənələr, normalar, dəyərlər, mənalar, ideyalar, işarələr sisteminin (geniş mənada etnos, millət, cəmiyyət) nəticəsi kimi çıxış edir. Prosessual planda mədəniyyət varlığın və şüurun fərqli sahələrində formalaşan

fəaliyyət olub, təbii təmayüllərin və imkanların dəyişdirilməsi üsulu kimi əşyaviləşmənin (istehsal) və qeyri-əşyaviləşmənin (istehlak) vəhdəti əsasında (ənənələrin, normaların, dəyərlərin, ideyaların yaradılması və əsaslandırılması, qorunması, ötürülməsi və onların şəxsiyyətin daxili keyfiyyətlərinə çevrilməsi) müəyyənləşir.

«Sosial» və «mədəni» anlayışları bir-birilə ilə sıx bağlıdır və hər bir sosial təzahürdə mövcud olan insan sosial proqramda mədəni dəyərlər daşıyıcısı kimi çıxış edir. Məhz insan sosial strukturun, münasibətlərin və mədəni proseslərin ilkin atomudur.

Sosium sosial rol çərçivəsində öz təbiətinə, öz «Milli dünyasının» təbiətinə özgələşir. Mədəniyyət dil, irs, Milli psixologiya əsasında Milli dünyaya doğru inkişaf edir. Sosiumun mahiyyəti insanı ictimailəşdirmək və bu istiqamətdə onu zəruri texnologiya və rollarla təmin etməkdir. Mədəniyyətin mahiyyəti şəxsiyyətin mənəvi tam kimi formalaşması, insanın sosial rollar hüdudlarını dəf etməsinə şərait yaradılması ilə bağlıdır. Sosial fəaliyyət məqsədyönlü fəaliyyət olub, sosial dəyərlər və sosial mahiyyətə əsaslanır.

Sonsuz keçmişə və çoxvariantlı gələcəyə yönələn mədəniyyətdən fərqli olaraq, sosial subyekt mədəniyyət daşıyıcısı kimi həmişə zaman məhdudiyyətinə malikdir, məhz sosiallıq əsasında mədəniyyət məkanda müstəsnalıq kəsb edir. Sosial mədəni fəaliyyət kateqoriyası mədəniyyət daşıyıcısı olan fəaliyyət subyektini və onun fəaliyyət sahəsi və keyfiyyətini ifadə edir. Sosial mədəni fəaliyyət mahiyyətcə sosial subyektin (şəxsiyyət, icma, sosial institut, etnos, millət), mədəni ənənələrin, dəyərlərin və normaların (bədii, tarixi, mənəvi, ekoloji, siyasi və s.) yaranması, mühafizəsi, ötürülməsi, mənimsənilməsi və inkişafı ilə bağlı fəaliyyət kimi müəyyən edilə bilər.

Sosial mədəni layihələşdirmənin əsas mahiyyəti kimi çıxış edən mədəniyyət insanın və bəşəriyyətin ideal-mənəvi enerjisinin mərkəzləşməsi, insan həyatının bütün sahələrinin xüsusi keyfiyyət ölçüsü, təbiətin, cəmiyyətin və insanın təbiətinin mənimsənilməsi və dəyişdirilməsilə bağlıdır. Layihələşdirmə mədəniyyətin əsas xüsusiyyəti kimi onun funksiyalaşmasının müxtəlif səviyyələrində izlənilir: prosessual (institutlaşma və qeyri-institutlaşma kimi), əşyavi-nəticəli, dəyər-normativ.

İnsan fəaliyyəti ilə bağlı proses və xüsusi keyfiyyət forması kimi mədəniyyət şəxsiyyətin, sosial qrupun, institutların, bütövlükdə cəmiyyətin fərdi və ictimai fəaliyyət formalarında təzahür edir. Həm institusional, həm də qeyri-institusional səviyyədə bu fəaliyyət dəyərlərin, ənənələrin, normaların, ideyaların istehsalı və mənimsənilməsi, mühafizəsi, müdafiəsi və ötürülməsilə bağlıdır. Mədəni sistemin ümumi dinamikasında institusional və qeyri-

institusional funksiyalar xüsusi əhəmiyyət kəsb edir. Özünü inkişaf etdirən sistem kimi mədəniyyət rəsmi və qeyri-rəsmi cərəyanların vəhdəti, qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığıdır. İnstitusional funksiya sosial institutların və dövlət ideologiyasının mühafizə etdiyi mədəni dəyərlər və normalarla müəyyənləşir. Qeyri-institusional funksiya ictimai fəaliyyətin müxtəlif formalarında (birlik, klublar, təşkilatlar, hərəkatlar və s.) təzahür edir.

Prosessual səviyyədə mədəniyyətin sosial mədəni layihələşdirilməsi insan fəaliyyətinin dəyərlər və keyfiyyət sisteminin öyrənilməsinə və iki əsas məsələnin həllinə yönəlir:

1) layihə fəaliyyətinin əsas sahələrini müəyyənləşdirmək (bədii, ekoloji, siyasi, mənəvi mədəni səviyyədə şəxsiyyətlərin, qrupların, sosial institutların uyğun sosial mədəni fəaliyyəti);

2) layihə qərarlarının sosial bazasının, yəni layihənin real, yaxud potensial auditoriyası kimi qəbul edilən sosial qrupların və sosial kateqoriyaların aşkar edilməsi.

Bu səviyyədə mədəniyyətin analizi – şəxsiyyət, sosial qrup, etno mədəni icma, region, cəmiyyət səviyyəsində sosial mədəni proseslərin tənzimlənməsi mexanizmlərinin axtarışı; müxtəlif mədəniyyət subyektlərinin (özfəaliyyət qruplarının, birliklərin, klubların, assosiasiyaların, hərəkatların) əmələ gəlməsi və inkişafı şəraitinin səmərələşdirilməsi; dövlətin mədəniyyət siyasətinin metodoloji əsaslarının işlənib hazırlanması; mədəni fəaliyyətin ictimai və şəxsiyyətlə bağlı əsas istiqamət və formalarının müdafiəsi ilə bağlıdır.

Mədəniyyətin maddi səviyyəsi mədəni fəaliyyətin məhsulu kimi idealın əşyavilәşməsi, yaxud əşyada təcəssüm tapması ilə bağlıdır. Dəyərlər və ideallar mədəniyyətin mənəvi zənginliyini və unikallığını əks etdirir. Dəyər kateqoriyaları insanın və cəmiyyətin ideal vəziyyətini əks etdirir. İdealın xüsusiyyətləri yalnız mədəniyyətin mənəvi unikallığını deyil, həm də onun mühafizə və dəyişmə meylli ümumi istiqamətini müəyyənləşdirir. Bununla əlaqədar olaraq, mədəni meyarları iki tipə bölmək olar: mühafizə mexanizminə malik ənənəvi mədəniyyət və dəyişmə mexanizminə malik innovasion mədəniyyət. Ənənəvi mədəniyyət keçmişə yönəlir, bu mədəniyyətdə ideal mühafizə istiqamətli olub, dəyişikliklərin neytrallaşdırılmasına, mövcud ideal vəziyyətin qorunub saxlanmasına yönəlir. Ənənəvi mədəniyyət statik, özünütamamlayan, dialoqsuz olub, ümuminin xüsusi (cəmiyyətin şəxsiyyət) üzərində hakimiyyətini əks etdirir. İnnovasion mədəniyyət bu günə və sabaha yönəlib, ictimai həyata gərginlik, qeyri sabitlik gətirir. Bu mədəniyyətdə şəxsiyyət müdafiədən məhrumdur, tənhalıq hiss edir, ümumidən təcrid edilib.

Sosial mədəni layihələşdirmənin predmeti olan prosessual, əşyavi və ideal «mədəni dünyalar» insanın inkişaf səviyyəsini, həmçinin cəmiyyətin, bəşəriyyətin mədəni inkişafının yeni dövrünü müəyyənləşdirir. Bu səviyyə insanın mədəni məskunlaşma mühitindən, onun əşyavi və mənəvi mühitinin mahiyyət və keyfiyyətindən asılı olub, mədəni fəaliyyətdə mənimsənilir.

Mədəni sahənin layihələşdirilməsi xüsusiyyətləri kimi aşağıdakılar nəzərə alınmalıdır:

- müasir mədəni siyasətə uyğun olaraq, ənənəvi sahə ilə bağlı müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi və yenidən istiqamətləndirilməsi;
- ərazinin mədəni inkişafına imkan yaradan yeni tipli müəssisə və institutların yaradılması (məsələn, ənənəvi xalq mədəniyyəti mərkəzlərinin, xalq yaradıcılığı evləri, klub-muzeylər, mədəni mərkəzlərinin və s. layihəsi).

Mədəni infrastruktur insanın sosial mədəni mühitinin əsas elementi kimi çıxış edir. İnfrastrukturun inkişaf sahəsinə dair layihə qərarları aşağıdakı göstəricilər əsasında formalaşır:

- Asudə vaxt, tərbiyə və əmək funksiyalarını yerinə yetirən sosial-pedaqoji və mədəni mərkəzlərin yaradılması.
- Sosial gərginliyin aradan qaldırılmasına yönəlmiş müəssisələrin təbliği və himayə edilməsi (siyasi klublar, mədəni maarif cəmiyyətləri, Milli mədəni mərkəzlər və s.).
- Xüsusi yerli mədəni mərkəzlərin – xalq muzeylərinin, şəxsi kolleksiyalar muzeylərinin, ev kitabxanalarının, sərgilərin və s. yaradılması.
- Asudə vaxtın mədəni təşkili üçün yararlı olan qeyri yaşayış fondlarının, müəssisələrin və onların filiallarının bərpası (həmçinin asudə vaxtın təşkili ilə bağlı mədəni mərkəzlər üçün yararlı olan müəssisə və ərazilərin qurulmasına əhalinin cəlb edilməsi).

Bu layihələşdirmə tədbirlərinin strateji məqsədi əhalinin bütün sosial qrupları və kateqoriyaları üçün mədəni dəyərlərin əldə edilməsini təmin etmək, mədəni həyat subyektlərinin müxtəlifliyini stimullaşdırmaq, sosial mədəni proqramların alternativlərini reallığa çevirməkdir.

Sosial mədəni layihələşdirmənin tətbiqi məsələlərinin həllinə yönəlmiş ərazi səviyyəsi müəyyən ərazidə mədəniyyəti mövcudluq və inkişafın çoxsahəli mühiti və mədəni siyasət və layihələşdirmənin obyekti kimi qəbul edilir. Bu zaman ərazi, yaxud region anlayışı ilk növbədə inzibati vahid mənasında işlədilir. Mühiti yanaşmanın reallaşdırılması üçün layihələşdirmədə ərazinin digər xüsusiyyətləri nəzərə alınmalıdır:

1)insanın regionun təbii mühitini mənimsəməsi və uyğunlaşması xüsusiyyətlərini və səviyyəsini əhatə edən ***landşaft-ekoloji hüdudlar***;

2)maddi mühitə yaradıcı yanaşmanın ifadəsi olan ***memarlıq-planlaşdırma mühiti***;
3)həyat fəaliyyətinin struktur və funksional qarşılıqlı əlaqəli sahə və formalarından (yaşayış məskəni və əmək fəaliyyəti, xidmət sahəsi, KİV) ibarət olan ***sosial infrastruktur***;
4) müəyyən ərazidə məskunlaşmış etnik qrupların mədəni xüsusiyyətlərinin öyrənilməsini ifadə edən ***etnomədəni əsaslar***;
5) tarixi mədəni potensial;
6) ərazinin etnomədəni tərkibi əsasında müəyyənləşən mənəvi mədəni birlik.

Sosial mədəni sahəni – ideyalar, təşəbbüslər, texnologiyalar, ənənələr və müəyyən problemlər daşıyıcısı olan mədəni fəaliyyət subyektlərinin məcmusu kimi müəyyənləşdirmək olar. Layihələşdirmə prosesində regionun tarixi mədəni özünəməxsusluğunun (ənənələr, adətlər, mərasimlər, bayramlar, oyunlar, musiqi və poeziya yaradıcılığı, xalq pedaqogikası, təbiətşünaslıq, tibbi bilikləri, tarixi və mədəni abidələri, unikal təbii landşaft əraziləri, etnomədəni xüsusiyyətləri, insan ehtiyatları və s.) öyrənilməsi və nəzərə alınması zəruridir.

Ərazi-mühiti yanaşma layihə fəaliyyəti obyektinin bir sıra üstünlüklərinin aşkar edilməsinə şərait yaradır. Bu zaman layihələşdirmə fəaliyyətilə bağlı mədəni siyasət sahəsi genişlənir, insan ehtiyatları fəallaşır, ərazinin tarixi mədəni ehtiyatları istifadə edilir, maliyyə ehtiyatları aşkar edilir. Bu yanaşmanın layihə əsasında reallaşdırılması mədəni müəssisələrin, asudə vaxtın, idmanın, təhsilin təsisat əlaqəsizliyinin aradan qaldırılmasına və vahid proqram çərçivəsində onların infrastrukturunun səmərəli istifadə edilməsinə şərait yaradır.

Sosial mədəni layihələşdirmənin ***əsas (ümumi) prinsipləri*** aşağıdakılardan ibarətdir:

1.***»Mümkün modifikasiya və modernləşmə həddi» proqramı*** özünütəşkilatlandırma və özünüinkiaf subyekti olan layihələşdirmə obyektinin idarə edilməsi hədləri və imkanlarının, sosial mədəni proseslərin islah edilməsi səviyyəsini və bu modifikasiyanın (dəyişmənin) sosial əhəmiyyətli nəticələrinin nəzərdə saxlanmasını təklif edir. Təcrübi əsaslarda bu prinsip sosial mədəni həyat subyektlərinə maksimum təşkilati-hüquqi müstəqillik verir, onu insanın, təbiətin, dünyanın məhvinə yönəlmiş zorakı dəyişiklilər ideyasına qarşı qaldırır və subyektin özünütəşkilatlandırması və özünü inkişaf etdirməsinə şərait yaradılması fikrini aşılayır. Bu prinsip ərazidə sosial mədəni subyektlərin özünüinkişafı və özünütəşkilatlandırması proseslərinə şərait yaradılması və səmərələşdirilməsi sisteminin yaradılmasına yönəlmiş reqional mədəni proqramların strateji məsələsi kimi qəbul edilə bilər.

2.*Şəxsiyyətin «yaxın inkişaf zonalarının» səmərələşdirilməsi proqramı* sosial mədəni mühitin məskunlaşması ilə bağlıdır. Bu prinsipə əsasən layihələşdirmənin əsas məqsədi arzu edilməyən problemlərin həll edilməsi, yaxud aradan qaldırılması yolu ilə sosial mədəni subyektin özünüinkişafı şərtlərinin işlənib hazırlanmasına yönəlir. Bu prinsipin reallaşdırılmasını sosial mədəni layihələşdirmədə mühiti yanaşmanın ifadə olunması kimi qəbul etmək olar.

3.***Sosial mədəni layihələşdirmə prosesinin və nəticələrinin şəxsləndirilməsi proqramı*** mədəni fəaliyyət vasitələrilə insanın müstəqil özünüreallaşdırmasına şərait yaradan ideya və layihələrin alternativliyini əks etdirir. Bu prinsip mədəni proseslərin yaradıcı şəxslə əlaqələrinin bərpasına, gizli mənəvi dəyərlərin aktuallaşmasına yönəlir.

4.***Mühafizə və dəyişikliklərə optimal yönəlmə proqramı*** (yəni, mədəni dinamikanın ənənəvi və innovasion mexanizmləri və prinsiplərinin mütənasibliyi) mədəni irsin təkrar istehsalı proseslərilə mədəni innovasiya prosesləri arasındakı optimal münasibətlərə əsaslanır. Bu prinsip bir sıra şərtlərlə bağlıdır:

a) Mühafizə və dəyişikliklər prosesləri hər hansı bir mədəni sistemin əsas mexanizmləridir. Mühafizə – norma, dəyərlər, davranış qaydalarının, bütövlükdə mədəniyyət institutunun yeni nəsil tərəfindən təkrar istehsalına yönəlmiş sosiallaşma prosesidir. Dəyişiklik – dünya görüşü və həyat tərzini dəyişən, mədəniyyətə və sosiuma qeyri-müəyyənlik elementi gətirən yeni norma və dəyərlərin yaranmasıdır.

b) Mədəni dinamikanın ənənəvi və innovasion mütənasibliyi prinsipinin reallaşdırılmasının zəruriliyi mühafizənin dəyişikliklər üzərində üstünlüyü ilə bağlıdır.

c) Müasir sosial mədəni vəziyyətin dinamikliyi, həmçinin fəal modernləşmə şəraitində mühafizənin kompensator (tarazlaşdırıcı) imkanları qeyd edilən prinsipin reallaşdırılması şərtlərindən biri kimi çıxış edir.

**5. *Problem məqsədli yönəlmə proqramı*** sosial mədəni layihələşdirmənin əsas texnoloji prinsipidir. Bu prinsipin reallaşdırılması ilk növbədə müxtəlif növ problemlərin həllinə dair proqramların məqsədli yönəldilməsilə bağlıdır. Layihələşdirmənin müxtəlif mərhələlərində bu prinsip əsas problem sahələrin (bütöv ərazinin, sosial qrupların və şəxsiyyətlərin) araşdırılmasına; onların qeyri adi həlli yollarının axtarışına; zəruri ehtiyatların hesablanmasına və maliyyələşmə mənbələrinin axtarışına; layihənin reallaşdırılmasında maraqlı olan bütün sosial mədəni subyektlərin birgə fəaliyyətə cəlb edilməsinə yönəlir. Problem məqsədli yönəlmə prinsipinin reallaşdırılması mədəniyyətin hüdud və funksiyalarına dair daha geniş təsəvvürlərin əldə edilməsini tələb edir,

siyasi mədəniyyət və layihə obyektinin fəaliyyət sahəsini genişləndirir. Bu prinsipin üstünlüyü aşağıdakılarla bağlıdır:
a) Əhalinin maraqları və tələbatlarının öyrənilməsi üçün istifadə edilən və bahalı, uzun müddətli və az səmərəli sosioloji tədqiqatlara tələbat aradan qalxır, problemlər əsas, maraqlar və tələbatlar isə ikinci dərəcəli amilə çevrilsə də proqram hazırlanarkən və reallaşdırılarkən mütləq nəzərə alınır. Layihənin mahiyyəti araşdırılarkən proqram auditoriyası olan sosial qruplara xas problemlər öyrənilməlidir.
b) Sosial mədəni proqramların geniş həcmli problemlərin həllinə yönəldilməsi sosial mədəni fəaliyyət sahəsini genişləndirir, mədəniyyətşünaslıq və sosial pedaqoji istiqamətli ixtisasların ictimai mahiyyətini və nüfuzunu artırır və onların sosial tələbatını təmin edir.
c) Layihə və proqramların problem yönümlüyü insanların maraqlarının və layihə məqsədlərinin üst-üstə düşməsi əsasında ünvanlanmış şəxslərin iştirakını fəallaşdırır.
ç) Sosial mədəni proqramların maliyyələşdirilməsi üçün əlavə vasitələrin cəlb edilməsinə səbəb olur.
d) Layihə çərçivəsində fəaliyyətin məqsədələr, vəzifələr və mahiyyətinin problemli əsaslandırılması təsisat əlaqəsizliyinin aradan qaldırılmasına, ayrı-ayrı subyektlərin və müəssisələrin vahid məqsəd ətrafında birləşdirilməsinə və hər bir ehtiyatın daha səmərəli istifadəsinə şərait yaradır.

Sosial mədəni layihələşdirmənin xüsusi prinsipləri aşağıdakılardır:
1)***Layihələşdirilən dəyişənlərin mütənasiblik proqramı***, yəni dəyişənlərin layihə auditoriyasının əsas struktur elementi kimi çıxış edən insanın fizioloji, psixoloji, ekoloji və sosial mədəni təbiətinə uyğunluğu ilə bağlıdır.
2) ***Sosial və şəxsiyyət məqsədəuyğunluğu proqramı*** gözlənilən nəticələrin normativ məqsədlər və şəxsiyyətin tələbatları ilə üst-üstə düşməsinə, eksperimental yoxlamaların təşkilati formalarının hazırlanması və daha səmərəli formanın sosial münasibətlərdə tətbiq edilməsinə yönəlir.
3)***Komplekslilik proqramı*** insanın öz təbii, sosial və mədəni mühiti ilə qarşılıqlı əlaqə istiqamətləri və formalarının nəzərə alınması ilə bağlıdır.
4) ***Reallıq proqramı*** mədəni problemlərin həllində mövcud ehtiyatların nəzərə alınması və istifadəsi, layihənin iqtisadi məqsədyönümlüyü və sosial səmərəliliyinin hesablanması, oxşar problemlərin həllində mövcud pozitiv həll vasitələrinin istifadə edilməsi, mövcud mədəni nümunələrdə innovasiyalara münasibətin müəyyənləşdirilməsi, layihənin tətbiqi və yayılma sahəsinin əsaslandırılmasına yönəlir.

Təqdim olunan iki fərqli prinsip iki funksiyanı yerinə yetirir:

1)Layihəçinin dünyagörüşünün, onun hazırladığı konsepsiyaların, layihələrin, proqram və təşəbbüslərin üslub və mənəvi əsaslarını müəyyənləşdirir, yəni layihələşdirmənin dəyər yönümü səviyyəsini təmin edir. İfadə tərzinə görə proqramın məhdudluğu, yaradıcı, yaxud dağıdıcı meyarlarını fərqləndirmək olar.
2)Bu prinsiplər sosial mədəni layihələşdirmə texnologiyalarının nəzəri əsaslarını təşkil edir.

Sosial mədəni layihələşdirmənin texnoloji əsasları və sosial mədəni layihələrin və proqramların hazırlanmasının ilk mərhələsi sosial mədəni layihə vəziyyətinin xüsusiyyətlərilə sıx bağlıdır. Layihə vəziyyəti şəxsiyyətin, sosial qrupun, sosial birliyin fəaliyyət göstərdiyi səciyyəvi şərait və vəziyyətlər məcmusu kimi insanın həyat fəaliyyəti formalarını, dəyər yönümü sistemlərini, onun mühitinin xüsusiyyətlərini, digər insanlarla münasibətlərini və s. müəyyənləşdirir. Vəziyyətlər obyektiv və subyektiv, perspektiv və destruktiv, idarəedilən və idarəedilməz ola bilər. Sosial mədəni subyektə münasibətdə obyektiv olan vəziyyət subyektin fəaliyyətini əsaslandırır, onların dəyişdirilməsi və qarşısının alınmasına imkan yaradır. Layihə vəziyyəti kateqoriyası sosial mədəni layihələşdirmənin əsas texnologiyalarından biridir. Bu sistemli kateqoriya əsasında xüsusi struktura, yəni sabit komponentlər toplusuna malik olan dinamik sosial mədəni tamlıq fərqləndirilir. Müəyyən vaxt müddətində müəyyən sosial mədəni prosesin hüdudları, keyfiyyət və istiqamətləri təyin edilərkən, layihələşdirilən vəziyyət analiz modeli və layihələşdirmə metodu qismində çıxış edir və insanların həyat fəaliyyəti şəraitini və problemlərini təsvir etməyə və mövcud problemlərin həlli yollarını tapmağa imkan yaradır.

Layihə vəziyyətin xüsusiyyətləri sosial mədəni prosesin modeli kimi aşağıdakı komponentlərin aşkar və təhlil edilməsilə bağlıdır:
1) vəziyyətin hüdudlarını təşkil edən həyat tərzinin kütləvi miqyaslı nisbi sabit və zəruri amilləri;
2) dəyişdirilə, yaxud təkmilləşdirilə bilən amillər.

Sosial mədəni problem layihələşdirmə vəziyyətinin təhlil vahidi kimi çıxış edir. Sosial mədəni problem dedikdə, obyektiv çətinliklər, məhdudiyyətlər, həmçinin arzu edilənə uyğun olmayan vəzziyət nəzərdə tutulur. Problem vəziyyət birmənalı həlli olmayan, subyekt və onu əhatə edən mühit arasındakı mövcud qarşılıqlı münasibətləri əks etdirən vəziyyətdir. Vəziyyətin analizi siyasi, iqtisadi, demoqrafik, ekoloji və digər sahələrdə səciyyəvi problemlərin aşkar edilməsinə yönəlir. Sosial mədəni vəziyyət, həyati vəziyyət, şəxsi problemlər problem vəziyyətin xüsusi aspekləri kimi müəyyənləşdirir.

Sosial mədəni vəziyyət çoxölçülü sosial mədəni məkan kimi sosial mədəni mühit və uyğun fəaliyyət sahələrindən ibarətdir. Sosial mədəni mühit sabit amillər sistemi kimi insanla onun sosial mədəni ətrafı arasındakı əlaqələri əks etdirir. Fəaliyyət sahələri keyfiyyət xüsusiyyətli olub, insanın əşyavi mədəniyyət və digər insanlarla nisbi qarşılıqlı təsir forması kimi sosial institutlar və müəssisələrdə təcəssüm edir. Sosial mədəni materialdan asılı olaraq, insan mədəni tarixi irs mühiti, bədii mühit, sosial psixoloji mühit, mənəvi mühit, siyasi mühit, ekoloji mühit kimi bir sıra sosial fəaliyyət sahələrinə daxil olur. Sosial mədəni mühitin hər bir sahəsi üç səviyyəyə malikdir:

1.İnsanın əşyavi məkan mühiti – tarixi və mədəni abidələr, ərazilərin memarlıq abidələri, istehsal, məişət və ictimai interyerlər, istehsal və məişət avadanlıqları və s. ibarətdir.

2.İnformasiya mühiti – bədii, hüquqi, siyasi, estetik, etik məlumatlardan ibarətdir.

3.Dəyər yönümlü tərkib – mühiti elementlərin məna və dəyər mahiyyəti kəsb etməsilə bağlıdır.

Bu səviyyələrin qarşılıqlı münasibətləri əsasında mühitin elementləri özünəməxsus xüsusiyyətlər qazanır. İnsanın enerji və vaxt kimi fundamental ehtiyatlarını sərf etdiyi əsas fəaliyyət sahələri təhsil, istehsalat, asudə vaxt, bədən tərbiyəsi, məlumat sahələridir. Həyat fəaliyyətinin sosial mədəni mühiti sosial mədəni layihələşdirmə texnologiyasının əsası kimi çıxış edir. Şəxsiyyətin inkişafı və formalaşmasına təsir edən ətraf mühit özü də şəxsiyyətin yaradıcı təsiri nəticəsində dəyişir, mühitin mövcud ehtiyatları reallaşır və insanın özünüreallaşdırması və özünüinkişafı amillərinə çevrilir. Sosial mədəni proqram çərçivəsində problem vəziyyəti dəyişməklə həyat tərzinin formalaşma şərtlərini və reallaşma imkanlarını aşağıdakı yollarla dəyişdirmək olar:

1.Mühitin bütün sahələrində mövcud ehtiyatların (əşyavi, məlumat, dəyər və s.) reallaşdırılması;

2.İnsanın mühitlə münasibətlərinin dəyişdirilməsi (insanın tarixi mədəni irslə qarşılıqlı təsirini genişləndirmək, təbiət, sosial mühit, incəsənət və s. ilə daha sıx və məhsuldar əlaqələr yaratmaq);

3.Uyğun müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi (yaxud problemin, mövcud ehtiyatların və layihənin məqsədinin xüsusiyyətlərindən asılı olaraq, yeni müəssisələrin yaradılması).

Həyat tərzi sosial mədəni layihələşdirmənin obyektlərindən biri kimi çıxış edir. Həyat tərzi – fərd, yaxud sosial qrupun həyat fəaliyyəti formaları və vasitələrinin məcmusu olub, insanın sosial və mədəni həyatının bu və ya digər

sahələrində obyektiv şəraiti və subyektiv keyfiyyətləri özündə birləşdirən insan davranışının mahiyyətini əks etdirir. Sosial mədəni layihələşdirmə çərçivəsində bu anlayış dəyərlər və uyğun fəaliyyət formaları ilə məhdudlaşır və şəxsiyyət və sosial qrupun bədii, tarixi, sosial psixoloji, mənəvi, siyasi, ekoloji, peşə, asudə vaxt, psixofizioloji mədəniyyət səviyyəsi kimi çıxış edir. Layihələşdirmə prosesində həyat tərzinin analizi zamanı insanın inkişaf problemləri sosial mədəni fəaliyyətin subyekti kimi müəyyənləşdirilir, yəni insanın dünya mədəniyyətini mənimsəməsi meyarları aşkar olunur, şəxsiyyətin, sosial qrupun bədii, sosial psixoloji səviyyəsi müəyyənləşdirilir.

**YOXLAMA SUALLAR**

1.Sosial mədəni layihələşdirmə hansı məqsədləri daşıyır?
2.Layihə sosiumu dedikdə nə nəzərdə tutulur?
3.Mədəni sahənin layihələşdirilməsi xüsusiyyətlərini izah edin.
4.Sosial mədəni layihələşdirmənin əsas prinsipləri hansılardır?
5.Sosial mədəni layihələşdirmənin texnoloji əsaslarını izah edin.

**REFERAT MÖVZULARI**

1.»Sosial mədəni layihələşdirmənin» mahiyyəti
2.Sosial mədəni fəaliyyətin məqsəd yönümləri və vəzifələri
3.Sosial mədəni layihələşdirmədə sosial proqram və sosial layihə
4.Sosial mədəni layihələşdirmədə məqsədyönümlük
5.Layihələşdirmə prosesinin subyektləri və iştirakçıları
6.Sosial mədəni layihələşdirmənin texnologiyası
7.İctimai ikişafın analizinə sosial mədəni yanaşma.

**ƏDƏBİYYAT:**

1.Бергер П., Лукман Т. Социальное конструирование реальности : Трактат по социологии знания. М., 1995.
2.Дридзе Т. М., Орлова Э. А. Основы социокультурного проектирования. М., 1995.
3.Жежко И.В. Игровые методы проектирования в сфере культуры // Прорыв в реальность. М., 1993.
4.Ковалева А. И., Луков В. А. Социология молодежи : Теоретические вопросы. М. : Социум, 1999.
5.Крючков Ю.А. Проектная культура. М., 1989.
6.Марков А.П., Бирженюк П.И. Основы социокультурного проектирования: Учебное пособие. СПб., 1997.
7.Петров В.М. Прогнозирование художественной культуры: вопросы методологии и методики. М., 1991.
8.Социальное проектирование в сфере культуры. М., 1990.
9.Тощенко Ж. Т., Аитов Н. А., Лапин Н. И. Социальное проектирование. М., 1982.

## 18.3 SOSİAL MÜNASİBƏTLƏR VƏ SOSİAL DAVRANIŞIN LAYİHƏLƏŞDİRİLMƏSİ

**Regional layihələşdirmə**

Regionun təsərrüfat kompleksi fərqli mülki xüsusiyyət, təsərrüfat təşkilatlarının forma və mahiyyətindən ibarətdir. Onların sahə yönümü və ölçüləri ərazinin əsas təsərrüfat istiqamətini və regional layihələşdirmənin xüsusiyyətlərini müəyyənləşdirir. Regional səviyyəli sosial layihənin əsaslandırılması üçün regional təsərrüfat subyektinin xüsusiyyətləri nəzərə alınmalıdır. Təsərrüfat subyekti dedikdə, region ərazisində fəaliyyət göstərən firma, müəssisə, təşkilatlar, banklar, sığorta kampaniyaları, investisiya fondları, dövlət və bələdiyyə təşkilatları və s. nəzərdə tutulur. Region səviyyəli sosial layihələrin formalaşdırılması müəssisələrin maddi imkan və tələbatlarını nəzərə almalıdır. Regional layihələşdirmədə şəxsi firmalar, dövlət və bələdiyyə firmaları və müəssisələrilə yanaşı fərqli kooperativ, ictimai və digər təşkilatlar da nəzərə alınmalıdır. Öz fəaliyyət xüsusiyyətlərinə görə firmalar aşağıdakı kimi təsnif edilir:

1.istehsal (burada mübadilənin yarıdan çoxu sənaye istehsal məhsullarına əsaslanır);

2.ticarət (bu firmalar əsasən malların alqı-satqısı ilə məşğul olur);

3.nəqliyyat (daşınma ilə məşğul olanlar);

4.nəqliyyat ekspedisiya (yüklərin çatdırılmasını təmin edənlər);

5.sığorta (beynəlxalq daşınmada yuklərin sığortasını təmin edənlər).

Firmalar fərdi, sahibkarlar birliyi (korporasiyalar), yoldaşlıq (ortaq) şirkətləri, paylı firmalar.

Mülkiyyət formasına görə firmalar aşağıdakı kimi təsnif edilir:

1.Dövlət (o cümlədən) regional firmalar dedikdə, əsasən mülkiyyətinin 50%-i dövlətə məxsus olan müəssisələr nəzərdə tutulur. Dövlət firmalarının əsas hissəsi sənaye və nəqliyyat sahəsinə aiddir. Ticarət sahəsinə aid olan dövlət firmaları əsasən beynəlxalq mal mübadiləsilə məşğul olur.

2. Bələdiyyə firmaları əsasən mənzil komunal təsərrüfatı, su kəməri və kanalizasiya, enerji, nəqliyyat və digər sahələrlə bağlı müəssisələrdən ibarətdir. Ticarət, məişət xidməti, təhsil, mədəniyyət sahələri, otel biznesi və s. bələdiyyə firmaları mövcuddur.

3.Kooperativ firmalar (ittifaqlar) əsasən istehlakçılar, xırda istehsalçılar, fermerlər və digər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsilə məşğul olurlar. Onların əsas məqsədi mal mübadiləsi əməliyyatlarında xarici vasitəçilərin kənarlaşdırılmasıdır.

4.Şəxsi firmalar ərazinin iqtisadi həyatının regional tənzimlənməsi məsələlərilə məşğul olur və regional və bələdiyyə təşkilatlarının digər şəxsi firmalarla qarşılıqlı təsirini təmin edir. Bu qarşılıqlı təsir metodları belə firmaların təşkilati-hüquqi formalarına görə fərqləndirilir.

Firmaların birləşdirilməsi firmalararası münasibətlərin məqsəd və xüsusiyyətlərindən asılı olaraq, aşağıdakı formalara malik ola bilər:

1.***Kartel*** – firmaların birləşmiş forması kimi əsasən qiymətlərin tənzimlənməsinə yönəlmiş satış-təchizat fəaliyyətilə məşğul olur. Kartelin əsas əlamətləri iştirakçılarının tam əmlak və təsərrüfat müstəqilliyi və birliyin ayrılıqda satış-təchizat strukturu yaradılmadan saziş yaradılması xüsusiyyətlərilə bağlıdır. Kartellər əhalinin həyat tələbatı ilə bağlı zəruri məhsulların qiymətlərinin tənzimlənməsi məqsədilə regional orqanların imkanlarını məhdudlaşdırır. Bu zaman kartellər açıq və gizli kartel müqavilələrinin dərk edilməsi və rəqabət azadlığının genişləndirilməsi üçün ölçülər götürülməsinə yönəlir.

2. ***Sindikat*** – səhmdar cəmiyyətlər və yoldaşlıqlar formasında vahid satış-təchizat orqanlarının yaradılmasına istiqamətlənmiş firmaların müqaviləli təşkilatıdır. Belə birliklər aqrar rayon miqyasında kənd təsərrüfatı müəssisələri üçün əhəmiyyətli ola bilər. Onların fəaliyyətinin nəzarəti üçün burada rayon inzibati idarələrinin səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. Şəhər bələdiyyələrilə müqavilə münasibətlərinə malik olan şəhər istehsal sindikatları da səmərəli ola bilər.

3.***Pul*** – kartel tipli müqavilə əsasında birləşmiş təşkilatlardır. Onların üzvlərinin gəlirləri ümumi hesaba daxil olur və əvvəlcədən müəyyənləşmiş nisbətdə bölüşdürülür.

4.***Trest*** – əvvəllər tam müstəqil olan firmaların birləşdirilməsi əsasında yaradılan təşkilatdır. Belə birlik forması regionlar və şəhərlərdə birləşdirilmiş istehsal təşkil etmək və sahələr arası və firmalar arası maneələrin dəf edilməsi üçün daha əlverişlidir.

4.***Holdinq*** – trestin dəyişmiş forması olub, vahid sahibkar tərəfindən idarə edilən filialların birləşdirilməsilə bağıdır. Regional idarəetmənin vəkil təyin etdiyi təşkilat holdinqin sahibi rolunda çıxış edə bilər. Regional maraqlar baxımından belə birliklər yerli qurucu materialların istehsalını, oduncaqların emalını, bələdiyyə idarəçiliyini əlaqələndirmək üçün əhəmiyyətli ola bilər.

5.***Konsern*** – hüquqi müstəqil firmaların iri birliyidir. Konsern inhisarçı direktorlar şurası tərəfindən və səhmlər paketi vasitəsilə ona daxil olan cəmiyyətlərə nəzarət edir. Konsern əsasən istehsal funksiyasını yerinə yetirir və iqtisadi rayonlar, yaxud bütün ölkədə istifadə edilir.

6.***Maliyyə istehsal qrupu*** – müstəqil hüquqi və təsərrüfat firma və bankları birliyidir. Birliyin rəhbəri olan bank buraya daxil olan təşkilatların pul kapitalı haqqında sərəncam vermək hüququna malik olur. Birliyin üzvləri öz məhsullarının satışı və daxili əlaqələndirmə ilə bağlı digər məsələlər haqqında razılığa gəlirlər. Belə birliklər şəhər, əyalət səviyyəsində o qədər də əhəmiyyətli deyil. Lakin firmalar arası birliklər kimi iqtisadi rayon miqyasında sahələrarası məsələlərin həlli üçün əhəmiyyətli ola bilər.

7.***Kapital əsasında birləşmiş firmalar, yaxud müəssisələr*** – kapitalın bir və ya bir neçə ölkəyə məxsus olduğu təşkilatlardır. Onların qeydiyyatı təsisçi ölkələrdən birində keçirilir, fəaliyyəti isə qanunvericilin xüsusi bəndlərinə əsasən tənzimlənir.

**Regional və bələdiyyə təşkilatları**

Region səviyyəsində sosial layihələşdirmədə mövcud regional və bələdiyyə təşkilatları nəzərə alınmalıdır. Bu sırada əsas təşkilatlar kimi regional və bələdiyyə qanunvericilik və icra orqanları çıxış edir. Regional səviyyədə qanunvericilik iclasları və inzibati orqanlar, bələdiyyə səviyyəsində şəhər, rayon icra hakimləri, şəhər meriyası, rayon inzibati idarəçilik orqanları fərqləndirilir. Bu orqanlar adından çıxış edən müəssisə və təşkilatlar regional layihələşdirmənin elementlərini təşkil edir. Qanunverici orqanlar bütün tabe orqanlarının fəaliyyət şərtlərini müəyyənləşdirir. İnzibati idarələr və onların adından fəaliyyət göstərən təşkilatlar təsərrüfat subyektlərinin fəaliyyətini əlaqələndirir. Bu lisenziyalar verilməsi, regional və bələdiyyə firmalarına sifarişlər verilməsi, vergi və ödənişlərə görə imtiyazlar verilməsi, borc verilməsi, yerli orqanlar vasitəsilə maliyyələşdirilən ərazi proqramlarına daxil edilməsi və s. vasitəsilə həyata keçirilir. Regional və bələdiyyə strukturları nəzdində yaradılan sahə komitələri, departamentləri, şöbələri və s. bilavasitə fərqli mülkiyyət formaları ilə qarşılıqlı fəaliyyətdə olur. Qeyri hökumət və qeyri kommersiya təşkilatları, ticarət-sənaye palataları, təhsil, investisiya, sığorta və s. müəssisələr regional və bələdiyyə sistemlərinin tərkib hissəsini təşkil edir.

**Regional ictimai institutlar**

Ərazinin regional və bələdiyyə idarəçiliyi ictimai institutlarla əsaslandırılır. Belə ki, ərazi idarəetmə orqanlarının tərkibi əhali seçkiləri əsasında müəyyənləşir. İctimai tələbatların ödənməsi regional layihələşdirmənin əsas məqsədi və hərəkətverici qüvvəsi kimi çıxış edir. Cəmiyyət ərazinin bu və ya digər təsərrüfat sahəsilə əlaqələndirici rolunu yerinə yetirən regional və bələdiyyə təşkilatlarına dolayı təsir edir. Regional layihələrin əlaqələndirici rolu müəyyən ərazinin ictimai tələbatlarının tam

nəzərə alınmasına yönəlir. Regional və bələdiyyə təşkilatları sosial və hüquqi məsuliyyət daşıyır.

Sosial məsuliyyət dedikdə, sosial problemlərin (ekoloji, əmək məşğulluğu, mədəni xidmət və s.) həllində könüllü iştirak nəzərdə tutulur. Sosial məsuliyyət maddi nəticələrə malik olur. Hüquqi məsuliyyət dövlət və bələdiyyə idarəçiliyində müəyyən qanun və normalara əməl edilməsilə bağlıdır.

Regional səviyyəli sosial layihələr etik normaları nəzərə almalıdır. Etik normalar ümumi dəyərləri və etik qaydaları nəzərdə tutur. Regional layihələşdirmədə qeyri etik normalar dedikdə, aşağıdakılar nəzərdə tutulur:
- layihə vasitəsilə cəzalandırma sazişləri qəbul edilir;
- heyət və əhalinin sanitar müdafiəsi ilə bağlı ölçülər götürülməməsi;
- ziyanlı təsərrüfat sahələrində pulun əskik verilməsi, yaxud ödənilməməsi;
-sosial layihələrdə keyfiyyətsiz məhsulların bazara çıxarılmasına imkan yaratmaq;
- layihələrin müzakirə edilməsi vasitəsilə rəqiblər, yaxud əməkdaşlar haqqında bədnam məlumatlar yaradılması və yayılmasına səbəb olmaq.

**Layihələşdirmə mühiti**

Regional layihələrin xarici mühiti qeyri regional və regionlardaxili elementlər, amillər və proseslər vasitəsilə formalaşır. Regional iqtisadiyyat ölkənin regional sisteminin tərkib hissəsi kimi qeyri regional amillərin təsirinə məruz qalır. Qeyri regional təsirlər dedikdə, qanunvericilik, mərkəzi oqran və təşkilatlar ölkənin vahid iqtisadi, maliyyə sistemi, kommunikasiya vasitələri, siyasi və digər institutlar, ölkənin ümumi bazarı və s. nəzərdə tutulur. Regional təsərrüfat müəyyən sahədə təsərrüfat subyektlərinin, sosial birliklərin, hüquqi, etik, iqtisadi, ictimai institutların və s. kompleksi kimi çıxış edir. Bu mənada regional təsərrüfat regiondakı təşkilatlar, firmalar, müəssisələr və digər institutlar üçün xarici mühit rolunu oynayır. Bununla əlaqədar olaraq, sosial layihələrdə «xarici mühit» anlayışı və bu anlayışın qarşılıqlı əlaqəli olan iki istiqaməti – qeyri regional xarici mühit və regiondaxili xarici mühit istifadə edilməlidir. Qanunverici, maliyyə, sosial və digər sahələr fərqləndirilir. Xarici mühitin mürəkkəbliyi dedikdə, təşkilatın funksiyalaşması, xarici mühitin çevikliyi dedikdə, təşkilatın funksiyalaşdığı xarici mühitin dəyişmə sürəti nəzərdə tutulur. Xarici mühitin təyin edilməsi səviyyəsi təşkilatların mühitin dinamik amilləri (rabitənin inkişafı, inşaatın planlaşdırılması, regional proqramların maliyyələşdirilməsi, tələbatın dinamikası və perspektivləri və s.) haqqında məlumatlılıq səviyyəsindən asılıdır.

**Bilavasitə təsir mühiti**

Belə mühiti təşkilata bilavasitə təsir göstərən xarici agent və institutlar formalaşdırır. Bu mühiti ehtiyat (maddi, enerji, əmək, maliyyə və s.) təchizatçıları, ölkə, region və bələdiyyə qanunvericilik orqanları, məhsul istehlakçıları, rəqiblər, ərazi hakimiyyət orqanları yaradır. Regional və bələdiyyə üçün əsas məsələ ərazinin maliyyə vəziyyəti, büdcənin toplanması, investisiyanın iqtisadiyyata yönəldilməsidir. Xarici mühit amili olan kapitalı təsərrüfat təşkilatlarına banklar, investisiya fondları, dövlət və bələdiyyə orqanları, firmaları, ayrı-ayrı şəxslər və s. təqdim edir. Firma daha böyük və sabit olduqda onun kredit alması daha asan olur. Kiçik bizneslə məşğul olan firmalar iş yerlərinin təchizatçıları, xalq istehsalı mallarının istehlakçısı və vergi ödəyicisi kimi çıxış edir və regional və bələdiyyə orqanları onların inkişafında maraqlıdırlar. İri layihələrin reallaşması ilə bağlı vəsaitlərin qüvvətləndirilməsi üçün regional və bələdiyyə orqanları fərqli maliyyə strukturları, bələdiyyə bankları, ticarət evləri, investisiya fondları yaratmalı, konsorsiumların (inhisar birlikləri) təşkilatçısı kimi çıxış etməlidirlər.

Əmək ehtiyatları xarici mühitin əsas amillərindən biri olub, mövcud ərazinin əhalisi, təhsil müəssisələri, mühacirlər tərəfindən təchiz edilir. Bununla yanaşı firmalararası işçi mübadiləsi də əlavə işçi təchizatçısı kimi çıxış edir. Əmək ehtiyatlarının inkişafını təmin etmək üçün regional orqanlar uzun müddətli xüsusi sosial layihə və poqramlar həyata keçirir. Qeyd olunanlarla yanaşı regional təsərrüfat daxilində sağlam rəqabət mühitinin yaradılmasının layihələşdirilməsi əsas məqsəddir. Beynəlxalq bazarda baza sahələrə aid müəssisələr (buğda istehsalı, günəbaxan yağı, meyvə və tərəvəzlər, süd və ət məhsulları, məhsul təchizatı müəssisələri, maşınqayırma, kimyəvi, meşə və digər sənaye sahələri) əsas rəqiblər kimi çıxış edir. Regionlararası bazar rəqabət aparan subyektlər vasitəsilə region daxili bazarlara təsir edir. Beləliklə, həm regiondaxili, həm də regionlararası bazar regional təşkilatın bilavasitə təsir komponenti hesab edilir.

**Vasitəli təsir mühiti**

Regional təşkilatda Milli iqtisadiyyatın ümumi vəziyyəti, sosial mədəni tələbatlar, firma və regional orqanların siyasi institutlar və əhali ilə münasibətləri və s. vasitəli təsir mühitinin elementləri kimi qəbul edilir. Sosial layihələşdirmənin regional iqtisadi strategiyasının seçilməsində ərazi orqanları ölkənin iqtisadi vəziyyətinin dəyişməsilə bağlı proqnozlaşdırmanın regional iqtisadiyyata təsirini qiymətləndirməyi bacarmalıdır. Məsələn, əgər ölkədə yüksək inflyasiya proqnozlaşdırılırsa, ərazi rəhbərləri qida və yanacaq ehtiyatlarını artırmalı, işçilərin tətillərinin qarşısını almaq üçün həmkarlarla danışıqlara getməli, bələdiyyə və regional təşkilatların nümayəndələrilə əməkdaşların əmək haqqının ödənilməsini dayandırmaq haqqında razılıq əldə

etməlidirlər. Əgər Milli iqtisadiyyatda ümumi tənəzzül proqnozlaşdırılırsa, regional orqanlar ictimai işlərin, əl əməyinə əsaslanan istehsalın genişləndirilməsinə, ixracın, fərdi və kooperativ inşaatın tənzimlənməsinə və s. çalışmalıdırlar. Nəzərə alınmalıdır ki, istehsal texnologiyalarının səviyyəsi intellektual və texnoloji sahələr vasitəsilə ərazinin iqtisadi vəziyyətinə təsir edir. Regionlarda qabaqcıl texnologiyalarla təchiz edilmiş müəssisələrdə yeni istehsal sahələrinin yaradılması və kadr təchizatı məsələləri sürətlə və səmərəli həll edilir. Burada elmi tədqiqat mərkəzləri, ali təhsil müəssisələrinin funksiyalaşması üçün əlverişli şərait yaradılır. Eyni zamanda bu regionlarda əhali aşağı səviyyəli istehsal sahələrinə və bitkiçiliyə daha az maraqlı olur, regional və bələdiyyə idarəçiliyində yerli hakimiyyət orqanlarına daha tələbkar mövqe tuturlar.

Region səviyyəsində dəyərlər şkalası, davranış tərzi, adətlər, insanlar arasındakı münasibətlər, geyim forması, dəyərlər, qida tələbləri və s. sosial layihələşdirmənin sosial mədəni ənənələrinə aid edilir. Məsələn, dağlıq ərazilərdə yaşlı adamların fikri yüksək qiymətləndirilir və s. Regional və bələdiyyə səviyyəli sosial layihələşdirmə ölkədəki və ayrı-ayrı ərazilərdəki ümumi siyasi vəziyyətlə yanaşı, əhalinin və ictimai birliklərin müəyyən istehsal və biznes sahəsinə təsiri nəzərə alınmalıdır.

**Regional layihələşdirmənin daxili mühiti**

Regional layihələşdirmənin daxili mühiti məqsəd, struktur, vəzifələr, texnologiyalar, kadrlar, qruplar kimi dinamik dəyişənlərdən ibarətdir. Regional təşkilatın daxili mühitini formalaşdıran dəyişənlər ərazi iqtisadi sistemi daxilində vəziyyətlə bağlı amillərdən ibarət olub, idarəetmə qərarlarının nəticəsi kimi çıxış edir. Regionun məqsədləri ərazi təşkilatının ilkin əsası kimi çıxış edir. Regional təşkilatın məqsədləri onun daxili mühitinin elementləridir. Fərqli təsərrüfat formaları və sosial qruplar əsas və ikinci dərəcəli məqsədlərə malik ola bilər. Məsələn, istehsal müəssisələrinin əsas məqsədi istehsal həcmi və işçi heyətin əmək haqqının ödənilməsi, maliyyə təşkilatlarının əsas məqsədi sifarişçilərin artırılması, təhsil müəssisələrinin əsas məqsədi ixtisaslı kadrların yetişdirilməsi, tibb müəssisələrinin əsas məqsədi əhali arasında müalicə profilaktik tədbirlərin keçirilməsi, həmkarlar ittifaqlarının məqsədi əmək məşğulluğu və əmək haqqının ödənilməsi və s. ilə bağlıdır. Bununla belə ayrı-ayrı təşkilatların fərqli məqsədləri ərazinin ümumi məqsədinin tərkib hissəsi kimi çıxış edir. Regional təşkilatın strukturu idarəetmə və funksional sahələrdə səmərəli funksiyalaşmanı həyata keçirən məntiqi münasibətlər sistemidir. Funksional sahə struktur alt sistemlər vasitəsilə həyata keçirilən funksiyalar toplusudur. Regional layihələşdirmənin əsas xüsusiyyəti şaquli və üfiqi əmək bölgüsünün

nəzərə alınmasıdır. Üfiqi əmək bölgüsü uyğun ixtisaslı mütəxəssislər arasında müəyyən iş formalarının bölüşdürülməsilə bağlıdır. Eyni şöbədə sıravi işçilər, şöbə müdirləri, regional inzibati idarəçilikdə departament direktorları, bələdiyyə sədrləri bu sıraya daxildir. Bu qruplar bir-birinə münasibətdə üfiqi əmək bölgüsü mövqeyindən çıxış edir.

Şaquli əmək bölgüsünə görə hər bir işçi qrup daxilən şaquli əmək bölgüsünə malikdir. Əgər üfiqi əmək bölgüsü hamıya aiddirsə, şaquli əmək bölgüsü yalnız rəhbər işçilərə aiddir.

**Regional layihələşdirmənin məqsədləri**

Regional layihələşdirmənin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

1.mərkəzi fəaliyyət sahələrilə bağlı əsas strateji məqsədlərin müəyyənləşdirilməsi;

2.uyğun müəssisələrlə müqayisədə regional təşkilatların üstün və çatışmayan cəhətlərinin ümumi qiymətləndirilməsi;

3.təşkilatın mövcud və ehtimali fəaliyyət istiqamətlərinin analizi;

4.təşkilatın perspektiv və illik büdcəsinin hazırlanması.

Məqsədlərin müəyyənləşdirilməsi – qərar qəbul edilməsi forması kimi müəyyən vəzifələrin hazırlanmasını tələb edir. Layihələşdirmənin məqsədləri ümumi və xüsusi olanlara bölünür və regionun daxili və xarici ehtiyatları ilə bağlı əsas inkişaf istiqamətlərini əhatə edir. Regional təşkilati strukturların fəaliyyətində üstün və əsas olanları müəyyənləşdirmək üçün məqsədlər sıralanır, yəni mühümlüyünə görə düzülür. Məsələn, regional idarəçiliyin kommunal yaşayış təsərrüfatında ümumi məqsədlər aşağıdakı ardıcıllığa malik ola bilər:

1.şəhər və rayon bölmələrinin sabit funksiyalaşmasına kömək;

2.optimal gəlirə nail olma;

3.yeni xidmət sahələrinin mənimsənilməsi;

4.tərəqqipərvər texnoloji və kadr dinamikası.

Xüsusi məqsədləri aşağıdakı kimi müəyyən etmək olar:

1.kommunal yaşayış təsərrüfatı sahəsində müəyyən xidmət səviyyəsinin əldə edilməsi;

2.müəyyən fəaliyyət formalarında gəlir səviyyəsinin bərabərləşdirilməsi;

3. kənd əhalisinin su təchizatını – 90%, şəhər əhalisinin su təchizatını – 30% səviyyəsinə çatdırmaq məqsədilə lazımi ləvazimatların əldə edilməsi;

4.məskulaşmış sahələrdə əhalinin su ilə təmin edilməsi və suyun təmizlənməsi məsələlərinin həll edilməsi.

**Regional layihələşdirmə strategiyasının müəyyənləşdirilməsi**

Regional layihələşdirmə strategiyası müəyyən məqsədlərə nail olunması ilə bağlı iri həcmli tədbirlər sistemini əhatə edir. Strategiya müəyyənləşmiş

fəaliyyətlər toplusu kimi, nəzərdə tutulmuş strateji məqsəd, yaxud məqsədlər qrupunun həyata keçirilməsinə yönəlir. Strateji idarəetmə aşağıdakı elementlərdən ibarətdir:
- strateji məqsədlərlə bağlı ehtiyatların seçilməsi;
- strategiyaların təmin olunması mərkəzlərinin təşkili;
-müəyyən məqsədlərin həyata keçirilməsinə yönəlmiş icraçıların stimullaşdırılması.

Regional layihələşdirmənin strategiyasını onun rəhbəri olan regional inzibati idarə heyəti yerinə yetirir. Bu məqsədlə inzibati idarə heyəti və bələdiyyə işçiləri və rəhbərlərində strateji düşüncə tərzinin inkişaf etdirilməsi, regional təşkilatların strateji məqsədlərinin təmin olunmasına yönəlmiş əsas istiqamətlərin təmin olunması vacib şərtdir. Məqsədə nail olmaq üçün bölmə rəhbərləri və işçiləri strateji planların və onların reallaşdırılması mexanizmlərinin hazırlanmasına cəlb edilməli, regional təşkilatların strategiyasının həyata keçirilməsi nəticələri haqqında onlara sistemli məlumat verilməlidir. Regional təşkilatda strateji idarəetmə təsərrüfatın perspektiv strukturunun formalaşdırılmasına yönəlir.

**Regional layihələşdirmənin formaları**

Regional strategiyanın bir çox formaları mövcuddur. Bu sırada aşağıdakıları qeyd etmək olar:
- «inkişaf strategiyası» regional təsərrüfatın sabit funksiyalaşmasının (regional iqtisadi təkrar istehsalın genişlənməsi) təmin olunmasına yönəlir;
- «sosial inkişaf strategiyası» əhalinin rifah və mədəni səviyyəsinin yüksəldilməsi ilə bağlıdır;
- «regionun istehsal funksiyasının gücləndirilməsi strategiyası» regional təsərrüfat kompleksinin ümumi əmək bölgüsü ərazisində müəyyən istehsal funksiyaları məcmusunun yerinə yetirilməsinə istiqamətlənir.

Müəyyən strategiyanın seçilməsi regionun rəhbər orqanları tərəfindən həyata keçirilir. Strateji məsələlərə dair qərarlar yuxarıdan aşağıya istiqamətində qəbul edilir. Seçilmiş strategiyalar əsasında regional idarəetmənin fərqli üslubları müəyyənləşdirilir, onlardan ən əsası aşağıdakılardır:

1.məntiqi ekstrapolyasiya əsasında idarəetmə;

2.nəzarət əsasında idarəetmə;

3.idarəetmədə improvizasiya;

4.regional orqanlara, səhmlər paketi, yaxud müəyyən qrup müəssisələrin hissələrinə yiyələnmə əsasında idarəetmə;

5.prinsipcə yeni strategiyaların hazırlanması əsasında idarəetmə.

Regional təşkilatların strategiyalarının formalaşması xüsusiyyətləri işləyib hazırlamanın və reallaşdırmanın açıqlığı ilə bağlıdır.

**Strateji layihələşdirmə və planlaşdırma**

Strateji layihələşdirmə və planlaşdırma strateji məqədlərə nail olma mərhələlərinin (kəmiyyət və keyfiyyət) və vasitələrinin (ehtiyat və fəaliyyət formalarının) hazırlanmasından ibarətdir. Belə ki, strateji planlaşdırma müəyyən müddət ərzində müəyyən fəaliyyət ardıcıllığından ibarət olduğundan uzun müddətli planlaşdırma kimi qiymətləndirilir. Strateji planlaşdırma hal-hazırda qəbul edilən qərarların gələcək vəziyyəti ilə bağlı olur. Onun əsas xüsusiyyəti təşkilatın uzaq gələcək üçün tələb olunan təsvirinin yaradılması və bu vəziyyətin əldə olunması yolları və vasitələrinin hazırlanmasına yönəlir. Strateji planlaşdırma prosesində dörd prinsipial mərhələ fərqləndirilir:

1.regional ehtiyatların bölüşdürülməsi;

2.mühitə uyğunlaşma;

3.regiondaxili əlaqələndirmə;

4.təşkilatlanmış strateji öncəgörmə.

Regional ehtiyatların bölüşdürülməsi əsas fondlar, dövriyyə vəsaiti, enerji qüvvəsi, əmək ehtiyatları, texnologiyalar və yüksək ixtisaslı kadrlar əsasında müəyyənləşir. Mühitə uyğunlaşma dedikdə, regionda istehsal proseslərinin ümumi iqtisadi şəraitə və hüquqi münasibətlərə uyğunlaşması nəzərdə tutulur.

**Regional strateji layihələşdirmə və planlaşdırmanın prinsipləri**

Strateji planlaşdırmanın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

1.layihələşdirmə və planlaşdırma obyektlərinin vaciblik xüsusiyyətlərinə görə sıralanması;

2.plan və layihələrin variativliyi;

3.layihə və planların balanslaşdırılması;

4.planların xarici mühitin parametrlərinə uyğunluğu;

5.planlaşdırma və layihələşdirmənin uyğunlaşdırılması;

6.strateji və taktiki layihə və planların varisliyi;

7.layihə və planların sosial yönümü;

8.layihə və planların gələcək qeyri müəyyənliyinin nəzərə alınması əsasında qurulması;

9.idarəetmə funksiyası kimi planlaşdırmanın əks əlaqəliliyi;

10.layihələşdirmə və planlaşdırmanın avtomatlaşdırılması;

11.plan və layihə göstəricilərinin mümkünlüyü.

**Məqsədli regional proqramlar**

Regional strateji layihələşdirmə və planlaşdırmanın əsas amillərindən biri regionda məqsədli proqramların sahə və ərazi proyeksiyasının qurulmasından ibarətdir. Məqsədli regional proqramlar müasir dövrdə bazar iqtisadiyyatının

tənzimlənməsinin fəallaşdırılması, dövlətin, kollektivin və fərdlərin maraq və münasibətlərinin inteqrasiyası, dövlətin regional siyasətinə dair xalq təsərrüfatı layihələrinin sürətləndirilməsinə yönəlir. Məqsədli regional layihələşdirmə dövlətin bu və ya digər ərazidə bazar iqtisadiyyatına birbaşa təsirilə bağlı olub, ərazinin özünütənzimləməsi və məqsədyönlü inkişafı funksiyalarının uyğunluğunu təmin edir. Ümumdövlət məqsədli planlaşdırma müxtəlif regionların iqtisadi inkişafının tənzimlənməsi aləti kimi çıxış edir. Tarix göstəirir ki, bir çox məqsədli proqramlar tam həyata keçirilmədən qalır. Bu regional planlaşdırma orqanlarından kəsirləri nəzərə ala bilən plan variantların hazırlanmasını tələb edir.

**Regional strateji layihələşdirmə və planlaşdırmanın ehtiyat təminatı**

Regional strateji layihələşdirmə və planlaşdırmanın ehtiyat təminatı qoyulan məqsədlərə nail olma qüvvə və məqsədlərinin mənbələrinin formalaşdırılmasına yönəlir. Regional layihələşdirmənin və planlaşdırmanın əsas ehtiyatları aşağıdakılar hesab olunur:

1.əmək;
2.əsas fondlar;
3.maddi;
4.maliyyə.

Ehtiyatların istifadə edilməsi prosesi aşağıdakı mərhələlərdən ibarətdir:

1.formalaşdırma;
2.istifadə etmə;
3.bərpa;
4.istifadə etmə və hesabdan silmə.

Ehtiyatlarla təmin etmə formaları aşağıdakı kimi müəyyənləşdirilir:

1.regionun şəxsi istehsalı;
2.istehsal əlaqələri vasitəsilə regiona daxil olan gəlirlər;
3.kommersiya təşkilatları ilə müqavilələr;
4.dövlət büdcəsindən ayrılan subvensiya (dövlət maliyyə yardımı) və dotasiyalar (dövlət maliyyə yardımı);
5.kredit vermə və sponsorluq.

**Regional layihələşdirmənin informasiya təminatı**

İnformasiya təminatı sifarişçilər və icraçılar arasında əlaqələndirmə prosesi ilə bağlı olub, dörd əsas agentdən ibarət olur:

1.göndərən;
2.məlumat;
3.kanal;
4.alan.

Strateji planların hazırlanmasında informasiyanın həqiqiliyi və dəqiqliyi, müasirliyi və ünvanlılığı əsas tələbdir. Əks təqdirdə strateji plan göstəricilərinin uyğunlaşdırılması bir sıra tanış olmayan şəxslərlə oyuna çevrilə bilər.

**Regional layihələşdirmənin hüquqi təminatı**

Regional layihələşdirmənin hüquqi təminatı dövlətin, regionların və bələdiyyələrin qanunvericilik və normativ aktlarına əsaslanır. Regional proqramlarda hakimiyyətin qeyd olunan üç səviyyəsi nəzərə alınmalı və tələb olunan məqsədə nail olmanın optimal xərcləri müəyyənləşdirilməlidir.

**Regional layihələşdirmə texnologiyaları**

Regional layihələşdirmə və planlaşdırma texnologiyaları aşağıdakı sualları məkan, kəmiyyət, ehtiyat və zamanca əlaqələndirir:

1.Nə sərf edilir (əhali və istehsalçılar tərəfindən) və hansı miqdarda?

2.Regionun sərf etdiyi ehtiyatlar haradan əldə edilir?

3.Regional istehsal və istehlak hansı şəkildə və həcmdə təşkil olunmaldır?

4.Bu regional təsərrüfatın genişləndirilmiş təkrar istehsal prosesində necə əks olunur?

Regional təsərrüfatın strateji planlaşdırılmasının ən ümumi əməliyyatları aşağıdakı kimi sıralana bilər:

1.işə hazırlıq (problemlərin aşkar edilməsi, məsələlərin qısa xülasəsi və təkmilləşdiricilərin seçilməsi);

2.əsas problemin müəyyənləşdirilməsi və məqsədlərin formalaşdırılması (mühitin analizi, amillərin aşkar edilməsi, ehtiyatların hesablanması, açar problemlərin izah edilməsi və buna uyğun olan məqsədlər qrupunun müəyyənləşdirilməsi);

3.informasiya toplanması (mənbələrin, kanalların, qəbul edicilərin müəyyənləşdirilməsi);

4.informasiyanın emalı (yoxlanması, qruplaşdırılması, analizi, seçilməsi);

5.məqsədlərə nail olmaq üçün regional təsərrüfatın imkanlarının analizi;

6.məqsədlərin sıralanması (son məqsədlər «ağacının» qurulması, məqsədlərin üstünlüklərinin və reallaşdırılma ardıcıllığının müəyyənləşdirilməsi, məqsədlər ağacının təşkilati təminat layihəsinin hazırlanması);

7.plan məqsədlərin formalaşdırılması (yerinə yetirilmə miqyasının və müddətinin, icraçıların tərkibinin təyin edilməsi);

8.plan sənədlərin rəsmiləşdirilməsi (strateji plan formalarının müəyyənləşdirilməsi, rəsmiləşdirilməsi, icraçılar arasında razılaşdırılması və yayılması);

9.strateji planlı qərarların reallaşdırılması (regional qanunların, qərarların və inzibati idarəetmə sərəncamlarının nəşri və s., inzibati-idarəetmə aparatının operativ təşkilati fəaliyyəti).

Regional təşkilati strukturun layihələşdirilməsi idarəetmə funksiyalarından biri kimi çıxış edir. Strategiya dəyişdikdə regional təşkilatın strukturu da dəyişir. Təşkilati strukturun işlənib hazırlanması ardıcıllığı regional planlaşdırma prosesi elementlərinin ardıcıllığı ilə uyğundur:

1.ümumregional iqtisadi strategiyanın reallaşdırılması fəaliyyətinin əsas istiqamətlərinə uyğun olaraq, regional təşkilatlandırmanın üfiqi şəkildə iri sahələrə bölünməsi;

2.hər bir sahə (sahə, qrup sahələr, mikroregionlar və s.) qarşısında müəyyənləşmiş məsələlərin qoyulması;

3.regional təşkilatın idarə edilməsində səlahiyyətlərin və vəzifələrin müəyyənləşdirilməsi;

4.səviyyələr (dərəcələr, rütbələr və s.);

5.əlaqələr (şaquli və üfiqi qarşılıqlı təsir).

Regional məqsədli kompleks proqram və layihələrin sahə və ərazi xüsusiyyətləri əsasında yaradılan layihə idarəetmə sturukturları üç səviyyədə ola bilər: a) avtonom; b) matritsa; c) innovasion.

a) Avtonom layihə strukturları tərkibindəki alt bölmələr və menecerlər yalnız daxili idarəçiliyə tabe olurlar. Belə idarəetmə formaları konkret regional məqsədli proqramların hazırlanması və tətbiqi müddətində yaradılır.

b) Matritsa layihə strukturları tərkibində yaradılan alt bölmələr – üfiqi və şaquli istiqamətli ikili tabeçiliyə malik olur. Matritsa strukturlar hər hansı bir layihənin reallaşdırılması ilə əlaqədar fərqli departament və şöbələrdən işçilərin cəlb edilməsi əsasında yaradıla bilər. Belə işçilər həm layihə rəhbərinə, həm də daimi tərkibində olduqları şöbənin rəhbərlərinə tabe olduqlarından ikili tabeçiliyə malik olurlar. Bu təşkilatlandırma forması sahələrarası kompleks proqram və layihələrinin hazırlanması və reallaşdırılması baxımından əlverişli olub, bölmələrin daimi işçilərinin matritsa strukturunda iştirakını təmin edir. Matritsa strukturunun çatışmayan tərəfi işçilərin layihə ilə bağlı maddi maraqlarının olmamasıdır, belə ki, onlar əmək haqqını daimi iş yerindən alırlar. Buna görə də matritsa strukturunda işçi heyətin maddi stimullaşdırılması əsas şərtdir.

c) İnnovasion strukturlar müstəqil təşkilati formalar kimi, yeni layihələrin reallaşdırılması ilə məşğul olurlar. Onların fəaliyyəti riskli bizneslə bağlı olub, layihə gedişində itkilərə məruz qala bilər. Regional inzibati idarəetmə kreditləri, borc və vergi imtiyazları təklif etməklə innovasion firmaların fəaliyyətinə təsir edir. Bu əsasda regional idarəetmə innovasion firmalarda öz

nümayəndələri vasitəsilə təmsil oluna, yaxud bu firmaların rəhbəri ola bilər. Belə strukturlar bazar proseslərinin inkişafı əsasında genişlənir, belə ki, regional inzibati idarəetmə strukturları iqtisadi mexanizm vasitəsilə optimal layihələri reallaşdıra bilir.

**YOXLAMA SUALLAR**

1.Layihələşdirmə mühiti nədir?
2.Regional ictimai institutların fəaliyyət istiqamətlərindəki fərqlər nəlir?
3.Regional layihələşdirmənin xüsusiyyətlərini izah edin.
4. Regional layihələşdirmənin məqsədləri hansılardır?
5.Regional layihələşdirmə strategiyasının müəyyənləşdirilməsi xüsusiyyətlərini izah edin.
6.Regional layihələşdirmənin formaları hansılardır?

**REFERAT MÖVZULARI**

1.Regional layihələşdirmə (birbaşa və dolayı təsir mühiti)
2. Regional layihələşdirmənin daxili mühiti, məqsədləri
3.Regional layihələşdirmənin strategiyası
4. Regional layihələşdirmə texnologiyaları

**ƏDƏBİYYAT:**

1.Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
2.Блэк С. Введение в паблик рилейшнз. Ростов-на-Дону, 1998.
3.Гасанов Г.А. Проблемы занятости населения в сфере личного труда в условиях трансформации форм хозяйствования в Азербайджане. Автореф. дис. канд. экон. наук. Баку, 1998.
4.Гасанов Р.М. Формирование гражданского общества в условиях трансформации. Б., Изд-во БСУ «Китаб алями», 2003.
5.Генисаретский О.И. Проектная культура и концептуализм.// Сб. научн. тр. ВНИИТЭ № 52. М., 1987.
6.Генисаретский О.И. Регионализм, средовое проектирование и проектная культура // Экологическая культура. М., 1991.
7.Годин В. В., Корнеев И. К. Управление информационными ресурсами. М., 2000.
8.Луков В. А. Социальное проектирование. М., 2000.
9.Карташов А.В. Проектное знание: опыт методологического анализа.// Системные исследования. Методологические проблемы. Ежегодник, 1988. М., 1989.
10. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
11.На пороге новой регионализации России. Доклад Центра стратегических исследований ПФО. Нижний Новгород, 2001.
12.Ноэль-Нойман Э. Общественное мнение. Л., 1996.
13.Попов С. А. Стратегическое управление. М., 1999.
14.Разу М. Л. Управление программами и проектами. М., 2000.

## 18.4 NORMATİV – HÜQUQİ LAYİHƏLƏŞDİRMƏNİN ƏSASLARI

Normativ-hüquqi layihələşdirmə sosial nizamın normativ prinsiplərinin aşkar edilməsi, dərk edilməsi və əsaslandırılması, normativ əsaslı sosial nizamın layihələşdirilməsi, sosial nizamın mühafizəsində hüququn rolunun müəyyənləşdirilməsi, sosial nizamı pozan sosial destruksiyanın və disfunksional fəaliyyətin qarşısının alınmasına yönəlir.

**Normativ sərəncamlar**

Normativ nizam haqqında danışdıqda aşağıdakılar nəzərə alınmalıdır:

1.cəmiyyət xaotik elementlər sistemi deyil, nisbi sabit tam kimi bir-birilə və mühitlə qarşılıqlı təsirə malik olan insan və qrupların həyat funksiyalarını əhatə edir.

2.cəmiyyətin fərdi və kollektiv üzvlərinin qarşılıqlı təsiri, həmçinin mühitin davranışı müəyyənləşdirilə, təsvir edilə, proqnozlaşdırıla və layihələşdirilə bilər. Bu şəraitdə «norma» nizamlayıcı məhdudiyyətlər kimi, cəmiyyət üzvlərinin davranışlarını qabaqcadan müəyyənləşdirə və əlaqələndirə bilir. Bu mənada rəftar, qəbul formaları, adətlər, sosial vərdişlər, biliklər, texnologiyalar, qanunlar, ali məqsədlər normalara aid edilir. Normalara əməl edilməsi cəmiyyətdə sosial, yaxud normaiv yönümlü fəaliyyət kimi müəyyənləşdirilir. Normalar həm də müxtəlif səviyyəli əlaqələndirici qüvvə kimi çıxış edir. Buna görə də cəmiyyətin normativ nizamı ümumi və struktur normalardan ibarətdir. Ümumi normalardan fərqli olaraq, struktur normalar cəmiyyətin müxtəlif sahələrində – iqtisadi, siyasi, məişət və hüquqi fəaliyyət – davranış forması kimi çıxış edir. Normalar qeyd olunan sahələrə daxil olan institutların ixtisaslaşması ilə əlaqəli olub, insana mürəkkəb vəziyyətləri qiymətləndirmək, daha geniş alternativləri müəyyənləşdirmək imkanı yaradır. Normativ aspektlərdə hüquqi nizam şəcərəlidir.

**Hüquq elmində normaların təsnifatı**

Hüquq elmində normaların təsnifatı hüququn ictimai münasibətlərə təsiri sahəsindən asılıdır. Hüquqi nizam insanların subyektiv hüquq və məsuliyyətlərini müəyyən edir və üç sahəni idarə edir: 1) dəyərlərin mübadiləsi əsasında yaranan münasibətlər; 2) idarəetmə və tabelik münasibətləri; 3) ilk üç sahədə fəaliyyətin əlaqələndirilməsi və subordinasiyası ilə bağlı qaydaların pozulması nəticəsində yaranan mühafizəedici münasibətlər. Üçüncü sahəyə aid olan münasibətlər hüquqi normalar əsasında tənzimlənir.

Sosial normaların təsnifatı zamanı kompleks meyarlardan (mənşəyi, normaların təyinatı və əlaqələndirici xüsusiyyətləri) istifadə edilir və şərti, institutlaşmış və ideal normalar fərqləndirilir. Şərti normalar mənşəcə anonim olub, razılaşmaya əsaslanır və qeyri-şüuru qəbul edilir. Məsələn, dil ilə bağlı şərti normalar (dilin mənşəyi, sözlər, qrammatik qaydalar, sintaksis və s.) qeyd edilə bilər. İctimai həyata dair bütün normalar şərti normalar hesab edilir. İnstitutlaşmış, yəni hüquqi normalar mənşəyinin aşkarlığına görə fərqlənir. Dövlət qanunvericiliyi müşayətçi kimi əsas adətləri institutlaşdırır. İnstitutlaşmış normalar şüurlu olaraq irəli sürülmüş məqsədlərə uyğun olur və həmin məqsədlərlə əsaslandırılır. İdeal normalar zəruri davranış haqqında baxışlar olub, praqmatizmdən, şəxsi məqsədəuyğunluqdan uzaqdır. İdeal normaların mahiyyəti ideyalar əsasında müəyyənləşir.

**Cəmiyyətin normativ nizamı anlayışı**

Cəmiyyətin normativ nizamı anlayışı ümumi və struktur qaydalara əsaslanan fərd və qrupların qarşılıqlı təsirinə əsaslanır. Hüquqi normaların əsas motivi məsuliyyətlərə dair görülən tədbirlərdir. Əgər xarici nəzarət zəifləyərsə, davranış qeyri sabit olur. Hüquqi qaydalar insanların hüquqi normlara yönəlmə ehtimalını yüksəldir, çünki vəziyyətlə əlaqədar olaraq, hüquqi normalar daha ədalətli olan kimi qəbul edilir. Sosial intizama dair əsas nomalar konstitusiyada öz əksini tapır. Konstitusiya qanunlarına əməl edilməsi sosiallaşma və konformizmlə bağlıdır. Sosiallaşma əsasında insanlar hüquqi və ədalətli davranışa yönəldən dəyər və normaları mənimsəyirlər. Konformizm bioloji və mədəni zəminə və psixoloji və təşkilati yönlərə malik olur. Sosial münasibətlər həm sosial nəzarət, həm də mədəni qanunlarla nizamlanır. Bu əsasda legitim və leqal nizam fərqlənir. Legitim nizam normativ tələblərin insanlar üçün zəruri əhəmiyyət kəsb etməsi, leqal nizam isə sosial münasibətlərin ölkənin qanunları əsasında rəsmi tənzimlənməsi ilə müəyyənləşir. Hüquqi nizam həmişə leqal xüsusiyyət daşısa, da heç də həmişə legitimliyə malik olmur. Legitim nizam ümumi və struktur səviyyəli normaiv davranış formalarına əsaslanır. Legitim hüquqi nizam konformist xüsusiyyətli olub, əxlaqi və qanuni davranışla müəyyənləşir. Cəmiyyətin normativ nizamı öyrənilərkən, ümumi normativ tələblərin legitim olandan leqal olana çevrilməsi nəzərə alınmalıdır.

Hüquqi intizam müəyyən mədəni dəyərlərə əsaslanan konstitusiya tərəfindən müəyyənləşir. Müasir dövlətlərin konstitusiyaları mənəvi prinsiplərə söykənir.

**Hüquqi nəzarət sosial nəzarət forması kimi**

Sosial nəzarət forması olan hüquqi nəzarət qanunvericilik, polis, prokurorluq, vəkillər, arbitraj, məhkəmə, həbs cəza sistemi və digər

müəssisələr tərəfindən həyata keçirilir. Bununla əlaqədar olaraq, hüquqi nəzarəti çox zaman «rəsmi» nəzarət adlandırırlar. Cəmiyyətin normativ nizamı ümumi və struktur qaydalarla yönəldilmiş və qarşılıqlı fəaliyyətdə olan fərdlər və qrupların tələblərinin və maraqlarının qaydalar və sosial nəzarət əsasında həyata keçirilməsilə müəyyənləşir. Hüquqi nizamın sabitliyi sosial nəzarətin legitimliyinə əsaslanır. Legitimlik zəif olduqda xarici məcburiyyət də güclü olur və əksinə. Sosial nizamın legitimliyi vətəndaşların dövlət konstitusiyasına tabeçilik səviyyəsindən asılı olub, siyasi konformizmdə öz əksini tapır. Sosial nəzarətin sabitliyi yeniləşmə mexanizmlərinin fəaliyyətilə bağlıdır.

**Sosial nizamın layihəli legitimliyi**

Vətəndaş birliyi aşağıdakı hallarda konstitusiyaya diqqəti artırır:

1.konstitusiya dəyərlərinin üstünlüyü, təhlükə və zərərlər kütləvi şüurda həyəcan doğurduqda;

2.konstitusiyaya dəyişikliklər, yaxud konstitusiyanın ümumi təftişi layihəsi əsas siyasi mövzuya çevrildikdə;

3.düzəliş prosedurları ilə bağlı mümkün pozuntulara diqqət artdıqda;

4.konstitusiyadan yayınmaların məhkəmələrdə mübahisə mövzusuna çevrilməsinə diqqət artdıqda.

Beləliklə, konstitusiyanın legitimlik dərəcəsi normativ, nominal və semantik ola bilər. İctimai rəyin konstitusiyaya yönəlməsi legitimliyin empirik göstəricisi kimi müəyyənləşir.

**Normativ nizamda hüququn rolu**

Sosial nizamın institutlaşması cəmiyyətin normativ sisteminin hüquqi status qazanması, hüquq və məsuliyyətlərin ümumiliyi əsasında müəyyənləşir. İnstitutlaşma cəmiyyətin fərdi və kollektiv üzvlərinin normativ tənzimlənməsi üç sahəni əhatə edir: ümumi dəyərlərə münasibət, cəmiyyətin hakimiyyət tərəfindən idarə olunmasına münasibət, hüquq qaydalarının təmin olunmasına münasibət. Hüquq qaydalarının müdafiəsi xüsusi dövlət orqanlarına tapşırılır və hüquq mühafizə institutları vasitəsilə tənzimlənir. Sosial nizamın institutlaşmasının hüquqi əsasları vətəndaş səlahiyyətləri, ictimai münasibətlər sahəsində hüquqa malik olmaq və məsuliyyət daşımaq imkanları ilə bağlıdır. Hüquqi nizam hüquqi bəyannamələrlə yanaşı əxlaqi məsuliyyətə əsaslandıqda leqal olandan legitim olana çevrilir. Konstitusiya qanunları, konstitusiyaya dəyişikliklər, beynəlxalq müqavilələr, parlament reqlamentləri, dövlət hakimiyyəti icra orqanlarının normativ aktları və s. konstitusiyalı nəzarətin obyekti kimi çıxış edir.

## YOXLAMA SUALLAR

1.Normativ sərəncamların mahiyyətini izah edin
2.Hüquq elmində normaların təsnifatı hansı əsaslara malikdir?
3.Cəmiyyətin normativ nizamı dedikdə nə nəzərdə tutulur?
4.Hüquqi nəzarət hansı əsaslarda sosial nəzarət forması kimi çıxış edir?
5.Sosial nizamın layihəli legitimliyi nədir?
6. Normativ nizamda hüququn rolunu izah edin.

## REFERAT MÖVZULARI

1.Normativ-hüquqi layihələşdirmə
2.Hüquq elmində normaların təsnifatı
3.Hüquqi nəzarət sosial nəzarət forması kimi

## ƏDƏBİYYAT:

1.Антонюк Г.А. Социальное проектирование и управление общественным развитием. Минск: Наука и техника, 1936.
2. Ахмедли Дж.Т. Активизация человеческого фактора и проблемы совершенствования распределительных отношений /Тематический сборник/. Баку, БФ ЛФЭИ, 1988.
3.Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
4.Блэк С. Введение в паблик рилейшнз. Ростов-на-Дону, 1998.
5.Гасанов Р.М. Формирование гражданского общества в условиях трансформации. Б., Изд-во БСУ «Китаб алями», 2003.
6. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
7.Попов С. А. Стратегическое управление. М., 1999.
8.Рагимов А.А., Гасанов Р.М. Трансформационные процессы и проблема национальной безопасности в Азербайджане. Б., Нурлан, 2003.
9.Разу М. Л. Управление программами и проектами. М., 2000.

## 18.5 MİQRASİYA DAVRANIŞIN LAYİHƏLƏŞDİRİLMƏSİ PRİNSİPLƏRİ

**Miqrasiya siyasəti: əsas anlayışlar, kateqoriyalar**

Əhali hərəkətinin üç forması fərqləndirilir: doğum və ölümün təbii dinamikası, əraziyə görə yerdəyişmə və sosial dinamika (sosial iqtisadi strukturun dəyişməsi), yaxud sosial mobillik. Əhali hərəkətinin hər bir forması qarşılıqlı əlaqəli və qarşılıqlı asılı fəaliyyətdir. Əhalinin məkanda hərəkəti – yaşayış və iş yerinin dəyişdirilməsilə bağlıdır. Ərazi yerdəyişməsi dedikdə, ərazilər arası və ərazi daxilində yerdəyişmə nəzərdə tutulur. Ərazilər arası yerdəyişmə bilavasitə miqrasiyaya aiddir. Məhz miqrasiya əsasında dünya əhalisinin məskunlaşması xəritəsi yaranır. Ərazilər arası hərəkət ölkələr, rayonlar və digər yaşayış məntəqələri üzrə əhalinin yerdəyişməsi davamiyyət dərəcəsindən asılı olaraq, dönməz və dönən formalara malik olur. Dönməz formalı miqrasiya əhalinin yerdəyişməsi, dönən formalı miqrasiya isə mövsümi xüsusiyyət daşıyır. Miqrasiyanı növ, forma və tipinə görə də fərqləndirirlər. Əhali miqrasiyasının iki tipi – beynəlxalq (xarici) və daxili – fərqləndirilir. Dövlətlərarası miqrasiya ilə bağlı immiqrasiya və emiqrasiya anlayışları fərqləndirilir. İmmiqrasiya dedikdə, işləmək, oxumaq, həmçinin vətəndaşlığın dəyişdirilməsilə bağlı yerdəyişmə nəzərdə tutulur. Miqrasiya növləri dedikdə, dönməz köçmə, mütərəddid (davamsız), mövsümi yerdəyişmə nəzərdə tutulur və aşağıdakı miqrasiya növləri fərqləndirilir:

**I. Dönən miqrasiya.**

1.Təsadüfi miqrasiya – işgüzar, istirahət məqsədli və eyni istiqamətli və müntəzəm olmayan səyahətlərlə bağlıdır və ən çox təsadüf edilən miqrasiya növüdür.

2.Mütərəddid (dəyişkən) miqrasiya dedikdə, insanların gündəlik olaraq, evlə iş yeri arasındakı yerdəyişmələri nəzərdə tutulur. Bu zaman əhali öz rahatlığı ilə bağlı bəzi şərtləri nəzərə almalı olur.

3.Mövsümi miqrasiya əmək qabiliyyətli əhalinin müvəqqəti iş yeri ilə əlaqədar olaraq, müəyyən müddətdə öz daimi yaşayış yerini dəyişməsilə bağlı olur.

**II. Dönməz miqrasiya.**

Dönməz miqrayia növü miqrasiyanın əsl mahiyyətini əks etdirir. Bir çox tədqiqatçılar bu növ miqrasiyanı tam miqrasiya kimi müəyyənləşdirirlər. Dönməz miqrasiya iki şəraitlə bağlı olur: 1) əhali bir yaşayış yerindən digərinə köçür; 2) yerdəyişmə yaşayış yerinin daimi dəyişdirilməsilə müşayiət olunur.

BMT ekspertləri mühacirlərin beş qrupunu fərqləndirilər:

1.təlim və təhsil almaq üçün ölkəyə daxil olan əcnəbilər;

2.işlə əlaqədar yerdəyişən mühacirlər;
3.daimi yaşayış yerinə köçən mühacirlər;
4.ailələrin birləşdirilməsilə bağlı köçən mühacirlər;
5.humanitar baxışlardan ölkəyə buraxılan mühacirlər (qaçqınlar, sığınacaq axtaran qaçqınlar).

Müasir sosial iqtisadi şəraitdə miqrasiya aşağıdakı mahiyyətləri kəsb edir:
1.millətlərarası münaqişələr nəticəsində miqrasiyaya Milli və etnik xüsusiyyətlər qazanır;
2.miqrasiya daha geniş miqyaslı və intensiv olub;
3.miqrasiya axınının istiqamətləri dəyişib.

Müasir dövrə qaçqınlar və məcburi köçkünlərin yerdəyişməsi miqrasiyanın fərqli forması kimi geniş miqyas alıb. Belə ki, bu zaman miqrasiya xarici qüvvələrin təsirilə baş verən yerdəyişmə kimi məcburilik xüsusiyyəti daşıyır. Məcburi miqrasiya kimi müəyyənləşdirilən bu yerdəyişmənin siyasi, iqtisadi, sosial, ekoloji səbəbləri fərqləndirilə bilər.

Miqrasiya siyasəti miqrasiya davranışına və bu davranışı əmələ gətirən şəraitə təsir sistemi kimi çıxış edir. Miqrasiya siyasəti miqrasiya davranışının əmələ gəlməsilə bağlı olan səbəbləri – iş yerləri bölgüsü, əhalinin həyat şəraitindəki fərqlər, həyat tərzi müəyyənləşdirməli, bu əsasda əhalinin yerdəyişməsinə təsir göstərməli, məhdudlaşdırıcı tədbirlər görməlidir. Miqrasiya siyasətinin nəticələrinə dair iki istiqaməti fərqləndirmək olar:
1. miqrasiya davranışının genişlənməsi ilə bağlı nəticələr;
2. əhalinin ərazi bölgüsünün mütləq və nisbi həcminə dair nəticələr.

Miqrasiya siyasətinin əsas mahiyyəti miqrasiyanın təbii inkişafı ilə bağlı olub, bu prosesə təsir mexanizmlərinin hazırlanmasına və cəmiyyət və dövlətə dair mənfi nəticələrin aradan qaldırılmasına, mühacirlərin potensialının səmərəli istifadə edilməsinə yönəlir. Miqrasiya siyasətinin əsas prinsipi bu siyasətin reallaşdırılması və miqrasiya qanunvericiliyinin hazırlanması gedişində dövlətin maraqlarının üstün mövqeyi ilə bağlıdır. Miqrasiya siyasətinin və onun realaşdırılması mexanizmlərinin aşağıdakı istiqamətləri fərqləndirilir:
1.mühacirlərin iqtisadi fəal hissəsinin qəbulu və yerləşdirilməsi və onların mövcud sosial iqtisadi vəziyyətə uyğunlaşması üçün şərait yaradılması;
2.məcburi, zəif müdafiə olunan köçkünlərin dövlət tərəfindən müdafiə olunması;
3.məcburi köçkünlərin yaşayış təminatı mexanizmlərinin dəyişdirilməsi;
4.miqrasiya proseslərinin tənzimlənməsinin iqtisadi mexanizmlərinin hazırlanması, ərazilərin dəstəklənməsi və mühacirlərin müəyyən ərazilərə axınının tənzimlənməsində dövlət maraqlarının nəzərə alınması.

I. Miqrasiya siyasəti konsepsiyasının elmi və iqtisadi əsasları işlənib hazırlanmalıdır. Bu konsepsiya – bu və ya digər regionda əhalinin sayı, demoqrafik tərkibi, əhalinin sayca çox olduğu ərazilərdən köçürülməli olanların müəyyənləşdirilməsi və köçürmənin təşkili, iqtisadi, inzibati üstünlüyə malik olan bölgələrin bu məqsədlə istifadə edilməsi ilə bağlı məsələlərin həllinə yönəlməlidir.

II. Miqrasiya proseslərinin tənzimlənməsi və layihələşdirilməsi üçün vahid dövlət siyasətinin reallaşdırılması mexanizmləri hazırlanmalıdır. Bu mexanizmlər aşağıdakı kimi müəyyənlədirilir:

1) Kompleks miqrasiya qanunvericiliyi.

2) Miqrantlar kateqoriyasının vahid təsnifatı və onların hesaba alınması sistemi.

3)Dövlət və regional məsuliyyətin, həmçinin müəssisələrin miqrasiya problemlərilə bağlı məsuliyyətlərinin məhdudlaşdırılması mexanizmi.

4)Miqrasiya problemlərinin dövlət tənzimlənməsini təmin edən iqtisadi və inzibati sisteminin yaradılması mexanizmi.

5) Məcburi miqrantların və xüsusi rayonların dövlət tərəfindən müdafiə edilməsi sistemi.

Miqrasiya cəmiyyətin inkişafının sosial iqtisadi və siyasi amili kimi həm nəzəriyyəçilərin, həm də icra və qanunverici hakimiyyət orqanlarının diqqətindədir. Miqrasiya prosesi ilə bağlı əsas anlayışlar kimi aşağıdakıları göstərmək olar:

1.**Miqrasiya** – fərqli səbəblərdən bu və ya digər ərazinin sərhədlərini keçərək, yaşayış yerinin dəyişdirilməsidir. Miqrasiya səbəblərinə (könüllü və məcburi) və tiplərinə (xarici və daxili) görə fərqləndirilir.

2.**Könüllü miqrasiya** – insanların daimi yaşadıqları dövlət ərazisini tərk etməsi və digər dövlətin ərazisində yeni yaşayış yerinə köçməsidir.

3.**Məcburi miqrasiya** – insanların sığınacaq yeri tapması məqsədilə yerdəyişməsidir. Xarici, yaxud daxili, dönən, yaxud dönməz məcburi miqrasiya fərqləndirilir.

4.**Daxili miqrasiya** – bir dövlətin ərazisində insanların daimi, yaxud müvəqqəti olaraq, yaşayış yerinin dəyişdirilməsidir.

5.**Xarici miqrasiya** – insanların öz dövlətlərinin ərazisindən digər dövlətin ərazisinə köçməsi (emiqrasiya), yaxud digər dövlətin ərazisindən öz dövlətinin ərazisinə köçməsidir (imiqrasiya).

6.**Qeyri qanuni miqrasiya** – insanların vətəndaşları olmadıqları dövlətlərin ərazisinə köçməsi ilə bağlı yerdəyişmədir.

7.**Mühacir** – yaşayış yerini dəyişən şəxsdir. Yeni yaşayış yerinə köçüb gələn şəxs – **immiqrant**, yaşadığı yeri tərk edən şəxs isə, **emiqrant** adlandırılır.

8.**Məcburi köçkünləri ilk qəbul edən məntəqə** – dövlət miqrasiya müəssisəsi kimi, köçüb gələnlərin qəbulu və müvəqqəti yerləşdirilməsi xidmətini yerinə yetirən məntəqədir.

9.**Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi mərkəzi** – məcburi olaraq, yaşayış yerini tərk etməli olan insanların yeni dövlət ərazisində yerləşdirilməsilə məşğul olan müəssisələrdir.

10. **Miqrasiya nəzarəti məntəqəsi** – ərazi miqrasiya xidməti ilə bağlı orqanın alt bölməsi olan və dövlət sərhəddində yerləşən nəzarət müəssisələrindən ibarətdir.

11. **Məcburi köçkünlərin yerləşdirilməsi** – məcburi köçkünlərin iş və yaşayış yeri ilə təmin olunmasına, sosial adaptasiyasına köməklik göstərilməsidir.

12. **Sıx məskunlaşma** – məcburi köçkünlərin 50 ailədən az olmayaraq, eyni ərazidə məskunlaşmasıdır.

**Miqrasiyanın səbəbləri**

Miqrasiya prosesinin əsas səbəbləri ailə vəziyyəti, iş yerinin dəyişdirilməsi, təhsillə bağlı yerdəyişmə, iqtisadi (işsizlik), ekoloji (iqlim dəyişiklikləri, ekoloji böhranlar), siyasi (Milli münaqişələr, siyasi dəyişikliklər) proseslərlə bağlıdır.

**Miqrasiya axınlarının müasir təsnifatı**

1.Məcburi miqrasiya;
2. Xarici miqrasiya;
3. Xarici əmək miqrasiyası;
4.Qeyri qanuni miqrasiya;
5.Daxili miqrasiya.

**Məcburi miqrasiya**

Məcburi miqrasiya əsasən qaçqınlar və məcburi köçkünlərin axının tənzimlənməsinə yönəlir. Məcburi mühacirlərin aşağıdakı kateqoriyaları fərqləndirilir:

1.hərbi qulluqçular və onların ailələri, muzdlu hərbçilər;
2.ekoloji böhran zonasının əhalisi.

Qaçqınlara kömək məqsədilə aşağıdakı tədbirlər görülür:

- immiqrantların müvəqqəti yerləşdirilməsi mərkəzi;
-qaçqınların daimi yaşayış məntəqələrində yerləşdirilməsi, onlara ev almağa köməklik göstərilməsi ilə bağlı təşkilatlar.

**Xarici miqrasiya**

Xarici miqrasiya – emiqrasiya və immiqrasiya kimi müəyyənləşdirilir. Emiqrasiyanın sosial strukturu əsasən ziyalılar, yüksək ixtisaslı mütəxəssislər, tələbələrin; Millətlərin mühacirəti ilə bağlıdır.

Xarici miqrasiya axınının tənzimlənməsi məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

- emiqrasiya və imiqrasiya axınlarının, onların səbəblərinin, dəyişikliklərinin, nəticələrinin, sosial şəraitə və miqrasiya vəziyyətinə təsirinin elmi əsaslandırılması və proqnozlaşdırılması;
- xarici miqrasiyanın bütün komponentlərini nəzərə alan vahid sistemin yaradılması;
- yerli diaspora ilə əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi;
- «beyin axınının» qarşısını almaq məqsədilə təkliflərin hazırlanması;
- mühacirət edən vətəndaşlarla münasibətlərin humanistləşdirilməsi məqsədilə xarici dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq qurulması.

**Qeyri qanuni miqrasiya**

Qeyri qanuni mühacirlər əsasən qeyri qanuni fəaliyyətlə (silah, narkotiklər və s. alveri) bağlı ölkəyə daxil olan insanlardır. Miqrasiyanın bu forması ölkədə cinayət hadisələrinin genişlənməsinə, ölkənin təhlükəsizliynin pozulmasına, bir sıra regionlarda sosial iqtisadi vəziyyətin zəifləməsinə səbəb olur.

**Xarici əmək miqrasiyası**

Əmək miqasiyası prosesi Milli əmək bazarının qeyri sabitliyi, qeyri qanuni əmək miqrasiyasının genişlənməsi, xaricdə işləyən əhalinin sosial müdafiəsinin təmin olunmaması, xarici əmək miqrasiyasının imkanlarının istifadə edilməməsi kimi bir sıra mənfi hallarla bağlıdır. Xarici əmək miqrasiyasının dövlət tərəfindən tənzimlənməsi aşağıdakılarla bağlıdır:

- xaricdə işləyən mühacirlərin hüquqlarının müdafiəsini təmin etmək;
- daxili əmək bazarında vəziyyətin yaxşılaşdırılması;
- xaricdə işləyən mühacirlər vasitəsilə ölkəyə daxil olan valyutanın köçürülməsinə şərait yaradılması və onların səmərəli istifadə edilməsi.

**Daxili miqrasiya**

Daxili miqrasiya regionlar arası və region daxili formalara malikdir. Regionlar arası miqrasiya əsasən ilkin yaşayış yerinə qayıtma ilə bağlı olub, daimi gəlirin, sosial güzəştlərin olmaması, işsizliyin genişlənməsilə əlaqədar meydana gəlir.

**Şəhər – kənd miqrasiyası**

Şəhər – kənd mübadiləsi daxili miqrasiya forması kimi tənzimlənə bilər. Sosial iqtisadi islahatlar dövründə kənd əhalisinin şəhərə və şəhər əhalisinin kəndə axını güclənir. Çoxmilyonlu sənaye şəhərləri, həmçinin bu şəhərlərdəki

daha inkişaf etmiş infrastruktur kənd əhalisinin şəhərə axınının əsas səbəbi kimi çıxış edir. Eyni zamanda şəhərlərdə yaşayışın bahalaşması yerli əhalinin kəndlərə miqrasiyasına səbəb olur. Bu prosesi sabitləşdirmək üçün dövlət əhalinin az məskunlaşdığı ərazilərin sosial iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədilə tədbirlər görməlidir.

**Represiyaya uğramış xalqların yerdəyişməsi**

Müasir dövrdə vaxtı ilə represiyaya uğramış xalqların əvvəlki yaşayış yerlərinə qaytarılması məqsədilə dövlət tərəfindən tədbirlər hazırlanır.

## YOXLAMA SUALLAR

1.Miqrasiya siyasəti hansı əsaslarda həyata keçirilirI.
2.Dönən və dönməz miqrasiya nədir?
3.Miqrasiya axınlarının müasir təsnifatı necədir?
4. Məcburi miqrasiya nədir?

## REFERAT MÖVZULARI

1.Miqrasiya davranışının layihələşdirilməsi prinsipləri.
2. Miqrasiya siyasəti konsepsiyası
3.Miqrasiya proseslərinin tənzimlənməsi və layihələşdirilməsi

## ƏDƏBİYYAT:

1.Антонюк Г.А. Социальное проектирование и управление общественным развитием. Минск: Наука и техника, 1936.
2. Ахмедли Дж.Т. Активизация человеческого фактора и проблемы совершенствования распределительных отношений /Тематический сборник/. Баку, БФ ЛФЭИ, 1988.
3.Беккер Т. Экономический анализ и человеческое поведение. М., 1993.
4.Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
5.Гасанов Г.А. Проблемы занятости населения в сфере личного труда в условиях трансформации форм хозяйствования в Азербайджане. Автореф. дис. канд. экон. наук. Баку, 1998.
6. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
7.Попов С. А. Стратегическое управление. М., 1999.
8.Рагимов А.А., Гасанов Р.М. Трансформационные процессы и проблема национальной безопасности в Азербайджане. Б., Нурлан, 2003.
9.Разу М. Л. Управление программами и проектами. М., 2000.
10.Румянцев С.Ю. Основные аспекты демографической ситуации современного Азербайджана. Авт….т дис. канд. социол. наук. Баку, 2004.

## 18.6 SEÇİCİ DAVRANIŞININ LAYİHƏLƏŞDİRİLMƏSİ

Seçici davranışının sosial layihələşdirilməsi seçicilərin davranışının öyrənilməsi və proqnozlaşdırılması, səsverməyə təsir edən amillərin aşkar edilməsilə bağlıdır. Bu amillər sırasında aşağıdakılar fərqləndirilir:
- maddi şəraitinin bu və ya digər yönümdə dəyişməsi;
- seçkilərin təsviri, analizi və qiymətləndirilməsi;
-ayrı-ayrı partiyaların və liderlərin seçici xüsusiyyətlərinin, ərazilərə təsir səviyyəsinin aşkar edilməsi;
-ayrı-ayrı əhali qruplarının seçicilik yönümü və davranışlarının müqayisə edilməsi.

Bu əsasda seçici davranışınının strukturu müəyyənləşdirilir. Bütün seçicilər üç dərəcəyə bölünür:

1.həmişə seçkilərdə iştirak edənlər, sabit seçici tipi;

2.heç vaxt seçkilərdə iştirak etməyənlər, abstinent (imtina edən) tip;

3.aralıq vəziyyət tutanlar – situativ tip.

Seçkilərdə zəif iştirakın aşağıdakı səbəbələri fərqləndirilir:

1.ümummilli və ümumsiyasi xüsusiyyəli səbəblər (siyasətə marağın olmaması, vətəndaşların dövlətə özgələşməsi);

2.xüsusi seçki kampaniyası ilə bağlı səbəblər (maraq doğurmayan namizədlər, zəif təbliğat və s.);

3.qanunvericiliyin natamamlığı və seçki komissiyasından narazılıq;

4.təsadüfi xüsusiyyətli səbəblər (hava, sağlamlıqla bağlı və s.).

Seçici davranışının layihələşdirilməsinin əsasında aşağıdakı fəaliyyət istiqamətləri durur:

1.Əhalinin sosial demoqrafik, sosial peşə, dini tərkibinin müəyyənləşdirilməsi;

2.İqtisadi vəziyyətin, əhalinin məşğulluq və rifah səviyyəsinin müəyyənləşdirilməsi;

3.Mövcud sosial mədəni zonaların müəyyənləşdirilməsi və onların seçici məntəqələri ilə müqayisə edilməsi, özünəməxsus ənənələrin və problemlərin aydınlaşdırılması;

4.Seçkilərdə əhalinin iştirak xüsusiyyətlərinin aşkar edilməsi.

Bu məsələlərin həlli ilə bağlı tədqiqatçılar statistik məlumatlara müraciət edirlər. Seçici davranışını layihələşdirənlər sorğu, intervü, müşahidə, sənədlərin təhlili, ekspert qiymətləndirməsi, fokus qruplarda iş kimi sosioloji metodlar əsasında lazımi göstəriciləri toplamalıdırlar. Bu tədqiqatlar əsasında aşağıdakı xüsusiyyətdə məlumatlar əldə edilir:

1.seçicilərin seçkilər və iddiaçılar haqqında məlumatlılıq səviyyəsi;

2.respondentlərin seçicilik təcrübəsi: seçkilərdə iştirak, səsvermə ilə bağlı qərarları və s.;

3.yaşadığı ölkə, regionun problemlərinin qavranılması, siyasi yönümləri;

4.seçici məqsədləri: seçkilərdə iştiraka hazırlıq və bu və ya digər iddiaçıya səs vermə, bu davranışların səbəbləri, onların sabitlik səviyyəsi;

5.seçkilər qabağı tədbirlərə münasibət, seçki kampaniyasında bu tədbirlərin səmərəlilik səviyyəsi.

Sesiçi fəaliyyəti ilə bağlı tədqiqatlar hakimiyyət uğrunda mübarizədə siyasi sahə və institutların funksiyalaşması haqqında cəmiyyətin fasiləsiz məlumatlandırılmasına olan tələbatla bağlı meydana gəlib. Seçici davranışı ilə bağlı tədqiqatların dörd forması fərqləndirilir:

1.Məlumatlandırma – cəmiyyətin siyasi institutlarını mövcud siyasi davranış haqqında həqiqi məlumatla təmin etmək;

2.İslahedici (korrektə) – qəbul edilən idarəetmə qərarlarının yoxlanılmasını təmin etmək, seçici davranışının xüsusiyyətlərinin və istiqamətlərinin islah edilməsi;

3.Proqnozlaşdırıcı – tədqiq olunan proses və təzahürlərin inkişafına dair proqnozların həyata keçirilməsi;

4.Təbliğatçı – geniş ictimaiyyətin sosial meyarların nəticələri, seçki qabağı kampaniyanın gedişi ilə tanış edilməsi seçicilərin düzgün istiqamətlənməsinə və seçkilərə marağının yüksəlməsinə kömək edir.

**Seçici davranışın proqnozlaşdırılması**

Seçici davranışın prqnozlaşdırılması iki tədqiqat məsələsi əsasında müəyyənləşir. Birinci məsələ seçkilərdə iştirak edənlərin sayının, ikinci məsələ səslərin son miqdarının müəyyənləşdirilməsi ilə bağlıdır. Əldə edilən məlumatlar seçki vəziyyətinin və seçki gedişinin prqnozlaşdırılmasına şərait yaradır. Seçkilərə dair tədqiqatın üç mərhələsi fərqləndirilir: seçki qabağı tədqiqat, seçki günü aparılan tədqiqat, seçkilərdən sonrakı tədqiqat. Burada mövcud siyasi vəziyyətin və reytinqin öyrənilməsilə bağlı seçki qabağı tədqiqat əsas mərhələ hesab edilir, hər 5 – 6 gündən bir təkrar sorğular aparılır və son tədqiqat seçkilərə 3 – 4 gün qalmış olur. Alınan nəticələr müqayisə edilir və bu əsasda seçicilərin davranış xüsusiyyətləri müəyyənləşdirilir.

Reytinq müəyyənləşdirilərkən əsasən «tərəzi» və «xəlbir» metodları istifadə edilir. «Tərəzi» metodu ilə reytinq fərqli münasibətlər və «Əgər seçkilər yaxın bazar günü keçirilsə idi, siz kimə səs verərdiniz?» və «Əgər seçkilər yaxın bazar günü keçirilsə idi, siz kimə səs verməzdiniz?» sualları əsasında müəyyənləşdirilir. «Xəlbir» metodu istifadə edilərkən, hər bir siyasi lider və siyasi partiyaya münasibət müəyyənləşdirilir və bu zaman aşağıdakı göstəricilər istifadə edilir:

- liderin tanınması səviyyəsi;
- partiyanın tanınması səviyyəsi;
- nüfuz səviyyəsi;
- siyasi etibarlılıq ölçüləri;
- mövcud məqamda konkret fəaliyyətin qiymətləndirilməsi;
- mövcud liderin gələcəyinə inam;
- mövcud partiyanın gələcəyinə inam.

Bu ölçülər təsadüfi qiymətləndirmədən uzaq olduğu üçün daha dəqiq proqnoz verməyə imkan yaradır.

Seçkilər günü və seçkilərdən sonra keçirilən tədqiqatlar zamanı «Siz namizədlərdən hansına səs vermisiniz?» sualından istifadə edilir. Bu tədqiqatın məqsədi seçkilərin ümumi nəticələrinin seçkiqabağı tədqiqat nəticələrini manipulyasiya etməsi imkanlarının qarşısını alınmaqla bağlıdır.

Uğursuz proqnozlaşdırmadan sonra səhvlər üzərində iş aparılmalıdır. Bütün toplanmış təcrübə təhlil edilməli, seçici davranışının proqnozlaşdırılmasına dair etibarlılığı təmin edən yanaşmalar müəyyənləşdirilməlidir. Proqnozlaşdırmanın metodik əsasları təmin edilməli, informasiya mənbələri genişləndirilməli, keyfiyyət metodları istifadə edilməli, sorğuların gedişi bir qədər dəyişdirilməli, riyazi modellər əsasında modellər qurulmalıdır.

**Seçici davranışının sosial layihələşdirilməsi və proqnozlaşdırılması istiqamətləri**

1.Cəmiyyətin siyasi parityalara münasibətinin və vətəndaşların seçici davranışının aydınlaşdırılması və prqnozlaşdırılması.

2.Əhalinin siyasi partiyaların proqramları haqqında məlumatlılıq səviyyəsi.

3.Seçicilərin sosial strukturu.

4.Partiya və hərəkatların potensial seçiciləri.

5.Seçicilərin yaş strukturu.

6.İki partiyalılıq sisteminin tərəfdarları ilə çox partiyalılıq tərəfdarlarının partiya liderlərinə münasibətləri.

7.Seçici göstəricilərinin etibarlılıq səviyyəsi.

8. Partiyaların seçicilərlə yaxınlığı.

9.Seçici davranışının mənfi və müsbət variantları.

Cəmiyyətin siyasi partiyalara münasibəti və vətəndaşların seçici davranışı siyasi partiyaların fəaliyyəti və apardığı siyasətin analizi əsasında müəyyənləşdirilir. Cəmiyyətin bu və ya digər siyasi partiyaya münasibəti seçicilərin partiyaların fəaliyyəti və siyasi məqsədləri haqqında məlumatları əsasında müəyyənləşir. Seçicilərin sosial strukturunun və seçici

davranışlarının təhlili bu və ya digər siyasi partiyanın sosial əsasları haqqında proqnoz verməyə kömək edir. Partiyaların potensial seçiciləri səs verməyə hazır olan sosial qrupları müəyyənləşdirməyə əsas verir. Proqnozlaşdırma zamanı seçkilərdə iştirak etmək fikrində olmayan qrup xüsusi qrup kimi çıxış edir. Seçici qruplarının vəziyyətilə bağlı fərqlər təsnif edilərkən, seçicilər dörd qrupa bölünür:

- zəif mobilliyə malik olanlar (seçkilərdə iştirak etmək niyyəti olmayanlar);
- hissəli mobilliyə malik olanlar (şəxsi təşəbbüs, yaxud seçici vərdişinə əsaslanan iştirak);
- yüksək mobilliyə malik olanlar (situativ səbəblərə əsaslanan iştirak);
- son hədli mobilliyə malik olanlar (hər hansı bir partiyanın tərəfdarları).

Bu bölgü seçicilərin seçkilərdə iştirak səviyyəsi əsasında müəyyənləşdirilib.

Partiyaların oxşarlığı partiya liderlərinin oxşar tərcümeyi-halı, siyasi proqramların uyğunluğu, siyasi, sosial və ümumbəşəri dəyərlərin bənzərliyi və s. ilə əlaqədardır. Seçici davranışının mənfi və müsbət tərəfləri proqnozlaşdırmanın əsası kimi çıxış edir. Seçici şüuru və davranışının aşağıdakı xüsusiyyətləri fərqləndirilir:

- fəhlə seçicilər liberal və xalq demokratik partiyaların, birliklərin və hərəkatların uğurlarını qiymətləndirərək, onlara səs verirlər;
- mühəndis-texniki seçicilər tərəqqipərvər və millətçi partiya və birliklərin uğurlarını qiymətləndirərək, onlara səs verirlər;
- xidmət sahəsi işçiləri və sahibkarlar daha çox səs çoxluğu ilə çıxış etsələr də, əsl mövqelərini daha az təzahür etdirirlər.

**YOXLAMA SUALLAR**

1.Seçici davranışınının strukturunu izah edin.
2.Seçkilərdə zəif iştirakı hansı səbəblərlə bağlıdır?
3.Seçici davranışın proqnozlaşdırılması xüsusiyyətlərini izah edin.

**REFERAT MÖVZULARI**

1.Seçici davranışın proqnozlaşdırılması xüsusiyyətləri
2.Seçici davranışının öyrənilməsinin tarixi kökləri
3.Elektoral davranışın layihələşdirilməsi
4.Seçici davranışının sosial layihələşdirilməsi və proqnozlaşdırılması istiqamətləri

**ƏDƏBİYYAT:**

1.Антонюк Г.А. Социальное проектирование и управление общественным развитием. Минск: Наука и техника, 1936.
2. Ахмедли Дж.Т. Активизация человеческого фактора и проблемы совершенствования распределительных отношений /Тематический сборник/. Баку, БФ ЛФЭИ, 1988.
3.Бергер П., Лукман Т. Социальное конструирование реальности/ М., 1995.

## 18.7 SOSİAL TƏHSİL: TƏHSİL PROSESİNİN LAYİHƏLƏŞDİRİLMƏSİ

Təhsil prosesinin tədqiqi təhsilin dinamik inkişafını müəyyənləşdirməyə yönəlir. Bu məqsədlə təhsilin sosiologiyası sahəsi dəqiqləşdirilməli, təhsil prosesinin obyekti öyrənlimәlidir. Təhsilin sosiologiyasının obyekti təhsil sahəsi və burada insanlar, sosial institutlar arasındakı xüsusi qarşılıqlı münasibətlərdir. Təhsilin sosiologiyasının predmeti təhsilin yayılma məkanını və sosial məkana təsirini, təhsil fəaliyyətinin, onun forma və mahiyyətinin, təhsilin fərqli sosial strukturlara inteqrasiyası xüsusiyyətlərinin analizinə yönəlir. Təhsillə sosial stratifikasiya və sosial mobillik arasındakı qarşılıqlı əlaqə, həmçinin cəmiyyətdə təhsilin şəcərəli bölgüsü kimi çıxış edən sosial ədalət problemləri təhsil sosiologiyasının predmetinin əsas aspektlərindən biri kimi təzahür edir. Təhsil sosiologiyasının predmeti aşağıdakı kimi təsnif edilir:

1.təhsil sahəsində sosial mədəni proseslərin vəziyyəti və dinamikası;

2.sosial mədəni fəaliyyət konsepsiyasının qanunları və prinsipləri, mexanizmləri və texnologiyaları;

3.təhsil sahəsinin ictimai həyatın digər sahələrilə qarşılıqlı təsiri;

4.təhsilin sosial subyektin harmonik inkişafına, sosial mahiyyətli digər fəaliyyət növlərinə təsirinin öyrənilməsi.

Təhsilin sosiologiyasının əsas kateqoriyaları – təhsil, təlim, tərbiyə, sosiallaşma, mədəniyyət, təhsil prosesi, təhsil məkanı ilə bağlıdır.

**Tədqiqatın əsas istiqamətləri**

Təhsil prosesinin tədqiqatının əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilir:

- təhsilin sosial səbəb-nəticə əlaqəliliyi;
- təhsil sahəsinin sosial mədəni təşkili;
- təhsilin səmərəliliyi;
- təhsil modelləri;
- təhsildə yeniliklər;
- təhsil səviyyələrinin tədqiqi;
- təhsilin ənənəvi və yeni formaları arasında münasibətlər;
- təhsilin cəmiyyətin sosial strukturunun dinamikasına təsiri.

**Təhsil prosesinin problem-tematik mahiyyətinin layihələşdirilməsi**

Təhsil prosesinin problem tematik mahiyyəti aşağıdakılar əsasında müəyyənləşir:

- təhsil prosesi şəxsiyyətin formalaşmasının mədəni əsasları kimi;
- təhsil sahəsinin dinamikası amilləri;

- təhsilin məzmunu, təhsillənmə sosial mədəni fəaliyyət kimi;
- tədris fəaliyyətinin metod və texnologiyaları;
- cəmiyyətin sosial strukturunun dinamikasına təhsilin təsiri.

**Təhsilin sosiologiyasının strukturu**

Təhsilin sosiologiyasının strukturu idrak fəaliyyətinin, təhsil prosesinin texnoloji modellərinin formalaşdırılması fəaliyyətinin mərhələ və nəticələri kimi müəyyənləşdirilə bilər. Bu əsasda təhsilin sosiologiyasının strukturu aşağıdakı kimidir:

- Nəzəri konsepsiyalar (təhsil, tərbiyə, mədəni mənşə, şəxsiyyət və peşə inkişafı ilə bağlı konsepsiyalar).
- Təhsil prosesinin, təhsil müəssisələrinin və bütövlükdə təhsil sisteminin təkmilləşdirilməsi haqqında hipotezlər.
- Təhsil sisteminin və bütövlükdə sosial sistemin qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi haqqında hipotezlər.
- Hipotezlərin formalaşdırılması, dəqiqləşdirilməsi və yoxlanılması ilə bağlı konseptual nəzəri aparat (anlayışlar, prinsiplər, kateqoriyalar, qanunlar).
- Həqiqi material (sosioloji, pedaqoji, politoloji və psixoloji tədqiqatlar, diaqnostika, monitorinq).
- Sosial layihə və modellər (hipotezlərin təsdiq edilməsi, sosial texnologiyaların, sosial ssenarilərin işlənib hazırlanması).
- Alınan nəticələrin qiymətləndirilməsi və yeni hipotezlərin irəli sürülməsi.

**Təhsilin əsas funksiyaları**

Təhsil prosesini sistemli şəkildə layihələşdirmək üçün təhsilin əsas funksiyalarını fərqləndirmək vacibdir. Təhsil biliklərin ötürülməsi, qəbulu və mənimsənilməsi prosesidir. Bu proses müəllim və tələbələrin qarşılıqlı fəaliyyəti əsasında həyata keçirilir. Təhsilə sosioloji yanaşma aşağıdakılardan ibarətdir:

1.təhsil prosesi sosial strukturun alt sistemi kimi sosial qarşılıqlı təsir əsasında inkişaf edir;

2.sosial təşkilat tipi kimi təhsil sistemi qarşılıqlı əlaqəli mövqelər, alt sistemlər, müəssisələr məcmusu olan xüsusi sosial struktura malikdir;

3.təhsil cəmiyyətin əsas institutlarından biri olub, bir sıra sosial funksiyaları yerinə yetirir.

Təhsilin funksiyalarını aşağıdakı kimi təsnif etmək olar:

1.***Mədəniyyətin ötürülməsi və yayılması funksiyası*** əsasında sosial institut olan təhsil vasitəsilə mədəni dəyərlər nəsildən nəsilə ötürülür.

2.***Dəyər yönümlərinin və təmayüllərinin formalaşdırılması funksiyası*** əsasında gənclər sosiallaşır və sosial sistemə inteqrasiya edir.

3.***Sosial diferensiasiya və seleksiya funkiyasına*** görə təhsil sistemi təhsil alanlara diferensial münasibət, yəni üfiqi (fərdi imkanlara, maraqlara, bacarıqlara əsaslanan, peşə yönümünə görə fərqlənən təhsil müəssisələri) və şaquli (ibtidai, natamam orta, tam orta, ali, ali təhsildən sonrakı təhsil) yanaşma əsasında qurulur və sosial mobilliyin əsasını təşkil edir.

4.***Peşəkar-iqtisadi funksiya*** əmək sahəsi ilə sıx bağlıdır. Bu funksiyaya görə, məhz təhsil sistemi vasitəsilə cəmiyyət yüksək ixtisaslı kadrların hazırlanmasına olan tələbatını ödəyir. Peşə-texniki, orta, xüsusi təhsil, kadrların təkmilləşdirilməsilə bağlı müəssisələr bu funksiyanın yerinə yetirilməsinə yönəlir.

Təhsil sisteminin əsas problemlərindən biri də təhsil sahəsində sosial qrupların fərqləndirilməsidir. Təhsilin sosiologiyasında makro və mikro sosial qruplar fərqləndirilir.

**Təhsilin sosial təşkilati modeli**

Təhsilin sosial təşkilati (struktur) modeli təhsil prosesində əmək bölgüsünə görə formalaşan üç əsas (makro) sosial qrupdan ibarətdir:

1.təhsil alanlar;

2.təhsil verənlər;

3.təhsil prosesinə, onun texnologiyalarına və təhsil sisteminin infrastrukturuna xidmət və kömək edənlər.

Təhsil sistemində formal və qeyri-formal təhsil formaları fərqləndirilir. Formal təhsil dedikdə, xüsusi təhsil müəssisələri və təşkilatları (məktəb, litsey, kollec, texnikum, institut, kadrların təkmilləşdirilməsi kursları və s.) vasitəsilə həyata keçirilən və cəmiyyətdə mövcud olan standartlara uyğun olan tədris nəzərdə tutulur. Bu təhsil forması attestasiya fəaliyyəti və təhsilə uyğun diplomlar verilməsi ilə müəyyənləşir.

Qeyri-formal təhsil dedikdə, institutlaşmamış təhsil forması, fərdi cəhdlər əsasında biliklərə yiyələnmə, cəmiyyətdəki standartlara əsaslanmayan qeyri ənənəvi təhsil nəzərdə tutulur.

**Təhsil sahələri**

Təhsilin layihələşdirilməsi prosesində təhsil sahələrinin müəyyənləşdirilməsi vacibdir. Bura aşağıdakı təhsil sahələri daxildir:

1.məktəbəqədər təhsil;

2.məktəb təhsili;

3.peşə təhsili;

4. orta ixtisas təhsili;

5.ali təhsil.

Bu və ya digər təhsilə yiyələnmə şəxsiyyətin cəmiyyətdə, sosial stratifikasiyada mövqeyinin müəyyənləşməsində əsaslı rol oynayır. Peşə

texniki təhsilə yiyələnənlər yüksək ixtisaslı fəhlələr olurlar. Orta ixtisas təhsil müəssisələrinin məzunları orta təbəqəni təşkil edirlər. Ali təhsil müəssisələrinin məzunları isə, ziyalılar təbəqəsi kimi, cəmiyyətdə əsas mənəvi dəyərlərin daşıyıcısı kimi çıxış edirlər.

Kadrların təkmilləşdirilməsi təkmilləşdirmə institutları vasitəsilə həyata keçirilir. Elmi sahədə bu aspirantura və dokturanturalarda təhsilin davam etdirilməsinə yönəlir.

**Təhsil sisteminin yeni modeli**

Təhsil sisteminin yeni modeli aşağıdakı istiqamətlər üzrə inkişaf edir:
- təhsil fəaliyyətinin təşkilati-hüquqi formasının dəyişkənliyi;
- təhsillənmənin dəyişkənliyi;
- çoxpilləli təhsil;
- təhsil müəssisələrinin dəyişkənliyi.

Ümumtəhsil məktəblərinin yeni tipli məktəblərə (gimnaziya, litsey, çoxprofilli məktəblər və s.) çevrilməsi meyli müşahidə olunur. Universitetlərin nəzdində xüsusi ixtisaslı litseylər və gimnaziyalar açılır və təhsil prosesində aşağıdakı xüsusiyyətlər təzahür edir:
- təhsil prosesinin ayrı-ayrı pillələri arasında sıx əlaqənin yaranması;
- peşə yönümünün möhkəm əsaslarının yaranması;
- gənclərin gələcək peşə seçiminə düşünülmüş yanaşmanın formalaşması;
- gənclərin müasir cəmiyyətdəki dəyərlərə yönəlməsi və peşə seçimindəki meyllər;
- təhsil prosesində şəxsiyyətin inkişafı;
- təhsil prosesinin sosial sifarişə yönəlməsi üçün şəraitin yaranması.

**Təhsil prosesinin idarə edilməsi**

Təhsil prosesinin idarə edilməsi təhsil sisteminin funksiyalaşması və inkişafı ilə bağlı xüsusi sosial tənzimləyici kimi çıxış edir. Burada təhsil sisteminin mövcudluğu, onun daimi yeniləşməsinə nəzarət həyata keçirilir. Təhsil prosesinin idarə edilməsi dövlət standartlarının və yeni formalarının təhsilə ötürülməsi xüsusiyyətini daşıyır. Ali səviyyəli idarəetmə çərçivəsində hər hansı bir təşkilat sosial siyasi xüsusiyyət kəsb edir. Bu səviyyədə ideologiya, dövlət və Milli siyasət paradiqmaları reallaşdırılır. Təhsil sahəsində idarəetmənin obyekti iki təşkilati forma – dərs vəsaiti və sosial olandır. Dərs vəsaiti texnoloji təhsil, sosial təşkilat isə, təhsil subyektlərinin qarşılıqlı münasibətlərilə bağlıdır.

Təhsil prosesinin idarə edilməsinin aşağıdakı səviyyələri fərqləndirilir:
- mikrosistemli (dərs məşğələsi);
- makrosistemli (təhsil müəssisəsi);
- meqasistemli (bütövlükdə təhsil sistemi).

**Təhsil prosesinin layihələşdirilməsinin üstünlükləri**

Təhsil prosesinin layihələşdirilməsi müəyyən sosial dəyərlərə və meyllərə əsaslanır. Bu sırada aşağıdakıları fərqləndirmək olar:

- ***etik üstünlüklər*** insanın azad təhsil alma hüququnun ədalətli həyata keçirilməsinə əsaslanır.
- ***siyasi üstünlüklər*** hökumətin müəyyən təhsil alma imkanları ilə bağlı milli ictimai ehtiyatlara iddia edən müəyyən sosial qrup və sosial təbəqələrə qarşı durmaq bacarığını əks etdirir. Bununla yanaşı təhsil büdcəsi cəmiyyətin maraqlarını əks etdirən müəyyən sosial qrupun təsiri altında müəyyənləşə bilər.
- ***iqtisadi üstünlüklər*** bir tərəfdən cəmiyyətin iqtisadi imkanları, digər tərəfdən təhsil sisteminə qoyulan investisiyalarla əlaqədardır. Təhsilə qoyulan kapital ən səmərəli kapital hesab edilir və əks münasibət qeyri peşəkar kadrlara malik olan iqtisadiyyatın zəifləməsinə səbəb olur.
- ***yaradıcı üstünlüklər*** bilavasitə cəmiyyətdə yüksək keyfiyyətli məhsulların və yüksək ixtisaslaşmış kadrların mövcudluğu ilə müəyyənləşir və məhz bu əsasda cəmiyyətin sabitliyi təmin olunur.

**Sosial təhsil**

Sosial təhsil xüsusi sosial fenomen olub, subyektin sosial dialoq aparmaq kimi zəruri sosial funksiyanı həyata keçirmək bacarığını əks etdirir. Sosial təhsilin iki forması – ümumi və xüsusi – fərqləndirilir. Birinci halda sosial təhsil zəruri, lakin köməkçi təhsil kimi, ikinci halda isə, müəyyən ixtisaslı kadrların hazırlanmasına yönəlmiş təhsil kimi qəbul edilir. «Differencia specifica» sosial təhsilin üçüncü forması kimi qəbul edilir və əsasən təhsilin ilkin, səciyyəvi xüsusiyyətini əks etdirir.

**Sosial dialoq**

Sosial dialoq – cəmiyyətin funksional xüsusiyyəti olub, subyektlərarası qarşılıqlı münasibətlər və qarşılıqlı fəaliyyət forması kimi çıxış edir. Bu ilk növbədə vətəndaş cəmiyyəti və dövlət arasında yaranan dialoqdur. İctimai münasibətlərin subyekti olan bütün sosial qruplar, siyasi partiyalar və hərəkatlar, ictimai birliklər, Milli, dini və digər təşkilatlar və təbəqlər arasında sosial dialoq mövcuddur. Fərd və sosial qrup, fərd və cəmiyyət, fərd və dövlət, həmçinin sosial qrup və cəmiyyət, sosial qrup və dövlət arasında qarşılıqlı fəaliyyətin reallaşdırılması sosial dialoqdur. Sosial dialoq qeyri-təşkilati, təbii və təşkilatlanmış ola bilər.

**Təhsilin dualizmi**

Təhsilin dualizmi aşağıdakı kimi müəyyənləşdirilir:

- Xüsusi təhsil - Ümumi təhsil
- Təhsil şəxsiyyətin formalaşdırılması prosesi kimi – Peşə təhsili

- Təhsil yaradıcılıq kimi – Təhsil istehsal kimi
- Özünütəhsilləndirmə – Təhsil biliklərin, bacarıqların, məlumatın məqsədyönlü ötürülməsi prosesi kimi
- Universitet təhsili – İxtisas təhsili
- Sənət, peşə əldə edilməsinə yönəlmiş təhsil – Təhsil təhsillənmə məqsədi daşıyan peşə kimi
- Qeyri formal təhsil – Formal təhsil

Təhsildə dualizmlə bağlı fiziklər və liriklər, humanitar və təbiətşünaslıq, dövlət və özəl təhsil müəssisələrində təhsil, ənənəvi və innovasion, klassik və qeyri-klassik, dövlət standartlarına uyğun olan və qeyri-standart təhsil formaları fərqləndirilə bilər.

**Sosial təhsilin arxitektonikası**

Sosial təhsilin əsas məsələsi sosial dialoqun subyekti olan insan formalaşdırmaqdır. Sosial təhsilin mahiyyəti və arxitektonikası sosial tarixi inkişaf prosesində şəxsiyyətin rolunun dərk edilməsinə yönəlir.

Sosial təhsil subyektləri sosial hədlərin direktiv (əmrverici) olandan mental (zehni) olana yönəlməsi istiqamətində fəaliyyət göstərirlər.

**YOXLAMA SUALLAR**

1.Təhsil sosiologiyasının predmetini izah edin.
2.Təhsilin sosiologiyasının əsas kateqoriyaları hansılardır?
3.Təhsil prosesinin tədqiqatının əsas istiqamətlərini izah edin.
4.Təhsilin sosiologiyasının strukturu necədir?
5.Təhsilin əsas funksiyaları hansılardır?

**REFERAT MÖVZULARI**

1.Sosial təhsil
2.Təhsil prosesinin layihələşdirilməsinin üstünlükləri
3.Təhsil prosesinin idarə edilməsi
4.Təhsilin sosial təşkilati modeli

**ƏDƏBİYYAT:**

1.Антонюк Г.А. Социальное проектирование и управление общественным развитием. Минск: Наука и техника, 1936.
2. Ахмедли Дж.Т. Активизация человеческого фактора и проблемы совершенствования распределительных отношений /Тематический сборник/. Баку, БФ ЛФЭИ, 1988.
3.Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. М., 1995.
4.Годин В. В., Корнеев И. К. Управление информационными ресурсами. М., 2000.
5. Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001.
6.Попов С. А. Стратегическое управление. М., 1999.

## 18.8 HƏYAT TƏRZİ SOSİAL LAYİHƏLƏŞDİRMƏNİN OBYEKTİ KİMİ

Həyat tərzi müəyyən şəraitlə bağlı həyat fəaliyyəti vasitəsi kimi başa düşülür. Həyat fəaliyyəti – həyat tələbatlarının ödənilməsinə yönəlmiş fəaliyyətdir (iş, istirahət, yuxu və s.), şəarit isə, xarici amil kimi fəaliyyəti stimullaşdırır. Həyat tərzinin xüsusiyyətləri insan fəaliyyətinin sosial təbiəti əsasında müəyyənləşir. Bu və ya digər həyat tərzi bir çox amillərin təsirilə formalaşır. Bu əsasda həyat tərzinin təsnifatı və tipologiyasını müəyyənləşdirmək olar. Həyat tərzinin əsas kateqoriyalarının təsnifatı aşağıdakı kimidir:

1.obyekt – həyat tərzi tədqiqat obyekti kimi. Bu meyar əsasında həyat tərzinin tədqiqi və qiymətləndirilməsilə bağlı normativ-müqayisəli və konkrtet-tarixi yanaşmalar fərqləndirilir. Birinci mənada cəmiyyətin aparıcı sinfinin həyat tərzi ideal həyat tərzi kimi müəyyənləşdirilir. İkinci halda bütövlükdə cəmiyyətin mürəkkəb konkret-tarixi reallıqla bağlı həyat tərzi nəzərdə tutulur.

2.subyektiv – həyat tərzi subyektləri. Fərdlər, sosial qruplar və bütövlükdə cəmiyyət həyat tərzi subyektləri kimi müəyyənləşdirilir.

3.davranış – universal xüsusiyyət daşımayan və yalnız fərdin və bəzi sosial qrupların həyat tərzinin təsnifatı ilə bağlıdır. Bu meyarın əsasında insanların fərqli davranış fomaları (nizamlı-nizamsız, qapalı-açıq, tüfeyli-zəhmətkeş, oturaq-hərəkətli və s.) durur. Həyat səviyyəsi anlayışı həyat tərzi anlayışından fərqlənir və həyat tərzinin tərkib hissəsi kimi çıxış edir. Bu sırada sosial iqtisadi anlayış olan həyat forması xüsusi yer tutur. Həyat forması müəyyən istehsal münasibətləri sistemi kimi, istehsal, ictimai həyat, mədəniyyət, məişət, sosial nizamla bağlı həyat tərzini nəzərdə tutur.

«Həyat tərzi» sosial psixoloji kateqoriya kimi insanların davranışının qiymətləndirilməsinə yönəlir. Həyat tərzinin formalaşması xüsusiyyətlərilə bağlı aşağıdakılar müəyyənləşdirilib:

1.Bir sıra fərdlər, sosial qruplar, yaxud cəmiyyətlərin oxşar həyat tərzində fərqli keyfiyyətlər və əksinə fərqli həyat şəraitində eyni keyfiyyətlər ola bilər. Bununla yanaşı eyni həyat şəraiti və həyat keyfiyyətləri çərçivəsində insanlar fərqli həyat üslubuna malik olurlar. Bu əsasda insanların davranışlarının mahiyyəti, strukturu və göstəriciləri müəyyənləşir.

2. İnsanların davranışının obyektiv və subyektiv tərəfləri fərqləndirilir. Şərait insanları bu və ya digər şəkildə hərəkət etməyə vadar edir. Lakin çox zaman insanlar öz dəyər yönümləri əsasında müəyyən hərəkətlər edirlər. Bununla əlaqədar olaraq, həyat tərzi ilə yanaşı həyat şəraiti və düşüncə tərzi

də öyrənilməlidir. Bu prosesin tərkib hissələri kimi həyat şəraiti və həyat fəaliyyətinin tədqiqi əsasında həyat tərzi problemi; davranış və düşüncə tərzinin öyrənilməsi əsasında həyat üslubu problemi ayrılıqda təhlil edilməlidir. Çox zaman «həyat standartları» anlayışı «həyat şəraiti» və «həyat tərzi» anlayışları ilə eyniləşdirilir. Həyat standartları – həyat səviyyəsi, keyfiyyəti, üslubu, tərzi və üsulu normativləri əsasında müəyyənləşir.

Sistemli analiz metodu əsasında həyat tərzinin aşağıdakı komponentləri fərqləndirilir:

1.obyektin (əməyin) dəyişməsi;
2.subyektin (təhsil, mədəniyyət) formalaşdırılması;
3.subyektlər arası münasibətlərin (ictimai siyasi fəaliyyət, hüquq qaydalarının təmin olunması, Milli münasibətlər) təşkili;
4.subyektin təkrar istehsalı (məişət, ailə və nigah) və s.

Bu əsasda həyat tərzinin əsas və alt bölmələri fərqləndirilir.

**Proqnozlu sosial layihələşdirmədə insanın həyat vəziyyəti və həyat təminatı sistemi**

Proqnozlu sosial layihələşdirmə hissəli (parsial) insana deyil, hiss edən, düşünən və qarşılıqlı fəaliyyətdə olan insana ünvanlanmalıdır. Sosial proseslərin sosial subyektlərin təbiətinin tamlığı əsasında analizi və layihələşdirilməsi situasion yanaşma adlanır. Sosial tipik olandan fərdiyə doğru yönələn bu analiz sosial proseslərə konkret-tarixi, sosial və şəxsi vəziyyətlərdən yanaşır. Vəziyyətlər bir ölçülü və çox ölçülü, sabit və problemli ola bilər. Məhz problemli vəziyyətlər sosial layihələşdirmə fəaliyyətinin diqqət mərkəzində olur. Şəxsiyyətin fərdi meylləri, məqsədləri və imkanları (sosial ehtiyatları) əsasında onun həyatının problem və gərginlik meyarları müəyyənləşdirilir. Şəxsiyyətin dəyər yönümü sistemli yazılmamış fəaliyyət, davranış, ünsiyyət və insanlarla qarşılıqlı fəaliyyət normaları əsasında müəyyənləşir. Sosial rabitə prosesində bu normalar başqa insanlara ötürülür. İnsanın sosial təcrübi varlığı çoxölçülüdür. Bu çoxölçülülük, zaman və məkan xüsusiyyətləri daşıyır və şəxsiyyət bir tərəfdən, ən azı dörd zaman çərçivəsində (xronoloji, sosial-tarixi, psixoloji və bioloji zaman), digər tərəfdən isə, ən azı üç ölçülü məkanda (sosial iqtisadi, sosial ekoloji, sosial mədəni, yaxud ideoloji) mövcud olur. İnsanın sosial təcrübi varlığı sosial idarəetmə obyekti olan həyat təminatı sisteminə xüsusi tələblərlə yanaşır. Həyat təminatı sistemi cəmiyyətin sosial strukturu və sosial infrastrukturu kimi çoxhəlqəli tamdır. Bu sistem insanın ekoloji vahid və müəyyən sosial mədəni xüsusiyyətlərə malik olan şəxsiyyət kimi mühafizəsi, istirahəti və təkrar istehsalına imkan yaradır və onun fiziki, psixi və sosial sağlamlığını, mənəvi, yaradıcılıq və sosial ehtiyatlarını təmin edir.

**Həyat tərzinin sosial layihəsinin işlənib hazırlanması texnologiyaları**

Həyat tərzinin sosial layihəsinin işlənib hazırlanması prosesi bir sıra mərhələdən ibarətdir. Problem yönümlü sosial layihənin işlənib hazırlanmasının ən vacib və mürəkkəb mərhələsi ilkin kəşfiyyat proqnoz mərhələsidir. Bu mərhələdə sosial problemlərin qarşılıqlı əlaqəsi «ağacı», yaxud modeli qurulur. Bu «ağacı» qurmaq üçün bir çox «torlar» (matritsalar) müqayisə edilməlidir. Belə matritsalar fərqli informasiyalar, lakin oxşar prinsiplər və metodlar əsasında qurulur. Bu sırada aşağıdakıları qeyd etmək olar:

1.Sosial kartoqrafiya tədqiq olunan empirik obyektin matritsasının təşkili vasitəsi kimi çıxış edir. Sosial kartoqrafiya gedişində mövcud statistik göstəricilər, həmçinin əvvəlki tədqiqatların nəticəsi kimi əldə edilmiş göstəricilər istifadə edilir.

2. Matritsanın qurulması üçün istifadə edilən anket sorğuları cari və perspektiv problemlərə əhalinin münasibətinin öyrənilməsinə yönəlir. Bu metod əsasında vətəndaşların qəzetlərə və idarəetmə orqanlarna məktubları təhlil edilir. Belə analiz əhalinin imitasion sorğusu funksiyasını yerinə yetirir.

3. Matritsanın qurulması üçün idarəetmə qərarlarının qəbul edilməsində iştirak edən vəzifəli şəxslərin və peşəkarların ekspert sorğusu keçirilir və bu əsasda cari və perspektiv problemlərin qarşılıqlı əlaqəsi müəyyənləşdirilir.

4. Problemlərin qarşılıqlı təsiri ilə bağlı matritsaların müqayisəli analizi əsasında onların əlaqəliliyini əks etdirən cədvəl qurulur.

Mövcud ehtiyatların qiymətləndirilməsi, həmçinin bu əsasda problemlərin həlli «alqoritmlərinin» hazırlanması layihənin işlənməsinin ikinci və üçüncü mərhələsini təşkil edir.

Ehtiyatların qiymətləndirilməsi və sosial problemlərin həlli alqoritmlərinin qurulması bir sıra prinsiplərə əməl olunmasını tələb edir:

- qərarın elmi əsaslandırılmış normativ modeli prinsipi;
- məqsədəuyğunluq və məqsədyönümlük prinsipi;
- sosial təkrar istehsal edilən dəyərlər və layihələşdirmə göstəricilərinin insanla uyğunlaşdırılması prinsipi;
- modifikasiyanın «böhran həddi» prinsipi;
- insanın öz ətraf mühitilə qarşılıqlı fəaliyyət istiqamətlərinin komplekslilik və əhəmiyyətlilik prinsipi;
- reallıq və reallaşdırma prinsipi.

Sosial layihələşdirmə idarəedilən sosial proseslərin miqyasını genişləndirir, belə ki, insanların həyat vəziyyəti və həyat şəraiti əsasında mikrososial prosesləri də analiz edir. Bu zaman aşağıdakılar nəzərə alınır:

1.sosial problemlərin və innovasion idarəetmə tədbirlərinin mümkün nəticələri analiz edilərkən, ictimai inkişafın şəxsiyyət əsaslarının nəzərə alınması;

2.problemli həyat vəziyyətlərilə nəticələnən həll edilməmiş sosial problemlərin genişlənməsinə səbəb olan «gərginlik nöqtələrinin» tədqiq edilməsi;

3.perspektiv idarəetmə qərarları kompleksini hərtərəfli tədqiq etmək və bu zaman həmin qərarların nəticələrini mikro və makro sosial proseslərə uyğun olaraq, qiymətləndirmək.

Sosial idarəetmə qərarlarının həqiqi səmərəliliyi bu qərarların insanların həyat tərzinə, fiziki, psixoloji və sosial vəziyyətlərinə təsiri, vacib və sosial dəyərli problemlərin həllinə imkan yaratması ilə müəyyənləşdirilir. Həyat tərzi sosial həyat fəaliyyətinin subyekti olan insana təsir edir, yəni həyat tərzi necədirsə, insan da elədir. İnsan özünütənzimləyən, təkmilləşdirən sistemdir. Şəxsiyyət isə, şəraitin məhsuludur, şəraiti insanların yaratdığını nəzərə alsaq, demək olar ki, şəxsiyyət sosial varlıq kimi ictimai inkişafın yaradıcısıdır. İnsan özünüidarəetmə vasitəsilə həyat tərzini nizamlayır, hər bir işi dərkedilmiş şəkildə yerinə yetirir. İnsanın özünütənzimləməsi erkən yaş dövrlərindən başlayaraq formalaşan xüsusi «Mən» sistemi vasitəsilə həyata keçirilir. Özünüqiymətləndirmə həm şəxsi ola bilər, həm də ətrafdakı insanların təsirilə formalaşa bilər. Yetkin yaşlarında şəxsiyyət özünü idarəedən sistem kimi aşağıdakıları həyata keçirir:

- psixi fəaliyyətə istiqamətlənmə;
- onun sürətlənməsi, yaxud fəaliyyətinin zəifləməsi;
- niyyətlərin uyğunlaşdırılması;
- fəaliyyətə nəzarət edilməsi;
- fəaliyyətin əlaqələndirilməsi.

Bu qərarları yerinə yetirmək üçün «Mən»in aşağıdakı mexanizmləri formalaşdırılır:

1.nəzarət;

2.razılıq;

3.icazə vermə;

4.qüvvətləndirmə.

«Mən» strukturunda aşağıdakılar uyğunlaşdırılıb:

1.»Mən» haqqında real və ideal təsəvvürlər;

2.Real davranışla ideal davranışın uyğunlaşdırılmasına yönələn vicdan.

İnsanın özünü idarəetməsinin iki forması fərqləndirilir:

1.operativ;

2.perspektiv.

Özünüidarəetmənin aşağıdakı tipləri fərqləndirilir:

1.Əxlaqi-iradi – müsbət tip olub, güclü, zəhmətkeş və bütöv şəxsiyyətə xas olur.

2.Qeyri əxlaqi-iradi – eqoist fərdiyyətçi tip qeyri sosialdır.

3.Abulist (iradəsiz) tip – ləng və passiv, hər şeyə laqeyd olan şəxsdir.

4.İmpulsiv tip – qeyri-iradi hərəkətlərə, meyllərə malik olur, lakin özünü reallaşdıra bilmir.

Şəxsiyyət malik olduğu xüsusiyyətlərə əsasən ictimai inkişafın subyekti kimi çıxış edir. Şəxsiyyətin əsas xüsusiyyətləri aşağıdakılar müəyyənləşdirilib:

- ideyalılıq;
- məqsədyönümlük;
- əxlaqi tərbiyə;
- mənəvi zənginlik;
- tamlıq, şəxsiyyətin fəallığı;
- orijinallıq və fərdilik.

İnsanın potensialının fəallaşdırılıması əsasında cəmiyyətin inkişafı sürətlənir.

**YOXLAMA SUALLAR**

1.Həyat tərzinin əsas kateqoriyaları hansılardır?
2.Proqnozlu sosial layihələşdirmədə insanın həyat vəziyyəti və həyat təminatı sistemini izah edin.
3.Həyat tərzinin sosial layihəsinin işlənib hazırlanması texnologiyalarını izah edin.

**REFERAT MÖVZULARI**

1.Həyat tərzinin sosial layihəsinin işlənib hazırlanması texnologiyaları
2.Proqnozlu sosial layihələşdirmədə insanın həyat vəziyyəti və həyat təminatı sistemi
3.Həyat tərzinin formalaşması xüsusiyyətləri
4. Həyat tərzi sosial layihələşdirmənin obyekti kimi

**ƏDƏBİYYAT:**

1.Антонюк Г.А. Социальное проектирование и управление общественным развитием. Минск: Наука и техника, 1936.
2. Ахмедли Дж.Т. Активизация человеческого фактора и проблемы совершенствования распределительных отношений /Тематический сборник/. Баку, БФ ЛФЭИ, 1988.
3.Беккер Т. Экономический анализ и человеческое поведение. М., 1993.
4.Бергер П., Лукман Т. Социальное конструирование реальности. М., 1995.
5.Гасанов Г.А. Проблемы занятости населения в сфере личного труда в условиях трансформации форм хозяйствования в Азербайджане. Автореф. дис. канд. экон. наук. Баку, 1998.
6.Гасанов Р.М. Формирование гражданского общества в условиях трансформации. Б., Изд-во БСУ «Китаб алями», 2003.
7.Генисаретский О.И. Регионализм, средовое проектирование и проектная культура // Экологическая культура. М., 1991.

## Mövzu 19. FƏRDİ LAYİHƏNİN HAZIRLANMASI

Bu gün sosial proqramlar və layihələr bazarı istehlakçı olan əhalinin, ictimai, kommersiya və dövlət institutlarının ehtiyaclarının, tələbatlarının və maraqlarının reallaşdırılmasına yönəlmiş mövcud və potensial layihələr əsasında qurulur. Bu və ya digər proqram və layihənin bazara çıxarılması zərurəti həmin fəaliyyət formasına olan tələbat əsasında müəyyənləşir.

Layihənin hazırlanmasının digər vacib şərtlərindən biri də dövlət sosial sifarişidir. Bu sifarişin məqsədi ictimai təşəbbüs əsasında sosial problemlərin səmərəli və qənaətcil həlli ilə bağlıdır. Bu və ya digər sosial layihənin uğuru müəyyən fəaliyyət istiqamətinin təşkilatlandırılmasına olan tələbat və həmin layihənin reallaşdırılması ilə bağlı daha çox insanın faydalanmasına görə müəyyənləşir. Layihənin rəqabətə dözümlülüyündə əsas şərt cari layihənin istiqamətləndiyi fəaliyyət formasının və müəssisənin peşəkar, təşkilati-maliyyə imkanlarının reallaşdırılmamış tələbatlara uyğunluğu ilə bağlıdır.

Layihə təkmilləşdirilməsi nəzərdə tutulan konkret vəziyyətin təsviri və problem məqsədin müəyyən metodlarla reallaşdırılmasına yönəlir. Layihə idarəetmə fəaliyyəti kimi, daha praktik, konkret və həyata keçirilə bilən idarəetmə sənədidir. Layihənin sənədləşdirilməsi onun konsepsiyasının və proqramının müəyyənləşdirilməsilə bağlıdır.

***Layihənin konsepsiyanın***_əsas mahiyyəti – fəaliyyətə ümumi yanaşma; vəziyyətin analizi; arzu edilənin təsviri; təsis etmə təyinatı; təsisatın əsas məqsəd və istiqamətləri; proqram və layihələrin qısa xülasəsi ilə bağlı olub, təşkilatın fəaliyyətinin mahiyyəti, təyinatı və əsas istiqamətləri haqqında təsəvvürlər əldə etmək üçün zəruridir. Konsepsiya müəyyənləşdirilərkən «Vizitka» bədii təsvir forması istifadə edilir.

1.Konsepsiya bütün əməkdaşlar və maraqlı şəxslərin təşkilatın fəaliyyətinin mahiyyəti haqqında vahid, tam təsəvvürlər əldə etməsinə imkan yaradır.

2.Konsepsiya istiqamətləndirici kimi, təşkilatın məntiqi fəaliyyətini müəyyənləşdirir. Konsepsiya əsasında fəaliyyəti nizamlayan proqramlar və layihələr qurulur.

***Layihə proqramının*** mahiyyəti – analitik qeyd; aktuallıq; konseptual əsaslar; məqsəd və vəzifələr; kadrlar; reallaşdırma mexanizmi; maddi-texniki təminat və maliyyələşdirmə; gözlənilən nəticələrlə bağlı olub, gələcək fəaliyyətin tam, yaxud bir və ya bir neçə istiqamət modelinin təsviri kimi, gələcəkdə müəyyən nəticələrin əldə edilməsinə yönəlir. Proqram qurularkən «Xəritə, yaxud Kompas» bədii təsvir formasından istifadə edilir. Proqramın aşağıdakı formaları fərqləndirilir:

- müddətinə görə (uzun müddətli, orta müddətli, qısa müddətli və s.);
- strategiyasına görə (inkişaf, fəaliyyət proqramları və s.).

Proqram strateji sənəd kimi, maliyyələşdirmə üçün əsas ola bilməz, çünki nəzərə çarpacaq qədər sosial əhəmiyyətə malik olmur. Adətən proqram bu və ya digər layihənin işlənib hazırlanması və həyata keçirilməsi üçün əsas olur.

***Layihə*** – dəyişdirilməli olan vəziyyətin təsviri və təkmilləşdirilməsi məqsədilə tətbiq edilməli olan metod və mərhələlərin müəyyənləşdirilməsinə yönəlir. Layihədə «Hədəfə dəymiş ox» bədii təsvir forması istifadə edilir.

Layihə aşağıdakılardan ibarətdir:

1.Giriş (analiz, aktuallığın və yeniliklərin izah edilməsi, tətbiq etmə, funksiyalaşma sahələrinin müəyyənləşdirilməsi, konkret, lokal, həll edilməli olan problemin aşkar edilməsi).

2.Fəaliyyət məqsədinin və konkret, ölçülə bilən və əldə edilən məsələlərin qoyuluşu.

3.Kadr – idarəetmə aspekti (idarəetmə mexanizmi, personalın təsnif edilməsi).

4.Reallaşdırmanın mahiyyəti və mexanizmləri (modulları, mərhələləri, forma və metodları, təşkilati strukturu, konkret fəaliyyət planı).

5.Planlaşdırılan nəticələrin xüsusiyyətləri və qiymətləndirmə vasitələri.

6.Büdcə. Maddi-texniki təminat.

Sosial layihələşdirmə ətraf mühitin təkmilləşdirilməsilə bağlı müəyyən ideyalar, məqsədlər, ölçülər və onların reallaşdırılması fəaliyyətinə, bu fəaliyyət üçün zəruri ehtiyatların təsviri və müəyyən müddət ərzində təsvir edilən məqsədlərin həyata keçirilməsinə yönəlir.

Sosial layihə – yaxın sosial mühitdə nəzərdə tutulan dəyişikliklər modeli kimi aşağıdakıları nəzərdə tutur:

1.nəzərdə tutulan dəyişikliklərin reallaşdırılması istiqamətində həyata keçiriləcək fəaliyyətin sözlərlə təsviri;

2.qrafik təsvirlər (çertyoj, cədvəl və s.);

3.planlaşdırılan fəaliyyətin həyata keçirilməsi üçün zəruri olan rəqəmli göstəricilər və hesablar.

Hər hansı bil layihə reallaşdırılarkən tədqiq olunan problemli vəziyyətlə bağlı bir sıra mərhələli fəaliyyət yerinə yetirilməlidir:

1.İctimai rəyin öyrənilməsi;

2. Aktual sosial problemin qısa xülasəsi;

3. Layihələşdirilən lokal birliyin imkanlarının tədqiqi;

4. Sosial layihənin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;

5. İş planının hazırlanması;

6. İş cədvəlinin hazırlanması;
7. Vəzifələrin müəyyənləşdirilməsi və komandada bölüşdürülməsi;
8. Ehtiyatların və onların əldə olunması mənbələrinin müəyyənləşdirilməsi;
9. Büdcənin tərtib edilməsi;
10. Layihənin qiymətləndirilməsi sisteminin hazırlanması;
11. Komanda üzvlərinin təlimləndirilməsi;
12. İctimai rəyin formalaşdırılması;
13. Layihə təkliflərinin tərtib edilməsi;
14. İşgüzar ortaqların axtarışı;
15. Rəsmi danışıqların aparılması;
16. Zəruri ehtiyatların əldə edilməsi;
17. Planlı tədbirlərin həyata keçirilməsi;
18. Planın yerinə yetirilməsinin qiymətləndirilməsi və nəzarət edilməsi;
19. Layihənin reallaşdırılması gedişinin islah edilməsi;
20. Layihə üzərində işin nəticələrinin analizi;
21. İşin nəticələri haqqında ictimaiyyətə məlumat vermək.

Aşağıdakı cədvəllərdə göstərildiyi kimi, bu mərhələlər yerinə yetirilərkən hər bir mərhələyə dair xüsusi məqsəd və vəzifələr, gözlənilən nəticələr müəyyənləşdirilir.

**I.BÖLMƏ**

**Addım № 1. İctimai rəyin öyrənilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Yerli icma daxilində sosial vəziyyətin öyrənilməsi | Yerli icmada mövcud sosial vəziyyət haqqında obyektiv təsəvvürlər |
| 2. | Keçirilən tədqiqat haqqında əhatəli hesabatın hazırlanması | Hesabat materiallarının sistemləşdirilməsi |
| 3. | Əldə edilən materialın tədqiqi əsasında nəticələrin ümumiləşdirilməsi | Vəziyyətin dəyişməsilə bağlı konkret nəticələr |

**Addım № 2. Aktual sosial problemin qısa xülasəsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Sosial problemin (yaxud problemlərin) qısa ifadəsi | Problemin (yaxud problemlərin) dəqiq ifadəsi |
| 2. | Sosial problemin mövcud | Problemin meydana çıxma |

| | | |
|---|---|---|
| | olma səbəblərinin müəyyənləşdirilməsi | səbəbləri |

**Addım № 3. Tədqiq olunan problemlə bağlı imkanların tədqiqi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Mövcud imkanlarının tədqiqi | Sosial layihənin reallaşdırılmasında cəmiyyətin, gənclər klubunun imkanları haqqında təsəvvürlər |
| 2 | Layihənin reallaşdırılması ilə məşğul olan komandanın imkanlarının öyrəniməsi | Mövcud layihəni reallaşdırmasını qərara almış komandanın imkanları haqqında dəqiq təsəvvürlər |

**Addım № 4. Sosial layihənin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Layihənin auditoriyasının», yəni sosial layihənin yönəldiyi və sosial problemlərin daşıyıcısı olan sosial qrupun müəyyənləşdirilməsi. | Layihənin reallaşdırılması prosesində qarşılıqlı münasibətlərdə olacaq problem daşıyıcısı olan şəxslərin və təşkilatların siyahısı. |
| 2 | Sosial layihənin əsas məqsədinin müəyyənləşdirilməsi | Layihənin məqsədinin dəqiq formalaşdırılması |
| | Qoyulan məqsədə uyğun olaraq, sosial problemin həll edilməsi ilə bağlı konkret vəzifələrin müəyyənləşdirilməsi. | Qoyulan məqsədə nail olmaq üçün yerinə yetiriləcək vəzifələr siyahısı |

**Addım № 5. İş planının hazırlanması**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Layihənin məqsəd və vəzifələrinin həyata keçirilməsi ilə bağlı əsas tədbirlərin siyahısının müəyyənləşdirilməsi | Yazılı şəkildə tərtib edilmiş sənəd – iş planı |
| 2 | Layihənin hazırlıq və əsas tədbirlərinin həyata keçirilməsi vaxtının müəyyənləşdirilməsi | Planın həyata keçirilməsinin dəqiq plan cədvəli |

| | | |
|---|---|---|
| 3 | Planın hər bir bəndinin həyata keçirilməsinə cavabdeh olanların müəyyənləşdirilməsi | Planın hər bir bəndinin reallaşdırılmasına cavabdeh olanların siyahısı |
| 4 | Onların əldə olunması üçün zəruri ehtyatların və mənbələrin göstərilməsi | Onların əldə olunması üçün zəruri olan ehtiyat və mənbələrin siyahısı |

**Addım № 6. İş cədvəlinin hazırlanması**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Planın bütün bəndlərinin yerinə yetirilməsi cədvəlinin tərtib edilməsi | İşçi cədvəl |
| 2 | Cədvəlin tərtib edilməsi | İş cədvəlinin yazılı tərtibi |

**Addım № 7. Vəzifələrin müəyyənləşdirilməsi və komandada bölüşdürülməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Planın reallaşdırılması üçün zəruri olan vəzifələri müəyyənləşdirmək | Vəzifələr siyahısı |
| 2. | Hər bir vəzifənin əsas mahiyyətini təsvir etmək | Vəzifələrin təsviri |
| 3. | Layihənin reallaşdırılması ilə bilavasitə məşğul olan komanda üzvləri arasında vəzifələrin bölüşdürülməsi | Komanda üzvlərinin vəzifələrini göstərməklə siyahısının tərtib olunması |

**Addım № 8. Ehtiyatların və onların əldə olunması mənbələrinin müəyyənləşdirilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Zəruri ehtiyatların siyahısının tərtib edilməsi (maddi, maliyyə, insan) | Zəruri ehtiyatların siyahısı |
| 2. | Zəruri ehtiyatların həcminin müəyyən edilməsi | Ehtiyatların həcmini göstərməklə siyahısı |
| 3. | Ehtiyatları əldə etmə mənbələrinin siyahısının tərtib edilməsi | Hər növ ehtiyatın əldə edilməsi mənbələrinin siyahısı |

**Addım № 9. Büdcənin tərtib edilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Pul gəlirləri mənbələrinin müəyyənləşdirilməsi | Məbləği göstərməklə gəlir mənbələrinin siyahısı |
| 2 | Xərclərin siyahısının tərtib edilməsi | Güman edilən xərclərin məbləğinin siyahısı |
| 3 | Gəlir və xərclər arasındakı fərqi müəyyənləşdirmək | Defisitin (pul vəsaitinin çatışmazlığı) və profisitin (gəlirlərin xərclərdən çox olması) həcmini hesablamaq |

**Addım № 10. Layihənin qiymətləndirilməsi sisteminin hazırlanması**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Qiymətləndirməyə dair əsas meyarların müəyyən edilməsi | Əsas qiymətləndirmə meyarlarının siyahısı |
| 2 | Hər bir meyarın göstəricilərinin təsvir edilməsi | Göstəricilərin siyahısı |
| 3 | Hər bir göstəricinin qiymətləndirilməsi üsulunun təsviri | Qiymətləndirmə üsullarının siyahısı |

**Addım № 11. Komanda üzvlərinin təlimləndirilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Layihənin hər bir iştirakçısının vəzifələrini aydınlaşdırmaq | Layihə üzvlərinin hər birinin öz vəzifəsini dərk etməsi |
| 2 | Layihənin reallaşdırılması ilə məşğul olan komanda üzvlərinin təlimləndirilməsi | Zəruri və formalaşmış biliklər toplusu |

**Addım № 12. İctimai rəyin formalaşdırılması**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Sosial layihənin reallaşdırılması üçün əlverişli mühitin yaradılması | Təklif olunan layihənin mahiyyətinin ictimaiyyət və uyğun orqanlar tərəfindən başa düşülməsi |

## BÖLMƏ II. LAYİHƏNİN REALLAŞDIRILMASI

### Addım № 13. Layihə təkliflərinin tərtib edilməsi

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Sosial vəziyyət nəzərə alınmaqla tərtib edilən planın yenidən müzakirəsi | Planın reallaşdırılmasının son islahı |
| 2 | Layihə haqqında qısa xülasənin tərtib edilməsi | Layihə haqqında xülasə mətni |
| 3 | Müxtəlif təşkilatlarla layihənin birgə reallaşdırılması haqqında təkliflərin tərtib edilməsi | Birgə fəaliyyət haqqında təkliflər variantı |
| 4 | Birgə fəaliyyət haqqında müqavilə mətninin hazırlanması | Müqavilə variantları |

### Addım № 14. İşgüzar ortaqların axtarışı

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Layihənin reallaşdırılmasına kömək edə biləcək təşkilatların və şəxslərin siyahısının müəyyənləşdirilməsi | Təşkilat və şəxslərin siyahısı |
| 2 | Ehtimal edilən işgüzar ortaqlar haqqında informasiyanın toplanması | İşgüzar ortaqlar haqqında məlumat |
| 3 | Danışıqların ünvanının, telefonunun və nəzərdə tutulan vaxtının təyin edilməsi | Ətraflı məlumat |

### Addım № 15. Rəsmi danışıqların aparılması

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Layihənin reallaşdırılmasında hər bir ortağın işgüzar iştirakının müəyyənləşdirilməsi | Müqavilə mətni (şifahi müqavilə) |
| 2. | Əməkdaşlıq haqqında müqavilə imzalanması | İmzalanmış müqavilə mətni |

### Addım № 16. Zəruri ehtiyatların əldə edilməsi

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Layihənin reallaşdırılması üçün | Zəruri ehtiyatların planda qeyd |

| | | |
|---|---|---|
| | zəruri olan ehtiyatın vaxtında əldə edilməsi | olunmuş həcmdə və vaxtda əldə edilməsi |

**Addım № 17. Planlı tədbirlərin həyata keçirilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Layihənin reallaşdırılması ilə bağlı planda göstərilən tədbirlərin həyata keçirilməsi | Planın bütün bəndlərinin dəqiq və tam yerinə yetirilməsi |

**Addım № 18. Planın yerinə yetirilməsinin qiymətləndirilməsi və nəzarət edilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Keçirilən tədbirlərin kəmiyyət və keyfiyyət qiymətləndirilməsinin həyata keçirilməsi | Layihənin reallaşdırılması gedişi haqqında obyektiv təsəvvür |

**Addım № 19. Layihənin reallaşdırılması gedişinin islah edilməsi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1 | Plan tədbirlərin qiymətləndirilməsi və nəzarət edilməsinin nəticələri əsasında planın dəyişdirilməsi | Planın yeni (islah edilmiş) variantı |

## BÖLMƏ III. LAYİHƏ ÜZƏRİNDƏ İŞİN NƏTİCƏLƏRİ

**Addım № 20. Layihə üzərində işin nəticələrinin analizi**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | Qoyulan məqsədlərin təhlil edilməsi | Analitik materiallar |
| 2. | Nəticələrin qoyulan məqsədlə uyğunlaşdırılması | Layihə üzərində iş haqqında hesabat |

**Addım № 21. İşin nəticələri haqqında ictimaiyyətə məlumat vermək**

| № | Əsas vəzifələr | Gözlənilən nəticələr |
|---|---|---|
| 1. | KİV və dövlət orqanları vasitəsilə sosial layihə haqqında məlumat vermək | Yerli birliyin üzvlərinin təşkilatın işi haqqında təsəvvürləri |

Əksər hallarda layihələşdirmə kollektiv fəaliyyət, yaxud xüsusi (müddəti əvvəlcədən müəyyənləşdirilmiş) idarəetmə forması kimi çıxış edir. Bu zaman komanda üzvlərinin peşəkarlıq səviyyəsinə görə vəzifələri müəyyənləşdirilir və nəticələrin ümumiləşdirilməsi və qərar qəbulu prosesində hər bir üzvün fikri nəzərə alınır. Komanda ilə qərar qəbul etmə zərurəti aşağıdakılarla bağlıdır:

- Problemin yaradıcı həlli zərurəti yarandıqda;
- Bütün komanda məsələnin həlli ilə bağlı göstəricilər haqqında məlumatlı olduqda;
- Qərarın bütün komanda ilə birgə qəbul edilməsi zərurəti yarandıqda;
- Qərarın bütün komanda üzvləri tərəfində dərk edilməsi zərurəti yarandıqda;
- Problem mürəkkəb olduqda və onun həlli üçün hərtərəfli biliklər lazım olduqda;
- Menecer komanda üzvlərinin özlərini demokratik proseslərin tərkib hissəsi kimi hiss etmələrini və onların inamını qazanmaq istədikdə;
- Qərar qəbulunda komanda riskə gedərsə;
- Komanda üzvlərinin bir-birini daha yaxşı tanımaq ehtiyacı yarandıqda;
- Qərar qəbulu üçün yalnız komanda məsuliyyət daşıdıqda;
- Menecer öz ideya və planları haqqında komandanın rəyini öyrənmək istədikdə;
- Komandanın müzakirə üçün vaxtı olduqda;
- Komanda üzvləri üçün komandanın tərkib hissəsi olmaq xoş olduqda.

Təcrübi nümunə kimi təqdim edilən ***«Məktəblilərin sosial layihələşdirilməsi»*** mövzusunda layihə nümunəsi sosial layihələşdirmə prosesinə dair qeyd edilən standart fəaliyyət formasını əks etdirir.

***Məktəblilərin sosial layihələşdirilməsi***

***I. Sosial layihələşdirmənin məqsədi:***

- məktəblilərin diqqətinin lokal birliyin sosial problemlərinə yönəldilməsi;
- problemlərin şagirdlərin öz qüvvəsilə aradan qaldırılması məqsədilə yuxarı sinif şagirdlərinin real praktiki fəaliyyətə cəlb edilməsi.

***II. Sosial layihələşdirmənin əsas vəzifələri:***

- əldə edilən məlumat əsasında məktəblilərin ümumi mədəni səviyyəsinin yüksəldilməsi;
- birlik daxilində «ağıllı sosial davranış» bacarıqlarının formalaşdırılması;
- komandada işləmək bacarıqlarının möhkəmləndirilməsi;
- əhəmiyyətli sosial biliklər və bacarıqların təkmilləşdirilməsi (gələcək fəaliyyətin planlaşdırılması, zəruri ehtiyatların hesablanması, nəticələrin təhlili və s.).

Əsas vəzifə yerli birlikdə sosial vəziyyətin real təkmilləşdirilməsilə bağlıdır. Məktəblilərin şəxsi qüvvəsi əsasında hazırlanan və reallaşdırılan sosial layihə təşəbbüskarlıq xüsusiyyətinə malikdir. Məktəblilər sosial layihənin təşəbbüskarları kimi –

1.Lokal birliyin sosial problemlərindən birini müəyyənləşdirirlər;

2.Həmin problemin həll edilməsilə bağlı məqsəd və vəzifələrini təyin edirlər;

3.Layihənin reallaşdırılması üçün ilkin planı və zəruri materialları hazırlayırlar.

4.Şagirdlər şəxsən layihəni işləyib hazırlayırlar;

5.Ekspertiza aparılması, yaxud layihənin dəstəklənməsi məqsədilə problemlə maraqlı təşkilatlara müraciət edirlər;

6. Layihəni şagirdlər şəxsən reallaşdırırlar.

***III. Layihəyə qoyulan əsas tələblər***

1.**Məhdudiyyət** (zaman, məqsəd və vəzifələr, nəticələr və s. ilə bağlı) – nəticəsi dəqiq müəyyənləşdirilmiş mərhələlər əsasında layihənin reallaşdırılması gedişinə nəzarətlə bağlıdır. Layihənin məhdudluğu aşağıdakılarla bağlıdır:

- reallaşdırma mərhələləri və müddəti;
- dəqiq və ölçülə bilən məsələlər;
- konkret və ölçülə bilən nəticələr;
- işin yerinə yetirilməsi planı və cədvəli;

-layihənin reallaşdırılması üçün zəruri olan ehtiyatların konkret kəmiyyəti və keyfiyyəti.

2.**Tamlıq** – layihənin ümumi mahiyyəti məlumdur və onun hər bir hissəsi ümumi fikrə və nəzərdə tutulan nəticəyə uyğundur.

3.**Ardıcıllıq və əlaqəlilik** – bir-birinə uyğun olan və bir-birini əsaslandıran hissələrin məntiqi quruluşuna əsaslanır. Məqsəd və vəzifələr qoyulan problem əsasında müəyyənləşir. Büdcə ehtiyatların təsvirinə əsaslanır və plana uyğun qurulur.

4.**Obyektivlik və əsaslandırma** – layihənin ideyası və problemin həlli istiqamətlərinin seçilməsi təsadüfi olmayıb, müəlliflərin vəziyyətin dərk edilməsi və ona təsir etmə imkanlarının qiymətləndirilməsilə bağlı fəaliyyətinin nəticəsidir.

5. **Müəllifin və işçi heyətin səriştəliliyi** – müəlliflərin problemə uyğun məlumatlara, məsələnin həlli ilə bağlı vasitə və imkanlara malik olması, işçi heyətin layihənin reallaşdırılması texnologiyaları, forma və metodlarına yiyələnməsi əsasında müəyyənləşir.

6. **Həyat qabiliyyəti** – layihənin inkişaf perspektivlərinin, digər şəraitlərdə reallaşdırma imkanlarının müəyyənləşdirilməsinə yönəlir.

***IV. Sosial layihələrin işlənib hazırlanması texnologiyaları:***

1.Cari zamanda lokal birlik daxilində sosial vəziyyətlə bağlı ictimai rəyin öyrənilməsi;
2.Lokal birlikdə aktual olan sosial problemin müəyyənləşdirilməsi;
3.Sosial problemin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;
4.Layihə qrupunun real imkanlarının öyrənilməsi;
5.İş planının hazırlanması;
6.Planın reallaşdırılması cədvəlinin qurulması;
7.Layihə qrupunda vəzifə bölgüsünün müəyyənləşdirilməsi;
8.Maliyyələşdirmə ehtiyatlarının və mənbələrinin müəyyənləşdirilməsi;
9.Layihənin büdcəsinin tərtib edilməsi;
10.Layihə üzərində işin səmərəlilik səviyyəinin qiymətləndirilməsi sisteminin işlənib hazırlanması;
11.Layihə qrupunun üzvlərinin zəruri bilik və bacarıqlarla təlimləndirilməsi;
12.Lokal birlikdə ictimai rəyin formalaşdırılması.
13. Hazırlanmış layihələrə dair işgüzar təkliflərin tərtib edilməsi;
14.Layihənin reallaşdırılması üçün partnyorun axtarılması;
15.Real partnyorlarla rəsmi danışıqların aparılması;
16.Zəruri ehtiyatların əldə edilməsi;
17.Plan tədbirlərin keçirilməsi;
18.Planın yerinə yetirilməsinə nəzarət və qiymətləndirmə;
19.Layihənin reallaşdırılmasında korrektələr;
20.Layihə üzrə işin nəticələrinin analizi;
21.Layihənin nəticələri haqqında icimaiyyətin məlumatlandırılması.

1 – 12-ci mərhələlər sosial layihənin bilavasitə şagirdlərin qüvvəsilə hazırlanması və reallaşdırılmasına yönəlir.

13 – 19-cu mərhələlər hazırlanmış layihənin təşəbbüskar şagird qruplarının qüvvəsilə reallaşdırılmasını nəzərdə tutur.

20 – 21-ci mərhələlər sosial layihənin nəticələri üzərində görülən işi əks etdirir.

***V. Gözlənilən nəticələr***

1.Yuxarı sinif şagirdlərinin sosial fəallığının yüksəlməsi, onların lokal birliyin sosial vəziyyətinin təkmilləşdirilməsində şəxsi iştiraka hazırlığı;

2.Yerli idarəetmə orqanlarının şagirdlərin dəlillərini dinləməyə və sosial vəziyyətin təkmilləşdirilməsilə bağlı təkliflərini qəbul etməyə hazırlığı;

3.Yuxarı sinif şagirdlərinin lokal birlikdə sosial vəziyyətin dəyişdirilməsinə real köməkləri;

4.Şagirdlərin şüurunda müsbət dəyişiklik, şagirdlərin ümumi mədəni səviyyəsinin yüksəlməsi;

5.Layihə qrupunun üzvlərinin sosial əhəmiyyətli fəaliyyətlə bağlı kollektiv işləmək bacarıqlarının inkişafı;

6.İctimai rəyin dəyişməsi, lokal birlikdə sosial vəziyyətin təkmilləşdirilməsi məqsədilə sakinlərin praktik fəaliyyətə cəlb edilməsi.

***VI. Səciyyəvi səhvlər:***

- yuxar sinif şagirdlərinin sosial layihənin hazırlanması və reallaşdırılması texnologiyaları, iş haqqında məlumatsızlığı;
- yuxarı sinif şagirdlərinin öz qüvvələrini və layihə qrupunun imkanlarını həddindən artıq qiymətləndirməsi;
- şagirdlərin layihənin reallaşdırılması ilə bağlı fəayliyyəti davam etdirmədən «əsas» ideyanı elan etməsi, yəni təcrübi nəticələrin vaxtından əvvəl təyin edilməsi;
- təqdim olunan sosial layihənin maddi texniki və real maliyyə mənbələrinin olmaması.

Bu layihənin təxmini qrafik modeli aşağıdakı kimi qurula bilər.

Burada:

 - şagirdlərin sosial fəallığının mövcud vəziyyəti

 - şagirdlərin sosial fəallığının arzu edilən vəziyyəti

 - proqnozlaşdırılan proqramın sosial sahəsi



MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA QHT FORUMUNUN

**LAYİHƏ TƏKLİFİ FORMASI**

**1. LAYİHƏNİN ADI**

Layihənin adını aydın və dəqiq yazın.

**2. PROBLEMİN TƏSVİRİ**

Layihədə həllinə çalışmaq istədiyiniz problemi (məsələni) təsvir edin. Problemin Azərbaycan cəmiyyəti üçün aktual olduğunu əsaslandırın (məlumatın həcmi 1 səhifədən (A-4) çox olmamalıdır).

**3. LAYİHƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ**

Layihənin məqsədini və qarşıya qoyduğu vəzifələri göstərin.

**4. LAYİHƏDƏN FAYDALANANLAR**

Layihənin ünvanlandığı əhali qrupu haqqında məlumat verin.

**5. LAYİHƏNİN HƏYATA KEÇİRİLƏCƏYİ COĞRAFİ ƏRAZİ**

Layihə üzrə nəzərdə tutulan işlərin harada həyata keçiriləcəyini qeyd edin.

**6. LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR**

Layihə çərçivəsində göstərilən məsələnin həlli üçün hansı işlər görəcəyinizi ardıcıllıqla qeyd edin və hər bir fəaliyyətin qısa şərhini verin.

**7. LAYİHƏNİN İCRA MÜDDƏTİ və İCRA PLANI**

Layihənin əhatə etdiyi müddəti qeyd edin.

Layihənin icra planı ayrıca cədvəl şəklində tərtib edilərək, layihəyə əlavə olunmalıdır.

**8. GÖZLƏNİLƏN NƏTİCƏLƏR**

Layihənin icrasından əldə olunacaq konkret nəticələri qeyd edin. Layihə təsvir edilən problemin həllinə necə təsir edəcək?

**9. LAYİHƏNİN MONİTORİNQİ VƏ DAVAMLILIĞI**

Layihənin icrası və nəticələri haqqında ictimaiyyətin məlumatlandırılması və informasiya əldə etmək yollarını göstərin. Layihənin icrası başa çatdıqdan sonra onun davamlılığının təmin olunması istiqamətində görəcəyiniz işləri qeyd edin.

**10. LAYİHƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ HESABATLILIĞI**

Layihənin qiymətləndirmə meyarlarını və hesabatlılıq formalarını qeyd edin.

**11. BÜDCƏ**

Büdcə Şuranın təsdiq etdiyi təlimata uyğun tərtib olunmalı və layihəyə əlavə edilməlidir.

## YOXLAMA SUALLAR

1.Fərdi layihəyə qoyulan əsas tələblər hansılardır?
2.Fərdi layihə reallaşdırılarkən tədqiq olunan problemli vəziyyətlə bağlı mərhələli fəaliyyət hansı ardıcıllıqla yerinə yetirilməlidir?
3. Layihənin məqsəd və vəzifələri hansı əsaslarda müəyyənləşdirilir?
4.İşin nəticələri haqqında ictimaiyyətə məlumat vermək
5.Layihə üzərində işin nəticələrinin analizi necə aparılır?
6.Planlı tədbirlərin həyata keçirilməsi prosesi nəyi nəzərdə tutur?
7.Komanda ilə qərar qəbul etmə zərurəti nə ilə bağlıdır?

## REFERAT MÖVZULARI

1. Fərdi layihənin hazırlanması
2. Layihə üzərində işin nəticələri
3. Layihənin reallaşdırılması xüsusiyyətləri

# Р Е З Ю М Е

Современное человечество переживает следующий этап перехода к новым социальным отношениям. В отдельных странах локальный переход, смешивается с общемировым переходом к глобальной демократии. Новые глобальные отношения создают новые социальные, экологические, экономические, политические, социокультурные и т.д. проблемы, которые развивают чувство футурофобии у людей. Современный этап исторического развития отличается скоростью социальных изменений и требует найти средства выживания человечества. Мировое сообщество ищет новые пути выхода из сложившейся ситуации на научных основах, прогнозирует, планирует и проектирует свое будущее.

Прогнозирование и проектирование имеет глубокие корни: еще в первобытном обществе люди старались направлять ближайшее время, когда осуществляли религиозные обряды; все мировые религии носят идею о будущем; в античном мире формировались утопические идеи о лучшем, справедливом обществе; в средних веках и на Востоке и на Западе развивались идеи об утопическом обществе и т.д.

XX век отличается новым подходом к изучению, прогнозированию и проектированию социального развития. Отличаются глобалистический, альтернативистический, антифутурологический, футуросинергетический и т.д. подходы в изучении, прогнозировании и моделировании будущего. В XX1-ом веке информационные технологии расширяют возможности более точного прогнозирования и проектирования будущего развития человечества во всех сферах жизни.

Актуализируется преподавание и подготовка кадров по дисциплине социального прогнозирования и проектирования, в которой системно излагаются методологические основы, методы, технологии, типы прогнозов и социального прогнозирования, природа и сущность, теоретические основы и формы, технологические методы проектирования, основы и стадии подготовки индивидуальных проектов и т.д.

## SUMMARY

The modern humankind endures the next stage of transition to the new social relations. The local transition in the countries mixes up with the universal transition to the global democracy. New global relations create new social, ecological, economic, political, sociocultural etc. problems which develop feeling of future phobia at people. The modern stage of historical development differs with the speed of social changes and demands to find means of survival of humankind. The world community is in searche for the new solutions to the current situation by application of the scientific knowledge, predictions, planing and projecting the future.

Forecasting and projection has deep historical roots: in a primitive society people tried to direct the near future when performed of religious rituals; all world religions carry idea about the future; in antiquity there were formed utopian ideas about the better, fair society; in the Middle Ages both in the East and in the West ideas about an utopian society etc. had been developed.

The XX century differs by the new approach to studying, forecasting and projection of social development. In studying, forecasting and future modeling differ globalistics, alternativistics, antifuturological, futuresynergetics and etc. approaches. In XXI century an information technology expands the possibilities of the more exact forecasting and projection of the future development of the humankind in all spheres of life.

Teaching and professional training on discipline of social forecasting and projection have became requirement of the modern day. This book presents methodological bases, methods, technologies, types of forecasts and social forecasting, the nature and essence of projections, its theoretical bases and forms, technological methods, as well as the basis and stages of preparation of individual projects and etc.

Kitabın üz qabığındakı rəsm müasir dövrün görkəmli rəssamı **Chiris Draper**ə məxsusdur.

**Mətbəə müdiri:** *Əvəz İdrisoğlu*
**Dizayner:** *Vəfa Nağıyeva*
**Texniki redaktor:** *Şahin Abbasov*
*Ramin Abbasov*
**Korrektor:** *Şahin Salmanov*

*Çapa imzalanıb 12.06.2009-cu il*
*Sayı 500. Həcmi 18,25 çap vərəqi.*
*Format 60x84 1/16. Əla növ kağız.*

***AzTU-nun mətbəəsi. H.Cavid pr.25.***
***Tel.(+012)4539-14-52***
***E-mail: aztumetbee@yahoo.com***